İslam Bayramov

# DAĞLIQ QARABAĞ FİTNƏKARLIĞININ XANLARDAKI İZLƏRİ

( 1905 - 1994-cü illər)



**BAYRAMOV İSLAM ABDULLA OĞLU**

22 sentyabr 1952- ci ildə Ermənistan Respublikasının Amasiya rayonun İbiş kəndində müəllim ailəsində anadan olmuşdur. 1959- 1967 – ci illərdə İbiş kənd 8 illik məktəbində, 1967 – 1969 –cu illərdə Amasiya kənd orta məktəbində təhsil alaraq orta məktəbi bitirmişdir. 1969- cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinə daxil olmuş,1975-ci ildə həmin Universitetini bitirmişdir.1975- ci ildə Səhiyyə Nazirliyinin təyinatı ilə Xanar (indiki Göygöl ) rayonuna sanitar – epidemioloji stansiyaya həkim göndərilmiş, 1981- 1983 –cü illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi yanında Marksizm Leninzm Univesitetinin qiyabi təbliğatçı fakültəsinin tarix bölümündə təhsil almış , 1983-cü ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1984-cü ilin iyunundan Xanlar rayon Profilaktiki Dezinfeksiya Şöbəsinə müdir təyin edilmiş,1990-cı ilin mart ayından Xanlar Mərkəzi Rayon Xəstəxanası baş həkiminin əhaliyə tibbi xidmət üzrə müavini təyin edilmişdir.1997- ci ilin aprel ayından Göygöl Mərkəzi Rayon Xəstəxanasının tibbi statistika kabinetinin müdiri vəzifəsində işləyir.1978-ci ildə Leninqrad Dövlət Həkimləri Təkmilləşdirmə İnsitiutunda kənd yerlərinin səhiyyəsi, 1991- cı ildə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda səhiyyənin təşkili və idarə edilməsi üzrə təkmilləşdirmə kurslarında olmuşdur.1978-ci ildə Mərkəzi rayon Xəstəxanası ilk komsomol təşkilatının katibi, 1984- cü ildən 1991- ci ilədək ilk partiya təşkilatının katibi seçilmişdir.

1979-cu ildə Xanlar rayon xalq məhkəməsinin xalq iclasçısı və xalq iclasçıları şurasının sədri seçilmiş, 1980 -1991-ci illərd Xanlar rayon xalq məhkəməsi hakiminin əvəzedicisi olmuşdur.1 dekabr 1989-cu ildən 2004–cü ilədək Xanlar rayon Qızıl Aypara Cəmiyyətinin sədri işləmişdir. I Qarabağ müharibəsinin veteranıdır. 1988- 1994 –cü illərdə təsvir edilən hadisələrin bir çoxunun iştirakşısı olmuşdur.

# DAĞLIQ QARABAĞ VƏ ONUN ƏTRAFINDAKI HADİSƏLƏRƏ QISA BİR NƏZƏR

*1988-ci ilin fevralın 21-də Xanlara xəbər yayıldı ki , gecə Gəncə, Xanlar və ətraf rayonların milis işçilərini Stepanakertə ezam etmişlər. Səbəb isə indiyədək Sovet hökumətində millətlərarası münasibətlər praktikasında görünməmiş bir məsələnin baş verməsidir. Stepanakertdə mitinqlər keçirilmiş , fevralın 20-də Dağlıq Qarabağ Muxtar Vilayəti Sovetinin deputatları müracıət qəbul edib, Azərbaycan SSR-in və Ermənistan SSR-in Ali Sovetlərindən DQMV-ni Azərbaycanın tərkibindən Ermənistanın tərkibinə verməyi, SSRİ Ali Sovetindən bu məsələyə baxmağı xahiş etmişlər.*

*22 -23 fevralda respublika qəzetləri fevralın 22-də Stepanakertdə vilayət partiya fəallarının yığıncağının olması və yığıncağın qətnaməsi barədə rəsmi məlumat çap etdilər.Sonrakı günlər - fevralın 23-də DQMV Partiya Komitəsinin Plenumu , Plenumun Boris Gevorkovu birinci katib vəzifəsindən azad etməsi , Henrix Poğosyanın birinci katib seçilməsı haqqında rəsmi materiallar ,27 fevralda Sov.İKP- nin baş katibi M.S.Qorbaçovun Azərbaycan və Ermənistan zəhmətkeşlərinə, xalqlarına müraciəti çap edildi .*

*Ancaq o dövrdə sovet qayda-qanunlarına uyğun olaraq rəsmi materiallardan başqa heç bir məlumat , hadisələrin geniş izahı, işıqlandırılması olmadı. Deyəsən, bütün səviyyələrdəki rəhbərliklər üçün də uzun muddət amirənəlik şəraitində işlyib , belə bir şeylə rastlamadıqları onları çıxılmaz vəziyyətdə qoymuşdu.*

*Elə bu günlərdə xəbər yayıldı ki, Ermənistanın Qafan rayonunda (əslində Qafan da Zəngəzurun bir hissəsi olmaqla Ermənistana 1920-ci illərdə verilmişdi) Azərbaycanlılara hücumlar edilmiş, adamlar öz evlərini tərk edərək Azərbaycana üz tutmuş, əsasən də Sumqayıt şəhərində qohumlarının yanına gəlmişdilər. Ermənistanda hər yerdə güclü mitinqlər başlamışdı. Lakin Ermənistandan fərqli olaraq Azərbaycanda mətbuat və televiziya susur ,heç bir informasiya verilmir ,geniş əhali kutləsi məlumatlandırılmırdı. Nəhayət , bu xəbərlərdən 2-3 gün sonra gecə saat 10-da Az.TV Qafandan olan, Bakıda təhsil alan bir neçə tələbəni efirə çıxardı.Onlar da ənənəyə sadiq qalaraq Qafanda heç bir şey baş vermədiyini , hər şeyin şaiyə və yalan olduğunu təkrarlayib ,beynəlmililəlçilikdən danışdılar. Lakin artıq gərgınlik yaranmış , Azərbaycanın da şəhər və rayonlarında da mitinqlər olmağa başlamışdi. 28-29 fevralda Sumqayıt şəhərində də mitinqlər olmuş , sonra isə faciələr baş vermişdi. Lakin o dövrdə nə respublikanın partiya orqanları , nə də mətbuatı bu hadisələrin nə hadisələr olduğunu təhlil edib, nə əhaliyə nə də özündən yuxarı orqanlara çatdıra bilmədilər.Ənənəvi beynəlmiləlçilikdən , ermənilərlə ömür-gün qonşusu olmaqdan, onların kirvə və doğma olmalarından, Sumqayıtda nümayişə çıxanların isə əsl fəhlələr deyil, yalan şaiyələrə aldanmış hələ yetkinləşməmiş yeniyetmələrin olması fikirlərini təkrarlamaqdan irəli gedə bilmədilər.*

*Sumqayıt hadisələrinin ilk tutarlı və təhlili cavabını akademik Ziya Bunyadov "Nə üçün Sumqayıt?" təhlili məqaləsi ilə verdi . Məqalə "ELM" qəzetinin 13 may 1989-cu il 19-cu N-də çap edildi. Bu məqalə cox adamın gözünü açdı , o vaxtadək gizli saxlanılan mətləblərdən xəbər verdi .Demə, tarix təkrarlanırmış. Həmin günlərdə Azərbaycanın bir çox yerlərində olduğu kimi indiki Göygöl (keçmiş Xanlar )şəhərində də mitinqlər oldu. 27 -28- 29 fevral tarixlərində Kirov küşəsi ( indiki Heydər Əliyev prospekti) cavan uşaqlarla*

*dolu idi. Onlar haradansa toplanır, izdiham getdikcə böyüyürdü .İzdiham o vaxtkı icraiyyə komitəsinin binası qarşısına doğru irəliləyirdi.*
*Belə şəraitdə rayonun o vaxtkı birinci katibinin göstərişi ilə raykomdan verilən tapşırığa əsasən bütün rəhbər işçilər, ağsaqqallar icraiyyə komitəsinin binası qarşısına gəlməyə başladılar. Mitinqin kim tərəfindən təşkil edildiyi məlum deyildi. Orada iştirak edənlərin də çoxunu tanımaq olmurdu. Bu əsnada tikinti trestinin rəisi olan Aram Karapetyan bir sarı rəngli 418 markalı " Moskviç"avtomaşınında icraiyyə komitəsinə gəldi .O günlər bu hadisələrə həsr edilmiş yığıncaqların birində belə bir məsələ olmuşdu ki, Xanlarda olan vəzifəli ermənilərin adı yazılan və "Qarabağ "komitəsinə üzvlük haqqı və ianə yıgmaq üçün olan bir siyahı tapılmışdır . Lakin yığıncaqda erməniləri müdafiə edərək onu da demişdilər ki, guya bu şəxslər "əsl kommunistlərdir" və onların heç birinin imzası həmin siyahıda yoxdur. Həmin siyahıya Aram KARAPETYAN başçılıq edirdi. Odur ki, o maşından düşən kimi mitinqçilər ona hücum etdilər. Lakin milislər və ispalkomun işçilərinin köməyi ilə onu icraiyyə komitəsinin giriş qapısindan içəri keçirə bildilər. Amma maşına hücum edənlər, onu götürüb icraiyyə komitəsinin qarşısından keçən su arxına atdılar. Milislər mitinqçiləri xırda dəstələrə bölərək univermağa doğru, küçə başaşağı , yaxınlıqdakı döngələrə doğru sıxışdıraraq parçaladılar. Hər dəstənin yanına rayonun vəzifəli şəxslərindən birini göndərdilər ki, onları dilə tutub dağıtsınlar. O illərdə mən xalq məhkəməsinin xalq iclasçısı, məhkəmənin sədrinin əvəzedicisi idim. Rayon prokurorunun köməkçisi Kərim Məmmədovla məni Univermağa doğru sıxışdırılan dəstənin yanına göndərdilər. Biz bir az yuxarı aralanandan sonra Kərim müəllim uşaqları yaxına dəvət edib bir az söhbət aparandan sonra ,uşaqlardan onu tanıyıb,tanımadıqlarını soruşdu. Bildirdi ki ,mən prokurorun köməkçisiyəm . Qorxmayın,mənim Sizə dediyim sözlərə də əhəmiyyət verməyin .Geri qayıdın və mitinqi davam etdirin. Birinci gün mitinq belə bitdi. 2-ci və 3-cü günlər bir az zəif şəkildə davam etdi.Mitinqin 2-ci günü A.Karapetyanın Telman küçəsindəki (indiki M. Rəsulzadə küçəsi) evinə hücum edib, rəngli televizorunu evdən çıxararaq küçədəki su arxına tulladılar.Düz mart ayının 22-nə kimi Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrdən heç bir yerdə heç bir informasiya vermədilər. Nəhayət, martın 22-də "Pravda" qəzetində "Emosiyalar və ağıl", İzvestiya qəzetində "Ağılın əleyhinə", 24 martda İzvestiya qəzetində "Mitinqdən sonra olan görüşlər" adlı məqalələr çıxdı. Respublika mətbuatı isə tam susmuşdu. Bu məqalələrdə hadisələr müəyyən qədər verilir, lakin birtərəfliliyi ilə fərqlənir, elə təsəvvür yaradılırdı ki, baş verənlərdə hər iki tərəf günahkardır.Dağlıq Qarabağda mitinqlərə səbəb - onlara ögey gözlə baxılması olmuşdur.Fevralın 20-dən iki həftə ərzində Stepanakertdə aravermədən mitinqlər gedir,Yerevanda da onları müdafiə mitinqləri keçirilirdi. Hətta martın 19-da Yerevanda "Kino evində" "Qarabağ" komitəsinin 8 saat çəkən yığıncağı keçirilmişdi. Natiqləri 700 nəfər zalda, 3000 nəfər zaldan kənarda səsgücləndiricilər vasitəsi ilə dinləyirdi. Onlar Ermənistanın hər bir müəsissə və təşkilatında mitinq keçirməyi , partiya və həmkarlar təşkilatlarının rəhbərlərini yenidən seçməyi, Yerevanı ölü şəhər elan etməyi,evdən bayıra çıxmamağı, aclıq elan etməyi, Ermənistanı "partiyasız"respublika elan etməyi məsləhət görürdülər.Mitinqlərdə Zori Balayan, Silva Kaputikiyan ,Sero Xanzadyan kimi yazıçılar və*

*digərləri çıxış edirdilər. Martın 28-dən yenidən Stepanakertdə mitinq dalğaları başladı.Bu mitinqlər düz aprelin 5-nə kimi davam etdi. Artıq martın birinci ongünlüyündə Ermәmıstanın Qafan ,Dilican, İcevan, Spitak və başqa rayonlarında yaşayan azərbaycanlılar qruplarla Azərbaycan ərazisinə gəlirdilər.*

*Onlar Bakı, Sumqayıt,Abşeron, İmişli, Zəngilan ərazisinə gəlmişdilər. Həmin günlərdə Spitak rayonundan bir dəstə Xanlar şəhərinə 20-ci məhəlləyə gəlmişdilər .Lakin o vaxt respublika mətbuatı israrla belə bir fikri beyinlərə yeritməyə çalışırdı ki, "gələnlər həqiqətə uyğun olmayan müxtəlif şaiyələrin, cəfəng uydurmaların istər-istəməz daşıyıcılarıdır."*

*Yerli əhali də hadisələrdən xəbərsiz, televiziya və mətbuatın məlumatlarına uyaraq həmin fikirləri təkrar edirdilər.*

*Martın 23-də SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri A.Qromıkonun sədrliyi ilə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin iclası olmuş, Ali Sovetinin Rəyasət Heyəti müttəfiq respublikaların Ali Sovetlərinin müraciətlərini və SSRİ Konsititusiyasının 81-ci maddəsinə əsasən milli dövlət sərhədlərinin və milli inzibati ərazi sərhədlərinin dəyidirilməsini yolverilməz saymışdı.*

*Lakin Stepanakertdə 23 martdan başlayan mitinqlər 15 maya kimi davam edir, Yerevanda isə onları müdafiə mitinqləri keçirilirdi. Hənmin dövrdə atrıq Azərbaycana 3 minə yaxın azərbaycanlı qaçqın gəlmişdi. Gərginlik beləcə davam edirdi.*

*1988-ci ilin mayın 11-də Ararat (Vedi) rayonun Şirazlı kəndində ermənilər tərəfindən 16 ev dağıdılmış, 2 ev və 1 avtomaşın yandırılmışdı. Bundan sonra kəndin 210 ailəsi ( 880 nəfər ) 4 ay ərzində açıq səma altında sərhəd zonasında Araz çayının sahilində qalmışdı. Şirazlı kəndinin sakinləri Moskvanın direktiv orqanlarına şikayət etmişdilər. Yazıçı Fərman Kərimzadə kabinetləri birər - birər gəzmişdi .Artıq kabinetlərdə oturanlar onu tanıyır "vaş usatıy pisatel" deyirdilər. Lakin basqınçılar haqqında heç bir tədbir görülmədi. Bu faciəli hadisələrdə nəinki rayonların rəhbərləri ,hətta Ermənistanın məsul işçiləri, məsələn , Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Arutunyan da iştirak etmişdi.*

*Bununla əlaqədar mayın 16-da və 18-də Bakıda gənclərin ,tələbələrin, ziyalıların nümayəndələrinin mitinqi keçrildi.*

*Mayın 17-də AZ.TV-də 16 may mitinqlərindən 10 dəqiqəlik süjetlər verdi. Bütün bunlara baxmayaraq Azərbaycanın yuxarı rəhbərliyi, eləcə də rayonlardakı rəhbərlik beynəlminəlcilikdən, Azərbaycan və erməni xalqlarının bundan sonrada dostluğuna xələl gəlməyəcəyindən, onun möhkəmləndirməsindən danışırdılar.*

*<u>Həmin günlərdən iki epizod.</u> Martın sonlarında məni raykom tərəfindən Çaykəndəki iki məktəbin partiya üzvlərinin üzvlük haqqlarının verilməsi vəziyyətini yoxlamağa göndərmişdilər. Səkkizillik məktəbin üzvlük haqqlarını yoxlayarkən içəridən bayırda səs -küy eşidib yoxlamanı dayandırdım, bu zaman məni işlədiyim idarənin sürücüsü icəri girib dedi ki, burada qalmaq təhlükəlidir. Bir neçə nəfər erməni əvvəlcə UAZ-469-u dərəyə yuvarlamaq istədi, bir neçəsi isə əldəqayırma yandırıcı maddəni atıb maşının yandırmaq istəyirdi, yaxınlıqdaki bir neçə erməni ağsaqqalarının işə qarışması onlara əməllərini yerinə yetirməyə imkan vermədi.Yoxlamanı birtəhər başa vurub Xanlara qayıtdıq.*

*Aprel ayında rayon partiya komitəsinin göstərişi ilə Xanların bütün idarə və təşkilatları Çaykənd, Azad və Martunaşen kəndlərində kartof əkini üçün göndərilmişdi . Bir gün işdən qayıdarkən saat 16 radələri idi. Çaykəndə çatmağa bir iki kilometr qalırdı. Qarşımıza əks istiqamətdən qələn Sarısu kəndinə məxsus olan bir QAZ-53 markalı avtomaşın işıq siqnalı verərək, avtobusu saxlatdırdı bildirdi ki, Çaykəndin içərisində sizdən əvvəlki avtobusu daş-qalaq etdillər.Bir az ehtiyatlı olun.*

*Fikir məni götürdü : avtobusda 30-a yaxın qadın var idi. Kişilər isə - avtobusun sürücüsü, bizim idarənin sürücüsü və məndən ibarət idi.Əgər bir hadisə baş versə idi mən bu 30 ailəyə nə cavab verəçəkdim? Xoşbəxtlikdən ciddi bir hadisə baş vermədi, yalnız Çaykəndin dar və dolanbac yolarında avtobusumuza yol verməmək,uşaqların avtobusa daş atmaq cəhdlərindən və bir də böyüklərin canavar baxışlardan başqa.*

*Mayın 23-dən DQMV-də başlayan mitinqlər dalğası iyunun 25-nə qədər davam edirdi. İyunun 21-də Dağlıq Qarabağ xalq deputatlar soveti yenidən SSRİ Ali Sovetinin Rəyasət Heyətinə müraciyət edərək DQMV-nin gələcək statusunu müəyyənləşdirən*

*son qərar verilənəcən vilayətin müvvəqəti olaraq SSRİ hökümətinə tabe olması bəradə qərar verməyi xahiş etmişdi.*

*İyulun 12-də DQMV-nın xalq deputatlar soveti DQMV-nın Azərbaycan SSR-nin tərkibindən çıxması haqqında qərar qəbul etmişdi .*

*İyulun 18-nə SSRİ Ali Sovetinin Rəyasət Heyətinin iclası təyin olunmuşdu . İyulun 18-i yaxınlaşdıqca Stepanakertdə və Yerevanda vəziyyət get-gedə gərqinləşirdi.18 iyulda Kremldə SSRİ Ali Sovetinin Rəyasət Heyətində məsələyə baxıldı. Ermənistan tərəfindən çıxış edən bütün natiqlər aqresivliyi ilə , Azərbaycandan çıxış edənlər isə "beynəlmiləlçi ilə yadda qalmışdı". Erm. SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri Q.Voskanyan çıxışında Dağlıq Qarabağın, Naxçıvanın və Zəngəzurun Ermənistanın tərkib hissəsi olduğunu, DQMV-nin partiya komitəsinin birinci katibi H.Poğosyanın Daqlığ Qarabağın erməni torpaqları olduğunu , Erm. SSR Elmlər Akademiyası Prezidenti Viktor Ambarsumyanın Azərbaycanın tərkibindən çıxma haqqında qərar qəbul edən DQMV əhalisinin tərəfində olduğunu və kompromisə getmək lazım olduğunu, SSRİ Yazıçılar İttifaqı idarə heyyətinin katibi V.Petrosyanın "Sumqayıtda genosid" törədildiyinin deməklərinin şahidi olduq . Dağıstan şairi Rəsul Həmzətov hər iki tərəfə yozulan çıxışı ilə yadda qaldı. İyul ayından*

*sonra da, nə Yerevanda nə də Stepanakertdə mitinqlər ara vermirdi.Artiıq avqust ayında Azərbaycanda Ermənistandan gəlmiş 13 min nəfər qacqın var idi. Onlar ölkənin 45 şəhər və rayonuna səpələnmişdilər. Nəhayət, ev dəyişdirilməsinə icazə verilmiş, 883 ailə dəyişdirdiyi mənzillərə köcürülmüşdü.*

***HAŞİYƏ.*** *İyun ayında Ermənistanın Amasiya rayonunda birinci katib İldırım Bağırova qarşı "Qarabağ" komitəsi tərəfindən sui-qəsd edilmiş , rayonda azərbaycanlı əhali katibin tərəıfində durmuş ,bir həftə sərhəd zonasında mitinqlər davam etmiş ,bundan sonra rayonda köçmək əhval- ruhiyyəsi baş qaldırmışdı .*

*Həmin günlərdə atam və qaynım Tariyel müəllim Xanlara gəlib, evlərini dəyişmək istədilər. Sənədləri lazımınca tərtib edib, Xanlar rayon İcraiyyə Komitəsinə verdim. İcraiyyə Komitəsinin sədri Şelunts familiyalı bir erməni idi. Daşkəsən rayon partiya komitəsinin*

***ikinci katibi vəzifəsindən buraya az bir müddət olardı ki, gəlmişdi. Sənədləri könülsüz götürüb bir aydan sonra gəlməyimizi dedi. Bir ay gözlədim, bir xəbər çıxmadı.***

***Bir gün sənədlərin dalınca getdim. Sənədlərin onda olmadığını dedi və oturduğu stolun siyirmələrini qurdalamağa başladı. Belə olduqda mən də ona kömək edib ,həm də kənardan sənədləri nəzərdən keçirirdim .Birdən axırıncı siyirmədən çıxan sənədlərin içərisində atamın xəttini tanıdım. Sənədləri götürüb uzaq bir küncə tullamış ,baxılmağa verməmişdi. Sənədləri ondan götürüb sədr müavini Asəf Məmmədova təqdim etdim.Bu halda onu da başa düşmək olardı , vəzifəyə təzə gəlmişdi, əldən vermək istəmirdi, həm də evlərin dəyişdirilməsi ürəyincə deyildı. Ancaq nə edəsən.......***

***Noyabr ayında tətillər ,mitinqlərin ,gərginliyin yeni mərhələsi başlandı. Ermənilər Yerevanda ,Stepanakertdə Ermənistanın digər şəhər və rayonlarında tətillər,***

***mitinqlər keçirməklə birlikdə digər fitnəkarlığa da əl atmışdılar.Topxana meşəsində Yerevanın Kənəkir alüminium zavodunun filialını tikmək istəyirdilər.Bu xəbər Azərbaycanda böyük əks-səda yaratdı. Noyabrın 17-də Bakının Lenin (indiki Azadlıq) meydanında başlayan mitinqlər düz fasiləsiz olaraq dekabrın 5-dək davam etdi.***

***Bakının baş meydanında insan əlindən tərpənmək mümkün deyildi.Mitinqlər gecə-gündüz aramsız davam edirdi.Noyabrın axırlarında meydana toplaşanların sayı bir milyona çatırdı. Erməni milliyətçilərinin məsuliyyətsiz hərəkətləri,SSRİ Konstitusiyasının kobudcasına pozulması, Ermənistanda yaşayan on minlərlə azərbaycanlıların qarlı-şaxtalı günlərdə yurdlarından didərgin salınıb müsibətlərə düçar edilməsi , DQMV-nin rəhbərlərinin respublikamızın qanuni hüquqlarını saymamazlığı ,daşnak zəhəri ilə iki xalq arasında nifaq toxumu səpilməsi, səlahiyyətli dairələrin millətçi ünsürlərin, ekstremistlərin adlarını və ünvanlarını dəqiq bildikləri halda , nədənsə özlərini eşitməməzliyə və görməməzliyə vurmaları,üstəlik mərkəzi mətbuatdakı bəzi çıxışların, hadisələrin obyektivcəsinə işıqlandırmaq əvəzinə, daha da alovlandırılması ,respublika rəhbərliyinin təslimciliyi ,susmaq siyasəti yeritməsi , kimlərəsə xoş gəlmək naminə torpağımızdan “pay,bəxşiş ”vermələri camaatın bu geniş meydana yığılıb***

***gəlməsinə səbəb olmuşdu. Elə o gündən də 17 NOYABR Azərbaycan xalqının Dirçəliş günü bayramı kimi qeyd olunur.***

***Noyabrın 21-də Gəncə ( o vaxtkı Kirovabad) ermənilərin şəhərin 2-ci hissəsi deyilən hissəsində etdikləri fitnəkarlığa görə , rus ordusu ilə şəhər əhalisi arasında toqquşma olmuşdu. Mitinqlərdən sonra əhali şəhər partiya komitəsinə hücum edib qapı pəncərələri sındırmış , 1-ci mərtəbəni yandırmışdılar. Şəhər partiya komitəsinin katibi R.Bağırlı Gəncədən qaçmışdı.***

***Həmin günlərdə Qızılqaya qəsəbəsində yaşayan bibim qızı Şaygül zəng vurub bildirdi ki,hadisələrin kəskinləşməsi ilə əlaqədar şəhərin 2-ci hissəsində yaşayan Eyyub dayım (onun dayısı, mənimsə əmim) onlarda qalırmış , səhər tezdən evindən hali olmaq üçün getmiş ,geri qayıtmamışdır. Sonradan məlum oldu ki, erməni ekstremistləri şəhərin 2-ci hissəsində əllərinə keçən bütün azərbaycanlıları ( 60 nəfərdən artıq ) yığıb erməni kilsəsinə aparmış ,rus əskərlərinin gözü qarşısında ciblərini soymuş, bütün gecəni saxlamış ,səhərisi gün şəhər ictimaiyyətinin işə qarışması nəticəsində onları buraxmışdılar. Həmin hadisədə***

*Ermənistandan qapı bir qoşumuz olan Cahangir kişini də kilsəyə aparmışdılar.Noyabrın 28-də bibim qızının həyat yoldaşı Rakiflə əmimin evinə baxmağı qərara aldıq. Mənim idarəyə məxsus olan maşınımla Gülüstan qəsəbəsində postda duran rus əskərlərini keçdikdən sonra , hiss etdik ki, ermənilər küçələrdə qar-qar qaynaşır.*
*Maşınla bir azca da getdikdən sonra , sürücümüz Allahverdi həyacanla bildirdi ki, bir az da irəli getsək üçümüzü də , maşını da girov götürəcəklər.Odur ki ,geri qayıdası olduq. Piyada getməyə cəhd etdik. Bu cəhdimiz də baş tutmadı . Bu zaman aşağıdan uçan bir vertalyot gördük. Vertalyot avtozavod səmtlərinə yaxın bir yerə düşdü.Bir göz qırpımında bütün ermənilərin ora axışdığının şahidi olduq.Dedilər ki ,bu gələn İqor Muradyandır . O, həmin gün ermənilri mitinqə təhrik edib, milli hisslərlə oynadı. Səhərisi gün noyabrın 29-da Rakiflə birlikdə Üçtəpə yolu ilə şəhər partiya komitəsinə getdik. Orada rəhbərlikdən heç kəs yox idi. İctimai rəhbərliyi Mürşüd Məmmədov öz üzərinə götürmüşdü. Ona müraciət edib , vəziyyəti bildirdik.*
*Bizi şəhər DTK-sına ,sonra indiki 777 N-li hərbi hissəyə göndərdilər.Nəhayət, saat 15.00 radələrində sarı rəngli bir PAZ markalı avtobusda, qabaq və dal cərgələrdə oturan 8 nəfər əskərin , bir ədəd BTR–in tam heyəti ilə şəhərin 2-ci hissəsinə yollandıq. Gedənlər, kimi sənədini , kimi pulunu götürməyə , kimi evinin vəziyyəti ilə tanış olmağa gedirdi. Marşrut ünvanlara görə düzülmüşdü. Hər bir ünvanda avtobus dayananda əskərlərin avtobusu və düşənləri mühasirə etməsinə baxmayaraq , əllərində şiş uclu dəmirlər, ov tüfəngləri, məftillər olan ermənilər bizə hücum edir, sanki avtobusu yerindən götürüb çevirmək istəyirdilər. Hər dayanacaqda bu təkrar olunurdu.Əskərlər havaya atəş açıb aranı sakitləşdirirdilər. Bu günki kimi yadımdadır, avtobusa minəndə bir "Bakı"( axşam ) qəzeti almışdım. Vaxt getsin deyə onu əl boyda büküb, oxuyurdum, bu zaman Rakif mənə irad tutdu ki, qəzeti oxuma.Səbəbini soruşduqda, bildirdi ki, bu dəfə avtobus dayananda ermənilər bir başa bizim üstümüzə hücum edəcəklər.(Biz qabaq qapının yaxınlığında birinci oturacaqda oturmuşduq). Axır ki, gəlib Qırmızı qəsəbəyə gedən dikin üstəki yola çıxdıq .Burada böyük və iri gövdəli bir çinarı dibindən kəsib məktəbin qabağında yola uzatmışdılar. Bizim də baxmaq istədiyimiz ev burada idi. BTR-in və avtobusun orada dönüb geri qayıda bilməyəcəyi səbəbindən , dikin başından avtobusdan evin damına baxdıq, zədələnmə əlamətləri yox idi. Ona görə geri qayıtmağa razılıq verdik. Həmin günlərdə Ermənistandan olan azərbaycanlılartam deportasiya edilmiş ,onların bir qismi Xanlara gəlmişdi.*
*Lakin onlar rayon ərazisinə buraxılmırdı ,rayonda komendant saatı elan edilmişdi.Əlacsız qalan didərginlər Qazax-Bakı yolunda əllərinə keçən ev əşyalarından özlərinə sığınacaq düzəltmiş , elə orada da gecələyirdilər.*
*1988-ci ilin dekabrın 4-dən 1989-cu ilin sonlarınadək rayonda xüsisi vəziyyət elan olunmaqla komendant saatı tətbiq edilmişdi.Əhali bir il müddətində komendant saatı şəraitində yaşamağa məcbur olmuşdu.Buna baxmayaraq baş verənlərə etiraz olaraq bir neçə dəfə rayon partiya komitəsi qarşısında nümayişlər olmuş, rayon partiya komitəsi muhasirəyə alımmışdı. Nümayişlərə o vaxt rayonun Səfərəliyev hıssəsindən olan Səfərəliyev tədarük idarəsını müdiri Vaqif Hüseynov başçılıq etmişdi.*

*1988-ci ilin iyulundan Sov.İKP-nin şöbə müdiri Arkadi Volskini mərkəzin DQMV-də nümayəndəsi təyin etmişdilər. DQMV-dən xalq deputatı seçmişdilər.1989-cu ilin yanvarında isə onu DQMV xusisi idarə komitəsinin sədri təyin etdilər.*
*Onun necə işləməsinə bariz bir misal Zori Balayanın ona bağışladığı"YOL"adlı kitabına yazdığı avtoqrafdı "Doroqomu Arkadi Volskomu - Karabaxskomu". 1989-cu ilin ortalarından Çaykənddə yaşayan ermənilər rayonla əlaqəni tamamilə kəsdilər.1990-cı ilin ortalarında Çaykənddə obyektləri olan bütün idarələrin müdirlərini və və məsul şəxslərinin əskərlərin müşayəti ilə Çaykəndə göndərmiıdilər.O vaxtki baş həkim Aslan Məmmədov , mən, mexanikimiz Suliddin Məmmədov, həmkarlar təşkilatının sədri Loğman Kazımov təcili yardım maşını ilə bir nəfər balaca boy bir eston millətindən olan əskərin müşayəti ilə xəstəxanaya getdik. Xəstəxananın baş həkimi Sarkis Akopkexovyan bizi xəstəxananın kandarında qarşıladı. Bu anda bizdən 10-15 metr uzaqlıqda kimlərsə xəstəxananın yaxınlığına toplaımağa başladı. Bunlardan biri Gürcüyan familiyalı bir erməni idi. O əvvəllər məktəb direktoru işləmişdi, hazırda Çaykənddə "Qarabağ" komitəsinə başçılıq edirdi . Çaykəndin " başbilənlərindən" idi. Toplaşanların gözlərindəki işıltı indiyədək hafizəmdədir. S.Akopkexovyan onların gəlməsindən həyəcanlanıb qorxuya düşmüşdü. Dodaqları bizimlə danışırdı, gözləri isə onlarda qalmışdı .Onun həyəcanı bizə də keçmişdi. Xalq arasında belə bir deyim var: "Tüklərim biz-biz oldu", yaxud da " Saçlarım dik durdu". Bunu sözlə təsvir etmək həmin effekti vermir .Sözün əsl mənasında o anda bu hissləri mən öz üzərimdə hiss etdim. Mənə elə gəldi ki, saçlarımın tükləri dimdik qalxıb harasa yüksəlir. Çox həyəcanlı anlar idi. Aslan Məmmədov soruşandaki niyə maaş almaq istəmirsiniz , nə üçün əlaqə saxlamırsınız? O,cavab verdi ki , hələ bilmirlər hara tabedirlər , birdəki bizim heç nəyimiz onlara lazım deyil. Xəstəxana dərmanla doludur.*
*Bu anlarda əskər tufəngini əlində hazır saxlamış, hər baş verə biləcək təhlukəyə qarşı hazır durmuşdu .Söhbəti bitirib əskərin müşayəti ilə kəndin çıxacağına yaxın sovxozun idarə binasına qayıtdıq. Buraya bütün " başbilənlər" toplaşmışdı .O vaxtlar sovxozun direktoru Marutyan familiyalı millətçi bir erməni idi. Uzun müddət Vardenis (Basarkeçər) rayonunda işləmiş ,hadisələr başlayanda Çaykəndə qayıtmışdı. İndi isə o başda oturmuş, ətrafına da xeyli erməni yığılmışdı. Ağbaş bir erməni idi.Deyirdilər ki, Çaykənd hadisələrinə o başçılıq edir. Bizimlə Xanlardan gələnlərdən hələ heç kim gəlib çıxmamışdı. Divardan asılmış bir təqvim-xəritə diqqətimi cəlb etdi. Dağlıq Qarabağ , Şaumyan və Çaykənd bir-birinə birləşmiş şəkildə təsvir olunmuş, onlar da "ANA ERMƏNİSTANA" birləşmişdilər.*
*Rəngli, bərbəzəkli bir xəritə idi. Xəritənin önünə keçib ,ermənicə oxumağa başladım. Hiss etdim ki, otaqdakıların nəzərləri mənə yönəlib. Bu vaxt oturanların arasından bir nəfər mənə yaxınlaşdı.Bu klub müdiri Babayan idi. Biz onunla əvvəllərdən tanış idik. Yaxınlaşıb:*
*-- Ara ,bu işlər niyə belə oldu?- deyə sual verdi. Hiss etdim ki , millətçi olsa da baş verənlər onun da ürəyincə deyil.*
*Bir azdan gedənlərin hamısı toplaşdı və biz Çaykənddən əskərlərin müşayəti ilə çıxdıq. Çaykənddən çıxıb rahat nəfəs aldıq. 2-3 saat ərzində baş verənlər hafizəmizdə dərin iz buraxmışdır. Aslan Məmmədov dedi ki, bu gün bizi yenidoğulmuş kimi hesab etmək olar.Hacıkənddə bir qədər oturub, həyəcnlarımız keçəndən sonra Xanlara qayıtdıq*

*1988-ci ilin ortalarından Yerevandan Çaykəndə uçan vertalyotların uçuşu düz 1991-ci ilin mayınadək davam etdi. Azərbaycan hökumət orqanları uçuşların qarşısını ala bilmir, sovet ordusu isə bu işə qarışmırdı. Çaykəndin komendantının verdiyi məlumata görə orada 270-280 ,camaatın dediyinə görə 400-500 nəfər saqqallı döyüşçü var idi.Köçəndə də xəstəxananın binasını yandırıb yerlə yeksan etmişdilər. Çaykənddən vertalyotla uçarkən , baş həkim hərbi komendaturanın əskərlərinə işarə etdi ki, S. Akopkexovyanı hara buraxırsınız, xəstəxana yerlə yeksan olub, onu vertalyota buraxmadılar və saxladılar. Sonra o, Azərbaycan televiziyasına müsahibə verdi, az sonra onu Ermənistan hüqüq müdafizə orqanlarına təhvil verdilər.*

*1988-ci ilin oktyabr –noyabr aylarında Azərbaycan böyük gərginlik içində idi. İlin əvvəlidən başlayan deportasiya son həddə gəlib çatmışdı. Onların xeyli hissəsi Xanlara gəlib şıxmışdı. Qaçqnların sayı 50-60 minə çatırdı .Bu günlərdə Xanlarda 10 günlük aramsız mitinqlər olmuşdu. Mitinqin 3-cü günü xəbər yayıldı ki, Elçibəy mitinqə gəlir.*

*Lakin gələn xalqımızın sevimli şairi Xəlil Rza Ulutürk idi. Mitinqçilər onu çiyinlərində mitinqçilərin lafetdən qurduğu səhnəyə qaldırdılar. O, bir neçə saatın ərzində 4 dəfə çıxış etdi. Lafetin üstündən Xəlil Rza Ulutürkün əzəmətli səsi guruldayır:*

**Qızıl qumlar dönəndə ocaq üstündə saca,**
**Yanaşdım ki, hovuzda sərinlənim bir azca.**
**Gördüm uzun bir ilan**
**Su içmədə novçadan.**
**Məni gördü, çəkildi, ağzında yarım damla.**
**Qamışlıqda yox oldu qamışa bənzər ilan.**
**İstəsəydim vurardım,toxunmadım ilana**
**Bunca bulaq suyundan**
**Təşnə ağzında vur-tut**
**Bircə damla alana.**
**Toxunmadım ilana**
**Yad elədim,düşündüm tamam başaqa şahmarı .**
**Min əfiyə bəs edər ağzının zəhrimarı.**
**Qutuda bəsləyiblər ,öyrədiblər çalmağı .**
**Qartısa da sürünür, yığır ehtiyat ağı.**
**Sındırmışam dişini .**
**Amma gedir borc alır dişlərini özgədən .**
**Neştərini özgədən, zəhərini özgədən.**
**Nə fərqi var ,deyirsən, ilan elə ilandır.**
**Xayır, bu söz yalandır!**
**Özgənin neştəriylə səni çalan yamandır.**
**Həzər, həzər! Amandır!**
**Özgənin yuvasında yatan ilan yamandır,**
**Həzər!**
**həzər!**
**Amandır!**

Yad dişin zəhərini sənə sıxan yamandır.
Mən heç vədə toxunmam təbiətdə ilana.
Ancaq...əzə bilməsəm ,
Tüpürürəm həmişə cəmiyyətdə ilana.

***Xəlil Rzanın səsi meydanı başına götürüb:***

Bu sərt ,ağır günlərdə
Mən - Ali Baş Komandan
Olsam , olmasam belə
Azərbaycan adından
Əmr edirəm:- Silahlan!
Silahsız dayanmağa bir qırpım da haqqın yox,
Gözlərin – qoşalülə...Kipriklərin güllə,ox.
Bilirəm, düşmənlərin bərk durub keşiyində,
Alınmışdır əlindən hətta ov tüfəngi də .
Nə qəm ,kinlə silahlan!
Topdan,tüfəngdən üstün ,
Tankdan, raketdən güclü
Qeyrətinlə silahlan!
Arxalı köpəklərə nifrətinlə silahlan!
Xiyabani ruhunu alışdır nəfəsinlə ,
Cürətinlə silahlan!
Bilirəm,Elbrusdan,Savalandan ağırdır
Çiynində sənin yükün
Telegüzgü,radio,mətbuat çoxdan ölgün.
Yox..... sən ölməməlisən!
Hələki gedib gələn nəfəsinlə silahlan!
Qəfəsdəsənmi?Qır , sök, qəfəsinlə silahlan!
Sən bizim şerimizdən,nəsrimizdən güclüsən,
Əsrimiz qəhrəmandır, əsrimizdən güclüsən.
37-də batmış, 46-da vurulmuş,
Nəslimizdən güclüsən,
Dodaqlarından qopan neçin amandır,ahdır?
Alçaqlara qəzəbli bir baxış da silahdır.
Baxışınla ,qanınla,vücudunla silahlan!
Dön Səməndər quşuna....Yan..... odunla silahlan!
Dəyənəklə,kürəklə,daş kəsəklə silahlan!
Nuş et ildırımları,bir şimşəklə silahlan!
Onlar səni silahsız pənahsız görmək istər,
Sən nəğməylə, marş ilə , nümayişlə silahlan!
Bayraq, elə özünsən,
Qalx döyüşlə silahlan!
Silahlan insanlığa sonsuz məhəbbətinlə,
Humanizm adlanan ən böyük sərvətinlə
Hələ heç bir fitvaya , felə, məkrə uymayan ,
Bircə qarışqanı da tapdamağa qıymayan,

**Qəlbi Ümmandan dərin,**
**Bənövşədən də kövrək,**
**Hətta düşmənlərinə**
**Duz-çörək verən xalqım!**
**Çəkinmə bu döyüşdə aləm sənə pənahdır,**
**Sənin gül təmizliyin ,saflığın da silahdır!**
**Qanında saflıq adlı daşqın ilə silahlan!**
**Dünyaya məhəbbətin, eşqin ilə silahlan!**
**Vur-çatlasın içində elə bilməki təksən:**
**Yer də, göy də sənindir.Sən qalib gələcəksən!**

***Xəlil Rza haraylayır:***

**..... Sən bu yolda qayalar çap, nə bez,nə də usan.**
**Elə bilki, sal tavanı damla-damla deşən susan.**
**Yeniseyə gedib çatsan ,Tyan-Şana əl uzatsan ,**
**Elbrusdan Urqut,Sayan dağlarına kəmənd atsan .**
**Varlığında yer qüdrəti, ürəyində göy vüsəti**
**Duyacaqsan üç qitəyə sığışmayan məmləkəti.**
**Ceyhun, Seyhun ,İdel ,Ağçay sanki qızılquş olacaq,**
**Qanındakı Arazına ,Kür çayına qoşulacaq.**
**Onda zoribalayanlar qarşındaca qısılacaq,**
**Sən bir erkək. O yanında üzüqara qız olacaq.**

***Həmin günlərdə Xanlar rayon PK– nin birinci katibi Q. İskəndərov partiya, sovet işçilərini ,idarə müdirlərini hər gün qərargah adı ilə raykoma yığar, saatlarla danışardı. Bir gün yenə- - həftənin dördüncü günü idi, bizi raykoma yığmışdılar. Mən ora getməzdən əvvəl qəzet köşkündən həmin günün "Pravda" qəzetini almışdım.***

***Qəzet qoşa səhifə ilə çıxmışdı.İclasda yenə həmin söhbətlər aparılırdı:"Yeriyə-yeriyə yenidənqurma, yenidənquma buldozerdir, köhnə nə varsa söküb dərələrə tökür, yaxanızın tozunu çırpın .." . Mən də vaxtı keçirmək üçün əlimdəki qəzeti cızma-qara edir , vaxt öldürürdüm. Səhər həminki vaxtda bizi yenə ora yığdılar. Qərib müəllim bu gün uzaqdan başladı.***

***Bildirdi ki, respublika ekstremistlərlə doludur, elə rayon da doludur,əşi niyə uzağa gedək, elə bu zalda da onlardan var.***

***Məsələn, Bayramov! Bu sözlərdən sonra (mən zalın ortasında oturmuşdum) mən ayağa qalxıb, dedim ki ,Qərib müəllim mən hazırki vəziyyətlə ,onun düzəldilməsinə yönələn işlərlə razı deyiləm. Ona görə də lazımı yerlərə fikrimi açıq bildirirəm. Ancaq ekstremistlik nədirsə, mən o işlərlə məşğul deyiləm. O, isə cavabında bildirdi ki, elə isə dünən mənim hər bir cümləmə bir "2" yazan sən deyildinmi? Bu sözlər mənə ildırım təsiri bağışladı. Çünki belə bir şey mənim ağlımdan da keçməmişdi.Mən təkid etdim ki,bunu haradan bilirsiniz? Cavab verdi ki ,yanında oturanlar deyib.***

***Mənim yanımda oturanların bir çoxunu indi də xatırlayıram. Ancaq o yalanın kim tərəfindən deyilməsi bu gün də mənim üçün qaranlıqdır. Bildirdim ki, qəzeti saxlamışam, sabah kabinetinizə gətirəcəyəm.O sözləri Sizə deyəni də çağırarsınız,qoy orada ikiləri göstərib, mənim üzümə dursun.Səhərisi gün həftənin 6-cı günü idi. Raykomun qəbul***

*otağına getdim, Q.İskəndərov hələ işə gəlməmişdi, saat 12.00-yə kimi gözlədim. Gəlib çıxmadı. Fikirləşdim ki, bunun axırnıcı günləridir,qoy necə bilir,*
*elə də bilsin. Çıxıb getdi .Doğurdan da 1990-cı ilin yanvarın əvvəllərinə Xanar rayon PK Plenumu onu işdən azad etdi.*
*Maraqlı bir detal. Səsvermə baş tutmasın deyə, plenum üzvlərindən bəziləri qaçıb gizlənmiş, plenuma gəlməmişdilər. Xalq cəbhəsinin rayon şöbəsinin üzvləri onları axtarıb tapmış, zorla plenuma gətirmişdilər. 1991-ci ildə may-iyun aylarında Bakı şəhərində təkmilləşdirmə kurslarında idim. Bir gün dəmiryol vağzalının yaxınlığında 4 mərtəbəli binaların qarşısında ağlaşma səsi, hay-küy , qarmaqarışıqlıq görüb oraya yaxınlaşdım. Milislər birinci mərtəbənin qarşısında bir maşın dayandırmış, 4-cü mərtəbədə fəhlələr pəncərələri açıb ,evlərin birindən , evdə nə var idisə , oradan maşının ustünə tullayırdılar. Evin sahibəsi bir qadın , ağlayaraq yığışanlara müraciət edir: - Ay qardaşlar , bunlar məndən nə istəyir.? Ərim evdə yoxdur.Mən Çaykəndə getməkdən imtina etmirəm, qoy gəlib çıxsın, yığşırılıb gedək.Ancaq baxan kim idi. Evin əşyalarını təsvir etdiyim şəkildə maşına tullayırdılar.Binanın qarşısına yığılan vətəndaşlar milisə etiraz edir, bildirirdilər ki, bu nə allahsızlıqdır. İmnkan verin əri gəlsin, sonra nə lazımdırsa edərsiniz ..Bakıda bu vəziyyət bir neçə gün davam etdi.Böyük bir qrup yazıçı,,incəsənət və mədəniyyət xadimləri bu hadisələrlə əlaqadar o vaxtki prezident Ayaz Mütəllibova müraciət ünvanladılar. Müraciət “Vətən Səsi” qəzetində çap edildi. Təəssüf ki, o adamlardan bəziləri sözlərinin arxasında durmadılar.Bunlardan Nəriman Həsənzadə, Qulu Xəlilov yadımda qalmışdır. Bəxtiyar Vahabzadə sözündən geri durmadı. Həmin dövrün mətbuatında bunlar öz əksini tapıb. O vaxtlar mərkəzin hadisələr barədə samballı söz deyib, ölçü götürməməsini heç cür anlaya bilmirdik. Ona görə də Moskvaya məktublar,müraciətlər, teleqramlar yazılırdı. O vaxt yazıçıların, Elmlər Akademiyasının, Deputatların,*
*İctimaiyyət nümayəndələrinin müxtəlif ünvanlara müraciətləri olmuşdu. Mənim məktublarım, müraciətlərim , teleqramlarım da o dövrün məhsuludur .*
*Bir gün mənə dedilər ki, rabitə qovşağının rəisi Eldar Əliyev səni axtarır. Getdim. Teleqramı göstərdi.*
*Soruşdu ki,bunu sənmi yazmısan? Cavab verdim ki, baxmırsanmı, orada partiya biletinin nömrəsi də yazılıb.Bildirdi ki, bizə tapşırıq veriblər ki, belə teleqramları buraxmayaq.Bir halda ki ,yazmısan, mən də risqə gedəcəyəm.Buraxıram bunu getsin.Axırı da qoy nə olacaq , olsun. Bir şey olsa ikimiz də məsuliyyət daşıyarıq. Onda hələ 1989-cu il idi.Bu hadisələrdən sonra xalqımızən başına 20 Yanvar*
*hadisələri, Xocalı müsibətləri gəldi. Qarabağın kəndləri boşaldı, o birisi rayonlar işğal olundu.Dağlıq Qarabağ tamamilə Azərbaycanın idarəçiliyindən çıxdı. Azərbaycan müstəqil oldu.Erməni ekstemistləri avtobusları, qatararı, gəmiləri partlatdılar, metroda partlayışlar törətdilər. 10.08.1990- ci ildə saat 11..30 radələrində Tbilisi-Ağdam marşurutu ilə işəyən LAZ - 699 makalı 43-80 AQF nömrə nişanlı avtobus rayonun Balçılı kəndi ərazısındə partladılmışdı , nəticədə 21 nəfər ölmüş , 17 nəfər yaralanmışdı. Gəncə şəhər Səhiyyə İdarəsının və bizim Xanlar mərkəzi rayon xəstəxanasının təcili yardım maşınları zərəçəkənlərə yardım göstərmək üçün əllərindən gələni edirdilər.Yanmış avtobusun qalıqları uzun müddət yoldaca qalmışdı.Bu səhnələr hələ də gözlərimin önündən getmir. Mütəllibovun uzun muddət razılıq verməyəndən sonra rayonlar üzrə ərazi-müdafiə batalyonları yaradıldı. Belə batalyonlardan biri də Xanar rayonunda yaradıldı.815 N-li ərazi özünümüdafiə*

*taboru.Onlar döyüşlərdə böyük qəhrəmanlıqlar göstərdilər.Qeyd etməliyəm ki, bu hadisələrdə rayondan 14 nəfər mülki şəxs, 6 polis işçisi, 102 nəfər əskər şəhıd olmuş,18 nəfər itkin düşmüşdür,16 nəfər hərbi qulluqçu xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuşdur, 40 nəfər minaya düşərək xəsarət almışdır ,68 nəfər erməni gülləsindən əlil olmuşdur. 3 nəfər Milli Qəhrəman adı almışdır.1994-cü ildə atəşkəs elan edilənədək rayondan 886 nəfər döyüşlərdə iştirak etmiş və Qarabağ müharıbəsı veteranıdır.Xanlardakı Şəhıdlər Xiyabanında bir nəfər naməlum əskərin məzarı vardır.*

*Batalyonun Xanlar stadionunda yaradılan birinci günündən, Sarısu,Todan kəndlərində,Gülüstanın sərhəddinə kimi onlarla olmuşam.Bizim xəstəxananın sürüsü İlqar Novruzov əskər kimi, həkimimiz Əmirxan Mövlayev taborun həkimi kimi döyüşlərdə iştirak etmişdir.Xəstəxananın əksər kişi həkimləri döyüşçülərə tibbi xidmət göstərib , xəstəxananın 4 sanitar avtomaşını ərazi müdafiə batalyonlarına verilmiş, onlardan biri Qolan dağında, digəri Kəlbəcərdə ermənilər tərəfindən vurulmuşdur.*

*Loğman Kazımovla birlikdə heç birimiz patoloq-anatom, ekspert həkimi olmasaq da İlqar Novruzovun meyidini səhra şəraitində muayinə etmiş,ona tibbi rəy vermişdik.*

*Vaxt ötmüş , zaman dəyiımiş, ancaq hələ də 1988-ci ilin fevralından başlayan qondarma Qarabağ məsələsi həll edilməmişdir.Həll edilsə belə , bu tarixi hadisələr yaddaşlara həkk edilməli, köhnə səhvlərimizdən nəticələr çıxarmalıylq. Uzun müddət millətimiz bu tarixdən, bu məsələlərdən az xəbərdar olub, məsələlərin məğzini bilməmişdir. Bu sənədlərlə işləyərkən belə bir maraqlı məqamı aşkar etdim: 1905 , 1918-1920, 1988-ci illərin hamısımda Bakıda hadisələr fevral ayında, Gəncədə noyabr aylarında baş vermişdir. Bundan başqa daşnakların hələ bir həftə anlayışı da var. Məsələləri bir həftə ərzində həll etmək .Sənədlərlə tanış olduqda bu bir həftə adamın gözlərini deşir.*

*Bu kitabda toplanan materialların əksəriyyəti o vaxtların dövri mətbuatında var. Kitabda 100 illik tarix ərzində ermənilərin Xanlar ( indiki Göygöl ) rayonunda törətdiyi fitnə-fəsadlardan söz açmağa çalışılıb. Buna nə qədər müyəssər olduğumu oxucuların öhdəsinə buraxıram.*

*İslam Bayramov*

# TARIXDƏN SƏHİFƏLƏR

## *TARİXDƏN SƏHİFƏLƏR*

*Məlumdur ki, bəzi insanlar öz gözlərində tiri görmür özgələrinin gözlərində tük axtarırlar.Ancaq tarix üçün «özünün» və «özgənin» gözü yoxdur. Erməni publisistləri neçə illərdir ki ,öz xalqlarının başına gələn bəlaları erməni xalqının həddən artıq mədəni və azadlıqsevər olması ilə izah edirlər. Ancaq belə izahı ciddi izah saymaq olmaz….*

*Bütün bunların səbəbkarı aşağıda təsvir edilən hadisələr, Armenakan, Hnçaq və Daşnaksutyun partiyalarıdır.*

*Tarixi faktlarla tanışlıq onu göstərir ki, Ermənistanda və Stepanakertdə 1988-ci ildən başlayan Qarabağ hərəkatı tam dəqiqliyi ilə 1890 – 1920-ci illərin çıxarılmış surəti, təkrarıdır.*

*1880-ci ildən başlayaraq 30 il ərzində erməni ekstemistləri öz məqsədlərinə çatmaq üçün sürünə – sürünə, addım-addım hərəkət etdilər və 1918-ci ildə daşnak Ermənistanı yaradılarkən öz məqsədlərinə çatdılar. Bundan sonrakı 70 il ərzində «Böyük Ermənistan» ideyalarını həyata keçirmək üçün gizli fəaliyyət göstərdilər və yalnız 1985-ci ildən sonra SSRİ-nin bir sıra rəhbərlərinin və « Moskva » lobbisinin onlara yumşaq münasibətindən istifadə edərək ideyalarının icrasına başladılar.*

***Beləliklə, tarixdən səhifələr:***

*Erməni siyasi xadimlərinin yaratdıqları dərnəklərdə erməni xalqının milli özünüdərki , erməni millətini yeni inkişaf yoluna çıxarmaq haqqında fikirləşən ermənilər 1885-ci ildə ilk milli siyasi partiya «**Armenakan**» * partiyası yaratdılar.Bu partiya Fransanın Marsel şəhərində çıxan " Armeniya" qəzetində və onun ətrafında toplaşan ziyalılar - qəzetin redaktoru və o vaxt ictimai fəaliyyəti ilə tanınan **Mkirtiç Portuqalyan** tərəfindən yaradıldı. Partiya adını eyniadlı qəzetdən götürmüşdü. «Armenakan » partiyasının fəaliyyəti Vanda genişləndi. Onun proqramı ermənilərin milli azadığına nail olmaqla, gələcəkdə demokratik burjuaziya dövləti yaratmaq idi.*

*Tezliklə onun yerinə 1887-ci ildə milliyətçi erməni xırda burjuaziya partiyası « **Hnçaq » - Sosial demokratik partiya – yaradıldı** (Hnçaq ermənicə - Zəng). Partiyanın əsası Cenevrədə qoyuldu.Partiyanı İsveçrədə təhsil alan bir qrup tələbə təsis etmişdi. Hnçaq xalqçı sosializmə hiss edilən rəğbət bəsləyirdi.*

***Partiyanı yaradanlar:***

***Nazarbek, Nazarbekyan Avetis Vardanoviç (Lerents** 1866 -1939 ) –partiyanı yaradanlardan və rəhbərlərindən biri türklərə,o cümlədən müsəlmanlara qarşı düşmənçilik siyasəti yeritmişdir.*

***Qarandjyan Qevork Arutyunoviç (Arkomed**, 1861 – 1936 **),** Stepan Şaumyanın hamisi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra «Hnçaq» partiyasının qərarı ilə Yerevanda işləmək üçün qalmış ,Yerevan Universitetinin professoru olmuşdur. A. Mikoyanın bakı komissarlarının faciəli ölümündə rolu haqqında mifin müəlliflərindən biri.*

***Şmavon Qabriel Kafan ( Kafyants** , 1860 – 1930 **) -** erməni usyanlarının fəal rəhbərlərindən biri, 2-ci İnternasionalın tərkibinə daxil olmuşdur.*

***Xanazat, Xanazatyan Ruben ( Nşan Karapetyan,**1862 – 1929 **)** .Erməni xalqının tarixinə dair böyük əsərlərin müəllifi.*

***Akop paşa Qazaryan** (1833- 1891) - tacir, Osmanlı imperiyasını maliyyə naziri .*

***Yeramyan Ambarsum (1857 -1929)** - rəhbərlərdən biri, Van ermənilərinin üsyanlara fəal təhrikçisi.*

***Zurabyan Arşak Qerasimoviç (Zurabov,** 1873 -1920 **)-** rəhbərlərdən biri ,partiyanın silahlılarının rəhbəri, «Fəhlə sinfinin azadlığı uğrunda mübarizə İttifaqının » üzvü,*

*Petroqrad soveti icraiyyə komitəsinin üzvü, « Türkiyə Ermənistanı » dekretinin müəlliflərindən biri.*

*Əsas vəzifəsi Erməni məsələsini həll etmək idi .*

## <u>Partiyanın proqramı və məqsədləri:</u>

**Ermənilərin yığcam yaşadığı Ərzrum, Van, Zeytun, Sasun, Ərzincan və digər ərazilərdə türk və kürd əhalisini qıraraq Türkiyə ərazisində onun tərkibində «Böyük Ermənistan» yaratmaq , gələcəkdə onu Azərbaycanın və Gürcüstanın - Erivan quberniyası, Qarabağ, Zəngəzur, Qazax, Axalkalaki, Axalsıx və digər ərazilər ilə birləşdirərək böyütmək.**

*Qeyd etmək lazımdır ki, yaradıldıqdan sonra 3 il müddətində böyük müvəffəqiyyət əldə etmişdi. Zeytun və Sasunda (1890 -1892-ci illər) böyük erməni üsyanları təşkil etmiş, erməni silahlı dəstələri tərəfindən 65 min nəfər dinc silhsız türk və kürd əhalisi məhv edilmişdir. Türk hökuməti çar mütləqiyyətinə ,İngiltərə, Fransa, ABŞ hökumətlərinə ciddi etiraz bildirərək , həmin vilayətlərdə hərbi vəziyyət elan etdi. İfşa olunacaqlarından qorxan «Hnçaq» partiyasının görkəmli rəhbərləri Cenevrəyə və Avropanın digər şəhərlərinə emiqrasiya edərək, sonralar RSDFP sıralarına daxil oldular. «Hnçaq» partiyası ləğv olduqdan sonra onun yerinə « Daşnaksutyun » partiyası yaradıldı.*

## <u>« Daşnaksutyun » partiyası</u>

*« Daşnaksutyun » - Erməni İnqilabi İttifaqı ( Daşnaksutyun ermənicə İttifaq) , milliyətci burjuaziya partiyası . 1890-cı ildə Tiflisdə yaradılmışdır.*

*Yaradıcıları:*

***Mikaelyan Xristofor Omen** ( 1859 -1905 ) - jurnalist*

***Zavaryan Simon , Zavriyev, Akop Zavariyan (1875-1920)-**Şaumyanın məsləkdaşı,1905-ci ildə Bakıda hadisələrin hazırlayan. Bu hadisədən sonra qırğınlar Yelizavitapol, Tiflis, Erivan,Qarabağ və digər ərazilərə siyarət etmişdir.*

***Rostom Zoryan ( Stefan Zoryan 186 7 – 1919)** –rəhbərlərdən biri , Azərbaycanın Bakı, Şamaxı, Quba, Şuşa və digər şəhərlərində (1918 -1920-ci illər) kütləvi qırğınların,döyülmələrin və digər vəhşiliklərin təşkilatçısı. Bu qırğınlar zamanı əsasən qocalardan , uşaqlardan və qadınlardan ibarət220 min nəfər öldürülmüşdür.Bakı Kommunası yıxıldıqdan sonra xaricə qaçmışdır.*

***Şant Levon Sexboyan** (1869 – 1951)- yazıçı, dramaturq – rəhbərlərdən biri .1920-ci ildə Sovet Rusiyası,Türkiyə ,Ermənistan danışıqlarında erməni nümayəndələrinin rəhbəri.*

***Şahrikyan Arutyun (Atom** 1860 -1915) partiyanın görkəmli xadimi , ideoloq. Ərzincanda türk kəndlilərinin qırğını zamanı həbs edilmiş, general Odeşelidzenin komandanlığında olan Qafqaz Ordusunun hərbi səhra məhkəməsinə verilmişdir.*

***Darbinyan Ruben ( Artaşes Çilinqaryan** 1868 - 1926 ) partiyanın görkəmli xadimi , ideoloq, partiyanın V1- X1 qurultaylarının proqramlarının müəllifi.*

*Poqos Nubar – Poqos paşa Nubaryan (1851 -1930) – bütün ermənilərin katalikosu V Qevorq erməni reformalarına və «Böyük Ermənistanın » gələcəyinə dair qərb dövlətləri ilə Türkiyə arasında aparılan danışıqlarda ( 1912 - 1913 ) erməni nümayəndələrinin rəhbəri təyin etmişdi. Osmanlı dövlətinin baş vəziri. 1926-cı ilin uyununda İzmirdə Türkiyə Respublikasının Prezidenti Atatürkə sui-qəsdin fəal iştirakçılarından biri. Dəstə üzvlərindən 15 nəfəri satmış , onlar ölüm cəzasına məhkum edilmiş, o isə ömrünün sonunadək öz villasında ev dustağı edilmişdir.*

*« Daşnaksutyun » partiyasının əsas məqsədi Erməni məsələsini həll etmək ,"Qərbi Ermənistanın siyasi və iqtisadi azadlığı proqramın əsas tələblərindən idi.*

***Partiyanın proqramı və məqsədləri:***

***Rusiyada və Qafqazda öz son məqsədi - dövlətin hazirki içtimai quruluşunu yıxmaq, Rusiya ilə federativ erməni demokratik respublikası yaratmaq , məqsədə çatmaq üçün hətta terror da daxil olmaqla hər bir vasitədən istfadə etməklə fəaliyyətlərini ancaq inqilabi istiqamətdə davam etdirmək.***

***Məqsədə çatmağın yolları : 1) Silahlı üsyanlar. 2) Ancaq erməniləri deyil, başqa xalqları da inqilabiləşdirmək . 3) İntizam . 4) Terrordan istifadə. 1904-cü ildə Vyanada 3-cü qurultayda daha iki yol əlavə edilir : a) Kəskin intizam və ciddi hesabat b) Ciddi konspirativlik.***

*Erməni məsələsi adlı ilə məşhur olan məsələnin ilk dəfə aşkara çıxması 19-cu əsrin 80-ci illərinə təsadüf edir. Bu hadisələrin əsas səbəbləri bir tərəfdən Türkiyədə yaşayan ermənilərin və başlıca olaraq daha mədəni siniflərin siyasi dünyagörüşündə baş verən təkamül və bununla əlaqədar olan onların inqilabi fəaliyyətidirsə, digər tərəfdən avropa diplomatiyasının gizli və qərəzli siyasətidir. Onlar ermənilərin siyasi dünyagörüşündə süni təkamül yaratmaq , erməniləri inqilabi yola sövq etmək və buna müvafiq olaraq Türkiyə müsəlmanları arasında antiermə ni hərəkatı yaratmaq üzərində ciddi işləmişlər.*

*Məqsəd bu əsasda Rusiya və Türkiyə arasında siyasi anlaşılmamazlıq yaratmaq və eyni zamanda özlərinə Türkiyənin daxili işlərinə qarışmaq üçün əlverişli atmosfer yaratmaq idi. Qərbi Avropa siyasi xadimləri öz məqsədlərinə çatmaq üçün bu istiqamətdə ermənilərə onların Türkiyədə vəziyyətlərinin ağır olmasını tədricən təlqin edərək , onlarda belə fikir yaradırdılar ki, Avropanın tərəfdarlığı nəticəsində öz quvvələri ilə bu vəziyyətdən çıxmaq olar. 19-cu əsrin 90-cı illərinədək Türkiyənin özündə erməni məsələsi yox idi, yaxud sonralar aldığı rəngdə deyildı. Kürdlər, türklər və ermənilər birlikdə yanbayan yaşayırdılar.*

***1885-ci ildə Avropada ilk dəfə erməni hərəkatı haqqında xəbər yayılır.***

*İngiltərə, Fransa, Avstriya və Amerikada erməni siyasi xadimlərinin yaratdıqları dərnəklərdə erməni xalqının milli özünüdərkinin , erməni millətinin yeni inkişaf yoluna çıxarmaq haqqında səslər eşidilməyə başlamışdı.Onlar komitələr yaradır, fransız və ingilis dilində jurnallar çap edir, ermənilərin milli özünüdərki hissini qızışdırır,türk adminstrasiyasının «sui istifadələrini » məhkum edirdilər. 1894-cü il Berlin traktatının 61-ci maddəsinə əsasən Avropa xristian Ermənistanın vəziyyəti ilə maraqlanmalı idi. 1878-ci il Kipr traktatında da ermənilərin vəziyyətinin yaşılaşdırılması qeyd edilmişdi. Və buradan da Avropaya Berlin traktatının pozulması haqqında səslər ucalmağa başladı. Ermənilərin təbliğatı hər şeydən əvvəl Fransanı öz tərəfinə çəkməyə yönəlmişdi. Burada Ermənistan haqqında məqalələr yazılır, banketlər verilir , nitqlər söylənilirdi. Sant- Denidə Lüsinyanın qəbri üzərində manifestasiya keçrilmişdi.Ancaq Fransa bütün bunlardan heç bir şey başa düşmədi.Ancaq İngiltərəni erməni məsələsi çox maraqlandırırdı. Bu haqda Fransanın İstambuldakı o vaxtkı elçisi **Kambon belə yazır:** **«Londonda ermənilər gözəl qəbul edildilər. Qladstonun kabineti narazıları bir yerə yığdı, onları qruplaşdırdı, onlara nizam-intizam dərsi keçdi. Onların tərəfində duracaqları barədə onlara vəd verdi. Bu vaxtdan daşnakların təbliğat kabineti Londonda qərarlaşdı və burada***

***lazımı təlimatlar almağa başladı. Erməni əhali kütləsinin beyninə iki sadə ideyanı yeritmək lazım idi: millət və azadlıq ideyaları… Bu yolda İstambulun***
***keçmiş patriarxı yepiskopos Mkrtıç Xrimiyanın katalikos seçilməsi ermənilərə bir hədiyyə oldu. Sonralar o öz vətənpərvərliyinə görə Xrimiyan Yerusəlimə göndərildi.»***
*Odur ki, belə təbliğat mərkəzlərindən biri tezliklə London oldu. Burada ingilis diplomatiyasının təlqini və Avropa diplomatiyasının təsiri ilə erməni inqilabi dərnəklərində «*
*Müstəqil və azad Ermənistan» yaradılması ideyaları meydana çıxdı. Son məqsədə çatmaq üçün Türkiyədə bir sıra çaxnaşmalar salınmalı idi ki, Avropanı inandırmaq mümkün olsun ki, Türkiyədə ermənilər təzyiqlərə məruz qalırlar Müxtəlif millətlərin yaşadığı Cənubi Qafqazda , rusların qonşuluğunda məxsusi erməni dövlətinin yaradılması Avropanın istəklərinə tam cavab verirdi - bununla Rusiyanın Türkiyəyə doğru hücum xarakterli irəliləməsinin qarşısı alınırdı , eyni zamanda bu əsasdaqarmaqrışıqlığın yaradılması Türkiyənin məhvinə səbəb ola biləcək milli münasibətlərinqızışdırılması, ermənilərlə türk hököməti arasındakı narazılığın baş verməsi Qərb dövlətlərinin bu işə qarışmasına , öz maraqlarını təmin etməyə və Türkiyədə öz planlarını həyata keçirməyə imkan verirdi.* ***Bu haqda Kambon belə yazır:***
*«Nəhayət , 1894-cü ilin avqustunda əvvəlcə ermənilərlə kürdlər arasında bir neçə toqquşmalar baş verir, sonra isə toqquşmalar köməyə gələn turk ordularına qarşı baş verir. Nəticədə çoxlu qubanlar verilir ki, bunlardan da çoxu erməni kəndliləri olur».1893-cü ildə Sasunda Damalyan familiyalı bir erməni peyda olur, 1894-cü ildə onun yerini sonralar adını Murad qoyan Boyaticiyan tutur .( S. Qlinka « Opisaniye pereseleniya armyan adderbidjanskix v predelı Rossii . « Elm »Nəşriyyatı 1990 səh.94). Boyaticiyan və Damalyan tərəfindən süni təbliğatla yaradılmış bu caxnaşmaya qədər ermənilər və kürdlər burada sülh şəraitində yaşayırdılar. Bu məsələ xarici dövlətlərin Türkiyənin daxili işlərinə qarışması üçün bir bəhanə oldu.1894-cü ilin axırlarında İngiltərə, Fransa və Rusiyadan ibarət üç dövlətin nümayəndələri Sasun işinin araşdırılması , sonra isə ermənilər yaşayan vilayətlərdə islahatların keçirilməsi barədə Porto kollektiv təklif verir. Məqsəd türk adminstasiyasını özlərinin ciddi nəzarətinə almaq idi. Ermənilər bir müddət bu təklifin nə ilə nəticələnəcəyini gözləyərək, bundan bir nəticə hasil olmadığını görüb,1894-cü ilin 18 sentyabrında İstambulun küçələrində islahatların keçirilməsi barədə manifestasiyaya çıxdılar ki, bu da qanlı hadisələrə səbəb oldu. Bundan sonra oktyabr , noyabr aylarında hadisələr bütün Anadoluda davam etdi. Trabzon, Ərzrum, Van, Bitlis , Sivas, Diyarbəkir , Xarput , Urfa, Adana və Hələbdə tədricən qanlı hadisələr baş verməyə başladı.1894-cü ilin oktyabrın 6-da ermənilər yaşayan 6 vilayətdə islahatların keçrilməsi haqqında sultanın fərmanı oldu.*
*1895-ci ildə London diplomatiyasında erməni məsələsində baxışlarda dəyişiliklər baş verdi. Belə ki, onlar belə nəticəyə gəldilər ki, erməni məsələsi Rusiya ilə Türkiyə arasında müharibəyə səbəb ola bilməz. Buna görədə ingilis diplomatları tərəfindən vəziyyətin yumşaldılması və barışığın yaradılması yolu tutulur. Lakin buna baxmayaraq xaricdən təsir almış hərəkatı birdən-birə dayandırmaq mümkün olmadı. 1896-cı ilin iyununda Vanda baş verən geniş miqyaslı hadisələrdə ingilis konsulu Villiams az qalır ki, həlak olsun.*
*1896-cı ilin 14 avqustunda Daşnaksutyun partiyası İstambulda Osmanlı Bankını zəbt edərək, avropa səfirlərindən ermənilərə həqiqi islahatların keçirilməsi üçün təxrirəsalınmaz tədbirlərin görülməsini , əks təqdirdə bankın partladılacağı tələbini qoyurlar. 1896-cı ildə erməni daşnakları tərəfindən Vanda yenidən iğtişaşlar törədilir. Erməni inqilabi təşkilatının fəaliyyəti 1898 -1899-cu illərdə əvvəlcə Seronun , sonra isə 1901-ci ildə Andranikin çətəçilərinin iştirak etdiyi Muş - Sasun rayonuna keçrilir.*
*Erməni inqilabi xadimləri böyük dövlətlərin onlara kömək edəcəyini nəzərdə tutub özləri üçün iki prinsip yaradırlar: bir tərəfdən açıq üsyanları daha çox təşviq etmək, bunt qaldırmaq, digər tərəfdən sonra isə bu buntlar və qanların axıdılması barədə onların həqiqi miqyasını şişirtməklə aləmə car çəkmək. Onlar öz tələblərini həmişə həddindən artıq şişirdilmiş şəkildə*

*təqdim etmişlər . Onlar belə bir fikri qəbul emişdilər ki, siyasət başdan ayağa yalandır - xalqın taleyini yalan və şişirtmələrlə xilas etmək olar, kim çox qışqırırsa o da son qələbəni çalır….*

***Kambon yazır: « Bu qarmaqarışıqlıqda ermənilərə nə təklif etmək olar ?***

***-- Müstəqil Ermənistan? Bu haqda düşünmək belə mümkün deyil. Ermənistanı Bolqarıstana yaxud Yunanıstana bənzər şəkildə təbii sərhədləri ilə yaratmaq mümkün deyildir, çünki ermənilər yaşayan ərazilərdə elə bir ərazi yoxdur ki, orada xalqlar çox ya da az dərəcədə ermənilərlə məskunlaşmış olunsun. Ermənilər Türkiyənin dörd bir tərəfinə səpələnmiş , Ermənistan deyilən ərazidə isə hər yerdə müsəlmanlara qarışmışlar. Bunlara onu da əlavə edək ki , artıq ermənilər Türkiyə, İran və Rusiya arasında bölünmüşlər. Az ehtimalla , əgər Avropa Ermənistan yaradılmasını təklif etsə , yeni yaradılmış dövlətin sərhədlərini çəkmək mümkün olmayacaqdır. Belə çətinlik yarımmuxtar imtiyazlı əyalət yaratdıqda da ortaya çıxacaqdır. Ermənistan haradan başlanır və harada qurtarır ?…***

***Serqey Qlinka öz kitabında yazmışdır :***

*Polkovnik Lazarevin qraf Paskeviç-Erivanskiyə Hesabatından : « Rusiya ilə İran arasında şərəfli 1828-ci il sülhün bağlanmasında cənabınız məni Vətən üçün xeyirli olan bir planınızın icra edilməsinə məni təltif etdiniz: Xristianların İran təəbəliyindən Rusiyanın yeni aldığı əyalətlərə - Naxçıvan, Erivana köçrülməsinə - hansılarki monarxın xeyir duası ilə bundan* ***belə Erməni vilayəti adlandırılmışdır»*** *( səh.112 )*

*1896-cı ildə avropa dövlətlərində erməni məsələsinə maraq azaldı. Belə ki , Türkiyənin daxili işlərinə qarışmaq üçün başqa məsələlər ortalığa çıxdı: Makedoniya məsələsi və Krit üsyanı. Bununla da erməni məsələsində durğunluq yarandı.*

*Doxsanıncı illərin ortalarında erməni məsələsi özünün yeni inkişaf fazasına daxil olur- o Türkiyədən Cənubi Qafqaza (Zaqafqaziyaya) keçrilir. Bu dövr Qafqazda knyaz Qolitsinin hakimiyyəti dövrü idi. Qolitsın erməni kilsəsinin əmlakını əlindən almış və dövlətin idarəçiliyinə vermişdi. Daşnaksutyn partiyası bu əsasda öz fəaliiyyətini gücləndirir, ermənilərin əmlak və mənəvi maraqlarının müdafiəsini partiyanın devizinə çevirmişdı. Bu partiyanın bayrağı altında başqa millətlərə , eləcə də onların ideyalarına etinasız yanaşan ermənilərə qarşı terror yolu ilə qarşılarına qoyduqları məqsədləri həyata kecirmək üçün fəal və olduqca sıx birləşmiş az miqdarda erməni toplaşmışdı. Daşnakların Cənubi Qafqaza gəlişi özləri ilə milli düşmənçilik gətirdi ki, bu mühitdə də bu erməni–azərbaycanlı qırğınlarından, habelə ermənilərlə gürcülər arasında müharibədən başqa bir şey verə bilməzdi. Bu isə onlara ona görə əl verirdi ki, az ya da çox miqdarda ancaq ermənilərlə məskunlaşmış ərazilər əldə etsinlər ki , gələcəkdə muxtar Ermənistan yaratmaq üçün yaxşı mühit yaranmış olsun. Onların bu istiqamətdə fəaliyyəti bir sıra vəzifəli şəxslərin , o cümlədən knyaz Qolitsının həyatına sui-qəsdlərə səbəb olur, sonu isə Qafqazda görünməyən bir hadisə - erməni-azərbaycanlı toqquşmaları ilə yekunlaşır. Həmin dövrlərdə bir sıra vəzifəli şəxslər - general Əlixanov, Bakı qubernatoru knyaz Nakaşidze,Yelizevatolun vitse-qubernatoru Andreyev, qəza rəisləri Boquslavski, Şmerlinq, Neşşanski , Pavlov, polismeyster Saxarov,pristav Cavaxov və Şumakeviç, sərhəd gözətçisi polkovnik Bıkov daşnaksutyun partiyasının terrorunun qurbanı oldular.*

*1905-ci ildə Qafqaza rəhbərliyə qraf Vorontsov – Daşkov təyin edilir. Bu andan etibarən erməni başçılarının fəaliyyətində dönüş əmələ gəlir. Onların qərbi avropa dövlətlərini erməni məsələsi ilə məğul olmağa təhrik fikirləri Rusiyaya doğru yönəlir. Onlarda belə fikir fomalaşır ki, siyasi ideallarına çatmağa və Türkiyədəki erməni xalqının taleyinin yaxşılaşdırılmasına ancaq Rusiya kömək edə bilər. Erməni liderləri tərəfindən bu əsasda rus diplomatlarının « hazırlanmasına» və onlar tərəfindən katalikos vasitəsi ilə çarın adına erməni xalqının arxasında durmaq üçün xahişnamə yazılır. Erməni xalqına rəhbərlik iddiasında olanlar Rusiyanı Türkiyədəki ermənilərin məhvinə səbəb olacaq müharibəyə təhrik edirlər. Türkiyədəki ermənilərin adından onların yaşadığı dövlətin düşməni olan Rusiyaya müraciətnamə qəbul edirlər. Bunun təhlükəli olduğunu hətta Türkiyədəki ermənil xadimləri də başa düşürlər. Türkiyə*

*ermənilərinin mətbu orqanı «Vantosp» ilə daşnaksutyunun «Orizon»u arasındakı polemika buna əyani misaldır. Türk erməniləri, o cümlədən professor Minasyan Qafqaz erməni xadimlərini ittiham edirdilər ki, onlar Türkiyə əleyhinə könüllü drujinalar düzəltməklə və öz hərəkətləri ilə türk ermənlərini təhrik etməklə, rus silahlarının Türkiyədə qələbəsinə səbəb olmuşlar. «Sizin siyasətiniz Türkiyədə ermənilərin qırılmasına səbəb olacaqdır» - deyə «Vantosp» yazır. «Orizon» ona belə cavab verirdi: « Dünyada bir nəfər belə erməni qalsa belə Ermənistan muxtar olmalıdır». («Bakinski raboçi » qəzeti 28 (15) may1918-ci il).*

*Könüllü drujinalar cəbhədə də özlərini yaxşı aparmadılar.*

*Rus generallarından Nikolayevin 1 iyul 1915-ci il və Bolxovitinovun 9 iyul 1915- cı ildə yazdıqları məlumatlarda hər iki general erməni daşnak cütlüyü Tero və Xeçonun dinc türk sakinlərinə tutduqları divanı , terror və vəhşilikləri çox dəqiq xarekterizə edirdilər. Vanda rus qoşunlarının arxa cəbhəsində erməni daşnak çətəçilərinin sabotajı ona gətirib çıxarmışdı ki, rus komandanlığı sadəcə olaraq, onlara toplardan atəş açmağı əmr etmişdi.*

*1917-ci ilin yanvarında rus qoşunları Trabzon, Ərzurum və Bitlisdən çəkilərkən daşnak çətəçiləri burada dinc türk əhalisi üzərində əsl qırğın törətdilər. Generallardan Prjevalinskinin və Odişelidzenin məlumatları buna sübutdur! General Odişelidzenin məlumatları və Rusiya Baş Qərargahının podpolkovniki Tverdoxlebovun xatirələri Ərzincanda Murad Sivasetinin komandası altında daşnak çətəcilərinin törətdikləri vəhşiliklərə şəhadət verən ən parlaq sənədlərdir. Demək olar ki, Ərzincanın bütün əhalisi daşnaklar tərəfindən erməni kilsəsinin qarşısındakı meydana qovulmuş və yaxın evlərə doldurulmuş, orada doğranmış və yandırılmışdır. Ərzincanda və ətraf kəndlərdəki bu vəhşiliklərə görə günahı özlərindən uzaqlaşdırmaq üçün bütün daşnak bölmələri rus ordusuna məxsus hərbi forma geyinmişdi.*

*Daşnaklar Sarıqamışda da bu cür kütləvi vəhşiliklər törətmişlər (yüzbaşılardan Morozov və Kazimirin məlumatları). Ancaq ən qəddar və qaniçən qanqster, əlbəttə tayqulaq çətəci Andranik olmuşdur. Onun Ərzrumdakı əməllərinin podpolkovnik Tverdoxlebov tam ətraflı qələmə almışdır. bax: Azərbaycan SSR EA Xəbərləri, tarix-fəlsəfə–hüquq seriyası,1988, №3)*

*Baş verənlərdən hiddətini gizlədə bilməyən podpolkovnik Tverdoxlebov xatirələrini bu sözlərlə bitirir: « **İndi mənə aydın oldu ki, Ərzrumdan qaçmazdan qabaq ermənilər nələr törətmişlər, nə qədər silahsız qoca , qadın və uşağı məhv etmişlər, allaha minnətdaram ki, vəziyyət elə gətirdi ki, mən onlarla getmədim, onlar haqqında hələ qədim romalı Petroni yazmışdır: « Ermənilər də insandırlar, ancaq evdə dördayaqlı gəzirlər, onları rus şairi Puşkin də şerində dəqiq xarakterizə etmişdir : « Sən qulsan, sən qorxaqsan, sən ermənisən».***

*Rus məmuru doktor Xoroşşenkonun 21 may 1918-ci il tarixli məlumatı daşnakların Axalkalakidə və ətraf kəndlərdə törətdikləri qanlı qırğın haqqında qiymətli sənəddir. Daşnaklar burada bir neçə yüz azərbaycanlını doğramışlar.* «XX əsrin mədəni ermənilərinin vəhşilikləri bax, belədir!»- deyə doktor Xoroşşenko haray çəkir.

*Çar yıxıldıqdan sonra daşnaklar Müvəqqəti hökümətin bütün tədbirlərində iştirak etmiş, Türkiyəyə qarşı artıq «könüllü dəstələr » deyil , tam korpuslar çıxarmışlar.*

*1918-ci ildə daşnaklar Bakıda da qırğın törətmişlər. T.Əmiryanın , Avşalumyanın və Lalayanın başçılıq etdiyi quldur dəstələri Bakıda on mindən artıq azərbaycanlını qırmış , şəhərdə çoxlu bina və evi talamiş və yandırmış , o cümlədən hazırda Elmlər Akademiyasının yerləşdiyi xeyriyyə cəmiyyəti - «Cəmiyyəti-Xeyriyyə» binasını da yandırmışlar.*

***«Türkistan polkunun tələblərindən, matrosların hədələrindən, İcraiyyə Komitəsinin nümayəndəsi Alyoşa Caparidzenin işə qarışması , «Ərdahan» və «Krasnovodsk» gəmiləri şərq yanalma məntəqərinə gəlib ,əgər müsəlmanların qırğını dayandırılmasa şəhərin erməni hissəsinə toplardan atəş açılacağı hədəsindən sonra qırğınları dayandırdılar. Qara qüvvələrin qarşısı belə alındı. Şahid bildirir ki , martın 20-də mən gördüm ki, Tatevos Əmirov 3 silahlı erməni ilə dönmə tərəfdən «Kaspi» qəzetinin redaksiyası yerləşən hissədən «İsmailiyyə»yə keçdilər və bir qədər sonra binada alov göründü və yanmağa başladı…. Ancaq yenə Alyoşa Caparidzenin***

***işə qarışması Tatevosa qız gimnazyasının və şəhər dumasının binalarının yandırılmasına mane oldu». ( « Azərbaycan » qəzeti 17 mart 1919-cu i ).***

*Ancaq daşnaklar Bakıdan Şamaxıya keçərək , daha böyük qanlı cinayətlər törətmişlər.*

*1920-ci ildə Mikoyanın təhriki ilə tayqulaq Andranikin və Hamazaspın bandaları Maku və Xoydan quldur səfərinə çıxaraq , Zəngəzur və Qarabağdan keçərək dinc azərbaycanlı əhalni qırmışdır. Əskəran yaxınlığında bu bandalar Azərbaycan qoşunları tərəfindən tar-mar edilmişdir. Erməni inqilabçıları etdikləri hərəkətlərə görə məsuliyyəti heç vaxt öz üzərilərinə götürməmiş, qarmaqarışıqlıq , dağıntılar, qırğınlar törətmiş , son anda qaçıb aradan çıxmışlar. ( Karibi. Qırmızı Kitab. Tiflis 1920-ci il ).*

*Bu gün milətçi ermənilər, daşnak partiyası bütün dünyaya «erməni genosidini» qəbul etdirmək istəyir. Ancaq faktlar bunun əksini deyir. Anadoluda və Azərbaycan ərazisində , indi «Ermənistan» deyilən Qərbi Azərbaycanda qırğınlar törədilmişdir. Daşnak Ermənistanın ilk baş naziri Kaçaznuni yazmışdır:* ***Biz rəsmi olaraq Azərbaycanla müharibə vəziyyətində o lmamışıq, faktiki olaraq Qarabağda döyüşmüş, Qazaxda onlarla tez-tez toqquşmuşuq. Bir sıra qanlı döyüşlər ölkə daxilində yerli müsəlman əhalisi ilə Ağbabada, Zodda, Zəngibasarda , Vedibasarda ,Şərur-Naxçıvanda, Zəngəzur və başqa yerlərdə olmuşdur ( səh.33 )***

**( Ованес Качазнуни * «Дашнакцутюн больше нечего делать!» ).**

----------------------------

* Ovanes Kaçaznuni - (1868 - 1937 ) - daşnak partiyasının görkəmli xadimi , daşnak hökümətinin ilk baş naziri, Qızıl Ordunun gəlişindən sonra və Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra 52 yaşında öz baxışlarını dəyişmiş və daşnak siyasətini ifşa etməyə başlamışdır.

***Nəticə isə belədir: 2,5 milyon türk, 300 min erməni daşnakların «Dənizdən dənizə Ermənistan» ideyalarının qurbanı olmuşdur. Bunu müstəqil eksperlər də təsdiq edirlər .***

(Жорж Малевил « Армянская трагедия 1915 года»,
Джастин Маккарти « Армянский терроризм»,
«Анатолийские армяне» əsərləri və başqa müəlliflər).

*Beləliklə , minlərlə erməni daşnakların «Dənizdən dənizə Ermənistan» ideyalarının qurbanı olmuşdur. ( **A. Lalayan. Əksinqilabi «Daşnaksutyun » və 1914 - 1918-ci illərdə İmperialist Müharibə** .)*

*Daşnak yazıçıları bütün dünyaya car edirlər ki, onlar Rusiyanı həddindən artıq sevirlər. Rus kəndliləri isə ümidsiz vəziyyətdə Ermənistandan qaçırlar, hətta öz vətənlərinə yox, müsəlman İrana. Ancaq rus kəndliləri öz şəxsi təcrübələrindən bilirlər ki, onlar müsəlman Azərbaycanda daha yaxşı yaşayırlar, nəinki xristian Ermənistanda. Onlar «yaxşı bilirlər ki, rus kəndliləri məsələn, Lənkəran qəzasında yaxşı yaşayırlar, hətta türklərin gəlməsindən də onlara bir xətər toxunmamışdır». (**Karibi. Qırmızı Kitab. Tiflis 1920-ci** il)*

## *ERMƏNİ İNQİLABİ PARTİYASI - «DAŞNAKSUTYUN » TƏŞKİLATININ FƏALİYYƏTİ BARƏDƏ MƏLUMATLAR*

*Hazırda Daşnaksutyun Rusiyada və Qafqazda öz son məqsədi - dövlətin hazirki içtimai quruluşunu yıxmaq, Rusiya ilə federativ erməni demokratik respublikası yaratmaqdan ötrü məqsədə çatmaq üçün hətta terror da daxil olmaqla hər bir vasitədən istfadə etməklə fəaliyyətlərini ancaq inqilabi istiqamətdə davam etdirir .*

*Daşnaksutyunun Mərkəzi Komitəsinin yeləşdiyi şəhərlər:*

1. *Bakı - « Voskanabad »- Şimali Qafqaz üçün*
2. *Tiflis – « Medz Kağak » (Böyük Şəhər)*
3. *Batum – « Navaqankist »*
4. *Qars - « Carapert »*

5. *Erivan - « Mirkastan »*
6. *Aleksandrapol - « Kar»*
7. *Şuşa - «Aparaj »*
8. *Tehran*
9. *Təbriz*
10. *Ərzrum*
11. *Van*

*Bütün bu 13 ya 14 (bəlkə də çox) mərkəzi komitələr Tiflisdə olan «Şərqi Büronun» nəzarəti altındadır, ancaq ona tabe deyillər. Hər bir mərkəzi komitənin muxtariyyəti vardır. Onlar proqramlarından çıxmamaqla bizim quberniyaların vəzifələrinə oxşar vəzifələr həyata keçirirlər. Guman ki, Bakı şəhərində yerləşən komitə* ***Şimali Qafqaz ,Bakı quberniyası, Yelizavetapolun şərq hissəsi*** *, ikincisi Qars yaxud Erivanda yerləşən komitələr (* ***Qars, Erivan, Naxçıvan, Şuşa)*** *azad Ermənistanın idarə edilməsi üçün nəzərdə tutulmuşdur.*

*Partiyanın ali orqanlarından başqa onlara tabe olan xüsusi vəzifələri olan əlavə təşkilatları da vardır:*

*« Professinallar və kənd ittifaqları», «Qırmızı Xaç», « Şagird təşkilatı », «Partiyaarası orqan », « Təhqiqat orqanı», « Mətbuat təşkilatı », « Mədəni –kütləvi cəmiyyət», « Patorik » , «Yardımçı üzvlər» , « Özünü müdafiə komitələri» , «İşin təşkili», «Terror fəliyyəti Komitəsi », «Qorxuducu təşkilat», «Tələbə təşkilatları».*

***Professional ittifaqda*** *aşağı agentlər tərəfindən cəlb edilənlər məşğələlərin növünə görə xumblarda (dəstələrdə) birləşirlər. Cəlb edilənlər burada siyasi- inqilabi tərbiyə alır, sonra isə lazımı ittifaqlara götürülürlər. İttifaqlarda onların nizamnamələri təşviqat materialları ilə birlikdə öyrədilir. 1-ci kateqoriyalı xumblara aptekçilər, bərbərlər, şərabçılar , əkinçilər, ipəkçilər, hamballar, dəmirçilər, çilingərlər aiddir. 2-ci kateqoriyaya qırmızı xaç, terroristlər, özünümüdafiə dəstələri və zinvorlar (əskərlər) aiddir.*

***Qırmızı xaç xumbları*** *həbs edilənlərə və zərərçəkənlərə , sürgün edilənlərə pulla maddi yardım etmək, ərzaqla, inqilabi ədəbiyyatla təmin etmək, yazışmaları onlara ötürmək, həbs edilənləri hər bir vasitədən istifadə edərək buraxdırmaq, hətta açıq silahlı hücumdan istifadə edərək həbs edilənləri azad etmək kimi vəzifələri vardır.*

***Şagird təşkilatı*** *– təşviqatçılar, drujinalar, hazırlıq xumblarından ibarətdir. Təşkilatın məqsədi hər vasitə ilə «Daşnaksutyun» hərəkatına kömək etmək, öz sıralarından ziyalılar - partiyanın gələcək rəhbərlərini hazırlamaqdır.*

***«Partiyaarası orqan » və « Təhqiqat orqan»la****rının vəzifələri daşnak inqilabçıları arasındakı ixtilafları araşdırmaq , nəyin bahasına olursa olsun onları aradan qaldırmaqdır.*

***«Tələbə təşkilatları»*** *- öz millətindən olan tələbələr arasında mill –inqilabi iş aparmaqla onları təşkilata cəlb etmək, digər tələbələr arasında ümumi inqilabi, kosmopolit iş aparmaq .*

***«Yardımçı üzvlər» -*** *sırasında «Daşnaksutyun»un ideyalarına rəğbətlə yanaşan , ona maddi ,təbiğati yaxud digər yöndən kömək göstərən hər bir şəxs ola bilər. Onlar ara – sıra təşkilatın yığıncaqlarına çağrıla bilər, qabiliyyətlərindən asılı olaraq onlara tapşırşqlar verilə bilər. Bu sırada fəhlədən tutmuş cinayətkaradək , adi insanlardan tutmuş görkəmli dövlət qulluqçularınadək ola bilər. Məsələn, məşhur Fransa deputatı, sosialistlərin rəhbəri Jores kimi.*

***«Patorik » -*** *Eçmiadzin sinodunda ruhani partiyadır. Vəzifəsi ermənilərin dini sahədə psixikasına təsir etməkdən ibarətdir. Patorik katalikos vasitəsi ilə işləyir. Kilsənin tapşırığı əsasında ermənilərə nəinki dövlətin qərarlarını yerinə yetirməyə, onun əksinə də getməyə icazə verir.*

**«Özünümüdafiə dəstələri» -** *dövlət milisidir. Qafqazdakı iğtişaşlar zamanı meydana çıxmışdır.Ermənilərin içərisindən milisə çəlb edilirlər. Dövri olaraq daşnakların rəhbərliyi ilə məşğələşərə yığılırlar.Toqquşmalar və xalq həyəcanlanmaları vaxtı fəaliyyət göstərirlər.*

**Digər hərbi dəstələr** - *partiyanın əsasən sui-qəsdlərdən istifadə etməklə fəal konspirativ çıxış etməsi yönündə işləyirlər. Ümumi qurultay 3 nəfər seçir ki, onlar partiyanın bütün terroristik fəaliyyətinə nəzarət edirlər. Bu 3 nəfər «Hazırlıq Terrorist Komitəsi»dir. Onlar icraçı orqan yaradırlar: «İşçi komitələri» və «Qorxuducu təşkilat». İşçi komitənin vəzifələrinə partlayıcı maddələrin əldə edilməsi, hazırlanması, silahların tədarükü daxildir. Mərkəzin əmri ilə aşağı vəzifəli məmurların və yerli əhalinin terrorunu həyata keçirir. Bundan başqa kəşfiyyatçılar da vardır ki, onların vəzifələri Daşnaksutyunun fəaliyyətinə ziyan verə biləcək şəxsləri hər vasitə ilə aşkar edib izləməkdən ibarətdir.*

*Daşnaksutyun «Dənizdən – dənizə Ermənistan» yaradılması yolunda məqsədə çatmağın yollarından birini silahlı üsyanda gördüyü üçün, özünümüdafiə dəstələrinin gücü ilə bu məqsədə nail olmağın çətin olacağından öz ordusunu yaratmışdı. Bu ordunun yaradılması 1892-ci ildə 1 Qurultayda qərara alınmışdı. Rusiyada inqilabi hərəkat başlayanda Daşnaksutyunun ordularının sayı 100.000 nəfərə çatırdı.*

***Əsli ilə düzdür**: Canişinin Dəftərxanasının*
*Xüsusi Şöbəsinin iş icraçısı*

İmperator həzrətləri Qafqazda (imza)
*17 aprel 1909-cu il*

*Azərbaycan SSR EA Xəbərlər*
*Tarix, fəlsəfə, hüquq seriyası 1989, № 4 səh.. 56- 62*
( Məlumatlar ixtisarla verilmişdir).- İ. Bayramov

* **Burada və bundan sonrakı bütün kursivlər mənimdir ( İslam Bayramov )**

# TƏKRAR OLUNAN TARİX

« Dənizdən Dənizə Ermənistan istəyirdiniz .Bəs nə qazandınız ? Okeandan okeana diaspora... »
**V.Petrosyan « Ad günündə boş stullar » povestindən**

## QANLI İLLƏR

**Ümumrusiya ,Polşa, Finlandiyanın hökmran və padşahı böyük imperator II Nikolay Aleksandroviç həzrətlərinin ədalətli və xoşbəxt zamanında 1323 hicri , 1905 miladi ilində nəcib islam milləti ilə qədim erməni milləti arasında iğtişaş baş verib , hər iki xalqın milli tarixinə bir kədər müsibət səhifəsi bəxş və əlavə eyləyən Qafqazın son hadisələrinə dair qələmə alınmışdır.**

Xalqımız Qafqaz hadisələrinin baş verməsini çox səbəblə bağlayır. İğtişaşlara səbəb dörd şeydir:

**Birinci səbəb**. Erməni daşnaksutyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı.......

Muxtəsər , Şuşada , Bakıda, Cəbrayıl və Cavanşir , həmçinin Zəngəzur uyezdlərində daşnaksutyunlardan bir çox cinayət əməlləri peyda olmuşdur.....

Bunlardan başqa , erməni daşnaksutyun partiyası komandanları necə qaniçən olduqları barədə Hamazasp , Aram bəy, Murad, Bedo, Ağabəylərin,Baqratların, Soqrat və qeyrilərinin oynadıqları rollar kifayət edər.

**İkinci səbəb**. Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoyub erməni - müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmalıdır. Bulundularsa da ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb digər tərəfə növbə-növ vicdansızlıqlar etməkdə idilər. Demək ki, bir tərəfi əzib qoyduğundan, əzilən camaat qarşı tərəfdən intiqam almaq üçün hər cür təşəbbüslərdə bulunmağa məcbur olurdular. Budur ki, Qafqazın gözəl şəhərləri dağıdılıb yandırılıb, yurdlarımız qan çalasına döndərilirdi.

**Üçüncü səbəb** və iğtişaşa gəldikdə müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökümət məmurlarının Qafqazda tutduğu əqidəsinin və ermənilərin o əqildədən necə istifadə etdiklərini düşünmədilər. Bakı faciəsindən sonra erməni—müsəlman hadisələrinin bu qədər uzanmasına səbəb müsəlmanların elmsizliyidir, digər bir cəhət var isə o da müsəlmanların silahsız və müasir işlərdən xəbərsizliyidir. Burasını düşünməliyik ki, ermənilər Bakıda müsəlmanları yoxlamaq üçün öz əsgərlərinə müəyyən işarə verdilər. O vaxt müsəlman camaatı hazırlıq görüb ayıq tərpənsəydilər erməniləri bir oyanışa, bir tənbihə uğratsa idilər, Qafqaz faciələrinə büsbütün son qoyurlar, müsəlmanların da təbii şücaət və raşadəti onlara məlum olardı. Əvvəlinci faciələrdə ermənilərin bütün Qafqazı işğal altına alacaq qədərində əsgərləri yox idi. Ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir ovuc könüllü əsgərlərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırmaqla, Şuşada müharibəyə başlayır. Şuşada sülh edib, Gəncə quberniyasının sair yerlərini yandırmağa və dağıtmağa təşəbbüs edirdilər. Müsəlmanlar isə əvvəlcə bunları bilməyib sonralar gözlərini açdılarsa da, ermənilər Türkiyədən və İrandan əsgər yığıb müsəlmanları əzməyə çalışırdılar.

**Dördüncü səbəbə** gəldikdə ermənilərin avtonomiya - idarə muxtariyyəti həvəsində olmalarıdır. Bu səbəbiyyəti isbat üçün qələmə bir o qədər güc sərf etmək lazım deyil. Zira, ermənilərin hər aybaşı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal etmələri bunlara kamil bir subutdur. İngiltərənin verdiyi proqrama uyğun olaraq Türkiyədə muxtariyyət idarə həvəsində bir xeyli çaışdılar. Nəhayət, erməni qırğını Sasun , Zeytun, Van* faciələri düşəndən sonra İngiltərəyə bir də müraciət etməyə məcbur oldular. İngiltərə isə son dəfə olaraq «Britanyanın hərbi gəmiləri Türkiyyəni Anadolu dağlarında cövlandan acizdir, nə yapayım» - deməklə erməniləri Türkiyədə idarə muxtariyyəti həvəsindən bir növ düşürdü.

İngiltərədən naümid olan ermənilər Katalikos Mkrtıç cənablarını Berlinə, yəni Almaniyaya göndərməyə məcbur oldular. Mkrtıç cənabları Almaniya kabinəsindən «indi qılınc zamanıdır» sifarişini ermənilərə yetirən kimi, ermənilər Türkiyədə münəzzəm bir Daşnakstyun partiyası təşkil və tənzim etdilər. Türkiyə hökuməti ilə gözünü bərəldib dörd gözilə bu işlərə baxdığından Mkrtıç cənablarını İstambuldan Qüdsi Şərifə qovub Daşnaqstyun partiyasının da rəvacına əsla meydan vermədi. (Necə ki, ermənilər Tiflisdə erməni-müsəlman sülh məclisində daşnaqsutyun partiyası barəsində lazımınca məlumat vermişdilər.) Ermənilər Türkiyədə onların təzə partiyalarının rəvacını qeyri qabil gördükdən sonra Qafqaza göz dikərək, qədim əsrlərdə İranın «bijənləri»** tərəfindən təxrib edilmiş Ermənistanı diriltmək həvəsinə düşdülər. Buna şahid 1878-ci ildə baş verən Qars müharibəsində şücaət göstərən erməni polkovniki Lorus-Məlikovun Eçmiədzin yaxınlığında olan Ani xərabəsini *** dövlətdən tələb etmək kimi əsassız xəyaldır. Bunların banisi və göstəriş verən isə erməni yazıçısı Arsruni cənabları **(Tiflisdə çıxan «Mşak» daşnak qəzetinin redaktoru - İ.B.)** idi. Bu cənab Türkiyə şəraitinə baxıb, işin çətinliyə düşdüyünü görüb, erməniləri Qafqaza daşımağı məsləhət görmüşdü. Erməniləri Qafqaza daşıyandan sonra Arsruninin ömrü vəfa etmədiyndən , əvvəlinci Dövlət Duması vəkillərindən Bahadurov cənablarını yerinə naib qoymuşdu. Bu cənab hər halda bir fürsət axtarırdı ıki, Arsruni dünyadan gedəndə ona vermiş göstərişə -- təlimata itaət etsin , axırda erməni –müsəlman qırğınını salıb. Salıb da Dövlət Dumasına vəkil seçildi. Bu cənab Peterburqa yollandığı zaman ustadının verdiyi göstərişi - təlimatı özü ilə aparıb Dumada elan etmək istədi. Beləki, erməni və müsəlmanı müharibə səbəbinə bir-birindən ayırmaq niyyəti ilə Bakı quberniyasını və Gəncə quberniyasının aran yerlərini müsəlmanlara verib , İrəvan quberniyasını , Gəncə quberniyasınyasının yaylaq və dağbasar ölkələrini ermənilərə verib, bunları da Qars sancağı ilə birləşdirib Erməni səltənəti təşkil etmək idi. Ermənilərin çoxdan bəri bu xəyalda olduğuna bu dəlalət edə bilər ki, Qars camaatına «Rusiya sizlərdən əskər tutacaq» - deyib qorxutmaqla onları ölkənin başqa yerlərinə hicrət etdirirdilər. Yenə, Qafqazda şiəməzhəb müsəlmanlara məsləhət görürdülər ki, köçüb İrana getsinlər. Müxtəsər, bu tövr ilə ermənilər tədarük görüb öz milli istəklərinə yetişmək üçün bir çox təlaş edərdilər. Belə bir təşəbbüsdən sonra Bakı faciəsinə girişdilər ki, Arsruninin vəsiyyətinə əməl edib, müsəlmanları təzyiq ilə baba yurdlarından qovub, yerlərində səltənət qursunlar.Bunlardan məlum olur ki, iğtişaşın dördüncü səbəbi ermənilərin avtonomiya - idarə muxtariyyəti kimi əsassız xəyallardır. ……

**MƏMMƏD SƏİD.**

* Sasun, Zeytun , Van faciələri -- Zeytun (1862,1878 və 1884) , Sasun (1880) , Van (1886) Türkiyədə vilatət adlarıdır. Göstərilən illərdə bu vilayətlərdə erməni seperatist silahlı çıxışları baş vermişdir.

** Bijən - Firdovsinin « Şahnamə» əsərində pəhlivan surətlərindfən birinin adıdır. Muəllif demək istəyir ki, «İranın mərd oğulları tərəfindən qovulmuşdur».

*** Ani xərabəsi qədim erməni idarə məkəzi imiş . Məlikovun xəyalı burada qədim hökuməti bərpa etmək idi. --- ***M.S. Ordubadinin qeydi.***

## ERMƏNİLƏRİN CAVANŞİR UYEZDİNDƏKİ XAM XƏYALLARI

**Ermənilərin , necə ki , məlumdur , ən əsas fikirləri müsəlmanları Gəncə quberniyasından cıxarıb yerində Ermənistan təşkil etmək idi. Bu ,Cavanşir hadisəsinin və aşağıda yazılmış sözlərimizin hər biri ermənilərin bu fikirlərinin subutuna kifayətdir. Buna bir şahid də Tərtər dərəsindəki bütün müsəlman kəndlərinin ermənilər tərəfindən dağıdılmasıdır. Və Xaçın dərəsindəki kəndlərin də dağıdılması bu işlər üçün bir şahid misalındadır. Ermənilərin xəyalı bu kəndləri dağıdıb öz xeyirləri üçün bir şose yolu da salmaq imiş ki, Gəncədən Şuşaya qədər dağlarla bu yolun salınması üçün komitə tərəfindən ermənilərə tapşırılıb. Komitə həmin yolun xərci üçün də 60 min manat pul təyin etmişdir. Keçən martın əvvəllərində**

**həmin şose çəkilərək Kolanı kəndindən keçməli idi. Bu yolun düzəldilməsi Qalaşçapov tərəfindən dağıdılmasına təsadüf etdiyindən onun yerinə general Bauver gəldiyindən müsəlmanların şikayətinə əsasən , həmən şosenin salınması qadağan edilib. Kolanı camaatı da yerlərinə göndərilmişdi. Bu camaat ikinci sahədə avara gəzdiklərindən general Bauvar onları mühafizə altında apartdırıb öz yerlərinə sakin etdirdi. İndi də həmin yolun nişanələri Kolanı kəndində qalır.Budur ki, ermənilər Cavanşir uyezdi haqda olan fikirlərinə əməl etmək üçün nə qədər çalışdılar, çoxlu qənimət apardılar , çoxlu da islam kəndi dağıtdılar . Axırda , 1906-cı ilin yanvar ayının 1-də Papravənd müharibəsində bütünlüklə məğlub olub nə qədər ki, qənimət aparmışdılar bir o qədər də qənimət dava meydanında qoyub qaçdılar. Arzularına çatmayıb , büsbütün Şuşada və başqa uyezdlərdə siyasətləri içində də məhv oldular.**

## O ətrafın idarə bölgüsü və imtiyazlı sakinləri barədə müqəddimə.

Cavanşir uyezdi üç polis sahəsinə bölünərək idarə olunmaqdadır. 1 və 2-ci sahələrdə Həsənqaya, Sərv, Yarımca, Sistula, Kaxrılar kəndlərini çıxdıqdan sonra yerdə qalan kəndlər müsəlmanlara məxsusdur. 3-cu sahə isə Dağbasar kəndlərindən ibarət olub, əksəriyyəti varlı və sərvət sahibi olan ermənilərin əlində idi. Bu sahədə müsəlman kəndləri fəqət Dəmirli, Hacıqərvənd, Çıraqlı, Ümidli, İmarət Qərvənd, Xaçın çayı boyunca Şaxəvənd, Köhnəpəyə, Əliağalı, Sırxavənd,İsmayılbəyli kimi dağlıq kəndlərdən ibarətdir ki,Kolanlar adlandırılmışdır.

Ermənilərin xəfiyyə cəmiyyətinin cox hissəsi bu kəndlərin ələ keçrilməsi uğrunda çalışırdılar. Hər halda ermənilərin gələcək xəyallarına baxılasa da, onlara elə bir yol lazım idi ki , İrəvan , Şuşa, Zəngəzur və Gəncə ermənilərini bir-biri ilə əlaqələndirə bilsin.

Yəni , İrəvanda , yaxud Şuşadan tüfəngini çiyninə salan bir erməni soldatı yolüstü erməni kəndindən başqa bir yerdə görünmədən getdiyi yerə çata bilsin. Yuxarıda qeyd edilmiş musəlman kəndlərinin coğrafi mövqeyinə baxılarsa ermənilərin büsbütün əməllərinə möhkəm bir sədd kimidir. Ona görədir ki , ermənilər var quvvələrini bu zavallı müsəlman kəndlərini vurmaq üçün hər an tədarükdə idilər. Gündən-günə daşnaksutyunlar inqilab sularını müsəlman kəndlərinin özülünə bağlayıb dağıtmaq həvəsi ilə müxtəlif hiylələrə əl atırdılar. Onların fikirləri bu iki dərədə müsəlmanları qırıb yerində Ermənistan təşkil etmək imiş. Bu kəndlər dağıdıldıqda yuxarıda deyilən üç uyezd erməni əlinə düşəcəkdi.

## AĞRILI GƏNCƏ HADİSƏLƏRİ

***Hadisələr.*** 1905-ci il noyabr ayının 18-də Gəncə uyezdi Toğana kəndinin sakini Bayram Məşədi Məhəmmədəli oğlu ,Mehrəli Zeynal oğlu, Əmrah Həsən oğlu, Mirzə Məhəmməd Əli oğlu gündüz saat 6-7 radələrində erməni hissəsi Kolanı yolu ilə evlərinə üç at yükü buğda apardıqları vaxt erməni bağlarının arasından üstlərinə şiddətlə güllə yağdırılır.

Bu gülləboran əsnasında Bayram Məşədi Məhəmmədəli oğlu , Mehrəli Zeynal oğlu öldürülür, yoldaşları isə şəhərə qaçaraq polisə xəbər verirlər. Yoldaşlardan Bayram Həsən oğlu gülləboran zamanı malları ölənlərin yanında buraxıb , yolun yuxarı səmtinə qaçsa da , ermənilər onu öldürmək qəsdi ilə təqib edirlər.

Bir dəstə erməni və müsəlman kömürçüləri yetişib zavallını xilas etməklə mallarını da alıb özünə tapşırırlar. Bu əsnada şəhər tərəfdən gələn kömürçülər iki müsəlmanı qan içində düşən bədənlərini görüncə Mollacəlilli məhəlləsinə qayıdaraq faciəli vəziyyətinə işarə vurub , araba aparıb, cəsədləri də gətirməyi onlara tövsiyə edirlər. Bu ağrılı xəbəri Mollacəlilli camaatı alınca Salman Mehdi oğlu və Kərbalayı Məhəmməd İbrahim oğlunin başçılığı ilə və iştirakı ilə bir dəstə müsəlman cənazələri götürmək üçün yollanırlar. Camaat cənazələr düşən yerə yaxınlaşdıqda **pristav Qamsaraqan*,** müavini Əbil bəy Qapanlinski , şəhər müstəntiqi Leya Oqter , bir neçə də qaradovoylardan ibarət bir dəstə polisi cinayət yerində hazır görürlər.

Qətlə yetənlərin arxadaşları istintaq olunduqda qatillərin Gəncə sakini Qrişa Santeryansın oğlu Avetis Avetisov, Qriqor Tiyunovun özləri və yoldaşlarından ibarət olduqları meydana çıxır.

Protokol tərtib ediləndən sonra faytonlara minərək şəhərə qayıdırlar. Mollacəlilli müsəlman əhalisinə gəldikdə Əbil bəy Qapanlinskinin razılığı ilə ermənilərə düçar olmamaqdan ötrü düz yolla getməyib , bağlar arasından getməyə başlayırlar. Lakin pusquda duran ermənilər onlara atəş açırlar. Şiddətli atəş Yerivant Yegyayevin bağından edilirmiş. Atəşin istiqamətinə uyğun olaraq müsəlmanlar öz məhəllələrinin cənub-şərq tərəfinə çəkilib atəşdən sovuşmağa məcbur oldular. Güllələrin bütün şəhərə əks edən dəhşətli şırıltısından erməni bağlarından yüzə qədər daşnaksutyun döyüşçüsü əldə silah üzə çıxır. Ermənilərin müsəlmanlar üstünə açılan atəşini görən daşnaksutyun döyüşçüləri beş-beş, on-on ətrafda mövqe tutmaqla, müsəlmanları atəşə basırlar. Bu vaxt atəşin yağmur kimi yağan güllələrinin sədasını mollacəlillilər eşidincə qardaşlarını düşməndən xilas etmək üçün ayaqlanıb, hərəkət edirlərsə də, erməni komandirlərinin nizam altında tərbiyə almış əfsərlər olduğundan , bundan əlavə hərbi hazırlıqları olmadığından müsəlmanlar müharibəsiz evlərinə qayıdırlar.

Pristav Qamsaraqan işin bu dərəcədə ağır hal almasını görüncə, nəhayət polismeysterə xəbər verir. Polismeyster Həsən bəy isə sabiq general - qubernator Taqaşvili cənabına bu atışmanın hamısı barədə ərzi-hal göndərir. General bunun ardınca komandir sotnu Orlovun komandası altında əlli kazak göndərib, bu münaqişələri yatırtmaq üçün qəti əmrini verir. Kazaklar hadisə yerinə yaxınlaşar-yaşxınlaşmaz əhəmiyyətli sığınacaqlarada mövqe tutmuş ermənilərdən üstlərinə atəş açılır. Qaradovoy Möhsün adlı müsəlmanın sözünə əsasən pristav Qamsaraqan , Ter-Yepremov və başqa erməniləri əvvəlinci sahəyə göndərib , ermənilərin hamılıqla yığışıb ikinci sahədə müharibə etmələrini xəbər verir. Əvvəlinci sahənin erməniləri qeyri-təbii surətdə dükanlarını bağlayıb ikinci sahəyə yürüş edirlər…Noyabrın 19, 20, 21-də havaya güllələr atılsa da , heç bir tərəfə xəsarət olmadı. 23 –də ermənilər gecə müsəlmanlara qəflətən gecə basqını xəyalına düşdülər. 24 noyabrda camaat körpüyə yığılıb sülh üçün intizar oturlar

* *Qamsaraqan - erməni millətindəndir .( Ordubadinin qeydi)*

***…danaksutyun vəhşilərinin Gəncədə müsəlmanlara verdiyi xəsarətlərin icmalı:***

1. Noyabrın 8-də beş daşnaksutyun Bağman sakini Abbas Həsən oğlunu Dərə bağında öldürmüşlər…

5. Noyabrın 16-da Azad kəndinin yuxarısında Böyük Kolonoya küçəsində Zurnabaddan gələn iki nəfər - Qasım Böyükişi oğlu və başqa bir adı naməlum Bağman sakinini tutub , qollarını bağlayıb arxaları üstə qoyublar, yenə «ov» üçün ətrafa getdikdə biçarələr yüz fəlakətlə açılıb qaçmışlar.Bu barədə polisə xəbər verilmişdir.

6. Noyabrın 18-də ermənilər Toğana kəndinin sakini Bayram Məşədi Məhəmmədəli oğlunu öldürürlər, necəki, hadisələrin əvvəlində deyilmişdir.

Bunlardan məlum olur ki, ermənilər indiyə kimi 30 nəfər silahsız və günahsüz musəlman öldürmüşlər ki, hamısı təfsilatı ilə yazılmışdır.

**M.S. Ordubadi**

**« QANLI İLLƏR » Bakı 1991**

* * *

## YELİZAVETAPOL POLSMEYSTERİNƏ RAPORT

*Noyabrın 18-də səhər saat 7-də məlumat aldım ki, Kolonoya yolunda* tatarlar öldürülüb. Dərhal iknci hissənin pristav köməkçisi Əbdül bəy Qapanlinskini də yanıma alıb hadisə yerinə gəldim…..*

*Krikor Ter-Artunyanın və Hacı Bülbülovun bağları arasında iki tatar meyidi gördüm. Ölənlər Toğana kənd sakinləri - Məşədi Məmmədəli oğlu Bayramov və Mehralı Zeynal oğlu*

*idi. Birində beş , digərində isə dörd güllə yarası var idi. Yarım saatdan sonra hadisə yerinə müstəntiq Lyauter , pristav köməkçisi əvəzi Lisikov və başqaları gəldilər…..*

*Meyidlərə baxanda və muəyyən sorğu sualdan sonra mən müstəntiqlə faytona minib, erməni kilsəsinin yanına gəldim. Heç beş dəqiqə keçməmiş Çaylı səmtindən Məşədi Rəhim Hacıməlikov və Hadi Tat Mustafa oğlunun taxta ambarı tərəfdən atılan güllələrin səsini eşitdim . Faytonçu Avetis Şuşanov yaralandı. Atəş getdikcə bərkiyirdi. Mollacəlilli tərəfdən , Muqəddəs Nina gimnaziyasının** tinindən daha dəhşətli atəş açılırdı. Pristav köməkçisi Qapanlinskiyə göstəriş verdim ki, bu atəşi təcili kəssin, özüm isə atəşi dayandırmaq üçün Donlukov küçəsi ilə yuxarı qalxdım.*

*Erməni küçələrində tatar gözə dəymirdi . Halbuki əvvəllər bura dolu olardı. Yenə də köhnə erməni kilsəsinin yanına döndüm. Burada bir nəfər tatar faytonçusunun meyidini gördüm. Onun adını bilmirəm. Tezliklə , qoşun da gəldi. Atəş kəsildi. Tam sakitlik yarandı.*

*Ayın 19-da səhər tezdən hacıməliklilər atəş açdılar. Lakin sayca az olduqları üçün var-dövlətlərini tərgiyib şəhərin birinci hissəsinə çəkildilər. Bundan sonra ermənilər tərəfindən onların evləri darmadağın edildi. Hadı Tat Mustafa oğlunun taxta ambarı və evi yandırıldı. Günorta çağı iki yüzə qədər silahlı adam ikinci hissəyə hücuma keçdi. Ancaq artilleriya gücünə onların qabağı alındı. … Həmin gün mənim xahişimlə general Takayşvili Şamaxı alayının bir bölməsini Lisikovla birgə tatar Çaylısına ezam etdi. Vuruşma başlayan kimi onlar Çaylının bütün evlərini topa tutdular.*

*Noyabrın 20-də səhər tezdən mollacəlillilər Kreşenski küçəsi ilə gedən ermənilərə atəş açdılar. Ancaq bunun nəticəsi olmadı. Axşam saat ikidə hamı yığışıb şəhərin birinci hissəsinə gəldi. Müsəlmanların əmlakı və evləri yandırıldı. ….*

*21-də gündüz də , axşam da sakit keçdi. 22-də səhərdən sakitlik idi, axşam saat 9-dan səhər 6-ya kimi , xüsusən gecə saat 3-də şiddətli döyüş oldu. Ayın 23-də səhər Bağman və Balabağmanın silahlı dəstələri quberniyanın hər tərəfindən yığılmış minlərlə adamla birgə atəş aça-aça şəhərin ikinci hissəsinə keçməyə cəhd göstərdi. …Lakin onlar qoşun tərəfindən dayandırıldılar.*

*Avanes Stepanovun bağında iki tatar meyidi , fotogenlə dolu iri çən, cır-cındır, görünür sahibi ilə gəlmiş itin ölüsü, tatarlara başçılıq edənin meyidi , qara bayrağı tapıldı. 24 və 25 noyabrda iknci hissədə sakitlik idi. Yuxarıda qeyd etdiyim üç meyiddən başqa , dörd gün ərzində mənim ötəri məlumatıma görə bunlar öldürülmüşdür:*

*1. Tağı bəy Hacıməlikov 2.Mikayıl Hacıməlikov 3. Hadi Tat Mustafa oğlu 4. Hacı Rəhim Hacıməlikovun dükanında yaşayan naməlum adam. Mollacəlillidən Güllü Aşur qızı 5. Həmin küçədən Əli Nağı oğlu.*

A. KOMSARAKAN,
İkinci hissənin pristav əvəzi

27 noyabr 1905-ci il.

ƏHMƏD İSAYEV
«GƏNCƏ VƏ GƏNCƏLİLƏR» Bakı 1991- ci il

* * *

* **Koloniya** – almanların yaşadığı Yelendorf (hazırda Göygöl şəhəri) nəzərdə tutulur

* * ***Muqəddəs Nina gimnaziyası*** – Hazırda Fövqəladə Hallar Nazirliyinin regional şöbəsi

**( İslam Bayramovun qeydi)**

**TIFLISSKIY LISTOK qəzeti**

Ordunun tam hərəkətsizliyi günorta saat 2-yədək davam etdi. Erməni məhəllələrinə dolan tatar kütlələrinin qabağını ancaq daşnak özünümüdafiə dəstələri saxlayırdı.Onlar **da öz adlı - sanlı rəhbərləri Abram Gülxəndiyan* və Martiros Varjapedin ("Müəllim")** yoxluğu səbəbi ilə zəif idilər.Onlar öz yerlərinə özünümüdafiə dəstələrinin rəhbərliyini Aleksandr Balasyana tapşıraraq, Yelizavetapol rəhbərliyinin tapşırığı ilə Tiflisə yığıncağa getmişdilər. Ancaq saat 2 – də Yelizavetapola qarnizon rəisi general Fleyşer və rotmister Xutsiyev gəldilər.Tiflisə canişinə teleqram göndərildi: " General Takayşvili hərəkətsizdir". Rotmister Xutsiyev və Fleyşer orduya komandanlığı öz əllərinə götürdülər.

**"Tiflisskiy listok" 1.12.1905**

Erməni dəstələrinin köməyi ilə Fleyşer və Xutsiyev talançılara qarşı top çıxararaq ciddi hərəkətə başladılar. Erməni məhəllələrinə hücum edən tatarlara ilk top atəşi saat 3-də başladı.

**" Tiflisskiy listok" 23.11.1905**

Ermənilər də borclu qalmadılar. Dekabrın 22-də **Martiros Varjaped Topalhəsənli kəndini** mühasirəyə alıb yandırdı, əhalini qırdı. Onun sakinləri Yelizavetapolda ermənilərin darmadağın edilməsində iştirak etmişdilər və kənd tatar yürüşlərində baza və toplanış məntəqəsiydi. Bundan sonra **Mollacəlilli, Dozular, Balulax (?) **** və bir çox başqa kəndlər də darmadağın edildi.

**( «Т.Л.», 3.1.1906 ). Tiflisskiy listok**

* Abram Gülxəndiyan ( 1875 -1945 ) sonralar erməni daşnak hökuməti zamanı daxili işlər və ədliyyə naziri, Ermənistanın sovetləşməsindən sonra Parisdə yaşamışdır. Daşnak Partiyasının və erməni milli-azadlıq hərəkatının tarixi, o cümlədən "Erməni –tatar qarşıdurması"(1933)-na dair əsərləri vardır. (**qeyd İ. Bayramovundur**)

* *kəndin adı səhv verilib ( **İ.Bayramov** )

X.Rəfibəyov 1920 - ci il mayın 12- də XI Ordunun 32-ci diviziyasının xüsusi şöbəsinin əməkdaşları tərəfindən həbs olunub. Yeddi nəfər ermənin -- B. Şahnazarov, A. Sarkisov, O. Vartanov, A. Kevorkov, E. Kevorkov, A. Akopov və M.Arutyunovun danosu əsasında güllələnib. İstintaqı M.Safikyan adl milliyətcə erməni aparıb.

*GƏNCƏ ŞƏHƏRİNİN GENERAL – QUBERNATORU XUDADAT BƏY RƏFİBƏYOVUN* həbs olunarkən istintaqa verdiyi ifadə:*

AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASI
FÖVQƏLADƏ KOMİSSİYA

Protokol №

Mən, aşağıda imza edən, müttəhim sifəti ilə dindirilərkən ifadə verirəm:

1. Familiyası --- Rəfibəyov
2. Adı, atasının adı --- Xudadat Ələkbər oğlu
3. Yaşı 43
4. Mənşəyi - bəy
5. Yaşadığı yer - Gəncə şəhəri
6. Məşğuliyyəti --- həkim
7. Ailə vəziyyəti - evli, üç uşaq atası
8. Əmlak vəziyyəti --- ev və altı desyatin bağ
9. Partiyalılığı - bitərəf
10. Siyasi əqidəsi -
11. Təhslil - ümumi: universitet, xüsusi: həkim - cərrah
12. Nə ilə məşğul olmuş, harada xidmət etmişdir:
    a) 1907-ci ildən 1914-cü il müharibəsinədək şəhər xəstəxanasında işləmiş və ona başçılıq etmişdir.
    b) 1917-ci il fevral inqilabınadək eyni zananda, Gəncədə Şəhərlər İttifaqı lazaretinə başçılıq etmişdir.
    v) 1917-ci il oktyabr inqilabınadək və 1918-ci ilə kimi həmin vəzfədə işləmişdir.
    q) Oktyabr inqilabından müsavatçılar hakimiyyətə gələnə və həbs olunan günədək lazaret bağlandığına görə həkimliklə məşğul olmuş, 1919-cu ilin may ayında Gəncə şəhəri sakinlərinin təkidi ilə fərmanla Gəncə quberniya idarəsini qəbul etmişdir.
13. Əvvəllər məhkəməyə düşməsi haqqıda məlumat:
    Mühakimə olunmamış və istintaqa cəlb edilməmişdir.

**İŞİN MAHİYYƏTİ İLƏ BAĞLI İFADƏ:**

Mənə qarşı irəli sürülən ittihamda özümü müqəssir saymıram. Erməni kəndlərinin yandırılması və dinc əhalisinin tərkisilah edilməsi ilə bağlı mənə qarşı irəli sürülən ittihamda özümü günahkar saymır və bununla əlaqədar ifadə vərirəm: 1907-ci ildə Rusiyadan qayıdandan, ta 1918-ci ilədək həkimliklə məşğul olmuşam, şəhər idarəsində və Gəncədəki Şəhərlər İttifaqı İdarəsində xidmət etmişəm. Türklər gələndən sonra da lazaretə rəhbərlik edir, türk əskərlərini

və İrəvan quberniyasından olan qaçqınları müalicə edirdim. 1919-cu ilin mayında şəhər və qəza camaatının təkidi və arzusu ilə Gəncə Quberniya İdarəsini qəbul etməyə razı oldum və 1919-cu il mayın 6-da Azərbaycan hökuməti tərəfindən həmin vəzifəyə təyin edildim. Quberniya idarəsində işə başlayanda mənə əmin-amanlığı bərqərar etmək təklifi verildi. Çünki anarxiya baş alıb gedir, quldur dəstələri quberniyada özbaşınalıq edir, qarətlə məşğul olurdular. Hökumətin gördüyü tədbirlər nəticəsində demək olar, quberniya ərazisində quldur dəstələri ləğv edildi və bəzi dəstə başçıları üzə çıxaraq pul girovu muqabilində məhkəməyə və istintaqadək zaminə buraxıldılar. Mənim tərəfimdən və məndən əvvəl qəbul edilmiş qərarlar nəticəsində, nəinki Gəncə şəhərində , həm də bütün qəzada heç bir asayiş pozuntusuna yol verilmədi.Müsəlmanlar, eləcə də ermənilər arasında olmuş oğurluq hallarını gizlətmirəm. Buna qarşı tədbirlər görülmüş, oğurlanmış mal-qara və əmlakın geri qaytarılması , müqəssirlərin qanuni məsuliyyətə cəlb olunması halları da az olmamışdır. Partizan dəstələrini n yartadılmasında fəal iştirak etməmişəm….

Rəsmi şikayətlərə gəldikdə bildirirəm: Əgər ixtiyarımdakı bütün sənəd-sübutları təqdim edə bilsə idim, aydın olardı ki, mən ***Qaraçinar, İrəvan və Çaykənd erməni icmaları ilə bağlı məsələlərin dinc yolla nizama salınması üçün hər cür tədbir görmüşəm. Yuxarıda adları çəkilən kəndlərin İrəvandan gəlmiş daşnak xadimləri və yerli cinayətkar ünsürlər tərəfindən təhrik edilən əhalisi 1917-ci ildən bəri heç bir hakimiyyəti tanımır, bir çox fəsadlar törədirdilər. Onlar aranda yaşayan müsəlmanların yaylağa qalxmasına mane olur, yollarda pusqu qurur , suyun qabağını kəsərək camaatı tarlaları suvarmağa qoymurdular. Müsəlmanlar bu barədə dəfələrlə şikayət etmişdilər***. Ermənilər hətta inzibati hakimiyyət orqanları nümayəndələrinin yaxına buraxmayaraq deyirdilər ki, yalnız Qarabağ Milli Şurasının tanıyırlar. Lakin Gəncə və Qarabağ sərhədlərinin əvvəlki kimi qaldığı və onların Gəncə qəza hakimiyyətinə tabe olmaları barədə Azərbaycan Müsavat Partiyasının qərarı Gəncə və Cavanşir qəza rəislərinin iştirakı ilə ermənilərə təqdim ediləndə aydın oldu ki, onlar heç bir hakimiyyət tanımır və bildirdilər ki, Ermənistandan kömək tələb edirlər. Onların özlərinin , quberniya idarəsində erməni silahlı qüvvələrinə rəhbərlik edən adamları var və onlar Ağası, Dəli Qazar, Mnasakanov və bir çox başqalarının sözünə tabedirlər. Nəhayət,mən yerli erməni icmasının nümayəndəlinə - Gəncə şəhər qlavasasının müavinləri Ter-Parseqova, Leogeryana, Mnsakanova , parlament üzvü Ter--Azaryana və başqalarına müraciət etdim. Lakin yuxarıda adları çəkilən icmaların qəza hökümətinə tabeliyi məcələsində cəhdlər əbəs idi.

Qəti tabelik haqqında qərar çıxarmış hökumətə məlumat verildi. Hökumətin qərarı icra üçün qəza idarəsinə göndərildi. Əskəran hadisələrindən sonra ermənilər Cavanşir qəzasında, Gəncə qəzasının Qaraçinar rayonunda böyük fəallıq göstərməyə başladılar. Bu hadisə ilə əlaqədar Qaraçinar rayonuna ezam olunmuş qəza rəisi mənə hakimiyyəti qəza rəislərinə tabe etdirmək, bunu ermənilərə təkcə etirazla deyil, həm də silah gücünə elan etməyi təklif etdi. Onda qəza rəisi kömək üçün qonşu kənddəki hərbi dəstəyə müraciət etdi. Ermənilər onlara atəşlə cavab verdilər və qəza rəisinin məlumatına görə, bundan sonra adı çəkilən kəndlərə qarşı hərbi əməliyyat başlamalı oldular. Nəticədə kəndlərdən çoxu zərər çəkdi , sakinlərin əksəriyyəti isə öz əmlak və mallarını qonşu kəndlərə daşıdı. Bu barədə qəza ordu qərargahına məlumat verilmişdi.

Qonşu müsəlman kəndləri biləndə ki, ermənilər Azərbaycan hökumətini tanımaq istəmirlər, silahlanaraq hərbiçilərə köməyə getdilər və böyük atışma baş verdi. Nəticədə təkcə ermənilər yox, müsəlmanlar da zərər çəkdilər. Ermənilər bir neçə müsəlman kəndini - Nodular, Qaryağdı, Liman, Dusallı, Keşar və başqa kəndləri yandırdılar. Erməni quldur dəstələri hətta **Mərzi yolunda ( Mirzik ?- İ.B. )** pusqu quraraq 50 - 60 köçəri müsəlmanı qırdılar, **taun əleyhinə Zurnabad stansiyasını ** ələ keçirdilər**. Qəza hökuməti böyüyüb nəhəng hadisəyə çevrilə biləcək bu qarışıqlığın qarşısını almaq iqtidarında deyildi. Camaatı barışdırmaq, oğurlanmış şeyləri və aparılmış adamları qaytarmaq üçün mən yerli nüfuzlu ermənilərdən komissiya təşkil edərək görülən tədbirlər barədə onlara xəbər verməkdən ötrü kəndlərə

göndərdim. Munaqişəni tamamilə ləğv etmək üçün parlament komissiyası göndərməyi xahiş etdim.

Mən dəstə başçılarına müraciətimdə təklif etmişdim ki, dinc erməni əhalisinə qarşı münasibətdə hər hansı pozuntu və incikliyə yol verməmək üçün , bütün tədbirləri görsünlər. ***İdarə rəisi Nağıyev xəbər verirdi ki, qonşu kəndlərdən qüvvə toplayaraq silahlı basqınlar edən Çaykənd ermənilər ehtirasları daha da qızışdırırlar***. Ermənilərin dörd yandan hücumu nəticəsində müsəlman və ermənilər arasında xeyli tələfat oldu. Yaralılar şəhər xəstəxanasına gətirilmişdi. Bu barədə mənə məlumat verildikdə ,onların öz sərəncamına görə əsirləri müfafizə altında Gəncəyə gətirtdim və erməni icmasının nümayəndələrinə yazılı surətdə təhvil verib qəbz aldım. İstintaqsız həbsxanaya salındıqlarını iddia edən Şahnazarovun və başqalarının dediklərinə cavab olaraq məlumat verməyi lazım bilirəm ki, onları Gəncə polismeysteri dindirmiş, dindirmə protokolu və əsir alınmış Qaraçinar sakinlərindən silahların müsadirə olunduğu və daşnak təşkilatlarının başçılarının familiyaları yazılmış, Şahnazarovun imzaladığı siyahılar onun xahişi ilə quberniya rəhbərliyində saxlanılmışdır. Sonra isə onların bəziləri girov və casusluqda şubhəli şəxslər kimi göndərilmişdir. Qatı daşnak N.Babakevhyansın danosuna gəldikdə isə o, müsəlmanlarla erməniləri heç cürə barışdıra bilməzdi… Qatı daşnak olan N.Babakevhyansın dedikləri diqqətə layiq ola bilməz və həqiqətə uyğun deyildir.Əlavə edirəm ki, evimdə tapılmış gümüş dəstəkli qılınc mərhum atamındır.Tüfəng və Brauninq sistemli revolver də rəhmətlikdən bizə yadigardır. Qalan iki tüfəng və bir revolver çar polkunda komandir olmuş əmim oğlununkidir. Bir tüfəng və iki revolveri isə evdə saxlayırdıq. Üzüm yığımı vaxtı qarovulçulara verər, ya da onlar təsərrüfat işləri ilə əlaqədar kəndə gedəndə özləri ilə götürərdilər.

*«Xalq Qəzeti » 28 fevral 1992-ci il № 42*

**** May ayının 12- də həbs edilərək Bakı şəhərinə aparılmış , 10 gün sonra Nargin adasında güllələnmişdir. Onun güllələnməsi xəbəri Gəncədə narazılığı daha da artırmış, mayın 25-dən 26-a keçən gecə XI Qırmızı Ordunun 600 nəfər əskər və zabiti Gəncənin müsəlmanlar yaşayan hissəsində tərkisilah edilərək əsir götürülmüşdür. Şəhərin bu hissəsi üsyançıların əlinə keçmiş , lakin şəhərin 2-ci hissəsində yaşayan ermənilərin köməkliyi ilə mayın 27-də üsyançıları mühasirəyə alaraq, onların müqavimətini qırdılar.Üsyanı yatıdıqdan sonra erməni və ruslar üç gün ərzində Gəncədə qanı su yerinə axıtdılar.Qeyri-rəsmi məlumata görə bu günlər ərzində 20 min nəfərdən artıq dinc əhali qətlə yetirilmişdir.İyun-avqust aylarında üsyanda iştirak etməkdə və ya onlara yardımda şübhəli bilinən 13 min adam məhkəməsiz güllələndi. Məğlub olmasına baxmayaraq , Gəncə üsyanı Azərbaycan tarixində şərəf və qəhrəmanlıq səhifələrindən biri kimi qalmaqdadır.***

**** * Hazırda Gəncə qəsəbəsində Azərbaycan Bioloji Kombinatının binası***

***(qeydlər İslam Bayramovundur)***

## *NƏRİMAN NƏRİMANOV*
## *« UCQARLARDA BİZİM İNQİLABIN TARİXİNƏ DAİR » məruzəsindən parçalar*

*Mərkəzi Komitəyə STALİN YOLDAŞA*
*SURƏTİ : TROTSKİ YOLDAŞA*
*RADEK YOLDAŞA*

*......Mən bu qeydləri 27 may 1924-cu ildə edirəm.*

*.....Məruzədə təxminən bu haqqda danışılır: 1) « yoldaş » ermənilər və rus şovinistləri - bakı təşkilatının rəhbərləri cinayəkar siyasət aparırlar, öz keçmişlərindən qorxaraq , öz məqsədlərinə çatmaq üçün solçuluq rolu oynayan müsəlman işçilərin quvvəsindən istifadə edərək öz məqsədlərinə nail olmaq -- bizim partiyanı dağıtmaq.*

*2) Türk işçilər arasında işlərin aparılmaması səbəbindən və onlara düzgün yanaşıl-madığından , işçi – türklər arasında antoqonizm inkişaf edir ki, onlar bilərəkdən rus fəhlələri ilə birlikdə ölkənin idarə edilməsində iştirak etsinlər və s.*

*3) bu məlum proqram əsasında, məlum şəxslər tərəfindən aparılır, onlar çalışırlar ki, nəyin bahasına olursa-olsun öz çirkin məqsədləri üçün Azərbaycanı şəxsiyyətsizləşdirsinlər, quvvədən salsınlar. Bu məqsədlərinə çatmaq üçün onlar özləri çıxış etmir , Azərbaycan maraqlarının müdafiəçiləri əleyhinə Azərbaycandan olan türkləri çıxış etməyə məcbur edirlər . İş: « Parçala və hökm et» şüarı ilə getmişdir və gedir. Serqoya məni Azərbaycandan çıxarmaq ona görə lazım idi ki, öz « qafqaz » siyasətini inkişaf etdirmək üçün bütün maneələri məhv etsin. O, Mirzoyana məsləhət üçün müraciət etmişdir, Mirzoyan demişdir: «Biz ancaq sənin razılığını gözləyirik və Nərimanov buralarda olmayacaqdır». Serqo demişdir: Yıxın… Mizoyan tərəfindən bu yerinə yetrilir. Onu , Xanbudaqovu AKP MK –ya katib seçirlər və iş başlayır. O, uyezdlərə öz qohumlarını göndərir və göstəriş verir ki, Nərimanovun adını heç bir yerdə çəkməyin , onu heç bir yerə seçməyin və s. Bu cür işi bitirdikdən sonra , Xanbudaqov Mırzoyana deyir: «Mənim uyezdlərim hazırdır». Mizoyanın fəhlə rayonları isə artıq çoxdan hazırdır. Serqoya məruzə edirlər ki, artıq , Nərimanovu qorxmadan çıxarmaq olar. Moskvada yüksək vəzifə vermək adı ilə çıxarırlar. Və doğurdan da məni SSRİ MİK-in sədri seçirlər. Mirzoyan və Serqo bayram edirlər: məni işdən çıxardılar və xüsisi heç nə baş vermədi , hətta heç kim Nərimanovun adını belə çəkməyə cəsarət etmədi….*Ancaq yazıq Azərbaycan bu vicdansız fırıldaqçıların əlində oyucaq olacaqdır.

Mənim dediklərimin digər hissəsi Azərbaycanda aparılan daşnak işləri haqqındadır, güman edirəm ki, bu il aşkara çıxacaqdır. Dağlıq Qarabağ Mirzoyanın güclü təzyiqi ilə muxtar vilayət elan edilmişdir. Mən olanda bu mümkün deyildi, ona görə yox ki, mən bu muxtariyyatın əleyhinə idim, sadəcə olaraq ona görə ki, erməni – kəndlilər özləri bunu istəmirdilər. Mirzoyan bu vaxt ərzində öz daşnak - müəllimlərinin köməyi ilə zəmin hazırladı və məsələni Zaqafqaziya ölkə komitəsinə çıxardı. Bu andan başlayaraq erməni və türk kəndliləri arasında munasibətlər ciddi kəskinləşdi. Bundan sonra məsələ Gəncənin dağlıq hissəsi* haqqındadır və s…. Azərbaycanda daşnak siyasət i tam gücü ilə işləyir. *Mənim üçün kiçik bir tərəddüd də yoxdur ki, AKP MK Serqonun və Stalinin şəxsində bizə - türklərə inanmır, və Azərbaycanın taleyini daşnak – ermənilərə tapşırırlar. Təəccüblüsü isə budur ki, bu adamlar belə fikirləşirlər ki, türklər o qədər axmaqdırlar ki, bütün bunları başa düşmürlər….*

*……… Artıq getməyə yol yoxdur. Bütün bunları , mən təkrar edirəm , vicdanlı işçilər - kommunistlər - Azərbaycandakı türklər unutmayacaqlar.*

***Azərbaycan SSR Elmlər Akademiyası XƏBƏRLƏR***
***( tarix, fəlsəfə, hüquq seriyası ) 1989 №4***

* * *

**** Ermənilərin də yaşadığı indiki Göygöl, Şəmkir, Daşkəsən rayonlar ı (qeyd İ.Bayramovundur )***

***18 iyul 1989-cu ildə SSRİ ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN İCLASINDA Ermənistan SSR ALİ SOVETİ RƏYASƏT HEYƏTİNİN sədri Q. M. VOSKANYANIN çıxışından:***

*… Məsələnin tarixi Sizə məlumdur. Ermənistanda sovet hakimiyyəti qurulmasının ertəsi günü Azərbaycan İnqilab Komitəsi özünün 1 dekabr 1920-ci il dekreti ilə Dağlıq Qarabağı, Naxçıvanı və Zəngəzuru Sovet Ermənistanının ayrılmaz hissəsi elan etmişdi. Bu akt gənc sovet dövlətinin milli siyasətinin məğzini ifadə edərək , əsl beynəlmiləl münasibət idi və zəhmətkeşlər tərəfindən böyük ruh yüksəkliyi ilə qəbul edildi. Azərbaycan İnqilab Komitəsinin bu dekretini V.İ. Lenin, Kirov, Orconikdze alqışladılar.Ancaq, bu haqda açıq demək lazımdır, Azərbaycanın milliyətçi əhval- ruhiyyəli rəhbərliyinin təzyiqi altında tezliklə RKP (b) MK-nın Qafqaz bürosu qaşısında məsələ qaldırılaraq , Dağlıq Qarabağın Sovet Ermənistanının ayrılmaz hissəsi elan edilmiş öz qərarına yenidən baxılmasını təkid etmişdir, bunu Azərbaycanda antisovet quvvələrin qaçılmaz fəllaşmasına səbəb olacağı ilə izah etmişlər. Bu fakt, Dağlıq Qarabağı Ermənistan SSR-in tərkibində saxlamaq haqqındakı RKP (b) MK -nın Qafqaz bürosunun 4 iyul 1920-ci il qərarı, onu göstərir ki, Azərbaycan rəhbərliyinin dəlilləri əsaslı deyildir. Ancaq ertəsi gün Stalinin təkidi ilə Qafqaz bürosu öz qərarına yenidən baxmış , nəticədə 95 faizi ermənilərdən ibarət olan vilayət - Dağlıq Qarabağ mexaniki olaraq Ermənistandan qoparılmış və Azərbaycanın tərkibinə birləşdirilmişdir.* ***Nə vilayətin , nə də Ermənistan SSR-in əhalisi bu fəryad edən ədalətsizliklə barışmamışlar. Sonrakı onilliklər ərzində erməni xalqı və respublikanın rəhbərliyi dəfələrlə tarixi ədalətin bərpa edilməsi haqqında məsələ qaldırmışdır.Buna səbəb həm də o idi ki, DQMV-nin sosial- iqtisadi inkişafdan geri qalması aydınca görünür, vilayətin erməni əhalisinin milli huquqları və şərəfi tapdanır, onun mənəvi inkişafına pərdələr qoyulurdu. …….***

*20 fevralda DQMV-nin xalq deputalar Sovetinin növbədənkənar sessiyası qərar qəbul emişdir ki, Azərbaycan və Ermənistanın dövlət hakimiyyəti orqanlarından DQMV-i Ermənistanın tərkibinə birləşdirilməsi haqqında xahiş etsinlər.Bu qərar quvvədə olan konstitusiya normaları çərçivəsindən kənara çıxmır. Bu ilin 15 iyununda Ermənistan SSR Ali Soveti , erməni xalqının yekdil iradəsini ifadə edərək , DQMV- nin Ermənistan SSR-in tərkibinə qəbul etməyə razılıq vermişdir və SSRİ Ali Sovetinə xahişlə müraciət etmişdir ki, bu məsələyə baxsın və bu məsələni müsbət həll etsin. Biz, başa düşürük ki, belə çətin məsələnin həlli zamanı hər iki respublikada fovqalədə gərgin vəziyyət olduğu nəzərə alınmalıdır……*

*……. Yoldaşlar , bizə təqdim edilmiş qərar layihəsi haqqında öz fikirlərimi bildirmək istiyərdim. Görünür və çox təəssüf ki, biz rəyasət heyətinin üzvlərinə Ermənistanda və DQMV-dəki vəziyyətin kəskinliyini və tragizmini çatdıra bilməmişik. Belə qərar qəbul edildiyi təqdirdə ,o erməni xalqında qəm-qüssəyə, ümidsizliyə səbəb olacaq , çünki bütün erməni xalqı gözləyirdi ki, bu məsələnin baxılmasında SOV.İKP MK--nın aprel Plenumundan mənbələrini götürən partiya konfransının qətnamələrinin tələbləri rəhbər tutulacaqdır. Mən SSRİ Ali Soveti Rəyasət Heyətinin bütün üzvlərinə müraciət edirəm –Sizdən xahiş edirəm ,bizim xalqın ümidlərinə və dərdlərinə, SSRİ xalqları arasında dostluğun möhkəmləndirilməsi maraqlarına bir daha dərindən nüfuz edəsiniz . Nə üçün bir- birimizə doğru addım atmayaq, kompromiss, alternativ tapmayaq.*

***«PRAVDA » 20 iyul 1988-ci il.***

# ERMƏNİLİK və DAĞLIQ QARABAĞ ƏYRİ GÜZGÜLƏRDƏ*

**( Şair və yazıçılar , jurnalistlər və digər xadimlərdən seçmələr, istintaqa verilmiş ifadələr , sənədlər )**

*** Əvvəlcə bu fəsilə şərhlər vermək istədim. Sonra gördüm ki, elə şərhlər də materialların özü qədər olacaqdır. Odur ki, fikirimdən daşındım. Şərhlər digər fəsillərdə var. Bir də fəsilin başlığı hər şeyi deyir - Ermənilik və əyri güzgülər. Oxuyub özünüz nəticə çıxarın ,əyri güzgülərdə hadisələrin düzünü görün.**

**( İslam Bayramov )**

**... Ermənilik –** bu bir təzahürdür. Fenomenal və qeyri- adi bir təzahür.Onda adi dünyadakı kimi hər şey sadəcə olaraq yaxşı və pisdən ibarət deyildir. Hər şey tamamilə baçqa cürdür, antimaddə kimi. Antimaddə adi maddə ilə qarşılaşdıqda annihilyasya (bir- birini qarşılıqlı məhv etmə) baş verir. Ermənilkdə - doğru yalandır, humanizm – insananifrətdir, sülhsevərlik ekspansiyadır,müdafiə - aqressiyadır, qəhrəmanlıq – banditizmdir, məntiq – mənasızlıqdır (məntiqsizlik)....
Ermənlikdə erməni xalqının əzabları da fenomenaldır : o hesab edir ki, bu günki müstəqil dövlətlərdən ən azı onunun ərazisi onunkudur, onların “Ocağıdır”, cələcək “ Böyük Ermənistanındır” və s.

**Ermənilik nə deməkdir ?**

**1.Özləri üçün**: Biz dünyanın ən mədəni millətiyik. Bizim qonşular isə - türklər (ərəblər,farslar, gürcülər, livanlılar vəs.) vəhşi köçərilərdir.Onlar bizi daim məhv etmişlər, fikirlərində də var ki, bizi tamamilə qırsınlar.Ona görə də biz məcburuq ki, bütün düşmənlərimizi , birinci növbədə türkləri məhv edək .Əks halda onlar bizim axırımıza çıxaralar.Türklər və digər işğalçılar məhv olduqdan sonra ,yəni biz öz əbədi erməni torpaqlarımızı azad etdikdən sonra , öz dövlətimizi - dənizdən dənizə ( Xəzər, Qara dəniz, Aralıq dənizi arasında ) “ Böyük Ermənistanı ” bərpa edəcəyik.
**2.Xristian dünyası üçün** : Ermənilər – xristiandırlar, xristian olduqlarına görə də vəhşi , köçəri asiyalılar onları qırmışlar,indi də qırırlar və fikirlərində də var ki, tamamilə məhv etsinlər.Erməni xalqı bir möcüzədir, onlar məhv olsalar onların dili , mədəniyyəti Avropaya və Amerikaya çatmaz. Ona görə də mədəni dünya başı bəlalar çəkmiş erməni xalqını qorumağa, onun qorxunc ( pis niyyətli türklərlə (ərəblərlə,gürcülərlə) mübarizəsinə kömək etməyə borcludur.
**3. Ruslar üçün :** Yuxarıda deyilənlər təkrar olunur , üstəlik əlavə edilir – ermənilər və ruslar din qardaşıdır, ermənilər rusların daimi dostları və təbii (?) müttəfiqləridirlər. Odur ki. ruslar daim onları müdafiə edib qorumalıdırlar.
**4.Yəhüdilər üçün:** Ermənilər və yəhudilər dünyanın ən qədim xalqlarıdır, Nuhdan bəri qardaşdırlar. Onlar ən ağıllı və ən başıbəlalı xalqlardırlar. Ona görə də onlar bir- birinə dayaq olmalı ,nəinki bir birinə ziyan verməli , əksinə əsil müttəfiqlər kimi hər şeydə və həmişə bir- birilərinə kömək etməlidirlər.
**5. Azərbaycanlılar ( gürcülər - onlarla 1919 –cu ildə müharibə etmişlər)** – Ermənilər azərbaycanlılarla ( gürcülərlə) daim qonşu olmuşlar, bir yerdə yaşamışlar, gələcəkdə də qardaş xalqlar kimi dostluq şəraitində yaşayacaqlar.Bütün münaqişələrdə, onların arasındakı müharibələrə bu müharibələrin onlara lazım olduğu üçün xarici qüvvələr , digər ölkələr günahkardır ( burada ya işarə edilir yaxud da aşkar şəkildə Rusiya, Amerika, Fransa və s. göstərilir) . Odur ki, bu işdə onlar kimdir ki ? Onlar da azərbaycanlılar kimi bu işdə bir qurbandırlar. Hər iki (?) xalq axır –axırda ( yəqin azərbaycanın ərazilərinin daha bir növbəti işğalından sonra ) ağılları başlarına gələcəkdir və barışacaqlar və yenidən bir- birlərinə qonaq gedəcəklər.

*«Nə üçün ermənilər haqqında həqiqəti bütün hallarda deməyək ?
Gəlin, çıxaq və sadəcə oraraq deyək: Kimdir ermənilər….»*
***Mark L. Bristol ABŞ-ın baş komissarı***
*ABŞ Konqressinin kitabxanası .
«Bristolun sənədləri» konteyner №34*

* * *

*«Bu xüsusi bir xalqdır. Onlarda qeyri adi qabiliyyət var ki,
harada olsalar, hər yerdə kəmlə kəsdiklərinə və insanların
əksəriyyətinə xoş gəlməsinlər ». ( səh.251 – 255 )*
***Ceyms L. Barton , ictimai xadim, ABŞ diplomatı***
*ABŞ Konqressinin kitabxanas ı .
« Bristolun sənədləri» konteyner№34*

* * *

« hələlik … Yenə də zehinləri ve ürəkləri zəhərləmək, öz qonşularına qarşı nifrət alovlandırmaq üçün vasitədir. Özü də o gənclərə daha çox təsir edir, çünki onların ürəkləri gəncdir, həyata baxışları möhkəmlənməmişdir,dərin hayat mövqeləri yoxdur,hətta sadə həyat təcrübələri belə.Ancaq bunu açıq demək lazımdır , Qarabağ dramını yaradan cənab ssenarı muəllifləri öz qara işləri ilə cox irəli getmişlər.

Robert Arakelov
( «Dağlıq Qarabağ : Faciənin müqəssirləri məlumdur "kitabından
)

SERO XANZADYAN :

« DAŞ KİTABLAR NƏYƏ ŞAHİDLİK EDİRLƏR »

…. Onun nümunəsi əsasında bu cür işləri qədim erməni torpaqları – Kəlbəcər, Lacın, Qubadlı, Şəki barəsində də yaratmağı məsləhət görürəm … »

« AVANQARD » qəzeti 5 yanvar 1986-cı il ( Yerevan )

YAZIÇI SERO XANZADYANIN SÖHBƏTİNDƏN :

«1930-cu ildə Qarabağda 850 min erməni yaşayırdı. 1988-ci ilin əvvəllərində onların sayı təxminən yarıbayarı azalıb. 1926-cı ildə Naxçıvanda ermənilər əhalinin 40 faizini təşkil edirdi. 1988-ci ilin axırlarından orada demək olar ki, erməni qalmayıb….. …… ***Qarabağdan savayı , digər erməni rayonları da var ki, ( Şaumyan, Daşkəsən, Xanlar) bir vaxtlar Ermənistanın tərkibindən qoparılıb ».***

* * *

## ŞAİRƏ SİLVA KAPUTİKYAN:

«*Mən hesab edirəm ki, müstəqil Ermənistan ideyası - hazırda utopiyadır. O, bizə indi olduğundan da çox bədbəxtlik və ümidsizlik gətirə bilər.* ***Hətta bizim mühacirətdə olan daşnak partiyasının liderləri də belə hesab edirlər.***

*....Pis vaxtlarda (bədbəxt saatlarda) bizi müsəlmanlığın caynağından qurtaran şimal qonşumuza - xristiyan Rusiyasına üç yüz il biz ümidlə, inancla, sevgi ilə baxmışıq. Ancaq indi.... Bizi küncə sıxıblar. Çıxış yoxdur. Bir tərəfdə – Türkiyədir, o biri tərəfdə - Azərbaycan. Havamız çatışmır. Biz ölürük.....*

«YURMALA » qəzeti 29 iyun 1989-cu il № 26
( LATVİYA)

*« Andranik 1926-cı ildə Fransadan Sovet Ermənistanını salamlamış , «şöhrətlə yogrulmuş öz qılıncını hədiyyə olaraq Yerevan muzeyinə göndərmişdir. Təəssuf ki, uzun illər bu böyük xalq sərkərdəsi unudulub qalmış bizim acıdılli , qəddar duşmənlərimizin əlinə əsas vermişdir.*

*Bu qılınc cox acı dilləri kəsəcəkdir.......».*

*( səh 38-39)*

*« daşnak hökümətinin uzaqgörən olmayan siyasətini rədd edərək 1919-cu ildə Andranik vətəni tərk edir». ( səh. 273)*

***Silva Kaputikyan , Seçilmiş əsərləri 2-ci cild***

Moskva «Xudojestvvennaya Literatura» nəşriyyatı 1982

* * *

## SİLVA KAPUTİKYAN
### *ŞERLƏR*

*Yenə də Şəhərlər, kəndlər keçərəm,*
*Bir əlimdə berdanka birində kəfən,*
*Ölümə də , qəhrəmanlığa da*
*əvvəlcədən hazıram !*

*«* ***Druj ba Narodov» jurnalı № 6 1989***

### *XƏYYAMSAYAGI*

*Sənin qövmün güc göstərsin - bəs axırı?*
*Hamını yer üzündən silsin - bəs axırı?*
*Qan töküb, qan axıtsın--- bəs axırı?*
*Külli kainatı zəbt etsin - bəs axırı?*
*1981*

***( Adını sənə qoyum , səni də yana-yana.***
***Azərbaycan atalar sözü İ.B .***

**ATAMA**

**Daşnak partiyasının üzvü**
**Barunak Kaputikyanın xatirəsinə**

Səni məndən aldılar ,
Ölüm aldı, sonra da bir neçə il,
Tələ kimi qorxuluydun,
Sənə qadağa qoydular.

Sən mənə həyat, bir də Ermənistan vermisən
Ana dili və ona sevgi vermisən,
Ancaq mən sənin bu bəxşişinə
Səni öymək üçün bir sətir də yazmamışam.
1985

***( Əslində olan dırnağında göstərər. |***
***Azərbaycan atalar sözü İ. B . )***

*UYDURULMAMIŞ ŞER*

*....Görürəm ki, satıcı mənə əl edir, eşidirəm səslər arasından,*
*- Bax, qovunlar bal kimidir, götür, xanım.!*

*- Hə, qovunlarınız şirindir, ancaq işləriniz acı...*
*Qarabağdan nə deyərsən, orda qan-qada, partlayışlar*

*Qəribə deyilmi , sayasan ki, orada hər şey sizinkidir,*
*Kəndlər, qalalar, yazılar, xaçkarlar, hətta allahın evi ?*

*Səbri tükənərək, bunu hamı eşidir,*
*amma onda bir qəpiklik həqiqət yox,*
*Ancaq bil , bizim Astvadz Sizin Allah həç biri yalanı sevmir.*

***1992***

**( Əcəb yuxudur, özü də uydurulmayıb. Yalançının.... İ. B.)**

*** * * ***

« Mən Beş min əvvəlin mənbəsində akkad mixi yazılarındakı Armandan gəlirəm.
.... Ararat – Urartu ölkəsindən gəlirəm....
... Mən Andranikəm – əsrlərlə zərərçəkmiş xalqımın qisasçılıq ruhuyam. Erməni dağlarını süzən qartalam. Doğma torpağımı həsrət və ümidsizliklə tərk etsəm də mənim qılıncım orada qalır və onun parıltısı düşməni qorxuya salır» .

**Gevorq Emin «Əbədiyyət Yolçusu »**
**« Arevik » nəşriyyat , Yerevan 1987**

*** * ***

«*Gün batanda biz yenidən Yeqvard təpəsinə çıxırıq. Axşam şəfəqlərində Ararat daha yaxşı görünür….. Sükutu Nodayr Ayvazyan pozur: Mən bir şeyi dəqiq bilirəm:*
***Heç bir sözlə nə Araratı, nə İqdırı, nə xöşbəxt gələcəyi yaxınlaşdırmaq mümkün deyil, ancaq əməllə ... »***

***Zori Balayan « OCAQ » səh. 414 - 415***
***« Sovetakan Qroğ » nəşriyyatı 1984***

* * *

**İGİD GEDAŞEN**

…. Dörd yanın türklərdir , yolların bağlı,
Artsaxın qapısı igid Gedaşen .
**(1991-ci ildə Ermənistanda yazılmış**
**bəstəkar mahnısından. )**

* * *

« Dənizdən dənizə Ermənistan istəyirdiniz , nə qazandınız ?
Okeandan okeana diaspora.»
***Vardqes Petrosyan «Ad günündə boş stullar » povesti***
***Moskva «Xudojestvennaya Literatura» 1989.***
( Düz sözə nə deyəsən?- İ.B.)

* * *

« Mənim ermənilərim , Siz hansı südlə bəslənmisiniz, Sizə hansı ana həyat vermişdir, Sizi hansı əllər qucaqlamışdır, hansı dodaqlar Sizi oxşamışdır ki, Sizdə belə ruh, belə ürək əmələ gəlmişdir ki, yer üzündə eşidilməmiş möcüzə kimi dünyaya gəlmisiniz » .
( səh.83)

* *

Bu sıxışdırmalar ermənilərə ruh vermişdir ki,… və onlar düşmənin qanını sormuşlar. ( səh. 175 )

Xaçatur Abovyan **«Ermənistanın yaraları»**
***Moskva. « Xudojestvennaya Literatura » 1978***

# Чайкенд

Материал из Википедии — свободной энциклопедии

Текущая версия страницы пока не проверялась опытными участниками и может значительно отличаться от версии, проверенной 19 июля 2011; проверки требуют 24 правки.

Село

**Чайкенд[1]/Геташен[2]**

азерб. *Çaykənd*[1]/арм. Գետաշեն[2]

| | |
|---|---|
| Страна | Азербайджан[3]/Нагорно-Карабахская Республика[3] |
| Район | Гёйгёльский[1]/Шаумяновский[2] |
| Координаты | Координаты: 40°27′37″ с. ш. 46°23′22″ в. д. (G) (O) (Я)<br>Показать географическую карту 40°27′37″ с. ш.46°23′22″ в. д. (G) (O) (Я) |
| Часовой пояс | UTC+4, летом UTC+5 |



Чайкенд

**Çaykənd** (азерб. *Çaykənd*)[1]/ **Qetaşen** (арм. Գետաշեն)[2] — Zaqafqaziyada kənd , Qöygöldən 19 kilometr cənubda Kürəkçayın sahilində ,onun axarının orta hissəsində . Azərbaycanın inzibati-ərazi bölgüsünə (və *defacto*) Azərbaycanın Göygöl rayonunda yerləşir.Tanınmamış Dağlıq Qarabağ Respublikasının inzibati-ərazi bölgüsünə görə DQR-in Şaumyan rayonunda yerləşir . 1991-ci il hadisələrinə qədər kənddə erməni əhalisi yaşamışdır.

## TARİX

Kənd iri yaşayış məntəqəsi olmuşdur. 1828 –ci ildə Rusiyanın tərkibinə daxil olmuşdur. 1860 –cı ildə burada ilk məktəb yaranmışdır . **XIX əsrin əvvəllərində burada Bolnisi * və Craberddən**** olan erməni köçkünlər yerləşmişlər.

Kəndin mərkəzində 1749- cu ildə tikilməsi qeyd olunan Surb Astvacain kilsəsi, Melik-Mnasakanyanların dördmərtəbəli qəsri yerləşirdi .Orada Yevangeliyanın 1211-ci ildə yazılması güman edilən əlyazması saxlanılırdı. Kənddən cənuba **doğru** **Yexnasar monastrı** yerləşirdi. .

1989- 1990-cı ilin qışında Çaykənd kəndinin ətrafında yerləşən üç kəndin əhalisi , onlara arasıkəsilməyən silahlı basqınlar , rayon hakimiyyəti orqanlarının və daxili qoşun hissələrinin komandirlərinin təzyiqi nəticəsində öz yaşayış yerlərini tərk etmək məcburiyyətində qalmışdılar. Tərketmə sülh şəraitində davam etmiş və kəndlilərin evləri rayon Soveti İcraiyyə Komitəsi tərəfindən satın alınmışdı. Boşalmış kəndlərə əsasən 1988-ci ildə Ermənistandan qovulmuş qaçqın azərbaycanlılar yerləşdirilmişdi. Rayon hakimiyyət orqanlarının dəfələrlə təklifinə baxmayaraq Çaykənd və Martunaşen sakinləri öz evlərini tərk etməkdən imtina etmişdilər. Bundan sonra bu iki kəndin sakinləri faktiki olaraq blokada vəziyyətinə düşmüşdülər.Xarici aləmlə kommunikasiyar kəsilmiş, ərzaq və tibbi təchizat Ermənistandan vertalyotlarla edilirdi. Mütamadi olaraq qonşu kəndlərlə **atıcı silahlar ,minomyotlar (kəndin erməni sakinləri tərəfindən)** **və top atəşləri** (**azərbaycanlılar tərəfindən**) istifadə etməklə qarşıdurmalar yaranırdı.

1991-ci ildə Çaykənddə etnik təmizlənmə hadisələri- “ Dairə” əməliyyatı başladı.19 aprel 1991-ci ildə Çaykənddən SSRİ DİŞ Nazirliyinin daxili qoşunlarının postu götürüldü. Bundan sonra buraya və Martunaşenə azərbaycan kəndləri tərəfindən hücum hadisələrinin sayı artdı, elektrik verilməsi dayandırıldı,telefon rabitəsi itdi. 1991 – ci il 29 apreldən – 4 mayadək buraya vertalyot uçuşları qadağan edildi. Azərbaycan OMON hissələri Sovet Ordusu və daxili qoşun hissələri ilə birgə əməliyyat tədbirləri çərçivəsində Azərbaycan SSR-in Xanlar rayonun ermənilər məskunlaşan Çaykənd və Martunaşen kəndlərində pasport rejiminin yoxlanılması və silahların yığılması əməliyyatını apardılar.Bunun əməliyyatda 300 nəfər tutuldu və Azərbaycan SSR-in ərazisindən uzaqlaşdırıldı.Bu hadisələr nəticəsində kəndin üç minlik əhalisi güc tətbiq edilərək Ermənistana qovuldu. Kənd əhalisinin böyük bir hissəsi hərbi vertalyotlarla Stepanakertə, bir neçə gündən sonra isə oradan İcevana aparıldı.Bir neçə yüz kişi isə həmin an avtobuslarla İcevana aparıldı.

## ADLAR

Kəndin adı azərbaycanca və ermənicə eyni mənanı verir. İlk kök azərbaycanca *çay* və ermənicə գետ «çay», anlamındadır, ikinci kök - азерб. *kənd* арм . շեն eyni anlamda kənd mənasını verir.

↑ *1 2 3 4* Согласно административно-территориальному делению Азербайджана

↑ *1 2 3 4* Согласно административно-территориальному делению Нагорно-Карабахской республики

1. ↑ *1 2* Данный населённый пункт расположен в Гейгёльском районе Азербайджана на территории, расположенной согласно

административно-территориальному делению Нагорно-Карабахской Республики в границах Шаумяновского района НКР.

2. ↑ 1 2 3 Мемориал
3. ↑ OanaTranca «What Causes Ethnic Conflict Diffusion? A StudyofEthnicConflictsinAzerbaijanandMacedonia»

**Шаумяновский район НКР**





**Административный центр:** Карвачар

**Села:** Авсатаг | Азат* | Акнаберд | Армянские Борисы* | Баллыкая* | Башкишлак* | Бузлук* | Вериншен* | Гахтут* | Гюрзапар* | **Геташен*** | Гюлистан* | Дадиванк |Джермаджур | Ехегнут | Зейва* | Зуар | Камо* | Карачинар* | Кнараван | Манашид* | Мартунашен* | Нор Браджур | Нор Вериншен | Нор Геташен | Нор Карачинар | Нор Манашид | Нор Эркедж | Норшен* | Русские Борисы* | Тодан* | Хархапут | Цар | Чаректар | Шаумяновск* | Шефек* | Эркеч*

* Находится под контролем Азербайджана

* **Bolnisi** - hazırda Gürcüstan Respublkasında rayon

** **Craberd** -( hərfi tərcüməsi Su qalası) - təhrif olunmuş formada Calabert, Ciləburt deyilir.Tərtər və Trixi çaylarının qovuşmasında qayaların başında yerləşir.Tərtər rayonu ərazisinə daxildir. ( Tanınmamış Dağlıq Qarabağ Respublikasının ərazi bölgüsünə və faktiki olaraq Mardakert rayonunda yerləşir ). Qovuşan çaylar qalaya yarımada formasını verir. Adı ilk dəfə alban tarixçisi Movses Kalantakuylunun əsərlərində çəkilir. Craberdin idarəediciləri məlik sülaləri –Vaxtanqyan, Hasan Calalyan, Melik İsraelyan, Melik Allahverdiyan, və Atabekyanlar olmuşlar. Qalanın qalıqları hazırkı dövrə qədər gəlib çıxmışdır. Bu məliklərin alban əsilli olmaları güman olunur.

( **qeydlər İslam Bayramovundur)**

**ERMƏNİ KƏNDLƏRİ GETAŞEN VƏ MARTUNAŞEN SƏRHƏDDİN O TAYINDA QALMIŞLAR**

Onların bütün faciəsi bundadır ki, nəinki ana ilə - Ermənistanla, eləcə də Artsaxla ümumi sərhədləri yoxdur. Onların bütün faciəsi bundadır ki, artıq üç ildir ki, boyun əymirlər, hətta Şaumyan rayonundan da kənarda olsalar belə. Onların bütün faciəsi bundadır ki, onların kəndləri hamıdan təcrid olunmuşdur, əgər stepanakertlilər ağır zamanlarda bir- birinə söykənərək , xalqın vahid iradəsi ilə ,bütün artsax xalqının iradəsi ilə başları üzərinə yumruqlarını qaldıraraq azadlıq

tələb edirlər, ancaq Getaşen və Martunaşen kəndləri praktiki olaraq bu gün bizim diqqətimizdən kənarda qalmışdır. Ancaq kəndlər onların əhalisinə necə çətin olsa belə ayaq üstə durur, yaşayır. Problemlər hər addımbaşıdır. Ərzaq yoxdur, yanacaq yoxdur, heç bir mal yoxdur - axı Getaşen böyük kənddir.Gündə bir vertalyot reysi ilə "böyük torpaqdan" çoxmu şey daşımaq olar ?

**Bu yaxınlada Ermənistan hökümətinin tapşırığı ilə kənddə vəziyyəti öyrənmək üçün Parlament komissiyası Getaşendə olmuşdur. Komissiyanın tərkibinə - Seyran Baqdasaryan - "Artsax" komitəsinin parlamentdəki daimi nümayəndəsi- sədr, Suren Zolyan –komitənin katibi. Beniamin Sisyan - "Getaşen" həmyerlilər cəmiyyətinin sədri, cəmiyyətin idarə heyətinin üzvləri. Komissiyanı səfərdə Getaşen sovxozunun direktoru Ş.Marutyan və Getaşen veteranlar ittifaqının üzvü Q. Babayan müşayət etmişlər.**

Onlar demişlər:

**« Getaşen» həmyerlilər cəmiyyətinin sədri B.SİSYAN**

-- Getaşen və Martunaşen kəndlərinin vəziyyəti haqqında danışmaq artıqdır.Təsəvvür edin ki, əgər Ermənistana çətindirsə , Artsaxa və Stepanakertə daha çətindir, Şaumyanda vəziyyət daha pisdir. Odur ki, Getaşen haqqında özünüz nəticə çıxarın, əgər Şaumyanla bu gün hətta avtomobil əlaqəsi belə yoxdursa.Yeganə ümid - vertalyot əlaqəsidir. Ancaq bu gün kəndin problemi bunda deyil. Getaşen bu gün sınmır ,sakinlər sonadək dayanacaqlar , ancaq ... Hansısa bir perspektiv lazımdır, belə asılı vəziyyətdə nə qədər qalmaq olar ? Təbliğat vasitələri güclü təsir edir - azərbaycan televiziyasında daimi həsədliklə Getaşen haqqında verilişlər göstərirlər.Bu verilişlərin məqsədi – adamları qorxutmaq , onları doğma kəndlərini tərk etməyə məcbur etməkdir. Psixoloji planda bu yaxınlarda Şaumyan rayonun ləğv edilməsi barədə fərman daha da güclü təsir etmişdir.Odur ki, Ermənistan höküməti çalışmalıdır ki, bütün imkanlar daxilində kəndə böyük diqqət versin -ən böyük təsəlli odur ki, onları xatırlayırlar , ehtiyac olduqda onlara kömək edəcəklər,bu adamları ruhlandırar, miqrasiya axının qarşısını alar.Əgər bu gün biz Şaumyanı saxlamaq istəyiriksə , bu olduqca vacibdir, axı Getaşen bu rayonun açarıdır. Əgər Getaşen Şaumyanın açarıdırsa, Martunaşen – Getaşenin açarıdır.

**Getaşen sovxozunun direktoru Ş.Marutyan, oxşayır ki, Martunaşenin vəziyyətindən daha çox narahatdır:**

**-** Bizim faciəmiz ondadır ki, biz rəsmi olaraq Azərbaycanın Xanlar rayonun ərazisindəyik. Əgər mən bir getaşen sovxozunun direktoru kimi (hər halda vahid, böyük təsərrüfatdır) vaxtında nail oldum ki, sovxoza Şaumyan rayonun bankında hesab açsınlar, ancaq Martunaşendə vəziyyət həyəcan yaradır. Əvvəllər bura kolxoz idi,ancaq ayrıca deyildi. Onun tərkibinə yaxındakı azərbaycan kəndləri də daxil idi.Martunaşen onlardan təcrid olunub kolxozdan çıxdı, öz torpaq sahələrini itirdi, ancaq kolxoz indiyə qədər də qalır. Əlbəttə, biz Martunaşenə bacardığımız qədər kömək edirik, axı bizi 2 -3 kilometr məsafə ayırır, ancaq bu uzun müddət davam edə bilməz.Torpaqsız xalqın əlində işi yoxdur, yaşamaqsa lazımdır. Belə vəziyyətdə kənddən gedənləri necə qınayıb günahlandırmaq olar? Xalq fırlanır, torpaq tələb edir, onu ,özününkünü qonşulardan geri almaq isə- yenə qandır, yenə itkilərdir. Fövqalədə vəziyyət rejimi aparan hərbiçilərlə münasibətlər normaldır. Bu yaxınlaradək onların köməyi ilə Şaumyana və geri sakitcə gedirdik (omonçular adətən hərbiçilərlə atışmaya baş qoşmurlar , özləri daha qiymətlidirlər). Ancaq bu yaxınlardakı hadisədən sonra – kənddən on kilometrlərlə uzaqlarda öldürülmüş üç azərbaycanlı tapıldı - hərbiçilər Stepanakertdəki komendantdan əmr almışlar ki,avtomobil karvanlarına müşayətçilər verməsinlər.Bizi həmvətənlilərimizlə bağlayan bu bağda qopdu. O öldürülənlər haqqında isə ancaq onu deyə bilərəm ki, onların tapıldığı yerdə ermənilər olmamışlar və yoxdurlar. Kənddən olduqca uzaqdır.Və daha bir şey haqqında, fürsətdən istifadə edərək , bizim hökümətdən xahiş etmək istəyirəm.Bizim kəndin

yaxınlığında və Meğri rayonun Nüvədi kəndi yaxınlığında daim iyirmiyə qədər azərbaycan boyevikləri-omonçular olur. Diqqət edin , Ermənistanın Meğri rayonu .Onda niyə bizim yanımıza üç-dörd forma geyinmiş milis göndərməsinlər? Axı kənddə hakimiyyət yoxdur. Anarxiya başlayır –insanlar daim hazırda durmaqdan bezmişlər, sinir gərginliyi son həddə çatır. Kənddə ictimai qaydaların qorunması üçün milis lazımdır, heç olmasa hər hansı hüquq mühafizə orqanı.

İki kənd. Dalğaların şahə qalxdığı düşmənçilik okeanında iki balaca gəmi. Onlar vətəndən ayrı düşmüşlər.Onlar – sərhəddin o tayındadırlar.Ancaq onlar böyük problemlərin həllinə açardırlar.Biz onu bilməliyik ki, əgər biz Artsaxda qələbə çalmaq (müdafiə etmək ) istəyiriksə, biz Getaşen və Martunaşen uğrunda mübarizə aparmalıyıq. Mənim bu çağırışım bizim hökumətimizə, eləcə də getaşenlilərin özlərinə, bütün erməni xalqına aiddir.Siyasətçilər – bu məsələni bütün səviyyələrdə daha kəskin qoyun! Avatorlar, çətindir, praktik olaraq mümkün deyil, bütün bunlara baxmayaraq reyslətin sayını artırmaq lazımdır. Daha çox ərzaq, gündəlik tələbat malları gətirmək lazımdır!

Getaşenlilər, öz vətəninizi , öz kəndinizi tərk etməyin! O zaman biz sinə gərə bilərik. Sinə gərər və qələbə çalarıq.

A. Vaneskeqyan

**« Qolos Armenii ( Kommunist ) »** № 28

**09.02. 199**

## Getaşen : Bir genosidin xronikası

**TELEQRAMMA**

**ERMƏNİSTAN RESPUBLİKASININ ALİ SOVETİNİN SƏDRİ**

**Cənab L.Ter- Petrosyana**

Hörmətli sədr, Getaşenlə Xanlar arasındakı dostluq kompromissinə indiyə qədər riayət edilrdi. Ancaq bu gün sentyabrın 20-də Xanlar rayon soveti icraiyyə komitəsinin sədri və raykom partiyanın katibi Getaşen rəhbərliyinə ultimatum verdilər. Tələb edilir ki, getaşenlilər və martunaşenlilər 3 gün ərzində kəndlərini tərk etsinlər və köçüb getsinlər. Xanlar rəhbərliyi bəyan etmişdir ki, Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə bu kəndləri satınalmağa milyonlarla manat ayrılmışdır. Eyni zamanda bəyan edilmişdir ki, ordu tezliklə bu ərazidən çıxacaq, kənd sakinlərinə vəd edilir ki, Ermənistanın sərhəddinə kimi onlara nəqliyyat verilir və təhlükəsizlikləri təmin edilir. Rədd cavabı təqdirində bizi qırğınlarla hədələyirlər.Üç gün vaxt verilibdir. Bu isə onu göstərir ki, dostluq haqqında müqavilə pozulub, bu da yeni deportasiyalar deməkdir. Biz cənab Qorbaçova teleqram vuraraq, bu məsələyə təcili müdaxilə etməsini tələb etmişik. Burada ordu fəaliyyətsizdir. Sizin də təcili müdaxilənizi xahiş edirik. Ermənistanla əlaqələr kəsilmişdir, onu təcili bərpa etmək lazımdır. Sizdən cavab gözləyirik.

**Getaşen sakinlərin adından kənd sovetinin sədri Gürciyan**

**Sovxozun direktoru Marutyan**

**20.09.90**

* * *

**Getaşenlilərin hökümətə 5 dekabr 1988-ci il tarixli ərizəsindən parçalar :**

... " Azərbaycan milliyətindən olan talançıların növbəti vəhşiliyi başlanmışdır. Onlar Bakı, Kirovabad,Xanlar şəhərlərində Çardaxlı, Şamxor, Daşkəsən və respublikanın ermənilər yaşayan digər yerlərindəki kimi hərəkət edirlər. Günlərlə talanlar, basqınlar, zorlamalar, qadınları, qocaları, uşaqları evlərindən yarıçılpaq çıxarırdılar... Çaykənd hazırda – o biri erməni kəndlərindən olan qaçıb gələn qaçqınların yığışma yeri olubdur. Basqınları Azərbaycan höküməti təşkil edir. Xanlarda yerli əhali- erməni qalmamışdır. Bütün əmək qabiliyyətli ermənilər işdən azad edilmişdir. Erməni dilində çıxan "Leninyan uğiyov" ( Lenin yolu ilə ) qəzetinin redaksiyası dağıdılmışdır.Əsrlər boyu ermənilər yaşayan Çaykənd ( Getaşen ), Azat, Kamo, Aygestan, Quşçu - Armavir, Martunaşen kəndləri blokada nəticəsində xarici aləmdən tam təcrid olunmuşdur: telefon əlaqəsi yoxdur, yollar silahlı azərbaycan banditləri ilə doludur, bizə heç bir ərzaq , dərman və gündəlik tələbat malları verilmir. Bu kəndlərin sakinləri bir aydan çoxdur ki, gecə- gündüz növbə çəkib öz kəndlərinin sərhədlərini bandit hücumlarından qoruyurlar. Bizim əlimizdə yaba, balta, kərəntidir, ancaq azərbaycan başkəsənlərinin əlində odlu silah var. Biz mühasirə vəziyyətindəyik və ölənə kimi belə də dayanacağıq. Həyatımızı və ailələrimizin şəfəfini qoruyacağıq. Biz xahiş edirik ki, bizim həyatımızın təhlükəsizliyi üçün təcili təsirli tədbirlər görülsün, qan tökülməsi təhlükəsini aradan qaldırasınız.

Xanlar rayonun 9000–lik erməni əhalisi adından xahiş edirik ki, Azərbaycan SSR Xanlar rayonun tərkibindən çıxıb , həmin respublikanın erməni əhalisi yaşayan Şaumyan rayonu ilə birləşməyə kömək edəsiniz. Beləki bu rayonun Xanlar rayonu ilə ümumi sərhədləri vardır. Ancaq bu tədbir ermənilərin gələcəkdə öz doğma ocaqlarından güclə qovulmasının qarşısını ala bilər.

**9000-lik erməniləririn adından : Böyük Vətən Müharibəsi veteranı, 1945-ci ildən Sov. İKP üzvü Aram Papyan**

* * *

" Biz Azərbaycan SSR Xanlar rayonun ümumi əhalisi 9000 olan erməni kəndləri Azat, Aygestan,Çaykənd ( Getaşen), Kamo, Quşçu –Armavir, Martunaşen Sizə ona görə müraciət edirik ki , Xanlar rayonun rəhbərliyi yuxarıda göstərilən erməni kəndlərini blokadaya alıb və onları ərzaq, yanacaq, dərman və s. təmin etməyi tamamilə qadağan etmişdir.Təxribat edərək və telefonla zəng edərək qorxudub – iki saat , iki gün, üç gün vaxt verərək kəndi tərk etməyi tələb edirlər. Sakinlərə nə gecə nə gündüz dinclik vermirlər**. Eyni zamanda bildiririk ki, bu kəndlərin əhalisi aborigen əhalidir və 1500 ildən çox tarixləri vardır**. Qetaşen kəndi Azərbaycanda axırıncı böyük erməni kəndidir.Sarkis Musaelyan, Sergey Avalyan kimi professional inqilabçıların , donanma admiralı İsakovun, üç Sovet İttifaqı Qəhrəmanının vətənidir. Müharibə vaxtı bu kənd cəbhəyə 1500 nəfər öz oğullarını yola salmışdır ki, onların da yarıdan çoxu döyüş meydanlarında həlak olmuşdur. Bu kənddən 300-dən artıq alim çıxmışdır. Lakin Xanlar rəhbərliyi bütün həddləri aşır,kəndləri blokadaya alır, adamları güc yolu ilə doğma ocaqlarından köçürməyə çalışır.Onlar Şamxor, Daşkəsən,Xanlar rayonlarının erməni kəndlərinin sakinləri ilə belə rəftar etmişlər.Xalq öz doğma torpağını qəhrəmancasına müdafiə edir. Əvvəllər H.Əliyev başda olmaqla Azərbaycan rəhbərliyi erməniləri Xanlar rayonundan (əhalinin çoxunu ermənilər təşkil edir) sıxışdırıb qovmaq üçün bu rayona bütün əhalisi azərbaycanlılar olan Səfərəliyev rayonunu birləşdirdilər.O da Kirovabad şəhərinin aşağısında yerləşir və Xanlar rayonu ilə heç bir sərhəddi yoxdur.Bu isə Xanlar rayonunda erməni milliyətindən olan rəhbərlərin və ermənilərin qovulması üçün səbəb olmuşdur. Sov. İKP MK-nın adamları milli mənsubiyyətinə görə qanunsuz şəkildə işdən çıxaran rəhbərlərin cəzalandırılması çağırışlarına Xanlar rəhbərliyi belə əməl etmişdir:Xanlardakı axırıncı ermənilər - Xanlar rayonun üçüncü katibi Mkrtumyan, Xanlar rayon sovetinin sədri Şelunts, rayon sovetinin işçisi Kolayan, raykom partiyanın təbliğat və təşkilat şöbəsinin müdiri Dadayan, tikinti trestinin rəisi Karapetyan," Leninyan uğiyov

”( Lenin yolu ilə) qəzetinin redaktoru Barxudaryan və redaksiyanın bütün heyəti yaşayış və iş yerlərindən qovulmuşlar.Bu erməni rayon qəzetinin redaksiyası dağıdılmışdır. Erməni kəndləri Azat, Aygestan,Qetaşen,Kamo,Quşçu-Armavir,Martunaşenin sakinləri ərazlərinindən çəkilmədiklərinə, Xanlar rayon rəhbərliyinin təxribatlarına uymadıqlarına və öz evlərini tərk etmədiklərinə, tarix və mədəniyyət abidələrini , kilsələri , Böyük Vətən Müharibəsində həlak olan döyüşçülərin xatirəsinə ucaldılan abidələri qoruyub saxladıqlarına görə, biz Sizə böyük xahişlə müraciət edirik – yeni qırğınların və qan tökülməsinin qarşısını almaq məqsədi ilə bu erməni kəndlərini Xanlar rayonun tərkibindən çıxarıb Azərbaycan SSR-in erməni Şaumyan kənd rayonuna birləşdirəsiniz.Özü də bu rayon göstərilən erməni kəndləri ilə sərhəddir.Bu xahiş onunla əsaslandırılr ki, sovet hakimiyyyətinin bütün dövrü ərzində Azərbaycan rəhbərliyi bu kəndlərin sosial- iqtisadi inkişafını diqqətindən kənarda saxlamışdır: qaz yoxdur, sosial- mədəni obyektlər yoxdur, normal yol yoxdur, su təchizatı yoxdur və.s.Xanlar rəhbərliyi başa düşür ki, ölkəmizin rəhbərliyinin hazırda diqqəti Ermənistanda zəlzələ nəticəsində baş vermiş faciəyə yönəltmişdir , odur ki, təzyiqi daha da artırmışlar, bununla da göstərilən kəndlərdən erməniləri tamamilə sıxışdırıb çıxarmağa çalışırlar. **Təxribatları Xanlar rayon partiya komitəsinin ikinci katibi Ağayev, Xanlar rayon milis rəisi Allahverdiyev , milis rəisinin köməkçisi Musayev, Xanlar rayon dövlət bankının rəisi Mehdiyev öz əlaltıları ilə birlikdə təşkil edirlər**.

Təcili tədbirlər görmənizi və bizim xahişimizi yerinə yetirilməsini Sizdən xahiş edirik.

Göstərilən kəndlərin 9000 –lik erməniləri adından :

| | |
|---|---|
| Sovet İttifaqı Qəhrəmanı | İ. Karaxanyan |
| Müharibə veteranı, ikinci qrup əlil | S. Mailyan |
| Fizika- riyyaziyyat elmlər namizədi | Q. Tulqazaryan |
| Qetaşen kənd sovetinin sədri | Q. Gürciyan |

**10 dekabr 1988 –ci il**

## Şahidlərin Şəhadəti

**Levon Mirzoyan , filoloq, 1958-ci il təvəllüdlü:**

1989- cu ilin mart ayının əvvəllərində **Xanlar rayon partiya komitəsinin birinci katibi İskəndərov Getaşenə gəldi** və “ beynəlmiləl tərbiyələndirmənin təkmilləşdirilməsi barədə” yığıncaq keçirdi. O Getaşen orta məktəbinin tarix müəllimi B.Boyaxçiyanı “Qetaşen” sözü işlətdiyinə görə yaramaz adlandırdı. “Bil ki, ay yaramaz ( podles ) burada Getaşen yoxdur, “Çaykənd” var - dedi yoldaş İskəndərov.Bu zaman sovxozun sürücüsü Arsen Ayanyan ( Sovet İttifaqı Qəhrəmanı E. Ayanyanın qohumu ): ” Onu niyə təhqir edirsiniz ? Mənim attestatımda azərbaycanca yazılmışdır ki, mən “Gedaşen orta məktəbini “ bitirmişəm. Buna cavab olaraq **komendant Sadıkov** əmr verdi :” Hər ikis i həbs edilsin”. Ağsaqqalların işə qarışmasından və öz pasportlarını göstərəndən sonra onları “bağışladılar”.

**Artyom Akopoviç Saakyan , müharibə və əmək veteranı , II qrup Böyük Vətən Müharibəsi əlili, Azərbaycan SSR Şamxor rayonun Cəyir kənd sakini:**

... Bu gün adları çəkilən o qrup kəndlərdən yalnız Getaşen və Martunaşen qalmışdır.Qonşu erməni kəndləri Azat və Kamo 1990-cı ilin martın əvvəllərində güc tətbiq edilib aldadılmaqla öz doğma ocaqlarından qovuldular. Martın 9-da Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti Azat və Kamo kəndlərinin deportasiyası ilə əlaqədar müraciət qəbul etdi. Ancaq müraciət havadan asılı qaldı.Milli

məsələnin həllinin azərbaycan modeli ancaq yeganədir: əgər xalq əzilmədən yaşamaq, fiziki məhv edilmə hədələri barəsində bəyan edirsə, vəziyyətdən çıxış ondadır ki, onu məhv etmək.

**ERMƏNİSTAN RESPUBLİKASI ALİ SOVETİNİN BƏYANATINDAN**

Dağlıq Qarabağda, Şaumyan rayonunda , Getaşen padrayonunda , Ermənistanın Azərbaycanla sərhəd zonalarında hərbi vəziyyət yaranmışdır. Azərbaycanın kommunist rejimi SSRİ rəhbərliyinin himayəsi altında və SSRİ Daxili Qoşunlarının birbaşa iştirakı ilə , ümum insani dəyərləri tapdalayaraq və insan haqqlarının beynəlxalq normalarını pozaraq, Erməni əhalini öz əsrlərdən bəri olan torpaqlarından zorla deportasiya emək siyasətini həyata keçirməkdə davam edir...Ermənistan Respublikasının Ali Soveti SSRİ –nin mərkəzi hakimiyyəti tərəfindən törədilənləri Ermənistanı müharibəyə çəkmək və erməni xalqı barəsində dövlət terrorizmi siyasəti kimi qiymətləndirir.

30 aprel 1991-ci il

Yerevan şəhəri

**ERMƏNİSTAN RESPUBLİKASI ALİ SOVETİNİN SƏDRİ LEVON TER – PETROSYANIN "LRABER " xəbərlər proqramına verdiyi müsahibədən (Getaşen və Martunaşen də baş verən hadisələrlə əlaqədar) :**

Erməni xalqı barəsində növbəti möcüzəvi cinayət baş vermişdir. Bu dəfə onun öz spesifikası var: Cinayət azərbaycan banditləri tərəfindən deyil, sovet ordusu – daxili qoşunlar tərəfindən törədilmişdir. .. Mənim əsasım vardır ki, belə hesab edim ki, Bu Mütəllibovla birinci növbədə SSRİ Daxili İşlər Nazirliyi və daxili qoşunların komandanlığı arasında sövdələşmədir.

Qeyd edə bilərəm ki, bu cinayətə görə günahın böyük hissəsi Puqo və Şatalinin üzərinə düşür.Artıq aprelin ortalarında onlar belə bir hipotez irəli sürürdülər ki, güya ki, həmin kəndlərdə erməni əhalisi yoxdur, yalnız erməni boyevikləri vardır, kəndlər onlardan təmizlənməlidir ... Görünür Moskvada müvafiq dairələr Mütəllibovla birlikdə öz proqramlarını axıradək yerinə yetirməyə qərar vermişlər- bizim xalqı Xanlar rayonun bu sonuncu iki erməni kəndindən çıxmağa yenidən məcbur etmək.

1 may 1991 – ci il

**GETAŞENDƏN TELEQRAMMA**

SOS! SOS! SOS!

Biz Azərbaycandakı iki erməni kəndinin - Getaşen və Martunaşenin sakinləri yalvarırıq: Bizim həyatımızı xilas edin! Sovet Ordusu bizi – sovet vətəndaşlarını məhv edir.Bizə toplardan, pulemyotlardan , avtomatlardan , yerdən və göydən atəş açırlar. Tanklar bizi həyətlərimizdə və evlərimizdə əzir. Uşaqları, qocaları, qadınları azərbaycan omonçuları girov götürür ,əllərini, ayaqlarını, qabırğalarını sındırır, sifətlərini dağıdırlar, divara döyməklə böyrəklərini partladır,başının dərisini soyurlar, küçələrdə çılpaq şəkildə qovalayırlar, bıçaqla deşirlər. Biz üç il davam gətirdik,ancaq orduya qarşı dözməyə halətimiz yoxdur .Bizim kişilərimiz ovçu silahları ilə bizi müdafiə etməkdə gücsüzdürlər.Ordu bizi məhv edir, məcbur edir ki, ya Azərbaycan hakimiyyətini tanıyıaq ,ya da doğma kəndlərimizi tərk edək. Hətta qaçmağa belə macal vermirlər, atəş açırlar. Evlərimiz talan edilmişdir,yanır. Sığınacaq tapmağa yerimiz yoxdur ! Dünyanın insanları , bizi xilas edin, heç olmasa uşaqları xilas edin! Xarici aləmdən tanklarla təcrid edilmiş vəziyyətdə biz məhv oluruq.

SOS! SOS! Xilas edin

3 may 1991- ci il

**ERMƏNİ TARİX-MAARİFÇİLİK HÜQUQMÜDAFİƏ CƏMİYYƏTİ "QUŞAMATYAN" ("MEMORİAL") VƏ İÇTİMAİ ŞURANIN MÜRACİƏTİ**

4 may 1991 –ci il tarixdə " Vremya" proqramında SSRİ Müdafiə Nazirliyinin və Daxili İşlər Nazirliyinin birgə bəyənatı oxundu ki, Ermənistan kütləvi informasiya vasitələrində Sovet Ordusunun və SSRİ DİN daxili qoşunlarının qeyri qanuni hərbi dəstələrin silahsızlandırılması və regionda həddindən artıq kəskinləşmiş millətlərarası münaqişə vəziyyətinin sabitləşdirilməsi zamanı hərəkətləri diskreditasiya edilir.

SSRİ kütləvi informasiya vasitələrində faktların gizlədilməsi və təhrif edilməsi fonunda bu bəyanat ölkə ictimaiyyətini yalnış mövqeyə yönəltməyə xidmət etməklə , Azərbaycanın Ermənistana, DQMV-yə, Şaumyan rayonuna və Qetaşen padrayonuna genişmiqyaslı hərbi –siyasi hücumlarını təbliğatıla ört -basdır etməyə yönəlmişdir. Bu saat bu müraciət yazılarkən Getaşen qan içindədir, həkim yarımından mərhum olunma indi də davam edir. Sərhəd zonasında sovet tankları ilə erməni kəndlərində dağıdılmış evlərin divarlarının şöləsi işıq saçmaqdadır.Yenidən, artıq bu neçəici dəfədir, qaz xətti bağlanmışdır. SSRİ DİN orduları ilə birlikdə çiyin –çiyinə azərbaycan omonçuları fəaliyyətdədir ki, çox vaxt onların arasında həbsxanadan yenicə buraxılmış cinəyətkarlar vardır. Onların fəaliyyəti ondan ibarətdir ki, hansı üsulla olur , olsun - əzab vermək, qocaları, qadınları öldürmək, sağ adamların başının dərisini soymaqla erməniləri öz doğma torpaqlarından çıxıb getməyə məcbur etmək. DQMV və Ermənistanın sərhəd yaşayış məntəqələrində sakinlərə qarşı ordunun arasıkəsilməyən təcavüzü , erməniləri vətəndaşların həyat hüquqlarını və onların yurdlarını qorumaq üçün özünümüdafiə dəstələri yaratmağa məcbur etmişdir.Ermənistanla Azərbaycan arasındakı münaqişənin bu günki kəskinləşməsinin səbəbi mərkəzin siyasətinin nəticəsidir , başa düşmüşlər ki, ittifaqı bitişdirmək lazımdır, bunsuz mərkəzin olmasının heç bir mənası qalmır, bunu isə kobud siyasi , xüsusən də birbaşa hərbi təsirsiz etmək mümkün deyildir. Millətlərarası münaqişələrin , iqtisadi, informasiya blokadalarının , milli qurtuluş komitələrinin , nasional- kommunist bloklarının yaradılmasının kökü bundadır.

Milli özmüqqədəratını təyin etmə, demokratiya yolunu tutmuş respublikalar birbaşa təhlükə altındadırlar. Ermənistan və DQMV-də sınaqdan çıxarılmış münaqişələrin alovlandırılması modeli ölkənin digər regionlarında da siyasi mübarizənin silahına çevrilməkdədir. Mərkəzi hakimiyyət və onların Azərbaycandakı əlaltıları tərəfindən üç ildən artıq heç bir cəza almadan erməni xalqına qarşı aparılan cinayəti dayandırın !

Yerevan, 5 may 1991 –ci il

Materialı hazırlamışlar :

**Meri Yüzbaşyan , Susana Arutunyan**

**« Respublika Armeniya » № 89 (131)**

**18.05.1991 –ci il**

**Некоторые добровольческие формирования 1991-1994гг.**

Численность бойцов приведена примерно

**"Тигран Мец"**, 380 бойцов, командир Тигран Саркисян, Арменак Арменакян, Вова "Адидас", Смбат "Киликиа", Хчо, Мельс "Гиббон", Агван "Норк"
**"Сасунци Давид"**, 500 бойцов, командир Командос
**"Анданик Зоравар"**, 400 бойцов
**"Врежарунер"**, 200 бойцов
**"Дашнакцаканнер"**, 200 бойцов, командир Татул Крпеян
**"Айдат"**, 200 бойцов
**"Нарт"**, 300 бойцов
**"Муш"**, 300 бойцов

**"Ашот Еркат"**, 250 бойцов
**"Малатия-Себастия"**, 200 бойцов, командир Ваан Затикян
**"Арабо"**, 200 бойцов, Симон Ачикгезян " Дед", после - Манвел
**"Парапанц мартикнер"**, 300 бойцов, командир Герберт Мкртчян
**"Разданский отряд"**, 200 бойцов, ком. Зарзанд Даниелян "Грач"
**"Черная пантера"**, командир Рубик Егоян
**"Кобра"**, командиры В. Агасарян, Н. Гулян
**"Крестоносцы"**, ком. Каро Кахкеджян, после - Артур Погосян
**"Цегакрон"**, командир Акоп Хачатрян
**"Отряд смертников"**, 150 бойцов, командир Александр Таманян

**ww w. Fedayi.ru (Фидаи Арцаха)**

**Çaykənddə döyüşən könüllü dəstələr**

Döyüşçülərin sayı təxminidir

| | | |
|---|---|---|
| **" Daşnaksakanner" ,** | 200 döyüşçü - komandir | **Tatul Krpeyan** |
| **"Malatiya – Sebastiya",** | 200 döyüşçü - komandir | **Vahan Zatukyan** |
| **" Arabo "** | 200 döyüşçü - komandir | **Simon Açıqgözyan (Ded) , sonra Manvel** |
| **"Razdan Dəstəsi"** | 200 döyüşçü - komandir | **Zarzand Danielyan (Qraç)** |


**Varderesyan Aqasi ( 1937 – 1993 )**

1937-ci ildə Gürcüstanın Axalkalaki rayonunda anadan olmuşdur. 1988-ci ildən Qarabağ hərəkatına qoşulmuşdur. 1989-cu ildən Qetaşenin, Martunaşenin və Şaumyanın azərbaycan boyeviklərindən , sonralar isə OMON-un hücumlarından müdafiədə iştirak etmişdir. Sonralar könüllü dəstələrdən birinin qərargah rəisi olmuşdur. 28 aprel 1993-cü ildə Kusapat altındakı ağır döyüşlərdə həlak olmuşdur. "İgidliyə görə" medalı ilə təltif olunmuşdur. Aqasinin iki uşağı qalmışdır.



**Açıqgözyan Simon " Ded " ( 1939 -1991)**

Simon Açıqgözyan 1939-cu ildə Rumınyada anadan olmuşdur. Ermənistana gəldikdən sonra Ermənistan Elmlər Akademiyasının Elmi –Tədqiqat Geologiya İnstitutunda işə girmişdir. Açıqgözyan xor musiqisi ilə ciddi məşğul olurdu. " Narek " xoruna rəhbərlik edirdi. Artsax müharibəsi başlanandan sonra ,1989-cu ildə Simon "Arabo" dəstəsinə daxil olur. Dilican –Vardenis sərhəd sahəsində vuruşmuşdur.1991-ci ildə Daşnaksutyun partiyası Şaumyan rayonun mudafiəsini təşkil edərkən ,Açıqgözyana Qetaşen – Martunaşen xəttində vuruşan daşnaksakan dəstəsinə rəhbərlik tapşırılmışdı.30 aprel 1991- ci ildə Martunaşendəki döyüşlərin birində ,tankın qarşısına təkcə çıxaraq həlak olmuşdur. " Mənim arzum – yataqda deyil , türklərə qarşı vuruşmada əldə silah ölməkdir"- deyə o öz gündəliyində yazmışdı. Açıqgözyan ölümündən sonra 1-ci dərəcəli "Hərbi Xaç","Analıq Minnətdarlığı "Andranik Zoravar"ordenləri ilə təltif olunmuşdur.Kotayk vilayətində Mayakovski kənd orta məktəbinin siniflərindən biri onun adını daşıyır.

Fedayi.ru

* * *

**Simon Açıqgözyanın döyüş dostu - Karen Kazaryan** bu gün onun həlak olmasının anım günündə mətbutat konfransında həmin faciəli gün haqqında jurnalistlərlə xatirələrinin bölüşmüşdür. " SSRİ Ordusu və Azərbaycan OMON-u Getaşen və Martunaşen kəndlərini mühasirəyə alarkən fikirləri əhalini qırmaq idi.Təxminən saat 6-da sovet ordusu Getaşen və Martunaşeni mühasirəyə aldı. Bundan sonra omonçular sakit addımlarla , öz evlərinə girən kimi Martunaşenə girdilər.Biz müdafiə olunmağa başladıq, belə müqavimət gözləmədiklərinə görə onlar geri çəkildilər, hücum ərzində onlar üç dəfə geri çəkildilər.Təxminən saat 12-də döyüşlərin qızğın çağında Simon mülki əhalini meşələrdən birinə apardı.Qayıtdıqdan sonra o, 41-ci ildən qalma tankəleyhinə silahı əlinə götürüb , evlərdən birinin damına çıxdı. Oradan atəş aşaraq bir neçə nəfəri öldürdü. Tezliklə sovet tankları bizim mövqelərimizə atəş açmağa başladılar. Biz binanın daxilində idik.Birinci mərmidən sonra biz qışqırdıq:" Ded necəsən?" , o cavab verdi ki, ayağı yaralanıb , yəqin ki, tezliklə bizim yanımıza gələcəkdir.O hələ sözünü bitirməmişdi ki,daha bir tank mərmisi buraxdılar.Bundan sonra biz tövləyə tərəf qaçdıq. "Ded"- i yenidən çağırdıq. Ancaq o cavab vermədi.Üçüncü mərmidən sonra biz yavaş-yavaş kəndin kənarına doğru hərəkət etməyə başladıq . Açıqgözyan dama qalxarkən , erməni vətənpərvərlik mahnıları oxuyurdu və bu mahnılar da dodağında həlak oldu.Mənə elə gəlir ki, az-az belə qoçaq tapılar ki, ölümün üzünə mahnı oxusun. Açıqgözyan əsl vətənpərvər olmaqla, həm də olduqca humanist bir insan idi. Bizim dəstədə 17-18

yaşlı çoxlu uşaqlar var idi, o həmişə onları arxaya keçirərdi, həmişə öndə olardı,zərbəni öz üzərinə götürərdi, daim təkrar edərdi:” Mən Sizin ölümünüzü görmək istəmirəm ”. Hazırda həmin uşaqlardan bir çoxları sağdırlar ki,bu da onun xidmətidir. Getaşen Artsaxın qapısı idi,1991-ci ildə Stepanakertdə hələ sovet ordusu hissələri və azərbaycan omonu var idi, ancaq göstərilən müqavimət onu göstərdi ki, biz tortaqlarımızı saxlaya bilərik.” **Artsax müharibəsinin iştirakçısı olan Simon Açıqgözyanın oğlu Oqan Açıqgözyan** jurnalistlərin xahişi ilə atası haqqında danışdı:” Bizim bütün əcdadlarımız Osmanlı Türkiyəsində ermənilərin Genosidi nəticəsində türklər tərəfindən öldürülmüşdür. Açıqgözyan ailəsinin sağ qalan üzvləri Rumınyaya qaçmışlar. Simon da orada anadan olmuşdu.1946 - cı ildə babam Sovet Ermənistanına gəldi, 6 yaşında Simon artıq üç dil bilirdi. Məktəbi əla qiymətlərlə, institutu fərqlənmə diplomu ilə bitirmişdi.Biz onunla çox yaxın idik.O, geolog idi, bu da kabinet işi deyil , o dağlara, sahələrə çıxırdı, 6 yaşından mən onunla bir yerdəydim. O gözəl ata idi ”. Qeyd edək ki, aprelin 30-da Getaşen və Martunaşendə Azərbaycan Omonu tərəfidən keçirilən qığınlarda , o cümlədən uşaqlar olmaqla 17 nəfər ölmüş onlarla şəxs yaralanmışdır. 40 nəfərdən artıq girov götürülmüşdür.Kəndləri - Simon Açıqgözyanın rəhbərliyi ilə “Arabo “ dəstəsi Martunaşendə, Zarzand Danielyanın ( Qraç ) rəhbərliyi ilə Razdan dəstəsi, Vahan Zatikyanın rəhbərliyi ilə “Malatya- Sebastiya” dəstəsi və əfsanəvi Tatul Krpeyanın rəhbərliyi ilə daşnaksakanların dəstəsi qoruyurdu. **ARMENIA Today**



**Şaqen Meqriyan ( 1952 -1993)**

Şaqen Meqriyan 2 yanvar 1952 –ci ildə Şaumyan rayonun Gülüstan kəndində anadan olmuşdur.Şaqen bölgədə adlı sanlı Zinavor Meqriyanın oğludur. Onların Gülüstanda nəslinin tarixi 1700-cü illərdəndir. Şagen orta məktəbi bitirdikdən sonra Yerevan Dövlət Universitetinin iqtisadiyyat fakültəsinə daxil olmuşdur.Universiteti bitirdikdən sonra Gülüstana qayıtmış və

Şaumyan rayonun baş iqtisadçısı olmuşdur. ARFD-nin üzvü olmuş və onun 25-ci qurultayında iştirak etmişdir. 1991-ci ilin yayında Şaumyan rayon Özünümüdafiə Quvvələrinin komandiri olmuşdur.Sonralar Mardakertdə polk komandiri olmuşdur. Şaqen Meqriyan düşmən qüvvələri tərəfindən vurulan vertalyotda ekipajla birlikdə 17 aprel 1993- cü ildə həlak olmuşdur. Ölümündən iki həftə əvvəl kəndi Gülüstan və digərləri işğaldan azad edilmişdir. O Şaumyan rayonu və Artsaxın azadlığı uğrunda mubarizənin simvoluna çevrilmişdir.

WWW. Fedayi.ru



## Petros Arşalyusoviç Qevondyan “ PETO ”

**Peto Ermənistanın Nairi rayonun Proşyan kəndində anadan olmuşdur. Dağlıq Qarabağa “Dairə” əməliyyatı zaman gəlmişdir. Qetaşenin, Martunaşenin və Şaumyanın** müdafiəsində iştirak etmişdir.Strateji vacib Fərrux ( 1992) kəndinə , sonralar Malıbəyli və Quşçulara hücumla alınmasında iştirak etmişdir.Şaumyan “özünümüdafiə dəstəsinin komandanlığının “ xahişi ilə proşyanlı uşaqlar Buzluq kəndinə gəlmiş , azərbaycan ordusunun hücumunun qarşısı alınmışdır. Bərabər olmayan ağır döyüşlərdən sonra 1992-ci ilin yayında Peto və onun dəstəsi Şaumyandan geri çəkilmək məcburiyyətində qaldı. Mardakert rayonunda ağır döyüşlər gedirdi, Peto burada ən fəal iştirakçılardan biri idi.15 yanvar 1993-cü ildə Peto havadan hücuməleyhinə “İqla” qurğusu ilə Sırxavənd və Qazançı kəndləri ərazisində düşmənin qırıcı “MİQ -25” təyyarəsini vurmuşdu. Buna görə DQR Müdafiə Ordusundan aldığı pul mükafatını həlak olmuş dostlarının ailələrinə bağışlamışdı.Sonra Peto Şuşa batalyonun komandir müavini olur və Mardakert rayonun bir sıra yaşayış məntəqələrini azad edir.Sonra onun batalyonu Qubadlı –Cəbrayıl , Zəngilan –Füzuli istiqamətində döyüşlərdə iştirak edir. Burada Qaraxanbəyli istiqamətində 1994- cü ilin yanvarın axırına kimi qalır.1994 –cü ilin fevralından Peto Omar dolayı döyüşlərində iştirak edir. Omar dolayı rəşadətli döyüşlərdə DQR Müdafiə Ordusunun nəzarəti altına keçir.O 1994-cü ilin fevralın 14 –də Gəncə -Kəlbəcər yolunda həlak olur.Minalanmış sahədən döyüş yoldaşlarını xilas edərkən mina partlayışından həyatını itirir. Ölümündən sonra Artsaxın ən ali mükafatı “Qızıl Qartal” və “ I dərəcəli Döyüş Xaçı” ilə mükafatlandırılmışdır.

* * *

Qarabağ hərəkatı başlayanda Peto dostu və həmfikiri Karotla birlikdə Proşyan kəndində könüllülərin dəstəsini yaradır . Onlar vətənə yenicə qayıtmış Daşnak Partiyası sıralarına daxil olur və and içirlər. İlk döyüşləri Noyenberyan və İcevan rayonlarında olur. Sonra isə Şaumyan, Qetaşen və Martunaşen döyüşləri başlayır. 1991-ci ilin 29 aprelində Qetaşen və Martunaşen əhalisinin deportasiyası üzrə geniş miqyaslı hərbi əməliyyat baçlamışdı. Əməliyyat çox ciddi hazırlanmışdı və "Dairə" kod adı daşıyırdı. Aprein 29 –dan 30 –a keçən gecə kəndlərə tank kallonnaları, piyada döyüş maşınları, zirehli maşınlar girdilər və kəndlər hərbiçilər tərəfindən mühasirəyə alındılar. Mülki əhalinin deportasiya edilməsində SSRİ DİN Daxili Qoşunlarının Bakı operativ polku və Azərbaycan OMON-u iştirak edirdi. Səhər saat 9-da "pasport rejimin yoxlamaq " adı ilə OMON-un əməkdaşları kəndə girdilər. Mayın 1-də Qetaşenə Şaumyandan Dağlıq Qarabağ və ona yaxın ərazilərin fövqalədə vəziyyət rayonun komendantı tərəfindən 2 zirehli hərbi maşın göndərilmişdi. Peto dəstəsi ilə birlikdə Martunaşendə idi. Görünür " Dairə "əməliyyatının icraçıları – sovet ordusunun 23 –cü diviziyasının zabitləri və azər omonçuları ağıllarına belə gətirmirdilər ki, erməni fədailəri tank və vertalyotlarla silahlanmış orduya qarşı vuruşa bilərlər. Martunaşenin müdafiəsi unudulmaz bir hadisə idi. Bu kənd uğrunda elə də böyük miqyası olmayan, lakin ağır və bərabər olmayan döyüşün böyük strateji əhəmiyyəti var idi. Peto və Kapot buradan sovet ordusu və azəri omonçuları tərəfindən 3 ay ərzində olan hücumların qarşısını almaq üçün Şaumyan rayonuna gedirlər.Yenidən hərbi həyat başlayır.Yalnız yarm ildən sonra Peto Ermənistana evə qayıdır, universitetdəki tədrisi yekunlaşdırmaq və imtahanları vermək lazım idi. 1992- ci ilin yanvarında Peto və dəstəsi Ermənistandan olan müdafiə dəstələri ilə birlikdə axırıncı vertalyotla Mardakertə oradan da Stepanakertə gəlir.Petonun rəhbərlik etdiyi dəstə azərilərin müvəqqəti işğal etdiyi Əskəran rayonun Fərrux kəndini , sonra isə Malıbəyli və Quşçular kəndini azad edir. Bu döyüşdə Peto ilk dəfə yaralanır. Növbədə Şuşa və Xocalının azad edilməsi idi. Peto dəfələrlə deyirdi ki, onun ən böyük və əlçatmaz arzusu azad olunmuş Şuşanı görməkdir.Ancaq hadisələr ayrı axara düşür, Şaumyan özünümüdafiə dəstəsinin komandanlığının ,şəxsən Şahen Meqriyanın xahişi ilə proşyan uşaqları vertalyotla Şaumyana gəlir və yerli özünümüdafiə dəstələri ilə birlikdə Buzluq ,Erkec və Manaşid uğrunda döyüşlərdə iştirak edir.Çox gözəl keçirilən əməliyyat nəticəsində keçən il deportasiya edilən kəndlər yenidən azad edilir, Növbədə Qetaşen və Martunaşendir..

Lakin düşmən geniş miqyaslı hərbi əməliyyatlara hazırlaşır.12 iyun 1992-ci ildə Azərbaycan sovet ordusundan qalmış yüzlərlə zirehli maşınları istifadə edərək DQR-in Şaumyan,Əskəran və Mardakert rayonlarına geniş miqyaslı hərbi əməliyyatlara başlayır. Prezident Elçibəyin xahişi ilə 150 türk zabiti, o cümlədən 10 istefada olan general "milli orduya əməli kömək göstərmək üçün" Azərbaycana gəlir.120 kilometrlik hərbi əməliyyat gedən əraziyə Azərbaycanın bütün hərbi potensialı – keçmiş Zaqafqaziya Hərbi Dairəsinin 4 –cü Ordusunun texnikası və silahları (4 diviziya,gəmilərin üçdə biri, Xəzər Flotilyasının bütün bazaları, vertalyot eskadrilyası, 100-dən artıq hərbi təyyarə və hərbiçilərdən de-fakto ələ keçrilmiş hərbi texnika və silahlar) yeridilmişdir.Bundan başqa burada yerləşən keçmiş 4- cü ordunun qüvvələri də hərəkətə gətirilmişdir. Zirehli texnikanın, "Qrad" qurğularının , top və hərbi aviasiyanın köməyi ilə rəqib Şaumyan rayonunu tam, Mardakert və Əskəran rayonlarını qismən işğal edərək ,Əskəranın rayon mərkəzinə yaxınlaşdı. Nəticədə Azərbaycan Ordusunun öz miqyasına görə misli görünməyən hücumları ilə onlarla kənd yandırıldı, 40 min nəfər qaçqın vəziyyətinə düşdü. Bir həftə ərzində Azərbaycan Ordusu Şaumyan rayonunu tamamilə ,eləcə də Mardakert rayonunun Talış, Çaylı,Madaqis,Tonaşen, Leninavan,Marağa,Əskəran rayonunun Naxcıvanik, Pircamal, Aranzəmin , Ağbulaq ,Dəhraz, Fərrux,Xramort kəndlərini işğal etdi. 1992- ci ilin yayı və payızında Azərbaycan hücumları davam etdirərək bütün Mardakert rayonunu – 44 kənd və Mardakert şəhərini tutdu . Azərbaycan ordusunun hücumları böyük humanitar katastrofa yaratdı.DQR əhalisinin üçdə biri ölüm

təhlükəsi altında qaçaraq qaçqına çevrildi.Təkcə ac yalavac və praktik olaraq dağılmış Stepanakertə 35 min qaçqın yerləşdi. 40%-i işğal edilmiş Artsax üzərində ciddi təhlükə görünməyə başladı.Yaranmış vəziyyətlə əlaqədar iyunun 18 –də DQR-in Ali Soveti Respublikada fövqalədə vəziyyət elan etdi.18 yaşdan 40 yaşadək çağırışçıların, serjantların və əskərlərin eləcə də 50 yaşınadək zabitlərin , habelə xüsusi hazırlığı olan qadınların hissəvi səfərbərliyi başladı. Avqustun 14-də icra hakimiyyəinin bütün funksiyalarını və qanunverici hakimiyyətin hissəvi funksiyalarını ona verməklə Dövlət Müdafiə Komitəsi ( DMK) yaradıldı. Bu vaxt cəbhənin müxtəlif yerlərində ağır döyöşlər davam edirdi.Avqustun 18- də Stepanakertə diyicəkli bomba atıldı, sonrakı günlər Martuni, Mardakert Əskəran rayonlarının kəndləri də bobalanmağa məruz qaldı. Yayın axırına cəbhənin Mardakert istiqaməti ən ağır sahə kimi qalırdı. Avqustun 26-da rəqibin böyük itkiləri bahasına mühüm strateji əhəmiyyəti olan Mardakert – Kəlbəcər avtomagistralı onun əlinə keçdi.Mardakert istiqamətindəki kiçik qarabağ dəstələri ağır vəziyyətə düşdülər. Bu istiqamətdə Ordunu gücləndirmək üçün qüvvələrin yenidən qurulması aparıldı, bunun da nəticəsində sentyabrın əvvəllərində rəqibin irəliyə doğru hərəkətləri dayandırılaraq , Əskəran istiqamətində əks hücuma keçmək və həmin rayonun bir sıra kəndlərini azad edilməsinə nail olundu.Bu ərəfədə tamamilə işğal olunmuş Şaumyan rayonunda partizan hərəkatı başladı.1992- ci ilin bütün yayı və payızı Petros Qevondyanın komandanlığı altındakı batalyon döyüşlərdə idi.1992- ci ilin noyabrında DQR Ordusunun mardakert rayonun şimal - qərbindəki əks hücumları nəticəsində Tərtər- Mardakert-Kəlbəcər magistralı üzərində nəzarət ələ keçrildi.Bu ay ərzində bütün Mardakert cəbhəsi boyu ağır döyüşlər gedirdi. 1992- ci ilin axırına cəbhədə döyüşlərin fəallığı azaldı. Düşmənin qüvvələrini Sırxavənd – Qazançı istiqamətində saxlamaq mümkün oldu. 15 yanvar 1993-cü il Petonun hərbi təcümeyi halına yeni nailiyyətlər yazdı. Həmin gün Peto Sırxavənd Qazançı isiqamətində “ İqla” hərbi qurğusu ilə düşmənin “ MİQ-25 ” təyyarəsini vurdu. Petros Qevondyanın komandanlığı altındakı batalyon Mardakert rayonun yaşayış məntəqələrinin azad edilməsində fəal iştirak edir. Sonra yarım il Qubadlı- Cəbrayıl, Zəngilan – Füzuli istiqamətində ağır döyüşlər davam edir.1994 –cü ilin yanvarınadək batalyon cəbhənin bu istiqamətində , daha doğrusu Qaraxanbəyli istiqamətində qalır. Batalyonun növbəti hərbi ünvanı – Murov dağı və Omar dağ dolayı olur.1994 –cü ilin yanvarında Azərbaycan vəziyyəti ələ almaq üçün bütün cəbhə boyu hücumları fəallaşdırır. Yüksək dağlıq Omar dolayından Araza qədər ağır döyüşlər başlayır. Böyük itkilərə baxmayaraq düşmən fikrindən əl çəkmir. Mudafiəni təmun edərək və bir sıra əks hücum əməliyyatları keçirərək ,DQR Ordusu fevralın əvvəllərində düşmənin Omar dolaylarındakı bazalarını məhv edir.Nəticədə Omar dolayı tamamilə qarabağ qüvvələrinin nəzarəti altına keçir. Bununla da Kəlbəcər rayonu tamamilə DQR Ordusunun nəzarəti altına keçir.Ancaq bu zaman görünməmiş bir hadisə baş verir: fevralın 14-də Gəncə - Kəlbəcər yolunda minalanmış sahədən yaralını çıxararkən Peto minaya düşür. Vətən onun Artsax milli-azadlıq hərəkatındakı əməyini yüksək qiymətləndirir. DQR Ali Sovetinin qərarı ilə əlahiddə Şuşa batalyonun komandiri DQR ordusunun mayoru Petros Qevondyan ölümündən sonra “ I dərəcəli Döyüş Xaçı” ordeni ilə təltif edilir.7 may 2001-ci ildə Petros Qevondyana (Peto) ölümüdən sonra Dağlıq Qarabağın ali rütbəsi “Artsax Qəhrəmanı” adı verilir. DQR Ordusunun Petros Qevondyan vuruşan batalyonunda ölümünün 10 illiyi münasibəti ilə təntənəli mərasim keçirilmiş və onun büstü üzərinə həlak olmuş azatamartiklərin qanı rəngdə qərənfillər qoyulmuşdur.

www. **Fedayi.ru**

## Krpeyan, Tatul Jorjikoviç

Материал из Википедии — свободной энциклопедии

Текущая версия страницы пока не проверялась опытными участниками и может значительно отличаться от версии, проверенной 21 апреля 2010; проверки требуют 85 правок.

| **Tatul Krpeyan** | |
|---|---|
| *арм. Թաթուլ Կրպեյան* | |
|  | |
| Təvəllüdü | 21 aprel 1965 |
| **Doğulduğu yer** | Areq , Talin rayonu Ermənistan |
| **Öldüyü tarix** | 30 aprel 1991 (26 yaşında) |
| **Öldüyü yer** | Qetaşen , Şimali Qarabağ |
| **Qoşun növü** | **Könüllü özünümüdafiə dəstələri** |
| **Döyüşlər/ müharibələr** | **« Dairə » əməliyyatı** |
| **Təltifləri və mükafatları** | **Ermənistanın Milli Qəhrəmanı** |
| **Əlaqələri** | **İrina Barseqyan-Krpeyan,<br>Aspram Krpeyan (qızı)** |

**Tatul Krpeyan** ( арм. Թաթուլ Կրպեյան ) ( англ. *Tatul Krpeyan*) ( 21 aprel 1965 — 30 aprel 1991) — Ermənistanın Milli Qəhrəmanı , 1990-1991-ci illərdə Qetaşen Könüllü özünümüdafiə dəstələrinin komandiri Qarabağ müharibəsi iştirakçısı [1].

## Bioqrafiyası

1990-cı ilin sentyabrından 1991-ci ilin mayınadək Qetaşen və Martunaşen erməni kəndlərinin könüllü özünümüdafiə dəstələrinin komandiri.Eyni zamanda Qetaşenin iki məktəbində tarix və coğrafiyadan dərs demişdir.

21 aprel 1965-ci ildə Ermənistan SSR Araqatsotn vilayəti Talin padrayonun Areq kəndində anadan olmuşdur.Hazırda anadan olduğu kənd Tatul Krpeyanın şərəfinə - Tatul kəndi adını daşıyır.1982-ci ildə orta məktəbi əla qiymətlərlə bitirmişdir.1987-ci ildə Sovet Ordusu sıralarında xidmətini başa vurduqdan sonra Yerevan Dövlət Universitetinin (EQU) tarix fakültəsinə qəbul olunmuşdur.

Tatul Krpeyan mülki əhalini "Dairə" əməliyyatı zamanı müdafiə edərkən 30 aprel 1991-ci ildə Qetaşen kəndində həlak olmuşdur. Tatul (Areq) kəndində dəfn edilmişdir.

Ermənistan Respublikası Prezidentinin 20 sentyabr 1996-cı il əmrilə « Ermənistan Respublikası Milli Qəhrəmanı adı verimiş və « Vətən» (Hayrenik) ordeni ilə təltif edilmişdir.

## Döyüş yolu

Yerevan Dövlət Universitetinin birinci kursunda Tatul Qarabağ hərəkatına qoşulur.1990-cı ilin sentyabrında 1988 Sumqayıt və 1990 Bakı erməni talanları hadisələrindən sonra Dağlıq Qarabağla qonşu olan erməni kəndlərinə hücumların sayı artdığına,DQ-da vəziyyətin gərginləşdiyinə görə o Dağlıq Qarabağa yola düşür

1990-cı ilin sentyabrından 1991-ci ilin mayınadək Tatul 1990-cı ilin payızında xüsusi yaradılmış və Dağlıq Qarabağ və ona bitişik rayonlara yeridilmiş Azərbaycan SSR DİŞ Nazirliyin xüsisi təyinatlı milis dəstələri (OMON) , azərbaycanlıların qeyri –qanuni hərbi dəstələrinin və hissələrinin hücumlarına qarşı Qetaşen-Martunaşen padrayonunda özünümüdafiəyə rəhbərlik edir.

"Praktiki olaraq bu milis dəstələri azərbaycan hərbi dəstələri rolunu oynayırdılar.Onların içərisində hətta cinayət məcəlləsinin maddələri ilə məhkum edilmiş şəxslər də var idi. OMON qulluqçuları silahlı mülki şəxslərlə birlikdə erməni kəndlərinə hücum təşkil edirdilər" [2] Çaykənd kəndində Tatul Krpeyan eyni zamanda içtimai işlərlə məşğul olmuş,uşaqlara xeyli vaxt ayıraraq kəndin iki məktəbində onlara Ermənistan tarixindən dərs demişdir. Sonralar Vardan Ohanesyan xatırlayırdı:"Tatul Krpeyan mənimcə xarizmatik şəxsiyyət idi. Onu bütün Getaşen sevirdi.Onun qorxunc saqqalına baxmayaraq,o xeyirxah adam idi.Haradasa ondan qorxanlar da var idi, ona görə ki , o hətta kəndi tərk etmək haqqında fikirləşməyi belə qadağan etmişdi , və onu sevirdilər- o Getaşenin ümidi idi.1990-cı ilin sentyabrından 1991-ci ilin yazınadək cəmisi bir dəfə Areqə ailəsi ilə görüşə getmişdi, baxmayaraq ki, 1 yaşlı qızı Areqdə onu gözləyirdi.

30 aprel 1991-ci ildə Tatul Krpeyan Qetaşendən ermənilərin başlanmış deportasiyasını dayandırmaq üçün SSRİ DİŞ Daxili Qoşunlarının Bakı polkunun komandiri polkovnik Maşkovu girov götürdü. Tatul Krpeyana Maşkovun əlindən zabitlər üçün əməliyyatda iştirak edən bütün silahlı qüvvələrin hissələrinin şifrələnmiş adları olan yaddaşı dartıb almaq müəssər olmuşdu. Əməliyyat ciddi

hazırlanmışdı və kodlaşdırılmış adı «Dairə» (Koltso) idi. Bu şifrəyə əsasən əməliyyatda 5478 N hərbi hissə ( komandirin çağırğşı " Viraj") , 5477Nli hərbi hissə ( komandirin çağırğşı " Obr ıv" ), Azərbaycan OMON-u ( çağırğşı " Dozor"), **( Epoxa 9 may 1991 )** 1991-ci ildə Azərbaycan SSR-in və SSRİ-nin rəhbərliyi "Dairə" əməliyyatı çərçivəsində Getaşen[2] [5] və Martunaşen [4] kəndlərinin əhalisi üç min beş yüz nəfər ermənini deportasiya etməyə başladı.,onlar isə öz doğma kəndlərindən çıxmaqdan imtina etdilər.

Tatul getaşenlilərin həyatını xilas etmək üçün danışıqların aparılmasının başlanmasına cəhd etdi.

**S.Talalyanın xatirələrindən**:" Bizi hər an ehtiyatlandırırdılar ki,hətta bir atəş belə Sizə baha başa gələcəkdir.Qəsbikarlara hər necə olur olsun Getaşeni tutmaq üçün bütün bütün hüquqlar verilmişdi. Bunu başa düşən Tatul Krpeyan mümkün olan ən düzgün addımı seçdi. O əlində qumbara Maşkovun tankının üstünə sıçrayıb qışqırdı:Sizin əsgərlər bizim əlimizdədir.Əgər buradan getməsəniz onların hamısını məhv edəcəyik.Siz bura nə üçün təşrif buyurmusunuz ? Polkovnik orduya dayan əmri vermək məcburiyyətində qaldı."

**H.Qürcüyanın xatirələrindən**: " Hraçla birlikdə Tatul Maşkovu nişangahda saxlayaraq irəli getməyə qərar verdilər ki, tankların kənddən çıxmasına əmin olsunlar.Onların arxamızca heç kim gəlməsin əmrinə baxmayaraq , Tatulun müavini Artur Karapetyan onların arxasınca getdi ki, əgər bir hadisə baş versə komandirini xilas etsin.Maşkov isə hər an atəş açmamaq və irəli getməmək əmri verirdi.Yolda onlar tanklarla və OMON-la qarşılaşdılar.Burada Maşkova kənara qaçaraq Tatulu müdafiəsiz qoymaq müyəssər oldu.Onu həmin an güllə ilə vurdular.Krpeyanı xilas etməyə çalışan Hraç və Arturu da öldürdülər.... Qeyri-adi böyük ürəyi və qəhrəmanlığı olan Tatul beləçə həlak oldu."

21 aprel 2002-ci ildə onun doğum günündə Vətəni Areq ( hazırda Tatul ) kəndində Tatul Krpeyana və onun yeddi məsləkdaşına abidənin açılışı oldu.

## Qeydlər


1. 1.↑ *Thomas De Waal* Black Garden: Armenia and Azerbaijan Through Peace and War. — NYU Press, 2004. — ISBN 0814719457, 9780814719459
2. ↑ *1 2* Хронология конфликта. Мемориал. Архивировано из первоисточника 24 марта 2012. Проверено 1 марта 2010..
3. ↑ *1 2* Операция Кольцо Хроника событий Воспоминания свидетелей (ГРИГОРЯН)
4. ↑ Хронология конфликта. Мемориал. Архивировано из первоисточника 24 марта 2012. Проверено 1 марта 2010.
5. ↑ Главы из русского издания книги "Черный сад"
6. ↑ Из воспоминаний Вардана Оганесяна


## İstinadlar


- Татул Крпеян, Fedayi.ru

- «Операция "Кольцо" сквозь призму десятилетия», "Голос Армении", 01.05.2001 г.
- Михаил Шевелев. Операция «Кольцо» продолжается
- Операция «Кольцо»

* * *

# Dərk edilmiş ölüm - ölümsüzlükdür

İnsan dərk edərək bu dünyada ən qiymətli bir şeyi - həyatını verir. Onu onu öz inamı,ailəsi,xalqı və vətəni naminə verir. "Dərk edilmiş ölümün ölümsüzlük olmasını" hələ qədimlərdən təkcə ermənilər bilmirdilər.Ancaq onu 5-ci əsrdə erməni tarixçisi Yeqişe Vardan Mamikonyanın və onun silahdaşlarının Avarayr çölündə qəhrəmnlıqları və ölümü haqqında demişdir. Bu tarixdə xristianlıq uğrunda ilk döyüş idi, beləki ermənilər ondan imtina edir, zoroastrizmi qəbul edirdilər.

Yaxın keçmişdə bizim xalqın ölümün üzünə dik baxan qəhrəmanları olmuşdur : Axpyur Serop,Qevork Cavuş, Hrayr Djoxk, Andranik , Njde ... Tatul Krpeyan, Artur Qaribyan, Simon Açıqgözyan. Bunlardan çox az bir hissəsi öz əcəli ilə ölmüşdür. XIX əsrin axırı XX ərin əvvəllərində fidayilərin heç bir üstünlüyü yox idi. Yalnız silahı, bir də həlak olduğu təqdirdə yoldaşlarının onu dəfn etməsi üçün ağ kəfəni. Bu insanlar həyatları bahasına ermənilərin şərəf və azadlıqlarını qorumuşlar.İllərin bir xeyli ötməsindən sonra bu şərəfli siyahını Artsaxın könüllüləri – azatamartiklər davam etdirdilər.

Onlardan ilk xatırlanan Tatul Krpeyandır....

21 aprel 1965-ci ildə Talin rayonun Areq kəndində Jora və Seda Krpeyanların ailəsində hesabda altıncı olan bir uşaq da artdı. Markos babanın təklifi ilə cəsur işxan Tatulun şəfəfinə onun adını Tatul qoydular.65-ci ilin apreli ermənilər üçün xüsusi bir zaman idi.Onda ilk dəfə yarım əsr gizlinlərdə qalmış hisslər üzə çıxmağa başladı.Biz ilk dəfə sovet hakimiyyətinin "ali hisslər" nöqteyi- nəzərindən susduğu məsələlərdən : xalqımızın tarixində görünməmiş cinayətə məhkum olması,genosidə məruz qalması barədə danışmağa ürək etdik. Genosid və itirilmiş torpaqlar barədə təkcə Yerevanda deyil, kənddə də xatırlamağa başlamışdılar. Aprelin 20-də Tatulun ad günündən bir gün əvvəl Jora Krpeyan böyük oğlu Serqo ilə Arteni dağının zirvəsinə qalxırdılar, gizlicə onlara o biri oğlanlar Minas,Qriqor, Manvel də qoşuldular. Bu dağ Ermənistan yaylasının ölçülərinə görə elə də yüksək deyil, "cəmisi " 2047 metr.Ancaq Talin rayonun simvollarından biridir. Əgər xeyli yuxarı qalxsan binoklla hazırki Areqlilərin 1915- ci ildə qovulduqları doğma yurdlarını görmək olar. Ata axşama qədər dağın zirvəsində qaldı, böyük bir tonqal yandırdılar , elə böyük ki, nəinki kənddən , eləcə də sərhəddin o tayından görünürdü.Qoy bilsinlər: biz varıq, sağıq, ermənilərküldən dirilmişlər. Ocaq dörd gün yandı, hər gün yeni adamlar zirvəyə qalxır və ocağa od qoyurdular.

Areqdə Naxçıvandan və Qars vilayətinin Spni kəndindən gələn ermənilər məskunlaşmışdılar.Qocalar həyatlarını öz doğma yerlərinə həsrətlə yaşayır, bu hisslərini cavanlara da hiss etdirirdilər. Elə bil ki, buranın havası da ümidlə yoğrulmuşdu ki, itirilən torpaqlara qayıdacaqlar, onu düşmənə həmişəlik qoymayacaqlar.Tatulun uşaqlığı belə bir atmosferdə, belə bir hisslər içərisində keçdi.O qırğınlar, deportasiyalar haqqında ətraflı eşitmişdi.Yerqiri –itirilmiş Ölkəni vəsf edən qəmli mahnıları eşitmişdi. Sonralar anası Seda Tatulun uşaqlıq illərində gördüyü dəhşətli yuxunu danışdı. Guyaki, kəndin kənarındakı taxıl sahəsində Böyük Vətən Müharibəsindən qayıtmayan atası Smbat dayanmışdır,

yalnızlıqdan şikayət edir.O adamı çağırır ki, ona yoldaş və həyan olsun. Ancaq heç kim hay vermir.Onda Smbat qızına müraciət edir ki, Tatulu ona hədiyyə etsin - çünki zoravar Andranikin əskəri çatışmır. Bu dəhşətli yuxu Rafael Sahakyanın Tatula və onu silahdaşlarına həsr edilmiş "Qartallar ölkəsi" kitabında verilmişdir. Tatul böyüdükcə güclü yetişirdi, gözəgəlimli, xoşxasiyyət, adamayovuşan idi.Yerqirin həsrətinə yoluxan bütün Krpeyanlar kimi yaxşı mahnı oxuyurdu, şer yazırdı.orta məktəbi bitirdikdən sonra orduya getdi, ancaq ürəyində ağır əməliyyatdan sonra ordudan təxris olunmuşdu. Qayıtdıqdan sonra Yerevan Universitetinin tarix fakultəsinə daxil oldu. Gələcək tarixçi mühazirə və kitablardan xalqının keçmişini öyrənərkən tarixi miqyaslı hadisələrin mərkəzinə düşdü.Sovet hakimiyyəti tərəfindən Azərbaycana verilmiş Artsax öz erməni sifətini asta-asta itirməkdə idi. Respublikanın rəhbərliyi planl şəkildə yerli sakinləri sıxışdırırdı ki, boşalan evlərə azər-türkləri yerləşdirsin.Böyük bir erməni ölkəsindən yalnız DQMV və ona bitişik şimal əraziləri- Şaumyan rayonu və Xanlar rayonun bir hissəsi qalmışdı. Artsaxın Sovet Ermənistanına və bütün diasporaya kömək haqqında çağırışına hay verdilər- onların ədalətli mübarizəsini müdafiə edərək ümumermәni hərəkatı başladı. Tatul kimi bir şəxs bu mübarizədən kənarda qala bilməz, onun ilk sıralarında olmaya bilməzdi.O Matenadaranın ərazisindəki Azadlıq meydanındakı mitinqlərdə çıxış edir, xalqı vətənpərvərlik mahnıları ilə ruhlandırırdı.Yerevanda mitinqlər tam gücü ilə gedirdi, ancaq Moskvada öz yollarını seçmişdilər.Bu uzaq 1920 –ci ildəki XI Qızıl Ordunun Qarabağa girməsi kimi Azərbaycanın xeyrinə olan bir yol idi.Məsələ " partiya xəttinin" həyata keçirimə yollarında idi – onlar nə qədər kəkin olmalıdır. 1988- ci ilin dekabrındakı zəlzələdən sonra mərkəzi hakimiyyətə elə gəldi ki, ev-eşiyi uçmuş,pis vəziyyətə düşmüş xalq məcburiyyət qarşısında öz qardaş və bacıları ilə həmrəylikdən imtina edəcəklər.Ancaq fikirləşdikləri alınmadı.Odur ki, siyasətin yavaş –yavaş ciddiləşdirilməsi haqqında qərar qəbul edildi.1989-cu ilin ortalarında atasının təkidi ilə Tatul universitetin filologiya fakültəsinin tələbəsi İrina ilə evləndi. Əvvəlcə yaxın qoymurdu- xalqın belə ağır vaxtlarında şənlik etməyi. Ancaq atasına da qulaq asmaya bilməzdi, atası istəyirdi ki, öz sonbeşik oğlundan olan nəvəsini dizləri üstündə saxlasın. Onun arzusu yerinə yetdi- gələn ilin fevralında İrinanın bir qız uşağı oldu. Tatul onu , mitinqdəki oxuduğu mahnıdan sonra ona bənövşə bağışlayan qızın şərəfinə Aspram adlandırdı. Avqustda Tatul Artsaxın şimalında ağır vəziyyətdə olan tarixi Gülüstan məlikliyinə və Getaşenə getdi. O, əvvəllər univerisitet rəhbərliyindən ona tədrisdən məzuniyyət verilməsi və bu böyük kəndə tarix müəllilmi göndərilməsini xahiş etmişdi. Səfərdən qabaq atası, qardaşları, həyat yoldaşı ilə bu barədə söhbət etmişdi, ancaq anasına bu sirri açmağa ürək etməmişdi. Həyat yoldaşı ilə söhbəti ağır alınmışdı.Onun balaca Aspram haqqında nə fikirləşir sualına, tatul cavab vermişdi ki,o tək Aspram haqqında deyil bütün erməni uşaqları, hətta hələ dünyaya gəlməyənlər haqqında fikirləşir. Getaşendə gənc müəllimə özünü müdafiənin əskəri olmaq taleyi gözləyirdi. **Tatul Getaşenə gedənə qədər İqor Muradyanın rəhbərlik etdiyi "Miatsum" təşkilatının üzvü idi. "Miatsum" Daşnaksutyunun tərəfindən yaradılmışdı və tam könüllülük əsasında fəaliyyət göstərirdi – burada onların üzərinə heç bir öhdəlik qoyulmamışdı. Bu məqalənin müəllifi Ermənistanla Artsaxın birləşdirilməsi qrupunun işində iştirak edirdi.Qrup Ermənistan SSR Maliyyə Nazirliyinin binasında "on beşinci otaqda" yerləşirdi.Qrup əsasən "Miatsum" təşkilatının üzvlərindən ibarət idi.**

Mənə Getaşen və Martunaşen məğlub olanadək Getaşen padrayonun məsələləri ilə dərindən məşğul olmaq müyəssər olmuşdu. Buraya arada bir Tatul Krpeyanda baş çəkirdi – həmişə sakit, gözlər gülər,ona uzadılan əli bərk sıxardı. Orta boylu, enli kürəkli idi, sürətli yerişi var idi. Ətrafına çoxlu adamlar yığışardı, oradan xəbər öyrənmək istəyərdilər, ancaq o bir iki sözlə kifayətlənərdi. Könüllü əskərə,xalq müdafiəçisinə öz şəxsiyyəti ətrafında pərəstiş yaratmaq lazım deyildi.Hələ o vaxt Tatulun qəhrəmanlığı haqqında tarixçələr ağızdan ağıza keçirdi. Danışırdılar ki, Azərbaycanın maraqlarını

müdafiə edən, loyal olan Moskvanın sovet ordusunun dislokasiya yerində insanları mühafizə etmək üçün ora daxil olmuşdu.Tezliklə bu hadisənin təfərrüatları məlum oldu. Ondan bir misal:

Martunaşendən xəbər gəldi ki, soldatlar tərəfindən erməni özünümüdafiə dəstəsinin iki döyüşçüsü tutulmuşdur. Üstlərində pasport olmadığına görə onlar soldatlara şübhəli görünmüşdülər.Hərbiçilər onları özləri ilə apardılar,fikirləri onları azərbaycan OMON-una təhvil vermək idi. Tatul sürücü ilə birlikdə "bobikdə" onların arxasınca yollandı. Avtomobildən çıxanda Tatul sürücüyə tapşırdı ki, meşədə gizlənsin və əlavə etdi ki :"Əgər məni əsir götürsələr , mənə atəş açarsan". Belə hallarda keçmiş fidayilər deyərdilər:" Güllə ilə qurtarmaq daha yaxşıdır".

Təkbaşına ağ bayraq qaldıraraq Tatul hərbiçilərin yanına getdi və komandirlə görüşmək istədiyini bildirdi. Mayor rütbəsində olan komandir ona qulaq asmaq razılığı verdi. Tatul izah etdi ki, onlar iki günahı olmayan şəxsi tutmuşlar, onların heç bir hərbi qorxusu yoxdur. Mayor tutulanları buraxmaq istəmədi –onlar qeyri-qanuni hərbi dəstələrin üzvüdürlər və azərbaycan tərəfi tələb edir ki, onları OMON-a təhvil verək. Tatul mayora izah etmək istədi ki, Azərbaycan OMON-unun erməniləri fanatik dərəcədə görməyə gözü yoxdur. Bu adamlardan hər cür qəddarlıq gözləmək olar. Elə hadisələr olmuşdur ki, onlar əsirləri diri- diri yandırmışlar. "Bu onların Öz şəxsi işləridir"- deyə mayor laqeydcəsinə və kobudcasına bildirdi. "Bu da mənim işimdir " deyə Tatul limonka minanın boğazından yapışdı. Bir əli ilə minadan o biri əli ilə mayorun boynundan yapışdı. Qorxuya düşən mayor əsirləri azad etdi.İki ədəd zirehli maşında birində 12 nəfər silahsız əskər, o birində mayorun özü və iki nəfər əsirlikdən azad edilənlər yol gəlməyə başladılar, hər üçü bir ədəd avtomatı qapıb götürdülər. Getaşenə çatanda mayor avtomatları geri qaytarmağı xahiş etdi:"Sonra qaytararıq, ehtiyac olmayanda"-deyə Tatul sakitcə və qısaca cavab verdi.

**Sovet ordusunun əskərləri ilə birbaşa toqquşmalardan qaçan Getaşen padrayonun erməni könüllü dəstələri əsasən azərbaycan OMON-una qarşı dururdular.Şaumyan və Getaşenin özünümüdafiəsinə ümumi komandanlığı Şaqen Meqriyan edirdi.Yerevanla daimi davamlı radio əlaqə var idi , pilot Muşeq vertalyotla hərdənbir az miqdarda silah və döyüş sursatı , ərzaq və məktub gətirirdi. Ancaq yerli sakinlərə məlum olan cığırlarla atla silah gətirirdilər. Altmış kilometrlik bu yolu ora və geriyə üç günə qət etmək olurdu.** Qüvvələr nisbəti bərabər olmasa da xalq azatamartiklərə inanırdı və öz doğma yerlərini tərk etməyə tələsmirdilər. Adamlar işləyirdi, uşaqlar məktəbə eləcə də yeni tarix müəllimi Tatul Krpeyanın dərslərinə gedirdi. Ancaq türk-azərlər sovet ordusu və daxili qoşunlar vasitəsi ilə günü- gündən təzyiqi gücləndirirdilər. Moskvada Ermənistanla Azərbaycan arasındakı əsasən Ermənistan əraziləri hesabına yaradılan beşkilometrlik " təhlükəsizlk zolağı"nda bütün sərhədd boyu " Dairə" əməliyyatına başlamağa qərar verdi. Artsax ətrafındakı dairə yavaş- yavaş daralmalı idi ki, nəhayət ermənilərin "oksigeni bağlansın". Boğulmanın ilk təcrübəsi Şimali Artsaxda başladı.

Hadisələrin xronikası **: Xanlar rayonunun əsas erməni əhalisi 1988-ci ilin noyabr –dekabr aylarında, eləcə də 1989-cu ilin axırları, 1990-cı ilin əvvəllərində deportasiya olunmuşdu. Rayonun cənubunda iki kənd özünümüdafiə təşkil edib, torpaqlarını müdafiə edə bilmişdilər.Elə o zamandan da Azərbaycan rəhbərliyi əlindən gələn hər şeyi edirdi ki, bu kəndlərin əhalisini deportasiya etsin.Getaşen və Martunaşen dairəvi blokadaya alınmış və Dağlıq Qarabağın digər eməni kəndlərindən izolyasiya edilmişdi. 1990 –cı il avqustun 29-da Azərbaycan DİN nazir müavini hərbi dəstənin müşayəti ilə Getaşenə gələrək , tələb etmişdi ki, sakinlər kəndi tərk etsinlər. Kəndlilər tabe olmamışdılar. Payızda azərbaycanlıların Getaşen, Martunaşen və Manaşid istiqamətində güclü hücumları başladı ki,onlara lazımı müqavimət göstərildi. Fermalara, tarlada işləyən kəndlilərə quldur basqınları, yolların kəsilməsi, mal-qaranın sürülüb aparılması, girov götürülməsi adi hal idi.Məqsəd bi idi: Erməniləri qorxutmaq və doğma kəndlərini tərk etməyə məcbur etmə....**

1991-ci ilin 30 aprelində Getaşen sovet ordusu və azərbaycan OMON-u tərəfindən blokadaya alındı. Onlara qan iyi və ovu hiss edən kənar tör-töküntülər də qoşulmuşdular. 1500 ailəyə və erməni kəndinin bir neçə yüz müdafiəçilərinə qarşı buraya iki yüz tank və zirehli maşın, altı döyüş vertalyotu gətirdilər.Şahidlərin dediyinə görə kəndi iri çaplı pulemyotlardan və tanklardan atəşə tuturdular , yan tərəflərinə qırmızı ulduz çəkilmiş vertalyotlar evlərin üstündən alçaqdan uçaraq, yeyici tüstülü şaşkalar atırdılar. Gərginlik getdikcə artırdı, ermənilər arasında ölənlər və yaralananlar var idi. Ancaq ordu hələ kəndə girmir , gözləyirdi. Bu şəraitdə Tatul özünümüdafiə təşkil etməyə səy göstərirdi. Azərbaycan Omonu ilə iki həmlədən sonra , onların iki ayağı getdi. Ancaq arasıkəsilməyən atəşlər kəndlilərin son ümidini də qırırdı. Uşaqları məktəbin binasına yığmışdılar, hər atəşdən sonra onlar qorxudan qışqırıb ağlayırdılar.Kənddən bir birinin ardınca Yerevanla radioəlaqəyə girirdilər,nəisə etməyi xahiş edirdilər, ancaq daş kimi laqeydliklə qarşılaşırdılar. Nəhayət, Yerevandan cavab gəldi ki, kömək olmayacaq. Tatula isə xəbər verdilər ki, Martunaşen artıq tutulmuşdur və "Ded"- Simon Açıqgözyan orada həlak olmuşdur. Aprelin 28-də Getaşenə üç rus zabiti danışığa gəlmişdilər, onlar bildirdilər ki, azərbaycanlılar buraları pulla almağa hazırdırlar. Ancaq onlar kəskin rədd cavabı aldılar. Aprelin 30-da SSRİ DİN Daxili Qoşunlarının Bakı polkunun hissələri polkovnik Maşkovun komandanlığı ilə Getaşen üzərindəki yüksəklikləri tutdu və kəndə atəş açmağa başladılar. Erməni əhalisini deportaiya etmək əməliyyatında SSRİ DİN diviziyalarının hissələri ( h/h 5478 və h/h 5477), Bakı operativ polku və Azərbaycan OMON-uiştirak edirdi....

İnsana öz doğma torpağını burxıb qaçqın olmaq çətindir.Ancaq Qars yaxınlığındakı doğma kəndini məcburən tərk edən bir kişinin nəvəsinə bunun necə təsir etməsi də məlumdur. İnsanda öz gücsüzlüyünə qarşı necə hiss yaranmalıdır ki, 75 ildən sonra öz torpağında , kəndində, evində yaşamaq hüququnu müdafiə etmək "doğma" sovet ordusunun gücü qarşısında tarimar olmuşdur.Getaşenlilər qarşısında borc və məsuliyyət Tatuldan tələb edirdi ki, anlarda qeyri insani cəhdləri dəf etmək üçün ciddi, fövqalədə tədbir görsün. Ordunun ön xəttində polkovnik rütbəsi olan bir adam göründü. O kiçik zabitlərlə danışıb, qısa əmrlər verirdi. Bütün əlamətlərə görə - ordunun kəndə girməzdən qabaq son tapşııqlar idi. Tatul onları qabaqlamağa çalışdı. O cizlicə polkovnikin yaxınlığına gədər süründü, artıq onun - ilk sözündən son sözünədək bütün danışdıqlarını eşidirdi, o cümlədən polkovnikin familiyasının Maşkov olmasını. Tatul sıçrayaraq ayağa qalxıb , bir tullanışla polkovnikin yanına düşdü. Polkovnikin yaxasından yapışaraq əlindəki qranatın ipini çəkdi.Maşkov özünə gələnədək, Tatul artıq onu bərk tut-muşdu.

- Hamıya əmr et ki, qoy kənddən çıxsınlar – deyə Tatul tələb etdi, yoxsa ikimiz də göyə uçuruq. "Qırmızı biretlilər " gözlənilməz bu hadisədən sanki daşa dönmüşdülər.

- Atəş açmayın - deyə Maşkov onlara əmr verdi. Bu xəbər ildırım kimi kəndə yayıldı və o biri azatamartiklərə də çatdı. Qraç Daneliyan və Artur Karapetyan tez ora çatdılar və yaxın məsafədən avtomatlarla Tatulu müdafiəyə başladılar. Ətrafda hamı başa döşördö ki, ölüm yaxınlıqda fırlanmaqdadır. Polkovnikdən bərk yapışan Tatul addımbaaadım Maşkovu kənddən çıxarırdı ki, o kənddən çıxmaq əmri verə bilsin. Qorxuya düşmüş polkovnik ağzı quruya quruya izah etməyə çalışırdı ki, o əmri icra edir, əğər bu gün o həlak olsa belə ,sabah digər komandir ordu qarşısında qoyulan məsələni həll edəcəkdir. Tatul Maşkovun cibindən Getaşenin blokadası və əhalinin nə olursa olsun sürgün edilməsi planı olan kağızı çıxardı. Sənədi öz yaxın silahdaşlarına verdi ki, onu müdafiədə olan azatamartiklərə aparsınlar.Əskərlər komandirlərinə bir xətər toxunacağı qorxusundan heç bir hərəkət etmirdilər. azərbaycan omonçuları uzaqdan əskərləri inandırmaq istəyirdilər ki, atəş açsınlar. Onlar Tatulu yaxşı tanıyırdılar və onun başına çoxdan yüksək məbləğ qoymuşdular. Tatulla polkovnik hərəkətə davam edirdilər, bu zaman Maşkovun baxış zonasında snayper göründü. Polkovnik dayandı, Tatula elə gəldi ki,nəhayət o əmr verməyə razıdır. Maşkov başını azca arxaya çəkdi , elə görünə bilərdi

ki, o ucadan əmr vermək istəyir ya da tərləmiş boynunu silmək istəyir.Ancaq əsil səbəb başqa idi, indi snayper Tatulun başını maneəsiz nişan ala bilərdi . Atəş açıldı və ölücül yaralana Tatul yıxıldı. Qraç və Artur dizi üstə OMON-çulara tərəf atəş açdılar və bir neçə nəfər omonçunu biçdilər, ancaq özləri də hərəkətsiz qaldılar.Yaxınlaşan omonçular onlara avtomatdan arasıkəsilməyən atəş açdılar. Adamınki öləndə də gətirməlidir ki,onun meyidi basdırılsın, insanlıq sifətini itirmiş adamlara qismət olmasın.
**Tarixi hadisələrdən xəbəri olmayanlar deyə bilərlər ki, yaxşı olmazdımı ki, hakimiyyətin bütün tələbləri ilə razılaşıb , tankları, vertalyotları, "qırmızı biretliləri" gözləmədən kənddən çıxıb gedə idilər. Ancaq bizim keçmiş tarixin hər bir səhifəsi təkzibedilməz dəlillərlə isbat edir ki, nə vaxt ki, ermənilər istəmişlər ki ,az qan tökülməklə məsələni həll etsinlər , qüvvələr nisbətinin bərabərsizliyindən silahlı müqavimət göstərməsinlər , qoyulan tələbləri yerinə yetirsinlər,onda itkilər ölçüyəgəlməz dərəcədə böyük olmuşdur.**
Öz həyatını doğma torpaq üçün verən şəxs , nəinki ölümsüzlüyə gedir, eləcə də xalqı ölümə sürükləyən qaranlıqdan daimi işıqlı həyata çıxarır. 20 may 1996- cı ildə prezident fərmanı ilə Tatul Krpeyana ölümündən sonra "Ermənistanın Milli Qəhrəmanı " adı verilmişdir. Ölkə prezidentinin özü şəxsən mükafatı onun valideynlərinə təqdim etmişdir.

* * *

**Daşnaksutyun partiyasının Yerevanın Ərəbkir rayonun " Ler " təşkilatının və onun rəhbəri Armine Yesayanın** təşəbbüsü ilə 2005 –ci ilin 30 aprelində isti bir gündə ,Tatulun həlakının ildönümündə Areq kəndinə və qəhrəmanların məzarına ziyarət olmuşdur. Biz Tatulun doğma ocağında olduq, ora Krpeyanların böyük ailəsi də toplaşmışdı.Biz Böyük Vətən Müharibəsindən dönməyən 58 kənd sakinin şəfəfinə ucaldılmış abidəni ziyarət edirik , Artsaxın azadlığı uğrunda həlak olanların qəbrləri də burdadır.Tatulun səliqəli məzarındakı xaçkar yan tərəfdən Areni dağına tərəfdir. Yan-yana durmuş Tatulun anası və həlak olmuş qəhrəman Artur Qaribyanın anası- əmiqızılara kədərlə baxırıq.Tatul insanlara kömək etməyi sevirdi- deyə böyük qardaş Serqo dillənir. Xoşsifət idi, adama qulaqasan ,adamı eşidən idi, çox icraçı idi. Ancaq güclü xarakteri var idi. Heç kim onu yolundan döndərə bilmədi, o dördüncü kursda oxumağı buraxıb , Getaşenə getdi. Deyirdi ki, məktəbdə dərs deməyə gedir, ancaq biz gözəl başa düşürdük ki, o ora nəyə gedir.Aprelin 30-da xəbər verdilər ki, Getaşendə itkilər var, kəndin bütün əhalisini deportasiya edirlər. Biz tələsik "Zvartnos " aeroportuna gəldik- qQarabağla əlaqə ancaq hava yolu, vertalyotlar ilə idi. Ölənlərin meyidlərini gətirməli idilər. Biz bilirdik ki, ölənlərin içərisində Tatul adlı bir şəxs də var . Ancaq tam yəqin edə bilmirdik ki, bu bizim qardaşımızdır. Adamların içərisində məhşur yazıçı və publisist Zori Balayanı tanıdıq. Ona sual etdik :" Getaşendə həlak olan hansı Tatuldur ? " O isə cavab verdi "Orada bir Tatul var idi, talinli, o da həlak olub".Tatul başqa cür hərəkət edə bilməzdi – çünki o babamızdan doğma kəndimiz- Qars yaxınlığındakı Naxçıvan kəndi barəsində eşitmişdi. Elə bilki biz ermənilərin türklər və kürdlər tərəfindən qırğınlarını əyani görmüşdük.Təkcə Tatul deyil mənim o biri qardaşım Manvel də azadlıq hərəkatında iştirak etmişdir. Dəfələrlə yaralanıb,ən çox da ilk dəfə yaralananda çətin idi. Ancaq həkimlər həyatını xilas etdilər.....
.... **Biz Yerevana üzəri erməni bayrağının rəngləri ilə rənglənmiş avtobuslarda qayıdırıq. Təəssüf ki Tatul və minlərlə digər könüllü azatamartiklər onların həsəd aparıla biməyəcək qəhrəmanlıqlarının nəticəsində canlı abidəyə çevrilən azad Artsaxı görə bilmədilər. Bu gün sülh danışıqlarında bizi birtərəfli güzəştlərə məcbur edənlərə belə bir sual yaranır : Martunaşen, Getaşen, Şaumyanı işğal edən düşmənin oradan çıxması haqqında məsələ qaldırmadan , azad olunmuş ərazilərin hətta bir kvadrat kilometrindən belə , çıxmağa bizim hüquqmuz və haqqımız varmı?**

**Omari Xeçoyan Fedayi.ru**

## Şahidin dindirilmə

## PROTOKOLU

**24 may 1991 Yerevan şəhəri**

**Ermənistan Respublikası prokurorluğunun istintaq qrupunun üzvü T.Sukiasyan şahid qismində dindirmişdir.**

**Xaçaturyan Valeri Movsesoviç, 1947- ci il təvəllüdlü, DQMV Mardakert rayonun Aşağı Orataq kəndində anadan olmuş , erməni, partiyada olmayan, ali təhsilli, evli,Yerevan səhiyyə şöbəsinin 2 № li poliklinikasında cərrah işləyir, Yerevan şəhəri Başincaqyan küçəsi 2- ci döngə ev 10 mənzil 87-də yaşayır.**

**Dindirilmə yeri : Yerevan şəhəri 24.05.1991**

**Dindirilmə saat 10.05 –də başlamış , 14.50-də qurtarmışdır.**

Mən öz ulu babalarıma məxsus olan Dağlıq Qarabağ torpağında anadan olmuşam. 1965-ci ildə erməni məktəbini bitirdikdən sonraYerevan tibb institutuna daxil olmuşam.Cərrah ixtisası aldıqdan sonra Yerevan şəhərində təcili yardımda , sonra təcili yardım xəstəxanasında cərrah işləmişəm, son 11 ildə Yerevan səhiyyə şöbəsinin 2 № li poliklinikasında cərrah işləyirəm .

18 mart tarixində məni Ermənistan Səhiyyə Nazirliyinə çağırıb erməni kəndləri Qetaşen və Martunaşenin blokadası ilə əlaqədar yerli əhaliyə cərrahi xidmət göstərmək üçün Getaşenə (Çaykəndə) bir aylıq ezamiyyə təklif etdilər. Mən ezamiyyə ilə razılaşdım və vertalyotla (sanitar ) 19 martda Getaşenə gəldim. Vertalyotda Yerevan şəhərində xəstəxanalarda müalicə alıb çıxmış şəxslər, kəndlilər üçün un və duz da var idi. Mən ora gələndən sonra Yerevandan ora ezamiyyəyə göndərilmiş cərrah Qevork Qriqoryanla birlikdə işə başladım. Hər iki erməni kəndi mühasirədə, qonşu azərbaycan kəndlərindən OMON-çuların daim atəşləri altında olduğundan, çoxlu yaralılar var idi və iş olduqca gərgin idi. İki kənddə 4000 sakin , o cümlədən uşaqlar və qadınlar var idi.Baş həkim Yerevanda müalicədə olduğundan, ixtisaslı yardım göstərən digər həkim olmadığından ,hər ikimiz gecə -gündüz gərgin işləyir, cərrahi profil olmayan xəstələrə də tibbi yardım göstərirdik. Biz kəndləri hücumdan qorumaq üçün ora yerləşdirilmiş daxili qoşun hissələrinin əskərlərinə də yardım edirdik.Aprelin ortalarında baş həkim Sarkis Arutyunoviç Akopkexvyan kəndə qayıtdı. Bu vaxt ərzində vəziyyət daha da kəskinləşmişdi,elektrik işığı, su kəsilmiş, atəşlər artmış, suyun olmadığına görə infeksion xəstəliklərin baş vermə qorxusu var idi. Mənin ezamiyyə vaxtımın qurtarmasına baxmayaraq vertalyot uçuşlarının qadağan edildiyinə görə Yerevana qayıda bilmirdim. Beləliklə, qetaşenlilər və martunaşenlilərlə birlikdə xarici aləmdən tam təcrid olunmuşduq. Telefonlar bağlanmış, işıq olmadığına görə televizor və radio işləmirdi, biz Getaşendən kənarda nə baş verdiyindən tam xəbərsiz idik. Sakinlər arasında mənəvi psixi vəziyyət kəskin , gərgin idi və hamı nəyi isə...ən çoxu da pis bir şeyi gözləyirdi. Hamı OMON-çuların hücumunu gözləyirdi, çünki onların çox sayda toplaşdıqlarını müşahidə edir, son 3 ildə hər zaman onların depotasiya olunmaq tələblərinə görə, indi hücum üçün əlverişli vəziyyət idi .Çünki artıq kənddə hərbi kontingent yox idi. Aprelin 29-da kəndin üzərində hərbi vertalyotlar görünməyə başladı və hamı belə hesab etdi ki, hərbi hissələr kəndi hücumlardan qorumaq üçün kənddə yerləşəcəklər və buna sevindılər. Ancaq vertalyotlar kəndin özünümüdafiə postlarını partladaraq getdilər.

Bundan sonra həyəcan və pərişanlıq başladı; xoşbəxtlikdən növbə çəkən getaşenlilər və martunaşenlilər postlardan partlayışdan qabaq çıxdıqlarına görə xəsarət alan olmamışdı.Səhərisi gün aprelin 30-da səhər tezdən mən xəstəxanadaydım, soyuqlayaraq orada gecələmişdim, tankların güclü səsinə oyandım, kəndə tank kalonnası gəlidi, aydın oldu ki, bütün kənd tanklarla mühasirə olunmuşdur.Kəndin sakinləri müxtəlif səmtlərdən(kəndin kənarlarından) mərkəzə xəstəxananın yaxınlığına toplaşmağa başladılar. Kənd sakinlərindən öyrəndim ki, hərbçilərin arxasınca kəndə OMON-çular girmişdir.Hər tərəfdən avtomatdan atəş səsləri eşidilirdi, Getaşendən 2 km uzaqlıqda yerləşən Martunaşendən isə artilleriya atəşləri eşidilirdi. Az sonra səmada tüstü görünməyə başladı ,evlər yanırdı, səmada isə kəndin üzərində pulemyotlardan atəş açan təxminən 8 vertalyot uçurdu. Danışıqlardan belə məlum olurdu ki, sakinlər cavab atəşləri açmırlar, çünki özünümüdafiə qüvvələri yalnız OMON-un həmlələrini dəf etməyə hesablanmışdı. Dəyənəklər , ovçu tüfəngləri və kənd təsərrüfat alətləri ilə tank və pulemyotların qarşısına çıxmaq isə hədər bir iş idi. Bir saatdan sonra Getaşendə ( Çaykənddə ) ölən və yaralananları gətirməyə başladılar. Saat 11-ə 8 nəfər öldürülmüşdü, axşama doğru ölənlərin sayı 15-ə artdı.Sonra isə məlum oldu ki, Martunaşendə də 5 nəfər öldürülmüşdür. Yaralılar təxminən 28 -30 nəfər idi, biz yaralılara yardımı güclə çatdırırdıq. Bütün günü xəstəxanada keçirdim, gecə isə yatmadım. Səhərisi gün hücumlar yox idi, nisbi sakitlik idi.Ancaq mayın 1-i axşama bizim işimiz ona görə artdı ki, girov götürülənlərdən bir qismi- 27 nəfər qaytarılmışdı, onlar tanınmaz dərəcəyədək döyülmüş,əziyyət verilmişdi,hamısının üzü göyərmişdi və qan içərisindəydi. Qabırğaları sındırılmış, əlləri və barmaqları yandırılmışdı.Mayın 2-də hərbiçilər tərəfindən pasport rejimi yoxlanıldı,hərbi maşınlar kəndin içərisində şütüyür və səsgücləndiricilər vasitəsi ilə kəndi tərk etməyə çağırır bu zaman təhlükəsizlik vəd edirdilər. Artıq 3-cü sutka idi ki, xəstəxanada meyidlər var idi.Ölü yiyələri meyitləri özləri ilə deportasiya olunacaqları yerə aparmaq istəyirdilər. Kənd qəbristanlığında dəfn aparmaq mümkün deyildi, çünki orada OMON-çular var idi,çoxlu sayda texnika yığışmışdı. Meyidlər çürümə vəziyyətində idilər.Onları təcili basdırmaq lazım idi, kəndin rəhbərliyi bizim təkidimizlə ölü yiyələrinə meyidləri öz həyətlərində basdırmağı təklif etdilər və elə də etdilər.İndiyə qədər ölülərin sifəti və gördüklərim yadımdan çıxmır.Öldürülənlərin biri ən cavanı – Valeri Nazaryanın bir qulağını kəsmişdilər,üzərində işgəncə və döyülmə əlamətləri var idi, digərinin başına balta ilə vurduqlarından sifəti dağılmışdı.Öldürülənlərdən birinin qolunu kəsib ayırmışdılar.Öldürülənlərin əksəriyyəti qocalar idi.Onların bədəni avtomat atəşlərindən setkaya bənzəyirdi, deşik-deşik olmuşdu.Öldürülənlərin içərisində 80 yaşlı qoca qarı var idi. Qetaşenlilərin əzabının sərhəddi yox idi, onların gözlərinə baxmaq dəhşət idi , hamısı dəli kimi görünürdülər. Qetaşen və Martunaşenin qəhrəman xalqı öz azadlıqlarını əsrlər boyu qorumuşdu, ancaq son üç ildə əlacsız və gücsüz vəziyyətdə idilər , ən qoxulusu da o idi ki, aldadılmışdılar. Hamının bircə istəyi var idi – uşaqları necə xilas etsinlər. Hücum zamanı uşaqlar zirzəmilərdə gizlədilmişdi, çünki bu yaxınlarda Saakyan və Seyranyanların uşaqlarının başına gələnlər hamının yadında idi,yəni aprelin 17-də OMON-çuların nişan alıb alnına açdıqları atəşlə 13 yaşlı Aramais Nikolayeviç Saakyan öldürülmüşdü, aprelin 22-də isə uşaq bağçasının yanında partlayan mərminin qəlpələrindən Seyranyan qardaşları qəlpə yaraları almışdılar.Onlardan birinin iki barmağını kəsmək lazım gəldi.Odur ki, hamı bilirdi ki, uşaqlara da heç bir rəhm olmayacaq. Hamı yarıboşalmış və talan edilmiş Qetaşeni , bütünlüklə yandırılan Martunaşeni tərk etməyə cəhd edirdi.Mayın 3-dən başlayaraq hərbiçilər hər iki kəndin əhalisini daşımaq üçün vertalyotlar verdilər. Əvvəlcə uşaqları və qadınları, sonra isə qocaları deportasiya etdilər. Bu mayın 7-ə mən həbs edilənədək davam etdi,bundan sonra nə baş verdiyini mən bilmirəm.Mayın 7-ədək əvvəlki kimi hücumlar olmasa da , gecələr toplardan, tank və pulemyotlardan atəş açırdılar..qorxutmaq üçün. Ancaq nişangaha alınmış atəşlər də olmuşdu, beləki tankdan açılan atəşlə Yeqnikasar adlanan yerdəki qədim kilsəni məhv etmişdilər, bunu da onunla izah etmişdilər ki,

guya orada boyeviklər var imiş.Xəstəxanadan bütün xəstələr çıxarıb apardılar və onları da kiçik tibb heyəti ilə birlikdə deportasiya etdilər. Xəstəxana boşaldı, biz, 3 həkim –mən Qriqoryan və Akopkexvyan qaldıq. Biz qərara aldıq ki, hələki kənddə adamlar var, qalaq,çünki , iş çox idi.Onu qeyd etmək kifayətdir ki,
neft lampasının işığında bir-birimizə kömək edə-edə cərrahi əməliyyatlar və sarğılar edirdik. Mayın 7-də biz üçümüz birlikdə evə qayıtmaq üçün müvəqqəti yaradılan aeroparta gəldik.Orada çox sayda hərbiçilər,OMON-çular,Azərbaycan DİŞ Nazirliyinin nümayəndələri, rayon rəhbərliyi var idi.Sənədlərin yoxlanışı gedirdi.Hərbiçilər mənim pasoptumdakı yerevan qeydiyyatını görüb , bu barədə azərbaycan nümayəndələrinə məruzə etdilər.Onlar isə səs-küy salmağa, gülməyə başladılar,üzümüzə tüpürüb , bizi kəndlilərin arasından kobudcasına ayırıb, milis maşınına itələdilər. Biz izah etməyə çalışdıq ki, ezamiyyətə gəlmiş həkimlərik, ezamiyyə vəsiqələrini göstərdik, lakin bunlar bir nəticə vemədi.Bizi xüsisi maşının kamerasına saldılar və sonra ora daha 14 nəfər kəndlilərdən əlavə etdilər və Kirovabad həbsxanasına apardılar. Onu da qeyd etmək istəyirəm ki, xüsüisi təyinatlı avtomaşına mindiriləndək, aeroportda üstümüzü gəzmişdilər, cibimizdə nə varsa – pul, sənədlər, saatımız,üzük hamısını götürdülər, bunun üçün heç bir protokol tərtib etmədilər. Kirovabad (Gəncə) həbsxanasında həyətdə 17 nəfər bizi maşından düşürüb, həbsxana işçiləri döyə-döyə içəriyə apardılar.İçəridə şəxsiyyəti müəyyən etməyə başladılar,biləndə ki, biz Ermənistandan gəlmiş həkimlərik, üzümüzə tüpürdülər,söyərək bildirdilər ki, biz Sizə göstərərik. Bu proseduranı bitirəndən sonra , bizi dubinka və yumruqla döyə-döyə zirzəmiyə apardılar, soyunma sonra isə, geyinmə əmri verdilər. Bu ərəfədə dubinka, yumruqla, ayaqlarındakı çəkmə ilə bədənimizin hər tərəfinə,eləcə də başımıza və üzümüzə vururdular.Çılpaq vəziyyətdə daha rəhimsizcəsinə döyürdülər, bu on dəqiqə çəkirdi, biz qışqırırdıq, xahiş edirdik ki, döyməsinlər,ancaq həbsxananın ondan çox əməkdaşı döyməyi daha da ciddiləşdirirdilər , döyə-döyə erməni xalqının və onun müqəddəslərinin ünvanına söyürdülər.Bundan sonra bizi döşəməsi betondan olan nəmli kiçik bir kameraya atdılar, əvvəlcə qapını qıfılladılar, bir azdan sonra qapını açdılar və bizim yanımıza bir neçə cinayətkar daxil oldu.Onlar həbsxananın işçilərindən daha amansız bizi döyüb söyməyə başladılar.Bu təxminən 20 dəqiqə çəkdi.Bundan sonra həbsxananın işçiləi onları apardılar.İkinci döyülmə zamanı biz necəsə ağrılı nöqtələri müdafiə edirdik, ancaq hələ bilmirdik ki, daha pisi hələ qabaqdadır.Bir azdan sonra qapı qəfildən açıldı, məni işarə ilə bayıra çağırdılar.Mən çıxmaq istəmədim, ancaq qapının yanında duran milis formasında starşina paqonu olan arıq balacaboy bir kişi söyüb üstümə qışqıraraq məni kobudcasına karidora itələdi.Kameranın qapısını bağladılar.Karidorda yarısının əlində dubinka olan 10 milis işçisi var idi. Hər tərəfdən mənə doğru cumdular və məni eşşək doxturu deyə söyüb , vəhşicəsinə döyməyə başladılar.Mən istədim divara söykənəm ancaq bu alınmadı,məni döşəməyə yıxdılar, ayaqlamağa başladılar, ayaqları ilə hara gəldi vururdular və mən huşumu itirdim. Mən gözümü açanda gördüm ki , kiçik bir kameradayam və orada məndən başqa heç kəs yox idi.Mən döşəməyə uzanıqlı idim.Əsasən ağrılı belimə, döş qəfəsimin sol hissəsinə vururdular, bədənimi əllədikdə sümüklərin xirçıltısını hiss etdim, məlum oldu ki, sol tərəfdən qabırğalarım qırılmışdır, çətin nəfəs alırdım, paltarlarım cırılmış və qan içində idi, sol gözümdə hematoma əmələ gəlib şişmişdi, bədənimdə çoxlu sıyrıqlar var idi.Mən beləcə də uzanmağa davam etdim, çətinliklə hərəkət edirdim, bərk ağrılarım var idi., bu kamerada nə qədər qalmışam bilmirəm.Kameradan məni çıxarıb karidora apardılar, çılpaq soyundurdular və beton döşəməsi su ilə doldurulmuş bir kameraya saldılar. Ayaqüstə durmaq komandası verdilər.Beləliklə, bu cür əzab-əziyyətlə təxminən sutka yarım acqarına güclə ayaq üstə dayandım. Bu vaxt ərzində mən ancaq kameranın tualetindəki krandan su içirdim.Bütün bədənim göynəyirdi ,ayaqlarım şişmişdi və göynəyidi.Sonra paltarlarımı mənə ataraq geyinməyimi tələb etdilər- bu vaxt ərzində mənim təzə tuflilərimi dəyişməyə imkan tapmışdılar. Bunlardan sonra məni dubinkanın altında bizim bir neçə

qetaşenlilər olan nisbətən quru kameraya apardılar.Onlar üç nəfər idilər- Papik,Beqlar bir də əgər yadımdan çıxmayıbsa Sergey.Onları da döymüşdülər.Orada birinci dəfə bizə yemək verdilər.Sonra kameraya Ermənistan DİŞ-nin iki milisonerini gətirdilər, onları Noyemberyan rayonunda tutmuşdular,birinin adı Qevork idi- baş leytenant, o biri Karen- kiçik leytenant.Xususən də Qevorku bərk döymüşdülər, onun sümüyü yəqinki,sınmışdı. Axşam dindirmə başladı.Hər dəfə çağıranda döyürdülər ,qoxudurdular,müstəntiqin əmrlərinə tabe olmağı tələb edirdilər.Müstəntiqlər məni ayrıca otaqda dindirirdilər,bəzən dindirmə zamanı orada kənar şəxslər də olurdu,ancaq mən yəqin bilirdim ki, qapının dalında mütləq adamdöyən var.Məni əsasən üç müstəntiq dindirirdi. Onlar özlərini təqdim etmədiklərinə görə familiyalarını deyə bilmərəm, onlardan biri qara,orta boylu,orta köklüdə, uzunsifət, o biri arıq , iti burun, sarı, slavyana oxşayırdı, 3-cü hündürboylu,sakit,mədəni davranışlı,ağ rəngli dərisi var idi, siqaret çəkməyən,yumrusifət,çox güman ki, metis idi,hər üçü azərbaycanca bilirdi,mənimlə rusca azərbaycan aksenti ilə danışırdılar.Onlar məni ayrı-ayrılıqda növbə ilə, təsvir etdiyim şəkildə dindirirdilər. Əsasən suallar eyni idi – Qetaşendə nə ilə məşğul idin, boyeviklərdən kimləri tanıyırsan, onların sayı nə qədər idi, rəhbərləri kim idi, silahlar haradadır,yerli boyeviklər kimlərdir, boyeviklərə kim kömək edir, mən hansı əməliyyatda (hərbi) iştirak etmişəm,mən neçə nəfər öldürmüşəm, **Gürzalını kim öldürmüşdür?** .İlk iki müstəntiq isintaqın fiziki metodunu seçmişdilər, qoxutmaq və işgəncə yolu ilə kağıza imza atdırırdılar, ayrı çıxış yolu yox idi, şikayət etməli adam da yox idi, heç bir qanun işləmirdi.Bizə nə ittihamı verildiyini, nə qədər müddətə həbs olunduğumuzu da də demirdilər, qeyri-müəyyənlik bizə əziyyət verirdi.Elə gün olmurdu ki,bizi gündə iki dəfə döyməsinlər,özü də vəhşicəsinə,10 nəfər bir adamın üstünə düşürdü.Əzab-əziyyət verənlər müxtəlf idilər. Biz şübhələnirdik ki, bunlar Xanlar rayonundan ,OMON-dan və Tovuz rayonundandırlar. Biz daim qeyri-müəyyənlik qorxusu altında idik, müstəntiqlər özləri döymürdü, sözlə qorxudurdular. 3-cü müstəntiq isə əmin edib başa salırdı ki, onun öz əli ilə yazdığı protokolu imzalayaq. O anda o birsilər kimi, mənim də bircə arzum var idi – bu cəhənnəmdən nə edək ki, tez qurtaraq, odur ki,bütün kağızlara imza atırdıq. Bəziləri deyirdilər ki, onlara 15 sutka inzibati həbs veriblər, ancaq mənə konkret heç bir şey deməmişdilər. Mən elə də başa düşə bilmədim ki, məni nəyə görə tutmuşdular , niyə döyürdülər, mənə niyə həqarət edirdilər.

Müəyyənlik yaratmaq üçün tələb etdim ki, məni mühakimə etsinlər. 17-ci sutkada, mayın 23-də bizim hamımızı kameradan çıxardılar, hansısa həbsxana rəisinin yanına gətirdilər. Orada teleaparatura ilə yapon jurnalistləri var idi. Bizimlə söhbəti Azərbaycan DİN nümayəndəsi aparırdı. Telekamera qarşısında bizdən soruşdu ki, sizə necə yemək verirdilər, yatağımız var idimi və s. Mən dilemma qarşısında qalmışdım - əgər düzünü desəm ki , bizimlə vəhşi heyvanla edibən rəftardan betər rəftar etmişlər, ya da bu otağa gədər bizi müşayət edən həbsxana işçilərinin təkidləri ilə yaxşı rəftar etmişlər deməliyəm. Fikirləşdim ki, səfeh də belə mənim sifətimdə olan qançırlardan başa düşər ki, bizimlə necə rəftar etmişlər.Bundan başqa biz milis maşınına minəndə sürünə- sürünə mindiyimizi, bir-birimizə kömək etdiyimizi kameraya çəkdilər, odur ki, canilərin əlindən qurtarmaq üçün dedim ki, hər şey yaxşı idi. Bundan sonra bizi xüsusi milis maşınına mindirdilər və dedilər ki, Sizi Ermənistanla sərhəd Tovuz rayonuna aparırıq və orada sizi azad edəcəyik. Düzünü desəm mən buna inanmadım, çünki məndə ədalətə inam artıq itmişdi. Maşında 15 nəfər idik, üç həkim, bir martunaşenli, qalanlar qetaşenli. Mənim həkim –cərrahın bir ayıq ezamiyyəti belə başa çatdı,ora xəstələri müalicə etməyə getmişdim, özüm əlil geri dönürdüm. Mənə daha sual verməməyinizi xahiş edirəm,çünki özümü pis hiss edirəm, mənə və yoldaşlarıma ayıb olan verilən o əzabların detallarını xatırlamaq və onlarla yenidən yaşamaq istəmirəm.

İfadə mənim sözlərimlə, öz əlimlə yazılmışdır,düzgündür, ona görə də imza atıram.

Xaçaturyan V.M. 24.05.1991

Dindirdi: **Ermənistan Respublikası prokurorluğunun istintaq qrupunun üzvü**

**I dərəcəli hüquqşunas T.Sukiasyan**

Əsli ilə düzdür: Ermənistan Respublikası baş prokurorunun böyük kömə istintaq qrupunun rəhbəri

A.K. Arutunyan

**Şahidin dindirilmə**

**PROTOKOLU**

**25 may 1991-ci il Yerevan şəhəri**

Ermənistan Respublikası prokurorluğunun prokuror şöbəsinin prokuroru Q.Oqanesyan şahid qismində dindirmişdir.

**Akopkexvyan Sarkis Arutyunoviç , 1935-ci il təvəllüdlü, Qetaşen kəndində anadan olmuş , erməni, Sov.İKP üzvü,ali təhsilli, ailəli, Qetaşen xəstəxanasında baş həkim işləmiş , məhkum olmamış, deportasiyadan sonra müvəqqəti Yerevan şəhəri , Kuznetsov küçəsi 6 mənzil 44-də yaşayır.**

Mən Az.SSR Xanlar rayonun Qetaşen (Çaykənd) kəndində anadan olmuşam.1969- cu ildən Qetaşen kənd xəstəxanasında baş həkim işləyirəm.İxtisasım cərrahdır. Sumqayıtdakı məlum hadisələrdən sonra qonşu azərbaycan kəndləri ilə əlaqələrimiz pisləşdi, xüsusən də Bakı, Kirovabad, Xanlardakı talanlardan sonra. Üç il fasiləsiz bizə hücum etdilər, güllə atdılar, su, işıq və s. dayandırdılar. Həmkəndlilərimizi öldürür və oğurlayırdılar, onlar indiyədək də tapılmamışlar.1990-cı ilin yanvarında Kamo, Azat və Quşçu – Armavir kəndlərinin əhalisi deportasiya edildi, Sovet Ordusunun əskərləri bizim kəndimizə də gəldilər, onlar deportasiyaya şərait yaradırdılar.Bu hadisələrdən sonra daim Martunaşen və Qetaşen kəndinə müxtəlif atıcı silahlardan isifadə edərək hücum etməyə başladılar.1990-cı ilin yanvarından bizim kənddə Sovet Ordusunun əskərləri yerləşdirildi.Onlarla bizim yaxşı münasibətlərimiz var idi.Azərbaycanlılar daim bizi deportasiyaya təhrik edir və bizi qıracaqları ilə hədələyirdilər. Bu məlum hadisələrə qədər də bizim xəstəxana olduqca pis vəziyyətdə idi. Kəndin sosial vəziyyəti pis idi. İndi mən özümü pis hiss edirəm, ona görə bütün hadisələri təsfilatı ilə təsvir edə bilmirəm. Mənim sağlamlığım hazırda kirovabad həbsxanasındakı əzab-əziyyətlərə və daim döyülmələrə görə pis vəziyyətdədir. Ona görə də qısaca olaraq 17 apreldən 23 may 1991-ci ilə qədər olan hadisələri danışa bilərəm.

17 apreldə Sovet Ordusunun əskərləri gizli olaraq bizi tərk etdilər.Bundan bir neçə gün sonra kəndə hərbi- döyüş vertalyotları gəlməyə başladı, onlar çox alçaqdan uçur və raketlərlə silahlanmışdılar. Bizə OMON-lar hücum etməyə başladılar,qabaqda sovet ordusu,arxada OMON-lar idi, onlar avtomatlarla və balta ilə silahlanmışdılar. Hərbiçilər üzlərini müxtəlif boyalarla maskalamışdılar. Bu aprelin 30 səhər saat 6.00- da idi. Onlar toplardan, tanklardan, vertalyotlardan pulemyotlarla bombalayır və atəş açırdılar. Evləri yandırır, günahsız adamları öldürürdülər ki, onların arasında qocalar və uşaqlar var idi. Cavanları girov götürürdülər. Bu elə qəfil oldu ki, biz belə fikirləşdik ki, gedən ordunun yerinə təzəsi gəlir ki, bizi müdafiə etsin.Ancaq hər şey əksinə oldu, döydülər, öldürdülər,kimi gəldi girov götürdülər. Girov götürülənlərin bəzilərindən indiyə qədər də heç bir soraq yoxdur. ... Qonşu kəndlərdən azərbaycanlılar gəldilər və evləri talan etməyə , mal-qaranı sürüb aparmağa başladılar.Gözlənilməyən hadisədən biri də o idi ki, sovet əskərləri həmin işləri azərbaycanlılardan pis görmürdülər. Sovet komandirlərinin və əskərlərinin əksəriyyəti sərxoş vəziyyətdə idilər.

Xəstəxanaya daxil olan yaralılarda bütün daxili orqanları dağıdan ekssentrik güllələr aşkar edilirdi.Gətirilən meyidlərin içərisində öldürülmüş 70-80 yaşlı qocalar var idi. Papik Seyranyanın 83 yaşı var idi, onu avtomatla öldürmüşdülər. Ripsime adlı qadının 78 yaşı var idi, Axumyan Ovanesin 80-dən artıq yaşı var idi, Gəncümyan Benik 70 yaşında idi. Axumyanı əskərlər xəstə vəziyyətdə yataqda güllələmişdilər.Bəzilərini balta ilə öldürmüşdülər – 50 yaşlı Meliks Soqomonyanı .Xəstəxanaya yaralıları hesaba almasaq 13 meyid gətirmişdilər. Meyidlərin içərisində 30 yaşlı Nazaryan Valerikin qulaqlarını kəsmişdilər.Hərbiçilər yaralıları xilas etməyə kömək etmirdilər (gətirmirdilər), bunun da nəticəsində stasionar yardım göstərilmədiyinə görə bir çoxları aldıqları yaralardan öldülər.Yaralıları vertalyotlarla aparmağı qadağan etmişdilər. Yerevandan uçub gələn həkimlərə yerə düşməyə icazə vermədilər.
Öz amansızlığına görə əskərlərin və OMON-çuların kəndə hücumu Vyetnam kəndi Sonqmini xatırladırdı. Katyuşa və tanklardan , vertalyotlardan atəş açırdılar,xaos idi,əsl cəhənnəmi xatırladırdı . Qadınlar , uşaqlar- hamı həddindən atrıq həyəcanlı , şok vəziyyətində idi. Muxtəlif silahlardan açılan atəşlərdə mərmi ilə kilsə dağıdıldı.Ölənləri qəbristanlıqda basdıra bilmədik, onlar evlərin həyətlərində dəfn edildi.Bir çox evlər dağıdğldı və yandırıldı. Axşama doğru özlərindən sonra kül və dərd-qəm qoyaraq əskərlər və OMON geri çəkildi.Bir çoxlarını özləri ilə apardılar ,təxminən 53 nəfər. Sonra bizi məcbur etməyə başladılar ki, 2 min ildən çox tarixi olan əcdadlarımızın yaşadığı kənddən guya öz istəyimizlə köçmək istədiyimizə dair sənədə imza atdırsınlar. Bizi qorxudurdular:" Kim imza atmasa güllələyəcəyik".Bu əzabvermədən çox danışmaq olar, ancaq sağlamlığım imkan vermir. Mayın 2 –də zorla deportasiya başladı və on illərlə qazandığımız bütün əmlakımız ( qiymətli əşyalarımız, pulumuz və s.) kənddə qaldı. Qadınların qulağından sırğalarını, üzüklərini çıxarırdılar, ciblərimizi yoxlayırdılar , əzab verirdilər, qadınlara qarşı nalayiq hərəkət edirdilər.Gülməli qiymətlərə - 50 -100 ,hətta 5 manata avtomaşınları satmağa məcbur edirdilər, sonra isə bunu da geri alırdılar, notariusları isə əllərində kağızları hazır dayanmışdılar. Hərbiçilər arasında da elə zabitlər var idi ki, avtomaşınları bu qayda ilə əllərindən alırdılar.Mən eşitmişəm ki, Sarkisyan Aramaisin avtomaşınını podpolkovnik- komendant götürmüşdür. Orada qanunsuzluq, özbaşınalıq, insaniyyətsizlik hökm sürürdü. Xoşlarına gəlməyən bəzi kişiləri girov götürürdülər.Onları vertalyota minməyə qoymurdular. Mən gözləyirdim ki, 92 yaşlı anamla birlikdə deportasiya olunum. Ancaq bu zaman Xanlar rayon prokuroru məni "daşnak Andranik " deyə çağıraraq , qoxutdu ki, məni bu saat öldürərlər, və məni OMON-çulara verdi. Məni və başqa digər 2 həkimi avtomaşına oturdaraq kirovabad həbsxanasına apardılar. Prokuror bilirdi ki, mən həkiməm.Əlavə edim ki, prokurorla yanaşı rayon məhkəməsinin hakimi də dururdu. Biz üç nəfər həkim idik : mən, Xaçaturyan Valerik və Qriqoryan Qevork, qalan 14 nəfər bizim həmkəndlilər.Həbsxanada biz üç həkimi ayırdılar, çılpaq soyundurdular və döyməyə başladılar.Hər birimizi 10 OMON-çu döyürdü. Çəkməli ayaqları və dubinka ilə huşumuz itənə qədər döyürdülər. Hər gün 2 -3 dəfə bu hadisə təkrar olunurdu.Birinci üç sutka məni çılpaq vəziyyətdə suyun içində ac saxladılar. Gündə iki dəfə səhər və axşam çəkməli ayaqları və dubinka ilə huşum itənə qədər döyürdülər. Dördüncü gün mən psixoloji pozğunluq keçirdim, kameradakıların dediyinə görə mən sayıqlayır , " məni güllələməyin" deyir, kameradan çıxmaq istəyirəmmiş.Belə vəziyyətdə məni yenə kameradan çağırıb aparır və yenə huşum itənə qədər döyürdülər. Döyüb qurtarandan sonra yenə itələyib kameraya salırdılar. Mən belə səhnələri ancaq faşist filmlərində görmüşdüm. Burada daha ağır idi, nəinki filmlərdə. OMON-lar məzələnmək üçün Xanlar və Şamxor rayonundan briqadalar dəvət edib onlara döydürdülər. Bizi 17 gün saxladılar. Mənim bütün bədənim döyülməkdən göm-göydür. Sümüklərim sınmışdır,beyin silkələnməsi olmuşdur, aşağı ətraflarımda parez əmələ gəlmişdir, çox saylı səhti travmalarım var, absesə keçən hematoma əmələ gəlmişdir. Hər iki böyrəyim zədələnmişdir, ona görə də sidiyimdə qan gəlir.

Məni kimi Qevork Qriqoryanı və Valerik Xaçaturyanı da döyürdülər. Türməyə yanımıza bir rus podpolkovniki gəlmişdi, görəndə ki , mən kanalizasiya sularının içində dururam, elə bil ki , rişxənd edərək soruşdu:" Özünüzü necə hiss edirsiniz,və öz vəziyyətinizdən razısınızmı?" Ümumiyyətlə, hər hansı bir xahiş yada ki, narazılıq döyülməyə səbəb olurdu. Yalnız ona görə döyürdülər ki, mən erməniyəm. Bu həbsxanada erməni milisonerlər də var idi, onları karidorda döyərkən görmüşdüm. Mayın 23-də bizi azad etməmişdən qabaq əvvəlcədən xəbərdarlıq etdilər ki, bizimlə necə rəftar etdikləri barədə heç yerə şikayət etməyək.Bizi həbsxananın rəisinin kabinetinə çağırdılar, orada 4 yapon jurnalisti də var idi, onların yanında bizdən soruşdular ki, sizi necə saxlayıblar (yemək,şərait) və onlara tərcümə etdilər ki, biz razıyıq, heç bir şikayətimiz yoxdur, çox sağ olun.Bizi belə deməyə vəziyyətimiz vadar edirdi. Mənə ittiham irəli sürmüşdülər ki, mən yaralıları müalicə etmişəm.Yəqin ki, bizim ucsuz- bucaqsız vətənimizin əhalisi azərbaycan həbsxanalarında nələrin baş verdiyini təsəvvür etmir. Kimki keyfini pozmaq istəyir , qoy gəlib hələ indiyə kimi də qalan mənim qançırlarıma baxsın.Mən əvvəllər fikirləşirdim ki, həbsxanalarda formal olsa da qanunçuluq vardır, amma görünür o da yox imiş və bu heç kimi maraqlandırmır.Biz televizorda hər dəfə irqi ayrıseçkilik səhnələrinə baxırıq, görünür bu demaqoqiyadan başqa bir şey deyilmiş. Mənim əmlakımla birlikdə evimi , qızıl saatımı,üzüyümü, 92 yaşlı anamdakı 5000 və cibimdəki 600 rublu əlimdən aldılar. Azad olunandan sonra özümü çox pis hiss edirəm və xəstəxanada yatmalıyam. Mən qalan girovların həyatı üçün narahatam, çünki onların ölüm təhlükəsi var. Qoy mənim bu sözüm həyacan təbili olsun.

İzahat mənim sözlərim əsasında yazılmışdır, mənə oxundu, düzgün yazılmışdır, ona görə də imzalayıram.

Dindirdi: imza

**ŞAHİDİN DİNDİRİLMƏ PROTOKOLUNDAN ÇIXAR**
**Qriqoryan Qevork Vahanoviç**
Yerevan şəhəri 24 may 1991-ci il

20 noyabr 1990- cı ildə Ermənistan Respublikası Səhiyyə Nazirliyi tərəfindən bir cərrah kimi Getaşenə ezam edilmişdim. Əvvəlcədən ezamiyyənin müddəti iki ay qoyulmuşdu. Ancaq kənddə vəziyyətin kəskinləşməsi ilə əlaqədar Yerevana qayıtmaq imkanı olmamışdı... Aprelin 23 –də sovet ordusu omonçuların iştirakı ilə Getaşenə girmək istədilər, ancaq bu cəhd alınmadı, beləki gələn tanklardan biri dərəyə uçub yolu kəsdi vəbununla da ordunun hərəkəti üçün yolkəsildi. Bu cəhd aprelin 30 –da təkrar edildi. Səhər tezdən kənd tankların mühasirəsində idi. Səmada alçaqdan fasiləsiz 6 vertalyot uçurdu. Qorxu və həyacanın ağır atmosferi yaranmışdı.Bu sovet ordusu və omonçuların Getaşen kəndinə təkrar girməsindən daha da artdı.Həmin gün erməni əhalisindən 18 nəfər öldürülmüş , 15 -17 nəfər yaralanmışdı... Qəbristanlıq fasiləsiz atəşə tutulurdu və adamlar öz doğmalarını həyətlərində divarların arxasında basdırırdı. Atəşlər hakim yüksəkliklərdən açılır.. qorxu atmosferi yaradırdı ... çoxlu ürək tutmaları , nevrozlar, hipertonik krizlər , yəni emosional vəziyyətlə əlaqədar olan patoloji simptomlar var idi.
**Martunaşeni sürgün etdikdən sonra azərbaycanlılar əmlakı talan etdilər, evləri yandırdılar, sonra isə bəyan etdilər ki, guya ki, evləri erməni boyevikləri yandırmışlar.**

Öldürülənlərdən **Tatulu, Arturu, Hraçiki, Valeriki, Melsiki, Kamalı şəxsən tanıyıram ..** o birilərini üzdən tanıyıram,digər meyidlər naməlum idilər, çünki başları kəsilmişdi.Öldürülənlərdən Simon məncə güclü mərmi partlayışından həlak olmuşdu, çünki yaraları böyük və dağılmış xarakterdə idi. Bu top atəşindən əmələ gələ bilərdi. Girovlar aprelin 30 –da da ,eləcə də 4 -7 may tarixlərində də kəndin sakinləri deportasiya edilə -edilə davam edirdi.

Son günlər mən həkimlər - Akopkexvyan Sarkis və Xaçaturyan Valeriklə birlikdə tibbi yardımla məşğul idik , hətta bu ağır vəziyyətdə , elektrik işığının olmadığı halda Akopkexvyan Sarkis apendektomiya etmişdi. Mayın 7- də , deportasiyanın axırıncı günü artıq boşalmış kənddə bizim görməyə bir işimiz yox idi, biz üç həkim ezamiyyə haqqında olan və digər sənədlərimizi, şəxsiyyəti müəyyən edən sənədimizi götürərək əhali ilə birlikdə göndərilmə məntəqəsinə getdik. Sənədlərin yoxlanması və şeylərə baxış keçirməklə məşğul olan sovet hərbiçisi mənim ezamiyyə vərəqimi görən kimi , bunu onun yanında hərbi səhra formasında duran azərbaycanlı zabitə bildirdi və o dəqiqə də əmr aldı ki, bizi - Xaçaturyan Valeriklə məni saxlasınlar. Əşyalarımızı götürərək , bizi əsasən məhbusları daşıyan bağlı maşına mindirdilər. Onu da deməliyəm ki, bizim tərəfimizdən hökumətə heç bir müqavimət olmadı, halbuki nə əsasa tutulduğumuza görə bu ola bilərdi... Maşında 6 saat saxladıqdan sonra bizi Gəncə həbsxanasına apardılar, ora düşəndən əziyyət vermələr və insafsızcasına döymələr başlandı. Tutulanlar biz üç nəfər həkimlər də olmaqla 16 -17 nəfər idik. Bizi soyundurdular və rezin dəyənəklərlə döyməyə başladılar...

Bizi "qoruyan" və müşahidə aparan bütün şəxsi heyət tamamilə azərbaycanlılardan ibarət idi, onlarda əllərinə düşən hər girəvədə bizi fiziki və mənəvi cəhətdən alçaldırdılar. Bizim hər şeyimizi əlimizdən aldılar: pullarımızı, mənim saatımı, nişan üzüyünü, seplə birlikdə gümüş xaçımı , şəxsi əşyalarımızı və.s. Döyülmələr kamerada da davam edirdi, əvvəlcə ora cəzalarını çəkən məhkum olunmuş azərbaycanlıları buraxdılar, onlarda bizi beşbarmaqla və yumruqla döyürdü. Müdafiə üçün hər bir jest və yaxud da zərbədən yayınmaq onların daha da acıqlandırır və daha da bərk döyürdülər. Sonra bizim hamımızı ( həkimləri xüsusi sadizmlə) karidora çıxardılar və orada 5-6 nəfər üstümüzə düşüb döyürdü, sonra isə kameraya qaytarırdılar.Mən təkadamlıq kamerada 3 ya da 4 sutka ayaqüstə, çılpaq vəziyyətdə qaldım, bu zaman ağır utanc keçirirdim.Sol qaşımı partlatdılar, hərəkət edərkən yaralarımın sızıltısından və şişindən ağrı hiss edirdim. Bizə 2- 3 gün yemək vermədilər, sonra isə gündə 1 -2 dəfə çirkli qabda qaşıqsız sulu sup verirdilər... Bir neçə dəfə mən huşumu itirdim, gündə bir neçə dəfə təkadamlıq kameranın qapısını açırdılar və əzab- əziyyətlər yenidən başlayırdı.Nəhayət məni müstəntiqin yanına apardılar, o da 3 ya 4 protokol tərtib etdi....

Təxminən bizim tutulduğumuzun 5-ci günü bizi bir otağa apardılar.Orada 3 nəfər mülki geyimdə əyləşmişdi.Onlardan biri özünü Xanlar rayonun hakimi kimi təqdim edib, pasport məlumatlarını aydınlaşdırdı, soruşdu ki, mən niyə tutularkən orqan işçilərinə müqavimət göstərmişəm. Sonra məni otaqdan çıxardılar və digər milisoner elan etdi ki, mənə 15 sutka inzibati qaydada cəza vermişlər. Nəticədə mən getaşenlilərlə müxtəlf kameralarda oturdum, bu kameraların hər birinə 2 -4 adam sığırdı...

Məni müstəntiqin yanına apardılar, o mənə dedi ki , əgər mart ayında Quşçu Armavir yaxınlığında öldürülən azərbaycanlıları kimin öldürdüyünü deməsəm,mənə CM –nin güllələnmə nəzərdə tutan maddəsi ilə ittiham verəcəkdir. Mən isə, təbii ki, bunu bilmirdim və mənfi cavab verdim , bu zaman huşumu itirənə kimi döydülər, bu zaman o mənə dedi ki, məni həbsxanadan buraxmayacaqdır.

Tutulmağımızın 17 - ci günü bizi bir otağa apardılar və orada protokol tərtib etdilər ki, tutularkən bizim heç nəyimiz olmamışdır və təbiidir ki, bizdən heç nə götürməmişlər.... Bizi inzibati korpusa apardılar , orada bizi yapon operatorlar çəkdilər və səsimizi yazdılar. Mayor rütbəsində olan üzdən səmimi görünən bir azərbaycanlı bizə izah etdi ki, "düzgün" cavab vermək lazımdır. Yəni demək lazımdır ki, bizə əzab əziyyət verməmişlər, fiziki vasitələr

tətbiq etməmişlər, yedirdiblər.. tibbi yardım və yatacaqla təmin etmişlər , bizimlə çox səmimi davranmışlar. Biz məcburən təkbətək dayanırdıq, öz pasport məlumatlarımızı deyir, sonra isə bildirirdik ki, heç bir şikayətimiz və məktubumuz yoxdur, beləki yaxşı başa düşürdükki, əgər müdiriyyətin sözündən çıxsaq bizi hansı mərhumiyyətlər gözləyir. Bütün dediklərimiz həqiqətin əksinə idi ,beləki həkimlərdən biri həbsxanada reaktiv psixoz keçirdi , ona heç bir yardım edilmədi. Bizim yatacağımız yox idi, dəmir çarpayının üzərində , ya da döşəmədə gecələyirdik. Operator Ohanesyan Vartan haqqında da deməliyəm. Mayın 6 – da omonçular onu tutdular və onun taleyi bu günə qədər də mənə məlum deyil. Onun adı həbsxanada müstəntiqlər və həbsxana işçiləri tərəfindən tez –tez hallanırdı, onlar deyirdilər ki,onu sağ buraxmayacaqlar. Yaponlar qarçısında “humanizm” tamaşasından sonra bizi bir bağlı maşına mindirdilər və Tovuz rayonun Ermənistanla sərhəd olan bir ərazisinə apardılar...
Avtomaşında 15 nəfər idik, hansısa milisoner hamımıza birlikdə 100 manat verib , yaltaqcasına bizi qılıqlamağa başladı ki, həbsanadakı keçirdiyimiz günlər haqqında heç kimə pis şeylər deməyək....Bizim hamımız bədən xəsarəti almışıq. Beləki Valeri Xaçaturyanın qabırğaları sınmışdır, Sarkis Akopkexvyanın hematoması irinləmiş və həbsxana həkimi tərəfindən heç bir tədbir görülməmişdir.Baldırında trofiki yara olan Qrişa Saakyanın daima xəstə ayağına vururdular. Qaşımdakı irinli yaradan başqa , qollarımda, gövdəmin arxa hissəsində əzilmələr və göyərmələr var idi...
Həbsxanada Moskvadan gələn bir rus podpolkovnik var idi, deyəsən istintaqın gedişinə nəzarət edirdi. O iki dəfə mənimlə söhbət etdi, danışıqlar diktofona yazılırdı. Belə hesab edirəm ki, baş verən özbaşınalıqları o da bilirdi,ancaq bu barədə ondan heç bir reaksiya hiss etməmişdik. O mənim sifətimdəki zədələnmələri, eləcə də paltarımın cırıqlarına diqqət etməyə bilməzdi, ancaq bizim taleyimizlə heç bir qırıq da maraqlanmırdı. Onu ancaq bizi ifşa edən məlumatlar maraqlandırırdı...
Mən türk həbsxanası haqqında bir amerikan kino filminə baxmışam , bizimlə baş verənlər həmin kinonu andırırdı. Mən rus xalqı və əskəri haqda həmişə və indi də müsbət fikirdə olmuşam, ancaq ağlıma belə gəlməzdi ki, rus əskəri tutub məni azərbaycan hökümət orqanlarına verəcəkdir.
Arzu edərdim ki, bizim keçirdiyimiz o əzab əziyyətin az bir hissəsini baş verənlərə cavabdeh olan vəzifəli şəxslər başa düşə və özlərini həmin cəhənnəmdə hiss edə idilər.

İmza : Qriqoryan Q.V.

Dindirdi: imza. **Ermənistan Respublikası prokurorluğunun istintaq qrupunun üzvü Q.S.Ohanesyan**

Əsli ilə düzdür : Ermənistan Respublikası baş prokurorunun böyük köməkçisi , istintaq qrupunun rəhbəri
**A.K. Arutunyan**

**“ DAİRƏ ” əməliyyatında ölən erməni özünümüdafiə dəstələrinin rəhbərləri :**

**1. Артур Карапетян** - множественные огнестрельные пулевые ранения грудной клетки, живота, головы, конечностей, резаная (ножевая) рана на половом члене;

**2. Зарзанд Даниелян** - слепое пулевое ранение головы, огнестрельные повреждения грудной клетки и живота, ссадины на лице, колото-резаная рана левой надлопаточной области;

**3.Татул Крпеян** - множественные огнестрельные пулевые ранения головы, туловища, конечностей.

**4.Симон Ачикгезян** - 53 года - погиб при артиллерийском обстреле дома;

Levon Melik - Şahnazarov

**www. voskanapat. Info**

ABŞ Dövlət Katibi H.Klintonun Yerevana səfərinin başa çatmasından bir neçə gün sonra Ermənistan Xarici İşlər Nazirinin müavini Şavarş Koçaryan çoxdan gözlənilən bir bəyanatla çıxış etdi

– Azərbaycan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ Respublikasının əraziləri barədə. Yuksək vəzifəli erməni diplomatı "İravunk " qəzetinə verdiyi müsahibədə əmin olduğunu bildirdi ki, "**Qarabağ münaqişəsi zonasında sülhməramlıların yerləşmə yerləri və sayı haqqında o vaxt danışmaq olar ki, Qarabağın statusu və təhlükəsizliyinə təminat problemləri , həm də Azərbaycan tərəfindən işğal edilmiş Dağlıq Qarabağ Respublikasının əraziləri məsələsi həll edilsin . "**

Bundan bir az sonra Ermənistan Parlamentinin deputatı , Avrointeqrasiya komissiyasının rəhbəri Naira Zoqrabyan Varşavada Şərqi Avropa üzrə konfransda bəyan etdi :" İşğal haqqında danışarkən **qoy Bakı xatırlasın ki , Dağlıq Qarabağın əraziləri- Getaşen və Şaumyanı işğal işğal etmişdir". Necə deyərlər heç olmamaqdansa gec olması yaxşıdır**. Bu məsələ erməni ictimaiyyəti arasında dəfələrlə hay-küylə müzakirə edilmişdir. Ş.Koçaryanın və N.Zoqrabyanın çıxışlarından gətirilmiş sitatların spontan yaranması və onların öz nöqteyi- nəzərlərini əks etdirməsi barədə şübhələr silinir , **belə ki , Ermənistanda aparıcı partiya olan Respublika Partiyasının mətbuat katibi Edaurd Şarmazanovun Şaumyan rayonun , Getaşen padrayonun , eləcə də Mardakert və Martuni rayonlarının ərazilərin bir hissəsinin işğalı barədə bəyanatı ilə silinir -" Azərbaycan əvvəlcə işğal etdiyi bu torpaqları qaytarmalı , bundan sonra kompromisslər haqqında danışmalıdır"- deyə E.Şarmazanov bəyan etmişdir.** İşğal olunmuş erməni rayonları barədə öz haqlı tələblərini erməni hökumətləri heç vaxt gizlətməsələr də , artıq bu gün biz Ermənistanın xarici siyasətində yeni mərhələnin başlanğıcı barədə danışa bilərik. Təbiidir ki, erməni diplomatiyasının danışıqlarda hiss olunan müdafiə taktikasından hücum taktikasına keçməsi bizə ümid verir. Bizim qanuni tələblərimizin bütün maraqlı tərəflərə, dövlətlərə, təşkilatlara bildirilməsinin vaxtı çoxdan çatmışdır. Eləcə də Azərbaycandan olan 400 min erməni qaçqınlarına ərazi, maddi və mənəvi kompensasiya məsələsi də qaldırılmalıdır. Eyni zamanda Azərbaycanla qarşıdurma zamanı itirilmiş torpaqların yalnız Dağlıq Qarabağ ərazisi ilə məhdudlaşması tamamilə yol verilməzdir.

Sözsüz Getaşen və Şaumyan , eləcədə Azərbaycan tərəfdən işğal edilmiş Mardakert və Martuni rayonlarının aran hissələri Dağlıq Qarabağ Respublikasına geri qaytarılmalıdır.Bəs ancaq nəyə görə söhbət erməni torpağının bu işğal olunmuş hissələrindən gedir ? Doğurdanmı , ancaq ona görə ki, Şaumyan və Getaşen , eləcə də Mardakert və Martuni rayonlarında referendum keçirilmiş və bunun nəticələri əsasında da DQR-in dövlət müstəqilliyi elan edilmişdir. Bəlkə də ona görə ki, bu regionlar 2 sentyabr 1991-ci ildə Stepanakertdə tarixi Qurultayda iştirak etmiş və orada yekdilliklə DQR-in elan edilməsi və onun SSRİ-nin tərkibindən çıxması barədə qərar qəbul etmişlər.

Şübhə yoxdur ki, göstərilən əsaslar tamamilə kifayət edir ki, DQR bu rayonların Artsax Respublikasına qaytarılması , eləcə də onların əhalisinin hüquqlarının qorunması haqqında ciddi mübarizə aparsın. Ancaq bu əsaslar kifayətdirmi ki, Qarabağın digər erməni rayonlarının məsələsi, xüsusən də 1988-ci ilədək orada ermənilər yaşamışlar- barədə "mövzu bağanılsın". Bununlada biz Azərbaycana yan basmırıqmı , Azərbaycan SSR ərazisində antierməni qırğınlarını və əhalinin öz doğma tarixi torpaqlarından deportasiya edilməsini unutqanlığa buraxmırıqmı?

Doğurdan da Xanlar ( sovet illərində Getaşen padrayonu onun tərkibində idi ), Daşkəsən, Şamxor rayonları əsrlərdən bəri 1988-ci ilədək ermənilərlə məskunlaşmışdı.Çoxlu qırğınlar və müharibələrdən sonra belə , Qazax, Gədəbəy, Tərtər rayonlarında xeyli sayda erməni yaşayırdı... Onları günahlandırmaq olarmı ki, onlar yeni yaranan erməni dövlətinin tərkibinə daxil olmaq haqqında öz istəklərinə imkan tapmamışlar ? Və DQR-in elan edilməsi haqqında referendumda iştirak etməmişlər. Bizə rəvadırmı ki, bu adamların 1988-ci ildə öz tarixi vətənlərindən acınacaqlı şəkildə deportasiya edilməsini unudaq ? Bütün göstərilən rayonlar , eləcədə bütöv Qarabağ vahid etnik sahə təşkil edir, erməni millətinin yaranması və formalaşmasında öz şərəfli yerini tutur. Bura – bizim Vətənimizdir, bütün erməni xalqının vətənidir.Vətənimizin bu dilbər guşəsi uğrunda mubarizədən imtina etmək bu yaxın zamanlarda erməni xalqına qarşı edilmiş deportasiyaların və qırğınlarının nəticələrinin hüquqi cəhətdən təsbit edilməsinə "susaraq razılıq" vermək anlamına gəlir.

Qarabağın vahid sahibi – daim , bütün tarix boyu erməni xalqı olmuş və olaraq qalmaqdadır. Hətta hazırda Qarabağın işğal edilmiş hissəsinin əhalisi , hamı birdən öz Vətənlərinə olan hüquqlarından imtina etsələr belə ,onun etniki mənsubiyyətinə heç bir xələl gəlməyəcəkdir.Ancaq hər şey erməni xalqına düşən kimi baş verdi. Çardaxlı, Barum, Barsum, Saler ,Cəyir,Çovdar, Bayan, Zəylik, Mirzik, Voskanapat , Çiraqidzor və Qarabağın digər onlarla erməni kəndləri , hətta torpaqdan və ocağından , yaşamaq üçün vəsaitdən mərhum olsalar belə ciddi sınaq illərində öz doğma vətənlərini tərk etmədilər. Bu vilayətlərdə çox sayda gənclər könüllü olaraq DQR-in Müdafiə Ordusuna qatıldılar.Əllərində silah onlar müstəqil Artsax Respublikasını müdafiə edtdilər.Öz qanları və şanlı qəhrəmanlıqları ilə tarixi vətənlərində yaşamaq hüquqlarını təsdiq etdilər. Ən azı Artsax müharibəsinin 6 generalı Artsaxın hazırda işğal edilmiş hissələrindəndir.

RKP ( b ) MK-nın Qafqaz Bürosunun Plenumunun 5 iyul 1921-ci il qeyri qanuni qərarında deyilirdi:"Müsəlmanlarla (gələcək azərbaycanlılar L.M.Ş.) ermənilər arasında milli sülhün yaradılması və Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini , onun Azərbaycanla daimi əlaqələrini nəzərə alıb Dağlıq Qarabağı Azərbaycan SSR-in tərkibində saxlamaqla, ona geniş muxtariyyət verilsin...". 7 iyul 1923- cü ildə Az. MİK RKP ( b ) MK-nın Qafqaz Bürosunun Plenumunun qərarını icra etmək üçün Dekret qəbul etdi: "Dağlıq Qarabağın erməni hissəsində Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılsın..."Dağlıq Qarabağ ilə "Dağlıq Qarabağınerməni hissəsi " arasında böyük fərq vardır. Hətta iş onda deyil ki, bütün Qarabağ , istər Dağlıq istər Aran Qarabağı ermənilərə məxsusdur. Bu halda "Dağlıq Qarabağın Erməni hissəsi" ifadəsi altında 1923-cü ildə Dağlıq Qarabağın ermənilərlə məskunlaşmış hissəsi nəzərdə tutulur. Bu dövrdə Az. SSR kənd təsərrüfatı siyahıyaalmalarına əsasən Şaumyan rayonunda ermənilər 99 %, Xanlar rayonunda 96 %, Daşkəsən rayonunda 82 %, Şamxor rayonunda 76 % təşkil edirdi. Gədəbəy rayonun əhalisinin az qala yarısı ermənilərdən ibarət idi.Məlum olduğu kimi bu mübahisəsiz qarabağ erməni rayonlarının heç biri Erməni Muxtariyyətinə daxil edilmədi. Təsadüfdirmi? 1918-ci ildə erməni əhalisi qırılmış və deportasiya edilmiş Zəngilan, Cəbrayıl, Qubadlı və digər rayonlar da bu muxtariyyatdan kənarda qaldı.

Bütün bunlara baxmayaraq Qarabağın bu seyrəkləşmiş hissəsində belə milli dövlətçiliyin bütün atributlarını saxlamaq mümkün oldu. Beləki, Az.MİK –in "ASSR-in dövlət idarələrinin milliləşdirilməsi haqqında" 31 iyul 1923-cü il qərarında deyilir :

Maddə 4. ASSR narkomatlarının RSFSR və SSRİ idarələri ilə yazışma dili rus dilidir.

Maddə 9. Muxtar Qarabağ vilayətinin yazışma dili erməni dilidir.

Elə Az.MİK bununla da Dağlıq Qarabağın nəinki ümumittifaq əhəmiyyətli dövlət –hüquqi statusunu tədiq edir, eyni zamanda Qarabağın əsrlərdən bəri ermənilərə məxsusluğunu da təsdiq edirdi.

Azərbaycanda bütün bunları bü gün də anlayırlar.Və konfliktin siyasi sferadan hüquqi sferaya keçəcəyindən əsaslı olaraq ehtiyat edirlər. Bu ehtiyatın nəticəsidir ki, 18 oktyabr 1991-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında" Konstitusiya Aktının 14-cü maddəsində deyilir:"Azərbaycan Respublikasının ərazisi tarixi sərhədləri cərçivəsində vahiddir və bölünməzdir".

Azərbaycanda çox gözəl başa düşürdülər: Elan edilən dövlətin Azərbaycan SSR sərhədləri çərçivəsində elan edilməsi hakimiyyətin nəinki erməni Qarabağını , eləcə də ləzgi, talış, avar, ərazilərinin də işğal edilməsini göstərərdi. Odur ki, absurd bir ifadə " tarixi sərhədləri cərçivəsi" uyduruldu. Azərbaycanla bu hal ikiqat absurddur. Beləki, Azərbaycan respublikasının suveriniteti , tarixi, dövlət sərhədləri sadəcə olaraq olmamışdır.

Aydındır ki, Azərbaycan respublikası bu addıma məcburən getmişdir: Bakı öz sərhədlərini etnik qafqaz türklərinin yayıldığı ərazilərdə elan edə bilməzdi. Bu Qarabağın ermənilərlə məskunlaşmış ərazilərindən , eləcədə yerli xalqlarla məskunlaşmuş ərazilərdən imtina etmək demək olardı. Qeyd edək ki, bu ərazilər 1918 -1920- ci illərdə də Azərbaycan respublikasının olmamışdır. Beləliklə, " tarixi sərhədləri cərçivəsi " ifadəsi ilə Bakı Azərbaycan SSR-in inzibati sərhədlərini nəzərdə tutmuşdur. Ancaq bu halda da Azərbaycanın hüquqi boşluğu vardır.

"Müttəfiq respublikaların SSRİ-nin tərkibindən çıxması ilə əlaqədar məsələlərin həlli qaydası haqqında " SSRİ Qanunun 14-cü maddəsinin 7- ci hissəsində nəzərdə tutulur ki, " SSR İttifaqı ilə ittifaqdan çıxan respublika arasında Respublikanın SSRİ-yə daxil olma anında həmin respublikaya aid olmayan ərazilərin ststusu razılaşdırılmalıdır." Artıq burada yada salmaq lap yerinə düşər ki,Azərbaycan respublikası 28 aprel 1920-ci ildə sovet respublikası olmuşdur, Qarabağ və Naxçıvanın qanunsuz olaraq onun tərkibinə verilməsi isə müvafiq olaraq 1921- ci ilin iyul və oktyabr aylarında baş vermişdir.

Beynəlxalq hüququn tələblərini və sovet qanunvericiliyini pozaraq ona məxsus olmayan ərazilərdə hakimiyyəti qəsb edərək ( Qarabağ və Naxçıvandan başqa Talış –Muğan Respublikası, Car-Balakən, Cənubi Dağıstan) 1988 – 92-ci illərdə Qarabağın erməni əhalisini deportasiya edərək və DQR-ə qarşı hərbi təcavüz edərək Bakı Stepanakertlə münasibətlərdə özünü hüquqi sahədən sıxışdırıb çıxarmışdır. Odur ki, bu məsələlər müxtəlif səviyyəli danışıqlarda və görüşlərdə müzakirə edilməlidir.**Artsax və Utik cəm şəkildə Qarabağ adlanır ki, bu tam etniki , coğrafi , iqtisadi və siyasi cəhətdən əsrlərdən bəri erməni xalqına məxsusdur. Elə bu tələbləri də erməni tərəfi danışıqlarda ortaya qoymalıdır. Təkcə Şaumyan və Qetaşeni yox, bütün Qarabağı.**

**// www. Voskanapat. info / nevs /**

* * *

## Kirovabad ,Qetaşen, Martunaşen:

### sovet ordusu erməniləri vuruşmağa* məcbur etdi

1988-ci ilin noyabr –dekabr aylarında Kirovabaddakı hadisələr –zaqafqaziya türklərinin bir aybıdır. Əlbəttə ona görə yox ki, bu günlərdə onlara şəhərin "azərbaycan" hissəsindəki erməni mənzillərini talan etmək müəəssər olmuşdu - köçəri türklərin dünyagörüşünə görə , bunu onlar özlərinə məqbul sayırlar, ona görə ki, onlara şəhərin erməni əhalisinin öhdəsindən gəlmək müyəssər olmamışdı.Və bu gün o günlərin Kirovabadından söz düşəndə bakı təbliğatçıları çox pis gizlədilmiş peşmançılıqla bildirirlər ki,"Kirovabadda talanlar olmamışdı." Bu zaman onlar şəhərin erməni hissəsini nəzərdə tuturlar, "azərbaycan " hissəsindəki erməni qırğınları və talanlarını - Qanzak (Kirovabad ) türklərinin tarixinin təbii və ayrılmaz hissəsi hesab edirlər.

Doğurdan da şəhərin erməni hissəsində talanlar olmamışdı:orada kompakt yaşayan avtoxton erməni əhalisi təşkilatlanmağı bacarmış və talançılara layiqli cavab vermiş, 400 potensial canini isə əsir götürmüşdü.** Bu haqda xeyli ətraflı yazılmışdır və mən indi Qanzakda baş verən o vaxrkı hadisələr üzərində dayanmayacağam.Ancaq azərbaycan təbliğatının xadimləri şəhərin erməni hissəsində talanların olmadığını dəfələrlə təkrar edərkən, bunu şəhəri müdafiə edən erməni əhalisinin dəyanəti və mərdliyi ilə deyil*** ,türklərin hansısa mifik insansevərliyi ilə izah etməyə çalışırlar. Bu zaman ciddi cəhdlə Bakıda,Sumqayıtda,Xanlarda,Mingəçevirdə və Azərbaycan SSR-in bir çox digər yaşayış məntəqələrindəki qanlı hadisələri unutmağa çalışırlar.Bu məqsədlə azərbaycan təbiğatçıları o dövrün hərbi, partiya, siyasi xadimlərini haradansa dartıb çıxarır və onlardan müsahibələr alırlar ki, onların da ümumi istiqaməti o illərin həqiqətlərinin bakı versiyasını təsdiq etməyə yönəlmişdir. Bu məşğələ ilə Vesti.az azərbaycan agentliyinin xüsusən başı bərk qarışmışdır, görünür onun sahibi Ramiz (Vizqun) Mehtiyevin bu işə vəsaiti boldur. Bu dəfə Vesti.az SSRİ Silahlı Qüvvələrinin haçansa Kirovabadda dislokasiya olunmuş bədnam 23- cü motoatıcı diviziyasının keçmiş komandir müavini Aleksandr Kutikovdan müsahibə almağa pul xərcləmiş və "Kirovabadda heç bir erməni talanı olmamışdır" sərlövhəli məqalə vermişdir. Dediyim kimi Kirovabad hadisələri barədə xeyli deyilmiş və yazılmışdır və Kutikovun ( bəlkə də jurnalistin?) bu barədə qatı yalanı məni maraqlandırmır. Ancaq onu deyim ki, ermənilər heç də "davamlı olaraq" bildirmirlər ki, güya qaniçən azərbaycanlılar Qanzakda onlarla erməni öldürmüşlər. Sadəcə olaraq onlara bu nəsib olmamışdır: Gücləri çatmamışdır. Qanzakda üç erməni həlak olmuşdur, ancaq şəhəri müdafiə edən özünümüdafiə dəstələri 24 talançını məhv etmiş, bundan başqa 3-nü də SSRİ DİŞ Nazirliyi Daxili Qoşunlarının əsgərləri məhv etmişlər**** . Ancaq budur, kirovabad əlillər ( qocalar) evinin 12 nəfər erməni millətindən olan sakini doğranmış və parça-parça edilmişdir ki, buna da sübut SSRİ Ali Sovetinin erməni deputatlarının sorğusuna SSRİ Baş Prokurorluğunun verdiyi cavabdır. (fəsil 5).

Ancaq Qetaşen və Martunaşendəki hadisələr barədə ayrıca danışmaq lazımdır.Heç olmasa o səbəbdən ki,mən bir neçə dəfə bu kəndlərdə olmuşdum və bu kəndlərin sakinlərinin faciəsini ondan bundan eşitməmiş ,öz gözlərimlə görmüşəm. A.Kutikov "Həlqə" əməliyyatı barədə suala cavab verərək bunları demişdir: "Biz qanunsuz silahlı dəstələrin silahsızlaşdırılması əməliyyatını yerinə yetirirdik. "Həlqə" əməliyyatı zamanı heç bir ölüm və talançılıq hadisələri olmamışdır. Bizim əsgərlər hətta erməni əhaliyə öz əmlak və şeylərini yükləməyə də kömək edirdilər. Orada erməni əhalisinin heç bir ölümü və talanı olmamışdır."

Əgər desək ki, bu yalandır, onda deməli heç nə deməmiş olardıq. "Həlqə" əməliyyatı zamanı Qetaşen və Martunaşendə 21 nəfər öldürülmüşdür. Rusiya Federasiyası Ali Sovetinin İnsan Haqqları Komitəsi çoxsaylı şahid ifadələri əsasında hərbiçilər və Azərbaycan OMON-u tərəfindən Qetaşen və Martunaşenin öldürülən sakinlərini aşkarlamışdır:*****

1. **Artur Karapetyan** - döş qəfəsinin, qarının,başın, ətrafların çoxsaylı güllə yaraları, üzvünün kəsilmiş ( bıçaq) yarası
2. **Valeri Nazaryan** – başın dəlib keçən güllə yaraı, sifətdə və beldə sıyriqlar ,qançırlar, sağ qulaq seyvanı kəsilmişdir.
3. **Zarzand Danielyan** - başın kor güllə yarası, döş qəfəsinin və qarının güllə zədələnmələri ,
   sifətdə sıyrıqlar, sol kürək nahiyyəsinin kəsilmiş deşilmiş yarası
4. **Tatul Krpeyan** - başın, bədənin ,ətrafların çoxsaylı güllə yaraları

Digər həlak olanlar Qetaşen və Martunaşendə əsasən öz həyətlərində basdırıldıqlarına görə meyidlər məhkəmə tibbi ekspertizadan keçirilməmişlər: ******

5. Aramais Avakyan - 45 yaşında , öz evinin mətbəxində balta ilə doğranmışdır.
6. Vanes Axumyan - 76 yaşında, yataqda güllələnmişdir (xəstə yatırmış)
7. Benyamin Gəncumyan - 70-80 yaşında, öz evində göz nahiyyəsinin odlu güllə yarasından
8. Papik Zarqaryan - 55 yaşında, öz evində həlak olmuşdur.
9. Kamal Zarqaryan - öz evində ağız nahiyyəsinə atılan odlu güllə yarasından həlak olmuşdur
10. Ripsime Minasyan - 82 yaşında, öz evində odlu güllə yarasından həlak olmuşdur
11. Papik Seyranyan - 83 yaşında, öz evində həlak olmuşdur
12. Melsik Soqomonyan - 34 yaşında, öz evində balta zərbəsindən həlak olmuşdur
13. Oqanes Oqanesyan - 65 yaşında , kəndə atəş açılarkən həlak olmuş, tankla əzilmişdir
14. Xaçatur Davtyan - 67 yaşında, hərbiçilər tərəfindən girov götürülmüş və Azərbaycan OMON-una təhvil verilmiş, bir neçə saatdan sonra meyidi yolla tullanmışdır.
15. Simon Açıqgözyan **** - 53 yaşında- evə olan artilleriya atəşindən həlak olmuşdur.
16. Şamir Alkamyan - 57 yaşında, danışığa çıxarkən odlu güllə yaralanmasından həlak olmuş, meyidi tankla əzilmişdir
17. Razmik Ağacanyan - 49 yaşında, öz qapısının kandarında güllə ilə vurulmuşdur.
18. Benyamin Ayrumyan 43 yaş
19. Aramais Damirçiyan
20. Qraçik Atanesyan 50 yaşında
21. Telman Xatayan 54 yaşında , isə naməlum şəraitdə həlak olmuşlar .

General Kutikov Siz danışığınızda həmişəmi belə pəltək olmusunuz. Yoxsa bu vicdan əzabıdırmı ki, (buna çox ümidvaram )kiçik bir abzasda iki dəfə təkrar edirsiniz, daha doğrusu yalan danışırsınız ki, “orada heç bir ölüm və talan olmamışdır.” Əsgərlərin deportasiya edilən ermənilərə” öz əmlak və şeylərini yükləməyə “ kömək etmələri də yalandır. İstisna etmirəm ki, əsgərlərin içərisindən faciəyə düçar olmuş əhailə kömək etməyə çoxlu könüllülər tapılardı, ancaq sadəcə olaraq bunu etmək mümkün deyildi.Qetaşen və Martunaşenin kişi əhalisini ağzınacan doldurulmuş avtobuslarda Ermənistan SSR-in İcevan şəhərinə apardılar, qadınları isə dopdolu vertalyotlarla Stepanakert şəhərinə göndərdilər.Aydındır ki, belə “ayırmaq” hərəkəti erməni dövlət təşkilatlarında panika yaratmaq məqsədi güdürdü, odur ki, bu halda hiyləgərlik edib , kömək edilməsi və talanların olmaması barədə bəyanat vermək lazım deyil.

Sovet Ordusu və SSRİ DİŞ Nazirliyi Daxili Qoşunları erməni kəndlərinin üzərinə elə bil ki, möhkəmləndirilmiş faşist rayonuna hücuma keçən kimi keçirdilər, halbuki orada faşistlərlə vuruşmuş, o cümlədən Volqoqradı müdafiə etmiş Sovet İttifaqı Qəhrəmanı Eduard Ananyan və Şərəf Nişanı ordenin hər üç dərəcəsinin Kavaleri İsaak Karaxanyan doğulub böyümüşdü. Polkovnik, bağışlayın artıq general Kutikov, sizin vicdanınız sakitdirmi? Sizə 30 aprel 1991-ci ildə Qetaşendən göndərilmiş teleqramı sitat gətirirəm:

“ **SOS! SOS! SOS!**

Biz iki erməni kəndi Qetaşen və Martunaşenin sakinləri, yalvarırıq, bizi xilas edin.Sovet Ordusu sovet vətəndaşlarını məhv edir.Yerdən və havadan , topdan və avtomatdan atəş açırlar.Bizi tanklarla əzirlər. Azərbaycan OMON-u bizim uşaqları,qocaları və qadınları əsir götürür.Bizim evləri talan edib yandırırlar. Bizim ov tüfəngləri ilə ordu qarşısında durmaq gücümüz yoxdur.Dünyanın insanları ,kömək edin! SOS! SOS! SOS!”

Siz təsdiq edirsiniz ki,” silahsızlandırma üzrə planı “ yerinə yeririrdiniz. Bəs onda bizim Ordunun Azərbaycan OMON-u olmadan kəndə girmək təklifimizə niyə rədd cavabı verdiniz? Məhz ona görəmi ki, nə olur olsun - mütləq deportasiya - əmrinimi yerinə yetirirdiniz. Zaqafqaziya türklərinə hökmranlıq edib , balta ilə işləməyə şərait yaratmaq üçünmü bu erməni kəndlərinə ağır zirehli texnika, hərbi zərbə vertalyotları, avtomat və pulemyotlarla silahlanmış hərbiçilər yeridirdiniz?

Bu əməlli başlı hazırlanmış və düşünülmüş hərbi əməliyyat idi.Budur bu əməliyyatın çağırşları,mənə olduqca maraqlıdır, bunların hansında Kutikov familiyası gizlənmişdir?

Əməliyyatın rəhbəri Yaxta
Polkovnik Maşkov Zaliv
Polkovnik Mişin Kurqan
5477 h/h komandiri Obrıv
5478 h/h komandiri Viraj
Xüsusi təyinatlı rotanın
komandiri Final
OMON-un komandiri Dozor
Krona vertalyotları 1, 2,3,4
Sovet Ordu hissələri Kostyor
Döyüş aparıram 105
Atəşi müdafiə edin 106
Yardım xahiş edirəm 107
Vəziyyət normaldır 108
Rəqib atəşə başlayıb 109
Yaralılar var 110
Ölənlər var 111
Tibbi yardım lazımdır 112
Ehtiyata keçirik 113
BTR göndərin 115
OMON hissələri döyüş
aparır 116
Ordu hissələri döyüş
aparır 119
Geri çəkilirlər 120
İstiqamət üzrə hərəkət edirlər 121
Silah tapdılar 333
Şübhəli şəxsləri götürdülər 335
Tapşıığı yerinə yetirdim 225
Yerinizdə qalın 226

Polkovnik Maşkova aid bu sənədin əsli mənim əlimdədir, ancaq indiyə qədər də mənə maraqlıdır ki,”Yaxta” çağırışı altında kim gizlənmişdi, onun adı nəyə görə hətta bu qədər məxvi bir sənəddə də göstərilməyib?Çox ola bilər ki, bu general Şatalin idi.Bəlkə də Azərbaycan DİŞ-in nazir müavini R.Məmmədov idi ki, ona da siz general Kutikov qulaq asmaya bilməzdiniz. Həm də maraqlı odur ki, hərbiçilər özləri pasport rejimini yoxlaya bilməzdilərmi ki, bu işə bir də Azərbaycan OMON-unu cəlb etmişdilər ? Bir də mənə bu maraqlıdır ki, hərbiçilər pasport rejimini yoxlayarkən Qetaşenin bir neçə kilometrliyində yerləşən Voskanabadda anadan olmuş məni saxlasaydılar nə olardı? Doğurdanmı mənim qonşu kəndə getmək hüququm yox idi və sizin əsgərlər tərəfindən həbs ediləcəkdim?

Aleksandr Vladimiroviç , siz bilirsinizmi ki, hərbiçilərin girov kimi azərbaycan OMON-una verdiyi 47 nəfərdən 11 nəfəri azərbaycan həbsxanalarında öldürülmüşdür?Onların əzabverici ölümlərinə o cümlədən də siz də günahkarsınız.

Aprelin 30-da sübh tezdən 23-cü diviziyanın hissələri hətta danışığa girməyə cəhd etmədən , kəndi mühasirəyə aldılar və bir neçə saatlıq artilleriya atəşinə məruz qoydular.Kəndlərin üzərindən vertalyotlar uçurdu, ətrafda isə tanklar və BTR-lər yerləşdirilmişdi. Bax," pasport rejiminin yoxlanılmasına" belə başlanmışdı. Mayın 1-də isə sovet bayramı olan dünya zəhmətkeşlərinin bayramında kəndin üzərindən vərəqələr tökdülər:

Azərbaycan Respublikasının Xanlar rayonun Çaykənd (zaqafqaziya türkləri erməni sözü Qetaşeni öz dillərinə çevirmişlər –L.M.-Ş ) və Martunaşen kənd sakinlərinə:

Çaykənd və Martunaşen kənd sakinlərinin xahişinə müvafiq olaraq xüsusi rayonun komandanlığı zəmanət verir:

1.1 iyun 1991-ci ilədək təsərrüfatlarının və evlərinin satılması sənədlərini hazırlayan müddətə Çaykənd və Martunaşen kənd sakinlərinin təhlükəsizliyinə .

2. Bu müddət ərzində bu kəndlərin sakinlərinin Azərbaycan ərazisində hərəkətinin təhlükəsizliyi təmin ediləcəkdir.

3. Göstərilən maddələr SSRİ DİŞ Nazirliyi və Respublika DİŞ Nazirliyi rəhbərliyi ilə razılaşdırılmışdır.

Respublika DİŞ Nazirinin birinci müavini R. Məmmədov

SSRİ DİŞ Nairliyinin diviziya komandirinin müavini polkovnik Y.Mişin

01.05.91-ci il

Heç bir xahiş olmamışdı, general Kutikov! Sizin ordu kəndə soxulan kimi , kənd sakinlərini vertalyot meydançasına qovdular. Onların balaca uşaqlarını zorlayacaqlarını təhdid etdiklərinə görə bir neçə on ailə tələb edilən kağızı yazdılar.Mindən artıq ailədən cəmi bir neçə on ailə. Mənə həm də maraqlıdır, ordu 1 iyuna qədər niyə gözləmədi, buna sizə nə mane olurdu?

Mənə demək çətindir, çoxəsrlik erməni kəndlərinin məhv etməyi kim əmr etmişdi. Hesab edirəm ki, bu general Kutikova məlumdur. Ancaq bu "əməliyyatın" nəticələri barədə danışa bilərəm. Biz sadəcə olaraq kəsinliklə başa düşdük ki, Azərbaycanla sülh yolu ilə danışıb razılığa gəlmək mümkün olmayacaqdır, beləki bakı idarəçiləri sağlam ağılın əleyhinə, özünü məhv edən hərbi yol seçmişlər.Biz həm də başa düşdük ki, erməni kəndlərinin məhv edilməsində sovet hərbiçilərinin iştirakı Sovet İttifaqının sonunun başlanğıcını qoydu və bütün dünyada bizim ancaq bir müttəfiqimiz var – Erməni Əsgəri.

Və bizim necə döyüşdüyümüzü isə Dağlıq Qarabağ Respublikasına qarşı Azərbaycanın silahlı təcavüzünün nəticələri göstərdi. Bu artıq sovet hərbiçilərinin müdaxiləsi olmadan baş verdi – 1992-ci ilin iyun-avqust aylarında DQR-in Şaumyan və Mardakert rayonunun böyük bir hissəsini işğal edib Bakının hakimiyyəti altına verərək, 23-cü diviziya axırıncı dəfə Azərbaycana "kömək " göstərdi.

Beləliklə, general Kutikov,erməni kəndlərini məhv edən sovet hərbiçiləri əgər bu məqsədi qarşılarına qoymuşdularsa - yenidənqurmanın əllaməliyinə inanmamağa və əldə silah vuruşmağa məcbur etməyə - onda sizə ürəkdən minnətdaram.

Levon Melik -Şaxnazarov

http://voskanapat.info

**Şərhlər**

**Levon Melik –Şaxnazarov** tipik erməni nasional şovinistidir. 2013- cü ilin aprel ayında Murov dağda erməni əskərlərinin yanına təşrif gərimişdi.Oradan aşağıya baxır və deyirdi : Bizdən aşağıda qədim erməni yaşayış məskəni Toğanalu kəndi görünməkdədir. Hazırda bu kənddə türklər yaşayırlar. Öz ampluasında qalaraq bizim çoxlarımızın bir çox ermənidən eşitdiyi sözləri sərsəmləyirdi. Həmin videonu Voskanapat .info internet saytına qoymuşdu.Onun bu yazısı da həmin sərsəmləmələrdən biridir. Bu zatdan bundan artıq bir şey gözləməyə dəyməz.

* 1988-cili fevralında hadisələr başlayan kimi Çaykənd və Martunaşen kənd sovetlərinin qərarı ilə Şaumyan rayonuna, onlarsa DQMV-yə birləşdilər. Bu illər ərzində hansı oyunlardan çıxmadlar. Belə olan halda görəsən kim kimi təhrik edib?

** Avtotoxon söhbəti ermənilərin köhnə uydurmalarındandır,hələ də başlarından çıxmayıb . Vikipediyadakı Çaykənd məqaləsi onların necə avtotxon olduğunun bariz sübutudur . Qaldı ki, 400 potensial caniyə. Bu barədə o vaxt cinayət işi açılmışdı.Yəqin ki, Gəncə şəhər prokurorluğunun arxivində qalmış olar. Şəhərin 2- ci hissəsində qoca, uşaq demədən bütün azərbaycanlıları aparıb kilsəyə doldurmuşdular.Bu da onlar üçün potensial canilər.

*** Şaxnazarovun anlamında dəyanət və mərdlik nə deməkdir görəsən? Şəhərin küçələrini bağlamaq, qanunsuz mitinqlər keçirmək, hakimiyyətə tabe olmamaq, "Qarabağ " və "Krunk " cəmiyyətlərinə üzv olmaq ?

**** Soruşmaq lazımdır ki, bu özünümüdafiə dəstələri, kimin şəhərini , kimdən müdafiə edirdilər.24 talançının məhv edilməsi də uydurma bir şeydir.O günlərdə Gəncədə belə şey olmamışdır.

***** Çaykənd və Martunaşendə hər biri 200 nəfər olan Yerevandan gələn 4 dəstənin başçılarıdır ki,polkovnik Maşkova hücum edərək onu girov götürmüş, sənədlərini əlindən almış və polkovnik Makaşov fənd işlədərək əllərindən çıxdıqda vuruşmada ölmüşlər.Meyidləri də Yerevana aparılıb.

****** Bunları 3 qrupa ayırmaq olar.1 hissəsi köçmək haqqında müraciət yazdıqlarına görə saqqallılar tərəfindən öldürülmüşlər.1905,1915- 1920- ci illərdəki təcrübələrinə əsaslanaraq öz əməllərini ordunun və OMON-un üzərinə atırlar. 2-ci qrup orduya tabeçilik göstərməyib təhrikçi hərəkətlərə yol verənlərdir ki,onların da bir hissəsi özünü müdafiə dəstəsinin üzvləri olmuşlar.3- cü qrup ölənlər naməlum şəraitdə ölənlərdir . **Şərhlər İslam Bayramovundur**

Zori Balayan**" Cəhənnəmlə cənnət arasında"** kitabında akademik Andrey Saxarovun dul qadını **Yelena (Alixanyan - İ.B. ) Bonerin** şahidi olduğu maraqlı bir epizodu təsvir edir : « Bu gün tənəffüs zamanı, konsert başlamazdan əvvəl rəyasət heyətinə,o cümlədən Qorbaçova və Raisa Maksimovnaya çay verirdim. Prezidentin sifəti tünd qırmızı rəngdə idi.Nən bunun səbəbini başa düşürdüm- səbəb Qarabağdakı son hadisələr haqqında mənə telefonla dediyin məlumatları onlara çatdırdımağım idi. Çay içərkən mən onlara danışdım ki,üç uşaq anası,özü də doqquz aylıq hamilə qadının gözü qarşısında sovet əskərləri və azərbaycan OMONU - u onun əri Anuşavan Qriqoryanı vəhşicəsinə öldürmüş, sonra isə dörd gün dəfn etməyə qoymamışlar - Qoraçovun sifətinin rəngi dəyişdi. Ancaq arvadı arxayınca çay içməyinə davam edirdi. Pirojnidən bir dişlək götürdü və sakitcə xəbər aldı : «**Yelena Qriqoryevna , Siz Azərbaycan xalqına niyə belə nifrət bəsləyirsiniz?».** İnsan faciəsinə bax belə reaksiya ! Mən heyrətimdəm dondum ».

( səh.57 )

## *QADAĞAN SAATI*

## Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının rayon əhalisinə MÜRACİƏTİ

Xanlar şəhərində gərgin şərait yaranması , onun ictimai qaydaların pozulmasına və qanuna zidd hərəkətlərə gətirib çıxarması ilə əlaqədər, sovet vətəndaşlarının həyatını və təhlükəsizliyini qorumaq məqsədilə 1988-ci il dekabrın 5-dən Xanlar şəhəri ərazisində xüsusi vəziyyət elan olunmuş və saat 22-dən 6-dək qadağan saatı tətbiq edilmişdir.

Qoyulan hərəkət rejimi müddətində

QADAĞAN OLUNUR.

1. Günün bütün vaxtlarında vətəndaşların nümayişlərinin, mitinqlərinin, çıxışlarının və yığıncaqlarının, habelə bütün konsert - tamaşa tədbirlərinin hər hansı formada tətillərin keçirilməsi.

   Qayda-qanunu pozanlar məsuliyyətə cəlb olunacaqlar.
2. Şəxsiyyətini müyyənləşdirmək üçün heç bir sənədi olmayan 16 və yuxarı yaşda olan vətəndaşlar və mənzillərində kənarda olarsa;
3. Mənzillərdə və digər yerlərdə odlu silah , partlayış təhlükəli əşyalar və yandırıcı maddələr saxlanması;
4. Şəhərin ərazisində xüsusi buraxılış vərəqəsi olmadan nəqliyyat vasitələrinin saat 22-dən 6-yadək hərəkəti;
5. Bütün yaşlarda vətəndaşların xüsusi buraxılış vərəqəsi olmadan saat 22-dən 6-yadək öz mənzillərdən kənarda olması;
6. Xüsusi rejimi həyata keçirən şəxslərin sözlə yaxud fiziki təhqir olunması;

**Qoşunlara və hüquq mühafizə orqanlarına hüquq verilir:**

1. Xüsusi rejimi və qadağan saatını pozan vətəndaşları saxlamaq.
2. Nəqliyyat vasitələrini və onlardakı vətəndaşları yoxlamaq.
3. Vətəndaşların mənzillərində pasport rejiminə nəzarəti həyata keçirmək.

Sizi xüsusi rejimə ciddi əməl etməyə və ağılla hərəkət etməyə çağırırıq.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*polkovnik V.M.Moskviçev*

## Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının 2 №li Əmri

**5 dekabr 1988-ci il**

**Xanlar şəhərində xususi vəziyyətin elan olunmasını nəzərə alaraq lazımi ictimai qayda qanunun təmin olunması məqsədilə**

**ƏMR EDİRƏM**

1. Bütün gün ərzində nümayişlər, mitinqlər tamaşalar, idarə və təşkilatlarda, müəsisələrdə hər növdən olan tətillərin keçirilməsi qadaşan olunur.
2. Bütün mülki əhali təxirəsalınmadan, qanunsuz olaraq saxlanılan, sağlamlığa xəsarət yetirə biləcək odlu və soyuq silahları könüllü sürətdə təhvil verən şəxslər cinayət məsuliyyətindən azad olunacaqlar.
3. Partlayış qorxusu törədən əşyaların və partlayıcı maddələrin , müxtəlif yandırıcı mayelərin saxlanması və gəzdirilməsi qəti sürətdə qadağan olunur.
4. Əlavə olaraq izahat verirəm ki, şəhərdə saat 22.00-dan 6.00-dək komendant saatı tətbiq olunur. Bu müddətdə qəti olaraq qadağan edilir:

   -Xüsusi buraxılış vərəqəsi olmayan hər cür nəqliyyat vasitəsisinin hərəkəti;

   -hər yaşda olan vətəndaşların xüsusi buraxılış vərəqəsi olmadan yaşadığı mənzildən kənarda qalması;

Cinayət hərəkətlərinin və ictimai qaydanın pozulmasının qarşısını almaq üçün mənim tabeliyimdə olan qoşunlara, habelə hüquq mühafizə orqanlarına, səyyar patrul dəstələrinə və qruplarına əmr edirəm ki, bütün gün ərzində nəqliyyat vasitələrini və vətəndaşları yoxlasınlar. Vətəndaşların mənzillərində pasport reşiminiə nəzarəti həyata keçirsinlər.
Hazırki əmrin tələblərini pozan şəxslər tutulub cinayət məsuliyyətinə və yaxud inzibati məsuliyyətə cəlb olunacaqlar.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*polkovnik V. M. Moskviçev*
*« Kommunist əməyi » qəzeti № 148*
*10 dekabr 1988-ci il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**

**3 №li Əmri**

**12 dekabr 1988-ci** il

**Xanlar rayonunun xususi rayonunda nəqliyyat vasitələrinin hərəkətini yaxşılaşdirmaq təbirləri haqqında**

Ermənistanda baş verən təbii fəlakətlə əlaqədar olaraq avtomobil yollarinda zərərçəkənlərə kömək məqsədi ilə çoxlu nəqliyyat vasitələri hərəkət edir. Yardım göstərməklə əlaqəsi olmayan avtomobil nəqliyyatlarının hərəkəti yol hərəkəti təhlükəsizliyini təmin etmək sahəsində əlavə çətinlik törədir. Fəlakət rayonuna gedən avtomobil nəqliyyatlarının nizamla və maneəsiz hərəkətini təmin etmək məqsədi ilə

**Əmr edirəm:**

Komendant xidmətinin numayəndələri dövlət avtomobil muffəttişliyinin numayəndələri ilə birlikdə fəlakət rayonuna kömək göstərməklə əlaqəsi olmayan avtomobil vasitələrinin hərəkətini məhdudlaşdirsınlar.
Ermənistandan Azərbaycana və ya əksinə maşınların gediş - gəlişi qadagan edilsin,ancaq hökumət komissiyasının icazəsi olan şəxslərə hərəkət hüqüqu verilsin.
Hazırkı əmrin sözsüz yerinə yetirilməsinə nəzarət gücləndirilsin , onu pozanlar inzibati məsuliyyətə cəlb edilsinlər.

*Xanlar şəhəri xüsusi ra yonu hərbi hərbi komendantı*
*polkovnik V. M. Moskviçev*

*« Kommunist əməyi » qəzeti № 149*
*13 dekabr 1988 - ci il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən həftə ərzində Xanlar şəhəri və onun ətrafında şərait sabitləşmişdir. Əhali gündəlik fəaliyyəti ilə məşguldur. Müəssisələr, idarələr , təşkilatlar adi əmək qaydası ilə işləyir. Qadagan saatının tələbləri əhali tərəfindən yerinə yetrilir.Bununla belə ayrı -ayrı ekstremist əhval ruhiyyəli adamlar vəziyyəti kəskinləşdirməyə çalışır.
Xanlar şəhərində , Hacıkənddə, Mirzik kəndində provakasiya xarakterli söhbətlər aparırlar. Elə bunun üçün vətəndaş N. Mustafayev saxlanılmışdır. Ayın 19-da qadagan saatı muddətində Xanlar şəhərində iki avtomaşın, Hacıkənddə isə 6 nəfər - A.Quliyev, V.Boqdanov, Q.Kərimov, T.Məmmədov,S. Zaxaryan saxlanılmişlar .Ümimiyyətlə isə ayın 11-

dən 18-dək 35 avtomaşın, 79 adam saxlanılmışdır. Ayın 17-də Hacıkənddə baş vermiş igtişaşlar zamanı patrul dəstəsi xəbərdarlıq məqsədilə silah işlətmişdir. Həmin gün Xanlar şəhəri Sevan küçəsində gizlin bir yerdə kiçik kalibrli tüfəng üçün 100 ədəd patron aşkar edilmişdir. Bundan başqa küçədə oynayan uşaqlardan 4 ədəd dolu qumbaralar tapılmışdır. Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı bütün Xanlar əhalisini xususi vəziyyətin tələblərinə şüurlu surətdə əməl etməyə çagırır.

*Xanlar rayonu xüsusi rayonunun hərbi komendantı*
*podpolkovnik A.İ. Verbitskiy*
*« Kommunist əməyi » qəzeti № 151*
*20 dekabr 1988 - ci il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən iki gün ərzində Xanlar şəhəri və onun ətrafında vəziyyət dəyişməmişdir. Rayon əhalisi öz gündəlik fəaliyyəti ilə məşguldur. Tətillər, mitinqlər,nümayişlər,yürüşlər qeydə alınmamışdır. Ermənistandan gəlmiş azərbaycanlıların mənzil - məişət problemlərini həll etmək üçün lazımi tədbirlər görülür. Ötən iki gün ərzində qadagan saatının və xusisi vəziyyətin tələblərinə əməl etmədiklərinə görə 12 vətəndaş və 8 avtomaşın saxlanılmışdır. Dekabr ayının 20-də Xanlar dairəsi postunda Jiquli markalı avtomaşın saxlanmışdır. Onun sahibindən coxlu sayda təmiz pasport tapımışdır.Bu barədə istintaq gedir. Xanlar şəhərində patrullar və milis işçiləri tərəfindən Sevan kuçəsində yaşayan vətəndaş Kausytanı güclə evdən çıxarmaq hadisəsi qeydə alınmışdır.

Hərbi komendant Xanlar şəhərinin vətəndaşlarına və gəlmələrə müraciətlə bildirir ki, böyük dəstə halında rayon icraiyyə komitəsinin binası yanında toplaşmasinlar. Bu, ictimai qayda qanunun pozulması üçün şərait yaradır. Orduya və muhafizə orqanlarına hüquq verilibdir ki, milli ədavəti qızışdırmaq məqsədilə qanuna zidd hərəkətlərə yol verən şəxslər 30 gün müddətinə tutulub saxlanılsın. Hərbi komendant xüsusi rayonun əhalisinə təklif edir ki, odlu və soyuq silahlarını 3 gün ərzində Xanlar şəhəri DİŞ nəzdinə yerləşən məntəqəyə təhvil versinlər. Bu müddət ərzində silahını təhvil verməyən şəxslər məsuliyyətə cəlb olunacaqlar. On a görə də hərbi komendant bütün rayon əhalisini şüurla hərəkət etməyə , qadagan saatının və xüsusi vəziyyətin tələblərini yerinə yetirməyə çagırır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,*
*mayor N.SADIKOV*

*« Kommunist əməyi» qəzeti № 152*
*22 dekabr 1988-ci il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən gün ərzində şəhərdə və rayon ərazisində əsasən sakitlik olmuşdur. Müəssisələr, idarələr , təşkilatlar adi qayda ilə işləyirlər. Təssuflər olsun ki, qadagan saatının və xüsusi vəziyyətin tələblərini pozmaq üstündə saxlanılan vətəndaşların sayı azalmır. Belə ki, ayın 21-də gecə saat 22.00 - dan səhər saat 6.00 - dək qadagan saatını pozduguna görə 19 nəfər vətəndaş və 10 avtomaşın saxlanmışdır. Bundan başqa sürücülük vəsiqəsi olmadıgı halda maşını idarə etdiyinə görə vətəndaş Q. Mövlayev, sərxoş vəziyyətdə maşını idarə etdiyinə görə isə **N.İbrahimov** saxlanmışlar.

***Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,***
***mayor N.SADIKOV***

*« Kommunist əməyi» qəzeti № 153*
*24 dekabr 1988-ci il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən gün ərzində şəhərdə və rayon ərazisində əsasən sakitlik olmuşdur. Əhali gündəlik fəaliyyəti ilə məşguldur. Qadagan saatını pozduguna görə Q.Süleymanov,.Q.İbrahimov, N.Allahverdiyev, N.İbanov saxlanmışdır. Hərbi **komendant məlumat** verir ki, 1988-ci il dekabrın 31- dən 1989- cu il yanvarın 1-ə dək qadagan saatının müddəti saat 24.00 - dən səhər saat 5.00 - dək olacaqdır. Hərbi komendant əhalidən xahiş edir ki, bu Yeni ildə ictimai qayda qanuna rəayət etsin və xüsusi vəziyyətin tələblərini yerinə yetirsinlər.

***Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,***
***mayor N.SADIKOV***

*«Kommunist əməyi » qəzeti № 1*
*1 yanvar 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**4 №li Əmri**

**4 yanvar 1989-cu il**

**Xanlar rayonunda yaranmış normal vəziyyətlə əlaqadar olaraq**

**ƏMR EDİRƏM**

**1989-cu il yanvar ayının 6-dan** qadagan saatını n müddəti saat 24.00- dan səhər saat 5.00 -dək qoyulsun.

***Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,***
***mayor N.SADIKOV***

Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının
Məlumatı

Ötən günlər ərzində şəhərdə və onun ətrafında vəziyyət dəyişməmiş, sakitlik olmuşdur. İctimai qayda - qanunun kutləvi surətdə pozulması halları,mitinqlər, nümayişlər, yürüşlər olmamışdır.

**Hərbi komendant vətəndaşlara xatırladır ki, rayon partiya komiyəsi və rayon icraiyyə komitəsinin binası yanında toplaşmasınlar. Bu köçkünlərin mənzil-məişət və başqa problemləri ilə məşğul olan komissiyarın işinə mane olur.**
**Hərbi komendant bütün əhalinin xüsusi vəziyyətini tələblərinə əməl etməyə çağırır.**

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*Mayor N. SADIKOV*

*« Kommunist əməyi » qəzeti № 3*
*5 yanvar 1989 - cu il*

Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının
Məlumatı

Ötən günlər ərzində şəhərdə və onun ətrafında vəziyyət dəyilşməmiş, sakitlik olmuşdur. Qadağan saatını pozmaq cəhdləri qeydə alınmamışdır. Əhali gündəlik fəaliyyəti ilə məşğuldur.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

*«Kommunist əməyi » qəzeti № 6*
*12 yanvar 1989 - cu il*

Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının
Məlumatı

Ötən gün ərzində şəhərdə nümayişlər,mitinqlər,tətillər baş verməmişdir.Əhali gündəlik fəaliyyəti ilə məşğuldur.SSRİ ALİ SOVETİNİN 23 noyabr 1988-ci il Fərmanına əsasən Xanlar rayonunda və Hacıkənd qəsəbəsində aşağıdakı vətəndaşlar 30 gün müddətinə tutulub saxlanılmışlar: Allahverdiyev Əhliman Vəzir oğlu,Şahıyev İsmayıl Hü mbət oğlu, Cənnətov Qədir Ələsgər oğlu, Mustafayev Əli Firuddin oğlu ,Quliyev Həmid Almməməd oğlu, Abbasov Nadir Salman oğlu, Abbasov Meyralı Baxçalı oğlu, Vəliyev Sovet Nəbi oğlu, Məmmədov Şəmistan Əlirza oğlu, Məmmədov Ələddin Əlirza oğlu , Əliyev Həsən İmaməli oğlu, Rüstəmov Əsəd Yunis oğlu, Həsənov Qazax Əhməd oğlu,Hüseynov Vaqif Hüseyn oğlu, İsayev Əli İmran oğlu, Məcidov Sabir Ataeli oğlu, Vəliyev Vəli Nəbi oğlu, Qarayev Həsən Qurban oğlu, Əfəndiyev Müzəffər Bəylər oğlu.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

*« Kommunist əməyi » qəzeti № 8*
*17 yanvar 1989 cu il*

Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının
Məlumatı

Ötən günlər Xanlar şəhərində və onun ətrafında heç bir hadisə qeydə alınmamışdır. Əhali gündəlik fəaliyyəti ilə məşğuldur. Qadağan saatının tələblərini pozduqlarına görə vətəndaşlar A.Həsənov, R.Sadıqov, A.Panzırov, R.Hüseynov, H.Hüseynov saxlanılmışdır. Bundan başqa Mirzik kəndində ictimai qayda -qanunun pozulması halları qeydə alınmışdır. Orada qayda - qanun yaratmaq üçün tədbirlər görülür.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

*« Kommunist əməyi » qəzeti № 9*
*19 yanvar 1989 - cu il*

Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının

2 №-li ƏMRİ

1 Fevral 1989-cu il.

Xanlar rayonunda millətlərarası ədavətin kəskinləşməsi ilə əlaqədar olaraq 1989-cu il fevral ayının 2-dən qadağan saat 22-00-dan saat 6-dək müddətinə tətbiq olunsun.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının
Məlumatı

Ötən gün ərzində Xanlar rayonunda vəziyyət kəskinləşmişdir. Komendant xidməti qayda-qanun yaratmaq üçün hər cür tədbirə əl atacaqdır. Ötən gün ərzində qadağan saatının pozduğuna görə aşağıdakı vətəndaşlar saxlanılmışlar. H.Yusifov, Z.Əliyev, Ə.Əhmədov, M.Məmmədov.

SSRİ ALİ SOVETİNİN 23 noyabr 1988-ci il Fərmanına müvafiq olaraq vətəndaş İlqar Kərim oğlu Xəlilov tutulub saxlanılmış və 30 gün müddətinə həbs edilmişdir.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

*«Kommunist əməyi » qəzeti №15*
*2 Fevral 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən günlər ərzində mitinqlər, nümayişlər baş verməmişdir.Müəssisələr, zavodlar, idarələr ahəngdar işləyirlər.Əhali gündəlik fəaliyyəti ilə məşğuldur. Qadağan saatının tələblərini pozduqlarına görə 7 nəfər vətəndaş və 3 avtomaşın saxlanılmışdır. İctimai qayda qanunun pozulması halları qeydə alınmamışdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

*« Kommunist əməyi » qəzeti № 18*
*9 fevral 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən günlər ərzində rayon ərazisində sakitlik olmuşdur. Mitinqlər, nümayişlər baş verməmişdir. Qadağan saatının pozulması halları qeydə alınmamışdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

*«Kommunist əməyi » qəzeti № 20*
*11 fevral 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət sakitdir. İctimai qayda - qanunun pozulması halları qeydə alınmamışdır. Fevral ayının 21 - də qadağan saatı müddətində E.Hacıyev və N.Orucov saxlanılmışlar. Hacıkənd qəsəbəsində sənədləri yoxlayan zaman hərbi patrullara qarşı kobudluq etdiyinə görə Haqverdi Papuşev saxlanılmıdır.Sükan arxasında sərxoş vəziyyətdə olduguna görə tədarük idarəsinin ekspeditoru Mehdiyev Rantik saxlanılmıdır. Hər iki saxlanılan şəxs Xanlar şəhər DİŞ - nə gətirilmişdir.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*
*«Kommunist əməyi » qəzeti № 25*
*23 fevral 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət dəyişməmişdirr. İctimai qayda - qanunun pozulması halları qeydə alınmamışdir. Fevralın 23 - də qadağan saatı müddətində vətəndaş Q. Musayev saxlanılmışdır. O, Xanlar şəhər DİŞ-inə gətirilmişdir.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*
*« Kommunist əməyi» qəzeti № 26*
*25 fevral 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**

**3 №-li ƏMRİ**

**25 Fevral 1989-cu il.**

Şəhərdə sakitlikdir. Ancaq buna baxmayaraq hələ də qadağan saatının və ictimai qayda - qanunun pozulması halları baş verir. Şəhərdə qayda -qanunun ,vətəndaşların həyatının və şəxsi əmlakının təhlükəsizliyini təmin etmək məqsədilə

**ƏMR EDİRƏM**

1. Hamı sakit əmək ritmini saxlamalı, ekstremist əhval ruhiyyəli şəxslərin şaiyələrinə uymamalı. İctimai qayda - qanunun və qadağan saatı nın tələblərinə əməl etməli. Bəzi idarə və təşkilatların yerləşdiyi binaların qarşısında,avtovagzalda və başqa ictimai yerlərdə camaatın topa-topa yıgılmasını qadagan edirəm. Əmri pozan bütün şəxslər saxlanılacaq və inzibati məsuliyyətə cəlb olunacaqlar.
2. Şəxsi məsələlər, şikayətlərə baxmaq üçün hərbi komendant trestin binasında hər gün saat 10 - dan saat 12-dək , 16-dan 18 - dək qəbul edir. Ev dəyişmə , evlərin alınıb satılması üçün rayon icraiyyə komitəsinin sədr muavini A. Məmmədova muraciət etməli .

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə sakitlikdir. İctimai qayda qanunun pozulması halları qeydə alınmamışdir. Fevralın 26 -da qadağan saatı müddətində VAZ - 2101 AQ markalı avtomaşında F.Əhmədov və Ə.Əliyev sərxoş vəziyyətdə saxlanılmışlar.

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,**
**mayor** ***N. SADIKOV***
*«Kommunist əməyi » qəzeti № 27*
*28 Fevral 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyyət dəyişməmişdir.İctimai qayda qanunun pozulması halları yoxdur.Fevralın 28-də V.Bimanov sərxoş vəziyyətdə saxlanılmışdır. R.Əliyev qadağan saatını pozduguna görə saxlanılmışdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*
*«Kommunist əməyi» qəzet i № 28*
*2 mart 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən gün şəhərdə vəziyyyət sabit qalmışdır , sakitlikdir. Mart ayının 2-də vətəndaş V.Əhmədov sərxoş vəziyyətdə saxlanılmışdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendant ,*
*mayor N. SADIKOV*

*« Kommunist əməyi » qəzeti № 29*
*4 mart 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət dəyişməmişdir, sakitlikdir. İctimai qayda- qanunun pozulması halları qeydə alınmamışdır. Mitinqlər ,nümayişlər baş verməmişdir. Əhali gündəlik fəaliyyəti ilə məşğuldur. Mart ayının 4 - də qadagan saatını pozduqlarına görə M.Məmmədov, P.Hacıyev, S.İsmayılov, H.Məmmədov, F.Hacıyev, V.Mustafayev, İ.Həsimanov, İ.Həsənov saxlanılmışdır. Mart ayının 5 -də şəxsiyyətini bildirən sənədləri olmadıgına görə Ş.Bayramov saxlanılmışdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,*
*mayor N. SADIKOV*

*« Kommunist əməyi » qəzeti № 30*
*8 mart 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Müraciəti**

Xanlar şəhəri əhalisinə müraciət edərək bildirirəm ki, 4 gün əvvəl Murud kəndində 9 yaşlı Məmmədova Marita Hüseyn qızı itmişdir. Onun əynində göy gödəkcə , ayagında ag çəkmə var. Xanlarlılardan xahişim budur ki, balaca Marinanın tapılmasında xeyirxahlıq göstərsinlər .

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı, mayor N. SADIKOV*
*«Kommunist əməyi» qəzeti № 34*
*18 mart 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**8 №li ƏMRİ**

Milli bayram keçirilməsi ilə əlaqadar 1989 cu il mart ayının 20 dən qadagan saatı 24.00-dan saat 6 -yadək tətbiq olunsun.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*mayor N. SADIKOV*
*« Kommunist əməyi » qəzeti №35*
*21 mart 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət normal olmuşdur. Heç bir dəyişiklik baş verməmişdir. Tətil , mitinq, nümayiş qeydə alınmamışdır .İctimai asayiş pozulmamış, komendant saatı zamanı bir kimsə saxlanmamışdır. 26 mart 1989-cu ildə Xanlar raonunda SSRİ Xalq Detutatlarına seçkilər keçirilərkən heç bir hadisə baş verməmişdir.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*N. SADIKOV*
*« Kommunist əməyi » qəzeti № 38*
*28 mart 1989- cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət sakitdir. Tətil , mitinq, nümayişlər baş verməmişdir. Aprel ayının 22-də Varameysk şəhərinin sakini ,1954-cü ildə anadan olmuş V. İ.Kolpakov və həmin şəhərin sakini 1961-ci ildə anadan olmuş A.A.Şilin sərxoş vəziyyətdə saxlanılmışlar. Aprel ayının 23- də İ.Əhmədov sərxoş vəziyyətdə saxlanılmşıdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı,*
*Mayor N. SADIKOV*

*« Kommunist əməyi » qəzeti № 50*
*25 aprel 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Ötən günlər ərzində şəhərdə vəziyyət dəyişməmişdir, sakitlik olmuşdur. Mitinqlər , nümayişlər baş verməmişdir. Qadagan saatını pozduqlarına görə Kirovabad şəhərinin sakinləri N.Allahverdiyev, Q.İbrahimov, Y.Paşayev, Xanlar rayon sakinləri İ.Avdışev, A.Mustafayev, R.Rəhimov, D.Hüseynov, Ə.Kərimov, Ə. Əhmədov Bərdə rayon sakinləri D.Mirzəyev , S.Mirzəyev və Tovuz rayon sakini D.Murğuzov saxlanılmışlar. May ayının 10 - da qadagan saatını pozduguna görə Mizik kənd sakini T. Həsənov 23-28 ARŞ №-li avtomaşında saxlanılmşıdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,*
*mayor N. SADIKOV*
*« Kommunist əməyi » qəzeti № 56*
*11 may 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət dəyişməmişdir, sakitlikdir. May ayının 14 də qadagan saatını pozduqlarıuna görə 3 nəfər - A.Nəsirov, Q.Nəsirov, F.İsmayılov saxlanılmışlar.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,*
*mayor N. SADIKOV*
*« Kommunist əməyi» qəzeti № 58*
*16 may 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət normaldır. May ayının 21-dən 24-ə qədər olan müddətdə tətil nümayiş etmək təşəbbüsləri olmamışdır.

Komendant saatını pozduğuna görə may ayının 21-də 6 nəfər, 23-də 7 nəfər, 24-də isə 12 nəfər tutulmuşdur.

May ayının 24-də komemdant saatını pozduğuna görə tutulan vətəndaşlardan Əflatun Dəmir oğlu Rüstəmov, may ayının 21-də isə tutulan vətəndaşlardan İlqar Böyükkişi oğlu Hacıyev, Ramiz Musa oğlu Musayev sərxoş vəziyyətdə olmuşlar.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,*
*mayor N. SADIKOV*
*« Kommunist əməyi » qəzeti № 62*
*25 may 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**Məlumatı**

Şəhərdə vəziyyət sakitdir. Ötən günlər ərzində mitinqlər,nümayişlər, tətillər baş verməmişdir.Təşkilatlar idarələr, müəssisələr normal əmək ritmi ilə çalışırlar. Milli toqquşma halları qeydə alınmamışdır. Qadağan saatı müddətində 3 nəfər—Topalhəsənli kəndinin sakinləri S.Yusibov, E.Haqverdiyev saxlanılmışlar. Bundan başqa Tovuz rayonun sakini M.Zeynalov öz avtomobilində saxlanmışdır.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,*
*mayor N. SADIKOV*
*« Kommunist əməyi » qəzeti № 63*
*27 may 1989 - cu il*

**Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının**
**ƏMRİ**

**10 iyul 1989-cu il**

Bu gündən başqa işə təyin olunmağımla əlaqədar öz işimi və vəzifəmi kapitan Kim Alik Borisoviçə həvalə edirəm.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendant ,*
*mayor N. SADIKOV*

## N. Q. SADIKOVUN MÜRACİƏTİ.

Əziz Xanlar şəhərinin sakinləri !

*Bu gecə mən təxirəsalınmaz qərar qəbul etdim , onu yerinə göndərdim. Siz onun cavabını müəyyən edilmiş qaydada alacaqsınız.*

*Sizə demək istəyirəm ki, mənim sizin şəhərdə hərbi komendant olduğum müddətdə (7 dekabr 1988-ci ildən 10 iyul 1989 –cu ilə qədər) sevincimi və kədərimi sizinlə birgə bölmüş, çox sadə insanlarla rastlaşmışam..Azərbaycanda müxtəlif millətlərin nümayəndələri yaşayırlar.Burada həmçinin çoxlu köçkünlər də vardır. Mən həmişə onlara imkanım daxilində kömək etməyə çalışmışam. Dogrudur, hər şeyi istədiyim kimi edə bilməmişəm. Amma istərdim ki, siz mənim bütün sadə və təmiz adamlara olan səmimiyyətimə inanasiniz.*

*Sizi əmin etmək istəyirəm ki, xüsusi rayonun bütün şəxsi heyəti hər bir sovet adamının həyatını, şəxsiyyətini, mənliyini qorumaq üçün əlindən gələni etmişdir. Əlbəttə,bütün bunlar qanun çərçivəsində yerinə yetirilmişdir ki , biz gələcəkdə də bunu qoruyub saxlayacağıq.Buna görə də mən onların hər birinə öz dərin minnətdarlığımı bildirirəm..*

*Sizə də minnətdaram ki, əziz Xanlar sakinləri siz xüsusi rayonda ictimai qayda- qanun bərpa olunmasında bizə çox köməklik etmi siniz. Yerli partiya , sovet orqanlarına , kütləvi informasiya vasitələrinə, rayonda normal həyat şəraiti yaratmaq üçün vicdanla, namusla çalışan hər bir kəsə öz təşəkkürümü bildirirəm.*

*Xanlar şəhəri xüsusi rayonun yeni komendantı kapitan A.B.Kim mənimlə birgə işləmişdir. O bütün işlərdən xəbərdardır. Mən sizi əmin edirəm ki, yeni komendant sizin rahatlığınız üçün əlindən gələni edəcəkdir.*

*Bir daha sağ olun !*

*Hörmətlə mayor N. SADIKOV*

*«Kommunist əməyi » qəzeti № 8 2*
*11 iyul 1989 - cu il*

## Xanlar şəhəri xüsusi rayonu hərbi komendantının MƏLUMATI

Ötən gün ərzində Xanlar rayonunda əsasən sakitlik olmuşdur.İctimai qayda qanun və qadağan saatının pozulmasaı halları qeydə alşnmamışdır.

Sentyabr ayının 19-da saat 18.00 radələrində komendant postunda komendaturanın, milis işçilərinin və ictimaiyyətin köməkliyi ilə V.S.Simonyanın idarə etdiyi minik avtomaşını saxlanmışdır. Axtarış zamanı iki siqnal fişəngi və tüstü buraxan şaşka tapılmışdır.

Sentyabr ayının 21-də saat 4.00 -da Ermənistan SSR-ə gedən 22-84 KKR seriyalı Kamaz 5410 markalı yük maşınında axtarış aparılan zaman oradan siqnal fişəngi , araqçəkən aparat , 60-litr cecə arağı , KAMAZ 5410 markalı başqa yük maşınında isə Azərbaycan SSR-dən çıxarışlması qadağan edilən dörd kisə un, on beş kisə kartof tapılmışdır. Göstərilən faktlar üzrə mühafizə orqanları tərəfindən tədbirlər görülmüşdür.

*Xanlar şəhəri xüsusi rayonu hərbi komendantı ,*

*mayor V.Belov*

*« Kommunist əməyi » qəzeti*
*23 sentyabr 1989 - cu il*

# QARABAĞIN HARAYINDA

## Azərbaycan Respublikasının Ali Sovetinin birinci Sessiyasında Xalq deputatı Heydər Əliyevin ÇIXIŞI

**Hörmətli xalq deputatları!**
**Əziz həmvətənlilər!**

Mənim Azərbaycan Respublikasının Xalq Deputatı seçilməyimi mənə olan böyük etimad kimi qəbul edir, mənimlə həmrəyliyini bildirən hər bir kəsə , öz seçicilərimə dərin təşəkkürümü bildirirəm.Mənim Azərbaycana qayıtmağım və Xalq deputatı seçilməyimlə əlaqədar müxtəlif şaiyələr yayılmışdı. Ona cavab olaraq bəyan edirəm ki, mən doğma vətənimə ona görə qayıtmamışam ki, yenidən hakimiyyətə gəlim, kiminlə isə hesab çürüdüm, ancaq və ancaq ona görə qayıtmışam ki, respublikanın bu ağır və çətin vaxtında dogma xalqımla ona üz verən faciəni bölüşüm, öz vətəndaşlıq borcumu yerinə yetirim, azadlıq uğrunda mübarizəyə qoşulum. Məni bir azərbaycanlı kimi bu hüquqdan heç kim məhrum edə bilməz. Milli Məclisin nəzərinə Sovet İttifaqında və Azərbaycanda baş verən vəziyyətlərlə əlaqədar bəzi fikir və təkliflərmi çatdırmaq istəyirəm

**Birincisi:** Artıq neçə ildir ki, ölkə, sovet cəmiyyəti, dövlət idarəetmə sistemi iqtisadi və siyasi böhran vəziyyətindədir. Millətlərarası münasibətlər son həddə qədər kəskinləşmişdir. Sovet İttifaqı dağılır.

**Bunun səbəbləri:** Sözsüz keçmişdə müxtəlif dövrlərdə buraxılmış səhvlərin və yanılmalarınyaranmış vəziyyətə təsirini danmaq olmaz. Ancaq,əsas səbəblər «yenidənqurma »adlandırdığımız dövrdə həyatımızın bütün sahələrində buraxılmış ciddi, bağışlanılmaz, kobud səhvlərin nəticəsidir.

Təəssüf ki , bu haqqda susulur , rəsmi dairələr və kütləvi informasiya vasitələri isə ancaq kecmişi sarsıdıcı tənqid atəşinə tuturlar.

Tam kəskinliklə demək olar ki, ölkəmizdə 1985-ci ildən başlayan dəyişikliklərin elmi, siyasi, iqtisadi əsaslandırılması , uzun müddətli strategiyası olmamışdır. Və aparılan tələsik, çox vaxt bir – birinə zidd tədbirlər , təbii ki, müsbət nəticələr verməmişdir.

Milli siyasətdə buraxılan ciddi səhvlər bir çox respublikalarda faciəli nəticələrə gətirib çıxarmışlar.Alma-Ata, Tbilisi ,Fərqanə,Bakı,NovıUzen,Oş,Pribaltika respublikalarında baş verən hadisələr - respublikalarınsuveren hüquqlarının tapdanması, mərkəzin imperiya siyasətinin bir başa nəticəsidir.

Keçmişillərdə özünü göstərən demokratiya,aşkarlıq,siyasi plüralizmartıq məhdudlaşdırılır, ölkədə diktatura yaranmaga başlayır.

Bütün bunlar bizim cəmiyyəti ümummilli qəza həddinə gətirb çıxarmışdır. Sovet dövlətinin xarici siyasətində də səhvlər və yanılmalar az deyildir. Yaranmış vəziyyətin əsas səbəbkarı Kommunist partiyasının Mərkəzi Komitəsi, partiya və dövlət hakimiyyətini tamamilə öz əlində cəmləmiş Qorbaçovdur. Qorbaçov son beş ildə xalqa çoxlu vədlər vermiş, ancaq onlardan heç birini həyata keçirə bilməmişdir. Nəticədə sözlə praktiki iş arasında boşluq, siyasi rəhbərliklə və xalq arasında uçrum yaranmışdır. Xalqın rəhbərliyə etimadsızlığı artmış,insanların gələcəyə ümidi qalmamışdır.Kommunist partiyası öz nüfuzunu itirmişdir.

**İkincisi** Ölkədə yaranmış vəziyyət Azərbaycan üçün də xarakterikdir. Respublikanın rəhbərliyi əvvəllər olduğu kimi Azərbaycanda kör- köranə mərkəzin xəttini yeridir, yuxarıdan gələn bütün göstərişləri yerinə yetirməyə çalışır. Nəticələr göz qabağındadır: Azəbaycanda vəziyyət daha da ağır və dözülməzdir.Bu erməni milliyətçiləri tərəfindən uydurulmuş Dağlıq Qarabağ problemi ilə əlaqədardır. Üç ildən artıqdırki, bizim respublika , azərbaycan xalqı Ermənistan tərəfindən arasıkəsilməyən təcavüzə məruz qalır.Nəticədə Azərbaycanın ərazi bütövlüyü pozulmuşdur. Dağlıq Qarabağ Muxtar Vilayəti, Şaumyan rayonu (Yaxşı ki , artıq onun ləğv edilməsi haqqında qərar qəbul edilmişdir), **Çaykənd kəndi** Azərbaycanın dövlət idarəçiliyindən çıxmış, Ermənistanla geniş siyasi- iqtisadi , mənəvi əlaqələr qururlar.Şərur rayonunun Kərki kəndi Ermənistan tərəfindən tamamiləzəbt edilmişdir.Erməni silahlıdəstələri daim Ermənistanla həmsərhədd olan rayonlara hücumlar edir, insanlar ölür,qan tökülür, evlər yandırılır, kəndlər dağılır.

Ancaq ittifaq hökuməti,birinci növbədə şəxsən Qorbaçov tərəfindən , respublikanın rəhbərliyi tərəfindən uzunmüddətli erməni təcavüzünün qarşısını almaq üçün heç bir qətiyyətli tədbirlər görülmür. Artıq üç ildir ki,Dağlıq Qarabağ Muxtar Vilayəti, Azəbaycan uçün böyük bədbəxtlik mənbəyidir.Mən bu gunki sessiyada bu məsələnin müzakirə edilməsini ürəkdən alqışlayıram.Beləki, sessiyaya qədər bu məsələ ilə maraqlandıqda mən müəyyən etdim ki, üç il ərzində Azərbaycan Respublikasının Ali Sovetinin sessiyasında DQMV-də vəziyyətə dair məsələ ilə hərtərəfli müzakirə aparılmamış , effekif tədbirlər görülməmişdir.Bu məsələ yüksək səviyyədə dərin təhlilin predmeti olmamışdır.Bu gun məsələnin qoyuluşu belədir: DQMV-də vəziyyətin normallaşdırılması tədbirləri haqqinda . Mən burada təşkilat komitəsi və hazırda məruzə ilə çıxış edən V. Polyaniçkonun yerinə yetirdiyi bir sıra tədbirləri azaltmaq istəmirəm , hər bir addımı layiqincə qiymətləndirmək lazımdır. Ancaq azərbaycan xalqını tutan bu bəladan , DQMV barədə süni yaradılmış bu məsələdən birdəfəlik qurtarmaq üçün məslənin dərin və hərtərəfli təhlili zəruridir. Hörmətli deputatlar , Siz bilirsiniz ki, azərbaycan xalqı 20-ci illərdən indiyədək belə çətin , ağır və çıxılmaz vəziyyətdə qalmamışdır. Düzdür, etiraf etmək lazımdır ki , 20-ci illərdən biz dövri olaraq azərbaycan torpaqlarının bir hissəsini itirmişik. Əgər imkan olsa bu haqda mən öz fikirlərimi bildirərəm. 22-ci ildən biz SSRİ-nin tərkibindəyik. SSRİ-yə daxil olan heç bir respublika belə fəlakətlə üzləşməmişlər.Heç bir respublika digər müttəfiq respublika tərəfindən təcavüzə məruz qalmamışdır.Bu çox ciddi məsələdir, onu geniş müzakirə etmək lazımdır, danışmaq,məsləhətləşmək, ümimi dil, qəbulu mümkün ola bilən yol tapılmalıdır.Bu məsələnin baxılmasında tələskənliyə yol vərmək olmaz.Sizi məsələnin baxılmasına bu mövqedən yanaşmağa dəvət edirəm. Ona görə də hesab edirəm ki, Dağlıq Qarabağda vəziyyətin nomallaşdırılması haqqda danışmaq- deməli məsələni dar çərçivədə qoymaqdır.Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi- məsələ belə qoyulmalıdır və biz bu məsələnin həlli üçün çıxış yolu tapmalıyıq. Biz təhlil etməliyik ki, necə olmuşdur ki, biz Dağlıq Qarabağı itirmişik ?Üç il əvvəl Dağlıq Qarabağ Azərbaycanın tərkibində idi. Yaxşı ,ya pis o Azərbaycanın tərkibində idi. Düzdür, Dağlıq Qarabağ haqqında məsələ 1920-ci ildən meydana çıxmışdır.1923-cü ildə DQMV yaradılmışdır. Sonrakı illərdə erməni millətçiləri tərəfindən bu məsələ dəfələrlə qaldırılmış , və gəlin etiraf edək , gəlin tarixə qiymət vetrək, o dövrlərdə bu cəhdlərin qarşısı alınmışdı. Bizim respublika böyüdü, irəlilədi, yüksəldi , avtoritet qazandı,ölkədə , dünyada

şöhrətləndi və birdən 1988-ci ildə onun ərazisi faktiki olaraq əlindən alındı. Biz isə indi istəyirik orada vəziyyəti normallaşdıraq. Biz öz torpaqlarımızı geri qaytarmalı , orada öz hakimiyyətimizi bərpa etməli , respublikanın suverenliyini təmin etməliyik. Bax, ona görə də mən böyük həyəcanla danışıram. 8 il ərzində mən Azərbaycanda olmamışam, ancaq ruhən Azərbaycanda olmuşam, azərbaycan xalqı ilə olmuşam. Mən Sizin hamınıza minnətdaram ki, öz ürək sözlərimi deməyə imkan tapdım. Mənə qulaq asıdığınıza görə Sizə və öz seçicilərimə təşəkkür edirəm. Mən bir daha təkrar edirəm, bu məsələlər hərtərəfli təhlil edilməlidir. Bu - tarixi məsələdir. Azərbaycan xalqının tarixində ən çətin, ən ləkələnmiş bir dövrdür. Əgər hətta biz DQMV-də öz hakimiyyətimizi bərpa etsək , öz torpaqlarımızı geri alsaq, gələcək nəsillər bu 3 il ərzində baş verən məsələnin və proseslərin meydana çıxmasını mütləq öyrənib, təhlil edəcəklər. Əgər bu gün biz bunu etməsək ,onda gələcək nəsillər üçün böyük çətinliklər yaradacağıq.
Ona görə də hesab edirəm ki, biz son üç ildə DQMV- nin itirilməsi prosesini təhlil etməli, lazımdır ki, bizim Ali Məclisin bu günkü sessiyası bütün bu tarixi məsələləri əks etdirən hərtərəfli, geniş qərar qəbul etsin.Mutləq muəyyən edilməlidir ki, harada ,kim, hansı səhvi buraxmışdır, necə olmuşdur, nə baş vermişdir ki, xalq belə acizlik göstərib, öz torpağını vermişdir. Bütün bunları icmallaşdırmaq lazımdır. Burada V.Polyaniçko dedi ki, Dağlıq Qarabağın itrilməsinə Qorbaçov imkan yaradır. Etiraf etmək lazımdır ki, mən də elə düşünürəm. Ölkənin rəhbəri Qorbaçovun bu məsələdə Azərbaycana qarşı satqınlıq mövqeyini tam açmaq lazımdır və bu bizim tariximizdə öz əksini tapmalıdır. O,vaxt bu məsələ qalxanda Ayaz Mütəllibovla söhbət zamanı bununla əlaqədar mən öz fikirlərimi ona demişəm. Həmin fikirlərimi indi Sizə də bildirmək istəyirəm.
1987-ci ilin son aylarında bu məsələ qalxan vaxt onun qarşısını almaq olardı , ancaq bu baş vermədi. 1988-ci ilin fevralında bu məsələnin böhran dövründə bu hərəkatın qarşısını almaq olardı, ancaq bu da baş vermədi. Bu iki dövrü götürək. Nə üçün hadisələrin qarşısı alınmadı ? 1987-ci ilin son aylarında erməni millətçiləri müyyən mövqelər qazanaraq , hiss etdilər ki, Dağlıq Qarabağı qoparmaq üçün münasib vəziyyət yaranmışdır, ona görə də güclü siyasi kompaniya apardılar.Təəssüf ki,Azərbaycan rəhbərliyi bu kompaniyanın qarşısını ala bilmədi , Moskva isə Respublikaya,Azərbaycan xalqına kömək etmədi.Dəqiləşdirmək istəyirəm Moskva dedikdə mən Qorbaçovu, onun erməni məsləhətçilərini, erməni milliyətçilərini, ona təsir edə bilən şəxsləri nəzərdə tuturam. Əgər o vaxt bu bu proses dayandırılsa idi, Azərbaycan və Ermənistan arasında əlaqələr pozulmaz , bizim xalqlar arasında belə qarşıdurma yaranmaz, bir belə qan tökülməzdi.Biz əsrlərlə bir yerdə yaşamışıq. Nə edəki,tale bizə belə qonşular qismət etmişdir. Biz buradan ,onlar da oradan köçməyəcəklər. Ancaq ,fikir verin bu satqınlığın kökləri nə qədər dərindir. O vaxt ciddi tədbirlər görmək lazım idi.Ola bilər bu tədbirlər kimlərinsə xoşuna gəlməyəydi.Ancaq hadisələrin qorxulu inkişafının qabağını almaq, Ermənistanı - Ermənistan, Azərbaycanı - Azərbaycan kimi saxlamaq olardı.Bunu ancaq İttifaqa rəhbərlik edən müdrik insan edə bilərdi.Ancaq Qorbaçovda bu müdriklik çatmadı.Azərbaycan rəhbərlərində isə igidlik ,cəsurluq, vicdan, çatmadı ki, öz xalqının maraqlarını və qorusun. 1988-ci ilin mart ayında Sov. İKP MK, SSRİ Nazirlər Soveti Dağlıq Qarabağın sosial - iqtisadi inkişafı haqqında qərar qəbul etdilər.Obrazlı desək, bu qərar Azərbaycan Respublikasının , azərbaycan xalqının kürəyinə sancılmış bıçaq idi. Bu qərara imza erdənlər,ona razılıq verənlər azərbaycan xalqının maraqları haqqında da düşünməli idilər. Belə bir qərarın qəbul edilməsinə yol vermək olmazdı, onun qəbulu

böyük səhv idi. Əgər sonrakı proseslərdən danışsaq, onda 1988- ci ilin iyulunda SSRİ Ali Sovetinin Rəyasət Heyətində Dağlıq Qarabağ haqqında məsələ müzakirə edillməsini yada salmaq lazımdır. Azərbaycandan və Ermənistandan olan deputatlar orada eyni hüqüqla iştirak edirdi. Ancaq Ermənistan Respublikasından olan deputatların bu müzakirələrdə iştirak etməyə nə hüqüqu var idi? İş burasındadır ki, mart ayında qəbul edilmiş qərarla Ermənistan Respublikasının rəhbərlərinə hüquq verilmişdi ki, Dağlıq Qarabağın işlərinə qarışsınlar. Heç də təsadüfi deyil ki , o vaxt Ermənistan KP MK -nın keçmiş birinci katibi Arutunyan öz çıxışında həmvətənlilərini sakitləşdirərək deyirdi ki, onlara tarixdə ilk dəfə Dağlıq Qarabağın daxili işlərinə qarışmaq üçün imkan verilibdir. Bəli, belə imkanı Qorbaçov və onu əhatə edənlər Ermənistanın rəhbərlərinə yaratmışdılar. Əgər sonrakı proseslərdən danışsaq, qeyd etmək lazımdır ki, SSRİ Ali Sovetinin Rəyasət Heyətinin Dağlıq Qarabağda Xüsusi İdarə Komitəsinn yaradılmsı azərbaycan xalqına qarşı ən böyük satqınlıq idi. V. Polyaniçko burada öz səhvini boynuna aldı. Lakin bu işdə tək o gunahkar deyildir. Çoxlu digər gunahkarlar da var.İstiyərdim ki, onlar da öz səhvlərini boyunlarına alsınlar.Hazırda itirilmiş mövqeləri , hörmətli deputatlar geri qaytarmaq çox çətindir. Volskinin idarəçiliyi Dağlıq Qarabağı Azərbaycandan tam qoparmağı təmin etmişdir. Təəssüf ki, Azərbaycanın o vaxtkı siyasi rəhbərliyi bu idarənin yaradılmasını böyük qələbə kimi qiymətləndirərək , ona çox böyük ümidlər bəsləyirdi. O vaxt onlar ya başa düşmürdülər, ya da başa düşmək istəmirdilər ki, bununla Dağlıq Qarabağ Azərbaycanın tabeçiliyindən birdəfəlik çıxır. Biz öz torpaqlarımızı vermişik, və nə qədər çətinlikləri dəf edirik ki, onları geri qaytaraq. Yaxşı ki, sonra xalq yuxudan oyandı, xalq hərəkatının fəaliyyəti geniş inkişaf tapdı və Volski idarəçiliyi ləğv edildi. Ancaq nə edəsən ki , Volski hazırda da SSRİ Ali Sovetində Azərbaycan Respublikasını təmsil edir, baxmayaraq ki,o Azərbaycan Respublikasına heç bir xeyir verməmiş , əksinə onu satmışdır. Biz isə buna laqeydcəsinə baxır, hətta dəhşətə gəlmirik , öz narazılığımızı bildirmirik, hətta bəzi yoldaşlar mənə irad tutur ki, keçmişi qurdalayıram. Yox, mən keçmişi qurdalamıram , mən bir daha acı həqiqəti yadınıza salıram. Tək Volski deyil, o vaxt Balayan, Poqosyan və Dadamyan bizim respublikadan deputat seçilərək, Azərbaycan Respublikasına qarşı daha böyük satqınlıq etmək üçün böyük hüquqlar aldılar. İndi nəhayət, təşkilati komitə yaradılmışdır. Mən bir faktı da qeyd etmək istəyirəm : Volskinin idarəçiliyi vaxtında Stepanakertdən on beş min azərbaycanlı qovulmuşdur. Məni bir azərbaycanlı kimi dərindən hiddətləndirir və təhqir edir ki,mənim xalqımın bir hissəsi öz doğma yurdunda qaçqına çevrilmişdir. Bu günlərdə televiziya verilişindən xəbər tutdum ki, respublika prokuroru Stepanakertdə yandırılmış 250 azərbaycanlı evlərinə görə iş qaldırmışdır. Buna necə dözmək olar? Axı bu evlər 1988 -ci ildə yandırılmışdır. Niyə bu günə kimi biz bu cinayətlərə laqeyd qalmışıq. Bütün bunlar dəhşət hissi törədir, böyük həyəcan hissi yaradır. Hesab edirəm ki, hazırki Təşkilat Komitəsindən böyük fəaliiyyət tələb etmək çətindir. İndi mən hər hansı konkret təklif vermək istəmirəm. Hesab edirəm ki, deputatlar öz mülahizələriuni bildirməlidirlər. Müxtəlif fikiləri öyrəndikdən sonra həlledici və konkret tədbirlər qəbul etmək olar.Üç ildən artıq vaxt keçmişdir. Əgər gələcəkdə də bu yolla getsək, onda Dağlıq Qarabağda Azərbaycan hakimiyyətini daha bir neçə il bərpa edə bilməyəcəyik.Unutmayın ki, Dağlıq Qarabağ Fələstin məsələsinə çevrilə bilər. Bunu isə heç cür yaxına qoymaq olmaz.

**Üçüncüsü:** Azərbaycan Sovet Respublikasının varlığının 70 ili ərzində Ermənistan

mərkəzin himayədarlığından istifadə edərək bizim respublikamıza qarşı həmişə ərazi iddiaları qaldırmış, diversiya əməliyyatları aparmış , nəticədə bizim bir çox torpaqlarımız zəbt olunmuşdur. Bir həqiqəti də qeyd etmək lazımdır: Ermənistan həmşə istilaçı siyasət yürütmüş ,biz isə - həmişə müdafiə olunmuşuq , çox vaxt isə geri çəkilmişik. Elə indi də həmin mövqeni tuturuq.

Bu məsələni biz Naxçıvan Muxtar Respublikasının Ali Məclisində müzakirə etmişik. Aydın olmuşdur ki, 1929-cu ildən sonra Naxçıvan Respublikasının 625 kvadrat kilometr ərazisi, yəni doqquz kənd Ermənistana verilmişdir. Bu isə 62 min hektar kənd təsərrüfatı üçün yararlı torpaq deməkdir.

Burada Zəngilan rayonundan deputat Bədəlova çıxış etdi və Nüvədi kəndi haqqında danışdı. Digər deputat Zəngəzur , Göyçə mahalı haqqında danışdı.Burada dəqiq rəqəm demək istəmirəm. Bir neçə mütəxəssislər mənə demişlər ki, 1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kvadrat kilometr olmuşdur. İndi isə – cəmisi 86 min kvadrat kilometr. Bax, biz bu qədər torpaq itirmişik.

Əsrlər boyu Vətən, torpaq anlayışları bizim xalqın şərəf, ləyaqət, iftixarı olmuşdur. Öz torpağının müqəddəsliyini mudafiə etmək üçün xalq ölüm – dirim mübarizəsi aparmışdır.Bizim əcdadlarımız doğma torpağın hər qarışını şərəf simvolu kimi müdafiə edərək özlərinin və övladlarının həyatını torpaq yolunda verməyə hazır olmuşlar.

Təəssüf ki, biz bu ənənəni yaddan çıxarırıq. Daha buna dözmək olmaz. Odur ki təklif edirəm ki, təkcə Qarabağ məsələsini deyil,1920-ci ildən başlayaraq bu günə qədər Ermənistana verilmiş bütün torpaqların hesabını aparaq. Hansı dövrdə , sərhəddin hansı hissəsində, hansı torpaqlar verilmişdir.Müəyyən etmək lazımdır ki,hansı qərarlarla, kim tərəfindən bu torpaqlar verilmişdir. Bundan sonra Ermənistana qarşı biz müdafiə deyil, hücum mövqeyi tutmalıyıq, necə ki, burada deputatlar dedilər, verilmiş bütün torpaqların geri qaytarılması uğrunda mubarizə aparılmalıdır. İndi biz hücuma keçməliyik və mən də bu mübarizəyə hazıram. Əgər deputatlar razılıq verərlersə, bizim sessiya Ermənistanı təcavüzkar elan etməlidir. Biz bu haqqda xüsusi qərar qəbul etməli və onu bütün dünyaya elan etməliyik.

Burada soruşdular,bu torpaqları kim vermişdir.Mən təklif edirəm ki, bu məsələ aydınlaşdırılsın. Eyni zamanda arayış verə bilərəm ki ,14 iyul 1969-cu ildən (mən başa düşdüm ki, bu sualı nəyə görə mənə verdilər) mənin Azərbaycana rəhbərliyim dövründən 1982-ci ilin dekabrına kimi Azərbaycan torpaqlarının bir qarışı da Ermənistana verilməmişdir. Mən buna cavab verməyə hazıram və özümü ona görə çox xoşbəxt hesab edirəm ki, o dövrdə ermənilərin torpaq iddialarının qarşısını ala bildik. V. Polyaniçko dedi ki , Dağlıq Qarabağ məsələsi 1977-ci ildə də qalxmışdı.Bəli, qalxmışdı. Ancaq biz onda bu hərəkatın yerindəcə qarşısını aldıq.

**Diqqətinizə görə minnətdaram !**

**« VƏTƏN SƏSİ » qəzeti**
**27 fevral 1991-ci il № 9**

## *NƏ ÜÇÜN SUMQAYIT ?*
## *(situasion təhlil)*

Bir neçə gün bundan əvvəl respublika mətbuatından öyrəndim ki, Ermənistanda barbar hərəkətləri törədilmiş, böyük şair Səməd Vurğunun abidəsi dağıdılmış, aşıq sənətinin dahisi Ələsgərin qəbri təhqir edilmişdir. Bu vəhşiliklər, şübhəsiz ki, ekstremistlərin əməlidir. Mən həmişə demişəm və deyəcəyəm, bir ovuc əclafın əməllərini bütün erməni xalqının ayağına yazmaq olmaz.

Bu günlərdə mənim yerevanlı həmkarım professor P.Muradyan «akademik Bünyadova düşünmək üçün» qeydi ilə A.Hovhanesyanın Ermənistan KP.MK-nın orqanı «Kommunist» qəzetinin 2 noyabr 1988-ci il tarixli nömrəsində dərc edilmiş «Suayrıcı» sərlövhəli məqaləsini mənə göndərmişdir.

Əhməd Əhmədovun, İsmayıl İsmayılovun, Yavər Cəfərovun cinayət işi üzrə Moskvada məhkəmə iclasının gedişini nəql edən A. Hovhanesyan Sumqayıt hadisələrini öz bildiyi kimi şərh edərək ,onları erməni xalqının keçmişinə aid edib , bağlayır. Baxmayaraq ki, A.Hovhanesyan Azərbaycan ziyalılarına müraciət edərək onları 1988-ci ilin fevralında Sumqayıtda baş verən hadisələrə qiymət verməyə çağırır və dərhal belə bir şeyin mümkünlüyünü qətiyyətlə rədd edərək bəyan edir ki: «Bizə cavab lazım deyil. Cavab bizə aydındır».

Ancaq bu etiraza baxmayaraq ,mən Sumqayıtda baş verənlərin qərəzsiz təhlilini və belə bir sualın cavabını verməyə cəhd göstərəcəyəm . Sumqayıtda nə baş vermişdir, bu suala cavab verəcəyəm - nə üçün bu baş vermişdir, bu nə üçün haradasa özgə bir yerdə, Qarabağda deyil, halbuki, belə bir şey burada ağdamlı iki gəncin erməni milis nəfəri tərəfindən öldürülməsinə cavab ola bilərdi , başqa şəhərdə deyil, məhz Sumqayıtda baş vermişdir! Axı, bu şəhərin təməli xalqlar dostluğunun rəmzi kimi ümidverici mühakimələrlə salınmış və bu haqda çoxlu kitab və dissertasiyalar yazılmışdır?

Doğrudan da, nə üçün belə bir şey bizim ölkəmizdə, onun varlığının səkkizinci onilliyində baş verə bilmişdir.! Bu necə ola bilər, axı, biz uzun illər və onilliklər boyu müxtəlif səviyyələrdə xalqların, Lenin, yaxud Stalin dostluğundan , əbədi dostluqdan təmtaraqla danışmış, xalqlar dostluğu evləri yaratmış , hətta «Xalqlar dostluğu» ordeni icad etmişik. Yəqin ki, bezib cana doymuşuq , yoxsa «Barekamutyun»u («Xalqlar dostluğu»-İ.B.) «Bağramyan»la əvəz etmək nəyə lazımdı?Opponenet əvəzinə «Sumqayıt qırğınını törətmiş qara qüvvələr» kimi yayğın ibarələri dartıb gətirmək lazım deyil. Güya onlar Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin qüdrətli, ədalətli tələblərinə qarşı çıxmışlar (baxmayaraq ki, indi, nədənsə,bu şüar tərsinə -Ermənistanın Dağlıq Qarabağa birləşdirilməsi şəklində səslənir).

Bəs onda bu gün hansısa mifik «üç dəniz - Qara dəniz,Aralıq və Xəzər dənizi arasındakı erməni torpaqları»na iddia edən və vuruşan, qara qüvvələr - dumanlı başlar (onları başqa cür adlandırmaq olmaz) nə üçün baş qaldırmışlar? Axı erməni dövlətçiliyi 387-ci ildə, daha doğrusu, düz 1600 il bundan əvvəl ləğv edilmişdir (yaxşı yubileydir, elə deyilmi ? Bəlkə 1600 illik xülyalar Merujan Artsruninin törəmələrinə rahatlıq vermir? ) !

Erməni dövlətçiliyi Artsruni, Bağratuni, Mamikonyan, Amatuni, Bznuni nəsilləri və digər sparapet, azarapet , malxaz , tanuter, katapanlar arasında çarlıq şan-şöhrətinə iddia etmək , daimi tamah və mübahisələr nəticəsində yox olmuşdur. Məhz Ermənistanın dövlət kimi ləğv olunduğu vaxtlarda – IV əsrdə keçmiş haqqında xatirə kimi Buzadın,

Aqafangelin, Parpetsinin və Xorenatsinin « Erməni tarixləri » meydana çıxmışdır. Sonrakı erməni tarixçiləri - Artsruni, Sebeos ,Asoğik ,Taron,Vardan,Ani,Arekel,Anonim və başqaları artıq rəqabət aparan nəsillərin, müharibələrin tarixini, ərəblərin farsların və b. tarixini yazır,yalnız ötəri ermənilərin o dövrdə yaşadıqları və yaxud yaşamış olduqları torpaqları xatırladırlar. Əslində bu keçmiş haqqında bir növ «ağı» idi. Ancaq bütün bu «tarixlərdə» qırmızı xəttlə bir fikir keçir:-bütün yadellilər sadə erməni xalqını eyni dərəcədə qarət etmiş, lakin ermənilərin hakim dairələri və ruhaniləri həmişə imtiyazlardan istifadə etmişlər ,beləki yadelli hökmdarları varlandırmaqla, özləri də eyni dərəcədə müvəffəqiyyət qazanır, həmişə dövlətlənmiş və sərvət yığmışlar!

**Rusiya İmperator Akademiyasının müxbir üzvü, professor Kerop Patkanyanın yazdığı kimi, «Ermənistan heç vaxt bəşər tarixində xüsusi rol oynamamışdır. Bu siyasi termin deyil, erməni yaşayış məskənlərinin səpələndiyi coğrafi zonanın adıdır. Ermənilər həmişə yaşadıqlar torpaqların pis sahibi olmuş, ancaq öz güclü qonşularına baçarıqla xidmət etmişlər ».**

K.Patkanyan belə deyirdi. Doğrudan da, əgər biz səlcuqların yaxın və orta Şərq torpaqlarını fəth etdikləri dövrə nəzər salsaq , görərik ki, imtiyazlı millət hüququndan ancaq ermənilər bütünlüklə istifadə etmişlər.

Əbəs deyil ki, orta əsrlərin bütün erməni tarixçiləri ermənilərə kilsələr tikməyə və azad sahibkarlıq ticarəti ilə məşğul olmağa icazə verən «Məsihasevər» səlcuq sultanlarından danışırlar.

Ermənilər Azərbaycan Atabəylərinin, Elxanilərin,Cəlairilərin, Ağqoyunlu,Qaraqoyunlu sultanlarının, Səfəvilərin (1 Şah Abbasın hakimiyyətinin ilk illərini çıxmaqla) , Qaçarların hakimiyyəti dövründə də sakit yaşamışlar. Ermənilərin,Osmanlı sultanlarından da şikayət etməyə əsasları və haqları yoxdur. Erməni salnaməçilərinin yazılanlardan aydın olur ki, onlar ermənilərə həmişə səbr və təmkinlə yanaşmış, öz mülk və əmlaklarını qorumaq üçün Eçmiədzin ruhanilərinin sərəncamına qoşun da ayırmışlar. Sonuncu Osmanlı Sultanı II Əbdülhəmidin hakimiyyəti dövründə də ermənilər , xüsusilə, ermənilərin yüksək təbəqəsi yaxşı yaşamışdır.

Hər şey «Daşnaksutyun» partiyası yarandıqdan sonra dəyişmişdir. Bu patriyanın başında erməni komprador burjuaziyasının nümayəndələri dururdular .Onların ən tanınmış nümayəndələri II Əbdülhəmidin istəklisi məşhur Akon paşa və Nübar paşa idilər.Onlardan birincisi sultanın xəzinadarı, ikinci isə (Qarabağdan idi) hətta vəziri də olmuşdur.

Avropada ilk dəfə Türkiyədəki millətçi erməni təşkilatlarından 1885-ci ildə xəbər tutdular.Londonda qərarlaşan daşnaklar tarixdə ilk dəfə komitələrini yaratdılar,Fransada, İngiltərədə, Avstriyada və digər ölkələrdə gələcək erməni daşnak qruplarının yığnaqları oldu. XX əsrin əvvələrində Türkiyədə «Erməni icmasının xilaskarları» cəmiyyəti yaradıldı və onun daşnak başçıları müasir «Asala», «Krunk», « Qarabağ» və s. kimi , Türkiyənin bütün erməni əhalisindən «xilas naminə» məcburən pul topladılar.

Həmin erməni komitələri 1895—96-cı illərdə Türkiyədə elə bir şərait yaratdılar ki, bu, tezliklə Türkiyənin türk və erməni vətəndaşları arasında qarşılıqlı soyuqluğa və uzaqlaşmaya gətirib çıxardı. Həmin vaxtdan başlayaraq bu yadlaşma daşnaklar tərəfindən daha da qızışdırıldı.Türkiyənin imtiyazdan istifadə edən erməni ruhani

dairələrinə gəlincə, onların nümayəndələri düşmənçilik toxunmlarının güclü cücərti verməsi üçün və öz torpağında erməniləri yedirən, içirən dövlətə qarşı nifrətin daha da qızışdırılması üçün əllərindən gələni əsirgəmədilər.
Məhz həmin illərdə Qəbrdə ermənilərin «ağı»sının təsiri altında «erməni məsələsi» ortaya çıxdı.Utanıb-qızarmadan və vicdansızcasına Avropanın bütün künc-bucaqlarında «sıxışdırıcı» türklər haqqında şivən qoparan bir sürü təmtaraqlı demaqoqlar və erməni fədailəri meydana çıxdı.
Erməni millətçiləri bütün bu cəncəli Türkiyənin Balkanlardakı məğlubiyyətindən sonra və Qars, Ərzurum , Bitlis və Vanın çar qoşunları tərəfindən işğalı ərəfəsində qaldırdılar. Daşnaklar belə güman edirdilər ki, çar qoşunlarının təzyiqi altında türklər doğma yerlərini tərk edəcək və ermənilərə böyük var-dövlət çatacaq. Daşnak başçıları Türkiyədə əməkçi erməni əhalisini öz iyrənc fəaliyyətlərinə qoşmaq üçün, hətta belə alçaq işlərə- erməniləri öldürmək və sonra bunun günahı türklərin boynuna yıxmaq kimi əməllərə də əl atdılar. Türkiyədə millətlərarası qırğını qızışdıran daşnaklar İstambulun müttəfiqlər tərəfindən işğalına daha çox ümid bəsləyirdilər ki, bu da gələcək məqsədlərinə çatmaq üçün onların əl qolunu aça bilərdi.
Yuxarıda göstərilənlər Rusiyanın Van, Bitlis və Ərzurumdakı baş konsulu general Mayevskinin məlumatlarından götürülmüşdür.
Bu , A.Hovhanesyanın xatırladığı 1895-cı ilə cavabdır. Həmin müəllifin gətirdiyi başqa tarixə, daha doğrusu, 1915-cı ilə, heç olmasa qraf Vorontsov-Daşkovun ünvanına rus generallarından Nikolayevin 1 iyul 1915-ci il və Bolxovitinovun 9 iyul 1915- cı ildə yazdıqları məlumatlar cavab ola bilər.
Hər iki general erməni daşnak cütlüyü Tero və Xeçonun dinc türk sakinlərinə tutduqları divanı, terror və vəhşilikləri çox dəqiq xarekterizə edirdilər. Vanda rus qoşunlarının arxa cəbhəsində erməni daşnak çətəçilərinin sabotajı ona gətirib çıxarmışdı ki , rus komandanlığı sadəcə olaraq, onlara toplardan atəş açmağı əmr etmişdi.
Sonra. 1917-ci ilin yanvarında rus qoşunları Trabzon, Ərzurum və Bitlisdən çəkilərkən daşnak çətəçiləri burada dinc türk əhalisi üzərində əsl qırğın törətdilər. Generallardan Prjevalinskinin və Odişelidzenin məlumatları buna sübutdur. Sero Xanzadyanın güya 1918-ci ilin fevralında Ərzincanda həlak olmuş ermənilərə yas tutan son «tarixi» romanından daşnak həyasızlığının və abırsızlığının iyi gəlir. Axı, hər şey tamamilə tərsinə olmuşdur! General Odişelidzenin məlumatları və Rusiya Baş Qərargahının podpolkovniki Tverdoxlebovun xatirələri Ərzincanda Murad Sivasetinin komandası altında daşnak çətəcilərinin törətdikləri vəhşiliklərə şəhadət verən ən parlaq sənədlərdir. Demək olar ki, Ərzincanın ( yaxud Xanzadyanın adlandırdığı kimi Yerzinkanın) bütün əhalisi daşnaklar tərəfindən erməni kilsəsinin qarşısındakı meydana qovulmuş və yaxın evlərə doldurulmuş, orada doğranmış və yandırılmışdır.Ərzincanda və ətraf kəndlərdəki bu vəhşiliklərə görə günahı özlərindən uzaqlaşdırmaq üçün bütün daşnak bölmələri rus ordusuna məxsus hərbi forma geyinmişdi.
Daşnaklar Sarıqamışda da bu cür kütləvi vəhşiliklər törətmişlər. (yüzbaşılardan Morozov və Kazimirin məlumatları). Ancaq ən qəddar və qaniçən qanqster, əlbəttə tayqulaq çətəci Andranik olmuşdur. Onun Ərzrumdakı əməllərinin podpolkovnik Tverdoxlebov tam ətraflı qələmə almışdır.(bax : Azərbaycan SSR EA Xəbərləri ,tarix-fəlsəfə –hüquq seriyası, 1988, № 3).
Rus məmuru doktor Xoroşenkonun 21 may 1918-ci il tarixli məlumatı daşnakların

Axalkalakidə və ətraf kəndlərdə törətdikləri qanlı qırğın haqqında qiymətli sənəddir. Daşnaklar burada bir neçə yüz azərbaycanlını doğramışlar.

«XX əsrin mədəni ermənilərinin vəhşilikləri bax, belədir!» - deyə doktor Xoroşenko haray çəkir.

Düz 70 il bundan əvvəl daşnaklar Bakıda da qırğın törətmişlər. T.Əmiryanın , Avşalumyanın və Lalayanın başçılıq etdiyi quldur dəstələri Bakıda mindən artıq azərbaycanlını qırmış, şəhərdə çoxlu bina və evi talamiş və yandırmış , o cümlədən hazırda Elmlər Akademiyasının yerləşdiyi xeyriyyə cəmiyyəti- «Cəmiyyəti-Xeyriyyə» binasını dayandırmışlar. Yalnız Alyoşa Caparidzenin işə qarışması daşnakların sonrakı vəhşiliyinin qarşısını almışdır. Ancaq daşnaklar Bakıdan Şamaxıya keçərək ,daha böyük qanlı cinayətlər törətmişlər. 1920-ci ildə Mikoyanın təhriki ilə tayqulaq Andranikin və Hamazaspın bandaları Maku və Xoydan quldur səfərinə çıxaraq , Zəngəzur və Qarabağdan keçərək dinc azərbaycanlı əhalni qırmışdır. Əskəran yaxınlığında bu bandalar Azərbaycan qoşunları tərəfindən tar-mar edilmişdir.

İndi isə qayıdaq bizim günlərə.

1V əsrdə öz dövlətçiliyini itirən ermənilərə sovet hakimiyyəti 1921-ci ildə bu dövləti hədiyyə etdi və artıq 70 ildir ki , ermənilər digər 14 müttəfiq respublika vətəndaşlarının malik olduqları hər şeyə malikdirlər. SSRİ xalqlarının taleyinə düşən çətinlik və sevinclər eyni dərəcədə ermənilərə də aiddir. Yeri gəlmişkən, onlar başqa sovet respublikalarında da rahatca yerləşir və yaşaya bilirlər, halbuki bunu digər 14 müttəfiq respublikanın nümayəndələri haqqında demək olmaz.

Böyük Vətən Müharibəsində , ondan əvvəl və sonra SSRİ-nin bütün xalqları eyni şuarlar altında vahid ailədə dinc və yanaşı yaşadılar. SSRİ xalqları arasındakı dostluq muharibə illərində özünü xususilə göstərdi. Hitlerin təbliğatı da xalqlarımız arasındakı birliyi poza bilmədi. Mən öz-özümə həyəcanla belə bir sual verirəm: əgər ermənilər bu cəncəli müharibə zamanı çıxarsa idilər, necə olardı?! Şübhəsiz ki,cəbhə bir neçə gün ərzində dağılardı. Allaha şükür ki,belə bir şey olmadı!

Nəhayət , 1948-ci il gəlib çatdı. Kiminsə hiyləgər planına əsasən xaricdən minlərlə ermənінin Ermənistan SSR ərazisinə köçrülməsinə başlandı. Həm də demək olar ki, bunların hamısı Ayrikyan, Manuçaryan, yaxud «Daşnaksutyun» MK-sının üzvü Barunakın qızı kimi burnu ovulmuş daşnak yığını idi.

Elə həmin andan etibarən indi Ermənistan SSR-i təşkil edən torpaqlarda 500 – 600 ildən çox , artıq toplu halda yaşayan azərbaycanlıların öz yurd-yuvalarından sıxışdırılmasına və sıxışdırılıb çıxarılmasına başlandı. Bunu daşnakların indiki törəmələrinin vəhşicəsinə bütünlüklə məhv etdikləri qəbir daşları üzərindəki yazılar da subut edir. Azərbaycan kəndlərinin , toponim , hidronim və başqa adlarının başdan başa qeyri--qanuni dəyişdirilib erməni tələffüzünə uyğunlaşdırıması başlandı. Öz doğma torpaqlarından qovulan azərbaycanlıları Mikoyan , Beriya, Dekanozov və başqalarının bölgüsünə əsasən və Bağırovun razılığı ilə dağlıq yerlərə deyil, Azərbaycan SSR-in bürkülü , qızdırmalı İmişli, Füzuli və digər rayonlarında yerləşdirdilər. Əslində isə onlar Qarabağda yerləşdirilməliydilər, və onda Melkumyan və Gevorkov , sonra isə Poqosyan kimi daşnakların törətdikləri mənfurluqlar da bas tutmazdı.

Gəlmə ermənilətr tərəfindən yerli «axperlərin» ideoloji cəhətdən yavaş-yavaş tərbiyələndirilib, hazırlanması elə böyük vüsət aldı ki, axırda «üç dəniz arasındakı Ermənistan» şüarı yenidən qaldırıldı.

Marşal İon Antoneskonun şəxsi dostu Levon Karapet Palcyanın beynəlxalq erməni mafiyası tərəfindən yuksək vəzifəyə yerləşdirilməsindən sonra ermənilərin iddiaları özünün ən yüksək həddinə çatdı. Xaricdəki erməni maliyyə maqnatlarının və Palcyanın möizələrinin birbaşa təhrki altında davakar daşnak təbliğatı ilbəil güclənməyə başladı. Nəşrlərin baş-ayaq vakxanaliyası başlandı.Azərbaycan xalqına ilk ləkəni Karapet Palcyanın istəklisi «acınacaqlı » şəkildə cəhənnəmə vasil olmuş Paryur Kazaryan yaxdı. Onun ardınca B.Zorabyan, S. Xanzadyan, Azərbaycanın çörəyi ilə böyümüş B.Ulubabyan, Kalman gözəlinin adını daşıyan , qapı ustasının qızı və başqaları Azərbaycanın və azərbaycanlıların ünvanına söyüş və təhqirlər yağdıraraq meydana atıldılar. Silva isə tayqulaq Andraniki açıqdan-açığa yenidən mauzer götürməyə, azərbaycanlıları güllələməyə , hamilə qadınların qarnını yırtmağa çağırır, özünün də bu işdə ona kömək edəcəyini bildirir*. Necədir?! Cəhənnəmə vasil olmuş tayqıç «**Krunk»un**» xortladılmasına girişildi və o ürtülüb dağılmış yoluq qanadcıqlarını tərpətməyə başladı. Yerli primitiv, əldə böyümüş «inqilabi islahatçıların» xaricdəki erməni koloniyalarına səfərləri başladı və orada daşnak işbazları bütün abellərin beynini ali (seçilmiş) xalq ideyası ilə doldurdular.

Xaricdəki varlılar Aqanbekyan kimi tanınmış xadimləri yaxşı-yaxşı yedizdirərək , Qərb mətbuatında və hər cür yığınaqlarda Azərbaycan əleyhinə azğın təbliğat aparmaq üçün pul buraxdılar.

Xaricdəki və SSRİ-dəki erməni ticarət mafiyası öz adamlartını ölkəmizin yüksək hakimiyyət dairələrində bacarıqla yerləşdirmişdi. Artıq azərbaycanlılara qarşı surətlə hərəkət etmək və va bank etmək üçün yalnız əlverişli an, həmişə olduğu kimi ,inqilabi məqam seçmək lazım idi. Ölkədə elan olunan yenidənqurma və aşkarlıq 1V əsrdən qalmış xəyali məqsədlərin həyata keçirilməsi naminə hücuma başlamaq üçün əlverişli bəhanə oldu. Xaricdə yaradılmış və Yerevana köçmüş «Qarabağ» komitəsi 1988-ci iliin fevralında DQMV-nin Ermənistana birləşdirilməsi uğrunda bədnam yürüşə başladı. Bu yaxınlarda hansısa xadim demişdir: « Təəccüblüdür, mən elə bu saat gizlincə Qarabağda oldum və gördüm ki, orada hamı mənə bənzəyir!».

**Kiçik bir haşiyə.** 1978-ci ildə , yəni 10 il bundan əvvəl Leninavan kəndində (əvvəlki adı Marağaşendir) ilk 200 erməni ailəsinin Marağadan (Cənubi Azərbaycan) Qarabağa köçrülməsinin 150 illiyi şərəfinə (1828-ci ildə Türkmənçay müqaviləsi bağlandıqdan sonra) təntənəli şəkildə mərmər lövhə qoyulmuşdur.

Yəni , Marağaşenin erməni qəbristanlığındakı ən qədim məzar daşının yaşı 160 ildən artıq deyil.

Bəs onda Qarabağın Ermənistana hansı mənsubiyyətindən danışmaq olar?

Aşkarlıq və yenidənqurma cəhalətpərəst döyüşkən erməni davakarlarına gizli şəraitdən çıxmağa , əməksevər erməni xalqına hədə –qorxu gələrək onu günlərlə mitinq və tətil keçirməyə məcbur etməyə və artıq açıq surətdə fəaliyyət göstərməyə imkan verdi. «Krunk»un və «Qarabağ »ın xadimləri kilsənin fəal köməyi ilə uzun illər erməni əhalisindən pul yığmaqla məşğul idilər. Pul verməyənlər isə millətin düşməni və əfsanəvi «Böyük Ermənistan » yaradılmasının əleyhidarları elan olunurdular

*** Silva Kaputikyanın mənfur cızma-qaralarını çap edən «Drujba Narodov»jurnalının redaksiya heyətinin mövqeyi çox da aydın deyil. ( Z.Bünyadovun qeydi)**

İki azərbaycanlının öldürülməsindən sonra erməni çətəçiləri sərt surətdə cəzalandırılmalı idilər və onda daşnaklıq edən erməni millətçilərinin yüksək təbəqəsi törədilmiş cinayət üçün zərbəni özündən yayındırmaq məqsədi ilə çıxış yolu aramağa başladı. Krunkçular harada qalmaqal salmağın mümkün olduğunu dəqiqliklə ölçüb biçdilər. Onlar öz mənfur zərbələrini Sumqayıta endirdilər. Nə üçün Sumqayıta?! Çünki daşnaklar yenidən , özü də neçəinci dəfə idi ki, rəssam Vereşşaqinin «Müharibə apofeozu» tablosunu « erməni kəllələri » olan muasir fotoşəkilə çevirmək istəyirdilər.

Ancaq Sumqayıtda dava salmazdan əvvəl döyüşkən krunkçular şəhərin erməni əhalisindən pul topladılar, sonra ermənilərə əmanət kassalarından öz pullarını götürməyi tövsiyyə etdilər, pullu erməni işbazlarına şəhədən çıxmağı məsləhət gördülər.

Demək lazımdır ki ,Sumqayıt faciəsinə qədər şəhər artıq özünəməxsus ekoloji cəhənnəmə çevrilmişdi.Yeddi İttifaq Nazirliyi burada bütün ətrafı, hətta dənizin suyunu və Xəzərin bütün sahilini zəhərləyən ən zəhərli istehsalat müəsissələrini burada yerləşdirmişdi. Şəhər əhalisinin sayı limitçilər hesabına həddən ziyada artmış, onun gecəqonduları isə Nyu-Yorkun Harlemindən də pis vəziyyət almışdı .1970-ci ildən etibarən şəhər hakimiyyət orqanları burada ekoloji vəziyyətin yaxşılaşdırılması məsələləri ilə məşğul olmağı büsbütün dayandırılmışdırlar, onlar vəzifə nərdivanı ilə irəliləmək üçün Sumqayıtı trampilin sayaraq yalnız öz şəxsi işləri ilə məşğul olurdular.

İnsan həyatı üçün yaramayan bu şərait azmış kimi, Sumqayıta çoxlu keçmiş cinayətkarlar köçür, burda yaşayırdılar, faciə anında onların sayı 20 min nəfərdən artıq idi. Sumqayıt faciəsi erməni millətçiləri tərəfindən çox düşünülmüş şəkildə planlaşdırılmışdı. Onun başlamasına bir neçə saat qalmış erməni tele və fotoreportyopları gizlicə şəhərə girərək mırığa yatıb , gözləmişdilər. İlk cinayəti də özünü azərbaycanlı kimi qələmə verərək, şəxsən beş Sumqayıt ermənisini öldürmüş Qriqoryan adlı birisi törətmişdir.Sonrası isə, necə deyərlər, artıq «texnikanın işi» idi, çünki böyük kütlənin qabağını saxlamaq daha mümkün deyildi…

Üstəlik , Şelokovun dövründən bəri milisə nəinki silah, hətta adicə rezin dəyənək gəzdirmək də qadağan olunmuşdu. Ertəsi gün Stepanakert şəhərində «Sumqayıt genosudinin qurbanlarına » əvvəlcədən yonulmuş abudə ucaldılmışdır . Necədir?!

B.Zoriyanın «Arqumentı i faktı » qəzetində, S.Zolyanın və V.Şeynsin «Vek XX i mire» jurnalındakı goplamaları , A.Hovhanesyanın isə «Kommunist»dəki «Mədə sancıları» yazısı əslində normal insan münasibətlərin əleyhidarı olan ermənilərə tuşlanmalıdır.

A.Hovhanesyanın zəvzədiyi kimi , Azərbaycanda 400 gizli məscid-filan yoxdur. Quranın beşinci sürəsinə gəldikdə isə, o, Ərəbistan yarımadaşnda yaşayan Kaynuk tayfaları ilə mübarizə ilə əlaqədar olaraq 632-ci ildə deyilmişdir.

Yerevanlı həmkarın professor P.Muradyan mənə, bax, bu düşüncələri məsləhət görür. Mən də öz növbəmdə ona məsləhət görürəm ki, A.Hovhanesyanın bu suallarını özünə tərəf yönətsin: « Doğrudanmı heç nə dəyişməmişdir ? Doğrudanmı , 1895-ci ,1915-ci,1920-ci illərdən bəri heç nə dəyişməmişdir?»

**P.S. SSRİ Ali Sovetinin Rəyasət Heyətinin « Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə forması tətbiq edilməsi haqqında» Fərmanı Dağlıq Qarabağda vəziyyətin bir qədər sabitləşməsinə və çox elə asan olmasa da vilayətin erməni əhalisinin Düşüncə tərzinin dəyişəcəyinə müəyyən inam yaradır.**

(Təəssüf ki, A.Volski vəonun rəhbərlk etdiyi xüsusi idarə komitəsi bu inamı doğrultmadı, əksinə, DQMB-nin idarə olunması Azərbaycan SSR-nin tabeliyindən çıxarılandan sonra azərbaycanlalılar qədim Xankəndindən də vəhşiliklə qovuldular.Vilayətin azərbaycanlılar yaşayan kəndlərinə silahlı erməni basqınları gücləndi,həmin kəndlər mühasirəyə alındı, Kəlbəcərə gediş - gəliş tamam kəsildi. Düşmənçilik daha da qızışdırıldı , ermənilər daha güclü silahlandırıldı və azərbaycanlılar tərksilah olundu. Sonra da Xüsusi idarə komitəsi və onun sərəncamında olan sovet ordusu bölmələri , biri təpədən dırnağa silahlanmış və digərinin bıçağına qədər əlindən alınmış iki xalq arasında gedən qanlı müharibənin seyriçisinə çevrildilər---İslam Sadıq. «Acı həqiqətlər » kitabının redaktoru).

Qırx ildir ki, krunkçular son nəticədə « öz müqəddaratını təyin etməyə» aparan uzaqgörən ideyalarını adamların şüuruna yeritmişlər. Qırx il Musa peyğəmbər İsrailin övladlarını səhralarda gəzdirdi ki, onlar Misir əsirliyini unutsunlar, bütün əsir düşənlərin kökü kəsilsin ki, gələcək nəsillər köləlik haqqında heç nə bilməsinlər. Çalışacağıq ki, DQMV ilə bağlı hadisələrdə qırx il lazım gəlməsin.

SSRİ EA Afrika İnstitutunun direktor müavini A.M.Vasilyevin çıxışı ən azı təəccüblüdür. O bildirir: «Əgər biz, hər şeydən əvvəl , jurnalın («Narodı Azii i Afriki»---Z.B) tirajını artırmaq istəsək, bunu eləmək çox asandır: azərbaycanlıların və ermənilərin etnogenezi haqqında iki məqalə çap eləmək lazımdır. Digər «yağlı kökələr » də tapmaq olar. Doğrudan da , ayıb deyilmi ?.

M.Cunusovun « Smena » jurnalına (1989 , № 6) verdiyi müsahibə o qədər savadsızdır ki, hətta onun haqqında danışmağa da dəyməz. Hər halda nağıl süjetlərini elm adına sırımaq elmlər doktoruna yaşmaz. XV əsrin axırında xəritələrdə peyda olmuş bir dövlət cəmi 30 il yaşamış və IV əsrin ortalarında xəritələrdən silinmiş bir dövlətə qarşı nə cür «aramsız təcavüzlər» eləyə bilər?! Başdan - ayağa cəfəngiyyatdır! Doktor Cunusov, heç olmasa «Ateistin lüğəti» ni varaqlayın !

Akademik ZİYA BÜNYADOV
«ELM» qəzeti 13 may 1989 №19

Azərbaycan SSR EA Xəbərləri
Tarix, fəlsəfə , hüquq seriyası 1989, № 2
səh.115.

Ruscadan tərcümə etdi: İslam Bayramov

## *HƏQİQƏTİN BİR ÜZÜ VAR*

Otuz illik ədəbi fəaliyyətim ərzində mətbuat səhifələrində yüzlərlə çıxışım olub.Lakin həmin yazıların heç birində bu dəfəki qədər fikirləşməli , baş sındırmalı olmamışam.Bu qeydlərimi qələmə almaq üçün bir həftədən artıq vaxt lazım gəldi. Mənəvi sarsıntılarımızın, iztirablarımızın , həyəcanlarımızın səbəbi aydındır.Üçüncü ildir ki, erməni millətçiləri tərəfindən ortaya atılan qondarma Dağlıq Qarabağ problemi xalqımızın faciəsənə çevrilib, başımıza bəla olub. Məqsədim Dağlıq Qarabağ və onun ətrafında baş verən üzdəniraq hadisələrin külələri , kimlər tərəfindən ortaya atıldığı barədə mülahizələrimi söyləmək , oxuculara məlumat verməkdir......

1990-cı il aprelin ortalarında Dağlıq Qarabağ Muxtar Vilayətinin paytaxtına on günlük ezamiyyətə getməli oldum.

....Səhərəcən göz yummadım. Xəyallara daldım. Bakıda yaşadığım 18 il ərzində Dağlıq

Qarabağ Muxtar Vilayətinin paytaxtına müxtəlif vaxtlarda etdiyim səfərləri xatırladım...

1977-ci ilin noyabrında Azərbaycan Yazıçılar İttifaqının Dağlıq Qarabağ Muxtar Vilayətinin paytaxtında keçirdiyi səyyar plenumunu, plenum iştirakçılarının rayonlara səfərlərini, vilayətdə yaşayan erməni yazıçılarının dostluq , qardaşlıq haqqında çıxışlarını, məclislərdə söylədikləri sağlıqları xatırladım.Və o qənaətə gəldim ki, deyilənlərin hamısı ürəkdən yox, boğazdan gəlirmiş, süniymiş, saxtaymış.

Qeyd etməliyəm ki, bu mənim Dağlıq Qarabağ və onun ətrafında baş verən məlum hadisələr başlanandan , yəni 1988-ci ilin fevralından sonra Stepanakertə ilk səfərimdi.

Yaxşı yadımdadır. Həmin il fevralın 22-də Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsindən zəng vurub axşam Bakı - Gəncə qatarı ilə tarix elmləri doktoru Oktay Rzaquliyev, fizika-riyaziyyat elmləri doktoru Barat Nuriyev və fizika-riyaziyyat elmləri namizədi (hazırda elmlər doktoru) Vərqa Qələndərovla Şaumyan (indi Goranboy—red) rayonuna gedəcəyimizi bildirdilər. Azərbaycan SSR Elmlər Akademiyası Riyaziyyat İnsitutunun əməkdaşları Vərqa Qələndərov və Barat Nuriyev də erməni dilini yaxşı bilirdilər. Qədim adı Aşağı Ağcakənd olan, sonradan təzə ad verib yaratdığımız Şaumyan rayon partiya komitəsinin sabiq birinci katibi Rudolf Mirzoyev bizi mehribanlıqla qarşıladı və özünü elə göstərdi ki, güya bu saat , yəni fevralın 23-də Stepanakertdə dalğalanan insan dənizindən, erməni millətçilərinin Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycan SSR-dən qoparıb Ermənistana birləşdirmək kimi bədxah niyyətlərindən bu rayonun əhalisinin qətiyyən xəbəri yoxdur. Rayonda qaldığımız beş gün ərzində bir sıra erməni və Azərbaycan kəndlərində zəhmətkeşlərlə görüşdük,onların istək və arzuları ilə tanış olduq. Azərbaycan kəndlərində xalqın acınacaqlı vəziyyəti ilə qarşılaşdıq. Əsasən dağlıq ərazidə yerləşən kəndlərə nə əməlli başlı yol çəkilib, nə onların abadlığına yaxından fikir verilib , nə də əhalinin güzəranının yaxşılağdırılması qayğısına qalan olub. Kəndlərdəki klublar ,kitabxana, məktəb günün tələblərinə cavab vermir. Xəstəxana , həkim məntəqəsi , hamam ,mağaza və sair ictimai iaişə və məişət xidmətlərindən danışmağa belə dəyməz. Buradan o qənaətə gəldik ki, Dağlıq Qarabağın Azərbaycan kəndləri barədə yeridilən siyasət , insanların qayğısına qalmamaq , onların tələb və istəklərinə əməl etməmək , kəndlərin abadlaşdırılmasına ,sosial problemlərin həllinə fikir verməmək, yolların bərbad halda olması bu rayonun azərbaycanlılar yaşayan kəndləri üçün də xarakterikdir. İstər Dağlıq Qarabağ Muxtar Vilayətində, istərsə də Şaumyan kənd rayonunda eyni siyasət yeridilirdi. Azərbaycanlıları sıxışdıraraq vilayətin və rayonun ərazisindən, öz dədə - baba torpaqlarından didərgin salmaq, millətçi ermənilərin hər yerdə elan etdikləri kimi «Türksüz Artsax» və «Türksüz Şaumyan» yaratmaq.

Şaumyan rayonunun kəndlərindəki görüşlərimiz zamanı Dağlıq Qarabağ Muxtar Vilayətində baş verən hadisələri, nümayişləri, tətilləri pisləyən ,onların atdıqları addımların səhv olduğunu söyləyən ermənilərə də rast gəldik. Lakin sonradan aydın oldu ki, həmin günlərdə onlar tətil edib ,nümayişə çıxmasalar da Dağlıq Qarabağdakı millətçilərlə həmrəy olmuşlar. Sən demə , qondarma hadisələrə dirijorluq edənlər hiyləgər planlar cızıblarmış .Sən demə , rayonun partiya və sovet orqanlarının rəhbər işçilərinin hamısı «Krunk » və « Qarabağ» komitələrinin fəal üzvləri imiş. Əvvəlcə Dağlıq Qarabağ Muxtar Vilayətinin bir rayonu olmaq , sonra da vilayətlə birlikdə Ermənistan SSR-ə qovuşmaq barədə Şaumyan rayon soveti sessiyasının çıxardığı bədnam qərar dediklərimizə əyani misal deyilmi?

Rudolf Mirzoyevdən sonra raykomun birinci katibi seçilən , bir qrup rəhbər işçilərlə Çaykəndə silah apararkən milis işçiləri tərəfindən yaxalanan Ağacanyana necə inanmaq, etibar etmək olar? Rayonun erməni kəndlərinin əhatəsində olan , ekstremist yaraqlıların basqınlarına məruz qalan Şəfəq , Zeyvə ,Ballıqaya, Başqışlaq, Todan və Gürzalılar kəndlərində gecə –gündüz səksəkədə yaşayan azərbaycanlıların, doğmalarımızın təhlükəsizliyi , taleyi barədə kimlər düşünməlidir?

Görəsən , xalq yazıçısı el ağsaqqalı İsmayıl Şıxlının Azərbaycan SSR Ali Sovetinin sessiyasındakı təklifinə haçan əməl olunacaq? İsmayıl müəllim çox haqlı qeyd elədi ki, bu rayon 1930-cu ildə qeyri-qanuni yaradılıb. Ona görə də onun bu gün ləğv olunub kəndlərinin əvvəlki kimi Qasım İsmayılov (indiki Goranboy ) və Xanlar rayonuna verilməsi vacibdir.

Qatar məni Ağdama , xəyallarım isə lap uzaqlara ararır. Xatirələrin cığırı ilə ömrümün mərhələlərinə yollanıram. Orta məktəbi bitirincə doğulduğum qədim diyarda , Göyçə mahalında ( hazırda hamımız üçün xəyala çevrilmiş mahalda) , 1955-ci ildən 1972-ci elədək qonşu respublikanın paytaxtında yaşamışam. Orada ali məktəbi bitirmiş, televiziya və radio verilişləri komitəsində 12 il əməkdaşlıq etmiş , 1972-ci ildən isə taleyimi əbədi olaraq Odlar yurdunun paytaxtı ilə başlamışam. İrəvanda yaşadığım 17 il ərzində nələr görməmişəm……

Bu günki murəkkəb hadisələrin də əsası , təməli məhz 25-30 il əvvəl orada, Yerevanda qoyulmuşdur. Elə bu gün də bu hadisələrin dirijorluğunu da Ermənistan eləyir. Mənə elə gəlir ki, hər şey 1965-ci ildən başlanmışdır. Həmin ilin əvvəlində başkəsən , qaniçən Andranik Ozanyanın anadan olmasının 100 illiyi geniş qeyd edildi. Yaxşı yadımdadır. A.Spendiarov adına Yerevan Opera və Balet Teatrının binasında təntənəli yubiley gecəsi keçirildi. Qəzetlər həmin yubileyə xüsisi nömrələr və səhifələr həsr eləmişdilər. Respublikada Azərbaycan dilində dərc olunan ( həftədə üç nömrə) « Sovet Ermənistanı » qəzeti Andanikin şəklini və bir səhifə yazı vermişdi. Bakıda təhsil aldığı illərdə Mikayıl Müşviqlə, Məmməd Rahimlə yaxından dost olmuş , Hüseyn Caviddən dərs almış , respublikanın qabaqcıl ziyalı qadınlarından Siddiqə Qədimova ilə birlikdə Azərbaycan dilində verilişlər redaksiyasında diktor işləyirdim. Səhər tezdən «Sovet Ermənistanı » qəzetinin xülasəsi efirə gedirdi. Xülasədə bir abzas Andranikin 100 illiyinə həsr olunmuşdu.Siddiqə xanım həmin abzası oxumadı. Sonradan redaksiyada bizə bildirdilər ki, Mərkəzi Komitənin göstərişi ilə «Sovet Ermənistanı»ndakı məqalə axşam ixtisarla yarım saat oxunmalıdır. Siddiqə xanım məni kənara çağırıb bildirdi ki, axşam məqaləni oxumaqdan imtina edir. Mən də oxuyan deyiləm – deyə söylədim. Qədimova dərhal çıxış yolu tapdı. : « Əli dadaş , efiri yarım saat boş saxlamağa haqqımız yoxdur. Odur ki , sən get redaksiyadan xəbərsiz, fonetekadan «Koroğlu» və «Şah İsmayıl» operalarından yarım saatlıq ariyalar seçib studiyaya göndərtdir. Son xəbərləri oxuduqdan sonra həmin konserti elan edərik. Bunun üçün yalnız mən cavab verməliyəm, vəssalam». Qərara gəldiyimiz kimi , məqaləni oxumadıq.

Yarım saat Azərbaycanın qəhrəmanlıq operalarından ariyalar səsləndi.

Siddiqə xanım verilişdən sonra mənə bildirdi ki, bu məsələ ilə əlaqədar komitənin rəhbərliyi xəbər tutsa və bizi çağırsalar heç nə deməyim, onun özü cavabını verəcək. Səhərisi gün hər ikimizə bildirdilər ki, dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri bizi çağırır.

İçəri girəndə sədrin müavini ilə partiya təşkilatı katibinin də orada olduqlarını

gördük. Siddiqə xanım içəri girən kimi onlara imkan vermədən bildirdi: «Bilirəm nəyə çağırmısınız. Özgə cür hərəkət edə bilməzdik. Elə bu gün yazıb Mərkəzi Komitəyə bildirin ki, xalqımın yüz minlərlə günahsız övladının qanını tökən başkəsən Andranik haqqında məqaləni oxumadığıma görə mənim Sov. İKP sıralarından xaric olunmağım barədə qərar versinər, vəssalam ».Siddiqə xanım onların cavabını gözləmədən kabinetdən çıxdı.Bu hadisədən redaksiyamızın işçiləri on illər sonra xəbər tutdular.
Andranikin anadan olmasının 100 illik yubileyindən ,1 915-ci ilin aprelində Türkiyədə öldürülmüş ermənilərin ( guya milyon yarım) xatirəsinə Yerevanda abidənin açılışından sonra Dağlıq Qarabağda «Krunk » , Ermənistanda isə «Qarabağ» komitələri yaranıb fəaliyyətə başladılar. « Böyük Ermənistan » yaratmaq uğrunda mübarizəyə cağırış vərəqələri də elə o zamandan çap olunub yayıldı.
…..Qatar mənzilə doğru yolunu davam etdirir. Ağdama hələ xeyli qalır.Mən isə özümlə müsahibəni davam etdirirəm.
«Böyük Ermənistan» yaratmaq və türklərdən qisas almaq ideyasını aşılayan gizli vərəqələrin yayılmasının da şahidi olmuşam. 1965-ci ilin mart ayı idi. Yerevandakı Böyük Konsert Salonunda ( hazırda Aram Xaçaturyan adınadır) Şövkət Ələkbərovanın konserti olmalı idi. Xalq artisti Şövkət xanımın böyük şəkli olan afişalar çox yerdə vurulmuş, çox yerdən asılmışdı. Yerevanın Lenin adına meydanına yaxın bir yerdə afişanın üzərinə yapışdırılmış vərəqə diqqətimi cəlb etdi. Bu dənizdən – dənizə «Böyük Ermənistan»ın qırmızı rənglə çəkilmiş xəritəsi idi. Xəritənin içərisində ermənicə bu sözlər yazılmışdı: « Ermənilər….1915-ci ilin 24 aprel gününü , milyon yarım erməninin türklər tərəfindən vəhşicəsinə öldürüldüyü faciə gününü unutmayın ! Böyük Ermənistan uğrunda qana-qana! Qana qan ! Qana qan ! Qana qan ! … » .

Bu gün Azərbaycanın Ermənistanla sərhəd rayonlarında erməni saqqallılarının kəndlərimizə basqınları , evlərin yandırılması, günahsız öldürülən insanlar,körpülərin, dəmir yollarının partladılması məhz həmin qisasçılıq çağırışının həyata keçirilməsi, torpaq
iddiasına düşmək , bədnam niyyətin həqiqətə çevrilimısi uğrunda yürüş deyilmi?

Səhər tezdən qatar Ağdama çatdı. Müvəqqəti olaraq özümlə müsahibəni dayandırıram. Taksiyə əyləşib Ağdamda yerləşən hərbi komendaturaya yollanıram. Mən Ağdamdan Stepanakertə mütləq hərbiçilərin müşayəti ilə getməliyəm.

Erməni dilində «Xorhurdayin Qarabağ » ( Şura Qarabağı ) və rusca « Sovetakan Karabax » vilayət qəzetlərini vərəqlədikcə adam dəhşətə gəlir. Həmin qəzetlərin Azərbaycan Respublikasında çap olunduğuna inana bilmirsən. Əslində bu qəzetlər iki dildə çıxan eyni məzmunlu qəzet olmalıdır. Amma təəssüf ki, erməni dilindəki qəzetdə verilən bir çox yazılar rusca çıxan qəzetdə dərc olunmur. Çinki redaksiyanın əməkdaşları üçün belə sərfəlidir. Axı qəzetin ruscasını komendantlar da oxuyurlar .

Qəzet indiki şəkildə demək olar ki, Ermənistan Respublikasının mətbuat orqanıdır və həmin respublikanın mənafeyini müdafiə edir , erməni millətçiləri üçün dərc olunur. Əvvala, qəzetin titulu çox qəribə verilmişdir: « Dağlıq Qarabağ Muxtar Vilayəti Partiya Komitəsi və Vilayət Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin orqanı». Deməli, millətçi redaksiya işçilərinə « Azərbaycan Kommunist Partiyası » sözlərini titulun əvvəlinə əlavə etmək sərfəli deyildir. Ona görə də aprel ayının nömrələrini nəzərdən keçirəndə Ermənpresin yüzlərcə informasiya və məlumatına , Ermənistandan onlarca yazıya rast gəldiyim halda, Azərinformun bir misrasına belə təsadüf etmədim. Qəzetin

səhifələrində Azərbaycan, Bakı , Azərbaycan xalqı sözlərinə yaxud azərbaycanlı imzasına rast gəlmək qeyri- mümkündür. Elə bil əməkdaşlar bu barədə and içiblər və öz andlarına sadiq qalırlar. Hər bir yazının ruhunu əsas etibarı ilə Artsax diyarı , onun ana Ermənistana qovuşmasını tərənnüm edən yazılar təşkil edir.

«Şura Qarabağı » qəzetində verilmiş məqalə və musahibələrdən belə çıxır ki , guya Stepanakert süd kombinatı Yerevan Süd İstehsalat Birliyinin müəssisəsidir. Eyni zamanda Stepanakert Tikinti Materalları Kombinatı Ermənistanın Tikinti Materialları Nazirliyinə məxsusdur. «Azərbaycan SSR-in 6 0 illiyi adına Stepanakert Pedağoji İnsitututu isə Kiovakan Pedağoji İnsitututunun filialıdır.... .( **Şura Qarabağı , 14 aprel 1990-cı il ) .**

Qəzet heç nədən çəkinmədən həyasızcasına yazırdı ki, keçən il Kirovakan Pedağoji İnsitututunun Stepanakertdəki filialında erməni məktəblərində rus dili tədris edən müəllimlər hazırlayan xüsusi fakültə açılmış , bu il isə üzvi kimya fakultəsinin açılması nəzərdə tutulmuşdur.1991-1992- ci tədris ilində coğrafiya fakultəsinin açılması barədə məsələ qaldırılacaq».

Təəccüblü də olsa bütün bunlar Azərbaycan SSR Xalq Təhsili Nazirliyi tərəfindən deyil, qonşu respublikanın eyni adlı nazirliyinin qərar və göstərişləri ilə həyata keçrilir.

Qəzetin həmin nömrəsində verilmiş müsahibədən aydın olur ki, Şaumyan (kənd) rayon xalq təhsili şöbəsinin və **Xanlar rayonundakı Çaykənd (erməni mətbuatında kəndin adı Gedaşen yazılır) məktəb kollektivinin xahişi Vilayət Xalq Təhsili İdarəsinin yığıncağında muzakirə olunaraq 1990-cı il yanvarın 1-dən həmin rayon şöbəsi və Dağlıq Qarabağ Muxtar Vilayətinə tabe edilmişdir**.

**Adam oxuyur , nə gözlərinə inanır, nə də ağlına, yaddaşına sığışdıra bilir.**

Məlum hadisələrdən sonra Vilayətdə hər şeyin adı dəyişdirilib. Şəhərlərdə küçələrin, rayonlarda kəndlərin, idarə və müəssisələrin , hətta qəzetlərin də . Məsələn, «Sovetakan Qarabağ » indi « Xorhurdayin Qarabağ » yəni Sovet Qarabağı deyil , Şura Qarabağı , «Barekamutyun » ( Dostluq ) adlı Mardakert rayon qəzeti «Craberd» ,«Koldendesakan» (Kolxozçu) adlı Hadrut rayon qəzeti isə «Dizak» adlandırılmışdır. Stepanakert Dövlət Dram Teatrı indi Vahram Papazyanın adını daşıyır.

Bu ilin fevralında Andranik Ozanyanın anadan olmasının 125 illiyi Dağlıq Qarabağda geniş qeyd olunmuş , Stepanakertin küçələrindən birinə onun adı verilmişdir. Qeyd etməliyəm ki, vilayətin rayonlarında - Hadrutda, Mardakertdə ,Əskəranda və Martunidə çıxan ermənicə rayon qəzetlərində də titulda «Azərbaycan Kommunist Partiyası» sözləri « yaddan » çıxmışdır.

Təşkilat Komitəsinin ünvanına Vilnüsdən Varsenik Hamparsumyanın göndərdiyi məktubu həyəcansız oxumaq olmur : « Mən Ermənistanda və Dağlıq Qarabağda yaşayan bütün millətçi ermənilərə nifrət edirəm. Mən Bakıda yaşamışam. Xoşbəxtəm ki, erməni dilini bilmirəm. Ermənistanda və Dağlıq Qarabağ erməniləri Bakıda yaşayan ermənilərin evini yıxdılar. Onların da balaları mənim balalarımın gününə düşünlər».

Dağlıq Qarabağ Muxtar Vilayətindən qayıdandan sonra «Azərbaycan gəncləri» qəzetinin 1990-cı il 19 aprel tarixli nömrəsi əlimə düşdü. Fizika - riyaziyyat elmləri doktoru Vidadi Əliyevin « Dəyanət timsalı – Kərkicahan » adlı məqaləsini maraqla oxudum. Hörmətli alimin məqaləsi Kərkicahanda gördüklərimin təsdiqi, şərhi oldu.

«Bura vətəndir» rubrikasından verilmiş məqaləni yəqin ki, Vidadi Əliyev həyəcanla,

ürək ağrısı ilə yazmışdır : «Mərdlik və qoçaqlıqda ad çıxarmış kərkicahanlıları son iki ildə tanımayan az tapılar. Onlar haqqında televiziya ekranlarında, radio dalğalarında, mətbuatda məlumat verildi. Millətçi ünsürlərin bu kənddə ağır cinayətlər törətdiyinə görə yox , gecəyarıdan səhərəcən sayca xeyli çox olan ekstemistlərin hücumlarını dəf etdiklərinə görə yox , məhz doğma yurdu atmadıqlarına , mərdlik və dəyanət nümunəsi göstərdiklərinə görə .

Kərkicahanı haqlı olaraq Qarabağın Stalinqradı adlandırmaq olar. Vilayətin 60-a yaxın azərbaycanlılar yaşayan kəndində gərginliyin apogeyə çatdığı bir vaxtda hadisələri həyəcanla izləyirdik : görəsən fitnə –fəsad ocağına cevrilmiş Stepanakertin təzyiqinə Kərkicahan necə cavab verəcək? Cavab verdi və qəti bildirdi ki, bu torpağın əsl sahiblərini heç bir oyunbazlıqla yerindən oynatmaq mümkün deyil. Kərkicahanlılar doğma yurdda qaldılar və həyat tərzinə görə dəyanət timsalı oldular».

Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Əskəran, Hadrut, Mardakert, Martuni rayonlarının və Stepanakert şəhərinin inzibati-ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında Azərbacan SSR Ali Soveti Rəyasət Heyətinin 1990-cı il 21 aprel tarixli fərmanına əsasən Stepanakert şəhərinin Kərkicahan yaşayış massivinin şəhər tipli qəsəbələr kateqoriyasına aid edilməsi və Stepanakert şəhər Sovetinin tərkibində Kərkicahan qəsəbə sovetinin yaradılması xəbəri zənnimcə hamı kimi Vidadi müəllimi də sevindirmişdir.

Erməni millətçiləri , ekstremistlər istər ölkəmizdə , istərsə də bütün dünyada xalqımızı ləkələmək ,ona qarşı nifrət hissi oyatmaq üçün Ümumittifaq mətbuatından və digər vasitələrdən geniş istifadə edirlər. Hadrutda çıxan « Dizak » adlı rayon qəzetinin 1990-cı il 3 mart tarixli nömrəsinin birinci səhifəsində oxuyuruq: «Bu il yanvarın 11-də azərbaycanlı milis işçisinin namərdcəsinə atdığı güllə leytenant İqor Tsimbalyukun ömür telini qırdı. 22 yaşlı leytenant bizim rayonun Axullu kəndində , öz əskəri borcunu yerinə yetirərkən həlak oldu. Əskərin günahsız ölümü azad fikirli , mütərəqqi insanları sarsıtdı. Bu günlərdə Edilli kənd sovetliyinin ünvanına uzaq Voronejdən məktub gəlmişdir.Görün həkim Lyubov Frolova nə yazır: «Azərbaycan hökuməti öz respublikasında elə bir şərait yaratmışdır ki, orada yüzlərlə erməninin qanı tökülür, hərbi qulluqçular həlak olurlar. Onların belə qəddar addımlar atmalarına , faciələr törətmələrinə kim icazə verib ? Bir şey aydındır. Həmin qırğınlar yenidənqurmanın düşmənləri tərəfindən törədilir. Azərbaycan KP MK–nın keçmiş birinci katibi Ə.Vəzirov məhz belələrindəndir. Həlak olan bütün ermənilər, hərbi qulluqçular və digər qırğınlar üçün Vəzirov şəxsən məsuliyyət daşıyır və gunahkardır ».

İqorun valideynlərinin ermənilərə , xusisən Dağlıq Qarabağ ermənilərinə məhəbbət hissi ilə yazılmış razılıq məktubu isə « Şura Qarabağı » qəzetinin 1990-cı il 11 aprel tarixli nömrəsində , habelə «Sovetakan Karabax»da dərc olunmuşdur. Məktubda İqorun faciəli ölümü ilə əlaqədar verdikləri başsağlığına görə ermənilərə minnətdarlıq, azərbaycanlılara isə nifrət hissləri əsas yer tutur .

Hər şey aydındır. Millətçi ünsürlər öz günahlarını başqalarının üstünə yıxmaq üçün bütün Voroneji Azərbaycan xalqının əleyhinə ayağa qaldırmaq istəmişlər.Təşkil etdikləri məktubları qəzetlərdə çap eləyib xalqımızı qaniçən, başkəsən kimi qələmə veməyə çalışmışlar. Belə yerdə atalar yaxşı deyib: «Adımı sənə qoyum, səni yana-yana qoyum». Görəsən , Voronejə məktublar yazıb bizi adamöldürənlər adlandıranlar, niyə həqiqəti yazmır, öz gözlərində tiri görməyib, başqalarının gözündə tük axtarırlar?

Leytenant İqor Tsimbalyukun ölümündə məhz erməni millətçiləri günahkar deyilmi? Niyə yazmırlar ki , Dağlıq Qarabağda fövqalədə vəziyyət məhz onların günahı üzündən, Azərbaycanın qədim torpaqını , ürəyinin bir parçasını zorla Ermənistana birləşdirmək, azərbaycanlıları öz dədə –baba yurdlarından - vilayətin şəhər və kəndlərindən qovmaq istədiklərinə görə tətbiq olunmuşdur. İqor da əliyalın azərbaycanlıları saqqallı erməni yaraqlılarından qorumaq üçün Dağlıq Qarabağa gəlmişdir. Niyə yazmırlar ki, körpüləri, dəmiryol xəttlərini , dostluq abidələrini partladanlar,Azərbaycanın Ermənistanla həmsərhədd kəndlərinə basqın edənlər , Qazax rayonunda beş nəfər ailə üzvünü (ikiaylıq körpə ilə birgə) evə doldurub yandıranlar , Gədəbəy raonunda 6 nəfər azərbaycanlını vəhşicəsinə öldürənlər, vertalyotla unun içərisində Azərbaycana odlu silah daşıyanlar, Artaşatdan Stepanakertə dəmiryolu vaqonunda tikinti materialı ilə birgə «Yer –Yer» raketini göndərənlər, Ermənistan Dövlət Təhlükəsizliyi Komitəsi binasına , rayon milis idarələrinə , hərbi sursat ambarlarına quldurcasına basqın edərək, silah ələ keçirənlər, tez-tez növbədənkənar sessiya çağırıb DQMV-nin Ermənistana qatılması barədə bədnam qərar çıxaranlar azərbaycanlılar deyil, özlərini mələk donunda göstərməyə çalışan « fəlakətlər görmüş » yazıq ermənilərdir?

Məlumdur ki, Dağlıq Qarabağ Muxtar Vilayətinin hər yerində transliyasiya olunan Ermənistan televiziyasının verilişləri, eləcə də vilayətin televiziya proqramı millətlərarası ədavəti qızışıdırmaq, Arsax diyarının «Ana Ermənistana » birləşməsinə kömək etmək işində başlıca rol oynamışdır. Bütün bunları nəzərə alan Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə fövqalədə vəziyyət rayonunun komendantı, general-mayor V.Safonov Ermənistandan televiziya və radio verilişlərinin hələlik dayandırılması , Stepanakert televiziya proqramlarının müvəqqəti bağlanılması barədə sərəncam vermişdir.

Aprelin 18-də Stepanakertdə Azərbaycanın Ermənistanla sərhədd on beş rayon partiya komitələri birinci katiblərinin iştirakı ilə mal-qaranın yaylaqlara köçürülməsi , çobanların təhlükəsizliyinin təmin olunması məsələlərinə həsr olunmuş muşavirə keçrildi. Bu vacib məsələ ilə əlaqədar müvafiq tədbirlər proqramı hazırlandı.

Vilayət Partiya Komitəsi binasının qarşısında xidmət maşınlarının çoxaldığını ,orada hansı bir tədbirinsə keçrildiyini hiss edən bir qrup millətçi ekstremistlər binaya tərəf axışıb gəldilər və maşınları daşa basdılar. Onların bəd niyyətləri - nümayişə çıxmaq , mitinq keçirmək cəhdləri baş tutmadı.

Azərbaycanın suverenliyi haqqında qanunun respublika Ali Sovetinin növbədənkənar sessiyasında təsdiq olunması Ermənistandan olan « ideoloqları» yaman təşvişə salmışdır. Qatı millətçilər ,daşnak partiyasının tör-töküntüləri Azərbaycan SSR-in SSRİ–nin tərkibindən çıxacağından, guya bununla da Dağlıq Qarabağ «probleminin» ermənilərin xeyrinə həllinin yarımçıq qalacağından hədsiz dərəcədə qorxurlar.

Xaricdə yaşayan ermənilərlə mədəni əlaqələr komitəsinin orqanı «Hayreniki dzayn» (Vətənin səsi) qəzetinin 1 noyabr 1989-cu il tarixli nömrəsində H.Hakopyan adlı birisi məsələyə siyasi don geyindirməyə çalışır. O yazır : «İlk tanışlıqdan dərhal o

qənaətə gəlirsən ki, Azərbaycan SSR Ali Sovetinin növbədənkənar sessiyası həmin qanunu məhz Dağlıq Qarabağ məsələsinə görə Azərbaycan Xalq Cəbhəsinin təkidi və diqtəsi ilə qəbul etmişdir ». Böhtanlar və təhriflərlə dolu məqalənin müəllifi elə mülahizələr yürüdür ki, necə deyərlər «bişmiş toyuğun gulməyi gəlir»: «Azərbaycanın suverenliyi haqqında Konstitutsiya qanunu » bir tərəfdən Azərbaycan SSR-in SSRİ -nin tərkibindən çşxması ilə mərkəzi hökuməti qorxutmaq,digər tərəfdən isəArsax ermənilərinin öz talelərini özlərinin həll etməsi işinə mane olmaq deməkdir.

Həm də qanunun müəllifləri elə zənn edirlər ki, SSRİ-nin tərkibindən çıxmaq yeganə və axırıncı vasitədir. Elə isə Azərbaycana kim icazə verir ki, zəbt olunmuş erməni topaqlarının - Arsaxın və Naxçıvanın məsələsi gundəlikdən çıxarılsın və « müstəqilliyə çıxmış » Azərbaycan onları da özü ilə aparsın? » Təəssüf ki , Hakopyan tək deyil. Ermənistan Yazıçılar İttifaqının orqanı olan «Qrakan tert» (Ədəbiyyat qəzeti ) qəzetinin 1989-cu il 29 sentyabr tarixli nömrəsində Q.Asatryanın « Azərbaycan coğrafi adı , azəri dili və buna bənzər bəzi məsələlər barədə» adlı məqaləsi dərc olunmuşdur. Qeyd etmək lazımdır ki, məqaləni yazmaqda müəllifin məqsədi xalqımızın mövcudluğunu , dilimizi danmaq ,bir sözlə tarixi həqiqətləri təhrif etmək olmuşdur: « Azərbaycan İranın şimal şərqində qədim mahallardan biridir », deyən Asatryan , azərbaycanlıların Ərdəbildə , sonralar Təbrizdə yaşadığını bildirir .Təbrizin isə erməni mənbələrində Davrej adlandırıldığını söyləyir. Başıbəla «alim» qeyd edir ki, azərbaycanlıların ana dili fars dili olmuş, azəri dili isə talış və kürd dilləri qrupuna mənsub bir dil kimi sonralar meydana gəlmişdir.Güya Azərbaycan adlı bir dövlət mövcud olmamış, xalqımız isə tarixdə Qafqaz tatarları adı ilə tanınmışdır.Ağa qara deyən müəllif bir az da «qabağa» gedərək göstərir ki, hazırda Azərbaycan SSR-in ərazisində yaşayan azərbaycanlılar gəlmədilər. Asatryanın sərsəmlənməsinə görə, biz azərbaycanlılar Nizamiyə , Nəsimiyə , Fizuliyə, Babəkə yalandan sahib çıxmışıq , onların heç biri bizim xalqın övladları deyil.

«Qrakan tert» qəzetinin 1987-ci il 20 noyabr tarixli nömrəsində Sero Xanzadyanın «Mənim qəlbimin şairi » adlı məqaləsi Sayat Novanın anadan olmasının 275 illiyinə həsr olunmuşdur. Müəllif yazır: «Sayat Nova Şimali Ermənistanın Şamaxı şəhərinin yaxşı tanıyırdı. Bir neçə dəfə orada olmuşdu. XVIII əsrdə yalnız ermənilər yaşayan Şamaxıda həm də səhəngqayırma ilə məşğul olurdular». Məqalədəki ağ yalan təkcə bu olsaydı dərd yarı idi. Müəllif Sayat Novanın əsərlərində adları çəkilən Fərhad və Şirin haqqında görün nələr yazır: «Onların (yəni Fərhadla Şirini –Ə.V.) fars şairləri Nizami və Nəvai öz əsərləri ilə əbədiləşdirilmişdirmişlər. Bu müəlliflərə görə Fərhad fars, Şirin isə ermənidir».

S. Xanzandyan Sayat Novanın şerlərində adlarına rast gəldiyi Məcnun və Leyli barədə də « yenilik» yaradır: Fars şairləri Nizami , Füzuli və Nəvai öz poemalarını bu məhəbbət dastanı əsasında yaratmışlar. Bunların əks-sədası orta əsr erməni poeziyasında da müşahidə olunur ». Qoca vaxtında öz xalqını uçuruma aparan belə «ağsaqqala nə dəyəsən?.

«Qrakan tert» qəzetinin 1988- ci il 3 iyun tarixli nömrəsində Ermənistan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi Ruben Hovsepyan «XIX Ümumittifaq partiya konfransı qarşısında» məqaləsində Dağlıq Qarabağ hadisələrindən yan keçə bilmir. Hər hansı bir hərəkətimizi düşündüyü kimi təhrif edir: « Ürəyimizi ağrıdan bir məsələ ilə heç cür barışa bilmirik. Təəccüblü də olsa Sumqayıt hadisələrindən dərhal sonra Anar bir qrup

yoldaşlarla Türkiyəyə səfərə çıxdı. Kim bilir, bəlkə də orada əyyaşlarla görüşdü? Bu səfər əvvəlcədən nəzərdə tutulmuş olsa da , ondan imtina etmək cəsarət tələb edirdi. Özü də görün Anar haraya getdi ? Türkiyəyə.. Hansı ki, həmin olkənin sakini Orxan Qarakazım son vaxtlar demişdi: «Allah ermənilərin taleyini türk xalqına tapşırıb. Yaxşı bilin ki, nə Xristos, nə də özgə bir xalq sizi bizim əlimizdən ala bilməz».
Yəqin ki, qardaşımız , yazıçı Anar Türkiyədə Orxanı, orxanları tapıb onlarla dərdləşib…»Yerevanda çıxan «Avanqard» qəzetinin 1988-ci il 12 iyun tarixli nömrəsində S.Avakyan «Erməni mədəniyyətinin müqəddəs ocağı» adlı məqaləsində Şuşanı Ermənistanın qədim mahallarından biri kimi təqdim edir.
Dağlıq Qarabağ Muxtar Vilayətini Ermənistanın ayrılmaz bir parçası ,onun torpağı kimi qələmə verənlər muxtəlif üsullara əl atırlar. Ermənistandan gəlmiş kino işçilərinin Dağlıq Qarabağın erməni sakinləri üçün SSRİ xalq artisti Frunze Dövlatyanın çəkdiyi « Tənha cövüz ağacı » filmini nümayiş etdirməsi də həmin məqsədə xidmət edir. 1988-ci il 31 avqust tarixli nömrəsində « Arsax torpağında görüş» başlığı altında F. Dövlatyanla geniş müsahibə dərc olunmuşdur. Müsahibə aparan Q. Qabrielyan yazını «Tənha cövüz ağacı tənha qalmasın» adlandırmışdır. Məqsəd aydındır. Dağlıq Qarabağ Muxtar Vilayəti tənha cövüz ağacına bənzədilir. Ermənistanın yox , Azərbaycanın tərkibində olduğu üçün özünü yalnız, tənha hiss edir. Müsahibəyə «Tənha cövüz ağacı tənha qalmasın» ümumi başlığının da verilməsi də təsadüfi deyil. Yəni millətçi ermənilərin arzusu həyata keçsin , Dağlıq Qarabağ tənha qalmasın, Azərbaycandan alınıb Ermənistana verilsin. Qurgen Qabrielyanın F. Dövlatyana verdiyi suallardan ikisinin cavabı dediklərimizi bir daha təsdiq edir: «İki dəfə Dağlıq Qarabağ da olmuşam , üçüncü dəfə isə Arsaxda….». Nəhayət, axırıncı sualın cavabı :
« Ən böyük arzum yaxın vaxtlarda bu torpağı Arsax Ermənistan Respublikası kimi görməkdir» .
Belə misalların sayını istənilən qədər artırmaq olar. Dağlıq Qarabağda və onun ətrafında baş verən qondarma hadisələri, hər iki respublikada adamların düçar olduqları fəlakətləri görüb o qənaətə gəlirsən ki, qonşunun torpağına göz dikmək , ərazi iddiasına düşmək yalnız ağılsızlıqdır. **Kim nə deyir, desin, kim nə yazır , yazsın .Tarixin tərəzisi hər şeyi duzgun çəkir. Həqiqətin isə bir üzü var.**

***ƏLİ VƏKİL***
***May, 1990-cı i***

**Ozan Arif ( Arif Şirin)**

**YA KARABAĞ YA ÖLÜM**

Benim gönlüma ylardır ağlayanla birlikte,
Karabağda karala rbağlayanla birlikte.
Yetmiş yıllıkyasını silemediKarabağ ,
Azatlık geldi lakin gülemedi Karabağ .

Dünya duysun bu sesi, bu ses şarkın sesidir.
Peygamberin övdüyünesip ırkın sesidir .
Bu ses Azerbaycanın , bu ses Türkün sesidir.

Bu Ermeni tak etti , canımıza tak artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık .

Karabağda kan var kan , ağlıyor Azerbaycan.
Karabağda karalar bağlıyor Azerbaycan.
Kanlar karı eritti , çağlıyor Azerbaycan .
Vahşet bu vahşet dünya, dön başını bak artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık .

Dünya , göz yumamazsın bu insanlık suçuna.
Gözünükan bürümüş bak Ermeni piçine .
Benim diyor girmişte hududumun içine.
Ya bu işe bir dur de, ya aradan çık artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.

İşte dünya atlası , Karabağ Türk bitmişdir.
“Agik"te kararında bunu tastik etmiştir.
Ermeni vatanımı resmen gaspa girmiştir,
Kainatın önünde benim alnım ak artık,
Ya Karabağ ya ölüm, başka yolu yok artık.

Azerbaycan bir gözdür , Karabağ da bebeği.
Yani Azerbaycanın tam ortası göbeği .
Gözüme mi gıız dikti bu Ermeni köpeği .
Bu köpek senin , dünya, kapımızdan çek artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.
Ben zaten Ermeniyi hallerinden tanırım.
Bin dokuz yüz on sekiz yıllarından tanırım.
Kanıma batırdığı ellerinden tanırım,
Şart oldu o elleri kökünden kırmak artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.

Plan şu: Karabağa önce özerk denecek,
Parlamento ,oylama kahpelikler dönecek,
Peşinde de Ermeni Karabağa konacak ,
Ondan sonra ermeni kök salacak sök artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.

Dünyayı kandırıyor Ermeni lobileri
Amerika ve Moskof en büyük abileri
Lejyonerler yığıyor Fransa gibileri
Ankara da bu kadar olamaz ahmak artık
Ya Karabağ ya ölüm, başka yolu yok artık.

Karabağda kapkara bir destan yazılırken ,
Savunmasız insanlar kurşuna dikilirken ,

Bebeklerin başları taşlarla ezilirken ,
Kimse bana diyemez dişlerini sık artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.
Genc, ihtiyar, kadın, kız demeden kıyılmakta,
Kolları kesilmekte,gözleri oyulmakta ,
Dalga dalga semaya feryatlar yayılmakta,
Bir ş ehidin mezarı bir taneden çok artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.

Televizyon veriyor verince bakılıyor,
O mübarek mescitler , camiler yıkılıyor,
Sofrada boğazıma lokmalar takılıyor,
Kardeşlerim ölürken bana hayat yük artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.

Nerdesin ehliİslam? Ey Muhammed ümmeti,
Sende mi görmüyorsun bu zülmü bu vahşeti ?
İşte gün vahdet günü gerçekleştir vahdeti ,
Allah-u ekber deyip tek yumruk ol tek artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık .

Müsəlman - Türk her şaman vahdetin istekçisi .
Ama şimdi mazlum Türk çok olur köstekçisi
Malesef İran bile Ermeni destekçisi.
İslami istismara benim karnım tok artık
Ya Karabağ ya ölüm , başka yolu yok artık

Türkün dostu Allahtır, İslama inanmıştır,
İslamda , Həbbul vatan minel iman denmiştir.
Yani Vatan aşkını imanla bir anmıştır.
Demedi deme dünya! Bana cihad hak artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.

Konuş dünya konuşbe , sesin duyulsun sesin ,
Bir ateşkes tutturdun nerede ateşkesin ?
Bundan sonra o ateş isterse kesilmesin ,
Ateşkesi münasib yerlerine sok artık ,
Ya Karabağ ya ölüm , başka yolu yok artık.

Ermeni vampir gibi kanımızı içecek,
Sonra bir ateşkesle acımız mı geçecek,
Bu rüzgarı ekenler fırtınayı biçecek,
Ozan Arif diyor ki yaydan çıktı ok artık,
Ya Karabağ ya ölüm , başka yolu yok artıq

## DRUJBA NARODOV» JURNALININ BAŞ REDAKTORU

YOLDAŞ ***SERGEY BARUZDİNƏ***

Öz fikirlərimi Sizə hələ 1988-ci ilin martında , Sizin « Literaturnaya Qazetadakı » çıxışınzdan sonra demək istəyirdim. Elə onda da , indi də - «Drujba narodov» jurnalının 3-cü nömrəsində məktuba cavabınızdan Sizin mövqeyinizi anlaya bilmirəm. Sizin sözlərinizlə desək : « bu gün faktlardan, reallıqdan qopmuş emosiyalar milli məsələ kimi mürəkkəb , mərkəzi məsələlərdə kifayət deyildir». Siz bəyan edisiniz ki , guya «Dağlıq Qarabağda ermənilərin milli heysiyyatları əməlli başlı boğulub, …. vilayətin sosal strukturu xeyli geri qalıb» …

Ancaq geri qalmaqdan necə danışmaq olar ki, verilmiş məlumatlara görə Dağlıq Qarabağın bir sıra göstəriciləri Azərbaycandan da Ermənistan da yüksəkdir , bəzi hallarda İttifaq göstəricilərini qabaqlayır. Ayrı məsələdir ki, bəzi çatışmamazlıqlar olmuşdur. Siz mənə elə bir vilayət, elə bir respublika göstərin ki,orada çatışmamazlıqlar olmasın . Hansı boğulmaqdan danışırsınız ki, Şuşanı çıxmaq şərti ilə Dağlıq Qarabağda bütün katiblər ermənilərdir, ilk təşkilatlardan başlamış, lap birinci katibədək. Ondan xəbəriniz varmı ki, 1988-ci ilin fevralınadək 30-cu, 40-cı, 60-ci illərdə də bu vilayəti Azərbaycandan qoparmaq cəhdləri olmuşdur.Buna nə deyirsiniz? Bunları nə ilə izah edək? Yenə « milli heysiyyatın əməlli başlı boğulması » ilə ?

Cidanı cuvalda gizlətmək olmaz ! Bu işlər özünə qapılmaq istəyən , yalançı və mifik «BÖYÜK ERMƏNİSTAN» uydurmalarının , böyük erməni millətçiliyinin meyvələridir. Əgər belə deyilsə , onda Dağlıq Qarabağı Ermənistanın tərkib hissəsi kimi « tərənnüm edən» minlərlə kitablar nəyə lazım idi ? Bu faciəli günlərdə bu oyunlar yenə də dayanmaq bilmir. Buna lap tər -təzə misal yazıçı Sero Xanzadyanın « Əsrlərin daş yaddaşıdır» ( Ermənistanın «Kommunist» qəzeti № 93 20 aprel 1989-cu il )

SİZ bildirirsiniz ki, « cox az yazıçı Sumqayıt faciəsinin baiskarlarını məhkum edibdir». SİZ yanılırsınız , nənki Azərbaycan yazıçıları , bütün Azərbaycan xalqı baiskarları lənətləmişlər.

Sizə agah olsun ki, noyabr –dekabr aylarında qaçqınların ikinci dağası başlayanda Azərbaycanda tam sakitlik idi , heç bir insident baş verməmişdi, ancaq Ermənistanda bandalar yollarda qaçqınların avtobuslarına hücum edir , adamları öldürürdülər.Özü də həyasızcasına elan edirdilər ki, bu hayıf çıxmadır. Və hazırda Azərbaycana 40 min erməni qayıtmışdır, Ermənistana isə heç kim! Bu elə göstərir ki, harada vəziyyət necədir!. Təəssuf ki. SİZ hər şeyi «Sumqayıt»la izah etməyə çalışır və bir tərəfli mövqe tutursunuz.Bir də Sizə bir şey də bildirim. Sumqayıtdan əvvəl Ermənistanda «Qafan» hadisələri olmuşdu. 1988-ci ilin martında Sumqayıtın küçələri Qafandan gəlmiş qaçqınlarla dolu idi. Təssüf ki , bu haqda heç bir yerdə söhbət salınmayıb.

Siz deyirsiniz ki, «çox şey yazıçı sözündən asılıdır». Olduqca düzgün sözlərdir. Ancaq bizə « Drujba Narodov » junalının 170-174- cü səhifələrini dolduran Sizin bir tərəfli, qərəzli , bəlkə də kiminsə diqtəsi ilə yazılmış sözləriniz kimi sözlər lazım deyil. Ancaq obyektivlik və ədalət bizim ümumi işimizə kömək ola bilər.

**İslam BAYRAMOV.**

AZƏRBAYCAN SSR

**Xanlar şəhəri 3 may 1989- cu il**

« İzvestiya» qəzetinin müxbirləri
S.Dardıkin və R.Lınev yoldaşlara

*Yoldaş müxbirlər ! «İzvestiya» qəzetində Sizin bu məqalə çıxana qədər bu mövzuda mərkəzi mətbuatda cəmi iki məqalə çap edilmişdir « Pravda » 21mart 1988 ci il «Emosiyalar və ağıl » , İzvestiya 22 mart 1988- ci il «Ağılün əksinə». Ədalət naminə demək lazımdır ki, bir aydan artıq müddətdə Dağlıq Qarabağ və onun ətrafındakı hadisələrə dair daha dəqiq və həqiqətləri əks etdirən Sizin məqalədir. ( İzvestiya 24 mart 1988 ci il . «Mitinqlərdən sonra olan görüşlər » ). Hadisələri belə dəqiq və doğru yazdığnıza görə sağ olun . Ancaq məmim fikrimcə ,məqalənizdə bəzi mubahisəli məqamlar var. Məsələn, Siz məqalənizdə yazırsınız ki,«dağlıq qarabağ məktəblərində bütöv bir sinfə iki erməni dili kitabı düşür, buradakı məktəblərin dərs proqramından erməni xalqının tarixi çıxardılıbdır, eləcə də DQMV nin Ermənistanla birləşməyə vadar edən səbəblər vilayətdəki sosial sahədəki çatışmamaşlıqlardır. Mənə elə gəlir ki, bu fikirləriniz bir qədər düz fikirlər deyil . Səbəblərini ardıcıllıqla izah edim:*

*1. Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsinin səbəbi oradakı bir sıra şəxslərin öz xalqlarını başqa xalqlardan yuxarıda görməkləri ilə bağlıdır. Belə fikirləri erməni prozaikləri , publisistləri , yazıçıları ən azı 24 aprel 1965 cı ildən söyləməyə başlayıblar. Buna misal olaraq şairə Silva Kaputikyanın «Karvanlar hələ yoldadır» , «Literaturnaya qazeta» nın Ermənistan üzrə müxbiri , jurnalist Zori Balayanın « Ocaq » kitablarını göstərmək olar . Belə misalları minlərlə çəkmək olar . Gəlin ,ikisi ilə məhdudlaşaq. Silva Kaputikyanın kitabı Moskvanın «Xudo estvennaya literatura» nəşriyyatı tərəfindən 1978-ci ildə 50.000 tirajla, Zori Balayanın «Ocaq» kitabı 1984-cü ildə Yerevanın «Luys» nəşriyyatı tərəfindən 20000 tirajla buraxılmışdır. Hər iki kitab rus dilindədir . Erməni millətini və mədəniyyətinıı lap dağın başına qoymaq , yerliçilik , şovinizm, «Böyük Ermənistan» ideyaları bu kitabların hər sətirinə hopmuşdur. Zori Balayanın «Ocaq» kitabında yüz dəfələrlə* **Dağlıq Qarabağın** *və* **Naxçıvanın** *erməni torpaqları olması fikri təkrarlanır. Guya Dağlıq Qarabağ Xaçın carlığıdır, Naxçıvanı isə ermənilərin ulu babası NOY (ermənicə NUH peyğəmbərin adı) yaratmışdır. Qara dənizlə Xəzər dənizi arasındakı torpaqlar erməni torpaqlarıdır ( yəni dənizdən –dənizə Ermənistan). Elə «Ocaq » da , Qarabağdır. Şovinizmə aid bu kitabda ayrı misallar da var. Kitabın bir yerində deyilir : «Mənə ayıbdır ki, Ermənistanın xəritəsində Amasiya adlı rayon vardır» .Sonra isə ona niyə ayıb olması fikrini belə gizlədir ki, guya qonşu Qukasyan rayonunda əhalinin hər adambaşına daha çox süd istehsal edilir. Lakin onu bildirim ki, Amasiya rayonunda 20min nəfər(əsasən azərbaycanlılar),*
*Qukasyan rayonunda isə 7 min nəfər əhali yaşayır. Mal –qara sayı hər iki rayonda eynidir. Muqayisə yerinə düşmür və savadlı deyil . Bu müqayisə Zori Balayana ona görə lazım olmuşdur ki , fikirini desin , yəni Amasiyada azərbaycanlılar yaşadığına görə ona ayıbdır. Bir azda irəli gedək, Zori Balayan Bütün Ermənistanı dolaşır, hər yerdə birinci katiblərlə və rayon qəzetlərinin redaktorları ilə görüşür. Amasiyaya gələndə sanki orada həmin vəzifələr yoxdur—2-ci katiblə və digər şəxslərlə. Niyə belə? Səbəbini izah edim : həmin vəzifələrdə işləyənlər azərbaycanlılardır. Belə bir üzdəniaq kitab Ermənistan Komsomolunun Laeuratı olmuşdur. Azərbaycan Yazıçılar İttifaqının*

*katibi Əkrəm Əylisli müsahibələrinin birində deyirdi ki, ermənilər bu kitabı qızlarına cehiz kimi verirlər. Əcaba onun nə böyük qiyməti var? Onun qiyməti şovinizm hisslərini qızışdırmasındadır.! 1986-cı ildə o vaxtkı Azərbaycan Yazıçılar İttifaqının sədri, akademik Mirzə İbrahimov SSRİ Yazıçılar İttifaqının V11 Qurultayında bu kitabı antibeynəlmiləl, şovinist bir əsər kimi qiymətləndirmişdir. Ancaq müvafiq orqanlar tərəfindən heç bir nəticə çıxarılmamış və nəhayət , Qarabağ hadisələri başlamışdır.*

*Başa düşülməyən bir məsələ də var. Son illər «Oqonyok» və «Komsomolskaya Pravda» da belə fikirlər səslənmişdir ki, « rəssam Nalbandyan Ermənistanın cənnət güşələrindən biri olan Şuşada doğulmuşdur, hansısa bir alim Ermənistanın Dağlıq Qarabağ Vilayətində yüksək məhsuldarıqlı buğda sortu yetişdirmişdir». «Prosveşenye»nəşriyyatı tərəfindən buraxılanorta məktəblərin dərs kitablarının bəzilərində Stepanakert şəhəri ( Ermənistan SSR) yazılmışdır.Bunlara cavab olaraq Azərbaycan KP MK- nın orqanı « Kommunist » qəzeti o vaxtlar «Cografiyadan iki » başlığı ilə replika verməyə məcbur olmuşdu .*

*Ak. A. Aqanbekyan 1987-ci ildə Fransada daşnak partiyasının üzvləri qarşısında çıxış edərək bildirir ki, o bir iqtisadçı alim kimi hesab edir ki, DQMV Ermənistana verilsə yaxşıdır və o bu haqda məsələ qaldırmışdır.*

*Ermənistan KP MK-nın növbədənkənar Plenumu qərar qəbul edir ki , Sov.İKP MK-dan xahiş edilsin ki, Qarabağ məsələsinə yenidən baxılsın. Bu isə o vaxt baş verir ki, Sov.İKP MK- nın Baş katibi M.S. Qorbaçov yoldaşın Azərbaycan və erməni xalqlarına müraciəti olmuşdur. Buradan isə nəticə cıxarmaq olar : DQMV- nin Ermənistanla birləşməyə vadar edən səbəblər Sizin dediyiniz kimi «vilayətdəki sosial sahədəki çatışmamaşlıqlardan canları boğazlarına yığılmışdır (nabolelo) »- deyil , erməni nasional- şovinizminin yaratdığı fəsadların nəticəsidir. Yuxarıda da dediyim kimi ən azı 1965-ci ildən damla-damla yığılan silva kaputikyanların, sero xanzadyanların, ak. aqanbekyanların ,serqo mikoyanların, ambarsumyanların, « prozaik , publisis tibb elmlər namizədi» zori balayanların və digərlərinin «Böyük Ermənistan » ideya və arzularının nətcəsidir. Bax, bu haqda danışmaq lazımdır , sosial sahədəki çatışmamaşlıqlardan yox!*

*2. Erməni bədii ədəbiyyatında həqiqətin əleyhinə olaraq bəzi tarixi şəxslər fərqli qiymətləndirilirlər . Məsələn , sərkərdə deyilən Andranik Ozanyan kimiləri. Həm Silva Kaputikyan, həm də Zori Balayan Stepan Şaumyandan sitat gətirərək « onu « əsl xalq qəhrəmanı » adlandırırlar. Əzilən xalqların ( ermənilər, kürdlər, yunanlar, ərəblərin ) azadlığı uğrunda mübarizə aparan insan adlandırırlar. Guya ki, daşnak hökumətinin iradəsi əleyhinə inqilabçı Rusiyaya yönələn şəxs olmuşdur. Hətta Silva Kaputikyan bir az da irəli gedərək deyir ki , « Andranik 1926-cı ildə Fransadan Sovet Ermənistanını salamlamış , «şöhrətlə yogrulmuş öz qılıncını » hədiyyə olaraq Yerevan muzeyinə göndərmişdir. Təəssuf ki, uzun illər bu böyük xalq sərkərdəsi unudulub qalmış , bizim acıdılli , qəddar duşmənlərimizin əlinə əsas vermişdir.*
*Bu qılınc cox acı dilləri kəsəcəkdir…….». ( Silva Kaputikyan , Seçilmiş əsərləri 2-ci cild səh 38-39) ……………« daşnak hökümətinin uzaqgörən olmayan siyasətini rədd edərək 1919-cu ildə Andranik vətəni tərk edir». (həmin kitab səh. 273)*

*Gəlin ayrı bir sənədə baxaq , 1924-cü ilin 24 aprelində Azərbaycan KP Bakı təşkilatının 25 illiyinə və Azərbaycanda Sovet hakimiyyətinin bərpasının 4-cü*

*ildönümünə həsr edilmış yığıncaqda SSRİ xarici işlər xalq komissarı Q.V. Çiçerin Andraniki Antantanın agenti adlandıraraq demişdir: « Brest- Litovsk sülhündən sonra türk ordusu hücum edərək əvvəlcə Batumu, Qarsı , Ərdahanı tutaraq irəliləyirdi , bu zaman türklərə general Nazarbekov müqavimət göstərirdi, o meydandan çıxandan sonra bu mubarizəni Antantanın agenti Andranik davam etdirdi, Andranik Qafqazdan keçərək Urmiyaya çatmağa, ingilislərin otryadı Denstervil ekpedisiyasına birləşməyə səy göstərirdi. Türk ordusu Təbrizi və Urmiyanı Denstervildən tez işğal etdiyinə görə məqsədinə nail ola bilmədi ………. Fransız hərbi agentləri əksinqilabçı kazakları cəlb edərək özlərinə quvvə yığırdılar.* ***Andanik Antantanın agentidir.***

***(14 may 1924-cü il « Bakinski Raboçi » qəzeti ).***

*Mərhum Azərbaycan yazıçısı Əli Vəliyev «Budagın xatirələri» adlı avtobioqrafik romanında Andaniki quldur adlandırmışdır.*

*Nəyə görə bundan belə çox bəhs etdim.? Məsələ burasındadır ki, 8-ci ya da 9- cu sinflərdə keçilən «Erməni xalqının tarixi» kitabında Andranik Silva Kaputikyan , Zori Balayanın əsərlərində təsvir edilən şəkildə verilmişdir.*

*zori balayanlar, silva kapuytikyanlar kimin dilini Andranikin «şöhrətlə yogrulmuş qılıncı» ilə kəsmək istəyirlər. Bəlkə SSRİ xarici işlər xalq kommissarı Q.V. Çiçerinin? Əgər belədirsə , onda bu hüququ onlara kim vermişdir?*

*Çiçerinnə görə Andranik düşməndir. Əgər düşməndirsə ,onda ona niyə heykəl qoyurlar? Özü də əhalinin vəsaiti hesabına ! ( bu da erməni nasional- şovinizminin bir nişanəsidir) . Bu « Tarixə də » böyük rus tarixçilərinin iştirakı ilə bir aydınlıq gətirilməlidir.*

*« Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası» monoqrafiyasında professor Fəridə Məmmədova deyir ki, erməni tarixçiləri bütün dövrlərdə tarxi məsələləqrə qərəzli yanaşmışlar. Nə vaxta qədər Yenidənqurma dövründə tarixdə ağ ləkələr olmamalıdır. Bax, bəlkə bu səbəblərdən buradakı məktəblərin dərs proqramından erməni xalqının tarixi çıxardılıbdır ?! Gəncləri niyə şovinizmə təhrik etsinlər. Özü də yalançı tarixlə? Və nəhayət vilayətdəki sosial sahədəki çatışmamaşlıqlar və əyintilər barədə : Son günlər mərkəzi mətbuatda DQMV- nin iqtisadi göstəriciləri çap edilmişdir. Oradan görünür ki,* Dağlıq Qarabağın bir sıra göstəriciləri Azərbaycandan da Ermənistan da yüksəkdir , bəzi hallarda İttifaq göstəricilərini qabaqlayır. Ayrı məsələdir ki, bəzi çatışmamazlıqlar olmuşdur. Siz mənə elə bir vilayət, elə bir respublika göstərin ki, orada çatışmamazlıqlar olmasın.

Siz öz məqalənizi belə bir ümidlə bitirirsinz ki, bizim çoxmillətli xalqımızın bütün təcrübəsini əks etdirən zəka qalib gələcəkdir. Bizim də ümidimiz bunadır.

*Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr ürəklərdə dərin ağrı hissi buraxmışdır. Sizdən isə xahişim budur ki, məqalələrinizdə bu göstərdiyim məqamları da təhlil edib işıqlandırasınız, onda hər şey aydın olar .*

**İslam BAYRAMOV**

**AZƏRBAYCAN SSR**
**Xanlar şəhəri , Xanlar mərkəz i rayon**
**xəstəxanası ilk parytiya təşkilatının**

28  mart 1988- ci il

Министерство связи СССР

**УВЕДОМЛЕНИЕ О ВРУЧЕНИИ ПОЧТОВОГО ОТПРАВЛЕНИЯ**

ЗАКАЗНОЕ

Куда г. Хачмас Азерб. ССР
20-й квартал д. 7. кв. 6

Кому Байрамову Исламу Абдулла оглы

(НА ЗАПОЛНЯЕТСЯ НА ИМЯ ОТПРАВИТЕЛЯ ПОЧТОВОГО ОТПРАВЛЕНИЯ)

374740

Индекс предприятия связи места назначения

Министерство связи СССР. Цена 10 коп. ППФ Гознака.

З/п УВ из Хачмаса за № 8 (почт. отправления)

...ю на ______ руб. с наложенным плат... ___ руб. ___ коп., отправленное 28/III (число, месяц, год)

...есу г. Москва, редакцию газеты „Известия"

на имя

Вручено „1" 4 198__ г. лично / по доверенности (кому)

ЭКСПЕДИЦИЯ РЕДА... ГАЗЕТЫ ИЗВЕС...

Подпись руководителя предприятия связи (цеха, участка)

(место подписи)

(календ. шт. дня получения уведомления)

МЕСТО

Обведенное жирной чертой заполняется отправителем

Нас глубоко возмущает то, что, когда в нашей необъятной стране начался решающий период- II этап перестройки, в нашей стране группа националистически настроенных лиц, вводя в заблуждение армянского народа, начали заниматься дележом территорий. Обо всем о событиях в Нагорном Карабахе и вокруг него были статьи в центральной печати. Однако, в связи с изложенными появляется мечта рассказать и поделиться мыслями о наболевшихся проблемах.

В этой грязной проблеме которая создана искуственно кажется немалую роль сыграли армянская литература.

Как то, 24 апреля 1964 году в Армянской ССР торжественно отмечали 50 летию освобождения армян от турецкого ига.

После этой даты почти все армянские прозаики, писатели, публицисты, академики, историки словом, все кто может брать перо начали писать романы, прозы, публицистические материалы только по этой теме. И в этих „произведениях" иногда говорили полуправду, иногда ложь, иногда проблему очень вздули. Таким образом исподтишка начался посевные семена вражды среди армянского народа.

Начало культивирование националистических идеек, фальсификация и искажения исторической правды, подогревание национальной вражды особенно против азербайджанцев.

Конечно в этой же питательной среде лелеяли давнюю мечту дашнаков, выдвигали бредовые идейки „Великой Армении", „Армения от моря до моря". Тюркоязычного народа назвали варварами, вандалами, дикими кочевниками. Издавали карты, учебники где весь Кавказ, Малая и Средняя Азия до берегу Средиземного моря беззастенчиво объявлялся Армянскими землями. Эти люди готовы были на любую фальсификацию, на любой ложь „лишь бы" объявить вышеуказанные территории армянскую и народ выдавать как многострадальных

SOV.İKP MK- nın katibi

<u>*Y.K . Liqaçov yoldaşa*</u>

*Bizi dərindən qəzəbləndirir ki,bizim böyük ölkəmizdə yenidənqurmanın 2-ci etapı-həlledici mərhələsində bir qrup milli hisslərlə körüklənmiş şəxslər erməni xalqını çaş-baş salmış , ərazi bölgüsü ilə məşğul olmağa başlamışdır.Bununla əlaqədar canımızı bogazımıza yığmış problemlər barəsində fikirlərimi Sizinlə bölüşmək istəyirəm.1965-ci ilin 24 aprelində Ermənistan SSR-də turk zulmundən azad olunmanın 50 illiyini qeyd etdilər.Bu vaxtdan başlayaraq erməni prozaikləri,publisistləri, yazıçıları, akademikləri ,tarixçiləri, demək olar ki, əlinə qələm ala bilən hər bir şəxs milli məsələ mövzusuna girişdilər. Bu « əsərlərdə» yarımçıq həqiqətlər deyilir, bəzən yalanlar söylənir, bəzən də məsələ olduqca şişirdilirdi. Yavaş-yavaş erməni milləti arasinda digər xalqlara qarşı düşmənçilik toxumları səpilirdi.Tarixi saxtalaşdırmaq , tarixi həqiqətləri saxtalaşdırıb, qərəzçilik etmək , əsasən də Azərbaycanlılara qarşı milli ədavət hissləri oyandırıldı. Əlbəttə ,bu qidalı mühitdə daşnakların çoxdanki arzusu olan«Böyük Ermənistan», « Dənizdən-dənizə Ermənistan» ideyaları göyərməyə başladı.Bu adamlar türk dilli xalqları vəhşilər, vandallar, vəhşi köçərilər adlandırmaga başladılar.Elə dərsliklər və xəritələr çap etməyə başladılar ki, guya butun Qafqaz, Kiçik və Orta Asiya Aralıq dənizi sahillərnədək, Erməni torpağıdır. Bu adamlar hər cür saxtakarlığa, yalana, böhtana hazır idilər, təki nə yolla olur olsun dənidən- dənizə olan torpaqların Ermənistan torpaqları olduğunu, erməni xalqının isə əzab- əziyyət , başı çox müsibətlər çəkmiş xalq qismində qələmə versinlər.Bunlar illər boyu damla- damla-yığılırdü.Axıda minlərlə kitab oldu.Belə misalları minlərlə çəkmək olar .Onlar erməni, rus ,hətta xarici dillərdə çap edilmişlər. Qoy faktlara müraciət edək ,bir məktubda hərçənd bunları əhatə etmək mümkünsüz oldugundan iki «yazıçının» əsərlərinə.*

*Silva Kaputikyanın «Karvanlar hələ yoldadır » , «Geniş meridianlarda», Zori Balayanın « Ocaq » , « Əsil kişi», « Odlar ölkəsində» kitablarını götürək . Elə bu müəlliflər « Qarabağ komitəsi » deyilən qurumun işində geniş iştirak etmiş,onun son iclasında çıxış etmişlər. Hər iki müəllifin kitabları rus dilindədir.Orada Erməni millətini və mədəniyyətinıı lap dağın başına qoymaq , yerliçilik , şovinizm, «Böyük Ermənistan» ideyaları bu kitabların hər sətirinə hopmuşdur. Zori Balayanın «Ocaq» kitabında yüz dəfələrlə Dağlıq Qarabağın və Naxçıvanın erməni torpaqları olması fikri təkrarlanır. Guya Dağlıq Qarabağ Xaçın carlığıdır, Naxçıvanı isə ermənilərin ulu babası NOY (ermənicə NUH peyğəmbərin adı) yaratmışdır. Qara dənizlə Xəzər dənizi arasındakı torpaqlar erməni torpaqlarıdır . ( yəni dənizdən –dənizə Ermənistan). Elə bu ağlamalı ad- «Ocaq » adı altında da Dağlıq Qarabağ nəzərdə tutulur.( elə Zori Balayanın özü Dağlıq Qarabağın Martuni raonunda anadan olmuşdur).Guya ki ,bu kitab xoş niyyətlə Ermənistan LKGİ MKnın göstərişi ilə yazılmışdır. Belədirsə burada beynəlmiləlçilik ideyaları qərar tutmalı idi. Ancaq əksinə alınıb. Şovinizmə aid bu kitabda xeyli misallar var .Kitabın bir yerində deyilir :*

*« Mənə ayıbdır ki, Ermənistanın xəritəsində Amasiya adlı rayon vardır». ..Sonra isə ona niyə ayıb olması fikrini belə gizlədir ki, guya qonşu*
*Qukasyan rayonunda əhalinin hər adambaşına daha çox süd istehsal edilir.*
*Lakin onu bildirim ki, Amasiya rayonunda 20 min nəfər (əsasən azərbaycanlılar) , Qukasyan rayonunda 7 min nəfər (ermənilər) əhali yaşayır. Mal –qara sayı hər iki*

*rayonda eynidir. Belə muqayisə nəyə lazımdır? Bu müqayisə Zori Balayana - bu utanmaz və « məşhur» jurnalistə ona görə lazım olmuşdur ki, fikirini desin,yəni Amasiyada azərbaycanlılar yaşadığına görə ona ayıbdır. Bir az da irəli gedək, Zori Balayan bütün Ermənistanı dolaşır hər yerdə birinci katiblərlə və rayon qəzetlərinin redaktorları ilə görüşür. Amasiyaya gələndə sanki orada həmin vəzifələr yoxdur - 2-ci katiblə və digər şəxslərl Niyə belə? Səbəbini izah edim : həmin vəzifələrdə işləyənlər azərbaycanlılardır.Belə bir üzdəniaq kitab Ermənistan Komsomolunun Laeuratı olmuşdur.Azərbaycan Yazıçılar İttifaqının katibi Əkrəm Əylisli müsahibələrinin birində deyirdi ki, ermənilər bu kitabı qızlarına cehiz kimi verirlər. Əcaba onun nə böyük qiyməti var? Onun qiyməti şovinizm hisslərini qızışdırmasındadır.! 1986 -cı ildə o vaxtkı Azərbaycan Yazıçılar İttifaqının sədri, akademik Mirzə İbrahimov SSRİ Yazıçılar İttifaqının V11 Qurultayında bu kitabı antibeynəlmiləl, şovinist bir əsər kimi qiymətləndirmişdir. Ancaq müvafiq orqanlar tərəfindən heç bir nəticə çıxarılmamış , Zori Balayan isə ayrı kurs götürmüşdür. Bu dəfə 1985-ci ildə xarici oxucu üçün ingilis dilində kitab buraxılmışdır. ( «Əsl kişi » Moskva «Proqress » nəşriyyatı 1985 ). Və nəhayət Qarabağ hadisələri başlamışdır.*

*Başa düşülməyən bir məsələ də var. Son illər «Oqonyok» və «Komsomolskaya Pravda » da belə fikirlər səslənmişdir ki, « rəssam Nalbandyan Ermənistanın cənnət guşələrindən biri olan Şuşada doğulmuşdur, hansısa bir alim Ermənistanın Dağlıq Qarabağ vilayətində yüksək məhsuldarıqlı buğda sortu yetişdirmişdir». «Prosveşenye» nəşriyyatı tərəfindən 1987-ci ildə buraxılan 8-ci sinfin dərs kitabı olan « Sovet dövlətinin əsasları və hüqüq » kitabında kitaba əlavə olan rəngli şəkildə apaydın yazılmışdır: Alman dili müəllimi Stepanaker t şəhəri Ermənistan SSR.*

*Bunlara cavab olaraq Azərbaycan KP MKnın orqanı «Kommunist» qəzeti o vaxtlar « Cografiyadan iki » başlığı ilə replika verməyə məcbur olmuşdu .Əvvəllər niyə belə edirlər , deyə başa düşmürdük. Qarabağ hadisələri buna aydınlıq gətirdi. Bizə bu gün də Ermənistan KP MK-nın mövqeyi aydın deyil ki, 27 fevral 1988- ci ildə Ermənistan KP MK-nın növbədənkənar Plenumu qərar qəbul edir ki , Sov.İKP MK-dan xahiş edilsin ki, Qarabağ məsələsinə yenidən baxılsın. Bu isə o vaxt baş verir ki, Sov.İKP MK- nın Baş katibi M.S. Qorbaçov yoldaşın Azərbaycan və erməni xalqlarına müraciəti olmuşdur. Buna baxmayaraq bu gün də Kommunist (rus dilində), Sovetakan Hayastan qəzetlərində belə fikirlər gedir ki, məsələ hələ həll edilməyib,erməni xalqı məsələnin ədalətli həllinə ümid edir.Sosialist Əməyi Qəhrəmanları – yazıçılar Silva Kaputikiyan, Sero Xanzadyan, jurnalist Zori Balayan , Ak. Viktor Hambarsumyan, MDU-nun professoru Q. Yepiskoposov, S.Mikoyanla birlikdə - kimi adamların mövqeyini başa düşmək mumkun deyildir. Yuxarıda deyilən fikirləri onlar gah respublika mətbuatından , gah radio efirindən , gah televiziya ekranlarından səsləndirirlər.Bu adamlar «erməni xalqını elitası» ak. Aqanbekyan, MDU-nun professoru Q. Yepiskoposov, S.Mikoyanla birlikdə adlandırıldığı kimi «QARABAĞ» və «KRUNK» Komitələrini yaratmışlar. Silva Kaputikiyanın »V druqix şirotax » adlı əsərində (Seçilmiş əsərləri səh.260, Moskva 1978-ci il Xudojestvennaya literatura) durnalar (krunki) öz vətənləri Ermənistan üçün qəribsəyir. Ak. Aqanbekyan özünü yenidənqurmanın öncüllərindən qələmə verərək, Məkəzi televiziyanın ekranlartından çıxış edərək tamaşaçıların suallarına cavab verirdi.Sonra bizə məlum oldu*

*ki, Fransada daşnak partiyasınım qarşısında çıxış edərək demişdir ki,o bir alim - iqtisadçı kimi hesab edirki,*
*DQMV-ni Ermənistanın tərkibinə versələr yaxşıdır. O, bu haqqda öz təkliflərini də vermişdir. Onun çıxışlarını havada tuturlar və «Humanite» qəzetində çap edirlər. (Humanite qəzəti 17 noyabr 1987-cii l).Əvvəlcə fikirləşdik ki bu nə isə bir təxribat-dır.Onun tərəfindən təkzib verilməsini gözləqdik .Ancaq təəssüf ki, bu gün də akademik Abel Gevezeviç Aqanbekyan tərəfindən belə bir təkzib yoxdur. Buradan da onun nə quşun yuvası oldiğu bilinir. Buradan isə nəticə cıxarmaq olar.*

*Erməni bədii ədəbiyyatında həqiqətin əleyhinə olaraq bəzi tarixi şəxslər fərqli qiymətləndirilirlə. Məsələn , sərkərdə deyilən Andranik Ozanyan kimiləri.*

*Bu «qəhrəmanın» ətrafında «pərəstiş kultu» yaradılır,romanlar yazılır.Azərbaycanlılara qarşı milliyətçi hisslər qızışdırılır.Onu xalq qəhrəmanı elan edirlər. İş burasındadırki,1987-ci ildə və1988-ci ilin fevralınadək Ermənistan televiziyasında Silva Kaputikyan az qala bunt qaldırırdı. O, deyirdi ki, ölkədə hazırda yenidənqurma gedir, rus ədəbiyyatında «Arbatın uşaqları» romanı çap edilib, bizdə isə Sero Xanzadyan artıq neçə illərdir ki, «Andranik» adlı roman yazmışdır, onu niyə çap etmirlər?*

*Həm Silva Kaputikyan, həm də Zori Balayan Stepan Şaumyandan sitat gətirərək onu «əsl xalq qəhrəmanı » adlandırırlar. Əzilən xalqların ( ermənilər,kürdlər, yunanlar, ərəblər ) azadlığı uğrunda mübarizə aparan insan adlandırırlar. Guya ki, daşnak hökumətinin iradəsi əleyhinə inqilabçı Rusiyaya yönələn şəxs olmuşdur. Hətta Silva Kaputikyan bir az da irəli gedərək deyir ki , « Andranik 1926-cı ildə Fransadan Sovet Ermənistanını salamlamış , «şöhrətlə yogrulmuş » öz qılıncını hədiyyə olaraq Yerevan muzeyinə göndərmişdir. Təəssuf ki, uzun illər bu böyük xalq sərkərdəsi unudulub qalmış , bizim acıdıllı , qəddar duşmənlərimizin əlinə əsas vermişdir. Bu qılınc cox acı dilləri kəsəcəkdir……». ( Silva Kaputikyan ,Seçilmiş əsərləri 2-ci cild səh. 38-39) …………« daşnak hökümətinin uzaqgörən olmayan siyasətini rədd edərək, 1919-cu ildə Andranik vətəni tərk edir » (həmin kitab səh. 273) Lakin mənbələr ayrı şey deyir:*

*Gəlin ayrı bir sənədə baxaq : 1924-cü ilin 28 aprelində Azərbaycan KP Bakı təşkilatının 25 illiyinə və Azərbaycanda Sovet hakimiyyətinin bərpasının 4-cü ildönümünə həsr edilmiş yığıncaqda SSRİ xarici işlər xalq kommisarı Q.V. Çiçerin Andraniki Antantanın agenti adlandıraraq demişdir: « Brest- Litovsk sülhündən sonra türk ordusu hücum edərək, əvvəlcə Batumu, Qarsı , Ərdahanı tutaraq irəliləyirdi , bu zaman türklərə general Nazarbekov müqavimət göstərirdi, o meydandan çıxandan sonra bu mubarizəni Antantanın agenti Andranik davam etdirdi. Andranik Qafqazdan keçərək Urmiyaya çatmağa , ingilislərin dəstəsi olanı Denstervil ekpedisiyasına birləşməyə səy göstərirdi. Türk ordusu Təbrizi və Urmiyanı Denstervildən tez işğal etdiyinə görə məqsədinə nail ola bilmədi ………. Fransız hərbi agentləri əksinqilabçı kazakları cəlb edərək özlərinə quvvə yığırdılar. Andanik Antantanın agentidir.*

***(14 may 1924-cü il « Bakinski Raboçi » qəzeti ).***

*Mərhum Azərbaycan yazıçısı Əli Vəliyev «Budagın xatirələri» adlı avtobioqrafik romanında Zəngəzurdakı iyrənc əməllərinə görə Andaniki quldur adlandırmışdır.*

*Təəssüf ki, bu başıbəla müəlliflər bəzən yanılır.Beyrutda qocalar evində Andarnikin dəstəsində vuruşan bir daşnak Silva Kaputikiyana deyir: « Mənim qanım Ərzrumdan*

*Zəngəzuradək hər bir daşın üstünə tökülmüşdür». (Silva Kaputikyan. Həmin kitab səh.122) Buradan belə bir məntiqi sual meydana çıxır: Necə ola bilər ki, bir orduda əsgərlər daşnaklardır, sərkərdəsi isə xalq qəhrəmanı az qala bolşevik?! Bir də «bu xalq qəhrəmanının «ordusu» Zəngəzurda kimə qarşı vuruşmuşdur.?*

*Məsələnin faciəliliyi burasındadır ki, bütün tarixi ədəbiyyat və dəsliklərdə, hətta 8-ci ya da 9- cu sinflərdə keçilən «Ernməni xalqının tarixi» qısa kurs kitabında Andranik Silva Kaputikyan, Zori Balayanın əsərlərində təsvir edilən şəkildə verilmişdir.*

*Yalan üzdədir.*

*zori balayanla silva kapuytikyanlar kimin dilini Andranikin «şöhrətlə yogrulmuş qılıncı» ilə kəsmək istəyirlər? Bəlkə SSRİ xarici işlər xalq kommissarı Q.V. Çiçerinn? Əgər belədirsə, onda bu hüququ onlara kim vermişdir?*

*Çiçerinnə görə Andranik düşməndir . əgər düşməndirsə ,onda ona niyə heykəl qoyurlar? Özü də əhalinin vəsaiti hesabına ! ( bu da erməni nasional-- şovinizminin bir nişanəsidir. ) Bu « Tarixə də » böyük rus tarixçilərinin iştirakı ilə bir aydınlıq gətirilməlidir.*

*Gəncləri niyə şovinizmə təhrik etsinlər. Özü də yalançı tarixlə?*

Hazırda Partiyamız Siyasi Büronun müdrik rəhbərliyi ilə ölkədə yenidənqurmanı həyata keçirir. Tarix belə şeydir ki, biz o arsenalı axtarırıq, nəyi özümüzlə götürəcəyik, nələrdən isə vaz kecəcəyik. Ancaq o zaman tarix əsl həqiqi və faydalı ola bilər .( Sitat Professor Y.S.Borisovundur). Andranik Ozanyan kimdir? Düşmən, yoxsa qəhrəman? Məsələ açıq qalmışdır. Qanuna uyğundurmu ki, Ermənistanın Ucan kəndində ona abidə qoyurlar, özü də əhalinin vəsaiti hesabına. Nəyə görə bu xatirə belə əbədiləşdirilir?

*« Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası » monoqrafiyasında (Bakı. Elm nəşriyyatı. 1986) professor Fəridə Məmmədova deyir ki, erməni tarixçiləri bütün dövrlərdə tarixi məsələlərə qərəzli yanaşmışlar. Bunu o faktlarla sübut edir. Faktlarla isə zarafat etmək olmaz. Ümidimiz onadır ki,bizim çoxmillətli xalqımızın butun təcrubəsini əks etdirən zəka qalib gələcəkdir. Bütün buraxılan səhvlər düzəldiləcək,1960-cı illərdən durğunluq dövrlərindən buraxılan səhvlər aradan qaldırılacaqdır*

*Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr ürəklərdə dərin ağrı hissi buraxmışdır. İnanırıq ki, Kommunist Partiyası, Onun Leninçi Siyasi Bürosunun rəhbərliyi ilə məsələnin ədalətlə həll edilməsinə nail olacaqdır.*

***İslam Bayramov,***
***AZƏRBAYCAN SSR***
***Xanlar şəhəri, Xanlar mərkəzi rayon***
***xəstəxanası ilk parytiya təşkilatının katibi***
***2 aprel 1988 - ci il.***

МИНИСТЕРСТВО
ВНУТРЕННИХ ДЕЛ СССР

Главное управление
уголовного розыска
г. Москва

17 04.91 г. № 24/ж-481,

на №

374740 Азербайджанская республика, н. п. Ханлар, ЦРБ
тт. Мамедову А. К.
Байрамову И. А.

Уважаемые тт. Мамедов А. К. и Байрамов И. А. !

Проверка Вашей телеграммы о противоправных действиях со стороны лиц армянской национальности поручена МВД Азербайджанской республики, откуда Вам будет сообщено о результатах. Исполнение нами взято на контроль.

Начальник отдела А. С. Федоров

ТВ 2199—86

РЕДАКЦИЯ ГАЗЕТЫ

**ПРАВДА**

125867, ГСП, Москва, А-137,
ул. «Правды», 24
Телефон 250-52-29

При повторном обращении просим указывать наш номер.

Уважаемый тов. Байрамов!

Ваше письмо получили. Оно принято редакцией к сведению и будет учтено в дальнейшей работе.

Всего доброго

Отдел социальной политики

А.Черненко

I201/4

17 ... 1989

Наш №

Типография газеты «Правда». Зак. 6622.

*Sov.İKP MK-nın baş katibi* M.S. Qorbaçov yoldaşa

Surəti: «PRAVDA» qəzetinin baş redaktoru ***Afanasyev yoldaşa***

*«Pravda » qəzetinin17 dekabr 1988-ci il tarixli nömrəsində Ermənistan Kommunist Partiyası MK-nın, Ermənistan SSR Ali Soveti və Nazirlər Sovetinin orqanı olan «Kommunist» qəzetinin 13 dekabr 1988-ci il tarixli nömrəsində çap edilmiş « Bədbəxtlik saatı və məsuliyyət saatı» adlı məqaləni böyük sevinc hissi ilə oxudum. Nəhayət, Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrə mətbuatda prinsipial partiya qiyməti verilir.Biz gözləyirdik. Partiya tərəfindən baş verən hadisələrə belə prinsipial qiymət veriləcəyini gözləyirdik.*

*Təəssüf ki, çox uzun müddət , düz 10 ay gözlədik.*

*Hazırda da partiya və hökumət tərəfindən görülən tədbirlərin yarımçıq olması, nə isə bir astagəllik bizi qaygılandırır.Həmin «Kommunist» qəzeti hadisələrin başlanğıcından- 1988-ci ilin fevral ayından faktiki olaraq Kommunist Partiyasının deyil, «Qarabağ» və «Krunk» komitələri deyilən təşkilatların orqanı kimi fəaliyyət göstərirdi. Bu qəzetin hər bir məqaləsində Azərbaycana və Azərbaycan xalqına qarşı açıq düşmənçilik və emo- siyaların coşub daşması üstünlük təşkil edirdi. Bu qəzetin səhifələrində necə materiallar çıxmamışdır. Elə bil ki, Ermənistan ziyalıları, alimləri yarışırdılar-Azərbaycana kim daha çox böhtan deyə bilər, onu gözdən sala bilər. Bu fəaliyyət 1988-ci ilin sentyabr – noyabr aylarında öz apogeyinə qalxdı. Necə məqalələr çıxmamışd ı- 4 noyabr - «Suayrıcı» (məqalənin məğzi Sumqayıt şəhərində genosid olmuşdur fikridir), 2 noyabr «Albanofillər və tarixi həqiqət» (guya Azərbaycanlılar Albanların nəsilləri deyildir ), digər nömrədə Henrix Poqosyanın iftiralarla dolu intervyusu. Və birdən bu «Kommunist» qəzeti öz kursunu 180 dərəcə dəyişərək yuxarıda göstərilən məqaləni çap edir.Burada məntiq yoxdur. Bu qəzetin redaktoru və əməkdaşları törətdikləri əmələ görə cəza alacaqlarmı? Sonra. SSRİ Ali Soveti Rəyasət Heyətinin 18 iyul 1988-ci il məlum qərarından sonra yazıçı Sero Xanzadyan Yerevan şəhərində mitinqlərdə məzmun etibarı ilə partiya və dövlətin əleyhinə çıxış edirdi. Ermənistan KP MK- nın bürosu onun partiya məsələsini müzakirə etmişdir. Ancaq necə? Qəbul edilmiş qərardan hətta belə aydın deyil ki, ona hansı partiya cəzası verilmişdir. Tərsinə qərarda deyilirki, guya böyük erməni yazıçısı çaş- baş düşmüşdür. Məgər o çaş- baş düşmüşdür,yoxsa bizim ideoloji düşmənlərimizin tərəfinə keçmişdir? Zori Balayanın «Ocaq» kitabı SSRİ Nəşriyyat Komitəsi tərəfindən dövlət əleyhinə bir kitab kimi qiymətləndirilmişdir. Ancaq Zori Balayan hələ də «Literaturnaya qazeta»nın xüsusi müxbiri qalmaqla , məqalələr yazmaqda davam edir, Ermənistan Yazıçılar İttifaqının partiya yığıncağında Dağlıq Qarabağ və onun ətrafında baş verən hadisələrə dair çıxışlar edir, « Dağlıq Qarabağ problemini» necə həll etmək barədə « məsləhətlərini» verir. Zaqafqaziyanın bu gərgin günlərində milliyyətci hücumlarla Ermənistan televiziyasında çıxış edir. Və onu heç kim dayandırmır, onun fəaliyyətinin qarşısı alınmır.*

*Yazıçı , daşnak Barunakın qızı , «Millət Anası» Silva Kaputikyan «Drujba Narodov» jurnalının 6- cı nömrəsində yazır:*

*Yenə də Şəhərlər, kəndlər keçərəm,*
*Bir əlimdə berdanka birində kəfən,*
*Ölümə də , qəhrəmanlığa da*
*əvvəlcədən hazıram !*

*Ondan soruşmurlar ki , nə üçün hansı məqsədlə o «berdanka və kəfənlə » kəndlərə gedir və kimin üzərinə gedir.*
*Şəxsən mən hesab edirəm ki, bu böyük siyasi oyunda «Qarabağ» komitetçiklərinin birinci ideoloqu odur.*
*Aktyor Sos Sarkisyan qəzetdə neofaşistlərə bənzər intervyu verir : « Ermənilər və estonlar ali irq , azərbaycanlılar və türkmənlər geridə qalmış irqdəndirlər».*
*Yerevan Univerisitetinin professoru Nazaryan göstərilən «Kommunist» qəzetinin səhifələrində nə istəyirsə , onuda yazır.*

*Elə bunları da - Silva Kaputikyanı, Nazaryanı və Sos Sarkisyanı Qarabağa göndərirlər ki, « xalqı sakitləşdirsinlər». Təsəvvür edin ki, onlar Dağlıq Qarabağ xalqını necə sakitləşdirərlər.*
*«Sovetakan Hayastan» qəzetinin səhifələrində müxbir Edvard Şaqinyan azərbaycanlılar haqqında deyir ki , « Onar buradan gedirlər ,qoy getsinlər, onların dərdindən burada ölən yoxdur ».*
*« Qrakan tert » (Ədəbiyyat qəzeti) qəzetinin səhifələrində « Sumqayıt genosidinə » həsr edilən Ermənistanın şəhər və kəndlərində və Stepanakertdə qoyulan heykəllərin şəkilləri çap edilir. Buna nə ad vermək olar?*
*Belə çıxır ki, Sumqayıtda da «Sumqayıt qəhrəmanlarına » heykəllər qoyulmalıdır.*
*Bütün bunlara heç kim tərəfindən nəzarət edilmir, heç bir qiymət verilmir.*
*Mətbuatdan oxuyandakı buraxılmış «Qarabağ» komitəsi Ermənistan Yazıçılar İttifaqının bianasında yerləşir !Adamı heyrət basır, təəccübünü gizlədə bilmir. Belə də «İkihakimiyyətlikmi» olar?*
*Əğər ikihakimiyyətlik deyilsə ,onda onlar niyə cəzalandırılmırlar? Sovet qanunları niyə işləmir? Doğurdanmı bu « Krunk », « Qarabağ » komitələrini yer üzündən silmək olmaz?*
*Ümidimiz var ki, bizim hüquq mühafizə orqanlarımız və partiyamız bu siyasi avanturistlərə layiqincə qiymət və cəza verəcəkdir. Ancaq tələsmək lazımdır. Onsuzda biz çox gecikmişik. Demokratiya anarxiya demək deyildir. Biz sülh vaxtında müharibə qanunları ilə yaşamaqdan bezmişik.*

İslam Bayramov,
AZƏRBAYCAN SSR
Xanlar şəhəri ,
1 May məhəlləsi bina 7 mənzil 6
21 dekabr 1988-ci

УВЕДОМЛЕНИЕ О ВРУЧЕНИИ ПОЧТОВОГО ОТПРАВЛЕНИЯ

З № 251
МОСКВА, К-132

ПОЧТА СССР 10

(АДРЕСНАЯ СТОРОНА ЗАПОЛНЯЕТСЯ НА ИМЯ ОТПРАВИТЕЛЯ ПОЧТОВОГО ОТПРАВЛЕНИЯ)

Куда Азерб. ССР г. Хачмас
1 Майский квартал д 7 кв 6

Кому Байрамову Исламу Абдулла оглы

374740

Индекс предприятия связи места назначения

Мин-во связи СССР, 1984. З. 106820. ППФ Гознака. Ц. 10 к.

---

заказн. (вид отправления) из Хачмас за № 251 (почт. квит.)

ценностью на ______ руб. с наложенным платежом ______ коп., отправленное 21/XII 88 (число, месяц, год)

... Москва ЦК КПСС

... ген. секретарю т. Горбачеву М.С.

Вручено „____“ ________ 19__ г. лично по доверенности (кому)

СДАНО
В ОБЩИЙ ОТДЕЛ ЦК КПСС

Подпись руководителя предприятия связи (цеха, участка)

27/12

(место подписи)

(календ. шт. дня получения уведомления)

(календ. шт. дня отправл. уведомления)

30.12.88

Обведенное жирной чертой заполняется отправителем

МЕСТО ДЛ...

«İzvestiya» qəzetinin müxbiri
S.Dardıkinə

Sizin qəzetdə «Düşüncələrdən sonra … düşüncələr» adlı məqalənizi oxudum. Mənə elə gəlir ki, Siz bu problemi ya çox pis bilirsiniz, ya da bilərəkdən baş verənlərə həqiqi qiymət vermirsiniz. Dağlıq Qarabağda əhalinin qanuni maraqlarına barmaqarası baxılmamışdır. Belə məsələ yoxdur və olmayacaqdır. Statistika təsdiq edir ki, bu vilayətin inkişafı Azərbaycanın qonşu rayonlarından intensiv olmuşdur.

Bəs Zori Balayanın « Oçaq », « Əsl kişinin Söhbətləri » ( ingilis dilində) , «Odlar ölkəsində» kitablarını necə izah edək?

«Oçaq» kitabı Ermənistanın Rusiya ilə birləşməsinin neçə illiyinəsə həsr edilib, aydındır ki, orada Ermənistandan söhbət getməlidir. Ermənistanın Rusiya ilə birləşməsinə Azərbaycanın Naxçıvan , Qarabağ ,Əylis və digər yaşayış məntəqələrinin nə dəxli var? Eləcə də Oljas Süleymenovun «Aziya» kitabının , yaxud Kirovakanda molla ilə söhbətin? Təəssüf ki, belə kitabların sayı bir deyil , iki deyil milyonlarladır.

Bu kitabların müəllifləri nə istəyir?

Demək olar ki, bütün qədim alban tarixi şəxsiyyətlərini , tarixçilərini , kitablarını ermənilərin hesab edən , tarixi saxtalaşdıran bu «erməni akademikləri» nə istəyirlər?

1988-ci ilin fevral-mart aylarında respublika qəzetləri «Kommunist» , «Sovetakan Hayastan» ın səhifələrində belə səslər ucalırdı ki, « mitinqlərdə o ,adamlar iştirak edirlər ki, onlar tarixi pis bilmirlər» .Bəs bunu necə izah edək? Və nəhayət «Krunk» və «Qarabağ» komitələrinin fəaliyyəti.

19 martda « Qarabağ » komitəsinin iclasında zalda 700 nəfər, bayırda isə 3000 nəfər nə edirdilər? Dağlıq Qarabağ vilayətinin sosial-iqtisadi inkişafının surətləndirilməsi proqramını alqışlayırdılar? Yoxsa deyirdilər ki, belə proqram bizə lazım deyil, əgər Azərbaycanın rəhbərliyi bu proqramı yerinə yetirməyə başlasa ,onda Qarabağ əldən getdi. Bəs bunu necə izah edək?

Bu proqramın yerinə yetrilməsinə başlanandan sonra əhalinin qanuni maraqları bərpa edilirdisə, nümayəndə heyəti üzvləri Sov.İKP MK-nın katibinin qəbulunda olarkən daha nə istəyirdilər? Bunu necə izah edək ki, DQMV-nin yeni 1 katibi Q.Poğosyan o günlərdə Dövlət Komissiyasınım üzvü Laxtinə deyirdi: « Bizim əsas məqsədimiz.. »

Sizsə hər şeyi Sumqayıtla bağlayırsınız. Sizin nə mövqedə durduğunuz aydın deyildir.

Yazırsınız ki, vəziyyəti düzəltmək lazımdır. Əlbəttə, sözsüz lazımdır.! Ancaq yuxarıdakı suallar öz cavabını almayanadək bu iş hələ uzaqdadır. Bir şey aydındır: bu adamlar milli izolyasiya , milli qapalılıq istəyirlər. Bu haqda isə Siz hec cürə danışmaq istəmirsiniz. İstəmirsiniz, istəməyin, allah xətrinə ! Bu sizin öz müxbirlik işinizdir.

**İslam Bayramov ,**

**AZƏRBAYCAN SSR**
**Xanlar şəhəri ,**
**1 May məhəlləsi bina 7 mənzil 6**

## Teleqramlar

**Москва. ЦТ. ТЕЛЕВИДЕНИЕ**
**ПРОГРАММА « 7 ДНЕЙ»**
**ТИХОМИРОВУ.**

**Вчера в горестные дни Азербайджана эти бессовестные и наглые армяне опять талдычали о блокаде Армении и лили крокодиловые слезы. Надо от них спросит , а кто 18 января закупировал тоннели в Мегринском участке? Создается впечатление что , у создателей программы « Время» и «7 дней» над плечами ни головы, а что то другое . Ваше лицемерные освещение событий в течении двух лет довел Азербайджан нынешному состоянию. Будет ли, конец этой двуличной политике? Позор лицемерам!**

**Ислам Байрамов АЗ. ССР г. Ханлар.**
**29.01.1990 г.**

( Dünən , Azərbaycanın bu qəmli günlərində bu vicdansız və kobud ermənilər,yenə Ermənistanın blokadası haqqında zəvzəyir, timsahın göz yaşlarını axıdırdılar. Onlardan soruşmaq lazımdır ki, yanvarın 18-də Meğri sahəsində tuneli kim bağlamışdı? Belə bir təəssürat yaranır ki, «Vremya» və « 7 GÜN» proqramlarının yaradıcılarının çiyinləri üstündə baş deyil, nəsə başqa şeydir**.** Sizin iki il ərzində hadisələri ikiüzlü verməniz Azərbaycanı hazırki vəziyyətə düçar etmişdir.Bu ikiüzlü siyasətin sonu olacaqmı? İkiüzlülərə ayıb olsun**!** )

МОСКВА 276/1706 13 29/1 1530=
ХАНЛАР УСН=

Ханлар 20-й квартал
дом 7 кв 6 Байрамову
Ислам Абдулла оглы

79701 29/1 7 ДНЕЙ ВРУЧЕНА ЭКСПЕДИЦИЮ ЦЕНТРАЛЬНОГО ТЕЛЕВИДЕНИЯ
УПОЛНОМОЧЕННОМУ НА ПРИЕМ КОРРЕСПОНДЕНЦИИ ДЕРГАЧЕВОЙ
29/1 1430= ТЕЛЕГРАФИСТ ЕРЕМИНА- НННН

30/1 0142

2999
01 188---/2ПРАФ
01 188522/02РУС ТТ

**Генеральному Секретарью ЦК КПСС М. С. Горбачову**
**ЦТ ТЕЛЕВИДЕНИЮ**

**Позор и стыд нашей идеологии. Из Армении азербайджанцев пересыляют силой в окружении танков и военнослужащих, а программа «Время» показывает как будто в Азербайджане перерезали всех армян. Еще раз позор и стыд программу «Время» за дезинформации населения страны.**

**Ислам Байрамов АЗ. ССР г. Ханлар.**

**01.12 . 1988 г.**


Позор и стыд нашему идеологию. Из Армении азербай-
джанцев пересыляют силой на окружении танков и
военнослужащих. А. программа „Время" показывает как
будто, в Азербайджане перерезали всех армян.
Еще раз позор и стыд программу „Время"
за дезинформации населения страны.
Байрамов И.

Ф. ТГ-2

**КВИТАНЦИЯ**

в приеме телеграммы № 901.

В Москва секретарю

(куда, кому)

Колич. сл. 73 категория и вид об увт.

Общая плата четыре руб. 95 коп.

Принята 09 час. 79 мин.

Подпись [signature]

---

Ф. ТГ-2

**КВИТАНЦИЯ**

в приеме телеграммы № 902

В Москва программ вре

(куда, кому)

Колич. сл. 73 категория и вид об увт.

Общая плата четыре руб. 95 коп.

Принята 09 час. 40 мин.

Подпись [signature]


УВЕДОМЛЕНИЕ О ВРУЧЕНИИ ПОЧТОВОГО ОТПРАВЛЕНИЯ

3 № 251 МОСКВА, К-132

Куда Азерб. ССР г. Хачмас
1 Майский квартал д 7 кв 6
Кому Байрамову Исламу Абдулла оглы

374740

Индекс предприятия связи места назначения

Мин-во связи СССР, 1984. З. 106820. ППФ Гознака. Ц. 10 к.

(АДРЕСНАЯ СТОРОНА ЗАПОЛНЯЕТСЯ НА ИМЯ ОТПРАВИТЕЛЯ ПОЧТОВОГО ОТПРАВЛЕНИЯ)

Заказ. из Хачмаса за № 250
(вид отправления) (почт. квит.)
ценностью на ______ руб. с наложенным платежом
____ коп., отправленное 21/XII 89
(число, месяц, год)
Москва ЦК КПСС
ген. секретарю т. Горбачеву М.С.

Вручено „___“ ______ 19__ г. лично по доверенности (кому)

СДАНО В ОБЩИЙ ОТДЕЛ ЦК КПСС

Подпись руководителя предприятия связи (цеха, участка)

(место подписи)

(календ. шт. дня получения уведомления)

(календ. шт. дня отправл. уведомления)

Обведенное жирной чертой заполняется отправителем

МЕСТО ДЛЯ

Qeyd. Məktublar və teleqramlar rus dilində yazılmış, kitab üçün azərbaycan dilində işlənmişdir

# MÜHARİBƏNİN XRONİKASI

1990- cı il

## ƏMƏLİYYAT ŞƏRAİTİ NECƏDİR ?

Son günlər Ermənistan SSR-lə həmsərhədd olan ərazimizdə törədilən təxribatlar daha da genişlənir. Erməni yaraqlıları yeni -yeni fitnəkarlıga əl atır, kəndlərimizi gülləyə tutur, evləri, təsərrüfat binalarını partladır ,adamları girov götürürlər . Hadisələr səngimək əvəzinə daha da güclənir ,adamlar həyəcan içində nə vaxt sakitlik yaradılacagını gözləyirlər. Səbr tükənir ,əsəblər gərilir gündən- günə adamların sözün əsl mənasında canı bogazına yıgılır. Mərkəzi hakimiyyətə, Moskvaya müraciətlər cavabsız qalır, erməni yaraqlıları isə göz verib işıq vermirlər. **Görün, nə günə qalmışıq ki, mayın 27-də öz doğma torpagımızda — Xanlar *rayonunun Oktyabr kəndindən xeyli aralı erməni milliyyətlindən olan silahlı şəxslər həmin kəndin sakini İbad İbrahimovu girov götürmüşlər. Onlarla danışıq aparılandan sonra İ. İbrahimov buraxılmışdır.***

*« Vətən Səsi » qəzeti 6 iyun 1990 № 7*

# AZƏRBAYCAN DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ

Azərbaycanın qonşu Respublika ilə sərhədyanı rayonlarında erməni qaçaq quldurların fitnə –fəsadı ara vermir.Əhalinin Təhlükəsizliyini təmin etmək üçün oraya daxili işlər orqanlarının əlavə quvvələri ,daxili qoşunların hərbi qulluqçuları göndərilmiş , mühüm obyektlər mühafizə altına alınmışdır.

Azərbaycan SSR Daxili İşlər Naziri M.N.Əsədov bir neçə gün ərzində Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarında olmuşdur. O,bir sıra yaşayış məntəqələrinə , yaylaqlara getmiş , çobanlarla və onların ailələri ilə görüşüb söhbət etmiş,onları düşündürən suallara cavab vermiş, adamların təhlükəsizliyini təmin etmək üçün görülən tədbirlərdən danışmışdır.Rayonların partiya və təsərrüfat fəalları , ictimaiyyətin nümayəndələri ilə də görüşlər olmuşdur.

Səfərin yekunları Gəncədə müzakirə edilmişdir. SSRİ Daxili İşlər Nazirinin müavini İ.F.Şilov buraya gəlmişdir.

Şilov yoldaşı və SSRİ Daxili İşlər Nazirliyinin digər rəhbərlərini vəziyyətlə tanış etmişlər .

Qeyd olunmuşdur ki,sərhəddə əmin amanlıgın bərpa edilməsi hər şeydən əvvəl Ermənistan və Daglıq Qarabag ərazisində hərbiləşdirilmiş erməni dəstələrinin silahsızlaşdırmaq sahəsində ciddi tədbirlər görülməsindən asılıdır.

İ.F. Şilov və M.N. Əsədov yoldaşlar Xanlar rayonuna getmiş , burada Çaykənddə asayişin təmin olunması ilə baglı məsələləri müzakirə etmişlər. Məlum oldugu kimi bu kəndə tanınma nişanları olmayan vertalyotlar uçub gəlir.Ermənistan tərəfindən qanuna zidd əməllərin qarşısını almaq üçün tədbirlər müəyyənləşdirilmişdir.

« Kommunist » qəzeti 22 iyul 1990 №166 daxili işlər orqanlarının əlavə quvvələri ,daxili qoşunların hərbi qulluqçuları göndərilmiş , mühüm obyektlər mühafizə altına alınmışdır.

Azərbaycan SSR Daxili İşlər Naziri M.N.Əsədov bir neçə gün ərzində Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonlarında olmuşdur. O,bir sıra yaşayış məntəqələrinə , yaylaqlara getmiş , çobanlarla və onların ailələri ilə görüşüb söhbət etmiş,onları düşündürən suallara cavab vermiş, adamların təhlükəsizliyini təmin etmək üçün görülən tədbirlərdən danışmışdır.Rayonların partiya və təsərrüfat fəalları , ictimaiyyətin nümayəndələri ilə də görüşlər olmuşdur.

Səfərin yekunları Gəncədə müzakirə edilmişdir. SSRİ Daxili İşlər Nazirinin müavini İ.F.Şilov buraya gəlmişdir.

*Şilov yoldaşı və SSRİ Daxili İşlər Nazirliyinin digər rəhbərlərini vəziyyətlə tanış etmişlər .*

*Qeyd olunmuşdur ki,sərhəddə əmin amanlıgın bərpa edilməsi hər şeydən əvvəl Ermənistan və Daglıq Qarabag ərazisində hərbiləşdirilmiş erməni dəstələrinin silahsızlaşdırmaq sahəsində ciddi tədbirlər görülməsindən asılıdır.*

*İ.F. Şilov və M.N. Əsədov yoldaşlar Xanlar rayonuna getmiş , burada Çaykənddə asayişin təmin olunması ilə bagli məsələləri müzakirə etmişlər. Məlum oldugu kimi bu kəndə tanınma nişanları olmayan vertalyotlar*

*uçub gəlir.Ermənistan tərəfindən qanuna zidd əməllərin qarşısını almaq üçün tədbirlər müəyyənləşdirilmişdir.*

*« Kommunist » qəzeti 22 iyul 1990 №166*

* * *

*AZƏRBAYCAN DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ*

*Azərbaycan SSR Nazirliyi Kollegiyasının geniş iclasında «SSRİ qanunvericiliyi ilə nəzərdə tutulmamış silahlı dəstələrin yaradılmasını qadagan etmək və silah qanunsuz saxlandıgı hallarda onu geri almaq haqqında « SSRİ Prezidentinin Fərmanını yerinə yetirmək sahəsində daxili işlər orqanlarının və bölmələrinin vəzifələri müzakirə edilmişdir. Kollegiyada qeyd edilmişdir ki ,Nazirlik Ermənistanla həmsərhədd rayonlarda vəziyyəti sabitləşdirmək səylərini ardıcıl surətdə artırır ,həmin rayonlara milisin, daxili qoşunların əlavə*

*qüvvələri göndərilmişdir. Ekstemislərin fitnələri , onların quldurluq hərəkətləri qətiyyətlə dəf edilir. Xüsusi iri əməliyyat istintaq qrupları yaradılmışdır və onlar qanunvericiliyə müvafiq surətdə DQMV-də , ŞAUMYAN rayonunda ,Xanlar rayonunun Çaykənd kəndində yaraqlı dəstələrini buraxmaga ,silah ,döyüş sursatını ,patlayıcı maddələri , texnikanı və hərbi əmlakı müsadirə etməyə başlayırlar.Fəaliyyəti əlaqələ*

*ndirmək ,vəziyyətə nəzarət etmək və dəyişiklərə uygun tədbir hüquq qaydasını bərpa etmək ,respublikanın suverenliyini və ərazi bütövlüyünü təmin etmək üçün başqa əlavə tədbirlər həyata keçirilir.*

***« Kom m u n i st » qəzeti 2 avqust 1990 №1***

## ***Gərginlik azalmır***

*.....Eyni tarixdə ( Sentyabrın 14-də İ.B.) Şaumyan rayonu ərazisindən Xanlar rayonuna bir qrup erməni yaraqlısı soxulmuş və Çaylı kəndi yaxıörüşdə otlayan mal-qaraya avtomatdan atəş açmışlar. Milis işçiləri hücumu dəf etmişlər.*

*«Vətən Səsi» qəzeti 19 sentyabr 1990 № 22*

* * *

*Təcavüz davam edir*

*Dekabrın 12-də....ŞAUMYAN rayonunun ermənilər yaşayan Buzluq kəndindən azərbaycanlılar yaşayan SARISU kəndi atəşə tutulmuşdur.*

*« Vətən Səsi » qəzeti 19 dekabr 1990 örüşdə otlayan mal-qaraya avtomatdan atəş açmışlar. Milis işçiləri hücumu dəf etmişlər.*

*«Vətən Səsi» qəzeti 19 sentyabr 1990 № 22*

* * *

*Təcavüz davam edir*

*Dekabrın 12-də....ŞAUMYAN rayonunun ermənilər yaşayan Buzluq kəndindən azərbaycanlılar yaşayan SARISU kəndi atəşə tutulmuşdur.*

*« Vətən Səsi » qəzeti 19 dekabr 1990 № 35*

* * *

## *1991 ci il*

### *PARTLAYIŞLAR ARTIB*

*...Fevralın 20-də torpagımızda yenə agır faciələr törədilmiş günahsız qanlar axıdılmışdır. Xanlar rayonunu Dozular kəndi yaxınlıgında 27-29 AQD №li UAZ 469 markalı avtomaşına silahlı ermənilər tərəfindən basqın edilmiş ,Quşçu Armavir*

*kəndindəki Vaqif adına sovxozun direktoru G.Musayev və sürücü D.İmanov vəhşicəsinə öldürülmüşlər.........*

*« Vətən Səsi » qəzeti 27 fevral 1991 № 39*

* * *

*Aprelin 19-da Xanlar rayonunun ermənilər yaşayan Martunaşen kəndi ərazisindən Quşçu-Armavir kəndinə basqın edilmişdir. Qrantamyot, pulemyot və avtomatlarla silahlanmış quldurlar Vaqif adına sovxozun idarə binasını və üç fermanı yandırmışlar. Erməni yaraqlıları ilə hərbiçilər arasında atışma*

*olmuşdur.Qeyri- bərabər döyüşdə hərbi hissəyə məxsus BTR yandırılmış , 3 hərbi qulluqçu yaralanmışdır.* «Kommunist» qəzeti 24 aprel 1 991 № 79

## *XƏBƏRLƏR*

***Xanlar . Yerli hakimiyyət orqanları ermənilərin işinə qarışmır***. *Çaykənddə mülki geyimdə olan bir neçə nəfər və bir milis mayoru həyətlərin birində basdırılmış tabutu çıxarıb aparıblar.Tabut o qədər agır olub ki,onu 8 nəfər güclə götürüb .Soruşanda da izah ediblər ki, tabutda məşhur bir ermənin cəsədi var.Maraglıdır ki, «tabutaparma» əməliyyatından kəndin yerli hakimiyyət orqanlarının xəbəri olmayıb.*

*AZADLIQ qəzeti 10 sentyabr 1991 №38*

* * *

## *Goranboy . Növbəti hədəf GƏNƏCƏDİR*

***Qeyri- rəsmi məlumata görə , ermənilər ORTA AGCAKƏNDDƏ (ŞAUMYAN qəsəbəsi) uzaqvuran raket qurgusu quraşdırılır.Həmin qurgu ilə 50-60 kilometrlikdə yerləşən GƏNCƏ şəhərini rahatca vurmaq olar.***

*«AZADLIQ » qəzeti 1 oktyabr 1991 № 44*

* * *

***Gəncə şəhər DİN rəis muvini Şahin Mustafayevdən aldıgımız məlumata görə Goranboy cəbhəsində atışmalar seyrəlib. Ermənilər öz mövqelərini möhkəmləndirir, əlavə quvvələr gətiri r ,səngər qazırlar.Sarısu ,Kəpəzin altı, üstü,Göygöl və Çaykəndin üst tərəfinin təhlükəsizliyini qoruyan milis idarəsinin hərbi sursata kəskin ehtiyacı var.Hərbiçilərə texnika və hərbi sursat satmaga icazə verilib.Sovet Ordusu hər iki tərəfə açıq –aşkar silah və hərbi texnika satır. Bununla yanaşı Respublika ALİ SOVETİNİN nümayəndələrinin silahların inventarlaşdırılmasına komandanlıq mane olur. Operativ vəziyyətin mürəkkəbliyi üzündən 20 gündür ki , Gəncəyə Göygöldən su gəlmir .***

*AZADLIQ qəzeti 10 dekabr 1991 № 64*

* * *

## *1992 - ci il*

***Goranboyun Todan,Sarısu, Şəfəq və Zeyvə kəndlərini bazar ertəsi ermənilər top və raket atəşinə tutublar.***

*AZADLIQ qəzeti 7 yanvar 1992 № 2*

* * *

**Goranboy Rayon DİŞ - nin rəisi** Cavanşir Babayevin **verdiyi məlumata görə yanvarın 8-də Sarısu kəndinə basqın olub. Bir nəfər həlak olub ,8 nəfər yaralanıb. Mi lli ordunun iki əskəri (Cəfərov Ramiz, İsmayılov İsmayıl ) itkin düşüb. Düşmən də itkiyə məruz qalıb. Hərbi vertalyotlar gecələr Agcakənd ( Şaumyan) qəsəbəsinə uçmaga davam edir.**

*AZADLIQ qəzeti 10 yanvar 1992 № 3*

* * *

**XƏBƏRLƏR**

**Goranboy**.YANVARIN 6-da saat 7-də erməni hərbi birləşmələri Buzluq istiqamətindən SARISU ətrafında yerləşən AZƏRBAYCAN MİLLİ HƏRBİ QÜVVƏLƏRİNİN mövqeləri üzərinə hücuma keçiblər.Hücum zamanı SARISU kəndi güclü artilleriya atəşinə tutulub.Buzluq yaxınlıgında təpələrdə əlverişli mövqe tutaraq erməni dəstələri SARISU və TODAN kəndlərinin müdafiəsi üçün qurulmuş postları şiddətli atəşə tutublar.İlkin həmlələrdən sonra Milli ordunun döyuşçüləri Aydınov Altay,Məmmədov Mürsəl və Səfərov İlqar yaralanıb.Onları Gəncəyə xəstəxanaya aparıblar. Döyüşlər bütün gün ərzində davam edib.

Yanvarın 6-da gedən agır döyüşlər məlumat alınan vaxt- yanvarın7-də saat 9 –da hələ davam edirdi. Milli Ordunun döyüşçüləri Novruzov İlqar həlak olub , Cəfərov Ramiz və İsmayılov İsmayıl itkin düşüblər.Döyüşlər nəticəsində daha 4 nəfər yaralanıb.

*«MÜXALİFƏT» qəzeti 8 yanvar 1992 № 2*

* * *

Goranboy. **Yanvarın 19- na keçən gecə Todan və Şəfəq kəndləri qısa müddətə atəşə tutulub.Yanvarın 17-də vertolyotla və 80 nəfər silahlı erməni döyüşçüləri ilə bura gəlmiş** ZORİ BALAYAN **özünün səfərini davam etdirir. Bu ərazidən Gənc ə ---Xankəndi marşrutu ilə hərbi vertolyotlar uçurlar. Vertolyotlar yerdən göndərilən siqnallara cavab vermirlər.Bununla əlaqədar Gəncədə yerləşən hərbiçilərin komandanlıgına xəbər verilib ki, siqnallara cavab verməyən vertolyotlar atəşə tutulacaq. Yanvarın 20 -nə keçən gecə Todan və Şəfəq kəndləri atəşə tutulub.Bu gün** SARISU **kəndində öldürülən 2 nəfərin və 1991-ci ilin sentyabrında itkin düşən 3 nəfərin qaytarılması barədə danışıqlar aparılıb və saat 1-də bu məsələ ilə əlaqədar yenə də görüşlər keçiriləcək.**

*«MÜXALİFƏT» qəzeti 22 yanvar 1992 № 4*

*   *   *

## XƏBƏRLƏR
## GƏNCƏDƏ MİTİNQ

FEVRALIN 1-də QARABAG hadisələrinə həsr edilmiş mitnq keçirilmişdir. Mitinqin sonunda şəhər icra hakimiyyətinin başçılıgı ilə XTMD-çilər mitinqə yıgışanları təhqir edib ,çaxnaşma salmaga çalışıblar.Görünür keçmiş kommunist tör tököntüləri xalqın dinc mübarizəsinin qarşısını qanla almaq niyyətindədirlər.

*« MÜXALİFƏT » qəzeti 5 f evral 1992 № 8*

* * *

## Əməliyyat davam edir

Çərşənbə günü **Todan kəndi** yaxınlıgında erməni quldur dəstələri ilə **Goranboy** və **Xanlar rayon** ərazi müdafiə batalyonları və yerli özünü müdafiə dəstələri arasında qanlı döyüş olub. Döyüşçülərimiz Erkəş və Mənəşid kəndlərində kəndlərində olan erməni quldur dəstələri ni tamamilə darmadagın edib. Düşmən xeyli itki verib. Biz tərəfdən isə

4 nəfər həlak olub , on bir nəfər yaralanıb. Bir nəfər itkin düşüb.

*AZADLIQ qəzeti 21 fevral 1992 № 15*

*   *   *

**GORANBOY:** Aprelin 25-nə keçən gecə erməni hərbi birləşmələri Sarısuya hücum ediblər .Döyuşdə bir əskərimiz yaralanıb.

*AZADLIQ qəzeti 28 aprel 1992 № 38*

*   *   *

*XANLAR: Son iki gündə Sarısu kəndi toplardan və tanklardan atəşə tutulub. Bir nəfər yaralanıb.Kənd istiqamətində ermənilərin yeni quvvələri toplanmaqdadır.*

*AZADLIQ qəzeti 3 iyun 1992 № 45*

*   *   *

**GORANBOY:** İyunun 14-15 də **GÜLÜSTAN KƏNDİ** erməni yaraqlılarından azad edilib , **ŞAUMYAN** qəsəbəsi quldur ermənilərdən azad olunduqdan sonra sakitlik yaranıb. Milis növbətçisi Bayramov bildirir ki, 4 nəfər həlak olub, 20 nəfər yaralanıb.

*AZADLIQ qəzeti 17 iyun 1992 № 4 9*

*          *          *

Çaykənd kəndi və onun ətrafı kəndlərin ərazisində 1988-1991-ci illərdə millətlərarası münaqişə zəmnind ə törədilmiş

## CİNAYƏTLƏR

(Məlumat Xanlar rayon prokurorluğunun rəsmi məlumatları əsasında tərtib edilmişdir.)

| *№* | *Cinayətin qısa məzmunu* | *Nə vaxt və hansı orqan tərəfindən cinayət işi qaldırılmışdır* | *İş CM-nin hansı maddəsi üzrə açılıb* | *İstintaqın nəticələri* | *Açılmış cinayət işin №-si* |
|---|---|---|---|---|---|
| 1. | 08.08.88-ci ildə Çaykənd balıq zavodunun yaxınlığında Karavariçyan Armik Artaşoviç və Boyaxçiyan Aleksandr Baxşiyeviç Agsu çayı yaxınlığında istirahət edənlərə hücum etmiş , Ağamədov Valodya Sarı oğlunu döyərək , ona ağır bədən xəsarəti yetirmişlər. Orada istirahət edən adamlara doğru bir neçə dəfə atəş açmışlar. | 08.08.88-ci il Xanlar rayon prokurorluğu | Azərb.Res.CM-nin 207-ci mad 3-cü hissə, 220- ci mad 1 hiss , 220 -ci mad 2-ci hissəsi , 102-ci madd 1-ci hissə | İş məhkəməyə göndərilmişdir. Müqəssirlər Boyaxçiyan Aleksandr Baxşiyeviç 2 il müddətinə şərti cəzaya və Karavariçyan Armik Artaşoviç 1 il 6 ay müddətinə azadlıqdan şərti mərhum edilmişdir. | 50184 |
| 2. | 14.11.89-cu il taixdə Çaykənd sahə müfəttişi kapitan M.Abışev öz qulluq səlahiyyətlərini yerinə yetirərkən ona sui -qəsd edilmişdir. Maşını atəşə tutan ermənilər qaçıb gizlənmişlər. | 15.11.89-cu il Xanlar rayon prokurorluğu | Azərb.Res.CM-nin 199-1 15,94-ci mad 6 cı hissəsi ilə | Azər .Rəs.CPM-nin 209-3 maddəsinə əsasən dayandırılmışdır. | 50223 |
| 3. | 23.11.89-cu il tarixdə Ermənistandan gəlmiş qaçqınları Azad kəndində boş evlərə yerləşdirərkən erməni milliyyətindən olan şəxslər azərbaycanlılara hücum etmiş , toqquşma nəticəsində 9 azərbaycanlı bədən xəsarətləri almış, 1 nəfər erməni aldığı xəsarətdən ölmüşdür. | 24.11.89-cu il Xanlar rayon prokurorluğu | Azərb.Res.CM-nin 15, 94-ci mad -4 və 6 cü hissələri 191-1 maddələri ilə | Azər .Rəs.CPM-nin 209-3 maddəsinə əsasən 24 .01 .90-cı il tarixdə dayandırılmışdır. | 50225 |
| 4. | 23.11.89-cu il tarixdə Azad kəndində naməlum şəxslər Ovanes Badalyanı lomla vuraraq ağır dərəcəli bədən xəsarəti yetirmişlər. | SSRİ prokur-luğunn istintaq qrupu | Azərb. Res.CM-nin 102 -1 maddəsi ilə | | 24764 |
| | 25.11.89-cu il tarixdə Azad kəndində milis əməkdaşlarına hücum edilmiş , Xanlar rayon DİŞ-nin | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5. | rəis müavini milis mayoru Rəşid Musayev və DAM-müffətişiləri S.İsayev və İ.Məmmədov döyülərək yaralanmışlar. | 22.11.89-cu il Xanlar rayon prokurorluğu | Azərb. Res.CM-nin 191-1 maddəsi ilə | Azər .Res.CPM-nin 209-3 maddəsinə əsasən 25.01 .90-cı il tarixdə dayandırılmışdır. | 50226 |
| 6. | 29.12.89-cu idə Caykənd sakini Nersesyan Nerses Xanlar şəhərinə gəlmiş və oradan itkin düşmüşdür. | SSRİ prokurorluğu- nun istintaq qrupu | Azərb. Res.CM-nin 95-ci maddəsi ilə | | 25066 |
| 7. | 27. 11. 1989-cu ildə Azad kəndində vətəndaş ASLANOV ELDAR XIDIR oğluna və MUSTAFAYEV MÜŞFİQ RƏŞİD oğluna ölümə sui qəsd edilmişdir | 27.11.89-cu il Xanlar rayon prokurorluğu | Azərb.Res.CM-nin 15,94-ci mad -4 hissəsi ilə | Azər .Res.CPM-nin 209-3 maddəsinə əsasən 27.03 .90-cı il tarixdə dayandırılmışdır. | 50227 |
| 8. | 02.12.1989 cu il tarixdə Todan- Dozular yolunda ZİL-130 markalı 62-45 AQN №li avtomaşın erməni milliyyətindən olan şəxslər tərəfindən atəşə tutulmuşdur | 04. 12.89-cu il Xanlar rayon prokurorluğu | Azərb. Res.CM-nin 15,94-ci mad -4 və 6 cü hissələri | Azər .Res.CPM-nin 209-3 maddəsinə əsasən 04.04 .90-cı il tarixdə dayandırılmışdır | 50229 |
| 9. | 10.12.1989-cu ildə Quşçu Armavir kəndində öz evində Əliyev İsax Əhməd oğlu ağır yaralanmışldır | 12. 12.89-cu il Xanlar rayon prokurorluğu | Azərb. Res.CM-nin 15, 95-ci maddəsi ilə | Azər . Res. CPM-nin 209-3 maddəsinə əsasən 12.04 ..90-cı il tarixdə dayandırılmışdır | 50231 |
| 10. | 28.12.1989-cu ildə Quşçu - Armavir kəndində S.A.Abbasovun evinə pəncərədən partlayıcı maddə atılmış nəticədə S.A.Abbasovun 4 yaşlı oğlu həlak olmuş, bir neçə nəfər yaralanmışdır . | 29. 12.89-cu il Xanlar rayon prokurorluğu | Azərb. Res. CM-nin 94-ci mad -4 və 6 cü hissələri ilə | Azər .Res. CPM-nin 209-3 maddəsinə əsasən dayandırılmışdır | 50232 |
| 11. | 12.01.1990-ci il tarixdə saat 17.00 radələrində şəxsiyyəti müəyyən edilməmiş erməni millətindən olan şəxslər vertalyot və desantdan istifadə edərək əhalisi azərbaycanlılardan ibarət olan Todan kəndinə silahlı basqın etmişlər . Nəticədə acilan atəşdən 194-8ci il təvəllüdlü Ə.Ə. Əlihüseynov , 1968-ci il təvəllüdlü Məmmədov Ə.Ə. , 1956-cı il təvəllüdlü Qasımov R.İ. , 1965- ci il təvəllüdlü Əliyexv B , həlak olmuş , 8 nəfər ağır yaralanmışdır . | 12 . 01.91 Xanlar rayon prokurorluğu | Azərb. Res.CM-94-ci mad 6 cü hissələri ilə | Desant oturtmuş 2 ədəd vertolyotun ekipaj və bort № lərini müəyyən etmək mümkün olmamışdır. Azər .Res.CPM-nin 209-3 maddəsinə əsasən 12.04 1990-cı il | 25053 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | tarixdə dayandırılmışdır | | |
| 12. | 14. 01. 1990-cı il tarixdə saat 14 radələrində Xanlar rayonu ərazisində Hacıkənd qəsəbəsinin kənarında tanınma nişanları omayan vertalyotdan açılan atəş nəticəsində 1962-ci il təvəllüdlü N.A. Vəliyev və 1969- cu il təvəllüdlü S.F. Hacıyev öl dürülmüş ,10 nəfər yaralanmışdır. | 14. 01.1990-cı il Xanlar rayon prokurorluğu | Azərb.Res.CM-nin 94-ci mad 4və 6 cı hissələri ilə | 05.05. 1990cı ildə Azərbaycan Respublika Prokurorluğuna göndərilmişdir | 25054 |
| 13. | 15.01.1990-cu il saat 16.30 radələrində şəxsiyyəti müəyyən ediməyən şəxslər tərəfindən avtomatik silahdan açılan atəş nəticəsində Todan kənd sakinləri B.İ.NƏSİBOV ölmüş və digərləri yaralanmışdır | 16.01.1990 Xanlar rayon prokurorluğu | AZ.Res.CM-nin94-cü maddəsi 4-cü hissə | 15.04.1990ci ildə dayandırılmışdır | 25055 |
| 14. | Xanlar rayonun Azad kəndində erməni milliyətindən olan şəxslər tərəfindən milis işçiləri E. İ .Əliyev , B.Verdiyev , S.Məmmədov döyülmüş , E. İ .Əliyevin tapançası alınaraq onlar 13 yanvardan 18 yanvar 1990-cı ilədək girov götürülmüşlər. | 23.01.1990 Xanlar rayon prokurorluğu | Az.Res.CM-nin120-ci maddəsi 2-ci hissə ilə | 28.04.1990ci ildə Az.Res. CPM-nin 209 maddəsinin3 -cü hissəsinə əsasında dayandırılmışdır | 25056 |
| 15. | 10.08.1990- ci ildə saat11.30 radələrində Tbilisi-Ağdam marşurutu ilə işəyən LAZ-699 makalı 43-80 AQF nömrə nişanlı avtobus partladılmışdır , nəticədə 21 nəfər ölmüş , 17 nəfər yaralanmışdır . | 10.08.1990 Xanlar rayon prokurorluğu | AZ.Res.CM-nin61 ci maddəsi ilə | 15.08.1990-ci ildə Az.Res. Prokurorluğuna göndərilmişdir | 25074 |
| 16. | 30.11.1990-ci ildə Xanlar rayonun MARTUNAŞEN kəndində erməni ekstremistləri tərəfindən milis naryadına hücum edilmiş , nəticədə milis kapitanı M.Əhmədov , leytenant S.Ağayev serjantlar S.Əiyev, R ..Məmmədov , Ş..Məmmədov həlak olmuş 3 nəfər milisoner ağır y aralanmış , 1 nəfər milisoner itkin düşmüşdür. | 01.12.1990 Xanlar rayon prokurorluğu | AZ.Res.CM-nin191-1ci maddəsi ilə | istintaq aparılır | 25084 |
| 17. | 09.01.1990-cı ildə Xanlar rayonu Quçu Armavir kəndində Şaumyan (kənd) rayonuna məxsus avtomaşında partlayıcı qurğu və tüfəng tutulmuşdur. | SSRİ PROKUROR L. istintaq qrupu | AZ.Res.CM-nin220 -ci maddəsinin 1-ci hissəsi ilə | | 24753 |
| 18 | 13.01. 1990- cı il Xanlar şəhər Kirov küçəsi 47 N- li evdə yaşayan Şahbazova Aşxenin ev əşyaları dağıdılmış özünə ağır xəsarət yetrilmişdir | SSRİ PROKUROR L. istintaq qrupu | AZ.Res.CM-nin102-ci maddəsinin 2- ci və149-cu mad 1 hissəsi ilə | | 24754 |
| 19 | | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Bakı - Qazax yolunda naməlum «URAL» avtomaşınından atılmış partlayıcı qurğudan 4 nəfər ağır xəsarət almışdır . | SSRİ PROKUROR L. istintaq qrupu | AZ.Res.CM-nin 102 mad 1-ci hissəsi ilə | | 24755 |
| 20 . | 1990-cı ilin yanvarında Xanlar şəhər Telman küçəsi 20 N li evdə yaşayan Azaryan Erikin ev əşyalarını naməlum cinayətkarlar dağıtmışl ar. | SSRİ PROKUR OR İstintaq qrupu | AZ.Res.CM-nin 149-cu mad 1-ci hissəsi ilə | | 247568 |
| 21 . | 15.01.1990-cı ildə Xanlar rayonun Zazalı stansiyasında naməlum şəxslər tərəfindən 4 ədəd döyüş tankı oğurlanmışdır. | SSRİ PROKUR OR Istintaq qrupu | AZ.Res.CM-nin 220ci mad 1-ci hissəsi ilə | | 24772 |
| 22 . | 14. 01.1990-cı ildə 55518 N - li hərbi hissəyə məxsus " URAL" markalı avtomaşından naməlum şəxslər tərəfindən döyüş silahı oğurlanmışdır. | SSRİ PROKUR OR istintaq qrupu | AZ.Res.CM-nin 220 - 1 mad 3-cü hissəsi ilə | | 24776 |
| 23 . | 27.04.1990 - cı il tarixdə bir qrup silahlı erməni quldurları Quşçu Armavir kəndinin yaxınlığında kənd sakini H. QULİYEVƏ qarşı basqın edib 5 baş malı aparmışlar. | SSRİ PROKUR ORLUGun un İstintaq qrupu | AZ.Res.CMnin 145-ci mad . 2-ci hissəsi ilə | | 24777 |
| 24 . | 04.01.1990-cı il tarixdə Zaxaryan sovxozunun gözətçisi Apres Nikolayeviç naməlum cinayətkarlar tərəfindən Öldürülmüşdür. | Xanlar rayon prokurorluğ uSSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM-nin 95-ci maddəsi ilə | | 25052 |
| 25 . | 13.01.1990 naməlum şəxslər Xanlar şəhərində yaşayan Nişamov Abramın evinə soxularaq 1400 manat pulunu almış və arvadı Amalyanı naməlum istiqamətə aparmışlar | Xanlar rayon prokurorluğ uSSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM- nin 145 mad 2-ci hissəsi ilə | | 25057 |
| 26 . | 08.02.1990-cı ildə Gəncə – Daşkəsən yolundan 200 m aralı dərədə 6 kişi meyiti tapılmışdır. | Xanlar rayon prokurorluğ u SSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM- nin 94-cü mad 4-cü hissəsi ilə | | 25058 |
| 27 . | 28.03.1990-cı ildə Gəncə – Daşkəsən yolunun 2 km-də yolun kənarındə naməlum kişi meyiti tapılmışdır. | Xanlar rayon prokurorluğ uSSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM nin 94-cü mad 4-cü hissəsi ilə | | 25061 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 28. | 03.04.1990-cı ildə Novorossiysk– Bakı yolunun 1094 km-də yoldan15 m kənardə yanmış vəziyyətdə naməlum kişi meyiti tapılmışdır. | Xanlar rayon prokurorluğu SSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM nin 95-ci maddəsi ilə | | 25062 |
| 29. | 13.01 1990-cı il Azad kəndinin yanından keçən şosse yolunda naməlum ermənilər vət. Əliyevi, Verdiyevi , Məmmədovu tutaraq 6 gün saxlamışlar. | Xanlar rayon prokurorluğu SSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM- nin 120-ci maddəsi nin 2-ci hissəsi ilə | | 25056 |
| 30. | 04.04.1990 -cı ildə Gəncə – Daşkəsən yolunun 7ci km-də basdırılmış vəziyyətdə 8 naməlum şəxsləerin meyiti tapılmışdır | Xanlar rayon prokurorluğu SSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM -nin 94-ci maddəsi nin 4-cü hissəsi ilə | | 25063 |
| 31. | 18.04.1990-cı ildə XANLAR şəhəri 1№li məktəbin hasarı yanında kənarında naməlum qadın meyiti tapılmışdır. | Xanlar rayon prokurorluğu SSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM- nin 95-ci maddəsi ilə | | 25067 |
| 32. | 14.01.1990-cı ildə azrbaycanlılarn Azad kəndinə basqını nəticəsində hərbi qulluqçulardan 4 nəfəri öldürümüşdür. | Xanlar rayon prokurorluğu SSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM -nin 191-1-ci maddəsi ilə | | 25069 |
| 33. | 05.09.1990-cı ildə Gəncə – Göygöl yolunun 18-ci km-də basdırılmış vəziyyətdə naməlum qadın meyiti tapılmışdır. | Xanlar rayon prokurorluğu SSRİ PROK istin qr ilə birlikdə | AZ.Res.CM nin 95-ci maddəsi ilə | | 25076 |
| 34. | 05.09.1990-cı ildə XANLAR rayonun VAQİİF adına sovxozun fermasından 2 baş mal ogurlanmışdır . | Xanlar rayon prokurorluğu SSRİ PROK istin qr. ilə birlikdə | AZ.Res.CM -nin 83-4-ci maddəsi ilə | | 24835 |
| 35. | 27.01.1991- cı il tarixdə bir qrup erməni quldurları SARISU KƏNDİNDƏN qayıdakən Xanlar rayon Yeni Əlibayramlı kənd sakinləri SARIYEVA SƏDAQƏT LƏTİF qızını SARIYEV NÜSRƏT TAĞI oğlunu , Xanlar şəhər sakini SARIYEVA AMALA LƏTİF qızını vəhşicəsinə öldürmüş , Xanlar rayon Yeni Əlibayramlı kəndi sakini NAMAZOV F.A. ağır yaralanmışdır . | 28.01.1991-ci Xanlar rayon prokurorluğu | AZ.Res.CM- nin 94-cü maddəsinin 4-cü və 6-cı hissəsi ilə | İstintaq aparılır | 25087 25093 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 36 . | 1991-cı ilin 31.01. nə keçən gecə XANLAR rayonun VAQİİF adına sovxozun Quşçu –Armavir kəndində yerləşən fermasından 34 baş iri büynuzlu mal qara erməni milliyətindən olan naməlum şəxslər tərəfindən ogurlanmışdır . | 01.02.1991 Xanlar rayon DİŞnin istintaq qrupu | AZ.Res.CM -nin 83-4-ci maddəsi ilə | İstintaq aparılır | 24842 bax 25093ə |
| 37 . | 20.02.1991-cı il tarixdə saat 9 radələrində bir qrup erməni quldurları XANLAR rayonun VAQİİF adına sovxozun direktoru G.O.MUSAYEVİ və onun süsücüsü D.T.İMANOVU öldürmüşlər . | 20.02.1991-ci il Xanlar rayon prokurorluğu | AZ.Res.CM -nin 94- cü maddəsinin 4-cü və 6-cı hissəsi ilə | İstintaq aparılır | 25088 bax 25093ə |
| 38 . | 03.04.1991- cı il tarixdə AZAD kəndi yaxınlığında bir qrup erməni quldurları «URAL» markalı avtomaşnı gülləboran etmiş , Həsənov V.S. yaralanmışdır , «UAZ » markalı avtomaşnı gülləboran etmiş Mirzəyev M.F. və İbrahimov V.V. yaralanmışdır. | 05.04.1991-ci il Xanlar rayon prokurorluğu | AZ.Res.CM- nin 15, 94- maddəsinin 2-ci , 4-cü və 70-ci maddələri ilə | İstintaq aparılır | 25093 |
| 39 . | 30.04.1991 -cı il tarixdə ÇAYKƏND KƏNDİNDƏ pasport rejimi yoxlanılarkən ermənilər silahlı müqavimət göstərmiş , bələdçi Aydın Hacıyev öldürülmüşdür . | 30.04.1991-ci il AZ . RESP prokurorluğu | AZ.Res.CM nin 67-ci mad. 3-cü, 191-1 220 , 94 maddəsinin3-cü 189-1 mad. 2-ci hissəsi maddələri ilə | İstintaq aparılır | 18.35218 |

# MÜHARİBƏ

## QAÇQINLIQ TALEYİ VƏ TÜRKLÜK LƏYAQƏTİMİZ

Hazırda Yer kürəsində irili-xırdalı 300-ə yaxın millət yaşayır. Kiçik etnik qrupların sayı isə minlərdir.Asiyanın şərqindən–Çin sərhədlərindən, Altay dağlarından tutmuş Azərbaycana, Anadoluya, Balkanlara, hətta Avropanın mərkəzinə qədər olan geniş ərazidə tarix boyu 16 böyük dövlətin təməlini qoymuş ulu oğuz –hun əcdadlarımız bizə insanlara hörmət,milli ləyaqət hissi kimi əvəzsiz miras qoymuşlar. Müdriklərimiz bizə vəsiyyət etmişlər ki, insan fani dünyanın ötəri ne'mətlərinin hamısını itirsə belə,özünün milli və insani ləyaqətini qoruyub saxlamalıdır. Mən də bu kiçik məqalədə keşməkeşli,amansız və sərt zəmanəmizdə türklük şərəfi və ləyaqətinin qorunub saxlanmasından bəhs etmək istəyirəm.

Artıq üçünçü ildir ki, arxasında cox güclü və məkrli qüvvələrin dayandığı erməni quldurlarının azğınlığı son həddə catmışdır.Ermənistan SSR-in partiya,sovet ,dövlət hakimiyyəti orqanlarının yeritdiyi milli ayrıseckilik siyasəti nəticəsində orada yaşayan 300 mindən cox azərbaycanlı əhali bir necə ay ərzində öz doğma torpaqlarından qovulmuşdur. Ölümə zorakılığa,ağlasığmaz maddi və mə'nəvi məşəqqətlərə mə'ruz qalmış bu coxminlik əhalinin insani ləyaqətini kim qorumalıdır? Bu qəbildən olan suallara cavab tapmaq üçün tarixə müraciət etsək,qəribə bir təzad görərik.

Dünya mədəniyyətinin yüksələn xətlə inkişaf etdiyi son yüz ildə Qafqaz regionunda, bilavasitə Ermənistanda azəri türklərinə qarşı kütləvi zorakılıq halları çox olmuşdur. 1896-1897-ci, 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü, 1965-ci və nəhayət ,1988-1989-cu illərdə erməni quldurları dinc azəri əhalisinin dəfələrlə yurd-yuvalarından qovub çıxarmışlar. Təxmini hesablamalara görə təkcə İkinci dünya müharibəsindən sonrakı dövrdə Ermənistandan qovulan azərbaycanlıların ümumi sayı 400 min nəfərə catır ki, onun da yarısından coxu məhz son illərin (1988-1989) payına düşür.

İndi nəinki I Şah Abbasın sərkərdəsi Rəvan xanın adını daşıyan şəhərdə,hətta bütövlükdə Ermənistan ərazisində nümunə üçün bir azəri türkü tapmaq olmaz. **Bax əsl genosid budur !**

Ermənistandan qovulan azəri-türk qacqınları dünyanın digər qaçqınlarından ( fələstinlilərdən, yəhudilərdən və hətta ermənilərin özündən) bir cəhətlə fərqlənir. Adı cəkilən xalqlara mənsub qacqınlar dünyanın müxtəlif ölkələrinə yayıldıqları halda, azəri qacqınlar yalnız doğma Azərbaycana sığınırlar.

1988-1989-cu illərdə Ermənistandan azərilərin qovulmasına əsas bəhanə ( məhz bəhanə,səbəb yox). Məkəzin “xeyir-duası” ilə suni sürətdə yaradılmış Dağlığ Qarabağ “problemi” oldu. Lakin evsiz-eşiksiz qalmış hec bir qacqının dilindən ermənilərin Dağlığ Qarabağa həyasız iddialarına haqq qazandıracaq bircə kəlmə belə cıxmamışdır. Məgər bu türklük qeyrətinə dəlalət etmirmi? Bununla əlaqədar məşhur rus yazıçı-publisistin B.Veliçkonun “dağlarda qacaqlığ edən savadsız türkün, cibində professor diplomu olan ermənidən mə'nəviyyatca daha üstün olmasına” dair sözləri yada düşür. İndi isə gəlin məsələnin başqa bir mühüm cəhətinə diqqət yetirək: Azərbaycanımıza pənah gətirmiş qan və soyqardaşlarımızı biz necə qəbul etmişik, onlara necə qayğı göstəririk? Axı, bu iş də bizim üçün milli qeyrət nümunəsidir. Bu məsələyə münasibətdə iki cəhəti, iki mövqeyi görürük.

Fəlakətə dücar olmuş qardaş bacılarına öz qapısını acıb, cörəyini onlarla bölüşdürən əli qabarlı, genişürəkli xalqımıza minnətdarıq, ona əbədi səadət diləyirik. Yaranmış fövqəl'adə vəziyyət şərayitində didərginlərə mövcud imkanlar daxilində lazımi yardım göstərən bir cox vəzifəli şəxslərə də ehtiramımızı bildiririk. Narahatlığımızı, giley-güzarımıza, mə'yusluğumuza isə başlıca səbəb-qacqınlar problemini həll etmək üçün dinamik təşkilati fəaliyyətin qeyri-qənaətbəxş olmasıdır.

Respublika hökuməti nəzdində qacqınlar məsələsinə baxan komitə və şöbə var, xeyriyyə cəmiyyətləri də yaradılmışdır. Rayonlarda bu işlə məşğul olan məsül işçilər var. Bu cox yaxşı. Lakin əsl məsələ qayğının, əməli və təsirli yardımın ardıcıl təşkilindədir. Coxlarımız yardım anlayışını qacqın ailələrinə vaxtaşırı pul, bəzən də paltar-filan vermək kimi başa düşür. Bu cür yardım milli tərbiyəmizə yaddır.

Türkiyənin böyük şəhərlərində (İstambul, Ankara, İzmir, Bursa, Konya və s.) camelərin giriş qapısı yanında “Lütfən, dilənçiyə  para verməyin” kimi yazılar vardır. Mən Konyada dahi Cəlaləddin Mövlanə Ruminin türbəsində bunun nə demək olduğunu soruşduqda ziyalı bir türk nəzakətlə cavab verdi: Sayın ( hörmətli ) əfəndim! Əgər dilənçiyə para verməyi adətə cevirsək, get-gedə bütün millət dilənci ola bilər”.  O, sözlərinə əlavə edib bildirdi ki, Allahın evi olan camelərdə, müxtəlif xeyriyyə cəmiyyətlərində kasıblar, kimsəsizlər qeydiyyata alınır və onlara lazımi yardım göstərilir.

“ Dünya gör-götür dünyasıdır”. Təcrübə göstərir ki, qacqınlar probleminin həlli üçün xüsusi proqram gərəkdir. Bəs Ermənistandan , Özbəkistandan respublikamıza pənah gətirmiş 300 mindən cox  türkün qəlb sızıltılarını ovutmaq üçün biz nə iş gürürük?

**Bununla əlaqədar bəzi  epizodları  xatırlatmaq yerinə düşər. 1988-ci il dekabrın 8 -15-də Qacqınlar cəmiyyəti idarə heyətinin üzvü Novruz Dünyamalıyev və respublika televiziyasının operatoru Seyidağa    Mövsümovla bərabər qaçqınların sığındığı rayonlara getmişdik. Gəncə ilə Xanlar arasındakı acıq düzənlikdə, şosse yolunun hər iki tərəfində koma-koma qacqın ailələri vardı. Torpağa sərilmiş kilim, xalca üstündə yatan körpələrin qoca və xəstələrin halı bizi tamamilə sarsıtdı, böyük şair Mehmet Akifin qəmli misralarını yada saldı:**

**“Bu xalqın yurduna bax, sənə bərbad lazımsa.**
**Bu yurdun xalqına bax, sanə fəryad lazımsa.**

**Gəncədən və Xanlardan gəlmiş xalq nümayəndələri bədbəxtliyə düçar olmuş qardaş-bacılarına çörək, süd, hazır yemək, təzəli-köhnəli pal-paltar gətirmişdilər. Gəncənin və Xanların rəhbərliyindən isə hec kəs yox idi... Səhəri  gün bizim burada olmağımızdan xəbər tutan rayon rəhbərləri də gəldilər. Bu səhnəni nə üçün çəkməyimizi etirazlı, bir qədər də istehzalı tonla soruşan özündən razı katib layiqli cavabını aldı**... Buna bənzər səhnəni biz Şamxordan Çardaxlıya gedən yol üstündə, Qasımalılar kəndinin yanında da gördük. Ermənistanın Krasnoselsk rayonun Gölkənd,   Meşəkənd və Basarkeçərin bir sıra kəndlərindən olan yüzlərlə qacqın ailəsi yolun ətrafına tökülmüşdülər. Bu “düşərgənin” yanında, yolun kənarında olan məktəb binasının qapıları bağlı olduğundan qocalar, xəstələr və körpə uşaqlı analar divar dibinə sığınmışdılar...  Rəhbərlikdən burada yalnız Şamxor rayon milis rəisi və bir necə milis işçisi vardı. Söhbət əsnasında məlum oldu ki, səkkiz gündür burada “məskən” salmış qacqınların əksəriyyəti Çardaxlı kəndinin erməni sakinləri ilə evlərini dəyişmək haqqında razılaşmışlar və hər iki tərəfin kənd sovetlərinin möhürü ilə təsdiqlənmiş dəyişdirmə kağızları olsa da yerli rəhbərlər qacqınların sənədlərinin notariusda təsdiqlənmədiyini bəhanə edib onları kəndə buraxmırlar.

Rayon partiya komitəsinə gələndə büro iclası gedirdi. İclasda yaranmış vəziyyətlə əlaqədar Moskvadan bu zonaya göndərilmiş xüsusi nümayəndə də iştirak edirdi. O öz çıxışında qacqın düşərgələrində “mədəni xidmət”- hətta radio, televiziya verilişləri üçün şərait yaradılması zərurətindən danışanda bizi göz yaşları boğurdu. Gördüyümüz səhnəni təsvir etdikdə büro üzvləri bizə baxırdılar, Moskvadan gələn adam çaşbaş qalmışdı. Məlum oldu ki, rayon rəhbərləri əsl vəziyyəti ondan gizlətmişlər. Biz onunla şərtləşib səhər saat-9-da həmin düşərgəyə gəldikdə gördük ki, bir maşın sisterində su, bir qədər çörək-ərzaq gətirilib. Qacqınlar Mərkəzinin nümayəndəsinə söylədilər ki, səkkiz gün ərzində ilk dəfədir rayondan belə yardım alırıq. Burada qəribə bir epizodun şahidi olduq. Ermənistanın Krasnoselsk rayonun Gölkənd kəndindən gəlmiş **sürücü Əhməd Əhmədov Çardaxlıdan bir erməni ilə evini dəyişdirmək haqqında kənd   sovetindən aldığı sənədin etibarsız, hətta “ saxta” adlandırılmasına görə çarəsizlikdən, cox qorxulu və çətin olsa da, Gölkəndə gedib ermənini Şamxordakı “düşərgəyə” gətirmişdi. Həmin erməni bizim yanımızda Mərkəzin nümayəndəsinə müraciət edərək sırf erməni şivəsi ilə dedi: “ Ara .... tavariş, axber! Ara ,ix vıqnali ottuda, nas vıqnali otsuda. Mı pomenyali dom.Teper ya jıvu tam, on ostavil mne svoy sad, şkaf, televizor  i ya ostavil**

**yemu svoi, poçemu menya tam v Armenii puskayut, a eqo zdes svoi azerbacansı ne puskayut?". Yəqin ki, izahata ehtiyac yoxdur....**

Düşərgədəki vəziyyəti görən moskvalı nümayəndə cox şeyi başa düşüb məyus halda getdi.

Paytaxtımız Bakıya sığınmış 70 mindən cox qacqına da münasibət ürəkacan deyildir.

Əlbəttə, bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardır.

Rəsmən elan olunduğu kimi, Mərkəz Ermənistanın zəlzələdən zərərçəkmiş rayonları üçün 12 milyard manat, Dağlığ Qarabağın 140 minlik erməni əhalisi üçün yarım milyard manat vəsait ayırmışdır Xristian Qərbindən də Ermənistana hər cür yardım ( o cümlədən müxtəlif silah və sürsat) axdığı halda Ermənistandan, Dağlığ Qarabağdan, habelə Fərqanədən qovulmuş 300 mindən cox türklər yada düşmür. Vahid bir dövlətdə xalqlar arasında bu cür ögey-doğmalıq münasibətinə və ad vermək olar?

Respublikanın səlahiyyətli dairələri tərəfindən qacqınlara göstərilməli qanuni yardımın az qala sədəqəyə çevrilməsinə yol vermək olmaz. Əcdadlarımız yardımın bu cür üzdəniraq formasını milli iftixarları üçün təhqir saymışlar. Qacqınlıq probleminin də məlum və sadə " el elə sığar, ev ebə sığmaz" prinsipi üzrə həll ediblər. "Qacqınlar " ,"Qayğı", "Qarabağ" və s.xeyriyyə cəmiyyətləri fonduna toplanan vəsaitdən də lazimi səmərə ilə istifadə etmirik.Söz yox ki, bu vəsaitin müəyyən hissəsini, gündəlik yaşayış xərcinə ehtiyacı olanlara vermək vacibdir. Yardım fondu hesabına yeni yaşayış məskənləri salmaq, iş yerləri acmaq, istehsalat və ticarət kooperativləri təşkil etmək, Abşeronda və onun ətrafında torpaq icarədarlığı üçün təxirəsalınmaz tədbirlər görməliyik.Xüsusi abidə yaradılması zəruridir. Tarixin acı təcrübəsi göstərir ki, didərgin insan haraya getsə və nə qədər yaxşı yerləşsə də, onun çöhrəsindən Vətən həsrəti,qəriblik nişanəsi əskik olmur, doğma el-obası,ata-baba yurdu onun xəyalından cıxmır:

**Qəribliyin yuxusunda Vətən var,**
**Qalan hər şey qərib üçün qəribdir**.

Yüz il əvvəl, yenə erməni fitnə-fəsadı nəticəsində Qazax mahalının Dilican nahiyəsindən qacıb Mərkəzi Anadoluda yerləşmiş azərilərin indiki varisləri ilə görüşdə buna bir daha əmin oldum. Merzifon yaxınlığındakı Hamamözü qəsəbəsi qəbiristanlığında azərilərdən birinin başdaşından öz vəsiyyəti üzrə belə yazılmışdır: "Qəbrimi ucada qazın, ta yel əsəndə, çünki o Vətən deyə səslənəcəkdir".Başqa bir qərib məzarının başdaşında yazılmışdı:

**"Ölüm ilə ayrılığı ölçdülər,**
**İki kərə ağır gəldi ayrılıq".**

Qacqınlara münasibət minəttsiz qayğıkeşlik, son dərəcə həssaslıq və nəzakətlilik tələb edir. Onların kövrək, yaralı qəlblərinə toxunmamaq gərəkdir. Təəsüf ki, pasport qeydiyyatı, ev dəyişdirilməsi, işə düzəlmə zamanı qaçqınlar cox zaman bürokratik aparatın soyuq münasibəti, təhqiramiz xarakter daşıyan ayrıseckilik təmayyülü ilə üz-üzə gəlirlər. Ermənistandan qovulanların böyük əksəriyyəti dağlıq rayonlardan olduğuna görə onları münasib təbii-iqlim şəraiti olan yerlərdə, o cümlədən Dağlıq Qarabağda mövcüd kəndləri böyütmək və yeni kəndlər salmaq hesabına yerləşdirmək, torpaq, mal-qara və işlə təmin etmək lazımdır.Eyni zamanda Ermənitan höküməti qarşısında çəkinmədən əhalinin dəyişdirilməsi məsələsini ciddiyyətlə qoymaq lazımdır. Belə olduqda eyni kənddən , bir-biri ilə qohum, qonşu olan qaçqın ailələr
parəkəndə düşməzdi. Keçmiş rəhbərlik isə qaçqınları say hesabı ilə rayonlar arasında az qala əşya kimi bölüşdürməklə məşğul oldu.Nəticə göz qabağındadır.Çoxlarının istəmədiyi halda Bakıya axışıb gəlməyə məcbur olan qaçqınlar , onsuz da sosial dərdi həddini aşmış bu şəhərdə əhalinin narazılığına səbəb oldular. Qədim müdrik bir kəlamda deyidiyi kimi , yüksək pillədən yıxılmaq üçün bircə addım kifayətdir. Gəlin unutmayaq ki, tarix bizi növbəti imtahana çəkmişdir."Gör-götür dünyasında " bir çox xalqların faciədən necə çıxdıqlarına nəzər salaq. Dəhşətli dünya müharibələrində məğlub olmuş , çoxlu insan itkisi vermiş şəhərləri yerlə yeksan edilmiş alman xalqı ona xas olan işgüzarlıq , intizamlılıq

nəticəsində kül içində közərib yenidən alovlanan od parçası kimi dirçəldi, dünyanın ən zəngin və mədəni ölkələri sırasınada layiq olduğu yeri tuta bildi.

Əməksevərlikdə ,qeyrətdə və milli ləyaqəti qorumaqda bizim xalqımız heç kəsdən geri qalmır. Ona düzgün istiqamət vermək ,cani dildən rəhbərlik etmək lazımdır. Vətənimizin azadlığı və suverenliyi ,xalqımızın gələcək taleyi , şərəf və ləyaqəti məhz bunu tələb edir.

İnşallah, buna nail olacağıq.!

***HƏMİD ƏLİOĞLU***
***"VƏTƏN SƏSİ " qəzeti 4 iyul 1990 - cı il N 11***




## AĞIL QALIB GƏLƏCƏKDİR

***Ermənistandan gəlmiş azərbaycanlıların yerləşdirilməsi və xidməti üçün yaradılmış Xanlar şəhər qərargahına hər gün onlarla adam müraciət edir. Onların hər birinə yaranmış vəziyyəti izah etmək, hərəyə konkret yardım göstərilməlidir.***

Son günlər bir çox köçkünlə söhbət etməyə müvəffəq olmuşam. Onlardan bəziləri başa düşür ki, öz doğma evlərini daimilik tərk etmək haqqında qəbul etdikləri qərar o qədər də doğru deyil … Başqa fikirdə olanlar da var. Ancaq insanarı buna görə gunahkarlandırmaq olmaz. Çox yaxşı bilirik ki, son zamanlar Ermənistanda və Azərbaycanda necə kəskin vəziyyət yaranmışdır. Hər bir adam öz taleyini özü müəyyənləşdirməkdə sərbəstdir.

Buna baxmayaraq iki respublika arasında dostluq bağları dramatik vəziyyətlərdən güclü olmuşdur.Beləki, dekabrın 7– də Ermənistanda güclü zəlzələ olması xəbəri məlum olan kimi Azərbaycan KP MK , Ali Sovetin Rəyasət Heyəti, Nazirlər Soveti Ermənistan SSR xalqına başsağlığı vermiş və qonşulara hər cür lazımı kömək göstərilməsinə hazır olduqlarını bildirmişlər. Erməni xalqı üçün faciəli hadisələr Ermənistandan Xanlar rayonuna gələnlərin də kədərinə səbəb olmuşdur. İş burasındadır ki, onlardan çoxu Stepanavan, Masis , Kirovakan və digər rayonlarda yaşayanlardır. Elə oralarda da zəlzələ böyük dağıntılar törətmişdir. Bəli, köçkünlər oradan çətin vəziyyətə düşmüşlər. Doğma divarlar nəinki buraxılmış qalmış, həm də dağılmışdır, yeni mənzil isə yoxdur.

Bu günlər Xanlar rayon partiya komitəsinin birinci katibi Q.İskəndərovun rəhbərlik etdiyi qərargah üçün həqiqətən çətindir. Rayonda hazırda yeni gəlmiş 2880 ailə vardır. Bu üst-üstə 12 min nəfər deməkdir.Rayon rəhbərliyi insanları düşdüyü vəziyyətdən çıxarmaq, onlara lazımı kömək göstərmək üçün əllərindən gələni edirlər. Mənzil dəyişdirilməsi, əhalinin yerləşdirilməsi ,ticarət xidməti , işə duzəltmə üçün yaradılmış xüsusi komissiyalar qarşıya çıxan məsələləri operativ həll edirlər. Məsələn, Ermənistandan gəlmiş 624 azərbaycanlı ailəsinə Xanlardan köçənlərlə evlərini təcili dəyişmək üçün operativ kömək gçstərilmişdir. Beləlikilə ,artıq 3000 nəfərdən artıq adamın evi var. 2000 nəfərə qədər adam qohumlarının yanında müvəqqəti sığınacaq tapmışdır. Bir qayda olaraq çətin vəziyyətlərdə insanlar bir – birinin yanında olmaq istəyirlər. Rayon mərkəzinin yaxınlığında yol ayıcımında yol boyu çadırlar qurularıq köçkünlər üçün bir kvartala çevrilmişdir. Müxtəlif yerlərdə köçkünlərin hiyləgər olmayan təsərrüfatı yerləşmişdir. Onların ətrafında insanlar - qocalar , qadınlar, uşaqlar var. Onlar hər bir ora gələni sıx dairəyə alırlar. Mənə də bundan qaçmaq müəssər olmadı.

Deyirlər ki ,adamları başa düşmək üçün özünü onların yerinə qoymalısan. Bu dəfə elə hər şey öz-özünə aydındır. Məsələn, Vardenis rayonun Cil kənd sakinləri Elləzovun, D.Tağıyevin söhbətlərini həyəcənsız dinləmək olmur. Lakin yaranmış vəziyyətdə başlıcası mətin və iradəli olub, dözümlülük göstərməkdir. Sonda hər şey öz yerini alacaqdır. Partiya və hökumət tərəfindən qəbul edilmiş qərarlar buna qarantiya verir.

Ancaq vəziyyətin normallaşması üçün vaxt tələb olunur. İndi əsas vəzifə- ondan maksimal dərəcədə effektiv istifadə etməkdir. Gələnləri onlara nə vaxt daimi yaşayış yeri verilməsi məsələsi ciddi maraqlandırır. Bu məsələ olduqca cətin olnmaqla ,onu bir dəfəyə həll etmək olmaz , ancaq hər bir köçkün üçün mütləq çıxış yolu tapılacaqdır. Və onda buraxılıb gedilmiş evlərdə həyat yenidən qaynayacaqdır. Hazırda dağıdıcı emosiyalarla deyil,bu hisslərlə yaşamaq lazımdır.

*V. ABDULLAYEV*

*« Bakinski raboçi » 11 dekabr 1988- ci il*

# ...ИВИН ОБЈЕКТИВ КӨЗҮ ИЛӘ

...ырла- ...нсә ...ләрин, ...ә баба ...мәјәк ...т үчүн ...арина ...ләнд, ...гарар- ...бар. ...сал- ...лы ...тәрә.

финдән комплекс гәрарлар верилмәди. Лакин Ермәнистан гачгынларына халг көмәк етди, мүвәггәти сығыначаг верди. Орада совет ганунларынын күчсүзлүјү, бурада исә ифрат сәртлији, бүрократчылығы онлары чыхылмаз вәзијјәтдә гојду. Ганунсуз оларат гәвулкушлар бир-биринә зидд сојуг «ганун» мәнкәнәсинә дүшдүләр. Сәрсәм вәзијјәтиндә ермәниләрлә һәр чүр ев сөвдәләшмәсинә мәчбур олдулар. Гојуб кәлдикләри шәхси мүлкијјәтләринин әвәзиндә ермәниләрдән дөвләт евләринин е'тибарнамә илә дәјишән вә ја сатын алан, јахуд «ганунсуз» ев тутан кимләр инди һәмин евләрдән мәһшәчәсинә бајыра атылыр. Вә бу заман гачгынлар јениндән тәһгир олунур, онлара гаршы зор тәтбиг едилир. Екстремал вәзијјәт

мәрантә үјғун гәрарлар тәләб едир. Лакин фачиәдән чыханлары јенидән фачиәјә дүчар етмәк олмаз. Ермәнистанда төрәдилән чәзасыз галмыш чинајәтләрә көрә чәза тәләб едирик. Бәс, бу күн онлара гаршы бурада төрәдилән чинајәтләр үчүн кимләр мәс'улијјәт дашыјачаг? Елә зәнн етмәјин ки, шәкилләрдә көрдүјүнүз ев әшјаларыны ермәни гулдурлары сындырмышдыр. Јох! Елә буна көрә дә бујруг гулу утанчаг милис мајору хәчаләт чәкдијиндән әлини үзүнә тутур. Ев әшјаларыны пәнчәрәдән чөлә атан голузорлу чаван оғланлар исә һәрбчиләрдән фәргли олараг, «чаләатма» әмәлијјатыны һәвәслә көрүрләр. Көрәсән, бунлар кимләрдир? Демәк чәтиндир. Бир шеј ајдындыр ки, әмәкдашларымыза өз шәхсијјәтләрини билдирмәдән бојун гачыран һәмин голузорлулар тәрәфиндән дөјүлүб шил-күт едиләк, сачы јолунан ағбирчәк аналары, аһ-налә чәкән мәс'ум көрпәләри ермәни дашнакларына олан сонсуз нифрәтинә бу чүр антиһуманист һәрәкәтләринизлә инки бөлүрүк. Бир-биринә сығынмыш о ушаглар да, асылгандан асылан пенчәјин саһиби дә онлара гаршы тәтбиг олунан ганун гаршысында күчсүздүрләр, чох күчсүз... Күн кечир, һәмин о чөлә атылмыш телевизор екранында гәрар вә фәрманлар охунур, анчаг гачгынларын вәзијјәти дүзәлмир ки, дүзәлмир.

Бахын! Бахын! Јахшы бахын! Диггәтлә бахын...



Өз тәвжумузун башына ... ачкал..кәләфиз биз.





Һүгүн дөвләтдә вилләт...





## SSRİ XARİCİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT BÜROSUNUN MƏLUMATINDAN

**KİROVABAD ( Azərbaycan SSR).** Burada əvvəllər tutulmuş, Ermənistan Plan Komitəsinin İqtisadiyyat və Planlaşdırma İnsitututunun böyük elmi işçisi, əvvələr buraxılmış «Qarabağ» komitəsinin ətrafında yaranan hərəkatın liderlərindən biri İ. Muradyanın, həmin komitənin fəallarından - Ermənistan Abovyan adına Pedağoji İnsitututun dosentləri B. Sisyan və Q.Gülqazaryanın fəaliyyətinə aid olan iş aparılır.

Göstərilən şəxslər cari ilin oktyabr – dekabr aylarında ( axırıncı dəfə 2 dekabrda) Azərbaycandan erməni köçkünlərini aparan vertalyotlarla dəfələrlə Ermənistan SSR -in ərazisindən **Azərbaycanın Xanlar rayonunun** ermənilərlə məskunlaşmış kəndlərindən birinə uçmuş,orada əhali arasında milli düşmənçiliyin qızışdırılmasına yönələn təbliğat və təşviqat işləri aparmışlar.Əhali onlar tərəfindən icazə verilməmiş mitinqə təhrik olunmuş , onlardan bəziləri əhaliyə yalan informasiyalar vermiş, əhalini yerli hakimiyyətə təxribat xarakterli tələblər verməyə çağırmışlar.

Onların təxribat xarakterli fəaliyyəti nəticəsində bir sıra yerlərdə kənd təsərrüfatı işləri pozulmuşdur. Cari ilin 14 dekabrında SSRİ Daxili İşlər Nazirliyinin mərkəzi aparatı əməkdaşları tərəfindən **« Qarabağ »** komitəsində aktiv fəaliyyətinə görə **1958 -ci il təvəllüdlü , cari ilin sentyabrına kimi Daşkənd Pedağoji İnsitututunun müəllimi işləmiş L.Q. Mirzoyan tutulmuşdur**. **Mirzoyan Muradyanın yaxın köməkçilərindəndir**.Muradyanın tapşırığı ilə o 29 noyabr 1988-ci ildə Azərbaycan SSR-in Kirovabad şəhərinə gəlmiş ,orada müxtəlif faktların toplanışını təşkil etmiş və onlardan qərəzli istifadə edərək,müxtəlif təşkilatlara böhtançı məktubların hazırlanmasında istifadə etmişdir.

Kirovabadda olduğu dövrdə Muradyandan erməni əhalisi arasında işin forma və metodları barəsində təlimat alaraq, şəhərin « erməni » hissəsində 4 dəfə icazə verilməmiş mitinqdə çıxış edərək , millətlərarası barışmamazlıq ideyaları təlqin etmişdir. Mirzoyandan maddi subutlar götürülmüşdür.

İ.Muradyan ,B. Sisyan,Q.Gülqazaryan ,L.Mirzoyanın cinayətkar əməlləri faktları şahid ifadələri ilə öz təsdiqini tapmışdır.Göstərilən şəxlər barəsində materiallar onların Azərbaycan SSR CM- nin 67- ci ( milli və irqi bərabərliyin pozulması) maddəsi ilə cinayət məsuliyyətinə cəlb etmək üçün SSRİ Prokurorluğunun və SSRİ Daxili İşlər Nazirliyinin operativ istintaq qrupuna verilmişdir.

**« PRAVDA » qəzeti 20 dekabr 1988 - ci il**

## SSRİ DAXİLİ İŞLƏR NAZİRLİYİNİN MƏTBUAT BÜROSUNDA

….Mənzillərin talan edilməsində və yandırılmasında iştirak etmiş , şəxslərə qarşı cinayətlər törətmiş adamların aşkara çıxarılması və cinayət məsuliyyətinə cəlb olunması üçün tədbirlər görülür. Məsələn, 1954-cü ildə anadan olmuş vətəndaş Movsesyanın əleyhinə cinayət işi qaldırılmışdır.O,Kirovabadın Hacıkənd qəsəbəsində altı yerə partlayış vasitəsi qoymuşdu.Onlardan dördü partlamış və yalnız sırf təsadüf nəticəsində qəsəbənin sakinlərinin heç birinə xətər toxunmamışdır. Axtarış zamanı Movsesyanın evində daha dörd partlayış vasitəsi tapılmışdır….

**« TRUD » qəzeti 22 dekabr 1988-ci il**

## Düşünmək üçün... 240 saat
## Xanlar hadisələri haqqında

**Oktyabrın 12-də** səhər tezdən Xanlar Rayon Partiya Komitəsinin qarşısına böyük izdiham toplaşmışdı. Raykoma gedən yol kəsilmişdi . Birinci katibdən tutmuş təlimatçıyadək heç kəsi öz iş yerinə buraxmırdılar. Bütün gün ərzində mitinqlər keçirildi. Axşam üstü ətrafdakı boş yerlərdə çadırlar quruldu. Mitinq iştirakçılarının bir hissəsi buradaca gecələdi.

Xanlar hadisələri belə başlandı.Ertəsi gün təxminən bir o qədər adam rayon icraiyyə komitəsinin qarşısına yığışdı. Burada da mikrofonlar quruldu . Çıxış edənlər piketçilərin hərəkətlərini pisləyir, Partiya Komitəsinə gedən yolun açılmasını tələb edirdilər. Düz on gün, - **oktyabrın 22-dək** həm orda, həm burda aramsız mitinqlər keçirildi. **Düz on gün gecə gündüz raykomun** binası özlərin xalq cəbhəsinin nümayəndələri adlandıran mitinq təşkilatçılarının nəzarəti altında qaldı......

Görünməməş, eşidilməmiş hadisədir, hətta indi mitinqçilər və piketçilər çəkilib getsələr də, rayonda həyat öz adi axarına düşməyə başlasa da , bütün Xanlar bu haqda danışır. Baş verən hadisələr müxtəlif dairələrdə ,əhalinin bütün təbəqələri arasında qızğın müzakirə edilir. Çıxarılan nəticələr də müxtəlifdir, verlən qiymətlər də.

Biz də uzun müddət düşünüb daşındıq: Olub keçənləri qəzet səhifəsinə çıxarmağa dəyərmi? Bir halda kı, vəziyyət normallaşmışdır, bir halda kı, üz-üzə dayanan qüvvələr gec də olsa dil tapmış, barışığa gəlmişlər. Acı xatirələri oyatmağa nə ehtiyac?

Xanlarda gördüklərimiz və müşahidə etdiklərimiz , eşitdiklərimiz tərəddüdlərimizə son qoydu. Yox, susmaq olmaz! Axı, bu on gün – **240 saat** bizim tariximizdir. Həyatımızın ,günümüzün acı da olasa gərəkli dərsləridir.

Neçə gün , neçə gecə idi ki, Xanlar camaatı səhəri diri gözlü açırdı. Çox adam çaşıb qalmışdı. Balaca bir şəhərdə iki mitinq ? Biri raykom katibinin istefa verməsini tələb edirdi, digəri onun müdafiəsində dayanmışdı. Biri deyirdi çıxmalıdır, o biri deyirdi yox işləməlidir. Deyişmə bəzən hədələrə, təqirlərədək gedib çıxırdı.

Kim idi üz-üzə dayanan bu adamlar?. Onlar nə istəyirdilər?. Mətləbdən baş çıxarmaq üçün bunu bilmək çox vacibdir.

Rayon Partiya Komitəsinin qarşısına yığışanların əksəriyyəti Ermənistandan qovulub çıxarılmış, Xanlara pənah gətirmiş didərginlər , ikinci mitinqin iştirakçıları isə əsasən yerli sakinlər idi. Hələlik söhbət ondan gedmir ki birincilər raykomun mühasirəyə almaqda düz iş görüblər, ya yox. Məsələ burasındadır ki, kimlərsə onların bu hərəkətini yerli sakinlərin heysiyyatına toxunmaq kimi yozmuşdular. Adamları ən çox narahat edən budur. Çoxları ilə görüşüb söhbət etdik,əslən xanlarlı olanlarla da , bura bir il əvvəl gələnlərlər də. Mərdimazarları hamı lənətləyirdi. Dünya görmüş ağsaqallar da , bığ yeri yenicə tərləyən yeni-yetmələr də.

Didərgin..... bu sözü yazarkən əldə qələm titrəyir. Başları müsbətlər çəkmiş yurd-yuvaları dağılmış bu adamların faciəsinə biganə qalmaq mümkündürmü? Özləri ilə təkcə dərd qəm yükü yox, onsuz da ev eşik, iş yerləri sarıdan korluq çəkən Azərbaycana nə qədər problem gətirmişlər. Respublikanın bütün əhalisi kimi Xanlar camaatı da ürək genişliyi ilə onlara həyan olur, heç nəyi əsirgəmir. İlkvaxtlar bura 26 min adam gəlmişdi.

9214 nəfər- 1712 ailə daimi yaşamaq üçün qalmışdır.Kimi mənzilini dəyişməyə imkan tapıb.Kimi ev alıb, kimi həyətyanı torpaq . Əmək qabiliyyətli 5387 nəfərdən 2481 işlə təmin edilib. Uşaqlar dərsə gedir. Onlar üçün 7 məktəb və 71 əlavə sinif açılıb. Hamısına dərs vəsaiti və məktəbli forması pulsuz parasız verilib. Didərginlərə müxtəlif fondlardan bir milyon 144 min manat yardım edilib .. Lakin bu problemlərin hamısı deyil, minlərlə adam bir ildir ki , işsizdir. Torpaq alanlar ev tikdirmək üçün material tapa bilmirlər.

41 ailə internatda yaşayır.Qabaqda isə qış gəlir ehtiyac əzab əziyyət əsəblərin son həddədək gərilməsi ilə nəticələnmişdir. Bəzi qüvvələr bundan istifadə edərək , onları küçəyə çıxarmışlar. Rayon Partiya Komitəsində baş vermiş hadisəni vəzifə davası hesab edərək , incik adamların ayağına yazırlar. Misallar gətirirlər: filankəs vaxtı ilə vəzifədən qovulub , filankəs həbisxanada yatıb..... Bunlar da , əlbəttə həqiqətdir. Amma o da həqiqətdir ki, yerli hakimiyyət orqanları hələ də amiranə iş metodlarından tamamilə əl çəkmirlər.Mitinq iştirakçıları arasındakı müsahiblərimiz deyirlər:

----Bizi eşitmək istəmirdilər , tələblərimizə məhəl qoymurdular.

-----Adamı bax belə yumşaldarlar. Görün indi bizimlə necə mehriban danışırlar.

Əiyninə qalın sırıqlı geyinmiş , üz- gözünü tük basmış cavan oğlan bu sözləri deyib əli ilə rayon rəhbərlərini göstərdi. O, və yoldaşları hökm etməyi necə də xoşlayırlar: dayanın , orda durmaq olmaz , siz keçin, siz isə yox..

Biz bütün bunların şəxsən şahidiyik.

Oktyabrın 22-si bazar günü. Şəhərə ayaq basan kimi eşitdiyimiz o oldu ki, dünən gecədən xeyli keçənədək davam edən danışıqlar müsbət nəticələr vermişdir. Rayon rəhbərləri piketçilərin bir sıra tələblərini qəbul etmişlər. Onlar da əvəzində raykomun yolunu açmışlar. Saat 11-də bina öz sahiblərinə təhvil veriləcək. Bu qeyri adi mərasimi seyr edirik. Qapıda üç dörd cavan oğlan dayanıb. Onların icazəsi olmadan heç kəs içəri girə bilməz. Özləri sifariş göndərilər. Bir- bir çağırırlar. Yuxarıda təhvil təslim necə gedir, xəbərimiz yoxdur. Jurnalistlərin iştirakını məsləhət görmürlər. Niyə ? Səbəbini izah etmirlər: Olmaz. Vəssalam !

Buyurun bu da sizin üçün demokratiya .

Müqavilənin altındakı imzalara baxırıq. Azərbaycan KP Xanlar payon Komitəsinin **birinci katibi Q.İsgəndərov, rayon icraiyyə komitəsinin sədri A.Məmmədov, AXC-nın rayon şöbəsi idarə heyətinin üzvləri Ə.Nadirov və İ.Kərimov**. Dörd nəfərin imzaladığı həmin sənəd on üç bəndən ibarətdir. Bəzi bəndlərə nəzər salaq: Çaykənd, Azad ,Kamo kəndlərində (ermənilər yaşayan kəndlərdir) pasport rejimi yoxlanılsın , boş evlərdə vətənindən qovulmuş azərbaycanlılar və türklər yerləşdirilsin. Göygöl-Gəncə mərkəzi su kəməri nəzarətə götürülsün və suyun bioloji radioaktiv tərkibi mütəxəssislər tərəfindən yoxlanılsın. Yaranmış vəziyyətlə əlaqədar Çaykəndəki vertaliyot meydanı hüquq mühafizə orqanları və AXC nümayəndələri tərəfindən nəzarətə götürülsün. Həyətyanı torpaq sahələri artırılsın . Bağ yerlərinin paylanması işi sürətləndirilsin.....

Qeyri adi hec nə yoxdur. Doğurdanmı bunun üçün raykomun yolu bağlanmalı , on gün mitinq keçirilməli idi. Təqsir kimdədir.? Biz bu sualı mintinq iştirakçılarına da rayon partiya komitəsinin birinci katibinə də verdik. Yolu kəsməyə məcbur olduq. Rayonun partiya, sovet orqanları bildiklərini edirlər.Əvvəl-əvvəl tələblərimizə heç məhəl də qoymurdular.

Düz demirlər onlarin konlündən basqa şey keçir ., vəzifə ,kreslo .

**Raykomun birinci katibi Q İsgəndərov belə düşünür**.

Biz müstəntiq deyilik . Adamları üzləşdirmək səlahiyyətlərimiz yoxdur . Bəs həqiqəti necə üzə çıxarasan? Piketçilərin yolu bağlamaqla hüquqa,. qanuna zidd hərəkətlər etdikləri şübhə doğurmur . Onlar xalq cəbhəsinin adından çıxış edirlər. Məsələni aydınlaşdırmaq üçün Xanlara gəlmiş Azərbaycan Xalq Cəbhəsinin sədri Əbülfəz Əliyev də təəccübünu gizlətmədi .

- Əvvala , cəbhəsinin rayon şöbəsi hələ yaradılmayıb. Bir də axı, xalq cəbhəsi kimi isə işdən çıxarmaq, kimi isə işə qoymaq üçün deyil. Cəbhə partiyanın daxili işlərinə qarışmır. Biz hər cür zorakılığın əlehinəyik, belə qanunsuz mübarizə metodlarını da müdafiə etmirik. Haqqında söbət açılan münaqişə və onun günlərlə uzanması raykomun iş üslubundakı nöqsanları da üzə çıxarmışdır.Adamlarla canlı iş protokolçuluqla əvəz olunur. Partiya Komitəsi çox şeylə maraqlanır. Bəs adamlar necə yaşayır. Nə haqda düşünürlər? Bununla az maraqlanırlar. Yaşadığımız gərgin günlər çoxlu suallar doğurur. Gərək cavablar tapılmasına kömək edəsən. Dialoqdan qorxmayasan.Nüfüz heç də vəzifə kreslosu ilə birgə verilmir, gərək özün qazanasan. Niyə mitinqlərdə bir çox partiya işçilərini yaxına buraxmır, sözlərini kəsirlər. Artıq bu haqda, partiya işçisinin nüfuzu haqqında bütün ciddiliyi ilə düşünmək vaxtıdır. İnsaf naminə deyək ki ,rayon partiya komitəsi mitinq günlərində əlini-əlinin üstünə qoyub oturmamışdır. Təcili büro cağrılmış, operativ qərərgah yaradılmışdır.

Raykomun gündəliyindən sətirlər: 12 oktyabr saat 12 :30 partiya komitəsinin birinci katibi mitinq iştirakçılarının yanına gedib. dialoq aparmağa cəhd göstərdi. Lakin qarşı tərəf konkret tələb qoymadan dialoqdan imtina etdi.

13 oktyabr saat 20:00. Rayon qərargahında ağsaqqaların iştirakı ilə müşavirə keçirildi. Onların mitinq iştirakşıları ilə söhbət aparmaları qərara alındı.

16 oktyabr saat 24:00. Raykom mitinq təşkilatçılarını yenidən dialoqa dəvət etdi. Onlar bu dəfədə də boyun qaçırdılar.

18 oktyabr saat 14:30 yenə də .....

Hadisələrin sonrakı inkişafı bizə məlumdur. Raykomda dialoqun vacibliyini axırki başa düşmüşlər. Halbuku həyat adamlarla hər gün canlı dialoqlar, söhbətlər aparılmasını tələb edir. Həmin yol vaxtında seçilsəydi, bəlkə də iş bu həddə çatmazdı.

Xalq oyanıb həyatın ən kəskin məsələləri haqqında hər yerdə işguzar diskusiyalar, mübahisələr gedir, lakin bir çox partiya təşkilatları hələ də durğunluq dövrünün qayda qanunları ilə yaşayırlar. Kəskin həyat problemlərindən yan keçilir, aşkarlığın yoluna sədd çəkilir. Onların əlində qəzet radio kimi güclü təbliğat vastəsi var. Təəccüblü olsa da Xanlar rayon partiya komitəsi öz qəzetində bütün bu hadisələr haqqında bircə xətt də informasiya verilməsini lazım bilməmişdir. Necə deyərlər bir daş altda bir daş üstə....... sanki heç nə olmayıb, bu yolla çoxmu uzağa getmək olar? Söhbətlərdə internatın adı tez tez çəkilirdi. Maraqlandıq , Ermənistandan gəlmiş sakinlərin bir qismi hələ də burada yaşayır. Onlarla görüşmək ,.vəziyyəti gözümüzlə görmək istədiyimizi bildirdik. Məsləhət görmədilər: Guya oraya getməyimiz işləri korlaya bilərdi. Doğrusu adamların orada necə yaşadıqlarını sözlə təsvir etməyə çətinlik çəkirik. Yox , buna yaşamaq demək olmaz. Bir andaca başımıza otuzacan adam

yığışdı. Hərə öz otağını göstərməyə can atırdı. Baxın , bura qazanxanadır, bura emalatxana.. hərəsində 12 nəfərdən ibarət ailə yaşayır.Onlarla söhbət etmək həqiqətən çox çətinmiş.

Sizin kimilər çox gəlib baxıb gediblər.

Vallah, türmə burdan yaxşıdır.

Qışı da burada keçirsək vay halımıza. Bizə bir əlac................

Internat doğurdan da dəhşətli təsir buraxdı. Ürək ağrıdan mənzərəni gördükdən sonra başa düşdük ki, niyə raykom işçiləri buradan uzaq qaçırlar.

Didərginlərin məskunlaşdığı Oktyabr kəndinədə baş çəkdik. Maşınımız dayanan kimi başımıza yenə də çoxlu adam cəm oldu.

Burada həyat yavaş-yavaş qaydaya düşür. Camaat iş güclə məşğuldur. Abbas Məmmədov bizi evinə dəvət etdi. Gedib baxdıq. Doğurdanda çox darısqaldır Briqadir Paşa Məhərrəmovun iki otaqlı evində isə 27 nəfər yaşayır.

- Başa düşürük, çətindir deyən Paşa fikirli fikirli dilləndi. Gərək hər şeyi nəzərə alaq.
Xalqımızı bu ağır vəziyyətdən yalnız onun birliyi xilas edə bilər. Kimisə vəzifədən çıxarmaq kimisə vəzifəyə qoymaq barədəki iddialar, ayrı seçkilik kor koranə
mitinqlərə toplaşmağımız işə yalnız ziyan vura bilər......

Bəlkə də təkcə Xanlar hadisəsi olsaydı, bu haqda uzun uzadı söhbət açmağa dəyməzdi. Xaçmazda , Cəlilabadda, Lənkəranda, Füzulidə buna bənzər hadisələr baş vermişdir. Səmt küləyi alovu getdikcə daha çox əraziyə yayır. Biz isə ona hələ də siyasi qiymət verməyə tələsmir, ən yaxşı halda susmaqla kifayətlənirik. Nə vaxtacan? Və niyə? Bu gün Respublika Partiya təşkilatının nüfuzlu sözünə olduqca böyük ehtiyac duyulur. Həyat sürətlə yeniləşir. Bəzi rayon partiya komitələri ,ilk partiya təşkilatları bu sürətlə açıq aşkar ayaqlaşa bilmirlər. Necə deyərlər yenidənqurmanın düşünmək üçün verdiyi möhlət qurtarmışdır.......

**Elman Qədirov**
**Əhməd İsayev**
**Kommunistin müxbirləri.**
**“Kommunist “ qəzeti 28 oktyabr 1989- cu il N 248**

*ELAN*

« Kommunist əməyi » qəzeti № 148
10 dekabr 1988-ci il

**Müəssisələr,idarələr ,təşkilat rəhbərlərinin ,**
**Xanlar rayon vətəndaşla**
**NƏZƏRİNƏ**

Aqrosənaye bankının Xanlar Şöbəsində Ermənistan SSR dən gəlmiş və müvəqqəti olaraq Xanlar rayonunda yerləşdirilmiş adamlara maddi cəhətdən kömək göstərmək məqsədilə **Yadım fondunda** 70077№li hesab acılmışdır. Yadım üçün vəsaiti yuxarıda göstərilən hesaba kecirməyiniz xahış olunur.Rayon icraiyyə komitəsinin sədr müavini Q.İ.Aslanovun sədrlik etiyi maddi yardım komissiyası rayon icraiyyə komitəsinin nəzdində fəaliyyət göstərir. Sizi maraqlandıran suallar üçün Yardım komissiyasına müraciət edə bilərsiniz.

*QOCAYEV NİFTALI MEHRALI OĞLU - Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri, fizika—riyaziyyat elmləri doktoru,professordur. O ,1936-cı ildə Qazax qəzasının Dilican nahiyyəsindəki Göyərçin kəndində ( imdiki Ermənistan SSR, İcevan rayonunun tərkibinə daxil olan Salah kəndi) anadan olmuşdur İ. Qocayev ali məktəblər üçün yazılmış bir neçə dərsliyin, o cümlədən «Optika»(1979,Moskva, Vısşaya şkola» nəşriyyatı) və 3 cildli «Ümumi fizika kursu»nun müəllifidir. Onun şərikli monoqrafiyaları Leninqradda ingilis,Riqada rus dilində kütləvi tirajla nəşr edilmişdir. Bundan başqa 200-dən çox elmi məqalənin və «Elm» nəşriyyatında çap olmunmuş kitabın müəllifidir.Professor N.Qocayevin elmi əsərləri ABŞ.,ADR,.İTALYA,.AFR və digər xarıci ölkələrin,həmçinin SSRİ Elmlər Akademiyasının müxtəlif elmi jurnallarında çap edtmişdir.N.Qocayev bir vətəndaş alim kimi respublikamızın içtimai-siyasi həyatında həmişə fəal iştirak etmiş,öz xalqının ləyaqətli oğlu kimi ömrünün indiki məqamını qaçqınların taleyi ilə bağlı problemlərə həsr etmişdir. Müxbirimiz Şamil Qiyas oğlunun professor Niftalı Qocayevlə müsahibəsini oxuculara təqdim edirik.*

## *YOLUMUZ HAQQ YOLUDUR*

***-Niftalı müəllim ,Azərbaycan Qaçqınlar cəmiyyətinin yaranması xeyirxah siysi məqsədlərlə bağlıdır v əböyük əhəmiyyətə malikdir. AQC-nin yaranma səbəbi və onun vəzifələri haqqında nə deyə bilərsiniz?***

*---AQC- ni hər şeydən əvvəl zəmanə özü ,tarix özü yaratdı.Bu günki milli tariximizdə baş* verən müxtəlif tipli sosial hadisələrin v əproseslərin forma və məzmun rəngarəngliyi isə hamıya yaxşı bəllidir.Erməni millətçilərinin indi Ermənistan SSR adlanan ərazidə –öz doğma yurdlarında yaşayan azərbaycanlılara qarşı genosid siyasəti əvvələr də heç kəs üçün gizli deyildi.Uzun müddət hiyləgərcəsinə aparılan bu bədnam siyasəti mərkəzin ermənilərə havadarlığı nəticəsində orada cəmlənmiş erməni lobbisinin məsləhəti və təhriki ilə kulminasiya nöqtəsinə çatmışdır.1986-cı ilin noyabrında yenidənqurma adlanan prosesin çiçəkləndiyi dövrdə 200 mindən çox azərbaycanlı silah gücünə bir neçə gün ərzində vəhşicəsinə öz doğma yurdlarından qovulmuşdur.Erməni millətçiləri bu vəhşilik nəticəsində 100-dən çox azərbaycanlı öldürülmüş,qovulanların nəinki, əmlakları və vəsaitləri, hətta gündəlik paltarları da əllərindəndən alınmışdır.Qəddar soyğunluğa məruz qalmış 200 min Azərbaycanlı iqtisadi vəziyyəti onsuz da ağır olan Azərbaycana pənah gətirməyə məcbur olmuşdur. Azərbaycandakı qardaş və bacılarımız qaçqınları səmimiyətlə qəbul etmiş ,öz çörəyinin onlarla bölüşdürmüş,onların yolunda hər cür əziyyətlərə dözmüşlər.Özbəkistandan qovulmuş 70 min türk,Dağlıq Qarabağdan qovulmuş 20 min azərbaycanlı da eyni səmimiyyət və qayğı ilə qarşılaşmışdır.Bununla belə qaçqınlara göstərilən ümumxalq köməyi onların qarşısına çıxan ciddi çətinlikləri aradan qaldırmağa kifayət etmədi.Nazirlər Soveti yanında yaradfılmış xüsusi Komitə də problemləri tam həll edə bilmədi.Ona görə də qaçqınların işi ilə məşğul olacaq ictimai təşkilata ehtiyc yarandı. Cəmiyyətin qarşısında duran böyük mürəkkəb və çoxcəhətli problemlərin bir qismi bunlardan ibarətdir, qaçqınların ev və işlə təmin olunma məsələsi,onların qaçqın statusu alması, ermənilərin törətdikləri vəhşiliyə SSRİ-və ümumdünya miqyasında siyasi qiymət verilməsi ,qaçqınların evlərinin dəyərinin ödənilməsi xüsusi və kolxoz əmlaklarının qaytarılması, azərbaycanlıları və onların şəxsiyyətinin təhqir edən ermənicinayətkarlarınıcinayət məsuliyyətinə cəlb etmək,qaçqınların öz doğma yurdlarına siyasi təminatla qayıtması və.s

***-Deyilənlərə görə ,qaçqınların 40 faizi Bakıya gəlmiş və bu ,narazılığa səbəb olnan müəyyən çətinliklər yaratmışdır.Bu barədə Sizin fikriniz necədir?***

- Bakı şəhərinə çoxlu qaçqın gəlməsi faktdır.Bu gəlişin obyektiv səbəbləri vardır. Həmin səbəblərdən təkcə ikisini göstərmək kifayətdir. Faciə ilə qarşılaımış qaçqınlar Azərbaycandakı erməni kəndlərinin sakinləri ilə razılaşaraq öz kəndlərini qarşılıqlı dəyişmək qərarına gəlmşdilər.Ermənilər heç bir müqavimətə rast gəlmədən azərbaycanlıların Ermənistandakı evlərinə köçüb rahat yaşadığı halda ,bir çox rayonların **(Xanlar,Ağsu və.s.) rəhbərləri** laqeydlik göstərərək və öz millətinə xəyanət edərək azərbaycanlıları razılığa gəldikləri erməni kəndlərinə

buraxmadılar.Qışın soyuq günlərində məktəblərdə ,klublarda və bəzən də açıq havada heç bir vəsait və şərait olmadan yaşamağa məcbur qalmış qaçqınlar son səbri tükəndikdən sonra əlacsız qalaraq Bakı şəhərinə ,öz qohum və tanışlarının himayəsinə ümid bağlamaqdan başqa çıxış yolu tapmadılar. Bəzi rayon katiblərinin belə cinayətkar hərəkəti dövrümüz üçün səciyyəvi haldır. Bacardığı və ləyaqəti tutduğu vəzifəyə uyğun gəlməyən adamların bu və ya digər vasitələrlə vəzifə tutması millətə baha başa gəlir. Bu sosial xəstəliyin müalücə olunma məsələsi ,xalqa xəyanət etmək «siyasətinə» son qoyulması respublika qarşısında duran ən vacib və ən mühüm məsələlərdəndir.Nə gizlədək ,səviyyəsi ,məslək və bacarığı tutduğu vəzifəyə uyğun gəlməyən təmənnalı rəhbər işçilərin xalqa vurduğu maddi və mənəvi ziyanın həddi-hüdudu yoxdur.Onlar bir qayda olaraq özündən yuxarı rütbəli işçilər qarşısında təlxəklik etməklə məşğul olur,öz tabeliyində olan işçiləri isə yaltaqlığa və əyri yollara sövq edirlər,kollektiv içərisinə nifaq salmaq yolu ilə öz məzmünsüz hökmranlıqlarını davam etdirirlər. Təəssüflər olsun ki,bir sıra hallarda onları ifşa etmək çətin olur. Respublikada hökm sürən rayon,kənd,və nəhayət tayfa bölgüləri məhz belə cinayətkar rəhbərlərin bəd əməllərinin məhsuludir.Onların cinayətkar siyasəti belədir: «parçala rəhbərlik et!» .

***Qaçqınların Bakıya gəlməsinin ikinci səbəbi*** kəndlər arasında evlərin mübadilə mexanizminin vaxtında hazırlanmaması oldu.Onu da deyim ki,Bakıya belə məcburi gəliş qaçqınların özlərinin çoxunun narahatlığına və kəskin narazılığına səbəb olmuşdur. Kəndlərdə vaxtında normal yaşayış şəraiti yaradılsa idi ,kənd yerlərindən gəlmiş qaçqınlar həvəslə həmin yerlərdə yaşayardılar. Elə hal olmamışdır ki, qaçqına kəndlərdə yaşayış üçün yararlı mənzil təklif olunduqda qaçqın bu təklifdən imtina etsin. Bu barədə bəzi rəhbər iş.çilər tərəfindən yayılan şaiyələr qara böhtandır və qaçqınlara qarşı nifrət yaratmaq kimi çirkin məqsəd güdür. Qaçqınlarla yerli əhali arasında nifaq salmaq işi səviyyəsiz,bədnam rəhbərlərin növbəti fitnələrindən biridir.Azərbaycan xalqı belə çirkin niyyətlərin məqsədini düzgün başa düşür və belə halları qətiyyətlə rədd edəcəyinə inanıram.

Qaçqınların Bakı şəhərinə gəlişi ilə əlaqədar şikayətlərin olmasını da gizlətmirəm.Bəzən belə fikir söylənilir : qaçqınların gəlişi yerli əhalinin ərzaq və mənzil problemini daha da çətinləşdirir.Bu fikirlə raşılaşmaq olmaz .Bakıdan rahatca köçüb gedən ermənilərin sayı bu şəhərə gələn azərbaycanlıların sayından xeyli çoxdur. Məgər həmin ermənilər Azərbaycan nemətləri ilə yaşamırdılar,yaxud da ərzaq və sənaye məhsullarını Bakı mağazalarından almırdılarmı? Digər tərəfdən Bakı əhalisinin mənzil probleminin həlli planlaşdırılarkən erməni əhalisinin köçəcəyi nəzərə alınmışdımı? Nəhayət ,onu da qeyd edim ki,qaçqınlardan ata və anası ermənilər tərəfindən öldürülmüş bir ailə müstəsna olmaqla ,heç kəs təzə mənzil fondundan istifadə etməmiş və etmək fikrində də deyildir.Faciəli vəziyyətə düşmüş bacı qardaşların bu acınacaqlı günündə onların ünvanına iradlar yağdırmaq ,bəzən də onlara ləkə vurmağa cəhd etmək araqarışdıran rəhbər işçilərin hiyləgər siyasətinin nəticəsidir. Xalq belə hiylələrə uymamalı,qarşıya çıxan obyektiv problemləri birgə səylə ,ləyaqətlə həll etməlidir. Bakıda mövcud olan narazılıqları və çətinlikləri qaçqınların ayağına yazan rəhbər işçilər qaçqınların olmadığı çoxsaylı digər rayonlarımızdakı daha ağır vəziyyəti və çaxnaşmaları nə ilə isah edə bilər?Bütün bunlara yanaşı, mən, Bakıya gəlmiş qaçqınların hamısının məcburən Bakıda qalmasının tərəfdarı deyiləm.Şübhəsiz ki, kənd yerlərində həyatını torpağı olan hazır evlər tikildikcə qaçqınlardan bir qismi məmuniyyətlə həmin evlərə keçər,kənd təsərrüfatı ilə məşğul olmağı şəhərdə yaşamaqdan üstün tutar.Cəmiyyətimiz bu yolda böyük iş görmək fikrindədir.Təəssüf hissi ilə bir şeyi də qeyd etməliyəm ki, erməni vəhşiliklərinə məruz qalaraq Azərbaycana pənah gətirmiş qardaş-bacılarımızı tək-tək hallarda təhqiredici formada «Yeraz»--Ermənistan azərbaycanlıları adlandırmaqla onlara damğa vuran dar qə lbli,məhdud dünyagörüşlü və nəzakətsiz adamlara da rast gəlmək olur.Çox təssüf ki," Qaraz -Qarabağ azərbaycanlıları," «Güraz»--Gürcüstan azərbaycanlıları kimi müraciət forması ilə də rastlaşırıq.Ermənistandan,qismən Qarabaq və Gürcüstandan qovulmuş qardaş və bacılarımıza

belə ayrıseçkili münasibətin  millət üçün cinayət xarakterli olması bəzi avantüristlər tərəfindən indi başa düşülməsə də yaxın gələcəkdə başa düşüləcəkdir. Sevimli şairimiz B. Vahabzadənin bu məsələyə təmkinli ağsaqqal münasibəti çoxları üçün örnək olmalıdır. Onu deyim ki, xalqı parçalan belə zərərli atmacalar kənarda yaradılıb ortalığa atılır.Xalqımızı parçalamaraq,gücdən *salmaq istəyən* qüvvələr bundan məharətlə istifadə edirlər.

**----Necə oldu ki , azərbaycanlılar öz tarixi vətənlərini, bəzilərinin dedikləri kimi,asanlıqla tərk edib Azərbaycana gəlkdilər ! Niyə onlar ermənilərə müqavimət göstərmədilər?**

----Qaçqınların Azərbaycana gəldiyi ilk günlərdə az da olsa onların ünvanına giley-güzar eşidilirdi, onları qorxaq adlandırırdılar.Bəziləri isə onların bu gəlişini az qala turist səyahətinə bənzədirdi. Belə əhval ruhiyyənin səbəbi dişinə qədər silahlanmış erməni millətçilərinin vəhşiliklərindən xəbərsizlik idi.Bir qədər keçdikdən sonra həmin erməni vəhşilikləri respublikamızdan,doğma Qarabağ və bəzi sərhədyanı kəndlərdən də yerli əhalini qovdu, Xankənddən,Qubadlıdan, Qarabağın digər rayonlarından da Bakıya azərbaycanlı qaçqınlar gəldilər. Onların evləri eyni erməni saqqallıları tərəfindən yandırıldı, özləri isə vəhşicəsinə döyülərək qaçmağa məcbur oldular.Gördüklərini və başlarına gələnləri Bakı əhalisinə danışan Qarabağ qaçqınların qovulma səbəbi haqqında aydın təsəvvür yaratdı.Nəhayət,son günlərdə erməni «milli hərəkatının» azğın nümayəndələri Azərbaycanın sərhəd rayonlarına (Qazax,Tovuz, Gədəbəy,Qubadlı,Şahbuz və.s) hücum etmək,dinc əhaliyə divan tutmaq, mal-qaranı da gülləboran etmək, ağsaqqal və ikiaylıq körpəni ailə üzləri ilə birgə doğma yurdunda yandırmıaqla bu təsəvvürü daha da genişləndirdilər.Özümüz öz respublikamızda azərbaycanlıları ermənilərdən qoruya bilmədiyimiz halda,Azərbaycan SSR-dən heç bir maddi və mənəvi kömək almayan azərbaycanlılar Ermənistan daxilində dişinə qədər silahlanmış erməni vəhşiliklərinə müqavimət göstərə bilərdimi?

**-Qaçqınların düşdüyü bu ağır vəziyyətdən çıxma perspektivlərinin nədə görürsünüz?**

--İstərdim ki,qaçqınların həqiqi vəziyyətinin, onlarla bağlı problemlərin mahiyyətini hər kəs düzgün təsəvvür etsin.Ağır mənəvi təhqirə məruz qalmaqla, heç bir vəsaiti olmadan Azərbaycana gəlmiş qaçqınlar işlə və qismən evlə təmin olunmadığından təkcə xalq yardımı ilə yaşaya bilmir. Buna görə də onlar həm kəskin maddi ehtiyaca həm də mənəvi məhrumiyyətlərə məruz qalmışlar. Xalqın maddi imkanı və xeyirxah yardımı qaçqınların həyat təminatı üçün zəmin yarada bilmir.Azərbaycanın maliyyə və maddi imkanları 300 minə yaxın qaçqının bütün tələblərinin ödəməyə kifayət etmir.Zəlzələdən zərər çəkmiş Ermənistana dünya köməyindən əlavə 12 milyard yardım göstərən Sövet hakimiyyəti 300 min Azərbaycan qaçqınına heç bir kömək göstərməmişdir. İndiyədək qardaş adlandırdığımız respublikalar da bizə kömək əli uzatmır.Biz isə bu və ya digər respublika təbii fəlakətdən zərər çəkdikdə kömək edənlər siyahısında həmişə birinci yeri tutmuşuq.Mən belə hesab edirəm ki, AQC bu ədalətsizliyə qarşı siyası mübarizə aparmalı,İttifaq hökümətindən lazımı maddi kömək tələb etməlidir.Ümumittifaq uğaq fondu. Sülh fondu və s. ictimai təşkilatlar da ermənilərə olduğu kimi, bizə də kömək göstərməlidir. Müttəfiq respublikalar da bizə yardım etməyə borcludur.Bu sahədə lazımı tədbirlər görəcəyik.Kömək almasaq da, dostlarımızın kim olduğunu müəyyən edəcəyik. **-- Qaçqınların tapdalanmış hüquqların müdafiəsi, erməni millərçilərinin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərə siyasi qiymət verilməsi yolunda cəmiyyət hansı kömək fikrindədir?**

- Qaçqınların hüquqları həm maddi, həm də mənəvi baxımdan kobudcasına tapdalanmışdır. Genosid və vəhşi divana məruz qalmış azərbaycanlılaın tam insani hüquqlarını müdafiə etmək qaçqınlar cəmiyyəti qarşısında duran ən vacib məsələdir. Bu yolda İttifaq və dünya miqyasında qəti və kəskin mübarizəyə girişəcəyik. Çalışacağıq ki, qaçqınlar dünyanın hüquqi və mədəni dövlətlərində olduğu kimi, qaçqın statusu alsın, bu statusla əlaqədar müvafiq imtiyazlar əldə etsin öz doğma yurdlarına təminatla qayıtma hüququ qazansınlar.

1944-cü ildə Gürcüstan SSR-nin altı rayonundan mesxeti türklərinin, 1948—53-cü illərdə hiyləgər Mikoyanın təkidi ilə Stalin – Beriya qaragüruhunun 200 minə yaxın azərbaycanlını Ermənistandan köçürməsi aktına, 1988-ci ildə Ermənistandan 300 minə yaxın adamın öz doğma

ev eşiyindən vəhşicəsinə qovulmasına İttifaq və dünya miqyasında siyasi qiymət verilməsinə nail olacağıq.Ermənistan SSR-dəki öz doğma yurdlarında, vaxti ilə yığcam yaşayış yerlərində muxtariyyat əldə etmək şərti ilə geri qayıtmaq işi siyası mübarizəmizin son nailiyyəti olmalıdır. Qarşımıza qoyduğumuz bu məsələlər çox mürəkkəb və çətindir.Həmin məsələləri həll etmək üçün bütün Azərbaycan xalqının mənəvi gücündən,Azərbaycan ziyalılarının konkret imkanlarından geniş istifadə edəcəyik.Bu yolda bütün informasiya vasitələrinə əl atacağıq,dünya siyasəti orbitinə çıxmaq üçün var qüvvəmizi sərf edəcəyik..

**--- Azərbaycanlıları öz doğma yurdlarından vəhşicəsinə qovarkən yüzdən çox adam Öldürmüş erməni cinayətkarlarının məsuliyyətə cəlb olunma işi nə yerdədir ?**

*– Bu sualınız həm də Azərbaycanda cinayət törətməkdə şübhəli adamlara qarşı görülən* çox ciddi və bəzən də qanun çərçivəsindən kənara çıxan tədbirlərin görülməsi ilə əlaqədardır.Sumqayıtda erməni mafiyasının qismən açıq,qismən də gizli iştirakı ilə törədilən çaxnaşmalarla əlaqədar heç də hamısı günahkar olmayan 400 nəfərdən çox adamın məsuliyyətə cəlb olunması buna misaldır. Çoxlu sahələrdə rekord vurma xəstəliyinə tutulduğumuz kimi »planı» artıqlaması ilə yerinə yetirməkdə canfəşanlıq edənlər bu dəfə də haqq işinə qoşulan günahsız oğullarımızı «damlamaq» işində rekord vurdular. Ermənistan SSR-də Azərbaycanlılara qarşı törədilən hər cür cinayyət və vəhşiliklərə münasibət tamamilə başqadır. Sanki orada Sovet quruluşu mövcud deyil,qanun deyilən bir şey yoxdur. .Elə buna görə də partiya , sovet ,inzibati orqan işçilərinin təhriki və iştirakı ilə törədilmiş cinayətlərdən biri də açılmamış ,bir nəfər də olsun cinayət məsuliyyətinə cəlb olunmamışdır. Məsələnin mürəkkəbliyi ondadır ki, cinayət işlərinin açılması ilə törədilməsində iştirak edənlərin bilavasitə özləri məşğul olurlar. Belə dəhşətli ədalətsizlik adamlarda partiya və hökumətə qarşı tam inamsızlıq yaradır.Vəziyyətin belə ağırlaşmasına baxmayaraq ,qardaş-bacılarımızı vəhşicəsinə öldürmüş cinəyatkarları aşkar etmək və məsuliyyətə cəlb etmək üçün beynəlxalq təşkilatlara qədər müraciət etməli olacağıq.

**- Qaçqınlar haqqında Bakıda yayılan bəzi şayiələr haqqında nə deyə bilərsiniz?**

_ Ermənilər tərəfindən vəhşicəsinə qovulmuş bədbəxt insanlara ləkə vurmaq işi o qədər də cəsarət tələb etməyən şərəfsiz işdir. Belə böhtanlar bu gün bəzi əqidəsiz adamların xoşuna gəlsə də ,gələcəkdə tarixin zibilliklərində itib batacaqdır. Dövlət evlərinin baha satmaq üçün öz qoca ata-analarını Bakıda saxlayıb ,adını qaçqın qoyan ermənilər də belə fitva üçün zəmin yarada bildilər. Adətən məişət mübahisəsi əsasında və bəzən də qara qüvvələrin gizli təhriki və iştirakı ilə baş vermiş ölüm ,habelə 13yanvar Bakı hadisələrini tamamilə qaçqınların üzərinə yıxmaq əsası olmayan cəfəngiyyatdır. Başa düşmək olmur ki, niyə Bakıdan və Azərbaycanın digər yerlərindən rahatca köçən ermənilər heç bir qanuna riayət etmədən qaçqınların evlərini tutduğu halda, qaçqınların erməni evinə girib daldalanması böyük qəbahət sayılır. Bununla mən demək istəmirəm ki, boşalmış erməni evlərinin hamısı qaçqınlara verilməlidir. İllərlə növbədə duran Bakı əhalisi də bu evlərə köçməlidir.İlkin məlumata görə, hələlik boşalan evlərin əksəriyyəti qanunsuz da olsa, başqaları tərəfindən tutulmuşdur.19-20 yanvar hadisələri ilə bağlı rusların uydurulmuş «təşvişini» də qaçqınların ünvanına yazmaq istəyənlər var. Ağıldan məhrum olmayan hər kəsə aydındır ki,rusları Bakıdan heç kəs qovmur və qovmaq fikrində deyildir. Ruslarla azərbaycanlılar mehriban yaşamış və yaşamaqda davam edirlər.Suverenliyimizi kobudcasına pozaraq ən müasir silahlardan dinc əhaliyə qarşı istifadə ətməklə uşaq qadın,qoca və gəncləri öldürənlər bu cinayəti əsaslandırmaq cəhdi ilə «rus dilli xalq» problemini uydurmuşlar.Aydındır ki, əsli mövcud olmayan bu şaiyənin uydurmaq və qaçqınlara,nə də yerli Bakı əhalisinə yox, Bakını zorla zəbt edənlərə və dinc əhaliyə qanlı divan tutanlara lazım idi

***----Qaçqınların gələcək taleyi haqqında konkret fikir söyləmək olarmı? Bu sualımla Mən onların öz doğma yurdlarına qayıtma imkanından söhbət açmanızı arzulayıram.***

---- İndi Ermənistan adlanan ərazinin, demək olar ki, hər yerində tarixən azərbaycanlılar yaşamışlar.Ermənilərin əsl vətəni indiki SSRİ ərazisində yox,ondan kənarda olmuşdur.Necə və nə üçün ermənilərin bizim tarixi ərazimizə köçürülməsi ciddi məsələ olduğundan belə kiçik

söhbətdə onu tam əhatə etmək mümkün deyildir.Qayıtmaq nəsələsinə öz münasibətini bildirməliyəm.Mənim və bütün qaçqınların qəti fikri öz doğma yurdumuza qayıtmaqdır.Bu məsələ sadəcə olaraq, maşına minib mexaniki köçmək yox,həll edilməsi böyük çətinliklərlə rastlaşacaq siyasi məsələdir.Biz təkcə öz torpaqlarımıza qayıtmaq uğrunda yox,həm də o torpaqda tam hüquqla yaşamaq üçün muxtariyyat almaq uğrunda mübarizə aparmalıyıq.Aydındır ki, bu məsələ çox çətin məsələdir.Erməni millətçiləri uzun illərdən bəri həsrətində olduğu Azərbaycan torpağının ələ keçirmişdir. Bu torpağı geri qaytarmaq yolunda ermənilər əllərindən gələn maneələr törədəcəklər,öz havadarlarının köməyinə ümid bəsləyəcək, yenidən müxtəlif fitnələrə əl atacaqlar.Ona görə də bu çətin məsələnin həllinə nail olmaq üçün böyük iradə,mətinlik vəmübarizlik göstərməliyik.Ancaq ardıcıl və fəal siyasi mübarizə ilə, ümumxalq iradəsini təmsil etməklə niyyətimizə çatacağımıza əminik.Çünki,yolumuz haqq yoludur.Biz məsələnin əsl mahiyyətini nəinki SSRİ,hətta dünya ictimayyətinə olduğu kimi çatdırmalı ,eyni zamanda qaragüruh erməni hərakatını axıradək ifşa etməliyik. Türklərin doğma torpaqlarına, Dağlıq Qarabağ qaçqınlarının isə Xankəndinə, doğma yerlərinə qayıtmalarını təmin etmək məsələsi də cəmiyyətimiz qarşısında duran mühüm məsələdir. Bu məsələrin tam həllinə,ədalətin bərpasına nail olmaq üçün bütün siyasi mübarizə üsularından istifadə edəcəyik.

*« VƏTƏN SƏSİ » qəzeti*
*18 aprel 1990-cı № 1*




Ermənistandan deportasiya edilmiş azərbaycanlı qaçqınlar. Noyabr, 1988-ci il.

16




Ermənilər tərəfindən Qarabağ rayonlarından didərgin düşmüş məcburi köçkünlərin yaşadığı düşərgə.

## CAVAD XANIN CƏNGİSİ

Neçə vaxtdı Gəncəbasarın dincliyi pozulmuşdu.Çaykənd ,Azad və Kamo kəndlərindən bir-birinin ardınca həyəcanlı xəbərlər gəlirdi. Hacıkənd - Göygöl yolu , demək olar ki, kəsilib. Əsasən Çaykənddə yuva salmış ekstremistlər qonşuluqdakı Azərbaycan kəndlərinə elə bil meydan oxuyurdular.

Təpədən dırnağa kimi silahlanmış saqqallılar pusqular düzəldir, yoldan ötənlərə basqınlar edir, qonşu kəndlərə atəş açırdılar.Hələ 1989-cu il noyabrın 13-də milis müvəkkilinə Çaykənddə qəsd edilmişdi. O vaxtdan bəri toqquşmalar ara vermirdi. Təkcə 4 ay ərzində 26 nəfər azərbaycanlı müxtəlif vaxtlarda odlu silahdan yara almışdı. Quşçu-Armavir kəndində partlayış zamanı dörd yaşlı oğlan uşağı ölüb, əsasən didərginlərin yaşadıqları beş - altı ev yandırılıb. Demək olar ki, hər gün vertolyotlar Ermənistandan saqqallılar üçün müxtəlf silah ,partlayıcı maddələr daşıyır, onlar da əliyalın adamların qabağında at oynadır, meydan oxuyurdular…….

Nahaq iş yerdə qalmır. Öz isti öcağında sakit-səssiz yaşayan dinc əhalinin ah- naləsi hərdən elə erməni ekstremistlərinin özlərini də tutur ,öz ətəklərindən od alırlar. Dekabrın 30-da axşamüstü Ermənistandan gələn «Mİ-8» vertalyotu Çaykənddə yerə enərkən onun pərləri ətrafa toplaşan xeyli adamı bicdi , ümumən on üç erməni öldü, bir neçəsi yaralandı. Tezcə ayıblarına kor oldular. İzi ört-basdır etmək üçün tələm – tələsik hamısını yığışdırıb Yerevana ötürdülər.

1990-cı ilin yanvarın 9-da Şaumyan rayonundan Çaykənd səmtinə maşın karvanı yola düşdü. Nə az, nə çox – düz dörd maşın gəlirdi. İçində də rayonun demək olar ki, bütün fəalları: partiya və sovet işçiləri, təsərrüfat rəhbərləri,məktəb direktorları …..

Təqribən gündüz saat 1 –də Quşçu-Armavir kəndində onları kənd camaatı qarşıladı. Xəbər aldılar:İ şin –gücün bu çağında belə bir kütləvi yürüşün məqsədi nədir? Guya kiminsə dəfninə gedirlər. Doğurdan?

Maşınları nəzərdən keçirdilər. Nə görsələr yaxşıdır? Əldəqayırma partladıcı qurğular , odlu silahlar, siqnal raketi…….

Məgər yas yerinə də bu cür yaraqlı – yasaqlı gedərlər? Axı, göz görə- görə qayda –qanun niyə pozulur? On yeddi nəfər Xanlar rayon daxili işlər şöbəsinə gətrildi. Qanunsuz silah daşıdıqları üçün Azərbaycan S SR Cinayət Məcəlləsinin 220-ci maddəsinin 1-ci bəndinə əsasən ilkin istintaq başlandı. Hadisə yerindən bir təhər sivişib geri qayıdan prokuror Stepanyan isə rayona çatan kimi əlüstü «əks tədbirə» başladı. Bir nəfər avtobus sürücüsünü , xeyli arvad-uşağı, milis serjantını, meşə işçilərini girov götürdü. İşıq xəttini düzəltmək üçün rayona gələn Gəncə elektrik şəbəkəsinin yeddi nəfər mütəxəssisini də tutub saxladılar.

Bütün Gəncəbasar ayağa qalxdı. Hər yerdə mitinqlər, yığıncaqlar, nümayişlər keçrilir, könüllü müdafiə dəstələri yaradılır, vəsait toplanır. Gəncə çayının sahilindəki sərgi salonunun dörd yanında gecə –gündüz adam əlindən tərpənmək olmur. Xalq Cəbhəsinin müdafiə qərarqahı burada yerləşir. Üç rəngli bayraqlar asılıb. Reproduktorlar qurulub. Həyəcanlı xəbərlər, məlumatlar verilir. Yorğun-arğın döyüşçü dəstələri dağlardan gəlir, çiyni tüfəngli yeni dəstələr yola salınır….

Axşamüstü qan-tər içində Todan kəndindən bir dəstə arvad – uşaq gəldi. Nə olub? Demə, saqqallılar indi daha alçaq üsula əl atıblar, kənddə hamıya, xüsusən arvad-uşağa divan tuturlar.

Yanvarın 11-də Çaykəndə heç bir nömrə nişanı olmayan on iki vertalyot gəldi. Hərəsində də hərbi formalı 20 - 22 nəfər saqqallı. Əllərində hər cür döyüş sursatı :
avtomat, karabin.Todanda səngərlər qurulub. Fermada işləyən ata-oğul girov götürülüb. Ölən və yaralananlar çoxdur

Əsl vətəndaş müharibəsi gedir. Yanvarın 12-də hadisə yerində məni SSRİ Daxili İşlər Nazirliyinin Xanlar rayonundakı istintaq qrupunun rəhbəri , milis baş leytenantı S.Astaxovun raportu ilə tanış etdilər. Həmin rəsmi sənədin məzmunu belədir: Regionda vəziyyət gərgindir. Çaykənd sakinləri tutduğu vəzigəsindən asılı olmayaraq ,bütün azərbaycanlıları kəndlərinə

qəti yaxın qoymurlar.Onlar hətta hökumət nümayəndələrini və hüquq mühafizə orqanlarının işçilərini də ölümlə hədələyirlər…..
Nə Cavad xan cəngisinin yeridir !
O gərgin günlərdə Şaumyan rayonuna getdim. Daha doğrusu, Azərbaycanlılar yaşayan Şəfəq kəndində oldum. Neçə vaxtdır, rayon mərkəzinə girmək müşkül məsələdir. Rayonun hərbi komissarı Teymur Həsənov da burada «qapı dalında» qalıb. Xidməti ezamiyyətdə imiş , qayıdanda görüb ki, aləm bir-birinə qarışıb. Yol-iz bağlanıb.
Deməyiyi,müraciət etmədiyi yer qalmayıb. Rayona , ev-eşiyinə, iş başına buraxmırlar ki, buraxmırlar.

İndi, bizimlə birgə «sərhəd zonasının» müdafiə–keçid məntəqəsində oturub, komendantı gözləyir. Gəncədən, Xanlar və Qasım İsmayılov rayonundan da xeyli adam gəlib. Yenə bizimkilər, sağ olsunlar! Bir əli həmişə sudur, yanğını söndürməyə çalışırlar .«Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında » SSRİ Ali Soveti Rəyasət Həyətinin 15 yanvar 1990-cı il Fərmanı çıxan kimi barışığa, danışığa gəliblər. Ən qatı cinayətkarları ,yanvarın 9-da yaraqlı-yasqlı Çaykəndə gedərkən yaxalanmış Şaumyan rayonun rəhbər işçilərini belə qaytarmağa hazırdırlar. Təki ara sakitləşsin, günahsız arvad – uşaq azad edilsin.

Səhərdən bəri gözümüz yoldadır. Hamı nigaran ,narahatdır. Hələ ki, gələn gedən yoxdur. Düşünürəm , axı niyə belə olub? Nə üçün vəziyyət bu cür dözülməz hala çatıb ? Sonuncu dəfə Şaumyan rayonunda məşhur zəlzələ günü -1988-ci ilin dekabrın 7-də qələm dostum Vaqif Bəhmənli ilə birgə olmuşam. Çətin günlərdə, dar ayaqda həyan çıxdıq, əl tutduq. Sonra da Qasım İsmayılov rayonunun işçiləri ilə dəfələrlə sərhəddə kimi getmişəm. Özləri təkəbbürlə , naz - qəmzə etsələr də ,bizimkilər pal-paltar,ərzaq, yanacaq, inşaat materialları yollayırdılar.
- Yazıqdı - deyirdilər , -- balıq bilməsə də xaliq bilər.

Nə balıq, nə xaliq ! Öz paltarımızı geyə – geyə , öz ərzağımızı yeyə-yeyə ,öz topağımızda xısın-xısın ayağımızın altını eşdilər. Bir ara söz yayıldı ki, Şaumyandan meşələrin içi ilə Mardakertə yol çəkirlər.Çoxunun qəlbi xain, qanı xarabdır.Gərək qabağı alınsın, sonra gec olar.Başbilənlərimiz dedilər yox, hara gedirlər, özbaşına deyillər ki…..
Meşələri qırıb yol çəkdilər, ara qarışan kimi də qalxdılar ayağa ki, yönümüz Dağlıq Qarabağadır, biz ora birləşmək istəyirik.

Bu yandan da Çaykəndə əl atdılar. Tələm-tələsik yol – iz sahmanlandı.Nə var ki, aralıqda bircə kənd durur:Todan kəndi, bir təhər qaçırarıq onları.
Ermənistandakı « xeyirxah himayədarları » da bir ucdan fitnə verdilər. Ağına –bozuna baxmadan bir-birinin dalınca ədalı-iddialı qərarlar çıxdı «Şaumyan rayonu və Çaykənd zonası Dağlıq Qarabağa birləşdirilsin».

Gəncəbasarın narahat günləri bax, belə başlandı. Əvvəlcə Çaykənd ətrafında, Göy göl zonasında gəlib-gedənin ayağını kəsdilər.
Sonra da yol izdəkilərə cumdular. Elə ki, 1990-cı il yanvarın əvvəlində Stepanakertdə Sov. İKP MK-nın və SSRİ Ali Sovetinin rəhbər işçilərini şəhərə buraxmadılar , burada da saqqallıların ayağı yer aldı.

Yanvarın 9-da Ermənistan SSR Ali Soveti Şaumyan və Çaykənd içi qarışıq Dağlıq Qarabağın illik büdcəsini müzakirə edəndə isə Çaykənd , sözün tam mənasında , döyüş bayrağını qaldırdı. Ölənlərin , yaralananların və girov götürülənlərin sayı hər gün,hər gecə artır, Gəncəbasar bir –birinin daslınca şəhidləri son mənzilə yola salır: Ruzigar Qasımov, Bəxtiyar Əliyev, Abbasqulu Məmmədov, Ələkbər Hüseynov, Neman Vəliyev, Bayram Nəsibov ,Nazir Bağırov, Yusif Kosayev, Əliqara Hüseynov, Səbuhi Fəxrəddin oğlu, Valeri Zakir oğlu. Çoxu da yeniyetmə, cavan. Məzarları nurla dolsun!
Todan mühasirə içindədir. Özü də kəndin yeri narahatdır. Əslində dərənin arasında yerləşir. Yuxarıdan hər şey ovucun içi kimi aydın görsənir. Yuxarıda isə saqqallıların tankları

,pulemyotları düzülüb. Təpələrin birində doluya qarşı mubarizə üçün nəzərdə tutulmuş nəhəng top da döyüşə hazır vəziyyətdədir. Todanda kimsə azacıq tərpənən kimi avtomat , karabin atəş açır.

Oğlu ağır vəziyyətə yatan Nəzər Şahrzayevlə söhbət elədim. Sadə adamdır. Bir axşam çöldən qayıdanda görüb ki, lələ köçüb yurdu qalıb. Kəndi viran ediblər.

Arvad -uşağın hərəsi yol maşını ilə bir yana səpələnib. Yaralı oğlunu da qan axa-axa Şaumyan rayonuna aparıblar. Bilmir , balasının başına nə ouyn açılıb. Azı min nəfərlik kəndin yarısı pərən-pərən düşüb.Qalanı da bu kökdə.Camaat adamın üzünü cırmaqlayır:

--- Biz çölçü adamıq-- deyirlər,--- qonşular şıdırğı silahlananda bizim olan qalan quş -ov tüfəngimizi də əlimizdən aldılar. İndi onlar yaraqla-yasaqla gəlirlər, biz də qalmışıq belə , əli yalın……

Bir ara hərbi qospitaldan təcili yardım maşını gəldi. Rus zabiti rəsmi məktub göstərdi. Todanda yaralanmış iki nəfərin adı yazılmışdı.Baxıram,biri həmin o Nəzər kişinin oğlu - Əfəndi Əmrahov. Zabit dedi ki, ikisi də ağır vəziyyətdədir. Gərək təcili şəhərə çatdıraq. Saqallılar yolu güclə açdılar. Fikir verirdim, axşam biz məntəqədən çıxana kimi təcili yardım maşını hələ də Şaumyandan geri qayıtmamışdı.

Ətrafa aydın, açıq baxmaq istəyirəm. Yolun o tərəfinə, sınıq-salxaq tənəklərin dibinə topa-topa qar-buz yığılmış üzüm bağına keçirəm. Yerli adamlardan biri ehmalca qolumu sıxır.

---Getmə o tərəfə ,-- deyir—dərə-təpədə namərd çoxdu.

Kəndi dövrələyən ağappaq dağlara baxıram. Kol-kosun arxasında ordan-bura, burdan-ora oğrun-oğrun sivişib keçən qaraltıları seçmək heç də çətin deyil.

Dağların dalından tırıltı sala-sala iki vertolyot çıxdı. İkisi də tünd-yaşıl rəngdədir. Ulduzları aydın seçilir. Bəs, işarə nömrələri? Lap yaxına çatanda da baxdım — heç nə görünmür, heç nə bilinmir.Güya ki, əmin-amanlıq yaratmağa gəlmiş əsgərlər vertolyotlara heç məhəl də qoymadılar. Beləcə əmin arxayın ötüb Çaykəndə tərəf keçdi.

Axşam saat beşə işləyəndə Şaumyan səmtində iki maşın göründü. Hər şey dedektiv filmlərdə olduğu kimi gedir. O üzdən sürətlə gələn «Vilislər» «sərhəd zonası»na azacıq qalmış dayandı. Əvvəlcə əli avtomatlı bir dəstə əsgər düşdü.

Sonra da iki nəfər zabit. Silahları təhvil verdilər. Quru, rəsmi bir görüş. Sərt, inamsız baxışlar.Birlikdə taxta budkaya qalxırıq. Qapı örtülür.Danışıqlar başlanılır.

Şaumyan tərəfdən rayonun hərbi komandantı podpolkovnik Nikolay İliç Qnes və köməkçisi,biz tərəfdən isə Xanlar Rayon Daxili İşlər Şöbəsinin rəisi, podpolkovnik Cavanşir Babayev və ictimayyətin bir neçə nümayəndəsi.

Birinci tələb: Qarşıdurmayla heç bir əlaqəsi olmayan doqquz nəfər evdar qadın və iki yaşlı körpə uşaq təcili sürətdə buraxılsın! Podpolkovnik Qnes cavab verdi ki, rəhbərliklə bu barədə danışılıb, düz deyirsiz. Təzliklə bu məsələ həll olunacaq.

İkinci tələb: Elektrik xəttini düzəltmək üçün Gəncədənköməyə gəlmiş mütəxəssisləri, xidməti vəzifədə olmuş milis nəfərini, sürüçü və çobanları qaytarın! Əvəzində yanvarın 9 – da əlisilahlı Çaykəndə gələn Şaumyan rayonun rəhbər işçilərini veririk. Ancaq bir şərtlə: onlar gələrək respublikamızı tərk etsinlər!

Qnes bildirdi ki, şəxsən özü razıdır, gərək gedib məsləhətləşin.Növbəti görüşdə ehtiyac olsa, dəyiş-düyüşün əməli tərəflərini dəqiqləşdirərik.Sonra komendant xəbər aldı ki, Şaumyanda yaşayan rus və malakanlara iradınız yoxdu ki?

Yığışanların hamısı bir ağızdan dilləndilər:---Qətiyyən! Bir əbədi qonşuyuq. Bəlkə onların sözü-söhbəti var?

Qnes ilk dəfə gülümsündü. Əksinə, malakanlar sizdən elə razılıq edirlər ki…

Elə bu ara Ballıqaya kəndindən bir nəfər ahıl kişi gəldi: «Saqqallılar bizi dinc qoymurlar,---dedi—təzəliklə yeddi nəfər arvad – uşağı başqa kəndə köçürməli olduq». Komentantdan xəbər

aldılar: «Bütün erməni kəndəlrini hərbi qüvvələr qoruyurur, bəs, azərbaycanlılar yaşayan yerləri kim mühafizə etməlidir? Todan, Başqışlaq, Ballıqaya əslində sahibsiz qalıb».

Komendant razılaşdı: « Mən təzə gəlmişəm—dedi –bu məsələni təcili nizama salaram.

Yaxın günlərdə daha konkret söz—söbətlə görüşmək ümidi ilə ayrıldıq.

Səhəri günü doqquz nəfər arvad - uşaq evlərinə qayıtdı. Sonra milis serşantı Eldəniz Əliyev, meşə işçilərindən Sahib Məmmədov və Bilal Verdiyev azad edildilər. Sonra daha bir neçə nəfər. Sonra da hamısı. Bizdən üst-ystə iyirmi iki nəfər gəldi. Onlardan isə Çaykənd yolunda tutulmuş rəhbər işçilər yola salındılar.

Görəsən dağlarda vəziyyət necədir? «Əsirlik»dən gələnlərdən biri — meşə işçisi Bilal Verdiyevlə söhbət elədim.

---Şaumyanda və Çaykənddə müxtəlif dəstələr fəaliyyət göstərir—dedi---Stepanekertdən və onun ətraf kəndlərindən yığışanlar,Ermənistandan gələnlər və bir də xarici dillərdə danışanlar. Yerli camaat özünü nisbətən təmkinli aparır.Bizi əslində ölümdən onlar xilas etdilər. Kənardan gələnlər isə hər vasitə ilə aranı qızışdırır, hamını döyüşə sövq edir, köçüb gedənləri ciddi şəkildə incidirlər. Mən dəfələrlə yerlilərlə gəlmələr arasında ciddi mübahisə və münaqişələrin şahidi olmuşam.

Bir daha görmüşəm ki, erməni saqqallılarının dalında Azərbaycan xalqına qatı düşmən olan güclü qüvvələr dayanır.

Gəncəlilər bir daha hiddətlənirdilər, bir də deyirdilər ki, şəhərin yenicə bərpa olunmuş adı mərkəzin dilində ilk dəfə niyə məhz SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı kimi belə sərt bir sənəddə səslənir ? Hətta təklif olunur ki, vəziyyət tələb edərsə, Bakıda və Gəncədə qadağan saatı qoyulsun.

ƏHMƏD İSAYEV
« GƏNCƏ və GƏNCƏLİLƏR»
Bakı 1991-ci il
( səhifə 103 – 108 )

## VERTOLYOTLAR İSƏ UÇMAĞINDADIR....

«Azadlıq» radiosunun erməni dilində verilişlər redaksiyası «sensasiyalı» bir xəbər yaymışdır: Azərbaycan SSR-in Xanlar rayonunda ermənilərin yaşadığı Çaykəndin, Kamo və Azad kəndlərinin sakinləri SSRİ Daxili İşlər Nazirliyi Daxili qoşunları bölmələrinin köməkliyi ilə məcburən köçürülür, onların evlərini isə azərbaycanlılar tuturlar. Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti də bundan hiddətləndiyini Yerevanda çıxan «Kommunist» qəzetinin səhifələrində ərz etmişdir. İddia edilir ki, bu dinc kəndlərin gecə-gündüz üzüm becərməkdən və mal-qara bəsləməkdən başqa fikirləri , qayğıları olmayan sakinləri qorxu-hürkü və açıq şantaj şəraitində yaşamışlar, indi isə zorakılıqla köçürülürlər.

Hələ yaxşı ki , radiostansiya evlərə azərbaycanlıların köçdüyünü bildirir,axı lap elə deyə bilərdi ki, boşalan evlərə Cənubi Amerika hinduları doluşurlar. Hamımız bilirik ki, qonşu respublikanın müəyyən cərəyana mənsub olan xadimləri istədikləri həcmdə saxta məlumatı məharətlə və səliqə - sahmanla toqquşdurmağa qadirdirlər. Qəzet səhifəsinin rəngi hələ qurumayıb, «Azadlıq» radiostansiyası erməni dilində verilişlər redaksiyası diktorunun həzin səsi hələ qulaqlardan çəkilməyib, amma İttifaq hökümət orqanlarına axın-axın məktublar, teleqramlar, şikayətlər göndərilməyə başlanıb: amanın bir günüdür, köməyimizə gəlin , bizi yenə də « genosid » eləyirlər . Bir sözlə , sanki komanda ilə kütləvi informasiya vasitələrinə, xüsusən də Mərkəzi televiziyaya açıq-aşkar şiddətli təzyiq göstərilir.

İstər - istəməz keçən günlər yada düşür - 1988-ci ilin həyəcan dolu qış ayları. Ermənistanda yerləşən 172 azərbaycanlı kəndinin sakinləri həqiqətən bu respublikanın milis orqanlarının təzyiqi altında doğma yurdlarından qovuldular. Bu orqanlar onları aşkar hədələyirdilər: Əgər xoşluqla getməsəniz , «saqqallılara», silahlı quldurlara cavab verməli olacaqsınız. 167 min nəfərdən çox qadın, uşaq, qoca əsrlər boyu yaşadıqları dədə - baba yurdlarını ,mal-mülklərini, bağlarını ,min zəhmətə qatlaşıb yığdıqları varı qoyub qaçmağa məcbur oldular, qarlı gədiklərdən aşıb bura gəldilər.Bu ilk sovet qaçqınlarından heç biri Moskvaya getmədi, uşaqlarını başına yığıb hökumət binaları qarşısında və paytaxt meydanlarında ,qəzet redaksiyalarının və xarici səfirliklərin önündə şivən qoparıb, hay-küylü piketlər düzəltmədi, haqq-ədalət istəmədi , vətənə qaytarılmasına , od vurulmuş evlərinə və külə döndərilmiş əmlaklarına görə kompensasiya tələb etmədi. Halbuki,bir çoxuna heç fürsət verilməmişdi ki, əmanət kassalarındakı əmək əmanətlərini götürsün. Onların hamısı Bakıda və Azərbaycanın bəzi rayonlarında yerləşdirildi. Açıq deyim ki, biz özümüz , respubli- ka kütləvi informasiya vasitələrinin nümayəndələri faciəli hadisələrin miqyasını dərhal başa düşə bilmədik, acizlik göstərdik. Yalnız sonralar həyat bizi başqa cür hərəkət etməyə öyrətdi.

Yeri gəlmişkən, o vaxt Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti qəzəbli bəyənatlar vermədi, kütləvi surətdə qovulan azərbaycanlılıarı müdafiə etmədi. Axı, azərbaycanlılar da o respublikanın vətəndaşları idilər ,üstəlik əkinçiliklə məşğul olur, Ermənistan əhalisinin az qala hamısını kənd təsərrüfatı məhsulları ilə təmin edirdilər. Heç nəyə göz dikməmişdilər, o cümlədən muxtariyyat iddia etmirdilər , hərçənd bundan ötrü bütün əsasları : həm hüquqi, həm də siyasi əsasları vardı. Gələcəkdə onları bu hüquqdan məhrum etmək üçün Ermənistan hakimiyyət orqanları cinayətkar fitnə təşkil etdilər. Bu fitnəyə indiyədək heç bir siyasi qiymət verilməyib. SSRİ-nin başqa regionlarında qaçqınların meydana gəlməsinin səbəbi də budur. Mərkəzi orqanların günahı budur ki, həmin əməlin ittifaqımızı nə cür sosial təhlükəyə qoyduğunu başa düşmədilər.

Gəlin,Xanlar rayonunun erməni kəndlərinə qayıdaq.Gəlin yada salaq:bu kəndlərin əhalisi doğurdanmı, quzu kimi fağır camaat idi?Axı,onlar özbaşınalıqla , respublika orqanlarının icazəsi olmadan özlərini Şaumyan rayonuna «birləşdirmiş» , o rayon isə özünü DQMV-yə « birləşdirmişdi», DQMV-də məlum olduğu kimi Ermənistanın tərkibinə «daxil olmuşdu».

Məgər bu , Azərbaycan xalqına həyasızcasına meydan oxumaq deyildimi, respublika xəritəsini kəsib - doğramaq cəhdi deyildimi? Heç bir suveren dövlət konstitusiyanı bu cür ayaqaltı etməz.

Gəlin başqa bir hadisəni yada salaq. Ermənistanda zəlzələ zonasında ıiləməli olan neçə-neçə vertolyot gecə düşən kimi xəlvətcə bu kəndlərə silah, döyüş sursatı və partlayıcı maddələr daşıyıb tökürdü. Sonra isə bu silahlar azərbaycanlı qonşulara qarşı işlədilirdi.

Neçə – neçə savadlı hüquqçunun işlədiyi Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyətinin qonşu respublikada öz evlərindəki kimi ağalıq etməyə çalışdığını nəzərə alsaq , bunlar qətiyyən təəccüb doğurmaz. Əgər, «Azadlıq» radiosunun erməni dilində verilişində deyilənlərə inansaq, Ermənistan SSR Ali Sovetinin Rəyasət Heyəti nə az, nə də çox - « Getaşen kəndini (Çaykəndin adını Ermənistanda bu cür dəyişdirmişlər) Şaumyan rayonunun inzibati tabeliyinə verməyi » tələb etmişdir. …

***---- İndi bu kəndlərdə vəziyyət necədir? - Bu sualla Xanlar rayon İcraiyyə Komitəsinin Sədri A. Q. Məmmədova müraciət etdik:***

*Azad və Kamo kəndlərinin sakinləri ümimi yığıncaq keçirib respublikadan getməyi qərara almışlar. Bu birgə yığıncağın qərarı notarius tərəfindən möhürlənib təsdiq edilmiş protokolu bizdədir. Kəndlərin sakinləri bizdən xahiş etmişlər ki, evlərini satmaqda və mütəşəkkil surətdə çıxıb getməkdə onlara kömək göstərək . Bu iki kənddə 209 ailə yaşayırdı, onların evlərini satın almışıq. Gedənlərin hamısına nəqliyyat verilmişdir. SSRİ Daxili İşlər Nazirliyi Daxili qoşunlarının mühafizəsi altında onlar avtobuslar ,təyyarələr və vertolyotlar ilə Ermənistanla sərhəddə aparılmışlar. Təəsssüf ki, bir sıra evlər zədələnmiş, elektrik xəttləri və bəzi tikililər yararsız hala salınmışdır.*

***-- Bu evlərə kimlər köçəcək ?***

*--Həmin evlərə Ermənistandan gəlmiş , mənzili olmayan qaçqınlar köçmüşlər.*

***-- Bəs evlərin pulu ödənilir ?***

*- Kimin nağd pulu varsa ,evi dərhal satın ala bilər. Kimin pulu yoxdursa,biz ona möhlətlə ödənliən borc veririk.*

***---- Çaykənddə vəziyyət necədir?***

*Sakitlikdir. SSRİ Daxili İşlər Nazirliyinin qoşunları vəziyyətə nəzarət edirlər. Orada 1003 ailə yaşayır . Onların əsas hissəsi , təqribən 700 -750 ailə Ermənistana köçmək arzusunda olduğunu bildirmişdir. Lakin öz niyyətlərini həyata keçirməkdə çətinliklərlə qarşılaşırlar. Çaykəndlilər hərbiçilər vasitəsi ilə xəbər göndərirlər ki , kənardan təzyiqə məruz qalırlar. Demək olar ki, hər gün kəndə Ermənistandan vertolyotlar gəlir, bu vertolyotların sərnişinləri evləri gəzir və sakinləri öz qərarlarından dönməyə məcbur edir, çox vaxt onlara hədə-qorxu gəlirlər.*

***--- Vertolyotlarla icazə verilməyən yüklər gətirilmirki ?***

*---- Yox. Hərbiçilər hər maşını ciddi yoxlayırlar. Bir qayda olaraq bunlar moskvalı , yaxud yerevanlı heyətlərdir. Bütün sualların cavabında deyirlər ki, tapşırığı yerinə yetirirlər .Amma hansı tapşırığı ? Bu nəcə fövqalədə vəziyyətdir ki, reysdənkənar vertolyotlar icazə almadan ,sərbəst surətdə başqa respublikanın ərazisinə uçurlar?*

***--- Deməli, yenə də vertolyotlar !***

*SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunların rəisi, general –polkovnik Y.Şatalin «Krasnaya Zvezda» nın mübiri ilə müsahibəsində düzgün demişdir ki, evlər yalnız könüllü qaydada satılıb alınır, daxili qoşunlar yerli əhaliyə heç bir təzyiq göstərmirlər. Bunu A.Q.Məmmədov da təsdiq etdi. O dedi ki, hərbiçilər evlərin alqı – satqısına qarışmırlar. Bu uydurma, yağı sözüdür.*

Göründüyü kimi «Azadlığın» erməni dilində verilişlər redaksiyası yenə də arzu etdiyini həqiqət kimi qələmə verir. General demişdir: « Əminəm ki, bu regionda vəziyyəti gərginləşdirənlər o kəslərdir ki ,hərcmərclik , qarmaqarışıqlıq əsəbilik onlara sərfəlidir ».Həqiqətən belədir. Amma Ermənistandan fitnəkar elçiləri gətirib - aparmaqla məşğul olan vertolyotlar hələ çoxmu uçacaq?

A. Şərifov

« KOMMUNİST » qəzeti
27 mart 1990 – cı il

## *SIX TORPAĞI GÖZLƏRİNƏ...*



*Gəl sıxaq torpağı gözlərimizə*
*Biz onun yolunda gözdən olmuşuq.*
*Mən dünyanın hər rəngini sevmişəm*
*İlk dəfədi bu nifrətlə çırpılıram qaraya.*
*Yolunda gözünü qurban verdiyin*
*Çaykəndin çayıdı düşüb araya.*

*Göz həkimi, professor Paşa Qəlbinurun Elşən Dursunova həsr etdiyi »Yol gəlir işıq» şerindən*

Bu qoca dünyaya göz açanda ilk duyduğumuz, seçdiyimiz işıq olur.Göyçə gölünün ay işığında parlayan büllur aynasına, qədim Zod kəndinin minrəng təbiətinə vurğun olan Elşən indi iynənin ucu boyda işığa həsrət qalıb. O, ecazkar aləmsə, yaddaşında əbədilik həkk olunub.Yurdun gözəlliyindən elə hey danışır. Həsrətlə,yanğıyla, ürək ağrısıyla, əlçatmazlıq, ünyetməzlik çırpıntılarıyla. Və bir də « bir dəfə görsəydim…» ümidiylə.Yaxşı ki, görmək, sevmək, torpağı bağrına basıb, heç olmasa doyunca

hönkürmək ümidi namərd gülləsinə tuş olmuş Elşəni  də ,onun yurddaşlarını da tərk etməyib. Başqa cür ola bilməzdi.

…Xanlar rayonu Basarkeçərin Zod kəndindən olan Dursunovlar ailəsi üçün ikinci vətən seçiləndə artıq Göyçədə heç kəs qalmamışdı, erməni quldurlar öldürdüklərini öldürmüşdülər, canını qurtaranlar pərən-pərən düşmüşdü.Göyçə gölün sahilindən  bir təhər «qopub» Göygölün sahilində sığınacaq axtaran günlər buralarda sakitlik idi, «qurd quzu ilə otlayırdı». Çaykəndin, Azadın, Kamonun «quzu» əhalisi «yağ içində böyrək» kimi saxlanılır,yağın , ətin qiymətinin Xanlarda kəllə-çarxa çıxdığı vaxtlarda, Ermənistan deyilən oğuz yurdundan qovulmuş körpələrin quruca çörəyə, yatacağa, sığınacağa ehtiyacı vardı. Xanların ermənilər yaşayan kəndlərinə isə hər gün ərzaqla  dolu maşın karvanları yola salınırdı. Rayon partiya komitəsinin sabiq birinci katibi Qərib İsgəndərov bütün gücünü, hökm-fərma hakimiyyətini bu kəndlərin əhalisinin yeyib-içib harınlanmasına sərf edirdi. Ermənilərin özlərinin « köçüb getmək istəyi» də katib tərəfindən hər vəchlə dəf  edilirdi.

*Elşənlə  söhbətdən birinci parça:*

*…Həmin vaxtlarda rayonda ermənilərin bu cür «qanad altına  alınması» əhali arasında necə təsir oyadırdı?*

*----Yalnız qəzəb və nifrət! Raykom katibi yuxarıda kiməsə arxalanırdı, rayonda isə ordunun və milisin gücünə.*

*-----Gözlərinin dünya işığına həsrət qalmasında müqəssir kimi bilirsən?*

*--- Yenə də, yenə də Qərib İsgəndərovu.*

… Xalq ayağa qalxmışdı. Xalqın əleyhinə birinci katibin muzdlu adamları ayağa qaldırılmışdı. Çaykəndə silah dolu vertolyotlar enirdi. Hər gün Todan, Sarısu, Quşçu və Xanların digər azərbaycanlılar yaşayan kəndləri atəşə tutulurdu.Xanlardan isə ərzaq dolu maşın karvanları, milisin, ordunun müşayiəti ilə Kamoya, Azada, Çaykəndə yola salınırdı. Yeyib qudurmuş, silahlanıb
quduzlaşmış ermənilər kəndlərimizə basqın eləməkdən belə çəkinmirdilər. İş o yerə çatmışdı ki, Çaykənd kənd soveti qərar çıxarıb özünü Şaumyan rayonuna birləşdirmişdi. Şaumyan rayonu da öz növbəsində özünü Dağlıq Qarabağın tərkib
hissəsi elan etmişdi.   Çaykəndə hər gün Ermənistandan vertolyotlar enir, «saqqalı» quldur dəstələri göndərilir.

*Elşənlə  söhbətdən  ikinci  parça:*

*---Hadisədən  əvvəl  işləyirdinmi, Elşən?*

*---Əlbəttə! Ailəmiz böyük idi. Hər şeyimizi qoyub gəlmişdik.*
*Dolanmaq  lazım  idi  «Bərpaçı»  kooperativində işə girmişdim. Hadisədən bir neçə gün əvvəl bütün gecəni yata bilmədim. Gördüklərimiz, eşitdiklərimiz dözülməzdi. Qardaşlarım Maqsudla, Tahirlə qaxdıq Azad kəndinə sarı. Əliyalın idik, hamı kimi.Heç olmasa, qaraltılıq edirdik.Bu zaman buraya AXC-nin Xanlar rayon şöbəsi tərəfindən 20—25 maşın yurdsuz-yuvasız didərgin gətirildi. Kənd kəndlə, ev-evlə dəyişdiriləcəkdi. Ermənilər evlərin açarlarını da verdilər. Yüklər boşaldılanda Q.İsgəndərov  muzdlu dəstəsi ilə gəlib çıxdı, ermənilərin çıxıb getməsinə mane oldu. Az qala özümüz - özümüzü qıracaqdıq. Biz , didərginlərin halına yanırdıq, raykom katibi isə ermənilərin.. Onu yuxarıdan hədələmişdilr  ki, əgər Xanları  bir erməni tərk eləsə, vəzifəni təhvil ver. Bundan qorxurdu katib.*

…Kənd dəyişmə cəhdi baş tutmadı.Azadda bir neçə azərbaycanlı ailəsi vardı.Elşən də , onun qardaşları da  bu  ailələrin təhlükəsizliyini  qorumaq üçün səhəri dirigözlü açdılar. Bütün gecə kənd evlərinin bacalarından onların üstünə atəş yağdırıldı. Amma Elşən qorxub geri çəkilmədi. Səhərə yaxın isə…

*Elşənlə söhbətdən üçüncü parça:*

*Hadisə necə oldu?*

*…Yanvarın 14-ü səhərə yaxın birdən birə ermənilər bizə hücum elədilər.Bizimkilərdən 13 nəfəri mühasirəyə düşdü. Dağlıq zonada yerləşən Todan, Sarısu, Quşçu kəndlərinin əhalisi də mühasirə vəziyyətində idi.Ermənilər yolu kəsib heç kəsi o yana buraxmırdılar. Camaatımız unsuz, çörəksiz, ərzaqsız qalmışdı .Uşaqlardan birinin UAZ markalı maşını vardı. Biz mühasirəni yarmağa müvəffəq olduq , amma onlar silahlı dəstə ilə təqib etməyə başladılar. Birtəhər qorunduq. Kəndlərimizi qorumaq üçün gecəni qalmağı qərara aldıq. Mən keşik çəkirdim .Səhərə yaxın birdən-birə hücum elədilər.Yaxın məsafədən açılan güllə gözlərimə dəydi .*

Namərd gülləsindən iki gözlərinin nurunu itirmiş Elşən Dursunov uzun müddət xəstəxanada qaldı. Gəncədə, Bakıda, Moskvada olunan müalicələr o qədər də səmərə vermədi.

*Elşənlə söhbətdən dördüncü parça:*

*---Arzun nədi, Elşən?*

*--- Təbii ki, gözlərimin açılmağını istəyirəm.İstəyirəm gözlərim görsün. Bircə dəfə baxım dünyaya. Və sonra torpaq yolunda ölməyə də hazıram.*!

Elşənin qəlbindəki ümid ulduzunu sezmək çətin deyil.Sağ olsunlar,müraciət etdiyi bütün tibb ocaqlarında ona əllərindən gələn köməyi ediblər.Bakıda, Elmi Tədqiqat Göz Xəstəlikləri İnsitutunda o, əsl qaygı görüb.Onu müalicə edən professor Paşa Qəlbinur ürəyinin dərinliklərindən gələn misraları məlhəm bilib:

*Sən aç gözlərini*
*Görürəm Elşən,*
*Uzaqdan-uzağa yol gəlir-işıq!..*
*Sənin işığındır o gələn işıq!..*

Elşənin qardaşı Tahirlə də görüşdük. Dedi ki, ən ağır anlarda Elşənlə bir yerdə olmuşam. Qardaşım torpaq yolunda gözlərindən keçdi. Lazım gəlsə, mən də ürəyimdən keçərəm. Təki xalqımız qara-qorxu içində yox, azad firavan yaşasın.

Qədirbilən xalqımız öz igid oğlunu darda qoyarmı? Elşən İsfəndiyar oğlu Dursunovun yaşadığı Xanlar rayonunda 3957 nömrəli əmanət bankında onun adına xüsusi hesab da açılmışdır. 44591 .Kömək əli uzadanlar çoxdur.

Ayrıldıq. Bir də üz-üzə , göz-gözə görüşmək ümüdiylə.Yaxşı ki, Elşəni gözlərinin sağalması ümidi tərk etməyib.Qohum-əqraba da,biz də,son sözünü deyəcək göz həkimi Paşa Qəlbinur da ümidlə yaşayır…

*Qafar Çaxmaqlı*
*«VƏTƏN SƏSİ» qəzeti*
*22 avqust 1990 ci il № 18*

*daxili qoşun dəstə ləri ilə silahlı toqquşmaya , kapitan S.Osetrovun və 3 hərbi qulluqçunun aman-sızcasına öldürülməsinə təhrik etmişdir ki ,bu da mənfi ictimai əks səda dogurmuş , Azərbaycan xalqının simasında suni surətdə duşmən obrazı yaradanların xeyrinə olmuşdur Hazırda cinayətkar istintaqdan gizlənir. Onu tutmaq üçün operativ-axtarış tədbirləri görülür. İstintaqı SSRİ Prokurorlugu , SSRİ və Azərbaycan SSR Daxili İşlər Nazirlikləri aparırlar.*

***CİNAYƏTKAR HAQQINDA MƏLUMAT**: Əli Bayraməli oglu Nadirov 1947-ci il təvəllüdlüdür. Ermənistan SSR-in Krasnoselsk rayonunun Agbulaq kəndində dogulmuşdur. Xanlar şəhər sakinidir. Evlidir. 4 uşagı var. Arvadı Emma Aramaisovna ermənidir. Evdar qadındır.*

***ONUN ƏLAMƏTLƏRİ**: Boyu 172-175 santimetr ,canlı- cüssəlidir. Sifəti girdə və qarabugdayıdır. Orta Asiya sakininə oxşayır.Qonur gözlüdür , saçları qıvrım ,qaradır. Gicgahlarına və alın hissəsinə dən düşmüşdür. Saçını geri darayır. Saqqal və bıg da buraxa bilər. Zahirən səliqəlidir. Rus və erməni dillərini yaxşı bilir. Dildən pərgardır . Azacıq ləhcə ilə danışır. Hamıdan xahiş edirik ki, cinayətkarın qaldıgı yer məlum olan kimi «02» telefonu ilə yaxınlıqdakı milis bölməsinə və ya bu telefonlarla Azərbaycan SSR Daxili İşlər Nazirliyinə zəng vursun.*

*98- 23 -31*
*92 -40 -22*
*92 -41- 68*
*98 -23-01*

*«KOMMUNİST» qəzeti*
*3 avqust 1990 - cı il № 176*



AZADLIQ

4 ФЕВРАЛ 1992-чи ил

БУ МӘКТУБУ ЧЫРЫБ АТА БИЛМӘЗДИК

«ИСТИГЛАЛ» ОҒУРЛУГ ЕДИР

ҺАМЫНЫН БИЛДИЈИ ИШЛӘР

ӘЗӘЛЛӘШМӘ КЕТМИР... СӘС-КУЈУ КЕДИР...

## ƏLİ XALQIN OĞLUDUR

*Son vaxtlar mənim oglum Əli Nadirov haqqında respublikanın və İttifaqın kütləvi məlumat vasitələri yanlış məlumatlar yayırlar. Guya oglum Əli Nadirov Xalq Cəbhəsinə qoşulmaq pərdəsi arxasında özünün təhrikçi, düşmənçilik niyyətlərini həyata keçirmək məqsədi güdmüş, vəzifəyə can atmışdır. Mən, bir valideyn məktəbdə 52 dərs deyən müəllim, Böyük Vətən Müharibəsi əlili, Qırmızı Ulduz, 1ci dərəcəli Böyük Vətən Müharibəsi Ordenləri Kavaleri, dünyanın dərdindən baş çıxaran bir insan kimi fikirləşirəm ki, mətbuat da bu qədər yalanböhtan yazarmı? Demirəm, bəlkə də oglumun mən bilməyən elə düşünülməmiş hərəkətləri olmuşdur ki, ondan yaranan hər hansı hadisə üçün gələcəkdə cavab verəcək, ancaq hələlik bu mənə məlum deyildir. Olsa cəzasını da mən alqışlayardım. « Kommunist » qəzetinin 3 avqust tarixli № sində SSRİ və Azərbaycan SSR Daxili İşlər*

*Nazirliyindən verilən məlumatı oxuyub dəhşətə gəldim. Öz-özümə sual verdim məgər mən oglumu tanımırammı?*

*O yazılmış mənfi sifətlər mənim oglumda olsa , bir agsaqqal kimi başıma papaq qoyub el içinə çıxmaram ,üstünə şəst ilə qədəm basdıgım dogma yurdun torpagı ayagım altında od tutub məni yandırar.Axı ogluma nə gəlmişdi ki ,dinc həyatını pozsun. O , Vətən üçün , dogma Qarabagımıza göz dikənlərə dərs vermək üçün qeyrət naminə ayaga qalxdı.Torpagımız ugrunda ayaga qalxan ogullarımızı beləcə ləkələyib, damgalayıb,həbsxanalara salmaqla öz əlimizlə özümüzə quyu qazmırıqmı ? Sabah bu torpaq ugrunda bir fəlakət baş verərsə kim döşünü irəli verər? Heç kim! Çünki düşünəcəklər ki, bu xalq Etibar Məmədovun, Xəlil Rzanın , RəhimQazıyevi ,Fəhmin Hacıyevin arxasında durdumu ki ,mənim də arxamda dursun? Azərbaycan KP XXXII qurultayında yazıçı Anarın çıxışını xatırlayıram. O,deyir ki ,əgər 70 ildə Kommunist Partiyasının bu qədər qüsurları üzə çıxıbsa, o zaman yeni yaranmış Xalq Cəbhəsinin qüsurlarına nə demək olar? AXC rəsmən təsdiq edildikdən sonra buna icazə verənlər elə bil peşiman oldular.Onun ideya- siyasi cəhətdən formalaşmasına ,taktiki ,təcrübi,psixoloji baxımdan təkmilləşməsinə imkan verilmədi. Bəlkə də liderlərin səhvi təşkilatçılıgın düzgün qurulmamasından irəli gəlmişdir. Cəbhənin liderləri sıxışdırıldı.Onların ünvanüna şərböhtan yagdırıldı.Xüsusən indi ölkəmizdə çoxpartiyalılıga qədəm basıldıgı şəraitdə belə hallar təbiidir. Hal hazırda seçkilər ərəfəsində Xalq Cəbhəsini daha da gözdən salmaq üçün başlanan kompaniyada başqaları ilə yanaşı mənim oglumu da hədəf*

*nöqtəsi seçdilər. Məlumatda deyilir ki, guya oglum maşın ,malikənəvə digər bahalı şeylər almışdır. Ag yalandır ! Malikanə deyilən bina mənzil istismar idarəsinə məxsusdur. Məlumatda oglumun ünvanına deyilən bir çox ona yaraşmayan cəhətləri el demişkən eynimə almadım. Lakin oglumun erməni ekstremistləri ilə əlaqəsi olması haqqında şəxsən mənə -Böyük Vətən Müharibəsi iştirakçısına cavab verməli olşacaqlar.Məgər mənim oglumu Qarabagda işləyərkən ermənilər ləkəqləyib oradan qovmaga çalışmadılarmı? Ermənilər milliyətcə azərbaycanlı olan kadrların, xüsusən vəzifəli şəxslərin Qarabagda qalıb məskunlaşmasının qarşısını almaq üçün onlara tor qurmurdularmı? Hadrut rayonunda hərbi komissar işləyən Hidayət adlı bir nəfərə şər atıb 5 il həbsə məhkum etdirın ermənilər olmadımı ?*

*Əli mənim yox , xalqın ogludur! O heç vaxt xain olmamışdır. Məni agsaqqal kimi yandıran odur ki , Azərbaycan SSR Daxili İşlər Nazirliyi də bu işdə SSRİ Daxili İşlər Nazirliyi ilə birləşmişdir. Manuçaryanı həbsxasnadan Corc Buş, Marqaret Tetçer, Fransua Mitteran azad etdirir. Bizim azad ogullarımız yiyəsizlik ucbatından axtarılıb*

*həbsxanalara salınır. İndiki şəraitdə mütilik xalqa düşmənçilikdir. Bir agsaqqal kimi son sözüm budur.*

***Bayraməli Məmmədov***

Xanlar rayonu

*«AZADLIQ» QƏZETİ*
*11 oktyabr 1990 № 6*

## *HAMININ BİLDİYİ İŞLƏR*

Xanlar rayonunda Xalq cəbhəsinin şöbəsinə Nadirov adlı birisi başçılıq edirdi.O,hüquq təhsili almışdır.Əvvəllər DQMV nin xalq məhkəməsində işləyirdi . İstintaq materiallarından və operativ məlumatdan məlum olur ki ,o muxtəlif məkrli metodlarla hər vasitə ilə antisovet əhval –ruhiyyəsini gücləndirir,millətlərarası ədavəti qızışdırır vəziyyətin sabitliyini pozurdu . Nadirov siyasi və demokratik şüarlarla pərdələnər hakimiyyətə can atırdı.Hər cür çikin vasitələrə əl ataraq , fırıldaqla şüursuz gənclərin muəyyən hissəsini öz təsiri altına sala bilmişdi və onları bilərəkdən cəmiyyətə zidd çıxışlara təhrik edirdi . Hazırda cinayətkar istintaqdan gizlənir. Onu tutmaq üçün operativ-axtarış tədbirləri görülür. İstintaqı SSRİ Prokurorlugu , SSRİ və Azərbaycan SSR Daxili İşlər Nazirlikləri aparırlar.( «Kommunist « 3 avqust 1990-cı il)

*O vaxtlar «Kommunist» adlanan ,adını dəyişən qəzetlərdə belə yazıları tez tez görərdik . Səbəbdən danışılmır, nəticə şişirdilir, sensasiyalı xəbərlər çevrilirdi . Xanlar olaylarının qızgın çaglarınd - 1989- cu ilin sonlarında 1990-cı ilin başlanğıcında rayonda 14 min yurdsuz- yuvasız qalmış , günü- güzaranı əlindən alınmış didərgin var idi . Onların o günündə Xanlar rayon erməniləri partiya komitəsinin birinci katibi Qərib İskəndərovun sayəsində heç nə olmamış kimi yaşayırdılar .Belə anormal şəraitdə kimlərinsə «məkrli metodları» əl atmasınacan , millətlərarası ədavəti qızışdırmasna ehtiyac ola bilməzdi.*

*Rayon , respublika rəhbərlərinin vəzifə borcuna (milli-mənəvi borcları demirik) cinayətkarcasına münasibəti saxtakarlıqla «köçkün» adlandırdıqları adamlara yabançı soyuqluğu sonralar başımıza gəlmiş faciələrə dogru aparırdı bizi .*

*Vilayət məhkəməsində dörd hakim yeri vardı . Üç yer ermənilərin idi , dördüncü azərbaycanlı yeri çox vaxt boş qalırdı . Əli Nadirova qedər də yer iki il boş qalmışdı .*

*Azərbaycanlıları orada işləməyə qoymurdular.*

*Əli Nadirovun dediklərindən: « Cürbəcür vasitələr , minbir kələklə Bakıdakı rəhbərləri ələ almış DQMV partiya komitəsinin keçmiş birinci katibi Gevorkov «Krunk» millətçi təşkilatından , öz mövqeyindən istifadə edərək Azərbaycan kəndlərini viran qoymuş , uzun illər xaicdən , Ermənistandan olan millətçi kadrların vilayətdə kök salmasına imkan yaratmışdı . Bürokrat idarə sistemi vilayətdə bütün hüqüq və səlahiyyətləri Gevorkova tapşırıb Daglıq Qarabagdan gələn ərizə və şikayətlərə baxmırdı . Yiyəsizlikdən azərbaycanlıların hüqüqları hər addımda tapdalanırdı. Onları ən agılagəlməz vasitələrlə ilişdirir , tutub iş kəsidilər . Burada ancaq o azərbaycanlılara üstünlük , xırda vəzifə verilirdi ki, onlar ya az savadı idilər ya da , erməni diasporunun təsiri altında idilər, ya da eləcə satılmışdılar»*

*Əli Nadirov belə şəraitdə vilayət məhkəməsinə hakim gəlmişdi . Əli Nadirov bu şəraitdə vilayətdə yaşayan azərbaycanlıların hüquqlarını müdafiədə qalxdı . 1982-ci il idi . Az vaxtdan sonra təkbaşına mübarizənin mənasızlığını başa düşən Əli Nadirov respublikanın paytaxtına üz tutdu . Onun Bakıya get- gəlləri belə başladı . Dönə- dönə DTK sədrinin muavini Bahadır Hüseynovun, MK-nın inzibati orqanlar şöbəsinin müdiri Sabir Hüseynovun qəbuluna düşdü . Hər səfər əllərini yellədilər . S .Hüseynovun son cavabı belə oldu : « Biz onların daxili işlərinə qarışa bilmərik. O saat Moskvaya şikayətə qaçırlar . Səni ora çekist göndərmirik , get başını sal aşağı işlə . Hamı necə sən də elə. Çox oyan bu yan eləyərsən millətçi damğası vurarlar » . Əli Nadirov hamı kimi ola bilmədi , «millətçi» damgasından da qorxmadı . Onda*

*ermənilər onu cürbəcür vasitələrlə qorxudub,zərərsizləşdirməyə çalışdılar.Bu baş tutmayanda birbaşa cinayətə əl atdılar : Kabinetində çayla verilmiş dərmandan sonra Əlinin venalarını kəsdilər .Yuxarılarda şikayətinə baxan olmadı . İstintaqı ermənilər özləri aparıb günahı zərərçəkənin boynuna qoydular.*

*Əli Nadirovun dediklərindən: « O zaman Dağlıq Qarababağ şərabçılıq komitəsinin sədri Poqosyan idi . O «Krunk» təşkilatının əsas rəhbəri idi və hamı bilirdi ki , Gevorkov da , başqaları da ona tabedir » .*

*Hamının bildiyini respublika rəhbərləri bilmək istəmirdilər. Əli Nadirov vilayət məhkəməsindən getməli oldu . Ona Gəncədə iş verdilər . Sonra hamınıza bəlli işlər baş verdi .*

*Respublikanın inzibati orqanlarının rəsmi kütləvi informasiya vasitələrinin nəinki məhkəmədən qabaq, hətta istintaqdan qabaq «cinəyatkar» adlandırdıqları « Nadirov adlı birisinin » qısa ömürlüyündən belə xəbəri olmadı və yalnız bu yaxınlarda Əli Nadirovun «cinayət» işinə xitam verildi.*

***XALİQ***

*« AZADLIQ » QƏZETİ*
*4 FEVRAL 1992-Cİ İL № 10*

## ERMƏNİ TERRORİZMİ

Ermənistanın işğalçılıq siyasətini yerinə yetirmək üçün orada qeyri – qanuni silahlı dəstələr , o cümlədən Erməni milli ordusu deyilən dəstə yaradılmışdır. Onlar rayon daxili işlər şöbələrinin silahlarını əlindən alır, silah zəbt etmək üçün hərbi hissələrə hücumlar edilir, xüsusi düşərgələrdə terrorist və diversantların hazırlanması üçün fəal hazırlıq işləri aparırlar. Sonra onlar bandit hücumları edir, Azərbaycanın dinc şəhər və kəndlərini atəşə məruz qoyurlar. Operativ məlumatlarda göstərildiyi kimi , 1991- ci ilin iyul ayının sonuna 230 nəfər, o cümlədən 24 hərbi qulluqçu , 33 nəfər milis işçisi həlak olmuşdur.

Erməni millətçilərinin qəsbikarlıq planlarında qədim Gəncənin cəmi- cümlətanı 20 kilometrliyində yerləşən Xanlar rayonunun Çaykənd kəndi xüsusi yer tuturdu. Burada vəziyyətin gərginləşdirilməsi DQMV-dəki hadisələrlə paralel aparılırdı. 1986 – cı ilin sonlarından oraya Ermənistanın emissarları - hazırda deputatlar «məşhur» , Z.Balayan və İ.Muradyan tez-tez peyda olurdu. Onlar qarmaqarışıqlıq yaradır, yerli əhali arasında milli ayrıseçkilik salır, erməniləri bu kəndlərin Azərbaycanın tərkibindən çıxmağa çalışmağa çağırırdılar. Erməni icmasına belə fikir təlqin edilirdi ki , Xanlar rayonunun ermənilər yaşayan bütün kəndləri tezliklə keçmiş Şaumyan kənd ( hazırda Goranboy rayonu) rayonuna birləşdiriləcək ki, bu rayonun tərkibində DQMV-yə daxil olsunlar , sonra isə vilayətlə birlikdə Ermənistanın tərkibinə birləşsinlər. Eyni zamanda silah , sursat almaq , «boyevikləri» müdafiə etmək üçün əhalidən pul yığılırdı. «Boyeviklər» bura 5 sentyabr 1989-cu ildən mütamadi olaraq fərqləndirici nişanları olmayan vertolyotlar vasitəsi ilə qonşu respublikadan daşınırdı.

Eyni zamanda terroristlərin hərəkətləri günü – gündən həddini aşırdı. Onlar nəinki qonşu azərbaycanlı kəndlərinə hücumlar edir , eləcə də Çaykənd və onun yaxınlığındakı erməni kəndi Martunaşeni quldur birləşmələrinin dayaq məntəqəsinə çevirmişdilər. Pasport rejiminin yoxlanılmasının gedişində burada silah saxlanılması üçün ambar, vertolyotların enməsi üçün meydança aşkara çıxarıldı. Elə bu meydançaya da Ermənistandan terrorist qruplar, silah

partiyaları gətirilirdi. **Terroristlər özlərini Xanlar rayonunda hələ 1990–cı ilin 10 avqustunda göstərdilər. Şəhərlərarası avtobusa hücum edərək ,17 nəfəri öldürdülər, sərnişinlərdən 15 nəfər yaralandı.**

Normal insani düşüncə göstərən yerli ermənilər də Ermənistandan gələn terroristlərin qurbanı oldular, onlarla razı olmayanlarla banditlər tez haqq- hesab çürütdülər. Keçən ilin noyabrın 30 – da azərbaycanlı Xanlar rayon ictimaiyyəti Martunaşen kəndinidə yaşayan ermənilərlə danışığa getmək istədilər, ancaq «boyeviklərin» atəşinə məruz qaldılar, dörd nəfər öldü, 2 nəfər yaralandı. Bundan başqa terroristlər tərəfindən 2 nəfər girov götrüldü ki, onlardan biri işgəncələrə dözməyərək vəfat etdi.Bir az sonra bandit dəstələri rayonun azərbaycan kəndləri arasında yolu bağladılar, Xanlardan Kəlbəcərə gedən avtomobil şosse yolunda hərbi zastava qurdular . Bir neçə dəfə Gəncə şəhərini içməli su ilə təmin edən su kəmərini partlatdılar. Onların sonrakı cəzalandırılmayan və quduğan hərəkətləri bir milyondan artıq əhali yaşayan Azərbaycanın qərb zonasının həyat fəaliyyəti üçün birbaşa təhlükə yaradırdı. Bu vəziyyətdə respublşikanın hüquq mühafizə orqanları SSRİ DİN daxili qoşunlarının köməyi ilə 30 aprel 1991 –ci ildə SSRİ Prezidentinin qeyri – qanuni hərbi birləşmələrin tərkisilah edilməsi haqqında Fərmanını icra etmək, Çaykənd və Martunaşen kəndlərində pasport rejimini yoxlamaq üçün işə başladılar. Əvvəlcə, hərbi qulluqçular və milis əməkdaşları bu kəndlərə yaxınlaşmaq istəyərkən onlar iri çaplı pulemyotlardan, qrantamyotlardan və avtomatlardan açılan güclü atəşə məruz qaldılar. Çaykənddə terroristlər öz sevimli üsullarına əl atdılar: Zirehli maşınların yoluna qadınları, uşaqları düzərək,
zirehli maşınlardan birini mühasirəyə aldılar ,13 nəfər hərbiçini və bələdçilik edən bir nəfər yerli sakini girov götürdülər. Tərkisilah olunacaqlarının tam baş tutacağını görüb , banditlər bu dəfə «yanmış torpaq» taktikasını seçdilər, Martunaşen kəndini yandırmaq istədilər. Rayonun erməni kəndlərinin sakinlərinin həyatını cəhənnəmə döndərib, onları qonşularla dalaşdırıb, indi isə onların əcdadlarını qonaqpərvərliklə qəbul etmiş bu torpaqları tərk etməyə məcbur etdilər.

*İSMƏT QAYIBOV*
*AZAD ŞƏRİFOV*
**« ARMYANSKİY TERRORİZM »**
BAKI. « AZƏRBAYCAN » nəşriyyatı 1991





**Erməni terrorçularının partlatdığı Tbilisi—Ağdam avtobusu sərnişinlərindən olan qurbanlar. Avqust, 1990-cı il.**





**Erməni terrorçularının partlatdığı Bakı—Moskva qatarı. 3 iyun 1991-ci il.**

li proto-kürd tayfaları üçün həmişə qıcıqlandırıcı düşmən ünsürü olmuş, bunun da müqabilində Şərqi Anadolunun kürdləri hay-ermənilərin sonrakı həyatı və taleyində obyektiv mənfi rol oynamışlar.

Aydındır ki, Urartu dövləti əvvəlcə iranlılar, sonra isə skiflər tərəfindən darmadağın edildiyi təqdirdə də avtoxton hurri-urartu əhalisi yer üzündən tam silinib gedə bilməzdi. Bu əhalinin qətlə yetirilməmiş, köləliyə aparılmamış hissəsi nəticə etibarilə həmin dövrdə bütün Yaxın və Orta Şərqdə, Orta Asiyada önə çıxaraq hegemonluğu ələ keçirmiş Əhəmənilər (e.ə. 558-330-cu illər) sülaləsindən olan İran hökmdarlarının bac verənlərinə və vassallarına çevrildi. Tarixin daha sonrakı dönəmində onlar yerli kürd tayfaları və eləcə də hər cür şəraitə uyğunlaşmağı bacaran hay-ermənilər tərəfindən assimilyasiyaya məruz qalmışlar ki, bu da təbiidir.

Hay xalqı ("ərmənlər" kimi) ilk dəfə İran hökmdarı I Dara Histaspın Həmədan şəhəri yaxınlığındakı Bisütun dağının qayaları üzərinə üç dildə həkk etdirdiyi (təq. e.ə. 520-ci il) kitabələrində xatırlanır. Qədim fars dilində olan yazılarda Van gölü yaxınlığında yaşayan "ərmənlər" hökmdar Daranın bac verənləri elan edilir. Bu yazının Babilə və Elama aid hissələrində isə "ərmənlər" anlayışına "urartulular" sözü uyğun gəlir və bundan da o nəticəni çıxarmaq olar ki, qədim iranlıların "ərmən" adlandırdığı tayfalar urartu tayfaları ilə eyniləşdirilmişdir.

Qədim Azərbaycan dövləti olan Midiya artıq skiflər tərəfindən dağıdılmış Urartu dövlətini işğal etdikdən sonra (e.ə. 593-cü il) Van gölü ətrafında **Ərmən** canişinliyi yaradıldı. Müəyyən vaxt keçdikdən sonra Şərqi Anadolunun bu hissəsini qədim yunanlar Ermənistan (və yaxud Böyük Ermənistan) adlandırmağa başladılar.

E.ə. 550-549-cu illərdə Midiyanın iranlılar, daha dəqiq desək, Fars əyalətinin canişini, Əhəmənilər sülalə-





**Erməni terrorçuları tərəfindən partladılmış Tbilisi—Ağdam avtobusu və onun qurbanlarından biri. Avqust, 1990-cı il.**



Дети – жертвы террора. Они ехали в автобусе Тбилиси – Агдам, взорванном в августе 1990 г.



10 янва
Иран (Те
здание
авиаагентств
взрыв бомбы,
АСАЛА. Зда
значител

20 янва
Испания (Мадр
правосудия
геноцида“ осущес
взрывов пер
Бритиш Эйрвей
Сабена. Неско
получ

2 февра
Бельгия (
интервалом
прозвучало два в
Турецким авиа
зданием
произведенны
нового
соп

2 февра
Франция (П
зданием Инфо
центра Советског
раздался взр
нового
соп

6 февра
Швейцария (Бер
из “Отрядов
армянский гено
огонь по тур
Догану Тур
последний с
автомобиль п
Турецкого посол
получил ле
Террорист по
Клинджан
арестован
отправл
Швейцарию для

18 февраля 1980 года
Италия (Рим): АСАЛА совершила два взрыва в помещениях Суис Эр, Люфтганза и Эл-Ал. В анонимном телефонном звонке, поступившем в Римский филиал Ассошиэйтед Пресс, были даны следующие разъяснения совершенной акции:
а/ Суис Эр – предупреждение Швейцарскому правительству за содержание под стражей "невиновных" армян;
б/ Люфтганза – предупреждение Западногерманскому правительству за то, что оно поддерживало и финансировало турецких фашистов.

10 марта 1980 года
Италия (Рим): два итальянца погибли и 14 получили ранения в результате взрыва бомб, установленных в Турецком авиаагентстве и Управлении по туризму – "Армянская секретная армия нового армянского сопротивления".

17 апреля 1980 года
Италия (Рим): в результате нападения трех армянских террористов тяжелые ранения получил турецкий посол в Ватикане Вегди Турел. Легкие ранения получили его шофер и телохранитель – "Отряды мстителей за армянский геноцид".

19 мая 1980 года
Франция (Марсель): была обнаружена и обезврежена ракета, нацеленная на Турецкое консульство. О своей причастности заявили сразу две организации – АСАЛА и "Черный апрель".



В результате взрыва в автобусе в августе 1990 г. 24-летняя Эльна Магеррамова, жительница Шамхорского района, получила сильные ожоги потеряла зрени

При нападении армянских боевиков на азербайджанское село Карада Мартунинского района НКАО для спасения 3-летней Шамсии Гусейновой о выбросил ее из окна горящего до



Сработало взрывное устройство, подложенное в пассажирский автобус, следовавший по маршруту Тбилиси – Агдам. В числе жертв – женщины и дети.
Гянджа, август 1990 г.



### *ÇAYKƏND FACİƏSİ*

Bu ilin centyabr—oktyabr aylarında Martunaşen kəndinin erməni millətindən olan sakinləri Xanlar rayonu XDS İcraiyyə Komitəsinə onların kənddən çıxarlması, evlərinin satılması və respublikadan kənara köçüb, getmələri üçün kömək göstərilməsi haqqında xahişlə 100-dən artıq ərizə vermişdilər.Bununla əlaqədar olaraq,rayon XDS icraiyyə komitəsinin sədr müavini Qalib Aslanovun sədrliyi ilə komissiya yaradılmış və noyabrın 30-da ora getmək və bütün məsələləri yerindəcə həll etmək haqqında qərar qəbul olunmuşdu.Elə həmin gün Xanlar Rayon Partiya Komitəsinin birinci katibi Tofiq Kazımov, Gəncə Şəhər Daxili işlər idarəsinin rəisi Eldar Həsənov, Dövlət Təhlükəsizlik Komitəsi Gəncə Şəhər Şöbəsi rəisinin müavini Fəxrəddin Təhməzov, Xanlar rayon prokuroru Rauf Səmədov və rayon Daxili İşlər Şöbəsinin rəisi İlyas Məmmədov rayonun azərbaycanlılar yaşayan Quşçu-Armavir və Sarısu kəndlərinə getmişlər. Məqsəd -- erməni ekstremistləri tərəfindən gecələr bu kəndlərin tez-tez atəşə tutulması ilə əlaqədar camaatla söhbət aparmaq, həmçinin azərbaycanlıların təhlükəsizliyinin təmin etmək üçün milis postları yaratmaq idi. Elə həmin gün komissiya üzvləri, hüquq mühafizə orqanlarının rəhbərləri Quşçu- Armavir kəndinə gəlmişlər. Xanlar rayon DİŞ –in rəisi İ.Məmmədov

komissiyanın işinin normal gedişinin təmin etmək üçün müşayiətçi dəstə ayırdı.Qalan on səkkiz əməkdaş yuxarıda göstərildiyi kimi, azərbaycanlılar yaşayan kəndlərdə xidməti vəzifələrinin yerinə yetirmək üçün yerlərə paylandı.

Saat 16.00-da komissiya Martunaşen kəndinə daxil olan vaxt pusquda durmuş erməni «döyüşçülər» müxtəlif kalibrli avtomat silahlarla qəflətən hücum etdilər.Eyni zamanda, «döyüşçülər» Martunaşen və Çaykənd tərəfdən Quşçu-Armavir kəndinə də atəş açdılar.
İki saatdan çox davam edən hücumun dəf olunması zamanı Xanlar Rayon Daxili İşlər Şöbəsinin əməkdaşları M.Əhmədov, S.Ağayev, S.Əliyev, R.Məmmədov həlak oldular.
A.Abdullayev,M.Seyidov, R.Rzayev yaralandılar, Ü.Həsənov və Ş.Məmmədov itkin düşdülər. Ş.Məmmədovun meyidi 1990-cı il dekabrın 1-də Çaykənddə tapıldı. Rayon Daxili İşlər Şöbəsinin tabel silahı - 6 AKM və ZPM həmçinin «döyüşçülər» tərəfindən ələ keçirildi.
Çaykənddə yerləşdirilmiş hərbi komendantlığın əsgərləri hücumun dəf olunmasında milis əməkdaşlarına kömək göstərmədilər . Bundan başqa , 1990-cı il noyabrın 30-da saat 16.17 dəqiqədə erməni ekstremistlərinin Quşçu-Armavir kəndinə huçumu haqqında Gəncə şəhər Daxili işlər İdarəsinin rəis müavini Şahin Mustafayevə çatdırılmış, o da OMON vzvodunun komandiri M.Cəfərova həmin kəndə köməyə getmək göstərişi vermişdi.
OMON qrupunu Hacıkənd qəsəbəsinə gedən yolda Çaykənd kəndinin hərbi komendantı V.Korabeynikov saxlamış, Quşçu-Armavir kəndi tərəfə getməyi qadağan etmiş, onları geri qaytarmışdır. Ümumiyyətlə , qeyd etmək lazımdır ki, fövqalədə vəziyyət haqqında qanunun tələblərini komendantlıq yerinə yetirmir. Bunu ölkə prezidentinin 25 iyul 1990cı il hamıya məlum olan Fərmanı olsa da və komendant məntəqəsinin rejimini pozan şəxslərin üzə çıxarılması zamanı silahların alınması faktları rayon Daxili İşlər Şöbəsinə operativ məlumatların gəlməsi də göstərir, halbuki yuxarıda göstərilən faktlar bunun əksinədir. Həmçinin kim tərəfindən və hansı qanuna əsasən Çaykənd kəndinə komendant məntəqəsi təyin olunması başa düşülmür. Yerli hakimiyyət orqanları belə icazə verməmiş və xahiş etməmişlər.

İndi əldə olan məlumatlara görə Çaykəndə 300-ə qədər müxtəlif növ avtomat silahlarla silahlanmış 150-dən çox «döyüşçü» doluşmuşdur .Bundan başqa, Dövlət Təhlükəsizliyi Komitəsi Gəncə şəhər şöbəsi tərəfindən əldə olunmuş məlumat təsdiq edir ki, «döyüşçülər» Ermənistandan çoxlu adam məhv edə biləcək silah almışlar.İstənilən vaxt yolu altı kilometr uzunluğunda Çaykəndin ərazisindən keçən Gəncə şəhərini və Xanlar rayonunu təmin edən içməli su xəttini zəhərləyə biləcək zəhərli maddə bu «gizli» silahdır.

Həmçinin qeyd etmək lazımdır ki, Çaykənddə , Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan (kənd) rayonunda və Ermənistanda olan vertalyotların uçuşunu və quldur dəstələrin hərəkətini idarə edən güclü qısa dalğalı radiostansiya qurulmuşdur.
Rayonda və həmçinin ,ümumiyyətlə regionda vəziyyətin sabitləşməsi üçün bütün əmlaklarını yalnız satmaq yolu ilə Martunaşen və Çaykənd kəndlərindən ermənilərin çıxıb getməsi məsələsini həll etməyi mədqsədəuyğun hesab edirəm. Bu problemin həll olunmaması azərbaycanlılarınm kütləvi surətdə rayonun ərazisinə toplaşmasına gətirib çıxarar ki, bu da ağılasığmaz nəticələrə səbəb ola bilər.

Məlum olduğu kimi indiyə qədər milli münasibətlərin kəskinləşməsi ilə əlaqədar məsələlər , cinayət faktlarının araşdırılması bilavasitə fövqalədə vəziyyət rayonunda olan SSRİ prokurorluğu istintaq qrupunun nümayəndələri tərəfindən həyata keçirilirdi. Respublika prokurorluğunun təkidi ilə ilk dəfə Xanlar rayon prokurorluğu Çaykənd yolunda baş vermiş hadisə ilə əlaqədar cinayət işi qaldırmışdır.

*YAŞAR NƏBİYEV,*
**« ƏDALƏT »in xüsusi müxbiri**
**13 dekabr 1990 - cı il**

MÜSAHİBƏ

# ...L-QARANIN UÇOTA ALINMASINI MÜTƏŞƏKKİL KEÇİRƏK

*...aycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli ...mı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan ...ikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Proqramı"nın 5.3.10-cu maddəsinə və Azərbaycan ...likası Dövlət Statistika Komitəsinin statistik işlər haqqında ...una uyğun olaraq 2010-cu il yanvarın 1-i vəziyyətinə ölkə ...də "Mal-qara və quşların tam uçotu" keçiriləcəkdir. ...-qaranın uçota alınmasının təşkilini və keçirilməsini ...əqiyyətlə təmin etmək üçün qabaqcadan hazırlıq işlərinin ...əsi tələb olunur. Bu barədə danışmaq üçün əməkdaşımız Rayon ...ika İdarəsinin rəisiBəylər Əliyevlə görüşmüş və ondan müsahibə ...ır. Bəylər Əliyev demişdir:*

...ş dəqiq aparılmalıdır. Odur ...n-ayrı yaşayış məntəqələri ...sayıcıları və nəzarət gəzişi ...dalarının üzvlərini seçmək ...ları təsdiq etmək üçün az iş ...məyib.

...övlət və qeyri-dövlət kənd ...rüfatı müəssisələrində və ...a təşkilatlarda, fərdi sahib...arın təsərrüfatlarında, ailə ...li, ev təsərrüfatlarında olan ...in mal-qaranın, quşların və ...ailələrinin uçotunun tam və ...unluğunu təmin etmək üçün ...arla iş aparılması davam edir. Artıq Rayon Statistika İda... İcra Hakimiyyətinin köməyi ...qış otlaqlarında mal-qaranın ...otunu aparmaq üçün xüsusi ...qadalar təşkil etmişdir. Həmin ...qadalar hər il olduğu kimi bu ...də qış otlaqlarında olan mal...ranın inventarizasiyasını müt...q naturada saymaq yolu ilə ...artmalı və nəticəsini tərtib olu...an aktla rəsmiləşdirməlidirlər.

Mal-qara uçotu məlumat...nın doğru-düzgünlüyünə nə...lumatların işlənməsi də nəzərdə tutulmuşdur.

Mal-qara uçotu fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları da daxil olmaqla tabeçiliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün təşkilati-hüquqi formalı təsərrüfatları əhatə edir və onun aparılması aşağıdakı qaydada həyata keçirilməlidir.

Kənd təsərrüfatı müəssisə və təşkilatlarında (sair dövlət, yardımçı və kooperativ müəssisələrində, kollektiv, kiçik müəssisələrdə və s.) "heyvandarlığın vəziyyəti" haqqında 24 nömrəli forma hesabatı əsasında bu iş görülməlidir.

Kənd yerlərində yaşayan ailə kəndli və ev təsərrüfatlarında, sahibkarların təsərrüfatlarında, kənd inzibati ərazi dairələrinin hesabatları əsas götürülməlidir.

Şəhər və qəsəbələrdə yaşayan ailə kəndli və ev təsərrüfatlarında, mal-qara və quşu olan təsərrüfatların uçota alınması əsasında bu iş görülməlidir.

...olunurlar. Rayon üzrə yaşayış məntəqələrinin siyahısı, nəzarət məntəqələrinin seçilməsi üçün əsas sayılır. Odur ki, şəhər, qəsəbə və kənd inzibati ərazi dairələrinin rəhbərləri dekabr ayının 1-dən 15-nə kimi mal-qara uçotunu aparacaq sayıcıların, nəzarət gəzişləri aparmaq üçün briqada rəhbərlərinin və briqada üzvlərinin siyahısını tərtib və təsdiq edərək rayon statistika idarəsinə təqdim edirlər. Sayıcılar elə seçilməlidir ki, mal-qara uçotunun aparılması zamanı ehtiyatda sayıcılar qalmış olsun.

Rayon statistika idarəsinin əməkdaşları mal-qaranın uçota alınmasına cəlb edilən şəxslərin təlimatlandırılmasını dekabr ayının 24-dək başa çatdırmalıdırlar ki, onlar yanvar ayının 1-dən 15-dək müddət ərzində uçotu müvəffəqiyyətlə başa çatdıra bilsinlər.

Mal-qara uçotunun aparılması yekunlarının Rayon İcra Hakimiyyətində müzakirə mövzusuna şübhəsiz ki, çevriləcəkdir.

Mal-qara uçotu keçirilərkən qaçqın və məcburi köçkünlərin (ölkədaxili) təsərrüfatları üzrə mal-qaranın təkrar yekuna daxil edilməsinin qarşısını almaq məqsədilə yaşayış məntəqələrində uçot keçirilərkən (əgər həmin rayonun ərazisində qaçqın və məcburi köçkünlər məskunlaşmışsa) belə təsərrüfatların hansı rayona aid olmaları göstərilməklə "ondan başqa" kimi uçota alınır.

Rayonda arıçılıqla məşğul ...təsərrüfatlardan əsasən iki...

Qan yaddaşımız

# YADDAN ÇIXMAZ BU GÜN



Kapitan
Məmmədəli ƏHMƏDOV



Kapitan
Raquf RZAYEV



Leytenant
Səban AĞAYEV



Serjant
Sərhəddin ƏLİYEV



Serjant
Rafik MƏMMƏDOV



Serjant
Şərif MƏMMƏDOV

## Vətən uğrunda canlarından keçənlər unudulmur

**Göygöl rayon Polis şöbəsinin rəisi Məhərrəm Quliyevin rəhbərliyi ilə şəhidlər xiyabanında 30 noyabr 1990-cı ildə 6 nəfər polis işçisinin adı bir daha əbədiləşdirilmiş, belə ki, bu münasibətlə şəhidlərin şəkilləri həkk olunmuş xatirə barelyefi tikilib istifadəyə verilmişdir.**

*7 GÜN ƏSİRLİKDƏ*

*Qalandan sonra milis serjantı Ülfət Həsənov azad edilmişdir*

**Arayış:** Ülfət Cəmil oğlu Həsənov, Xanlar RDİŞ yol patrul xidməti üzrə inspektor,1957-ci ildə Daşkəsəndə anadan olub. Milis orqanlarında 1984-cü ildən işləyir. Evlidir,üç uşağı var. Bu ilin noyabrın 30 - da Xanların Martunaşen kəndi yaxınlığında yoldaşları ilə ermənilər tərəfindən atəşə tutulmuş və itkin düşmüşdü. Dekabrın 7-də öz ayağı ilə Xanların Todan kəndinə gəlib çıxmışdır.

Dünyaman Qurbanov,

Gəncə şəhər təcili yardım xəstəxanasının travmatologiya və ortopediya rayonlararası şöbəsinin müdiri,tibb elmləri namizədi:

---Ülfət Həsənovu gətirəndə huşu özündə idi. Başında sarğı var idi.Dediyinə görə sağ gicgah tərəfinə güllə dəymişdi.Yaranı müayinə etdik.Tikiş qoyulmuşdu. Onu rentgenə saldıq və gicgah nahiyyəsində gülləyə oxşar yad cisim gördük.Cərrahiyə əməliyyatından sonra uzunluğu 2 sm.olan ucu sivri gülləni çıxardıq.



ÜLFƏTİN DEDİKLƏRİNDƏN :

--Martunaşen kəndinə çatar çatmaz düzənlikdə bizi güclü atəşə tutdular. Hərəmiz bir tərəfə səpələndik.Rafiq Məmmədovla birtəhər iri bir daşın arxasında gizləndik.Güllə yağışı eşitmişdim ,amma görməmişdim. Əlimi silaha atmağa macal tapmamış əynimdəki zirehli jiletə güllə yağdırıldı.Hər hansı bir ehtiyatsız hərəkət ölüm demək idi.Uşaqları hayladıq. Deyəsən sağ idilər.Elə bu vaxt Rafiq yerində qıvrıldı.Ayağından vurmuşdular. Yalvardım ki, dözsün.İkinci güllə də ayağından dəydi. Dəhşətli ağrıdan göyə çıxırdı.Sakitləşdirmək istyirdim ki, öz ayağım gülləyə tuş gəldi.Əlimlə yaramı sıxa da bilmədim. İmkan yox idi.Rafiq bir yanda, mən də bir yanda. Zavallının yarası mənimkindən ağrılı idi,dözə bilmirdi. İkinci güllə buduma dəydi.Bu vaxt elə bil kimsə Rafiqi götürüb üstümə atdı.. Güllə ürəyindən dəymişdi.İki dəfə xırıldayıb sustaldı… Dəli olmaq dərəcəsində idim . Ətrafa boylandım. Gördüm ki, iki saqqallı sinə- sinə bizə tərəf gəlir.Avtomatdan onlara tərəf atəş açdım.Gizləndilər.Sənanı,Məhəmmədəlini, Şərifi səslədim.Dedim ehtiyatlı olsunlar.Başımı qaldırıb boylanmağımla gicgahıma güllənin dəyməyi bir oldu. Özümdən getdim. Nə vaxtsa huşa gəldim. Hiss etdim ki, sağam, amma gözüm tutulub,qan içindəyəm.Yoldaşlarımı səslədim , hay verən olmadı.

Ermənilər atəşə ara vermişdilər.Var gücümü toplayıb ayağa qalxdım və meşəyə tərəf qaçdım.Neçə dəfə yıxıldım , huşumu itirdim.Əynimdəki ağır zirehli jileti çıxarıb atdım.Qarşıdakı təpəni aşıb,yerə yıxıldım. Vəziyyətim ağır idi,tez-tez huşumu itirirdim. Fikirləşdim ki,meşəyə tərəf getsəm,qurd-quşa yem olaram, meyidimi tapmazlar.Təpəni aşağı enmək isə qorxulu idi.Çünki işiqları görünən Çaykənd idi.Səntirliyə-səntirliyə təpəni endim.Artıq qaranlıq çökmüşdü.Elə bundan istifadə etmək lazımdı. »Allah kərimdir»--dedim. »Bəlkə görən olmadı».

Xoşbəxtlikdən məni hürən itlərdən başqa heç kim görmədi. Beləcə kənddən çıxdım. Sevindim ki, çox şükür, ermənilərə rast gəlmədim. Elə bu vaxt arxadan kimsə azərbaycanca dedi:

---Tərpənmə vurarıq!

İstədim çevrilib səs gələn səmtə avtomatdan atəş açım.Lakin silahı qaldırmağa taqətim yox idi.

Birini tanıdım.Adı indi yadımdan çıxıb.Dedim , ay filankəs, tanımadın məni, səninlə dəfələrlə çörək kəsmişik ,aeroportda qarşılaşmışam,hörmər eləmişəm…

«Tanıdım»,-- dedi :«Həkimə aparacağıq səni, sonra buraxarıq gedərsən». Hardansa yedəkli motosiklet gətirdilər..Məni oturdub apardılar..Deyəsən Çaykənd xəstəxanasına gətirmişdilər.

Vəziyyətim lap pisləşmişdi yarama baxıb tez tələsik tikiş qoydular, dedilər ki, qorxulu heç nə yoxdur.

Təqribən saat yarımdan sonra 4—5 nəfər saqqallı gəlib məni apardılar.Aynəbəndli soyuq otağa salıb sorğu-suala tutdular.

-- Nə gəzirsiniz burda? Kim sizi göndərib? Bizi qırmaqmı istəyirsiniz?

Sonra məni soyuq zirzəmiyə saldılar. O ki, var döydülər.Oradan götürüb başqa yerə apardılar. Qaraja oxşayırdı.Amma işıqlıydı. Təpiklə vurub yerə yıxdılar. Adamlarla bu cür rəftarı ancaq kinolarda görmüşdüm.

Bir müddət təpikləməyə başladılar.Elə bil futbol oynayırdılar.Adam neçə dəfə huşunu itirər? Nəhayət, səhərə yaxın bir otağa gətirdilər, çarpayıya uzadıb keşiyimi çəkməyə başladılar.Qaçmağa taqətimimmi vardı? Səhər otağa on nəfər saqqallı gəldi.Başıma torba keçirib, əllərimi arxadan iplə bağladılar. Özümdən gedənə qədər döydülər. Sonra sürüyə-sürüyə maşına mindirdilər. Mühərrikin səsindən təyin elədim ki , UAZ-dır. Vertolyot meydançasına gətirdilər. Vertolyota mindirib yerə uzatdılar.Üstümə əllərinə keçəni yığdılar ki, yoxlama olsa, görməsinlər. Yarım saat uçuşdan sonra harasa endik.Sanki muştuluqlayırlarmış kimi bildirdilər ki , ara İcevandasan.

«Moskviç» maşınıyla bir saata kimi yol getdik.Sonra düşürüb döyə-döyə harasa apardılar. Yenə də huşumu itirdim.Özümə gələndə gördüm bir damdayam.Əllərimi açıblar.Torbaları da başımdan çıxarıblar.Əyinlərində hərbi forma,çiyinlərində xarici avtomat olan saqqallılar şirin çay gətirdilər.Səhərə kimi orada qaldım.Tezdən başıma torba keçirib UAZ-a mindirdilər.Təqribən saat yarım yol getdik.Bir evə gətirdilər. Çarpayıya uzadıb şirin çay bir

qədər də yemək verdilər.Həmin evdə altı gün qaldım.Nələr keçirdiyimi bir allah bilir.Sağ qalacağıma heç ümidim yox idi. Qaça bilməzdim.»Axırı ölümdür!»--fikiriilə həyatımın son anını gözləyirdim.6-gündən sonra məni gecə yarısı «təcili yardım» maşınına mindirib başqa evə apardılar.2-3 nəfər saqqallı məni xeyli sorğu-suala tutdu,bütün bunları videoya çəkdilər. 15 dəqiqə yol gedib dayandıq.Gözlərimi açdılar.

Dağlıq bir yerdəydik.Mənimlə gələn 5-6-yaraqlı ermənidən biri əlini iki dağ asında görünən kəndə uzadıb dedi ki, orada türklər yaşayır. Get , buraxırıq səni, inanmadım.Dedim, yəqin arxadan vuracaqlar. Güclə addımlayaraq kəndə tərəf getdim. Arxaya baxmadım. Gərginlikdən nəfəsim daralırdı.Hər xışıltını tətiyin səsinə bənzədirdim.

Nəhayət , gəlib kəndə çatdım. İlk evin qapısını döydüm. Ev sahibi məni görəndə qorxudan gözləri bərəldi. Başı sarıqlı, üzü tüklü,gözləri qan çəkmiş, əynində nazik geyim olan bu məxluqdan hamı qorxardı.

Güclə pıçıldadım:

---- Dayı, mən itmiş milisonerəm!

Qələmə aldı: Ramiz Məhərrəmov.



Дејəсəн Чајкəнд хəстəханасына кəтирмишдилəр.

Вəзијјəтим лап пислəшмишди. Јарама бахыб тез-тəлəсик тикиш гојдулар, дедилəр ки, горхулу һеч нə јохдур.

Тəгрибəн саат јарымдан сонра 4—5 нəфəр сагғалы кəлиб мəни апардылар. Ајнабəндли сојуг отаға салыб сорғу-суала тутдулар.

— Нə кəзирсиниз бурда? Ким сизи кəндəриб? Бизи гырмагмы истəјирсиниз?

Сонра мəни сојуг зирзəмијə салдылар. О ки, вар дөјдүлəр. Ордан кəтүрүб башга јерə апардылар. Гаража охшајырды. Амма ишыглыјды. Тəпиклə вуруб јерə јыхдылар. Адамларла бу чүр рəфтары анчаг киноларда көрмүшдүм.

Бир мүддəт тəпиклəмəјə башладылар. Елə бил футбол ојнајырдылар. Адам нечə дəфə һушуну итирəр? Нəһајəт, сəһəрə јахын бир отаға кəтирдилəр, чарпајыја узадыб кешијими чəкмəјə башладылар. Гачмаға тагəтимми варды? Сəһəр отаға он нəфəр сагғаллы кəлди. Башыма тор-

дирдилəр ки,
сан.

«Москвич»
саата кими јол
дүшүрүб дөјə-
апардылар. Јен
итирдим. Өзүм
дум бир дамд
ми ачыблар. Т
башымдан чых
лəриндə һəрби
лəриндə харичи
сагғаллылар ш
тирдилəр. Сəһ
да галдым. Т
торба кечириб У
дилəр. Тəгрибə
јол кетдик. Бир
лəр. Чарпајыја
чај, бир гəдəр д
лəр.
Һəмин евдə

P. S. 7 кү
си Үлфəт һə
үчүн өлдүрм
кими бир ше
сəлланмыш г
исə, тез-кеч
ки, милис ə

**P.S.** 7 gün sovet torpaqlarında əsir qalmış sovet milisi Ülfət Həsənovu müəmmalı şəkildə azad elədilər. Nə üçün öldürmədilər! Axı, bu onların əlində su içimi kimi bir şeydi.Deməli, ermənilər qəsdən onun gicgahına sallanmış quruşunu çıxarmadan tikiş vurmuşdular.Bu isə tez-gec ölüm deməkdi.Erməni «təbliğat aparatı» yəqin ki, milis əsirindən ustalıqla istifadə edəcəkdir. Onu vidiolentə çəkib dünyaya car çəkəcəklər ki, baxın, türklər «məzlum» erməniləri qırmaq üçün ordu göndərirlər. Həmin ordunun silahlı əsgərlərindən biri—serjant Ülfət Həsənov!



7 КҮН ӨСИРЛИКД...

ГАЛАНДАН СОНРА МИЛИС СЕРЖАНТЫ ҮЛФӘТ ҺӘСӘНОВ АЗАД ЕДИЛМИШДИ...

Кәнҹә шәһәр тә'чили јардым хәстәханасынын травмотолоқија вә ортопедија рајонлараpасы шө'бәсинин мүдири, тибб елмләри намизәди:

— Үлфәт Һәсәнову кәтирәндә һушу өзүндә иди. Башында сарғы вар иди. Дедијинә көрә сағ кичикһ тәрәфинә күллә дәјмишди. Јараны мүајинә етдик. Тикиш гојулмушду. Ону ренткенә салдыг вә кичикһ наһијјәсиндә күлләјә охшар јад чисим кәрдүк. Ҹәрраһијјә әмәлијјатындан сонра узунлуғу 2 см. олан үчү сиври күлләни чыхартдыг.

Арајыш: Үлфәт Чамал оғлу Һәсәнов, Ханлар РДИШ-нин јол-патрул хидмәти үзрә инспектор, 1957-ҹи илдә Дашкәсәндә анадан олуб. Милис органларында 1984-ҹү илдән ишләјир. Евлидир, үч ушағы вар. Бу илин нојабрын 30-да Ханларын Мартунашен кәнди јахынлығында јолдашлары илә ерменилер тәрәфиндән атәшә тутулмуш вә иткин дүшмүшдү. Декабрын 7-дә өз ајағы илә Ханларын Тодан кәндинә кәлиб чыхмышдыр.

Үлфәтин дедикләриндән:

— Мартунашен кәндинә чатар-чатмаз дүзәнликдә бизи күчлү атәшә тутдулар. Һәрәмиз бир тәрәфә сәпәләндик. Рафиг Мәммәдовла бирләшәрәк бир дашын архасында кизләндик. Күллә јағышы ашитмишдим, амма көрмәмишдим. Өлими силаһа атмаға мачал тапмамышды. Әјнимдәки зирәһли жилетә күллә јағдырылды. Һәр һансы бир еһтијатсыз һәрәкәт өлүм демәк иди. Ушагларымы һајладыг. Дејәсән сағ идиләр. Елә бу вахт Рафиг јериндә гыврылды. Ајағындан вурмушдулар. Јалвардым ки, дөзсүн. Икинчи күллә дә ајағындан дәјди. Дәһшәтли ағрыдан кәјә чыхырды. Сакитләшдирмәк истәјирдим ки, өз ајағым күлләјә туш ҝәлди. Өлимлә јарамы сыха да билмәдим. Имкан јох иди. Рафиг бир јанда, мән дә бир јанда. Зәвәллынын јарасы мәнимкиндән ағрылы иди, дөзә билмирди.

бојланмағымла кичикһыма күлләнин дәјмәји бир олду. Өзүмдән кетдим. Нә вахтса һуша ҝәлдим. Һисс етдим ки, сағам, амма көзүм тутулуб, ган ичиндәјәм. Јолдашларымы сәсләдим, һај верән олмады.

Ерменилер атәшә ара вермишдиләр. Бир күчүмү топлајыб ајаға галхдым вә мешәјә тәрәф гачдым. Нечә дәфә јыхылдым, һушуму итирдим. Әјнимдәки ағыр зирәһли жилети чыхарыб атдым. Гаршыдакы тәпәни ашыб, јерә јыхылдым. Вәзијјәтим ағыр иди, тез-тез һушуму итирирдим. Фикирләшдим ки, мешәјә тәрәф кетсәм, гурд-гуша јем оларам, мејидими тапмазлар. Тәпәдән ашағы енмәк исә горхулу иди. Чүнки ишыглары көрүнән Чајкәнд иди. Сентирләјә-сентирләјә тәпәни ендим. Артыг гаранлыг чөкмүшдү. Елә бундан да истифадә етмәк лазымды. «Аллаһ көрмәдирә», — дедим. «Бәлкә көрән олмады».

...јадымдан чыхыб. Дедим, иј филанкәс, танымадын мәни, сәнинлә дәфәләрлә чөрәк кәсмишик, аеропортда гаршыламышам, һөрмәт еләмишәм...

«Танıдым», — деди. «һәкимә апарачағыг сәни, сонра бурахарыг кедәрсән». Һарданса једәкли мотосиклет кәтирдиләр. Мәни отурдуб апардылар. Дејәсән Чајкәнд хәстәханасына кәтирмишдиләр.

Вәзијјәтим пис олмушду. Јарамә бахыб тез-тәләсик тикиш гојдулар, дедиләр ки, горхулу һеч нә јохдур.

Тәхминән саат јарымдан сонра 4—5 нәфәр саггалы кәлиб мәни апардылар.

«VƏTƏN SƏSİ » qəzeti

27 fevral 1991- ci il № 9

## *ÇAYKƏNDDƏ NƏ BAŞ VERİR ?*

Mayın 4-dən 7-nədək ÇAYKƏNDİN VƏ MARTUNAŞENİN 1400 nəfərdən artıq sakini buradan köçürülmuşdür. Lakin erməni yaraqlıları və onların Yerevandakı « agsaqqalları» nəyin bahasına olursa olsun köçürülmənin qarşısını almağa çalışırlar . Evlər yandırılır , qadınları uşaqları və qocaları aparan vertalyotlar atəşə tutulurlar.

**«Daglıq Qarabag hadisələri başlayan vaxtdan köçüb getmək istəyirdim . Lakin hər dəfə erməni ekstemistləri məni və ailəmi ölümlə hədələyərək Çaykənddən çıxmaga qoymurdular . Artıq dərəcədə xahiş edirəm yaşadıgım mülkə qiymət qoyun və cetməyimə köməklik göstərin ».**

**Bu ərizə aprelin 30-da Çaykəndin sakini Ə.Əsriyan tərəfindən Xanlar rayon İcraiyyə Komitəsinə yazılıb. Həmin kənd sakinləri A.Kolayan , N. Purusyan , M.Calovyan, A. Qalustyan və başqalarının da ərizələri də eyni məzmundadır.** Ümumiyyətlə , bu günədək 776 ailədən köçüb getmək haqqında ərizə daxil olmuşdur . Sual olunabilər ki , bəs indiyə qədər niyə köçmürdülər? Son günlərin hadisələri bir daha göstərir ki ,Çaykənddə və Martunaşendə yuva salmış erməni yaraqlılarının , eləcə də Yervandakı üzdəniraq «vətənpərvərlərin » adamları dilə tutması son anda isə , hər cür fitnəyə əl atması , yerli sakimlərə hədə-qorxu gəlməsi , bu işi xeyli yubatmışdır. Pasport rejiminmin yoxlanmaması Yerevandan ərzaq adı ilə silah daşıyan vertalyotların uçuşlarının dayandırılması erməni yaraqlılarının əl qolunu açmışdır. Həyasızlıq o dərəcəyə çatmışdır ki , azrbatcanlılar yaşayan Azad ,Kamo Sarısu , Quşçu –Armavir

kəndləri tez tez atəşə tutulurdu. İndiyədək 50 dən artıq günahsız adam qətlə yetirilmişdir . Ən muasir silahlarla təciz olunmuş , xüsisi təlim görmüş , 300-dən artıq erməni yaraqlısının qabagında sayca üç dəfə az təcrübəsiz , sovet əsgərləri heç nə edə bilməzdilər.

Odur ki, quldurluq hərəkətlərini muşayət etməklə kifayətlənirdilər. Eləki pasport rejiminin yoxlanılmasna başlandı, vertalyotların uçuşu dayandırıldı, əsl mənzərə aydın oldu.Yaraqlıların bəziləri həbs edildi.Bir çoxu meşələrə, daglara çəkildi.Yalnız bundan sonra yerli sakinlər nisbətən rahat nəfəs aldılar və ləngimədən Xanlar rayon partiya və sovet orqanlarına ərizə ilə muraciət etdilər, təcili olaraq köçmək istədiklərini bildidilər.İndi Ter-Petrosyanın , digər erməni liderlərinin haray həşir qopararaq, «qomayın həmvətənlilərimizi zorla köçürürlər» deməsi , mənasız cəfəngiyyatdan başqa bir şey deyildir .İki gün əvvəl Ermənistan Xalq depupatı üzdəniraq millət fədaisi İqor Muradyan Çaykənddə peyda oldu. Adamları dilə tutmaga başladı köçməmək haqqında kənd sovetindən saxta qərar almaga cəhd göstərdi. Lakin hiylə baş tutmadı , hərbi komendantın təkidi ilə araqarışdıran deputat kənddən çıxarıldı. İndi qaçıb haradasa gizlənib.

**Çaykəndin həri komendantı Boris Korobtsovla söhbət edirik**.

Əsəbləşdiyini biruzə verməməyə çalışsa da bacarmır : - Belələri erməni xalqınım düşmənidir -- deyir neçə gün idi ki , kol dalında qadın və uşaqların arxasında gizlənən erməni yaraqlıları onlara sıgınacaq vermiş həmvətənlilərinin evlərini yandırırdılar . İndiyədək 20- dən artıq evə od vurublar. Bu gün isə içərisində qadınlar , uşaqlar və qocalar olan vertalyotu Qaraçinar kəndi yaxınlıgında pulemyot atəşinə tutublar. Xoşbəxlikdən vertayot bir iki yerdən zədələnsə də qəzaya ugramadı.Bəli, terrorçu dəstələr nəyin bahasına olursa ,olsun Çaykənd və Martunaşen kəndləri sakinlərinin köçməsinə maneçilik törətməyə çalışırlar. Dünən evlərində gecələdikləri çörəyini yedikləri erməniləri atəşətutur, mənzillərini yandırırlar.Bax budur onların əsl siması ! Su bogaza çatanda meymun balasını ayagı altına saldıgı kimi ermənilərin « millət fədailəri » də özününküləri qurban verir təki getməsinlər.

« Böyük Ermənistan » xülyası boşa çıxmasın. Bütün bunlara baxmayaraq daxili qoşunların , xüsusi təyinatlı milis dəstələrinin Gəncənin , Xanların partiya, sovet orqanlarının köməyi ilə ermənilərin təhlükəsizliyi təmin olunur. Köçmək üçün onlara şərait yaradılır .Sıragagün erməni yaraqlılarından 3 ədəd «Alazan» tipli raket, 100 kiloqramdan artıq partlayıcı maddə , avtomat, tapança , digər döyüş ləvazimatları və radiostansiya tutulmuşdur .

Azərbaycanın daxili işlərinə Ermənistanın müdaxiləsini dayandırmaq barədə Respublika Prezidenti A. N . Mütəllibovun bəyanatı hər yerdə oldugu kimi , Xanlarda da da böyük razılıq hissi ilə qarşılanmışdır. Adamların səbr kasası daşmışdır. Onlar illərdən bəri davam edən münaqişələrə son qoymaq üçün əllərindən gələni etməyə çalışırlar.

Əlbəttə çətindir , cox çətindir.

*Hamlet Qasımov*

«*Kommunist*» *in xüsusi muxbiri*

*ÇAYKƏND*

*« Kommunist » qəzeti 7 may 1991 -ci il*

## *ÇAYKƏND BOŞALDI, ANCAQ QULDURLAR ZƏRƏRSİZLƏŞDİRİLMƏDİ*

Çaykənddə pasport rejiminin yoxlanılması aprelin 30-da səhər saat 6- da başlandı. Hərbiçilər , xüsusi təyinatlı milis dəstəsi , DTK əməkdaşları və DİN-nin birləşmiş qüvvələri 2 zirehli döyüş maşınının müşayəti ilə kəndə girdi.Birləşmiş qüvvələr sakit qaydada pasportları yoxlamağa başladı.Kəndin mərkəzində mövqe tutmuş quldurlar ayrı –ayrı səmtlərdən gözlənilmədən atəş açdılar. XÜSUSİ TƏYİNATLI MİLİS DƏSTƏSİNİN BAŞ SERJANTI ASİF MUSAYEV döyüşü belə xatırlayır: " Atəş başlayanda çaşqınlıq yarandı. Atəşin haradan açıldığını və kimin kimə atəş açdığını müəyyən etmək mümkün deyildi. Atışa- atışa bir dar meydançada dayandıq. Zirehli maşın oradan çıxa bilmirdi. Biz maşını oradan çıxarmaga çalışarkən , quldurlar polkovnik Maşkovu girov götürdülər.Onu məcbur edirdilər ki, silahı yerə qoymaq barədə bizə əmr versin. Məqsəd hamımızı girov götürmək idi. Lakin xüsusi təyinatlı milis dəstəsinin Gəncə şöbəsinin döyüşçüləri quldurları şərərsizləşdirərək , polkovniki azad etdilər. Polkovnik azad edilsə də , zirehli maşında olan 14 əskər və və onlara bələdçilik edən Xanlar şəhər sakini Aydın Hacıyev girov götürüldü.Quldurlar artıq kəndin mərkəzinə doğru dar bir dairəyə sıxışdırılmışdılar. Təslim olmalarına lap az qalırdı. Bu zaman ratsiya ilə ultimatum verildi. Döyüşən qüvvələr döyüşü dayandırıb kənddən çıxarılmasa , girov götürülmüş 15 nəfəri öldürəcəyik! Sonra isə girov alınmış leytenantı həmin ultimatumu çatdırmaq üçün buraxdılar. Əməliyyatın rəhbəri DİN nin muavini Ramiz Məmmədov sağ, olub olmadığını yoxlamaq üçün ratsiyada Aydın Hacıyevlə danışmaq istədiyini bildirdi . Artıq gec idi. **Quduzlaşmış quldurlar Aydını vəhşiçəsinə qətlə yetirmişdilər. (Qolulunu qırmış , qarnına 60-dan yuxarı atəş açmış bədənini kəsik kəsik eləmişdilər).** SSRİ Müdafiə Nazirliyi nümayəndəsinin göstərişi ilə saat 2-də döyüş dayandırılaraq bütün qüvvələr kənddən çıxarıldı. Girov götürülmüş 13 əsgər isə 27 quldurla dəyişdirildi.

Mayın 3-də keçmiş «**QARABAG**» komitəsinin lideri Ermənistan Ali Sovetinin deputatı məşhur **İqor Muradyan** Çaykəndə gələrək qısa müddətli mitinq keçirib. Müşahidəçilərin dediyinə görə o köçmək istəyənlərə şiddətli cəza veriləcəyi barədə qəzəbli nitq də söyləyib .Üstündə Makarov tapancası tutulmuş Muradyanı (tapanca 1990-cı ildə Yervanın Sovet rayonunun Daxili İşlər Şöbəsindən ogurlanıb) hərbiçilər deputat toxunulmazlıgına «bagışlayışblar». Həmin gün Muradyan vertalyotla kənddən 21 nəfər qoca uşaq 40 kisə un və dərmanlar ( görəsən kənddə onlarca qoca uşaq və yaralı oldugu halda Muradyan niyə un aparmagı üstün tutub (!) aparıb. Mayın 4 - də Xanlar rayon XDS - nə köçmək barədə ermənilərdən 850 ərizə və kənd sakinləri adından kənd sovetinin möhürü ilə təsdiq olunmuş kollektiv ərizə daxil olmuşdu . Köçmək istəyənlərlə quldurlar arasındakı mubahisə axşamçağı savaşmaya səbəb oldu.Camaatı saxlaya bilməyən quldurlar cəza olaraq gedənlərin evlərini yandırdılar. Qarabulaqda evlərin yarısından çoxu , Çaykənddə isə 5 ev yandırıldı. Mayın 4-də 109 , mayın 5-də 800 nəfər, mayın 6-da qalanlar köçürüldü. Köçürülənlər avtobuslarla Ermənistan sərhəddinə aparıldı.(İlk 109 nəfər vertalyotla Xankəndinə aparılıb ).

Ermənistan Ali Sovetinin sədri Levon Ter-Petrosyanın bəyənatında deyilir ki , sülhsevər erməni kəndləri dağıdılıb və yandırılıb .Onu deməyi unudub ki, «sülhsevər» Emənistandan göndərilmiş erməni guldurları Çaykənd ətrafında 54 azərbaycanlını

qətlə yetirib, 100-dən çoxunu yaralayıb. Bir də « sülhsevərlərdən» 3 « yer-yer » , 3 « Alazan » raketi , 14 güclü radiostansiya 4 tank pulemyotu , lentlə birgə 2 yeşik pulemyot patronu , zirehli maşınların pulemyotları , avtomatlar, ov tüfəngləri tapancalar , yuzlərlə kiloqram partlayıcıı maddə tapılıb.

HAŞİYƏ . Çaykənd camaatı hələ 1988—ci ilin noyabrında azərbaycanlılar Ermənistndan qovularkən köçüb getmək barədə Xanlar rayon XDSnə müraciət etmişdilər . Xanlar rayon PK –nin keçmiş birinci katibi Qərib İskəndərov xüsusi tapşırığa əsasən xüsusi canfəşanlıqla köçmənin qarşısını aldı . Kəndin girəcək və çıxacaqlarına hərbi post qoydular . Erməniləri köçməyə . azərbaycanlılara isə gəlməyi gadagan etdilər. Bəs necə olur ki , kəndi göz bəbəyi kimi qoruyan Sovet Ordusu birdən-birə bütün qapıları üzğmüzə açdı. Azərbaycanın milis quvvələri kəndə buraxıldı?

Axı , Xanlar DİŞ-nin 5 əməkdaşı kənddə öldürülərkən ordu heç onlara tərəf çıxmamışdı.Yəqin ki , bu gün hadisələrin belə kəskin dəyişməsi Moskva altındakı Yeni Oqoryov bagına «doqquzlalın» imzaladıqları gizli memorandumla baglıdır(bax Kommersan tqəzeti №17 1991-ci il). Memorandumda İttifaq Müqaviləsinə qol çəkməyən respublikalarla bütün münasibətlərin , xarici dövlətlərdən fərqlənməyəcəyi göstərilir . Gizli memorandumun şərtlərinə əməl edən Qorbaçov AZƏRBACAN Prezidentinin «hə»sini nəzərə alaraq İttifaq Müqaviləsi imzalanana qədər Ermənistana Azərbaycanın «suveren» hüqüqlarını pozan xarici dövlət kimi rəftar edəcək .(Bütün baqa hallarda oldugu kimi bu memorandum da Mərkəzin üzüyola Azərbaycan laboratoriyasında sınaqdan keçirilir) . Görəsən Ermənistan İttifaq Müqaviləsinə qol çəksə, bizi hansı «mükafat» gözləyir.

Qarşıya qoyulan vəzifə yenə yerinə yetirilmədi . Çaykənd ətrafında 54 azərbaycanlını heç də çaykəndli öldürməyib . Adam öldürənlər , Azərinformun yaydıgı kimi Çaykəndin və Qarabulagın əhalisinin yarısını təşkil edən qeydiyyatsız ,yerli camaatın dediyinə görə 400-500 ÇAYKƏNDİN HƏRBİ KOMENDANTININ müşahidələrinə görə azı 270- 280 nəfər Ermənistandan gəlmiş quldurlardır. Komendant Boris KOROBTSOV quldurları zərərsizləşdirməyin «Ya gərək vuruşub , təslim edəsən ya da silahlarını könüllü təhvil versinlər , ya da gərək dag yolu ilə çəkilib gedələr» deyə üç yol oldugunu bildirir

Quldurlar təslim olana yaxın döyüş yarımçıq dayandırıldı . Amma azərbaycanlılar yenə öz qurbanlarını verdilər ( 5 nəfər). Silahların təhvil verilməsi isə hərbiçilər kəndə nəzarət etdikləri vaxt , gətirilən quldurlara geydirilən maskanın götürülməsi idi . Təsadufi deyil ki , quldurların ÇAYKƏNDDƏN çıxıb GÜLÜSTAN kəndinə getmələri üstün tutuldu . ÇAYKƏNDİN keçmiş sakini NİKOL MUSAELYANIN «Ermənistandan gələn quldurlar döyüşdən qabaq dağlara, meşələrə çəkilib getdilər deməsi və mayın 6-da həmin dəstənin GÜLÜSTAN kəndinə gedən yolun üstündəki Başqışlaq kəndi yaxınlığında görünməsi buna sübutdur. Kim təminat verə bilər ki ,azərbaycanlı öldüməyə öyrənmiş, həmin quldurlar Çaykəndin hayıfını Goranboy rayonunun dinc camaatından almayacaq .

TAPDIQ FƏRHADOGU
ÇAYKƏND—BAKI
« AZADLIQ » qəzəti
17 may 1991 № 19

“ Dairə “ əməliyyatı onilliklərin prizmasın

## Hadisələrin xronikası. Şahidlərin xatirələri.**

**“Qolos Armenii ” 01.05.2001**

Zaman və tarix coşqun deyil.Hadisələr qeydə alınır yaxud tarixdə izsiz itir , lakin hər bir halda öz izini qoyur və keçmişdəkindən daha da əhəmiyyətli olaraq gələcəkdə daha parlaq və masştabla üzə çıxır .“Dairə” əməliyyatı altında nə gizlənirdi, facəinin əsl səbəbləri nə idi ki, 10 il bundan əvvəl Şimali Artsaxın 37 erməni kəndinin başına gəldi,onlar öz doğma yerlərindən xüsisi amansızlıqla deportasiya edildiər.O qarışıq zamanlarda bunları dərk etməyə vaxt yox idi, lakin indi...Belə hiss edirəm ki, 13 il bundan əvvəl onlarınntəhlil etməyin vaxtı çatmışdır. Bu təhlil ancaq ona görə aparılmamalıdır ki, taxılı , həqiqəti yalandan seçəsən, qəhrəmanlığa öz qiymətini verəsən və hər şeyi öz adı ilə adlandırasan ....

Bu bizə - bu günkülərə, həqiqəti əziyyətə axtaranlara, axtarıb ,hələlik Kilsəyə aparan yolları tapa bilməyənlərə lazımdır. O yolu ki, bəlkə də o özünü təmizləmədir, o gələcəkdir, özümüz haqqında həqiqətləri hara və hansı zamana aparmalıyıq.haqqında həqiqətlərdir.

**“ Dairə ” əməliyyatı -** Qarabağ onilliklərinin ən çətin ,faciəli və ən qaranlıq səhifələrindəndir. “Dairə” əməliyyatı - dövlət terrorizmi aktıdır , insananifrət və vandalizm aktıdır ki, onu öz həyatının son aylarında SSRİ rəhbərliyi – Kommunist Mərkəzi Azərbaycanın höküməti və Xalq Cəbhəsi ilə sıxı şəkildə birlikdə törətmişdir. Onlarla erməni kəndinin zorla deportasiyası, doğma torpaqları əlindən alınan,özlərinin son saplarına qədər yağmalanan ocaqları dağılan minllərlə insanın faciəsidir. Bunu da yaddan çıxarmaq olmaz ki , əməliyyat rus əskərləri və zabitlərinin əli ilə aparsa da , onların arxasında qorxaqcasına azərbaycan omonçuları gizlənmişdi və onların əməlləri sühsevər mülki insanların qanlı ölümləri ilə, zorlamalarla, işgəncələrlə, insanları döymək, insafsızcasına işgəncələr, girov və əsir görürmə ilə rənglənmişdir, halbuki bu adamların yeganə günahı onda idi ki, onlar öz ulu babalarının torpaqlarında yaşamlarını davam etdirmək istəyirdilər. Şimali Artsaxın mülki əhalisinə qarşı 1991-1992-ci illərdə vuruşan sovet ordusu öz üzərinə ayıb götürmüş və SSRİ rəhbərliyinin üzərinə düşən böyük günahı geyd eməklə biz digər şeyləri də qeyd etməliyik. Fikirlərin və mənəvi ideallarını təmizliyi, erməni xalqının ruh yüksəkliyinin yuxarıda olması ,əsl qəhrəmanlıq nümunələri ilə dolu olan 80-ci illərin sonu, 90-cı illərin əvvəlləri- bu illər bizim qəhrəmanlıq nümunələrimiz idi. Ancaq bütün bunlar yeni peyda olmuş “sahiblər” tərəfindən Bu yazı əlbəttə “Dairə” əməliyyatı “ ilə əlaqədar bütün suallara cavab vermir.

1991 - 1992 - ci illərdə Şimali Artsaxın erməni kəndlərinin deportasiyası qarabağ hadisələrinin ümumi axarı ilə o qədər bağlıdır ki, əməliyyatın dəqiq başlama vaxtını təyin etmək olduqca cətindir.”Dairə” əməliyyatının 30 aprel 1991-ci ildə başlamasını əlbəttə qeyd etmək olar, bu zaman tank və ZTR-lər Martunaşen və Qetaşenə daxil olmuşdular. Ancaq 28 aprel tarixini də qeyd etmək olar ki, həmin gün bu erməni kəndlərinin müdafiəsində duran hərbi hissələr son dəfə onları tərk etdikdən sonra cəza dəstələrinin fəaliyyəti üçün bütün yollar açıldı.Əslində hər şey daha əvvəldən başlamışdı. Bakı talanlarından sonra Artsaxda və müxtəlif rayonlarda , o cümlədən Şimali Artsaxda komendant saatı elan edilmiş, hərbi texnika və hissələr yerləşdirilmişdi.Artıq 1990-cı ilin baharında evlərini satmaq ya da dəyişmək

təklifləri ilə kiçik Kamo və Azat kəndlərində azərbaycanlılar peyda olmağa başladı.Tezliklə xəbər yayıldı ki, ermənilərdən təmizlənmiş Azat və Kamo kəndlərində azərbaycanlıların ilk qrupları yerləşdirilmişdir.Martuşen və Qetaşen kəndləri qəza vəziyyətinə düşdülər. Vəziyyət hər gərginləşirdi, Şimali Artsax izolyasiya vəziyyətinə düşərək, hər cür yardımdan məhrum olunmuşdu. Avqustun 29-da Azərbaycan daxili işlər nazirinin müavini hərbi dəstənin muayəti ilə Qetaşenə gələrək tələb etdi ki, sakinlər kəndi tərk etsinlər. Buna tamamilə rədd cavabı verildikdən sonra Qetaşen padrayonu Xanlar rayonunun tərkibinə daxil edildi. , ancaq kənd sakinləri bu qərara da tabe olmaqdan imtina etdilər. Payızda azərbaycanlıların Qetaşen, Martunaşen və Manaşid istiqamətində güclü hücumları olsa,da onlara layiqli cavab verildi.Fermada və sahələrdə işləyən kəndlilərə,yollara, quldur hücumları ,sürülərin oğurlanması, girov tutma adi hal oldu. Məqsəd isə bir idi: erməniləri qorxutmaq və onları doğma kəndlərini tərk etməyə məcbur etmək.

**Qetaşen kənd sovetinin sonuncu sədri Qrant Qürcüyanın** xatirələrindən: “
13 yanvar 1990-cı ildə 17 min nəfər azərbaycanlı Azat, Kamo, Quşçu Armavir kəndlərinə hücuma keçdi. Bu kəndlər bir mişen idi- orada daim ölənlər və yaralananlar olurdu. Biz Azatı müdafiə edənlər 46 nəfər idik. Biz Yerevana və Moskvaya xəbər verdik. Kəndə rus ordusu gəldi və neytral zona yaradıldı.**Yanvarın 16-da nazirlər Yazov və Bakatin Getaşenə gəldilər**. Biz çalışdıq ki, onları əmin edək ki, **bu torpaqlar bizim ulu babalarımızındır** və bizim istəyimiz ancaq ondan ibarətdir ki, burada sülh şəraitində yaşayaq.Mən camaatın içində ondan soruşdum:” Yoldaş marşal , bir Sov.İKP Siyasi Bürosunun üzvi kimi deyə bilərsinizmi biz burda yaşaya bilərik ya yox?”. O cavab verdi:” Siz burada yaşamısınız və gələcəkdə də yaşayaqacsınız. Buna şübhə yoxdur ”. 17 aprel 1991-ci ildə isə rus ordusu bizi təhna qoyub getdi..”
Yada salıram: bütün bunlar sovet vaxtı, sovetlər ölkəsində, sovet xalqı əleyhinə və sovet hakimiyyətinin xəbəri olaraqdan baş verirdi. Sovet əskərləri azərbaycan omonun hərəkətlərini tam himayə edir, mərkəzi orqanlar isə şikayət və müraciətlərə cavab vermirdilər. Kütləvi mətbuat orqanları isə ya susur ya da günahı “erməni silahlılarının” üzərinə qoyurdu. Ordu isə sadəcə olaraq Getaşeni tərk etməmişdi, onlar açıq şəkildə Azərbaycanın təfəfinə keçmişdi.Beləki sovet ( sonralar isə rus) ordusunun fəal köməyi olmasaydı , bir türkün belə ayağı Getaşen torpağına dəyə bilməzdi... 1991- ci ilin aprelində təxmini hesablamalara görə Qetaşen və Martunaşendə 8 nəfər öldürülmüşdü, onlardan birinin – Aramais Saakyanın 12 yaşı var idi. Bütün Ermənilərin Katalikosu I Vazgenin çıxışından:”Dünyada mənə ikinci belə bir kənd göstərin, dünyada beləsi yoxdur”. Aprelin 16 –da Bakıda yığıncaqda Mütəllibov təklif edir ki, tabe olmadıqları təqdirdə Şaumyan rayonun erməni kəndləri və Getaşen və Martunaşen deportasiya edilsin.

**Yerevandan olan operator Vardan Ohanesyanın xatirələrindən**: ”Birinci dəfə mən tamamilə mühasirəyə alınmış Getaşen və Martunaşen kəndlərini lentə almaq üçün “Dairə” əməliyyatının başlanmasından bir ay qabaq oraya gəlmişdim. İki həftə orada qaldım – bu diyarı sevdim. Getaşen çox səliqə sahmanlı gözəl təbiətli bir kənd idi. Elə adamları da çox qonaqpərvər və gülərüz idilər. **Getaşendə çox kəskin hiss edilirdi ki, bura Ermənistandır və sən öz vətənin uğrunda mübarizə aparırsan**, öz torpağını müdafiə edirsən. Aprel ayında mən ora iki dəfə uçdum və hər dəfə də vəziyyətin qeyri adekvatlığı məni heyrətə

gətirdi.Yerevanda çoxminli mitinqlər keçir, orada qışqırırdırar ki, Getaşeni müdafiə etmək iqtidarındadırlar. Burada isə uşaqlara növbəni dəyişmək üçün adam çatmırdı.Onda başa düşdüm ki, əsil vuruşanlar sadə və az danışan adamlardır.Getaşen - Qarabağ hərəkatında hərbi etapın başlanğıcı idi, onda adamlar axıra qədər başa düşmürdülər ki, nə baş verir. Hesab edirəm ki, "Dairə" əməliyyatını Artsaxa qarşı müharibənin başlaması saymaq olar.
Aprelin 23-də Getaşen , Martunaşen və Şaumyan rayonunda vəziyyətin gərginləşməsi ilə əlaqədar Ermənistan Respublikası Ali Sovetinin Rəyasət Heyəti parlamentin növbədənkənar yığıncağını çağırır.Bu kəndlərin sakinləri Moskvaya xəbər verərək ciddi blokadada olduqlarının, su və elektrik enerjisinin kəsildiyini bildirirlər.
**Çaykəndli- özünü müdafiə dəstəsinin üzvü Simon Talalyanın xatirələrindən:** "
Aprelin 23-də rus ordusu Qetaşeni və Martunaşeni tam mühasirəyə aldı. Bu tarixi biz belə yadda saxlamışdıq – " tankın körpüdən uçduğu gün". İş burasındadır ki, Qetaşenə gedən yolu kəndlilər tank kallonnasına bilərəkdən səhv göstərdiklərinə görə baş tank uçruma yuvarlanmışdı. Söhbətlərdə rus komandirlər bizi arxayınlaşdırırdı ki, elə bir şey yoxdur. Hətta işığımızı da birləşdirmişdilər. Ancaq biz başa düşmüşdük: Azərilər Qetaşeni 24 aprel günü - Genosid qurbanlarının Xatirəsinin anım günü tutmaq istəyirdilər.Biz Yerevanla telefon əlaqəsi saxladıq .Oradan bizə ürək- dirək verdilər:Qorxmayın, bu adi pasport rejiminin yoxlanılmasıdır.Moskvaya xəbər çatmışdır ki, guya orada ancaq silahlılar qalmışdır. Bizi ehtiyatlandırdılar ki, **kəndi qorumağa gələnlərin gayğısına qalın**.
Kəndi qorumağa gələnlər**- "Arabo" dəstəsi Simon Açıqgözyanın** rəhbərliyi ilə Martunaşendə, **Zarzand Danielyanın ( Hraç )** başçılığı ilə **Razdan dəstəsi, Vahan Zatikyanın** rəhbərliyi ilə **"Malatiya - Sebastiya" dəstəsi, və daşnaksakanlar - əfsanəvi Tatul Krpeyanın rəhbərliyi ilə.**
**Vardan Ohanesyanın xatirələrindən**: "Onlar klassik oğlanlar idi, içərilərində heyranedici şəxsiyyətlər var idi. Həm də dəstələr çox müxtəlif idilər. Daşnaklarda çox ciddi intizam və komandirə sözsüz tabeçilik, "Arabo"-da başlı başını saxlasın- onları burada komandirləri **Ded** ləqəbli **Simon Açıqgözyan** saxlaya bilirdi.O artıq yaşlı idi, 50- 55 yaşlarında, hündürboy , saçlarına dən düşmüş, yüksək dərəcədə intilligent , yüksək dərəcədə maraqlı və mənəviyyatca olduqca zəngin – sadəcə olaraq dahi idi. İxtisasca geoloq idi, Ermənistan Elmlər Akademiyasında işləyirdi.
Tatul Krpeyan mənim fikrimcə xarizmatik şəxsiyyət idi. Bütün Getaşen onu sevirdi.Onun qorxunc saqqalına baxmayaraq çox ürəyi açıq insan idi. Haradasa ondan qorxanlar da var idi, ona görə ki , o hətta kəndi tərk etmək haqqında fikirləşməyi belə qadağan etmişdi və onu sevirdilər- o Getaşenin ümidi idi."

**Simon Açıqgözyan Martunaşen və Getaşenin özünü müdafiəsinin təşkilatçılarından biri idi, tankın qarşısına təkcə çıxmışdı və 30 aprel 1991-ci ildə həlak oldu.**
**Simon Talalyanın xatirələrindən:"** Aprelin 28-də Getaşenə 3 rus zabiti gəlmişdi. Guya ki,danışığa:" Necə etmək lazımdır ki, uşaqlar və qadınlara ziyan dəyməsin, havayı itkilərə yol verilməsin. Təklif edirdilər ki, kəndi sülh şəraitində tərk edək. Hətta azərilər satın almağa da hazırdırlar. Biz isə cavab verdik ki, doğma torpağımızla alış veriş etmirik.Getaşen bizdən ötrü **erməni torpağının bir parçası deyil, Getaşen- o həm də Artsaxın qapısıdır**.Və bizdən ötrü kəndinizin müdafiəsi qeyrət və namus məsələsidir.Biz yaxınlaşan faciəni duyurduq, ancaq

Yerevandan bizi arxayınlaşdırırdılar: Bütün Ermənistan sizin arxanızdadır. Biz isə 7 gün davam gətirə bildik." Aprelin 29 - da bütün erməni- azərbaycan( !) sərhəddi boyu avtomatlardan, tanklardan və zirehli maşınlardan Ermənistan Respublikasının yaşayış məntəqələrinin atəşə məruz qalması davam edirdi.Aprelin 30-da Prezident Qorbaçovun rəhbərliyi ilə SSRİ Təhlükəsizlik Şurasının iclası keçirilirdi. SSRİ DİN DQ Bakı polkunun hissələri polkovnik Maşkovun rəhbərliyi ilə Qetaşenin yüksəkliklərini tutdular və kəndi atəşə məruz qoydular.Qetaşenin həvəskar radiostansiyasının xəbərlərindən :" Kəndə girən ordu mülki əhalini qırır. Saat 21.00 -ə 10 –dan artıq adam ölüb, çoxlu yaralanan və girov götrülənlər var"...

**Qrant Qürcüyanın xatirələrindən:**"Aprelin 30-da saat 4.30-da SSRİ daxili qoşunlarının hərbi hissələri tank və zirehli maşınlarla Getaşenə və Martunaşenə girdilər. Hücum eyni zamanda bir neçə nöqtədən aparılırdı. Və beləliklə biz tam dairədə muhasirədə qaldıq. O vaxt kənddə qalan 1497 getaşen ailəsinə qarşı 207 tank və zirehli maşın "krokodil" və "kobra" tipli 6 vertalyot atılmışdı. Kəndin ucqarlarında o dəqiqə 27 ev yandırıldı, ilk itkilər baş verdi. Sakinlər kəndin mərkəzinə toplaşmağa başladılar və özünü müdafiə dairəsi yaratdılar. Vertalyotlar bombalamağa , tanklar isə atmağa başladı. Ardınca 28 min nəfər rus əkəri və onların arxasında gizlənən azərbaycan OMONu, xalq cəbhəsinin nümayəndələri və quldurlar - cəmisi təqribən 13000 nəfər kəndə girdilər.Əskərlərin üzü niyəsə zelyonka ilə yağlanmışdı. Biz komandiri və azərbaycanlı bələdçisi ilə birlikdə bir tank ekipajını cəmisi 17 nəfəri girov götürə bildik. Bu bizim götürülmüş 40 nəfər girovun azad edilməsi və kəndin xilas edilməsi üçün son arqumentimiz idi. Biz ordunun komandanlığı ilə danışıq tələb etdik.**Danışığa Dağlıq Qarabağın komendant müavinliyindən tanıdığımız polkovnik Maşkov** çıxdı. Bu anlarda artıq xəstəxanaya öldürülənləri və yaralıları gətirirdilər-adamlara nişan alaraq və nizamsız atəşlər açılırdı.Bizim ittihamlarımıza cavab olaraq **Maşko**v girov götürülənlərin qaytarılmasını tələb etdi. Nəhayət qetaşenli girovların qaytarılması, ordunun kənddən çıxması, ordu çıxarkən əhaliyə təhlükəsizlik təminatı barədə razılığa gəldik.Əvəzində əskərləri qaytarmağı təklif etdik. Maşkov ratsiya ilə o günlər Xanlarda olan və əməliyyata rəhbərlik edən SSRİ Daxili İşlər Nazirinin müavini **Şatalinlə** əlaqə saxladı. Tezliklə bizə bildirdilər- ordu kənddən çıxır.

**Simon Talalyanın xatirələrindən**:" :" Bizi hər an ehtiyatlandırırdılar ki,hətta bir atəş belə Sizə baha başa gələcəkdir.Qəsbikarlara hər necə olur olsun Getaşeni tutmaq üçün bütün hüquqlar verilmişdi. Bunu başa düşən **Tatul Krpeyan** mümkün olan ən düzgün addımı seçdi. O əlində qumbara **Maşkovun** tankının üstünə sıçrayıb qışqırdı: Sizin əsgərlər bizim əlimizdədir.Əgər buradan getməsəniz onların hamısını məhv edəcəyik.Siz bura nə üçün təşrif buyurmusunuz ? Polkovnik orduya dayan əmri vermək məcburiyyətində qaldı."

**Qrant Qürcüyanın xatirələrindən:** " **Hraçla** birlikdə **Tatul Maşkovu** nişangahda saxlayaraq irəli getməyə qərar verdilər ki, tankların kənddən çıxmasına əmin olsunlar. Onların " arxamızca heç kim gəlməsin " əmrinə baxmayaraq,**Tatulun müavini Artur Karapetyan** onların arxasınca getdi ki ,əgər bir hadisə baş versə komandirini xilas etsin.Maşkov isə hər an atəş açmamaq və irəli getməmək əmri verirdi.Yolda onlar tanklarla və OMON-la

qarşılaşdılar.Burada Maşkova kənara qaçaraq ,Tatulu müdafiəsiz qoymaq müyəssər oldu.Onu həmin an güllə ilə vurdular.Krpeyanı xilas etməyə çalışan **Hraç və Arturu da öldürdülər**....Qeyri-adi böyük ürəyi və cəsurluğu olan Tatul beləçə həlak oldu."

**Vardan Ohanesyanın xatirələrindən**:"Tatul o dəqiqələrdə intutiv olaraq öz həyatı bahasına olan yeganə düzgün addımı ataraq Getaşendə qırğının qarşısını aldı.Çünki azərilərə atışmanı qızışdırmaq əl verirdi, onlara rus zabitinin ölümünün də xeyri vardı. Bu zaman onların əl-qolu açılacaq ,qırğın və deportasiyaya "erməni silahlıları ilə mübarizə" adı qoyacaqdılar.Ölümcül yaralanmış Tatul yerə yıxılarkən əlindəki qumbaranı uzağa tullamaq, haqqında düşünməyə də vaxt tapdı. Bu zaman getaşenlilərin həyatının məsuliyyətini hiss edərək ,o partlayışdan yüngülcə yaralanan Maşkovun da həyatını xilas etdi. Bunun nəticəsində danışıqlar davam etdi və əhalini az itki verərək xilas etmək mümkün oldu.

**Yerevandan gəlmiş həkim-cərrah Qevork Qriqoryanın xatirələrindən**:" Tatul Krpeyan ilk olaraq anladı ki, bu əməliyyat Moskva tərəfindən təşkil edilmiş və ciddi planla hazırlanmışdır.Onun qəhrəmancasına ölümü bir növ getaşenlilərin həyatını xilas etmək üçün qurban idi.Hələ bu hadisələrdən bir il qabaq o mənə deyirdi ki, Getaşendəki bu vəziyyət siyasi spekulyasiyaların nəticəsidir, yoxsa türklər rus ordusunun köməyi olmadan kəndə soxulmağa ürək edə bilməzlər. Yadımdadır o Getaşendə bir ildən arıq qalmışdı ( bu vaxt ərzində cəmisi bircə dəfə 1yaşlı qızı Aspramın olduğu doğma kəndi Ermənistanın Talin rayonun Areq kəndinə getmişdi ). O daim uşaqlarla məşğul olurdu, çünki müəllim idi. O uşaqlara erməni tarixini, rəqslərinin, adətlərini öyrədirdi... Tatul məncə hər bir halda Getaşendə qalacaydı-istər ölü ,istər diri. 10 ildir ona abidə tikirlər, hələ də tikilib qurtarmır,.. pul çatmır.

**Getaşen xəstəxanasının əməliyyat tibb bacısı Elmira Akopyanın xatirələrindən**:

"Xəstəxanada vəziyyət acınacaqlı və dəhşətli idi. Su və işıq yox idi. Qevork Qriqoryan Martunaşendən piyada Getaşenə gələrək hər şeyi təşkil etdi.Bizi işə cəlb etdi. Ordu kəndə girən kimi xəstəxanaya yaralıları gətirməyə başladılar.Yadımdadır ki, bir qadının ayağına güllə dəymişdi. Ölənlərin meyidini də gətirirdilər. Melsiki yataqda balta ilə öldürmüşdülər.O, xəstə idi. Sonra üç oğlanın meyidini gətirdilər.Valeri Nazaryan da onların arasında idi- bizim xadimə Anginin oğlu. Anası onu qucaqlayanda hiss etdi ki, onu qulagını kəsiblər. "

Mayın 1-də Getaşendən xahiş edirlər ki, vertalyot göndərsinlər: ərzaq, dərman və həkimlər. Ancaq vertalyotun kəndə düşməsinə icazə vermədilər.

**Simon Talalyanın xatirələrindən**:" Biz Yerevanla əlaqə saxladıq- nə edək? Danışığa girməyə cəhd edirdik. Tutduğumuz radiodalğalardan məlum olurdu ki, onlar özünümüdafiə dəstələrinin bütün fəallarını və Şaumyandan piyada Getaşenə gələn Ermənistan Respublikası Ali Sovetinin **deputatı İqor Muradyanı** əsir götürməyə hazırlaşırlar.Yadımdadır, danışığa gedərkən İqor xahiş etdi ki, əgər məni tutmaq istəsələr arxadan məni güllə ilə vurun. Artıq ölənlərin sayı 27-yə çatmışdı. Yerevandan xəbər verdilər ki,köməyə getmək istəyən vertalyotları partlatmaqla hədələyirlər. Şaumyandan Şaqen Meqriyan da bizə heç bir kömək edə bilmədi.Aydın oldu ki, qadınları və uşaqları deportasiya etmək lazımdır. Deportasiya mayın 6-a kimi davam etdi. *Mayın 2-də Azərbaycan OMONu belə bir sənəd yayır ki, guya Getaşen və Martunaşen sakinləri omonçulardan və hərbiçilərdən xahiş edirlər ki, onlara kənddən maneəsiz çıxmağa icazə verilsin.DTK-nın sədri bu sənədin məzmununa etiraz edir.*

*3 may. Martunaşen kəndi tam alov içindədir. 12 nəfər ölüb, 20 nəfər itkin düşüb, 7 nəfər girov götürülüb. 4 may. Prezident Qorbaçov Kryuçkovun vasitəsi ilə xəbər göndərir:" Martunaşen və Getaşen kəndlərinin əhalisinin deportasiya məsələsi gündəlikdən çıxıb. Heç kimin bu kəndlərin sakinlərini öz yaşayış yerlərindən çıxarmağa məcbur etməyə haqqı yoxdur.*

**Qrant Qürcüyanın xatirələrindən:** "Mayın 2-də vertalyotlar camaatı daşımağa başladı.O günlər Yerevan radiosundan guya ki, Getaşen uğrunda döyüşlər davam edir-, xəbərini eşitmək çox qəribə idi.Biz artıq 29 girovu dəyişmişdik. 13 nəfəri isə sonra satın aldıq ya da azad etdik. Elələri var ki, taleləri hələ də məlum deyil. Kəndi saxlamaq olardımı ? Mənim fikrimcə Getaşenin tutulması hərbi- siyasi məğlubiyyət idi.Hesab edirəm ki,Ermənistan hakimiyyət orqanları Moskva ilə belə kəskin siyasət aparmamalı , münasibətləri belə ciddi pozmamalı idi. Bundan başqa Getaşendə sovet hərbi maşınına qarşı nə elə hərbi sursat , nə də silah var idi.Mayın 8-də kəndin talanı başladı..."

**Simon Talalyanın** xatirələrindən:**"Getaşendə 1500 ev var idi.Kənddən çıxmamışdan qabaq biz əlimiz çatan hər şeyi yandırdıq ki, qoy düşmənə qalmasın.** Əmlakdan isə üstümüzdə nə var idisə ,onu götürdük. Mayın 7-də gecə kənddən lap axırıncı çıxaraq İqor Muradyanla meşələrlə Getaşendən Şaumyana getdik.Mən indiyə qədər də fikirəşirəm ki, gərək qalaydıq – qoy lap daim qorxu içində yaşaya , yadaki həlak olaydıq, ancaq öz torağımızda qalaydıq.Biz təkid etdik ki, həkimlər də kənddən çıxsınlar. Onlar üç nəfər idilər: Qevork, Sarkis Akopkexovyan və Valerik Xaçaturyan. Ancaq onlar etiraz etdilər. Valerik infarkt keçirmişdi, o piyada gedə bilməzi. Yoldaşları isə onu tək qoymaq istəmədilər. Həm də Gevork hesab edirdi ki, həkimlər toxunulmazdır. Ancaq onları da həbs etdilər..Mən bilrəm ki, Qevork Qriqoryan əsirlikdə özünü qəhrəman kimi aparıb və digər girovlara da dayaq olub.Onlara mərhəmətsizcəsinə əziyyət vermişdilər..."

**Vardan Ohanesyanın xatirələrindən**: " Bizə avtobusda 2 gün saxladıqları 27 girovu qaytaranda dəhşətə gəldik. Onlar dəhşətli vəziyyətdə idilər. Onları bərk döymüşdülər, baxmayaraq ki, onlar əlil və qoca idilər. Bir qorxmaz özünü müdafəçi – **Mejo** yadımdadır.Onun diri-diri başınındərisini soymuşdular.Ancaq başındakı bürüncəkdən və qançırlarından onu qoca bilib qaytarmışdılar. Mayın 6-da axşamüstü kənd boşalmışdı. Qaranlığın düşməsini gözləyirdik ki, meşə ilə çıxıb gedək. Halım çox pis idi deyə, kəndə çıxdım. Əskərlərə rast gəldim və girov düşdüm . Əvvəlcə məni Xanlara gətirdilər, sonra Gəncəyə apardılar. Şübhələnidilər ki, mən gizli daşnakam, jurnalist vəsiqəsinə inanmadılar. Jurnalist həmkarların səs-küyü səbəbi ilə 2 aydan atıq bir müddətdən sonra məni buraxdılar..."

**Q.Qriqoryanın xatirələrindən:**Sənədlərimizi yoxlayandan sonra rus əskərləri bizi azərilərə təhvil verdilər.Bildirdilər ki,onlar özlərini həkim kimi qələmə verirlər. Gəncəyə gətirib 17 gün həbsxanada saxladılar. Qızıl Xaçın nümayəndələri bir dəfə də olsun bizə baş çəkmədilər.Bizə çox çətin sınaqlardan keçmək nəsib oldu, ancaq bizə cinayət məsuliyyəti qoya bilmədilər.Bizim müdafiəmiz üçün beynəlxalq kompaniya təşkil edildi və məcbur olub bizi azad etdilər. Mən hərdən fikirləşirəm ki, Yerevandakı vəziyyət necə də Getaşendəki vəziyyəti əks etdirmirdi. Son günlər mitinqə çıxanlardan heç kim ora kəndin müdafiəçilərinə köməyə gəlmədi.Orada ancaq əvvəlcədən gələnlər idi. Onlar da orada axıradək qaldılar və Getaşendən mənəvi qalib kimi çıxdılar.Getaşenlilər və azatamartiklərin ruhu o qədər yüksək

idi ki, kəndlərini bandit- omonçulardan müdafiə etsinlər. Ancaq tankların, vertalyotların BTR və silahlanmış hərbi hissələrin qabağında durmaq mümkün deyildi. Mən hesab edirəm ki, Getaşenin alınması Moskvanın siyasəti ilə müəyyənləşdirilmişdi. Fikrimcə bunun iki versiyası ola bilər. Birinci: Moskvaya bölgədə vəziyyət qızışdırmaq və daha da alovlandırmaq lazım idi. İkinci isə : Ermənistanda hakimiyyət hesab edirdi ki, özünü müdafiə sərhədlərini daraltmaq lazımdır ki, Qarabağı müdafiə etmək mümkün olsun.Getaşen təhvil verildi və onu qəhrəmancasına müdafiə edən bir kiçik dəstədən başqa onu heç kim müdafiə etmədi..."
O günlər gənc erməni respublikasının hakimiyyəti elan etmişdilər ki, " Getaşenin özünümüdafiəsi erməni xalqının tarixinə qızıl hərflərlə yazılacaqdır." Ancaq "Dairə" əməliyyatı davam edirdi, növbədə isə onlarla Şimali Artsax kəndlərinin talanları, ölümlər və deportasiyası var idi. Getaşenliləri də niyəsə bütün Ermənistana səpələdilər, halbuki nəzərdə tutulmuşdu ki, onlara yeni Getaşen üçün ümumi bir yer versinlər.
**Arzni yaxınlığında Nor Artamet** kəndində bu gün 257 getaşenli ailə yaşayır. Kəndxuda Qrant Qürcüyanın bağında da moruq bitir – ancaq deyirlər Getaşendə onun çox qeyri-adi dadı varıydı.

**Marina Qriqoryan**

*** *** Hadisələr erməni prizmasından şərh edilir (İslam Bayramov)



**Tarixi hadisələrdən xəbəri olmayanlar deyə bilərlər ki, yaxşı olmazdımı ki,hakimiyyətin bütün tələbləri ilə razılaşıb , tankları, vertalyotları, "qırmızıbiretliləri"gözləmədən kənddən çıxıb gedəydilər. Ancaq……**( *Omari Xeçoyan)*



Qüvvələr nisbəti bərabər olmasa da xalq azatamartiklərə inanırdı və öz doğma yerlərini tərk etməyə tələsmirdilər.*( Omari Xeçoyan)*



1991 –ci ilin aprelin 23-də rus ordusu Qetaşeni və Martunaşeni tam mühasirəyə aldı.Biz bu tarixi belə yadda saxlamışdıq **–" tankın körpüdən uçduğu gün.** İş burasındadır ki,Qetaşenə gedən yolu kənd sakinləri tank kalonnasına bilərəkdən səhv göstərdiklərinə görə baş tank uçruma yuvarlanmışdı. ( Simon Talalyan )


FEDAYI.RU


FEDAYI.RU




Soldan  Jiro və Peto, sağdan Hovsepyan Harmiq və  Romiq

**Dəstənin rəhbəri**




**Simon Açıqgözyan**

“ Artsaxın azadlığı uğrunda “ döyüşən Arabocoqat özünümüdafiə dəstəsi Livan və Suriya əsilli olmaqla 200 boyevikdən ibarət idi. 29 iyun 1992- ci ildə komandirlərinin səhvi ucbatından Əskəran yaxınlığında 4 minlik Azərbaycan ordusunun mühasirəsinə düşdü. Onlar qaça yaxud əsir düşə bilərdilər. Ancaq bunu etmədilər, sona qədər vuruşdular və məhv oldular.

**Onların axırına Gəncə batalyonu çıxmışdır ( İ.B. )**



**Sovet ordusunun əskərləri ilə birbaşa toqquşmalardan qaçan Getaşen padrayonun erməni könüllü dəstələri və yerli ermənilər əsasən azərbaycan OMON-una qarşı dururdular.Şaumyan və Getaşenin özünümüdafiəsinə ümumi komandanlığı Şaqen Meqriyan edirdi.Yerevanla daimi davamlı radio əlaqə var idi , pilot Muşeq vertalyotla silah və döyüş sursatı , ərzaq və məktub gətirirdi. Ancaq yerli sakinlərə məlum olan cığırlarla atla da silah gətirirdilər. Altmış kilometrlik bu yolu ora və geriyə üç günə qət etmək olurdu.**

## ÇAYKƏND HƏQİQƏTLƏRİ
## İLK ŞƏHİDLƏR , İLK QURBANLAR

Todan keçmiş Şaumyan rayonun azərbaycanlılar yaşayan kəndidir və Çaykəndin lap yaxınlığında yerləşir. Keçən il yanvarın əvvələrində Gəncəyə xəbər yayıldı ki, Çaykəndin silahlı erməni dəstələri tez-tez bu kəndə hücum edir, adamları girov götürür, işgəncə verirlər.Dəliqanlı cavanlar silaha sarıldılar.Silah deyəndə ki, kimi əlinə ov tüfəngi götürdü, kimi balta-bıçaq. Yol izi qar basmışdı.Nəyin bahasına olur-olsun Çaykəndin vəhşiləşmiş erməni sakinlərinin qarşısını almaq lazım idi… Lakin necə? Məgər biz düşmən tərəfin qüvvəsinə bələd idikmi?

Hadisələrin sonrakı faciəli inkşafı göstərdi ki, biz illər boyu laqeyd olmuşuq, çox mətləblərin fərqinə varmamışıq.Yerevandan ,Stepanakertdən Çaykəndə hər gün 6-8, bəzən də 10-12 reys edən vertolyotların nə gətirib nə apardığı ilə qətiyyən maraqlanmamışıq.Nəticədə təkcə yanvarda on dörd oğul itirdik.Bu plansız, nizamsız «əməliyyatda« iştirak edənlər söyləyir ki, onlara vertolyotlardan hərbi geyimli adamlar ən müasir silahlarla atəş açırdılar,Çox keçmədən həmin nizamsız dəstə geri çəkilməyə məcbur oldu.İlk günahsız qurbanları---Rüzigarı Abbasqulunu,Nemanı,Bəxtiyarı və başqalarını sakitcə dəfn etməkdən savayı ayrı çarə qalmadı…

## GÜNAH KİMDƏ İDİ ?

Azərbaycanlıların Ermənistandan qovulduğu vaxtda çaykəndlilərdən kəndi kəndə dəyilmək barədə razılıq alınmışdı.Hər iki tərəfin nümayəndələri gedib yerli şəraitə də baxmışdılar.Lakin dəyişmə əməliyyatı qəfildən dayandırıldı.Çoxu günahı Xanlar Rayon

Partiya Komitəsinin keçmiş birinci katibi **Qərib İsgəndərovda** görürdü. Deyirdilər, güya Q. İsgəndərov baş katibin köməkçisi Şahnazarovla tez—tez telefon əlaqəsi saxlayır,hətta onun evində də olub.Bu söz—söhbət onunla nəticələndi ki,qəzəblənmiş kütlə raykomun binasını mühasirəyə aldı.Birinci katibi düz 10 gün kabinetinə buraxmadılar.O günlərdə necə oldusa **Q.İsgəndərovun** Gəncə Şəhər Partiya Komitəsinə gəlməsi meydanda mitinq edənlərin qulağına çatdı.Bayıra çıxan kimi maşınını dövrəyə alaraq, onunla haqq-hesab çəkdilər.Lakin əsl günahkar raykom katibi idimi? O zaman qarşılıqlı razılıq əsasında ev və kənd dəyişdirilməsi digər yerlərdə də dayandırılmışdı. Görünür bu, daha yuxarı dairələrin göstərişi idi. Bunları ona görə xatırladıram ki, Çaykənd adamlarımızı da bir-birinə qarşı qoymuşdu. Xüsusən qonşuluqda yerləşən Azad və Kamo kəndlərinin əhalisi evlərini dəyişib , köçdükdən sonra bu işin ləngidilməsi haqlı narazılıq doğurmuşdu. Hətta Çaykənddən xeyli aralı olan Hacıkəndin istirahət evləri, pioner düşərgələri bom-boş qalmışdı. Göygölə qalxmaqdan isə söhbət gedə bilməzdi.Adamlar qorxurdular və bu qorxu təmamilə təbii idi.Çünki dağlar, meşələr qaçaq- quldurla dolmuşdu, Qonşuluqdakı Quşçu- Armavir, Toğana, Əblək, Sarısu və digər kəndlərin mal-qarası oğurlanırdı,qocalara,uşaqlara,qadınlara atəş açılırdı.Çaykəndəki hərbi komendantlıq sahəsi də erməni quldurların əlində aciz qalmışdı. Vertolyotların uçuşu ara vermirdi, Hətta qanunsuz uçuşların dayandırılması haqqında Respublika Nazirlər Sovetinin sərəncamına, SSRİ Prezidentinin məlum fərmanına da məhəl qoyulmurdu.

Bax belə olan şəraitdə adamlar təqsirkar axtarmağa məcbur idilər. Kin-küdurət artmışdı. Çaykəndlə qonşu olan kəndlərin sakinləri tez-tez axışıb rayon mərkəzinə gəlir, giley—güzarlarını bildirirdilər.

Sarısu kəndinin sakinlərindən bir qrupunun redaksiyamıza göndərdiyi məktub qarşımdadır: «Bizim üçün nə Xanlar rayonu var nə də onun rəhbərləri.Bizi allah saxlayır.Gecə gündüz atəşə tutuluruq. Körpələrimiz qorxudan çarpayının altından çıxmırlar. Belə getsə tezliklə bu yerləri tərk etməli olacağıq ».

Məktubu yazan o kəndin sakinləridir ki, ilin əvvəlində həmin kəndə yas yerinə gələn ər-arvad Sarıyevləri və A.Rzayevanı erməni yaraqlıları qətlə yetirmişdilər.

## ƏLLİ BEŞİNCİDƏN SONRA

Qeyd dəftərçəmi vərəqləyirəm. Çaykənd ətrafında həlak olanların siyahısında ən axırıncı Xanlar nəqliyyat müəssisəsinin sürücüsü Aidın Hacıyevin adı yazılıb. Aydın 55-ci və yəqin ki, sonuncu qurbandır.

…Hələ keçən ilin sentyabrında Çaykəndin yaxınlığındakı Qarabulaq (Martunaşen) kəndinin sakinləri barədə rayon icraiyyə komitəsinə müraciət etmişdilər.Lakin Çaykənd quldurları ermənilərin köçməsinə hər vasitə ilə mane olurdular.Buna baxmayaraq rayon icraiyyə komitəsinin evləri alqı-satqı komissiyası və milis işçiləri noyabrın 30-da həmin kəndəyollandılar və pusqudan atəşə tutuldular.Milis kapitanı Məmmədli Əhmədov,leytenant Sənan Ağayev,serjantlar Rafiq Məmmədov,Sərhəddin Əliyev və Şərif Məmmədov qəhrəmancasına həlak oldular.

Dəfn günü anaların göyə yüksələn ah-naləsi, körpələrin məhzun cöhrələri, yas yerinə gələnlərin qəzəbli baxışları heç vaxt yadımdan çıxmayacaq.**Eyni tükürpədən mənzərəni Gürzalı Musayev dəfn ediləndə görmüşdüm**. Əslən Ermənistanın Basarkeçər rayonundan olan Gürzalı kişi üç kəndi—Quşçu-Armavir, Sarısu, və Qarabulaq kəndlərini birləşdirən

Vaqif adına sovxozun direktoru idi. Qısa vaxt ərzində ermənilər ona dörd dəfə sui qəsd etmişdilər,hədələmişdilər.Buna baxmayaraq heç nədən çəkinmədən kəndləri gəzib dolaşırdı.

Hər halda quldurlar öz işlərini gördülər. Səhər tezdən xidməti maşınında işə gedən sədri də , onun sürücüsünü də amansızcasına qətlə yetirdilər.

Bəli, Çaykənd bizə 55 nəfər azərbaycanlının qanı bahasına başa gəldi. Sonuncu qurban Aydın Hacıyevin üç və dörd yaşlı iki körpəsi yetim qaldı. Aydın vaxtilə Xanlar—Çaykənd marşrutunda sürücü işləmişdi,yolları yaxşı tanıyırdı.Odur ki,əsgərlərə bələdçilik etməyi çəkinmədən boynuna götğrmüşdü. Kəndə girən kimi tələyə düşmüşdülər.Əsgərlər girov götürülmüş , Aydın Hacıyev isə amansız vəhşiliklə öldürülmüşdü.Cəmi 31yaşı var idi Aydının. Torpaq,Vətən qeyrəti çəkən oğul olmasaydı bələdçilik etməyə razılıq verərdimi?

Heç yadımdan çıxmır.Beş-altı ay əvvəl Xanlar rayon daxili işlər şöbəsinin rəisi İlyas Məmmədovun otagında idim. 28-30 yaşlarında bir milis zabitini çağırıb Çaykəndə yaxın kəndlərdən birinə getməyi tapşırdı.Cavan oğlan haldan-hala düşdü ,açıqca bildirdi ki,»balalarım var ,məni hara göndərirsiniz ?....» Bu söhbəti xatırladıqca Aydın kimilər nəzərimdə daha da müqəddəsləşir.

Yox, qətiyyən milis işçilərinin əməyini yerə vurmaq istəmirəm. Əksinə, Çaykəndin pasport rejimi yoxlanarkən ,hər cür silahlarla təchiz olunmuş quldurlarla üz-üzə gələrkən xüsusi təyinatlı milis dəstələri əsl şücaət göstərdilər. Mənə belə gəlir ki, bu cəsur oğlanlar haqqında mətbuatda daha geniş söhbət açmalı,onları xalqa tanıtmalıyıq.Rayon daxili işlər şöbəsinin qəhrəmancasına həlak olan milis işçilərinin xatirəsi də layiqincə əbədiləşdirilməlidir.

## «GETAŞEN » KÖÇDÜ, ÇAYKƏND QALDI

Gəncəni «Qanzax»,Qarabağı «Artcax» adlandıran ermənilər Çaykəndə «Getaşen» deyirdilər. « Böyük Ermənistan « adlı mifik xəritədə «Getaşen» adlı kəndə həsrətlı baxanlar unutmuşdular ki, keçən əsrin 20-ci illərində İrandan, Suriyadan, Türkiyədən Çar Rusiyasının köməyi ilə bu yerlərə köçürülmüş ermənilər əslində qonaqdırlar. Amma özlərini elə aparırdılar ki, «Yersiz gəldi,yerli qaç» atalar məsəli də yalan olmuşdu…

Gəncədə ağsaqqal bir kişi ilə Çaykənd hadisələri barədə söhbət edirdim. Dedi ki,30—40 il əvvəl Göygölün yolu Çaykəndin içərisindən keçirdi. Anadan əmdiyimiz südü burnumuzdan gətirirdilər.Maşınları daşa basır,cavanlara sataşır, dava-dalaş salırdılar.Doğrusu,adamı heyrət bürüyür qonaq olasan,özünü belə həyasız aparsan?!

Axır ki,Çaykənd sakinləri özləri köçmək haqqında məsələ qaldırdılar.Bu yerlərdə yuva salmış erməni yaraqlıları onlara da göz verib işıq vermir, köçüb getmək istəyənin başının üstünü alırdılar. Hələ iki il əvvəl həyat yoldaşı vəfat etmiş bir erməni qadın iki uşağı ilə xəlvətcə Krasnodara köçüb qetmişdi. Yaraqlılar bundan xəbər tutub səhərisi qadının Krosnadardakı evinin külünü göyə sovurmuş və bu xəbəri özləri Çaykəndə yaymışdılar.

Çox şey pasport rejimi yoxlanarkən üzə çıxdı. SSRİ Prezidentinin məlum fərmanının həyata keçirilməsi erməni yaraqlılarının əl-qolunu bağladı.Onların bir çoxu həbs edildi,bəziləri qaçıb gizləndi.Yalnız bundan sonra köçürülmə əməliyyatına başlandı.Ermənistandan qarlı şaxtalı günlərdə pay-piyada qovulan azərbaycanlılardan fərqli olaraq Çaykənd erməniləri vertolyotla lazımi yerlərə çatdırıldı, evlərinin, mülklərini haqqı büsbütün ödənildi.

Çaykənd quldurların sərbəst hərəkət etməsi üçün əlverişli nöqtə idi. Dərədə yerləşən bu kəndin bircə yolu var. Qalan yerlər dağ-daş və meşə ilə əhatə olunub. Kəndə girmək qeyri-mümkün idi. Quldurlar bundan istifadə edib Çaykəndi əslində hərbi bazaya çevirmişdilər. Bu baza Şaumyan rayonunu və Dağlıq Qarabağı lazımi hərbi sursatla təmin edirdi. Cəmi 2 min sakini olan Çaykənddən erməni yaraqlıları elə buna görə ikiəlli yapışmışdılar. Sakinlər köçdükdən sonra hərbçilərin neçə-neçə minanı zərərsizləşdirməsi, «yer-yer» raketlərinin istehsalı üçün qurğuların üzə çıxarılması, güclü radiostansiyaların tapılması və digər faktlar dediklərimizə sübutdur.

## SOVXOZ TALAN OLUNDU

Musaelyan adına sovxozla rayonun əlaqəsi 1989-cu ilin dekabrından təmamilə kəsilmişdi. Sovxozda nə əkildiyindən, nə biçildiyindən heç kimin xəbəri yox idi. Məhsullar qonşu Şaumyan rayonuna,Yerevana, Stepanakertə daşınırdı.Hətta meşələrdə bitən giləmeyvənin, zoğalı da yığıb Ermənitana aparırdılar.

….Mayın 5-də sovxozda dövlət əmlakının saxlanması vəziyyəti yoxlanılarkən məlum oldu ki, təsərrüfata məxsus malqara və donuzlar büsbütün talan edilib.1989-cu ilin dekabrından burada 859 baş qaramal o cümlədən 268 baş inək vardı. Mövcud mal – qaranın dövlət alış qiyməti 1 milyon manatdan çox idi.Əlaqənin kəsildiyi vaxtdan,yəni 1989-cu ilin dekabrından bəri 483 buzov əldə edilməliydi.Beləliklə, yoxlama gününədək burada 1304 baş mal-qara olmalı idi.Həmin müddətdə 919 ton və ya 632 min manat dəyərində südün mənimsənildiyi də nəzərə alınsa, ziyanın böyüklüyü aydın görünür.Sovxoza təkcə bir sahədə—heyvandarlıqda 2 milyon 377 min manatlıq zərər vurulmuşdur.

Ötən dövr ərzində çaykənlilər 660 ton kartofu,588 ton tərəvəzi,70 ton meyvəni, təxminən 1 milyon 746 min manatlıq məhsulu da yeyib üstündən su içmişlər.

Kənd təsərrüfatı texnikası tamamilə yararsız hala salınmışdır. Kartof anbarı, mal tövləsi,aptek və digər binalar, qurğular, dağıdılmışdır. Bütövlükdə dövlətə 4 milyon 712 min manatlıq ziyan vurulmuşdur…..

## ZÜLMƏT GECƏNİN SƏHƏRİ

Çaykəndin boşalmış evlərinə öz doğma yurdlarından didərgin salınmış ailələr yerləşdirilir.

Baş nazirinin birinci müavini Feyruz Mustafayevin rəhbərlik etdiyi komissiya bu günlər köçkünlərin yerbəyer olunması ilə məşğuldur. Artıq kəndə 400-ə qədər ailə köçrülmüşdür. Sıxıntı çəkmiş,olmazın əzab əziyyət görmüş qaçqınların əli indi –indi işə yovuşur,həyət –bacalardan uşaq səsləri eşidilir.Qonşu Azad ,Kamo kəndlərinin sakinləri Çaykəndə tez-tez gəlir, köçkünlərə yardım edirlər.

Görüləsi işlər çoxdur. Talan edilmiş təsərrüfat, yandırılmış ,dagıdılmış evlər bərpa olunmalıdır.yeni sexlər ,təsərrüfat sahələri yaradılmalı,iş yerləri açılmalıdır.

Çaykənd ikinci həyatını yaşayır.Hər gün günəş Kəpəzin ətəklərini nura boyayanda ,bu dağ kəndinin üzərinə işıq saçanda dodaqlardan qeyri ixtiyari bu kəlmələr qopur: Sabahın xeyir,dogma kəndim!...

**HAMLET QASIMOV,**
**« Kommunist »in müxbiri .**
ÇAYKƏND
« KOMMUNİST » qəzeti
6 iyun 1991-ci il № 107

# Чајкәнд. АҒ БАЈРАГ...

ЧАЈКӘНД. АҒ БАЈРАГ... Бу бајраг бизә 1905-чи илдән танышдыр. Дөрд илдән бәри «мәнәм, мәнәм» дејән Чајкәндин үзәриндә инди тәслим олмаг рәмзи кими аг бајраг далғаланыр.







РАЗЫЛЫГ... Бу ермәни гадынын үрәји долудур. О Азәрбајҹандан, азәрбајҹанлылардан һеч бир пислик көрмәјиб. Инди көч едәркән үрәјини бошалтмаг үчүн Азәрбајҹан Республикасы Дахили Ишләр Назирлијинин ишчиләринә јахынлашыб дејир ки, сөзүму «ВРЕМЈА»ја чатдырын: — Биз, Азәрбајҹан халгындан һеч бир пислик көрмәмишик. Бизи евдән, обадан Јеревандан кәлән јараглылар етди!..







Бу үч дост БТР-дә јараланыб, госпиталдан тәзә



нсә Москвада һәлә дә мүалиҹәдәдир.



ЗИРЕҺ ДӨЗМӘЈӘН ЈЕРДӘ... Дөрдүнҹү илдир ки, ганунсуз олараг Ермәнистандан кәлән бу силаһлар чох фаҹиәләр төрәдиб. Инди сәрһәд рајонларымызда е'тибарлы зиреһ сајдығымыз БТР-ләри, вертолјотлары да бу силаһлар мәһв етмәјә гадирдир.



Бу һәрбчи нә вертолјотун пилоту иди. Хошбәхтликдән сағ галыб.





АРАГАРЫШДЫРАНЛАР. Индә бунлар мәлумлашыблар. Тутулмамышдан әввәл сәрһәдләримиздә јыртыҹылыг едәнләр дејилләр елә бил. Инди «биз гардашыг» дејирләр. Өзләрини милис ишчиләри кими гәләмә верән бу адамлар прокурорлуг органларына нијә милис формасы кејдикләрини, е'замијјә вәрәгәләрини алмамалары һагда мә'лумат верә билмирләр. Дејирләр ки, сәрһәддә ермәни јарагһыларыны тутмаға кәлмишик.

ЧАЈКӘНД. Азәрбајҹан Мүлки Авиасија Идарәсинин вертолјотлары көчәнләрә хидмәт көстәрир. 1988-ҹи илдә дә он минләрлә сојдашымыз Ермәнистандан көчмүшдү. Анҹаг бу көч о көчә бәнзәмирди. Онда баһар фәсли дә дејилди. Декабр иди. Нә милис, нә дә һәрбчиләр көмәјә чата билмишди. Аеропортлада хүсуси рејсләр дә тәшкил едилмәмишди. Баҹыларымызы, гардашларымызы, ағбирчәкләримизи, ағсаггалларымызы, көрпәләримизи гарлы-боранлы күнләр, учурумлу дағ јоллары көзләјирди.



Сәһифәни Азәрбајҹан Республикасы ДИН Мәтбуат Мәркәзинин баш инспектору, милис капитаны Һикмәт ҸӘМИЛЗАДӘ һазырлајыб.







Дүшмән дә олсаг инсанлығы унутмуруг. Бу ики нәфәр индәнсә өзүнү «јахшы һисс етмир». Көрүнүр, Азәрбајҹанын һавасы «дүшмүр» онлара. Анҹаг Азәрбајҹанлы һәкимләр бу чинкәллик гәһрәманларына да тибби јардым көстәрирләр.

## ÇAYKƏNDLİLƏR SİLAH TƏLƏB EDİRLƏR

Kəmaləddin Əliyevə torpaq sahəsi verilməməsi barədə onun redaksiyamıza müraciətilə bağlı Çaykəndə getmişdim. Kəndə çatarçatmaz bir oğlan məni Azərbaycan televiziyasının müxbüri hesab edərək, çox kobudcasına: Ayə Çaykənddə qaz xətti istifadəyə verilib ki yalandan televiziyada göstərirsiniz ? Gəl gedək göstər görüm hansı evdə qaz yanır? Dedi və dalınca televiziyanı yamanladı.

Köçürülmə vaxtı kəndə axın olduğundan torpaq sahəsi olmayan yararsız evlərə də ailələr köçürülüb. Həm də kənd qayalıq yerdə yerləşdiyindən 270 evin həyətyanı sahəsi yoxdur . Lakin kənddən aralı 400dən çox çəpərlənmiş bağ sahəsi var . Kənd sovetində bildirdilər ki, bu bağ sahələri torpağı olmayan ailələrə vəriləcək . Həyətyanı torpaq sahəsi olmayan ailələrin çoxunun fikri isə başqadır : Onlar ÇAYKƏNDDƏ kimlərəsə «bağ» evi kimi verilmiş evlərlə maraqlanırlar . Əgər bu «bağ» evlərini «qışlağı»olan « qaç qınlara « veribsə niyə «ŞUŞA « sanatoriyasına , Goranboy internatına və başqa yerlərə sığınmış başqqa qaçqınlara həmin qaygını göstərmir ? Deməli ,bağ evləri qaçqınlara deyil başqalarına verilib.Çaykənddki qaçqınların problemləri çoxdur. MUHARİBƏDƏN çıxmış kəndin yaraları sağalmayıb , qış qapının ağzını kəsib . Yanacaq yoxdur , qaz çəkilməyib. Kənddəki təmir briqadalarının işi ləng gedir . Sosial qayğıların burulğanından əhalinin çıxa bilmədiyi bir vaxtda kəndin yenidən işğalı üçün təhlükə yaranıb . KƏNDİN TƏHLÜKƏSİZLİYİNİ TƏMİNİ milisin və yerli sakinlərin üzərinə düşür . Kənd sovetinin sədri İmamət Kərimovun dediyinə görə könüllülər qrupu yaradılıb . Bütün məhəllələrdə gecə növbətçiliyi təşkil edilib . Milislər avtomatlarla silahlanıb , könüllülərin isə heçbir silahı yoxdur . Bu isə top və raketlərlə silahlanmış , erməni qüvvələrinin qarşısında heç nədir.

Azərbaycan hökumətinin onları axıracan qoruyacağına , kənd camaatının ümidi çox azdır . Görüşdüyüm sakinlərin fikri belə oldu ki , hökuməti xalq yox, «siyasət» oyunu maraqlandırır . Ona görə də əhali özunu müdafiə etmək üçün onlara silah verilməsini tələb edir .

T. FƏRHADOĞLU
ÇAYKƏND—BAKI

*«AZADLIQ» QƏZETİ*
*1 OKTYABR 1991-Cİ İL № 44*

## MÜHARİBƏ DAVAM EDİR
## *ÇAYKƏNDLİLƏR.*

Çaykənd alınan kimi Gəncənin və ətraf rayonların bəzi imkanlı adamları gözə dəyən evləri ələ keçirib . Kəndə köçürülən didərginlər isə talanmış qapı pəncərələri sökülmüş evlərdə yerləşdirildiyindən gecələr başlayıblar qapısı qıfıllı evləri sökməyə . Söküb öz əyər əskiklərini düzəldirlər hələ üstəlik bəziləri alver də edirlər .

Beləcə, gözəl gözəl evlər xarabalığa çevrilib.Çaykəndin bərpası üçün Nazirlər Kabinetinin ayırdığı 2 milyon manat puldan yalnız 70 min nanatlıq iş görülüb . Əslində bu gün Çaykəndi

qorumaq qabiliyyətimiz yoxdursa heç bərpa eləməyinə də dəyməz . Ona görə ki, indi Çaykənd üçündə təhlükə artıb . Ermənilər heç cürə bü kəndin itirilməsi ilə razılaşa bilmirlər . Qolan dağında mövqeyin ələ keçirilməsi , Sarısuya hücumlar bunu subut ed ir . Camaat qorxuya düşüb , evlərindən köçməyə başlayıb . İtirilən kəndlər, şəhərlər rəhbərliyin müdafiə qabiliyyətinin olmaması , adamların inamını qırıb . «Bilsəydim Mütəllibovu qaytaracaqlar Milli Orduya yazılmazdım « -deyən çaykəndli Qədiri də başa düşmək olar . Nizami Alıyevin cavanları bir yerə yığıb vzvod yaratmaq istəyini də . Camaatın allah Mütəllibovun da canını sağ eləsin Xalq Cəbhəsini də biz öz işimizdə olmalı torpağımızı qorumalıyıq « -- deməsi də vəziyyətə realıqdan yanaşmağın məntiqi nəticəsidir. ÇAYKƏNDLİLƏRİN ümidi Sarısu mudafiəçilərinədir. Elə bu ümidlə də onlara qoşulublar.

## ***QOLAN DAĞI.***

Hər iki tərəf üçün əhəmiyyətli olan bu dağda ermənilərin quvvələrinin zəif olduğunu bilən Xanlar ərazi mudafiə batalyonun əskərləri aprelin 28 də hücum edib, düşmən postunu ələ keçiribllər .Burada iki top «Nurs» raket qurğusu , iki hərbi texnika , xeyli sursat yerləşdiriblər. Əlavə olaraq Bakı Dövlət Univerisiteti tələbələrindən təşkil ounmuş desantçıları da bura gətiriblər .

**Umudvar Kəlbiyev (BDU filalogiya fakultəsi) :** Aprelin 28- də bizi bura gətirdilər. Mayın 2 –də səhərə yaxın təxminən saat beşin yarısında düşmənlər böyük quvvə və texnika ilə hucuma keçdilər . Həmin gün möhkəm duman idi . Quvvələr nisbəti ermənilərin xeyrinə olmasına baxmayaraq qeyri bərabər döyuşə atıldıq . Təxminən 4 saata qədər döyüşdük .Duşmən 70-ə yaxın canlı quvvə, bir zirehli maşın , bir zirehli tranpartiyor itirdi . Briqada komandri polkovnik Sadıqovun başçılığı ilə köməyə gələn quvvvələr əvvəlcə Todan kəndindən keçib gəlməyə cəhd göstəriblər . Mənəş və Erkec kəndləri ermənilərin əlində oduğundan bu yol ilə Qolan dağına gəlmək mumkin deyildi . Onlar bunu bilməli idi . Todandan geri qayıdıb , Dozular kəndinə gəlmək xeyliu vaxt aparıb .
Dəstə Dozulara çatanda isə artıq mövqelər əldən getmişdi . Bizdən 4nəfər həlak olmuş , 8nəfər yaralanmışdı.Xanlar batalyonudan Ərşad Məmmədov sursat gətirəndə qumbaraatanla vurdular . Qoçaq oğlan idi . Heç uşaqların meyidini də götürə bilmədik . Düşmənlər meyidləri bir maşın benzinə dəyişməyə təklif etdilər . Amma Ərşadla bir batalyonda xidmət edən qardaşı Zülfü Məmmədov bu təklifi rədd elədi;

***SADAY Məmmədov : (AXC üzvü Xanlar Ərazi Mudafiə Batalyonu)*** Orduda təxribatlar davam edir .Ordu sıralarına soxulmuş imperiya nökərləri hər vasitə ilə işə mane olur , xəyanət edirlər. Elə Qolan dağı da xəyanət nəticəsində əldən verildi. Bizdə məlumat var idi aprelin 30 da --Çaykəndin alınmasının bir ilinin tamamında Çaykənd yenidən düşmənə verilməli idi.QOLAN dağına hucum da bununla bağlı idi .Əskərlərimiz igidliklə vuruşdular .Bakı Dövlət Univerisiteti tələbələrinin döyüş şücaətini xususilə qeyd etmək istəyirəm.Onlar yüksək döyüş hazırlığı keçdiklərini Qolan dağında sübut elədilər. Əlavə qüvvə gəlsə idi bu cəsur uşaqların hesabına mövqeyi qorumaq mumkun idi . Həmişəki kimi köməyə gələnlər «gecikdilər» . Əskərlərimiz növbəti xəyanətin qurbanı oldu . İndiki mövqeyimiz də yaxşıdır . Camaatı da sag olsun qayğımıza qalırlar. Bu qayğını Almaz Verdiyeva , Sona Hüseynova , Fatma Əskərova, Qədir Sadıqov öz üzərinə götürüb .

***Camal Zeynalov (Batalyon komandirinin nüavini)*** . Qolan dağı xəyanət nəticəsində itirildi . İki top, iki hərbi texnika ,«Nurs» tipli raket , iki maşın (ZİL və Ural) , xeyli sursat düşmən əlinə keçdi .İndi əsas məsələ Sarısu kəndini qorumaqdır.Bu kəndin alınması Gəncənin itirilməsi deməkdir . Dəfələrlə müraciət etməyimizə baxmayaraq bizə əməli kömək edən yoxdur.Şahin Musayevə də xəbər vermişik. Texnika çatışmır.Elə bil texnikanın paylanmasında da düşmən əli var.Belə getsə kəndi qorumaq mumkun olmayacaq. Adamı yandıran odur ki, əskərlərimizin hamısı kasıb ailələrin

uşaqlarıdır , qeyrətli oğlanlardır . Bir dənə vəzifəli adamın uşağı yoxdur burda.Vallah belə muharibə omaz, Vətəndirsə bu hamımızın vətənidir ! Bizə bir şey də aydındır : Nə qədər ki xalqın rəhbəri xalqın istədiyi adam deyil , biz o qədər uduzacağıq . Ama inanırıq, inanırıq ki , hər şey yaxşı olacaq.Ermənilərin əsas qüvvəsi Başkənddə və Erməni Borisində yerləşir.Təkcə çalışın bizə texnika versinlər . Texnikamız olsa Şaumyan nədir , lap Xankəndinə gedib çıxarıq .

## *MARQUŞAVAN DÖYÜŞÜ.*

Mayın 11-də Tərtərdə yerləşən müdafiə dəstələri Marquşavana hücu m ediblər. Vahid komandanlığın olmaması və dəstələrin arasında əlaqələrin zəifliyi üzündən coxlu itki verilib . Döyüşdə BDU tələbələrindən təşkil olunmuş vzvod da iştirak edib .

*Elçin SƏFƏRLİ (BDU jurnalisika fakultəsi)* Biz Tərtərə çatanda saat 12-yə qalırdı . Mühasirəyə düşən Mingəçevir uşaqlarını xilas etmək üçün çatan kimi döyüşə girdik . Bizimlə döyüşə girənlərin bəziləri düşmənin ilk həmləsindən qorxub geri çəkildilər . Amma güllə yağışı altında soyğunçuluq edənlər də var idi . Beləcə kiçik bir dəstə ilə düşmən qabağında qaldıq . Qüvvələrin az oldugunu hiss edən ermənilər yavaş -yavaş bizi mühasirəyə almaga başladı . Geri çəkilməyə məcbur olduq .Yaxşı ki ,Mingəçevir uşaqları da mühasirədən çıxa bilmişdilər . Komandirimiz Rövşən Hüseynovu (fizika fakultəsi 5-ci kurs tələbəsi) snayperlə vurdular . Mayın 15-də diplom müdafiəsi idi .TARİX FAKULTƏSİNİN1-Cİ KURS tələbəsi Fərhad Quliyev də döyüşdə həlak oldu . Jurnalistika fakultəsindən Arif Abbas (Babayev), filologiya fakultəsindən Xudaverən Rəhimov ağır yaralandılar . Güllə Arifin alnından dəyib sol gözünün yanından çıxmışdı . O, ayagından da yaralanmışdı . Tamamilə qan i.ində olan Arif sürünə- sürünə öz mövqelərimizə çəkilə bildi . İndi Gəncə qospitalında müalicə olunur . Döyüş meydanında Milli Qurtuluşdan 10 , Mingəçevir rotasından 2 və bizim vzvoddan 2 nəfərin meyidi qaldı . İki nəfər itkin düşdü . Yaralılardan biri əsir düşməmək üçün qranatla özünü öldürdü . Vahid komandanlığın olmaması (əslində var amma komandirin əmrlərini yerinə yetirən yoxdur , bəzi batalyonlarda isə komandir olmaq üstündə əsl mübarizə gedir ) üzündən itkilər verdik. İndi hər tərəf yaşıldır . Döyüşən əskərlərin forması isə sarıdır. Bu da snayperi uzaqdan çağırır. Gələn formalar komandirlər arasında bölünür . Fikir versəniz görərsiniz ki, şəhərdə gəzənlərin əksəriyyəti də bu formada olur . Elə soygunçuluq edənlər də bu paltardan geyinirlər . Ordu rəhbərləri hara baxır, niyə bu pozuntulara intizamsızlığa son qoymurlar bilmirəm. Müharibə davam edir . Bakıdakı qarışıqlığı ürəkağrısı ilə izləyən əskərlər sayıqlığı daha da artırıblar . Eyni zamanda kömək gözləyirlər .Gəncədən, Şəkidən ,Bakıdan , bütün AZƏRBANDAN !

*Rövşən Hacıyev*
*Çaykənd – Sarısu - Bakı*
*«AZADLIQ» qəzeti*
*20 may 1992-ci il*

# TƏHLÜKƏ SOVUŞMAYIB

Alınmaz qalaya çevrilən Sarısu kəndi kitablarda oxuduğumuz ,kinolarda gördüyümüz barıt qoxulu səngərləri,dağıdıcı müharibə səhnələrini xatırladır. Kənddən xeyli vaxtdır ki, güllə, atışma səsləri kəsilmir.Adamların təlaş, həyəcan hissi bir- birinə qarışıb.Günahkar ermənilərdir.Bizə yersiz torpaq,ərazi iddiaları irəli sürən,ağa qara deyən,böhtan və riyakarlıqla məşğul olmağı bacaran ermənilər. Kənddən 4-5 kilometr aralı məsafədə yerləşən göylərə baş çəkən «Böyük və Bala Canbaz» dağı deyilən ərazidə mövqelərini möhkəmləndirən erməni quldurları ,erməni milli ordusunun üzvləri kənd camaatına dinclik vermir,onların şirin yuxusuna haram qatırlar.

Erməni quldurları kəndi demək olar ki,hər gün müxtəlif növ dağıdıcı silahlardan vəhşicəsinə atəşə tutur, onun dinc sakinlərini dogma ocaqlarından didərgin salmağa çalışırlar. Erməni yaraqlılarının növbəti hücumlarından biri 1992-ci ilin yanvarın 1-də olmuşdur.

Taqım komandiri (vzvod) Fizuli Rzaquliyevin dediklərindən :

-- Yanvar ayının 1-də səhər tezdən ermənilər yaşayan Buzluq kəndindən ,daha doğrusu «Baş Canbaz» , «Bala Canbaz» və «Çəpərqaya» deyilən ərazilərdən ermənilər dinc müdafiədə dayanmış əskər və Xanlar DİŞinin hüqüq mühafiə əməkdaşları üzərünə şiddətli atəşlə hücuma kecdilər. Düşmən xeyli irəliləmiş və daha da həyasızlaşmışdı.Təcili qüvvələri səfərbər edib cavab atəşi açmağa məcbur olduq. Erməni quldurları güclü müqavimət göstərirdilər. Güllə ehtiyatımız tükənirdi. Buna görə geri çəkilməyə məcbur olduq. Bu vaxt arxadan kənd camaatı və Xanlar ərazi müdafiə batalyonundan əlavə quvvələr köməyimizə çatdılar.Atəş kəsilmək bilmirdi. Güllə üstümüzə dolu kimi yasğırdı.Belə bir çətin məqamdqa əskərlərdən milli ordunun üzvü, starşina Sədrəddin Əsədov yoldaşları ilə birlikdə böyük hünər göstərdi. İrəli gedərək quldurların sığındığı yerə qumbara atdılar. Ermənilər özlərini itirərək qaçmağa üz qoydular.Əskərlərimizdən Adil Novruzov ,Şəmsəddin Əbdülrəhmanov, Əbülfəz Sadıqov,Oqtay Bağırov , Ədalət Mustafayev, Elxan Maçayev, Tellar Cuvarov və başqaları öz vəzifə borcunu ləyaqətlə yerinə yetirdilər. Erməni yaraqlıları geri oturuldular. Bir neçəsi isə məhv edildi. Ancaq bizdən də yaralananlar oldu.

«Çəpərqaya» deyilən yerdən bir az aralıda yerləşən fermada gizlənən erməni quldurlarının snayper və pulemyotlardan namərdcəsinə atdığı güllələrdən biri hamımızın sevimlisi Dilqəm Nəcəf oğlu Verdiyevi sıralarımızdan apardı. Biz buna ürəkdən kədərləndik.Onun əziz xatirəsini heç vaxt unutmayacağıq. Əskərlərdən Teyyub İlyas oğlu İsmayılov, Sabir İsmayıl oğlu İsmayılov və Bayram Həsənov yaralandılar. Hazırda onlar Gəncə şəhər 3 № li xəstəxanada müalicə olunurlar.

Kəndin müdafiəsində xüsusü təyinatlı milis dəstəsinin üzvlərindən Aqil Atakişiyev,Rəhman İbrahimov,Mübariz Heydarov,Xanlar rayon DİŞ-nin əməkdaşları Faiq Verdiyev,Cahangir Rzayev də cəsarət və qoçaqlıq göstərmişlər. Sarısu kənd sakinlərindən isə Kamal Məhərrəm oğlu Hüseynov, Yasin Əli oğlu Mustafayev,Eldar Verdiyevin şücaət və vətənpərvərliyi danılmazdır.Kənd camaatından cox razıyıq. Bizim aramızda qarşılıqlı anlaıma , hörmət və sıx ünsiyyət var .

Sarısulular qonaqpərvər və yudsevəndirlər. Səmimiyyətlə deyirəm ,hər birimiz canımızı Diqəm kimi Vətən yolunda qoymağa hazırıq. Biz buna and içmişik.

Sarısu kəndi üçün təhlükə sovuşmayıb. Səlahiyyətli yoldaşlarla söhbətdən məlum olur ki, Buzluq kəndinə vertalyotlarla yenə əlavə quvvələr daşınır. Düşmən öz mövqeyini

möhkəmlətməyə çalışır. Yenidən hücuma keçmək üçün fürsət gözləyir. Belə bir vəziyyətdə kəndə təcili qüvvələr ,döyüş sursatı göndərmək üçün tədbirlər görmək lazımdır. Vaxt itirmədən çox çətinliklə ,itki bahasına ermənilərin məhv edilmiş atəş nöqtələrində etibarlı müdafiə istehkamları yaradılmalı, əskər və milislərin mənzil,məişət şəraiti yaxşılaıdırılmalıdır. Təəssüflə deməliyəm ki, hələ də kənddə təcili tibb maşını yoxdur.Şübhəsiz acınacaqlı haldır. Bakı ilə rabitə əlaqəsinin olmaması da təəssüf doğurmaya bilməz. Hər an düşmənin hücumuna məruz qala bilən ərazi üçün bunun nə demək olduğu hamıya yaxşı məlumdur.

Bəli,real şərait hər an ayıq-sayıq olmağı ,müdafiə üçün hər cür tədbirlər görməyi zəruri edir.Bizim heç kimin torpağında gözümüz yoxdur.Qəsbkar,işğalçı da deyilik.Biz ancaq torpaqlarımızın bütövlüyünü ,haqqımızı müdafiə edirik.Bu işdə hər cür səhlənkarlıq ,biganəlik,cəsarətsizlik bağışlanılmaz və yolverilməzdir.

Bu yazını hazırlayarkən eşitdik ki, ermənilər Sarısuya yenə də hücum ediblər.Bu barədə məlumat əldə etmək üçün Xanlar rayon daxili işlər şöbəsinin rəisi ,milis podpolkovniki İlyas Məmmədovun yanında olduq. İşinin gərgin olmasına baxmayaraq bizə məlumat verdi.O,ürək ağrısı ilə qeyd etdi ki,bu gün Sarısuda Vətənin torpağının, ana-bacımızın təəssübünü çəkən qeyrətli oğlanlarımız cəmləşmiıdir.Döyüşçülər əsasən milli müdafiə batalyonunda toplaşan xanlarlılardır.Ancaq təəssüflər olsun ki, qonşu rayonlardan bu batalyona qoıulmaq üçün gələn gənclərin sayı azdır. Meydanlarda Vətən,namus,qeyrət qışqırmaqla torpağı qorumaq olmaz .konkret işə keçmək,ələ silah götürüb Vətənin müdafiəsinə qalxmaq lazımdır. Bizim belə ləngliyimizin nəticəsidir ki, yanvarın 5-dən 6-na kəçən gecə Sarısu kəndi ətrafında vəziyyət daha da mürəkkəbləşmişdir. Müdafiə batalyonundan bir nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır.Ermənilərin kəndə girməsinin qarşısını almaq məqsədi ilə bütün qüvvələri səfərbər edib ermənilərin üzərinə göndərmişik.Hazırda Sarısudakı vəziyyətə Xanlar rayon İcra Hakimiyyətinin başçısı M.M.Aşurovun rəhbərlik etdiyi şura nəzarət edir.Hər gün axşam şura qərar gaha toplaşıb vəziyyəti təhlil edir.Söz yox ki, qələbə bizimlə olmalıdır.

**Kamal Bəşiroğlu**

*« GÖY GÖL » qəzeti*
*8 yanvar 1992-ci il №3*

## Ç AYKƏNDİN QAYĞILARI
## *və* yaxud 4 il davam edən köç

Təbiətin dilbər güşəsində yerləşən Çaykənd son illər Azərbacan xalqına qarşı yönəldilən təcavüz mərkəzlərindən birinə çevrilmişdi. Erməni quldurları stateji cəhətdən son dərəcə əlverişli mövqedə yerləşən bu kənddə yuva qurmuşdular. Müntəzəm surətdə buradan ətraf kəndlərə edilən basqınlar, dinc azərbaycanlılara

tutulan divanlar nəhayət , səbr kasasını doldurdu . Çörəyimizi yeyib , özümüzə qənim kəsilən yagılardan Çaykəndi təmizləmək əsil zərurətə çevridi .

Maraqlıdır ki, silahı və təcavüzkarlıq planlarını Yerevandan alan təcrübəli quldurlar tərkisilah edilən kimi , kəndin yerli sakinləri köçmək arzusunda olduqlarını bildirdilər .Sən demə , onlar da həmmillətləri olan yaraqlı -yasaqlı quldurların , qatı millətçilərin əlindən zinhara gəliblərmiş .Amma «başbilənləri» və «millət ataları» ermənilərin heç vəchlə Çaykənddən köçmələrinə razı olmur ,buna imkan vermirdilər.Nəhayət , tarix sözünü dedi .Vaxtilə rus imperiyasının əliilə bura köçürümüş ermənilər , Çaykəndi tərk etdilər Boşalmış kəndə Ermənistandan gələn azərbaycanlı qaçqınlaryerləşdirildi.Sevindik ki,torpagımızın daha bir parçası özümuzünküləşdi.Lakin sevicimiz uzun sürmədi, 3-4 ay keçməmiş Bakıda Çaykənddən eləcə də digər kəndlərdən qayıdan qaçqınlarla rastlaşdıq.Ürəyimiz ağrıdı.Yurdun taleyi , 4 ildən bəri ev- eşiyindən didərgin düşmüş xaqın taleyi bizi sarsıtdı.

Bu gün respublikamız müstəqilliyə doğru addım-addım irəliləyir. Belə bir vaxtda .hər kəndin, hər qarış torpağın qədir qiymətini bilməsək , qələbəyə dogru yolumuz çox uzanacaq ,hər insan taleyinə qaygı ilə yanaşmasaq ,əhalinin təhlükəsizliyini və əmək məşğuliyyətini təmin etməsək , problemlərimiz daha da artacaq.Konkret Çaykəndə gəldikdə isə onun dərdi unudulmaq dərdidir.Kəndi quldurlardan təmizləməklə vəzifəsin bitmiş hesab edən yuxarı təşkilatlar , rəhbər işçilər ötən aylar ərzində bir dəfə belə Çaykəndə üz tutmayıb, yeni sakinlərin ehtiyac və qayğıları ilə maraqlanmayıblar. Görüşdüyümüz qocalar, cavanlar **Xanlar** rayonun keçmiş rəhbərliyinin ünvanına bolluca şikayət yağdırdılar. Bakıdan jurnalist gəldiyini eşidən Çaykənd əhli başımıza toplaşdı. Cavabları müşkül olan sullara hədəf olsam da ,kənddən hamının qaçıb getdiyinə dair eşitdiyim şaiyələrin yalan çıxmağına sevindim.

Söhbət zamanı Gəncə su mühafizə vzvodunu starşinası Məhərrəm Nəsirov dedi ki, may ayından burdayam .Biz Agsuya nəzarət edir, kəndin mühafizəsini gözləyirik. Çaykəndə erməni girməyib. Lakin Sarısuda, Todanda tez –tez atışma baş verir. Buzluq və Manaşiddə ermənilər tərəfdən gülləboran başlanır,camaat atəş səslərindən qorxuya düşür. Bir çoxları uşaqlarını aparıb ətraf rayonlarda yaşayan qohumlarının yanına qoyub. Məktəblərimizdə şagirdlər seyrəlib.

Kəndin girəcəyində rastlaşdığımız Ənvər Abdulla qızı Babayevanın da söhbəti məhz bu kədərli not üzərində qurulmuşdu.

-----Ay qızım ,indiki dilənçi görkəmimə baxma ---dedi mən də vaxtilə xanım-xatın olmuşam , əsl insan kimi yaşamışam .36 il Mehri rayonunun Lehvaz kəndində işlədim. Əlimin əməyi ilə özümə topdağıtmaz ev- eşik qurdum. Nə deyim düşmənə,nə qarğayım. Yaşımın bu sinnində məni yurdsuz-yuvasız qoydu. Qaçaqaçdan sonra Bakıda qardaşımgilin binasında bir erməniylə sövdələşdik. Məndən 15 min manat da alıb köçdü Lehvazdakı evimə. Mən də qayda- qanunla sənədləri düzəldib başladım orada yaşamağa. Bu yazda gəldilər ki ,evdən çıxmalısan . Məhkəmə işi gah mənim xeyrimə kəsdi , gah da əksinə .Uzun çək çevidən sonra bir cün gəlib gördüm ki, ev əşyalarımı töküblər bayıra. Minbir əziyyətlə, borc –xərclə Bakıda məskunlaşdıqları evdən qanunsuzluqla çıxarılma halları tək Ənvər xalanın yox ,əksər qaçqınların ən yaralı yeriydi.Bu barədə çoxlarının şikayətlərini dinlədik. Yəqin ki,hüquq mühafizə orqanları nə vaxtsa həmin qaçqınların şikayətlərini araşdıracaq ,əlində müvafiq sənədləri olanların Bakıda ermənilərdən aldıqları evlərin xərcinin ödənilməsi üçün lazımi

tədbirlər görəcəklər. İndisə əsas məsələ budur ki,Çaykənddə və digər boşalmış kəndlərdə yerləşdirilən əhaliyə normal iş və həyat şəraiti yaradılsın. Elə şərait ki, qaçqınlar məskunlaşa bilsinlər.Dörd il davam edən köçhaköçə birdəfəlik son qoyulsun.

Bakı-Çaykənd marşurutunun açılması barədə çoxdan qərar verilsə də, indiyəcən avtobusun üzünü görən olmayıb. Kəndin bu başından o başına 8 kmdir. Məktəbliləri də dərsə avtobus aparmalıdır. O da yoxdur.Bu gün Çaykənddə həm səkkizillik, həm də orta məktəb fəaliyyət göstərir. Acınacaqlı haldır ki, səkkizillik məktəbin şagirdləri uçuq-sökük bir binada dərs keçirlər.Bu da valideyinlərdə haqqlı narazılıq doğurur.

Bazar iqtisiyyatına keçidlə əlaqədar uşaq geyimləri xeyli bahalanıb.Buna görə də cari dərs ilində dövlət tərəfindən hər məktəbliyə 200 manat məbləğində ödənc (kompensasiya) nəzərdə tutulub. Amma çaykəndlilər bu günəcən o məbləğin üzünü görməyiblər.

Kənddə uşaq həkimi yoxdur. Tibb məntəqəsi, əczəxana dərmanla zəif təchiz olunub. Adicə yod da tapılmır.1450 evdən ibarət Çaykənddə minlərlə əhali yaşayır.Bu boyda kəndə cəmi bircə təcili yardım maşını ayrılıb ki, onun da işləməyə benzini yoxdur. Yaxınlıqda isə müharibə gedir. Elan olunmamış,lakin qanlı-qadalı əsl müharibə. Kəndin şöbə milisi, baş serjant Mehman Paşayev yana-yana deyirdi ki, biz Vətən uğrunda ölümə gedirik, di gəl ki, maşınımızı doldurmağa yanacaq yoxdur. Niyə Çaykəndə kifayət qədər yanacaq fondu ayrılmır? Niyə Göranboydan gətirilən yaralı OMONçuları buradaca müalicə etməyə, lazım gəldikdə, hətta cərrəhiyyə əməliyyatı aparmağa şərait yaratmırlar? Axı Xanlara, Gəncəyə çatdırınca yaralının vəziyyəti ağırlaşır, bəzən onun həyatını xilas etmək mümkün olmur…

Bəli ürəkağrıdan vəziyyətdir.Nəqliyyat yox, televizor işləmir,qəzet köşkü bağlıdır.Sanki dünyadan təcrid olunub çaykəndlilər. Yaxınlıqda digər yaşayış məntəqələrinin olduğunu isə bu başıbəlalı insanlara Göranboydan gələn güllə səsləri xatırladır. Əliyalın xalq atəşdən səksənə-səksənə , nəmalum sabahını gözləyir.

Ermənilər Çaykənddən köçərkən bir sıra evləri qəsdən yandırıb gediblər ki, türkə qalmasın.Ev bölgüsündə qismətinə bu sayaq mənzil düşənlər qapısız-pəncərəsiz,döşəməsiz evlərdə yurd-yuva qurmağa məcbur olublar.11 nəfərlik ailənin başçısı İmmi əsgər qızı Əliyeva ,18 yaşlı qızını Çaykənddə dəfn eləyən Nəbi Məmmədov, əlil oğul atası Yəhya Quliyev,böyük ailə sahibi Muxtar Xudiyev və başqaları mənzil şəraitini pisliyindən gileyləndilər. Təbii ki, qarlı çovğunlu qış günlərində qapızız-pəncərəsiz evlərdə yaşamaq qeyri mümkündür. Bir yandan da odun-ocaq,yanacaq qəhətidir.Camaat bildirir ki Xanlardan və Gəncədən Çaykəndə qapı-pəncərələri düzəltmək üçün ustalar göndərilib. Lakin gələnlər köçkünün dərdinə ağlamır, öz cibinə işləyir.Çaykənd üçün ayrılmış 110 ton yanacaqdan-daş kömür neft və solyarkalardan hələlik xəbər ətər yoxdur. İndiyədək 1450 evdən cəmi 100nə qazxətti çəkilib.o da imkan olanlara.

Veteran ailəsi olan Minayə Qəzənfər qızı Novruzova işsizlikdən şikayətləndi.

Onun Ermənistandan qovularkən həyat yoldaşı Əhməd Rəhimov Noyemberyan rayonunun Körpülü kəndində ağır yaralanıb, aşldığı xəsarətdən Sumqayıtda xəstəxanada vəfat edib, böyüyü 10 yaşında olan üç uşaq ananın ümidinə qalıb.Ana isə işsizdir..Belə ailə necə dolanmalıdır?!

Çaykənd veterenlar şurasının sədri , Əfqanıstan döyüşçüsü,11 qrup əlil Arif Əsgərov,Azərbaycan Qaçqınlar Cəmiyyəti Çaykənd dayaq dəstəsinin sədri Lətif Abdullayev,Xanlar rayon baş məşğulluq mərkəzində əhalinin sosial müdafiəsi üzrə baş

inspektor işləyən Səttarxan Cabbarov ,müharibə veteranları Musa Əliyev,Dursun Abbasov və başqaları bir sıra mühüm problemlərdən söhbət açdılar.Dedilər ki, bu gün Çaykənddə 100 nəfər veteran yaşayır. Onlar heç bir güzəştən istifadə edə bilmirlər. Yaşlıların çoxu 4 ildir ki, təqaüd almır. Kəndə hamam yoxdur. Camaat ərzaq qıtlığından korluq çəkir ,ət, makaron,vermeşel, şirniyyat,kartof, tərəvəz və s tapılmır. Ayda adambaşına 250 qram qənd,250 qram da yağ verilir. Cavanlar üçün iş yerləri yoxdur. Bir sıra ailələrə ev verilsə də hələlik torpaq sahəsi ayrılmayıb. Əhaliyə mal-qara , qoyun quzu verilməliydi. Bu məsələdə hələlik get-gələ salınır. Camaata çatacaq yardım pulundan səs soraq yoxdur. Xatırladaq ki, köçürülmə zamanı bir incə mətləb unudulub. Əhalinin region mənsubiyyəti nəzərə alınmayıb. Çaykəndə Ermənistanın Basarkeçər, Krasnoselo, Amasiya,Vedi, Zəngibasar, Mehri, Yeğeqnadzor rayonlarından, hətta Yerevan şəhərindən gəlmiş qaçqın ailələri köçürülüb. Halbuki, müxtəlif adət ənənələrə malik dağ və aran camaatını bir-birinə qarışdırmaqdansa konkret bir zonanın adamlarını bir kəndə köçürmək daha məqsədə uyğun olardı. Çaykənddə kimi dindirdiksə, OMON-çulardan yerdən göyəcən razılıq etdi. Əslində bütün kənd əhli cəngavər ruhludur. Hamısı vətən uğrunda səngərdə durmağa hazırdır. Elə ağsaqqal Əsgərxan Hacıyevin ayrılıq məqamında dedikləridə bununla bağlı idi. Dedi : « qızım Bakıya de bizə yaraq göndərsinlər, gedib Qarabağda, Göranboyda, Naxçıvanda torpağımızı qoruyaq. Ərzaq filan boş söhbətdir. Bizə silah versinlər ki, həm özümüzü qoruyaq həm də ətraf kəndlərə dayaq olaq». Beləcə görüşüb ayrıldım çaykəndlilərdən.Yolboyuaxarlı-baxarltəbiət mənzərələriToğananı,Ağsunu,Kamonu,Mixaylovkanı,Qoşabulağı,Hacıkəndi,Aşıqlını,Köşkünü seyr etdikcə qəlbimdə Çaykəndin qayğılarını daşıyırdım.İnanıdım ki,əlaqədqr təşkilatlar müharibəninin qaynar nöqtəsində yaşayan çaykəndli qardaş və bacılarımızın dərdinə bir əncam çəkəcək.

**MƏNZƏRƏ**
**Çaykənd- BAKI**
« **MİLLƏT** » qəzeti
17, 25 yanvar 1992 - ci il № 2,3

*Müdafiə Nazirliyi İnformasiya xidmətinin məlumatına görə son iki gündə Kəlbəcər bölgəsində vəziyyət son dərəcə ağırlaşıb.*

*Martın 31-dən aprelin 1-nə keçən gecə Ermənistan silahlı qüvvələri böyük miqdarda hərbi texnikadan və canlı qüvvədən istifadə edərək Vardenis rayonu ərazisindən, Azərbaycanın dövlət sərhəddini pozaraq güclü hücuma keçib. Nəticədə erməni birləşmələri rayonun 13 kəndini işğal edərək Kəlbəcər şəhəri istiqamətdə irəliləyib.*

*Mərkəzin bölgədə olan zabitlərinin məlumatına görə aprelin 1-i günortaya yaxın ermənilər şəhərin 3 kilometrliyinədək gəliblər. Hücumda ermənilər tərəfindən heyəti ruslardan ibarət azı 10 tank və Rusiya ordusunun dağ şəraitində döyüşən xüsusi hazırlıqlı dəstələri iştirak edib.*

*Hazırda rayonun dinc əhalisinin köçrülməsi davam edir. Sonuncu məlumata görə artıq 30 min nəfərə yaxın dinc əhali təhlükəsiz yerlərə çatdırılıb.*

*Aprelin 2-si bütün gün ərzində Kəlbəcər rayonu ilə telefon əlaqəsi olmayıb. Başqa mənbələrin məlumatıma görə ərazidə döyüşlər davam edir. Murovdağ yolu bizim nəzarətimizdədir və açıqdır.*

*                    *              *

### *KƏLBƏCƏRLİLƏR , MÖHKƏM OLUN !*

*Aprelin 2-də Rusiyanın 7-ci ordu bölmələrinin Ermənistan ordusu ilə birgə Azərbaycanın dövlət sərhəddini pozub ərazisinə soxulmasına etiraz əlaməti olaraq kəlbəcərlilərin Rusiyanın Bakıdakı səfirliyi qarşısında piket- çıxışı oldu.Çıxış edənlər Rusiyanın Ermənistana canlı quvvə ilə kömək etməsini və 7 –ci ordunun da ermənilərlə birgə Kəlbəcərin dinc sakinlərinə divan tutmasını pislədilər.*

*Rayon sakini Bəhram Hacıyev: Kəlbəcərdə ermənilər rus ordusunun köməyi ilə dinc sakinlərə divan tutur, evləri yandırır , faciələr törədirlər .......*

*T.FƏRHADOĞLU*

*« AZADLIQ » qəzeti*
*3 aprel 1993-cü il № 36*

### KƏLBƏCƏR: BİZİ VƏTƏNSİZ QOYMAYIN !

*Doğma ev-eşiklərini , ata –baba yurdlarını tərk edib dağlara –dərələrə, düzlərə səpələnən adamların qarğış ,qəzəb və nifrətinin ünvanı bəlli idi. Kəlbəcərdən Murov boyu üzü aşağı tökülüşən insan axının nə ucu görünür,nə də bucağı. Toğana çayı boyunca axışan camaatın hələlik bir istəyi var- ermənilərə əsir düşməmək. Körpəsini belinə bağlayıb ikiqat əyilə-əyilə irəliləyən analar ,bir dəst pal- paltarını arxasınca sürüyən qız-gəlinlər, yalnız nəvəsini qucağına almağa imkan tapan qocalar ,azacıq dincəlmək üçün tozun –torpağın içindəcə əyləşib , sonra yenidən məchulluğa doğru yollarını davam etdirdilər. Fəlakət, musibət damğası vurulmuş izdihamın özü kimi addım-addım irəliləyən minik və yük maşınlarının aramsız siqnallarından,atların kişnərtisindən ,yaralanmış döyüşçülərin tükürpədən fəryadından ağız deyənin qulağı eşitmir.*

*Ölkəmizin növbəti ( neçəinci dəfə? ) didərgin kütləsi üç gündür ki, Murov yolunu beləcə həyat, ümid yoluna çevirib.Aralarında silahlılar da var: qadınları,körpələri, qocaları hər an gözlənilən hücumdan , təhlükədən qorumaq üçün . Kəlbəcər özünü müdafiə dəstəsi vzvod komandirinin muavini , Mərcimək kənd sakini Ənvər Allahverdiyevdən Murovun zirvələrindəki vəziyyəti soruşduq.*

*- Bir aydan çox idi ki, Kəlbəcər camaatı kömək gözləyirdi, axırda da vəziyyətin çıxılmazlığını görüb evlərini tərk etdilər,--deyə döyüşçü qəzəbdən səsi titrəyə –titrəyə sözə başladı. Heç bir müdafiə tədbiri görülmədi.Bir gün də yubansa idik düşmən Aydoğan tərəfdən üstümüzü alacaqdı. Adamların çoxu evdən bir çöp də götürməyə imkan tapmadı. Xeyli mal-qara, qoyun-quzu ağzı bağlı tövlələrdə qaldı.*

*---Bəs şəhərdə , Kəlbəcərdə vəziyyət necədir?*

*----Kəlbəcər od tutub yanır.Dünən şəhərdə idim.Binaların ,evlərin çoxunu alov bürüyüb. Şəhər hər gün Ermənistan ərazisindən top- raket atəşinə tutulur. Minlərlə adam hər gün vertolyot gözləyir.—doyüşçü bir an susub sonra sözünü bitirir:---Axır ki , Kəlbəcəri də belə zəlil günə qoydular....*

*Hara gedəcəklərini bilməyən adamlar Yevlax aeroportunu üzük qaşı kimi əhatə ediblər.Ata-anasını,bacı-qardaşını, qohumlarını gözləyənlər də var. Gözlərini təlaş və nigarançılıqla Murov istiqamətində səmaya dikmiş Vaqif Ələkbərovdan kimi gözlədiyini soruşuruq .*

*_ Vertolyota minib iki balaca oğlumu aparmaq istədim ,elə həmin vaxt vertolyot havaya qalxdı. Nə qədər çığırıb bağırdımsa səs-küydən heç nə eşidilmədi.*

*---Bəs orada adamların köçürülməsinə nəzarət edən yoxdurmu?*

*-----Qətiyyən! Camaat necə gəldi vertolyotlara doluşur…*

*---- Gözlərini səmadan çəkmədən özü- özü ilə danüşür:--Görəsən uşaqlarım necə oldu?*

*Söhbətə Ümid Həsənov qoşulur:*

*----Şəhərdəkilərin vəziyyəti o qədər də ümidsiz deyil.Çox sağ olsunlar, vertolyotlar gəlib adamları aparır. Vay kəndlərin halına!Hər tərəfdən düşmən mühasirəsində , vertolyot, maşın da yaxın düşə bilmir. Bir həftə əvvəl Çərəkdar—Ağdərə yolunda maşınla xilas olmağa çalışan bütün bir ailə -- Zülfü Camalov, oğlu İlham, kürəkənləri Dağıstan , bir də onların dadına yetmək istəyən 70 yaşlı Musa ermənilərə əsir düşdülər. Gərək hökumət köməksiz kənd camaatı barədə də fikirləşə idi. Söhbəti eşidən gənc zabit Yusif Cəbrayılov həyəcanını gizlədə bilmir:*

*----Əvvəllər Həştərxanda yaşayırdım.Ağır günlərdə burada olmağı borc bilib gəldim.Ağdərədən Vağuza qədər döyüş yolu keçib torpaqlarımızın azad edilməsində iştirak etmişəm .Baxın, ( hərbi köynəyini çıxarır) ,bədənim qəlpələrlə doludur,onlarca igid dostimu , silahdaşımı itirmişəm. Bununmu üçün döyüşürdük. ?- deyib üzünü kənara çevirir. Sonra əlavə edir:-- Orduda yenə hərc-mərclik, intizamsızlıq baş alıb gedir.Güclu komandanlıq yoxdur. Ermənilər də həmişə belə vaxtlarda üstümüzə cumur. Onlanın qoşunlarında ruslar, xaricilər ermənidən çoxdur. Üç qardaşım və atam Zülfüqarlı kəndində qalıb , necə çıxarım onları?*

*Ucaboy ,sarıyanız oğlana yaxınlaşırıq. Təlaş içində olsa da özünü ələ alır.Malik Şükürov əslən Kəlbəcər rayonunun Zülfüqarlı kəndindəndir.İndi Bakıda yaşayır,həkimdir:*

*-----Mənim atam nə özü kənddən çıxır, nə də anamın, bacılarımın köçməsinə razı olur. Deyir ki, axıra kimi vuruşacağam,son gulləni özümə vuracağam !*

*Bu dağ vuqarlı insanı biz də tanıyırıq. Gözəl təssərrüfat rəhbəri , Zülfüqarlı kəndindinin ağsaqqalı Əvəz Şükürov!*

*Yevlax aeroportuna , Xanlar rayonuna insan axının ardı-arası kəsilmir…..*

*Yenicə meydançaya enən vertolyotun heyəti ilə tanış oluruq.Komandir Rafiq Səlimov, bort-mexanik Adil Nağıyev və pilot Kazım Abbasov. Bələdçiləri döyüşdə bərkimiş Şiraslan Abdullayevdir. Şəhər əhalisinin köçürülməsində görülən işlər barədə Kazım Abbasovun dedikləri:*

*---Martın 31-də bizim heyətin istirahət günü idi. Günorta telefonla zəng vurub dedilər ki, Kəlbəcərdə vəziyyət son dərəcə ağırdır. Dərhal aeroporta gəldik , həmin gün axşam saat 9-dək adamları daşıdıq. Vertolyotlardan ikisi Murov yolunun üstündə zenit atəşi ilə zədələndi. Orada isə məlum olduğu kimi ermənilər yoxdur. Səhvdirmi? Bilmirik. Hər halda acınacaqlı və müdhiş səhvdir.Bizim vertolyotumuz vurulanlardan biridir.Yaxşı k i, itkisiz oldu. Amma dörd nəfər yaralandı. Bir qadının ayağını mərmi apardı. Vertolyotu salamat Yevlaxa çatdırmağımız möcüzədir. Aprelin 1-də daha yeddi reyslə mühasirədə qalan kəlbəcərlilərin bir qismi Yevlaxa çatdırıldı. Bu işdə pilotların igidlik və*

*fədəkarlığını sözlə ifadə etmək çətindir. Zabrat vertolyot dəstəsinin başçısı Əziz Qənbərov ,heyət komandiri Çingiz Zeynalov , Vladimir Nekrasov hər dəfə ölümü gözləri önünə gətirərək uçurlar. Vertalyotda cəmi 15 yer olduğu halda ,hər reysdə 25-30 nəfəri ölümün pəncəsindən xilas edirlər.*

*---Belə gündə hər əzab –əziyytə qatlaşmaq borcumuzdur,---Əziz Qənbərov gileyini gizlədə bilmir. Amma gördüyünüz kimi ,buradakı vertolyotların hamısı mulki vertolyotlardır.Bəs bizim təhlükəsizliyimizi təmin etməli olan hərbi vertolyotlar hanı? Niyə köməyə gəlmirlər?*

*----Şahidi olduğumuz faciəli səhnələr,ürək dağlayan mənzərələr yeni deyil «Kommunistpərəst» adlandırdığımız keçmiş rəhbərlər dövründə Ermənistandan, Sırxavənddən, Xocalıdan, Şuşadan Laçından,Qarabağın digər yerləriundən didərginlərlə çox rastlaşmışıq.Həmin dövrün hökumət numayəndələrini , dövlət rəhbərlərini, «xəyanətkar» , « satqın» adlandırıb devirmişik.Onların fəaliyyətini araşdıran komissiyalar hələ də qəti qənaətə gələ bilmirlər. Bəs bu gün yeni faciələrin baş verməsində kimi günahlandıraq ? Özümüzə təsəlli məqsədilə önünə « müvəqqəti » kəlməsini gətirdiyimiz məğlubiyyətlər i, torpaqların yenidən itirilməsini bir kənara qoyaq. Axı Kəlbəcərin təhlükə altında olduğu hələ azı bir ay əvvəl hamıya, o cumlədən adamların taleyi üçün məsul şəxslərə də məlum idi.Nə üçün on minlərlə dinc sakinin vaxtında və mütəşəkkilliklə köçürülməsi üçün tədbir görülmürdü?*

*Xalqımızın daha bir faciəsinə beləcə heç bir kömək göstərə bilmədən dinməz-söyləməz , baxa-baxa qaldıq….Sonu görünməyən Kəlbəcər didərginləri isə hələ də Murovu aşaraq məchulluğa doğru axışmaqda idi.*

***Ziyəddin Sultanov,***
***Salar Aslanov,***
***Cahangir İbadov,***
***« XALQ QƏZETİ »nin müxbirləri***

***« XALQ QƏZETİ » 3 aprel 1993-cü il № 52***

## *BİR RAYONDAN 50 RAYONA*
### *İsti ocaqlarını tərk etmiş kəlbəcərlilərin ünvanı indi belədir.*

Neçə gündür ,Xanlar---Hacıkənd yolunun sol kənarında quraşdırılmış vaqon evin ətrafına xeyli adam yığışır. Yük maşınlarının, avtobusların biri gedib, o birisi gəlir.Kim «təzə xəbər» gətirdimi, həmin andaca onu dövrəyə alırlar.Gözlərdəki təlaş, nifrət,ümid hissləri bir-birinə qarışıb. Qərargahın rəisi Gəncə şəhər icra hakimiyyətinin başçısı Elxan Qədimov adamları sakitləşdirir, özlərini təngnəfəs qərargaha çatdıran kəlbəcərlilərin yerbəyer olunması üçün konkret tapşırıqlar verir.

Ümumiyyətlə, bu günlər əsas ağırlıq Gəncə şəhərinin və Xanlar rayonunun üzərinə düşüb.Çünki Murovdağı əzab-əziyyətlə aşıb gələn kəlbəcərlilərin müraciət etdiyi ilk yer buradakı qərargahdır. Elə ilk yardım da orada göstərilir. Yerli sakinlər, xüsusilə Gəncənin nəqliyyat işçiləri son günlər

əsl fədakarlıq nümunəsi göstəriblər. Zarafat deyil, pay-piyada gələn minlərlə adamın yollardan daşınması, sonra isə onların  müxtəlif rayonlara və kəndlərə aparılması böyük təşkilatçılıq və dözüm tələb edir. Nəqliyyat - istehsalat birliyinin baş direktoru Şəmistan Nağıyev deyir ki, qaçqınların lazımi yerlərə aparılması üçün hər gün 300 dən çox maşın vermişik. Xanlar rayonun idarə və təşkilatlarının rəhbərləri də yuxu nə olduğunu bilmirlər. Xüsusilə Murov yolunda bir neçə gün əvvəl əmələ gəlmiş  tıxacın açılmasıda xanlarlıların xidməti çox olub.Kim bilir, yol vaxtında açılmasaydı,qurbanların sayı nə qədər olacaqdı.

Respublika baş nazirininmüavini Əsgər Məmmədovla daburada,  qərargahda görüşdük. Dedi ki, ayrı-ayrı nazirliklərin nümayəndələri buradadırlar,  hərə öz sahəsi üzrə kəlbəcərlilərə yardım işini təşkil edir. Artıq ikinci gündür ki, qaçqınların arası kəsilib, gələn yoxdur. Ümumiyyətlə, öz doğma ocaqlarından didərgin salınmış kəlbəcərlilər respublikanın 50-dən çox rayonuna göndərilib. Qərargahda qaçqınların hansı rayona getmək arzuları, bir də rayonların qaçqın qəbul etmək imkanları əsas götürülür. Amma bir çox hallarda arzu ilə imkan düz gəlmir.Xanlarda yerləşən Kəlbəcər qaçqınlarının sayı artıq 8 min nəfərə çatıb. Rayon icra hakimiyyətinin başçısı bildirdi ki, onların yalnız üç min nəfərinin  Xanlara  rəsmi  göndərişi  var.

Adama ağır gələn  odur ki, xalqımız üçün belə məşəqqətli anlarda daşürəklilər, laqeydlər də tapılır. Qərargahın qarşısındakı taxıl sahəsində on-on beş körpə uşaq ,qadın,qoca bir yerə yığışıb dərdləşirdilər. Onlara yaxınlaşdım.Öyrəndim ki, iki gün  əvvəl buradan Şamaxıya  göndərilən ailələrdir, indi geri qayıdıblar.Ağsaqqalardan biri –Həmid Novruzovla söhbət edirəm .Hiss olunur ki, əsəbləri tarıma çəkilib:

---- Meşələrlə ,dağlarla, dərələrlə ac-suzuz bu qədər yol gəl, axırda da belə. Sağ olsunlar,burada,qərargahda bizi yaxşı qarşılamışdılar.Amma Şamaxıda bunun əksinin gördük, Şamaxı rayon icra hakimiyyətinin başçısının müavinin Əli  Həsənov bizi elə qarşıladı ki, sanki azərbaycanlı deyil , erməni idik. Bir gün səhərdən axşamadək icra hakimiyyəti aparatının binası qarşısında qaldıq.Bir stəkan su da verən olmadı. Dedilər ki, Şamaxının özündə xeyli qaçqın var. Sizi yerləşdirsək də lazımı şərait yarada bilməyəcəyik. Biz də kor-peşiman yenidən buradakı qərargaha qayıtmışıq.

Əlbəttə, 50—60 min qaçqını yerbəyer eləmək o qədər də asan iş deyil. Özü də müxtəlif rayonlara göndərilənlərin bir çoxu sonradan fikrini dəyişib geri qayıdır. Elə bunun nəticəsidir ki, indiyədək Xanlardakı qərargahdan 70 min nəfərdən çox kəlbəcərli qeydiyyatdan keçib.Halbuki, Kəlbəcərdə heç o qədər adam yaşamır. Deməli,vbəziləri ikinci, hətta üçüncü dəfə göndəriş alıb. Təbiidir ki,qərargahda hamını yadda saxlamaq olmur.

Qaçqın olmaqdan dəhşətli heç nə yoxdur. Böyüklər dözümlü olurlar.Bəs uşaqlar?  İllər keçəcək, bu dəhşətli qışqırıq, haray qorxu  körpələrin yadından heç vaxt çıxmayacaq.

----- Ayın 30-da ermənilər bizim yüksəklikdəki mövqelərimizi aldılar.Onda hiss etdim ki, daha burada tab gətirə bilməyəcəyik. Çünki olub qalan üidimiz həmin mövqelərə idi.Onlar da əldən verildi. Bir gün sonra elə bil ki, Allah da bizdən üz döndərdi, elə güclü qar yağdı ,
elə şaxta düşdü ki, gəl görəsən. Bir tərəfdən də külək amanımızı qırdı.İnanırsınızmı, ən azı on min başdan çox qoyun quzu, iki üç min başa yaxın qaramal yolda gələrkən dondu, qırıldı. Adamlar heç nə çıxarda bilmədilər.İndi yol boyu heyvan leşləri düzülüb. Bir qədər keçdikdən sonra istilər düşən kimi, qorxulu epidemiya yarana bilər.Təcili tədbirlər görmək lazımdır.





Bu sözləri deyən Kəlbəcər rayon icra hakimiyyətinin inspektoru Əli Kazımovdur.

Kəlbəcər rayon milis şöbəsinə martın 31-də təyin olunmuş Yusif Əhmədov da yana-yana danışır:

---- Rayondan ən axırıncı bizim polis işçiləri çıxdılar.Biz 22 nəfərlələ qadınların, qocaları və uşaqların çıxarılması üçün əlimizdən gələni etdik.Amma nə edək, lazımi kömək olmadığından doğma yerləri tərk edəsi olduq.

Kəlbəcərlilərin çoxu rayon icra hakimiyyətinin keçmiş başçısı İlham Həsənovun qətiyyətsizliyini dönə-dönə qeyd edirdilər.

--Hələ martın 29-da «Murovdağ» xeyriyyə cəmiyyətinin Gəncəbasar şöbəsinin müraciətini qəbul etmişdik. Vəziyyətin təhlükəli olduğunu görürdük. Respublika Prezidentinə, digər rəhbər orqanlara öz təkliflərimizi bildirmişdik. Lakin görünür, iş işdən keçibmiş. Yoxsa Kəlbəcər belə tezliklə boşalmazdı.

Bunları da deyən Xanlardakı qərargahın üzvü, əslən kəlbəcərli,Azərbaycan Texnologiya İnsitutunun professoru Saday Nəzərovdur.. O, həm də «Murovdağ» cəmiyyəti Kəlbəcər şöbəsinin sədridir. Neçə gündür burada, qərargahdadır. Öz həmyerlilərinə əlindən gələn köməyi əsirgəmir.

---Kaş su maşını gələndə burada olaydınız, deyir.

-----Bircə-bircə saydım, böyüklü—kiçikli 42 adam çıxdı içindən. Sifətlərində qan da qalmamışdı. Xocalı faciəsi Kəlbəcər faciəsinin yanında nədir ki… bir qadın yolda donub ölmüş iki qızının divara hörüb basdırdığı yeri polis rəisinə nişan verirmiş ki, ora yolu düşsə bəlkə meyidləri tapa bilər.

Hələ də ölənlərin , itənlərin əsir düşənlərin hesabını dəqiq bilən yoxdur. Təkcə son üç gündə Daşkəsən ---Alaxançallı yolunda vertolyotla 22 meyid tapıb gətiriblər. Bunlar Murovda tıxac əmələ gələn vaxtlarda dağı aşıb Daşkəsənə keçənlərdir. Ümumiyyətlə, həmin yollarla Daşkəsənə qısa vaxda 5 min nəfərə yaxın kəlbəcərli qaçıb gəlib.

Yeri gəlmişkən , qeyd etmək istəyirəm ki, qərargahda kiminlə görüşdümsə, kütləvi informasiya vasitələrinin işindən gileyləndilər. Dedilər ki, ermənilərin bu vəhşiliklərini düğnyaya çatdırmaq üçün jurnalistlərin fəallığı bir o qədər də hiss olunmur. Qorxudan, şaxtadan dodaqları çat-çat olmuş o məsum körpələrin, qocaların, qadınların. vəziyyətini lentə alan adamlar nədənsə gözə dəymir. Dedilər ki, 80 il qabaq olmayan bir işi «erməni genosidi» kimi hələ də təbliğ edirlər.Yeri gələndə qondarma şəkillər, sənədlər göstərməyə çalışırlar.Biz isə televiziyanın, mətbuatın belə inkşaf etdiyi dövrdə susuruq.

Kəlbəcər də getdi…Adam daha «kimdir günahkar?» sualını da vermək istəmir. Çünki Xocalı da, Şuşada, Laçın da veriləndə bu sual ortaya çıxıb və cavabsız qalıb. Halbuki , Kəlbəcər təkcə əsgərlərimizi hazırlıqsızlıqlığının deyil, həm də xəyanətin qurbanı olub.

Qərargahda olarkən müxtəlif söhbətlər də eşitdim.Onların içərisində yana -yana deyiləni də var idi , gəlişi gözəl olanları da.Başqalarını bilmirəm,məni ən çox heyrətləndirən «Murov aşırımındakı yüksəklik ermənilərin əlinə keçdikdən sonra vay Xanların, Gəncənin halına » --deyənlər oldu. Doğrudur, belə bir təhlükə hər an yarana bilər və nəyin bahasına olursa-olsun,buna yol verməməliyik. Məni narahat edən şayiələrin tez yayılması və onların qarşısının alınması üçün tədbirlər görülməməsidir.Özü də adama ağır gələn odur ki, çox zaman bu şayiələri başqaları deyil , rəsmi adamlar yayırlar. Elə Kəlbəcərin də bir anda boşalmasının əsas səbəblərindən biri bu şaiyələr olmadımı? Nədir, indi də növbə Gəncənindir ? Məhz bu boşboğazlığın nəticəsidir,ki, son günlər Moskva televiziyası tez-tez Gəncənin, Xanların adını çəkir. Görəsən kimin dəyirmanına su tökürük?

*HAMLET ZEYNALLI*

*« Xalq qəzeti » nin Gəncəbasar müxbiri.*

*« Xalq qəzeti»*

*10 aprel 1993-cü il № 56*

## *AZƏRBAYCAN TORPAQLARININ İŞĞALI DAVAM EDİR.*

*Qarabağ müharibəsi get-gedə Corc Oruelin ssenarisini daha çox xatırladır. Avrasiya Ostrasiya ilə müharibə aparır. Okeaniya dövləti isə gah Avrasiyaya, gah da Ostasiyaya kömək edir. Birinə silah verir o birinə yanacaq.Özü isə yaxasını həmişə kənara çəkir, əl çatmaz və ün -yetməz olur. Azərbaycan Respublikasının Moskvadakı səlahiyyaətli nümayəndəsi Hikmət Hacızadənin keçirdiyi mətbuat konfransı da məhz bu mövzuya üçüncü qüvvə axtarışı məsələsinə həsr olunmuşdu . Mətbuat konfransında deyildi ki,ermənilərin Kəlbəcərə üç istiqamətdən---Ermənistanın Vardenis rayonundan, Cermux şəhərindən və Yuxarı Qarabağ tərəfdən hücumunda Rusiyanın 7 ci ordusunun qüvvələri də iştirak ediblər. Hikmət Hacızadə dedi ki,bunu sübut etmək üçün əllərində dəlil subut -- radio danışıqlarının lent yazıları var. Həmin lentlər Bakıda Rusiya səfirliyinə verilib. Rusiya ilə aparılan danışıqlara görə Gəncədəki 104-cü hərbi desant diviziyası 1994-cü ildə çıxarılmalıydı.Amma buna baxmayaraq Kəlbəcərin işğalından ay yarım əvvəl rus diviziyası ərazidən çıxarılıb.Səlahiyyətli nümayyəndə bu hadisəni də rus hərbiçilərinin mövqeyini açıqlayan fakt kimi qiymətləndirdi.*

*Kəlbəcər əməliyyatı nəticəsində Azərbaycanın 1000 kvadrat kilometrlik ərazisi erməni ordusunun nəzarəti altına keçib.Əslində bu torpaqların Dağlıq Qarabağa qətiyyən aidiyyəti yoxdur. 47 minədək əhali Laçın dəhlizii ilə Kəlbəcər arasında qalıb.*

*Bakının rəsmi dairələri bu fikirdədirlər ki hərbi əməliyyatların güclənməsi ATƏM çərçivəsində Azərbaycan , Ermənistan və Dağlıq Qarabağ nümayəndələri arasında sülh danışıqları aparılması ilə əlaqədardır. Hərbi aksiyalar keçirməkdə məqsəd danışıqlar prosesini pozmaqdır.*

*Müxbirimiz V.Aloyan Yerevandan xəbər verir ki, Yerevanda və DQR-da da Bakının bu fikrini təstiqləyirlər, amma onlar bir qədər başqa məqamara üstünlük verirlər.DQR Dövlət Müdafiə Komitəsinin sədri Robert Koçaryan bu fikirdədir ki, Azərbaycan öz təcavüzhkar niyyətlərini gizlətmək üçün ATƏM çərçivəsindəki danışıqlardan istifadə etmək fikrindədir. Kəlbəcərin işğalını və Füzuliyə hücumları isə vəziyyəti qabaqlamaq adlandırırlar..Eyni zamanda qeyd etdilir ki,«Dağlıq Qarabağ Azərbaycanın ərazisini zəbt etmək fikrində deyil» Levon Ter- Petrosyan hərbi əməliyyatların gücləndiyindəqn narahat olduğunu və dərhal barışıq yaranmasına kömək etməyə hazır olduğunu söyləyir. Kəlbəcərə üç yerdən hücum olunub .Üç hücumun ikisi Ermənistan ərazisindən edilib. Deməli, erməni ordusunun rəhbərləri öz prezidentləri ilə həmfikir deyillər.*

L. KRUTAKOV
« Komsomolskaya Pravda »
7 aprel 1993-cü il

## *QAÇQIN ADI ÜSTÜMÜZDƏDİRSƏ DANIŞMAĞA SÖZÜMÜZ QALMAYACAQ.*

Nə qədər acı olsa da həqiqətdən qaçası deyilik. Bu gün sabah müharibə qurtaracağı ümidləri illərlə əvəz olundu. Amma yenə bu məmləkətin dərdinin üstünə dərd gəlir.Görəsən allahdandır, yoxsa bizdəndir. Qovuşmaq istədiyimiz səadət hələlik bizlərə nəsib olmur. Kəlbəcər müsibəti respublikanın digər bölgələrindən daha çox Gəncəbasarda güclü əks-səda verib. İşğal olunan ərazilərin genişləndirilməsi və bu bölgəyə yaxınlaşması « qorxaq » ermənilər camaatın gözündə « cəsürlaşdırıb » , erməni xofu,istər-istəməz psixoloji çaşqınlıqla əvəzlənib. Digər tərəfdən bütün istiqamətlərdən mühasirədə qalmış Kəlbəcər əhalisinin Murov yolu ilə üz tutub pənah gətirdiyi Gəncəbasarı 40 minlik qaçqın problemi ilə üzləşdirib.

Etibar İbrahimov.

## XANLAR CAMAATI QAÇQINLIQ İZTİRABINI 5 İL ƏVVƏL DUYUB.

Rayonda yaşayanların əksəriyyəti qaçqınlardır. Və bu gün Kəlbəcərlilərin problemlərini daha cox duyurlar. Kəlbəcərdən gələn qaçqınların yerləşməsi ilə məşğul olan qərargahın Xanlarda yerləşməsi isə ərazi uyğunluğundan irəli gəlsə də , bu yerlər taleyin qaçqın payından daha artıq qismət düşdüyünü söyləmək olar.Rayon rəhbərliyi qərarqahda bütün təşkilati məslələri yerbəyer edib, gələnlər qeydiyyatdan keçirilib, avtomobillərlə ətraf rayonlara göndərilir. Bir həftə ərzində 42 mindən çox kəlbəcərli yerləşdirilib. Amm qərargahın qabağı hələ də narahat və üzüntü içərisində olan adamların yığınaq yeridir.

## EY XALQ , BU DƏRDİ KİM ÇƏKƏCƏK ?

Əksəriyyət dogmasından , yaxınımdan, qonşusundan xəbər tutmaq üçün buraya gəlir. Sarmand kənd sakini Quliyev Qara Cəlal oğlu ailəsinin faciəsindən danışarkən qəhərini boğa bilmir. Martın 31-də saat 11 radələrində 6 uşağını tunel yolu ilə göndərib, maşında 38 nəfərə qədər uşaq,qoca olub, tunelin yaxınlığında ermənilər maşını gülləborana tutub.Həmin an imkan tapıb qaça bilən iki adamın dediyinə görə yaralananlar olsa da ,maşın tuneli keçib gedib. 38 nəfərin taleyi məlum deyil. Q.Quliyev xahiş edir ki,uşaqlardan məlumatı olan varsa Yevlaxdakı Əli Bayram kəndinə («Bakı» kolxozu») Məhərrəm Namazovun evinə xəbər versin.Abdullauşağı , Alyataq, Boz, Qaraqanlı, Almalıq, Zülfüqarlı, Əsrik,Bəylik, Başlıbel, Comərd, Keçiliqaya kəndləri sakinlərinin dediklərinə görə eyni istiqamətlərdə yerləşən bu kəndlərdən Comərd və Keçiliqaya kəndi ermənilər tərəfindən dağıdılmış, əhali həmin kəndlərdən çıxarılıb. Yalnız əhalinin sayı daha çox olan Başlıbeldə camaatın yarısından xəbər yoxdur. Daşkəsən rayon icra hakimiyyətindən aldığımız məlumata görə ,əhalinin xeyli hissəsi dağ yolları ilə piyada Daşkəsənə gəlib çıxıb. Dağın soyuğundan və acından ölənlər var. Bir qadın qucağında ölmüş körpəsinin dərdinə tab gətirməyərək yoldaca keçinib. Bütün gördüklərimizə və rəsmi məlumatlara istinadən deyə biləriki ki, əhalinin 90 faizi ev –eşiyini,mal-qarasını kənddən çıxara bilməyib. Minlərlə baş mal-qara ,yüzlərlə dövlətə və şəxslərə məxsus avtomobillər , milyard manatlarla ev əşyaları kəndlərdə qalıb.Duzdur, insan həyatı heç nə ilə ölçülmür.Lakin dövrümüzün bu çağında itirdiklərimiz bəs etmirmi ?

## *GƏNCƏDƏ 3500 KƏLBƏCƏRLİ YERLƏŞDİRİLİB.*

Bu məlumat şəhər icra hakimiyyətindən verilib. İnstitut və texnikum yataqxanalarında internat məktəblərində qaçqınlar yaşayır. Kənd Təsərrüfatı Akademiyasının yataqxanasında yerləşən ailələrdən ikisində xoşbəxtlikdənmi, bədbəxlikdənmi deyək,(allaha ağır getməsin) iki uşaq dünyaya gəlib. Hələki şəhərin öz imkanları hesabına gələnlər ərzaq və paltarla təmin olunub. Yaxın günlərdə qaçqınlar komissiyası və nazirliklərin xətti ilə qaçqınların təminat məsələsi həll ediləcək.

Şəhərdə xeyli sayda qaçqınların olması hərbi uğursuzluqlardan doğan narahatlıqlar bəzi sosial- iqtisadi problemlər yaradır.Mötəbər mənbələrdən aldığımız məlumata görə qaçqınların məskunlaşdığı yerlərdə AMİP üzvləri təblğat aparır. Siyasi və sosal sabitliyin qorunması üçün fövqalədə vəziyyət rejiminin işlək mexanizmlərini həyata keçirmək zəruriləşib.

Aprelin 5-dən Gəncədə komendant saatı tətbiq edilir.

« AZADLIQ » qəzeti
3 aprel 1993-cü il №36

## *KƏLBƏCƏR FACİƏSİ: UYDURMALAR VƏ HƏQİQƏTLƏR*

***Xocalı, Şuşa ,Laçın ağrılarını ürəyimizdə gəzdirdiyimiz bir vaxtda daha bir dəhşətli bəlaya bələndik ,ağır yaralandıq—Kəlbəcəri itirdik. Çünki əldən getmiş torpaqlarımızı geri qaytarmaq üçün gücümüzü, qəzəbimizi,nifrətimizi düşmənə yönəltmədik.Özümüzə qarşı çevirdik.Əyalətlərdə,bölgələrdə təmtaraqlı kabinet davası döydük.Hər addımda büdrəyib yıxılırıq, başımız daşdan-daşa dəyir dəyir, ancaq ağılanmırıq ki, ağıllanmırıq…***

***Faciələrimizin məğzini, »bazar söhbətləri» səviyyəsində,adi dedi- qodularda arayıb , daxili çaxnaşma, didişmə yaratmaq istəyirik.***

***Bu günlərdə Kəlbəcər İH başçısının müavini, ərzaq və kənd təsərüfat idarəsinin rəisi Nuşirəvan Muxtarov redaksiyamıza gəlmişdi.Kəlbəcər hadisələrini »araşdıran» müxbirlərimiz qəzet səhifələrinə çıxartdıqları dəqiqlikdən və obyektivlikdən əsər əlamət olmayan bir çox yazıları ilə Nüşrəvan bəyi hövsələdən çıxarmışdı.***

---Bilmirəm kimin dəyirmanına su tökürlər, bunlar.Axı qəzet səhifəsinə çıxarılan bu yazılar sabah tarixi sənədə çevriləcək.Doğrudanmı, xalqımızın yeni, qanlı tarixini səhv yazacağıq.Tarixi səhvlərimizin zəhərli bəhrəsi bizə dərs olmadımı?

Sonra o, Kəlbəcər faciəsinin ilkin mərhələlərini açıqlamağa başladı:

----Kəlbəcərin itirilməsi təhlükəsi hələ Ağdərə kəndlərinin verilib, Ağdərə-Kəlbəcər yolunun bağlandığı dövrdən yarandı.Və həmin vaxtdan etibarən rayon icra hakimiyyəti vaxtlı-vaxtında operativ qaydada Müdafiə Nazirliyinəvə respublika rəhbərliyinə məlumat çatdırıb.Martın 27-də Ağdaban və Narışdar kəndləri itirilib.Onun ardınca dalbadal neçə kəndimiz əldən getdi . Onun ardınca dalbadal neçə kəndimiz əldən getdi.Martın 30-da tunel tutuldu,Laçınla yeganə yolumuz bağlandı.

**---Arada gəzən söz-söhbətlərə görə Kəlbəcər atışmasız təhvil verilib…**

----Yalan söhbətdir. Əslində vəziyyət belə idi: əvvələr Kəlbəcəri qoruyuruq.Ağdərə yolu açılandan sonra hissələri bölüb yarısını Laçına çəkdilər.Vəziyyətimiz mürəkəbləşəndə

polkovnik Qənizadəyə müraciət edib kömək istədik. Əhəmiyyəti olmadı.Fevralın sonunda Kəlbəcər yolu kəsildi.Respublika MN-ə müraciət etdik, nəticəsi olmadı. Martın ortalarında İH başçısının birinci müavini və rayon sovetinin sədri MN-ə gəldi ki ,polk yaradaq.Martın 21-nə kimi polk formalaşmalı idi.Lakin MN-də işlər ləngilidilirdi.

Kəlbəcərin alınmasından on gün qabaq MN-dan polkovnik Qənizadəyə əmr verilmişdi ki, köməyə bir batalyon göndərsin əvəzinə,30-40 nəfər artilleriyaçı gəldi.Top gətirdilər. Lakin heyət tam gəlmədiyindən heç bir iş görə bilmədilər.Öz qüvvələrimiz var gücləri ilə döyüşdülər.

**---Bəlkə vəziyyətin tam gərginliyini olduğu kimi mərkəzə çatdıra bilməmisiniz?**

----Nə danışırsınız?! Bir ayağımız Bakıda qalmışdı.Telefon dəstəyinin də yerə qoymurduq.Məni də ağrıdan bu barədə gedən boş söz-söhbətlərdir.Rayona məsul icra aparatıdır.Ancaq gəlin rellıqla da razılaşaq.Axı icra aparatının qoşunu yox, silahı yox. Zəng edib kömək istəyir,vəziyyətin gündən-günə, saatbasaat ağırlaşdığını mərkəzə xəbər verirdik.Götürüb «Belə –bələ ilər» qəzetində üzüngörüb, səsini eşitmədiyim bir müxbir yazıb ki, mən icra hakimiyyətinin binasına girəndə müavinlərdən hansısa telefonla danışıb, kiminsə arxayın salırdı ki, vəziyyət pis deyil,qüvvəmiz çoxdur…

O günlərdə telefonla danışan,mərkəzə məlumat verən mən idim.Həmin gün 31-nə keçən gecə saat 4-də Prezidentə , İsa Qənbərə,Pənah Hüseyinova, İsgəndər Həmidova zəng vurub vəziyyətin nə dərəcə də təhlükəli olduğunu bildirmişəm. Necə ola bilər ki, ondan bir neçə saat sonra hamını arxayın salmağa çalışmışam.

**---Hər şeyin üstünə qaranlıq salan « Aydınlıq » qəzetində də Kəlbəcərin verilməsində İH.başçısı günahlandırılır**.

--İlham bəy Kəlbəcərin çıxacağında post qurub , camaatı buraxmamaqda təqsirləndirirlər. Əslində postları Ağdərə alınandan sonra hərbi polis və rayon polis şöbəsi qoymuşdu. İkincisi, özünüz fikirləşin, düşmən caynağından qaçan, adam dolu 100-dən çox maşının qabağını kəsib necə pul almaq olar? Bu ağ yalan,tayı bərabəri olmayan iftiradır. Keçmiş icra başçısına və onun aparatına qarşı əks təbliğat konpanyası Kəlbəcərin alınmasından bir neçə gün əvvəl başlanmışdır «Murovdağ»ın bəzi üzvlərindən və indiki icra başçısının əlaltılarından ibarət dəstə **Xanlarda** qərargah yaratmış ,artıq Kəlbəcərin satılması barədə şaiyələr yaymağa başlamışdılar. İndiki İcra başçısı keçmiş partokrat Kəlbəcər rayon keçmiş icraiyyə komitəsininsədri ,Gədəbəy rayon icra hakimiyyətinin başçısı işləmiş və yol verdiyi , yumşaq desək, nöqsanlara görə azad edilmiş ,Qənbər Qurbanov öz əməllərini ört basdır etmək üçün müxtəlif üsulara əl atır.

--Çox yəqin ki, keçmiş üsullardan istifadə edərək qəzet səhifələrinə də yuxarıda qeyd etdiyim dedi -qoduları çıxardır. Ancaq Kəlbəcərin ağır günlərində bir dəfə də olsun, oraya gəlmədi.Kəlbəcərdən son çıxanlardan biri də Pənah Hüseynovla Fərəc Quliyev oldu.Hətta özünü qəzet və televiziyada qəhraman kimi təbliğ etdirən 3 günlük polis rəisi Asif Həsənov da martın 31- də qərargahdan getdi və bir daha geri dönmədi. İndi belələri bizə qara yaxmağı istəyirlər.

***Kəlbəcərin itirilməsi faciədir.Ümumxalq faciəsidir. Siyasi mənsubiyyətindən asılı olmayaraq, kim bu faciəni öz faciəsi hesab etmirsə , onun nə indisi nə də gələcəyi ola bilər.***

***Əgər kimlərsə bu faciədən siyası məqsədlər üçün istifadə edirlərsə, mənasız gərəksiz şaiyələr yaymaqla ləkəli keçmişlərini ört- basdır edib, çirkin məqsədlərini həyata***

*keçirmək üçün çoxdan gözlədikləri fürsətin yetişdiyini fikirləşərək sadə xalqın həyatı ilə alver edirsə,tarix və xalq onları heç vaxt bağışlamayacaq.Mənə belə gəlir ki, ev- eşiyi talan edilmiş , varidatı əldən getmiş caamatın müəyyən qruplarının düşdükləri çətin vəziyyətdən istifadə edərək onların dərdinə çarə etmək əvəzinə qəzetdə kiminsə ünvanına böhtahlar yağdırmaq heç kimə baş ucalığı gətirmir.*

*Kəlbəcər caamatı ağıllı və mərd caamatdır. Mən güman edirəm ki, onlar hal hazırda kimin nəyə xidmət etdiyini hamıdan yaxşı bilirdilər. Hər şeyi özləri saf çürük edirlər. Pullu məddahlar nə qədər də səs-küy salsalar da haqq öz yerini tapacaq.*

Qələmə aldı
Sabir İsgəndəroğlu.
« YENİ MÜSAVAT » qəzeti
13 may 1993-cü il

## KƏLBƏCƏRİN SÜQUT : SƏBƏB ÇOXDUR.

**Prezident Aparatı Ərazi İdarəetmə Orqanları ilə İş Şöbəsinin böyük məsləhətçisi Qorxmaz İbrahimov və məsləhətçi Hüseyn Naibov aprelin 1-dən 7-nə kimi Kəlbəcər qaçqınlarının yerləşdirilməsi üzrə yaradılmış qərarqahın fəaliyyətinə nəzarəti həyata keçiriblər.Əməkdaşımızın suallarına Q. İbrahimov cavab verir.**

---Aprelin 1-də Arif Hacıyevin sərəncamı ilə Kəlbəcər qaçqınlarının işi üzrə qərargah yaradıldı. Gəncə icra hakimiyyətinin başçısı Elxan Qədimov qərargaha rəis, Şəmkir rayon icra hakimiyyətinin başçısıTofiq Hüseynov müavin təyin edildi. Hüseyn Naibovla qərargahın fəaliyyətinə nəzarət etmək üçün ora göndərildik. Xanlarda yerləşən bu qərargaha qaçqınlar Murov yolu ilə gəlirdi. Vertolyotla köçürülənlər Yevlaxa aparılırdı. Ağdaşa gedib çıxanlar da var idi. Qərargahda Laçından və Kəlbəcərdən gələn 60 minə qədər qaçqın qeydiyyatdan keçib.Qonşu rayonların yaxından köməyi sayəsində camaatı, mal-qaranın müəyyən hissəsini köçürmək mümkün oldu , rayonda olan iki bank tamamilia köçrüldü.İşləyən texnikanın demek olarki,hamısı çıxarıldı….

Camaatın,ordunun çıxarılmasına gəldikdə ,onu deməliyəm ki,bu orduda fərarilik hallarının artması,komandir heyətinin olmaması,briqada komandirinin öz vəzifə borcunu yerinə yetirə bilməməsi, korpus komandirinin tapşırıqlarını həyata keçirməməsi , özünümüdafiə dəstələrinin ordunun tərkibinə qatılması, əslində ləğv edilməsi, postların vaxtlı-vaxtında yoxlanılmaması, Ağdərədə ordumuzun irəliləməsindən arxayınçılıq və s. saymaqla qurtarmayan səbəblərin nəticəsi idi.

Ən başlıcası isə təxribatçıların geniş fəaliyyəti, onların yaydıqları «Kəlbəcər satılıb» xəbərinin ildırım surəti ilə kəndləri bürüməsi idi.Rayonun polis rəisi bu yaxınlarda təyin olunmuşdu.Polis rəisi ilə ordu komandirləri arasında əlaqənin olmaması, rəisin bacarıqsızlığı son anda qüvvələri birləşdirmək əvəzinə,camaata qoşulub çıxması bağışlanılmaz haldır.

**----İcra başçısı İlham Həsənovun hadisədən üç gün əvvəl ailəsini köçürməsi , rayon rəhbərlərinin qabaq çıxması haqqında söz söhbət gəzir**.

---Bunlar şaiyədir. Bir misal çəkim: Qərargahda olarkən bir nəfər gəldi ki, İlham bəy əlində tapança göyə atəş açıb camaatın qarşısını kəsərək , öz qohumlarını vertolyota mindirib. Ondan bu hadisəni öz gözləri ilə gördüyünü soruşduqda cavab verdi ki ,belə deyirdilər. Yeri gəlmişkən , təxribatçılar və bəzi muəyyən quvvələr qərargahda da «fəaliyyətlərini» davam etdirirdilər. Onlar fürsətdən istifadə edib hökumət əleyhinə geniş təbliğat aparırdılar.

**---Kəlbəcərdən çıxan əskər və zabitlər postları atıb gəldiklərini nə ilə izah edirdilər?**

Əvvəldə dediyim kimi ,camaat arasında olan təxribat orduda da olub. Komandirlərin fərsizliyi , strateji mövqelərin əldən verilməsi əskərlərin döyüş ruhunu qırıb. Əskərlərin bəzisi silahsız idi. Onlar deyirdilər ki, silahlarını komandirlər alıb. Amma gələnlərin əksəriyyəti silahlı idi. Zabitlər nizam-intizama əməl etməyi səhra məhkəmələrinin fəaliyyət gçstərməsini , fərarilik edən əskər və zabitlərə qarşı amansız olmağı tələb edirdilər. Mən belə həsab edirəm ki, orduda kifayət qədər bacarıqlı zabitlər var. Amma əskər və zabitlərin fərqləndirilməsində düzgün meyarların olmaması,vuruşanların xidmətinin layiqincə qiymətləndirilməməsi onları ruhdan salır…..Kəlbəcər beləcə arxayınçılığın qubanı oldu.Camaatın bütün var-dövləti düşmənə qaldı.Yenə sağ olsunlar Xanların ,Şəmkirin icra başçılarını , polis rəislərini ,qonşu rayonların cəbhəçiləri. Xanların polis rəisi Murovda günlərlə postda dayanırdı…..

**----Qərargahın fəaliyyəti necə təşkil olunmuşdu** ?

Fəaliyyət pis təşkil olunmamışdı. Amma dövlət nümayəndələrinin bəziləri bilməyərəkdən , yaxud qəsdən .öz funksiyalarını yerinə yetirmirdilər.Kəlbəcər cavanlarının , polisin , ümumiyyətlə , döyuş qabiliyyətli əhalinin geriyə qayıtmasına çalışdığımız halda ,bəzi qüvvələr açıq-aşkar bunun qarşısını alırdı. «Murovdağ» xeyriyyə cəmiyyətinin fəaliyyətində də anlaşılmamazlıqlar var idi. Gəncənin icra başçısı və polis rəisi fəaliyyətsiz idilər. Gəncənin icra başçısı verdiyimiz tapşırıqları yerinə yetirmir , ya da qulaqardına vururdu.

Fövqalədə vəziyyətlə bağlı prezident fərmanından sonra AXC İK qərar qəbul edib. Bu qərara görə AXC RŞ –nin iqtisadiyyat şöbələrinin müdirləri komendanta müavin tövsiyə olunur.Mənə elə gəlir ki ,bu yaxşı haldır. İstənilən nüfuzlu təşkilatın nümayəndəsinin bu tərkibdə olması yalnız işin xeyrinədir.AXC Gəncə şöbəsi də qərara uyğun olaraq öz numayəndəsini şəhərin komendantı Nadir Abbasova tövsiyə edib .O da etirazını bildirib. Prezident aparatının nümayəndəsi , həm də Gəncə şəhərinin kuratoru kimi onlar kömək üçün mənə müraciət etdilər.

Zəng vurub komendantla danışdıqda o məni təhqir elədi. İcra hakimiyyətinin binasına gəlməyi təklif etdikdə : «Lazımdır, özün gəl yanıma»,-dedi. Sonra isə hədələdi. Prezident Aparatının məsul işçisi ilə belə davranan adamın komendant saatını layiqincə yerinə yetirməsi şübhə doğurur. Bunu icra başçısı Elxan Qədimovun Hüseyn Naibova və mənə qarşı münasibətinin nəticəsi kimi də qəbulk etmək olar….

BİR MƏSƏLƏNİ DƏ DEMƏYİ LAZIM BİLİRƏM.HƏRBİ HİSSƏLƏRDƏN ÇƏKİLİŞLƏR DAYANDIRILMALIDIR. HƏR DƏFƏ EYNİ SUJETLER GÖSTƏRİLİR: «BİZ BURADA VURUŞURUQ . BAKIDA TAY – TUŞLARIMIZ SİQARET, SAQQIZ SATIR, KOMİSSİYONDA İŞLƏYİR » VƏ SAİR. BU ƏSKƏRLƏRDƏ DƏ , ÇAĞIRIŞÇILARDA DA RUH DÜŞKÜNLÜYÜ YARADIR. JURNALİSTLƏRİN HƏRBİ HİSSƏLƏRƏ BURAXILMASI MƏHDUDLAŞDIRILMALIDIR. BƏZƏN GÖRÜRSƏN Kİ, HANSISA XARİCİ JURNALİST HEÇ BİR MANEƏ OLMADAN CƏBHƏYƏ , QƏRARGAHLARA GEDİB ÇIXIR. BUNLARA SON QOULMALIDIR.

*« AZADLIQ » qəzeti 10 aprel 1993-cü il № 39*

# ŞƏHİDLƏR VƏ ƏLİLLƏR

# *XANLAR ŞƏHİDLƏRİ*

*Xanlar rayonunun nə Qarabağla, nə də Ermənistanla sərhəddi yoxdur. Buna baxmayaraq «Qarabağ» fitnəkarlığı rayonun əzalarında sağalmaz yaraya çevrilib. Bu yaraların ağrısını faciə başlayan gündən göstərilən bölgələrlə birlikdə Xanlar da çəkməkdədir. Buna isə əsas səbəb rayonun ərazisinin keçmiş Şaumyan rayonu ilə sərhəd olması , habelə rayonda namərd qonşuların nümayəndələrindən yaşamaları olmuşdur. Rayon bu faciəni 1988-ci ilin 20 fevralından yaşamağa başladı. Rayonun milis işçilərinin Dağlıq Qarabağa ezamiyyəti ilə başladı bu faciə .Sonra….. Sonra isə səriştəsiz keçmiş rayon və respublika rəhbərliyindən ,televiziyadan, mətbuat orqanlarından təmkinə,səbrə, dözümə cağırışlar eşitdik. Bir tədbirsə görmədik. Biz dözməyimizdə , ermənilər və onların havadarları isə öz cinayətkar əməllərini davam etdirməkdə idilər. Odur ki, ermənilərin Azərbaycana bəxş etdikləri « paydan» - şəhid payından Xanlara da pay düşdü. Bu gün həmin şəhidləri bir də anırıq.*

*« Anıram,yada salıram. Keçib getmiş saatları ,günləri qaytarmaq istəyirəm. Vaxtın ətəyindən yapışıb saxlamaq istəyirəm.Saniyələri ,dəqiqələri ,anları dayandırmaq istəyirəm.*

*An dayana bilməz.*

*Vaxtın indisi yoxdur.Olmuşları,olacaqları var.*

*…..Yazmaq istədiyimi yazmaqdan ,yazmağa başlamaqdan qorxuram, indi ,yazmağa başlayanda da mətləbə keçməkdən qorxuram. Qorxuram qələmim qanaya» (ANAR)*

*Qonşumuz Əkrəmin , İlqar Novruzovun atasının qəmli sifəti, nəmli gözləri dayanır qarşımda. Dunya ananın məsum baxışları qəlbimi parçalayır.*

*«Çöl dünyasında nə qədər gəzib dolansaq da son səfərimiz torpağa yox, içəri dünyamızadır.Torpağa bizi bizdən sonra başqaları gömürlər. Biz isə özümüz yolumuzun son mənzilinə çatmaq üçün son həddi adlayıb ardımızca qapını bağlayırıq_gözlərimizi yumuruq. Bu dəfə həmişəlik….*

*…..Ölüm - həyatın inkarı yox, təsdiqidir, onun sonluğu ,tamlığı, tamamlığı, bütövlüyünün yekunudur.*

*….Amma, məgər ömürlərin yalnız sonu deyil, butun illəri bir dastan deyilmi?*

*….Hər çətinliyin ,hər gümansızlığın dibindən boy verib qalxan ümid də …»(Anar)*

*Şəhidlərin ruhu şad olsun ! Təqdim edilən Siyahıda Ramizin ,Şahinin adları yoxdur,çünki onlar şəhid deyildilər. Onlar qələbəmiz uğrunda itkin düşmüşlər. Və ürəyimizin dərinliyində haradasa onların sağ salamat olması haqqında bir ümid də yaşayır.*

*Şəhidlər ! Kimdir onlar?*

*Onların içərisində 4 yaşlı _ hələ dunyanın bu qarmaqarışıq işlərindən baş açmayan məsum körpə də var, təqaüdə çıxmağa hazırlaşan milis kapitanı da, yenicə rütbə almış milis leytenantı da , işə yeni qəbul edilən milis serjantı da . Bu işlərə heç bir qarışacağı olmayan evdar qadın da, əsl həyatı yenicə dərk etməyə başlayan cavan da, Vətənimizi yağılardan müdafiəyə qalxan ərazi milli müdafiə batalyonun qəhrəman döyüşçüsü də ,kəndini müdafiəyə qal xan müəllim də ,qeyrətinə tapınıb könüllü olaraq kəndlərimizin müdafiəsinə qalxan cavanlar da var bu siyahıda . Ancaq yenə də ümid edirsən ki, hər dərdə dözümlü xalqımız yerindən kükrəyib qalxacaq ermənilərin,onların havadarlarının vəhşi,cinayətkar əməllərinin qarşısını birdəfəlik alacaqdır.Çünki o oğuz oğludur, boz rəngli qurd ağızlıdır.Unutqanlığımız və laqeyidliyimiz sayəsində, tarixə etinasızlığımızdan, namərd qonşuları başa keçirməyimizin nəticəsində başımıza gələn bu faciə bir də təkrar olmayacaq. Ağbaba adlı qoca qartalın yumurtasından İtbarak adlı köpək bir daha çıxmayacaqdır və buna imkan vermək olmaz!*

*Bu qan yerdə qalmayacaq!!!*

*«… Onların olmaması fikri ilə barışa bilməyəcəyəm.*

*…Mənə elə gəlir ki, harasa gedibər.Mütləq qayıdacaqlar..*

*Odur ki, əlvida deyə bilirəm onlara…*

*Sağ olun---deyirəm.*
*Sağ olun ki, vasrdınız.*
*Sağ olun ki, vasrsınız*
*Sağ olun ki, həmişə bizimlə qalacaqsınız» (Anar).*

## *«QARABAĞ ŞƏHİDLƏRİ» XANLAR RAYONU ÜZRƏ*

**1. Abbasov Ə.S. (1985 - 28.12.1989)**

*28 dekabr 1989-cu ildə naməlum erməni quldurları tərəfindən Quşçu kəndindəki evlərinin pəncərəsindən evə partlayıçı maddənin atılması nəticəsində partlayışdan həlak olmuş, ailənin qalan üzvləri yaralanmışdır.*

**2.Əlihüseynov Əliqara Əliaslan oğlu (1948 - 12.01. 1990)**

*Göranboy rayonun Todan kəndindəki Xanlar adına kolxozun sədri işləyirdi.4 uşağı var idi*
*12 yanvar 1990-cı ildə saat 17 radələrində şəxsiyyəti müəyyən edilməyən erməni quldurlarının istifadə etdikləri vertalyotdan Todan kəndi atəşə tutulub,gülləboran edilərkərkən həlak olmuşdur.*

**3. Məmmədov Abbasqulu Əzim oğlu (1965 — 12.01.90).**

*Gəncə şəhərində yaşayırdı. Könüllü olaraq Todan kəndini erməni quldurlarından qorumağa getmişdi. 12 yanvar 1990-cı ildə saat 16 radələrində şəxsiyyəti müəyyən edilməyən erməni quldurlarının istifadə etdikləri vertalyotdan Todan kəndi atəşə tutulub, gülləboran edilərkən həlak olmuşdur.*

**4. Əliyev Bəxtiyar Nadir oğlu (1965 - 1990).**

*Gəncə şəhərində yaşayırdı.Könüllü olaraq Todan kəndinin erməni quldurlarından qorumağa getmişdi.12 yanvar 1990-cı ildə saat 17 radələrində şəxsiyyəti müəyyən edilməyən erməni quldurlarının istifadə ətdikləri vertalyotdan Todan kəndi atəşə tutulub, gülləboran edilərkən həlak olmuşdur.*

**5. Qasımov Ruzigar İmran oğlu (1956 - 12.01.1990 ).**

*Gəncə şəhərində yaşayırdı.Könüllü olaraq Todan kəndini erməni quldurlarından qorumağa getmişdi. Digər yoldaşları ilə birlikdə erməni quldurlarının vertolyotdan açdıqları atəş nəticəsində 12 yanvar 1990-cı ildə saat 17 radələrində həlak olmuşdur.*

**6. Vəliyev Neman Əli oğlu (1962 — 14.01.1990).**

*Gəncə şəhərində yaşayırdı .Könüllu olaraq azərbaycanlı kəndlərini qorumaq üçün Xanlar rayonun ərazisinə gəlmişdi. Hacıkənd qəsəbəsinin kənarında nömrə nişanları məlum olmayan naməlum vertolyotdan açılan atəş nəticəsində həlak olmuşdur.*

**7.Hacıyev Səbuhi Fəxrəddin oğlu ( 1969 - 14.01.1990)**

*Xanlar şəhərində yaşayırdı. Könüllu olaraq azərbaycanlı kəndlərini qorumaq üçün Hacıkənd qəsəbəsinə gəlmişdi. 14 yanvar1990-cı ildə saat14 radələrində Hacıkənd qəsəbəsinin kənarında nömrə nişanları məlum olmayan naməlum vertolyotdan açılan atəş nəticəsində N. Vəliyevlə birlikdə həlak olmuşdur.10 nəfər yaralanmışdır.*

**8.Əhmədov Məmmədəli Zeynalabdın oğlu ( 1940 -30.11.1990)**

*Milis kapitanı.Xanlar Rayon Daxili İşlər Şöbəsinin sahə müvəkkili idi. Himayəsində 5*

*nəfər ailə üzvü, 30 noyabr1990-cı ildə iş yoldaşları ilə birlikdə Qarabulaq (Martunaşen) kəndində pasport rejimini yoxlamaq üçün gedərkən kəndin kənarında erməni quldurlarının milis işçilərinə silahlı hücumu nəticəsində həlak olmuşdur.*

**9.Ağayev Sənan Fərrux oğlu ( 1959 -30.11.1990 )**

*Milis leytenantı.Xanlar Rayon Daxili İşlər Şöbəsinin sahə müvəkkili işləyirdi. Himayəsində 2 nəfər ailə üzvü var idi, 30 noyabr 1990-cı ildə milis işçiləri ilə birlikdə Qarabulaq kəndində pasport rejimini yoxlamaq üçün gedərkən kəndin girəcəyində erməni quldurlarının milis işçilərinə silahlı hücumu nəticəsində yoldaşları ilə birlikdə həlak olmuşdur.*

**10.Məmmədov Şərif Şaban oğlu ( 1955- 30.11.1990 )**

*Milis serjantı. Xanlar Rayon DİŞ nin Səfərəliyev bölməsinin əməkdaşı . İki uşağı var idi.30 noyabr1990-cı ildə digər milis yoldaşları ilə birlikdə Qarabulaq kəndində həlak olmuşdur.*

**11. Məmmədov Rafiq Cəbrayıl oğlu ( 1967- 30.11.1990 )**

*Milis serjantı. 30 noyabr1990-cı ildə digər yoldaşları ilə birlikdə Qarabulaq kəndində həlak olmuşdur.*

**12.Əliyev Sərhəddin Yaqub oğlu (1954- 30.11.1990)**

*Milis serjantı. İki uşağı var idi.30 noyabr1990-cı ildə digər milis iyoldaşları ilə birlikdə Qarabulaq kəndində həlak olmuşdur.*

**13.Rzayev Raqub Yaqub oğlu (1953- 30.11.1990)**

*Milis serjantı.1 uşağı var idi. 30 noyabr1990-cı ildə digər milis yoldaşları ilə birlikdə Qarabulaq kəndində həlak olmuşdur.*

**14. Musayev Gürzalı Oruc oğlu ( 1941 – 20.02.1991)**

*Xanlar rayonu Vaqif adına sovxozun direktoru işləyirdi.3 uşağı var idi. 20 fevral 1991-ci ildə Quşçu kəndi yaxınlığında naməlum erməni quldurları tərəfindən xidməti maşınının atəşə tutulması nəticəsində sürücü ilə birlikdə həlak olmuşdur.*

**15. İmanov Daşdəmir Teyyub oğlu ( 1963 – 20.02.1991)**

*Xanlar rayonu Vaqif adına sovxozda sürücü işləyirdi. 2 oğlu var.1988-ci ildə Ermənistan SSRin Basarkeçər rayonun Əzizli kəndindən Xanlar rayonuna pənah gətirmişdi. 20 fevral 1991-ci ildə Quşçu kəndi yaxınlığında erməni quldurları tərəfindən sürücüsü olduğu maşınını atəşə tutularkən həlak olmuşdur.*

**16. Rzayeva Amalya Lətif qızı (1953 - 27.01.1991)**

*Evdar qadın. 2 uşağı var. 27 yanvar 1991-ci ilildə Sarısu kəndindən hüzr yerindən gələrkən saat16.30 radələrində Sarısu - Dozular yolunda erməni quldurları tərəfindən getdikləri maşın atəşə tutularaq vəhşicəsinə* ***qətlə yetirilmişdir.***

**17. Sarıyeva Sədaqət Lətif qızı (1955 - 27.01.1991)**

*4 uşağı var. 27 yanvar 1991-ci ildə Sarısu kəndindən hüzr yerindən qayıdarkən Sarısu - Dozular yolunda saat16.30 radələrində erməni quldurları tərəfindən getdikləri maşın atəşə tutularaq bacısı A.L.Rzayeva və əri Sarıyev N.T.ilə birlikdə qətlə yetirilmişdir.*

**18. Sarıyev Nüsrət Tağı oğlu (1946 - 27.01.1991)**

*Sarısu kəndindən qayıdarkən həyat yoldaşı S.Sarıyeva və baldızı A.Rzayeva ilə*

*birlikdə erməni quldurları tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir.*

***19. Hacıyev Aydın Haqverdi oğlu ( 1960 - 30.04. 1991)***

*Xanlar şəhərində yaşayırdı. 2 oğlu var idi. 1991-ci ildə Çaykənd kəndində pasport rejiminin yoxlanılması vaxtı bələdçilik etdiyi rus əskərləri ilə birlikdə əsir alınıb.Əskərlər buraxıldıqdan sonra erməni quldurları tərəfindən Çaykənddə vəhşicəsinə qətlə yetirilmişdir.*

***20.Verdiyev Nəcəf Əşrəf oğlu (1942 - 24.04. 1991)***

*Sarusu kəndində müəllim işləyirdi. 5 uşağı var idi. Buzluq və Mənəş kəndlərindəki erməni quldurlarının hücumundan kəndlərini qorumaq üçün postda durarkən 24.04.1991 –ci ildə erməni quldurlarının açdıqları atəş nəticəsində həlak olmuşdur.*

***21. Verdiyev Dilqəm Nəcəf oğlu (1969- 01.01. 1992)***

*Subay. Cambaz dağının döşündəki erməni istehkamından Sarısu kəndinə açılan atəşi Xanlar ərazi müdafiə batalyonun döyüşçüləri ilə birlikdə dəf edərkən qəhrəmancasına həlak olmuşdur.*

***22. Novruzov İlqar Yevgeni oğlu (1968- 06.01. 1992)***

*Subay. Xanlar şəhərində yaşayırdı. Cambaz dağının döşündəki erməni istehkamından Sarısu kəndinə açılan atəşi xidmət etdiyi Xanlar rayon ərazi müdafiə batalyonun döyüşçüləri ilə birlikdə dəf edərkən qəhrəmancasına həlak olmuşdur. (6 yanvar1992-ci il).*

***23. İsmayılov İsmayıl (1963 - 06.01. 1992)***

*İki uşağı var idi.. Xanlar şəhərində yaşayırdı. Cambaz dağının döşündəki erməni istehkamından Sarısu kəndinə açılan atəşi xidmət etdiyi Xanlar rayon ərazi müdafiə batalyonun döyüşçüləri ilə birlikdə dəf edərkən döyüş zamanı, 6 yanvar1992-ci ildə itkin düşmüş ,5 aprel 1992-ci ildə cənazəsi döyüş gedən ərazidən tapılaraq , 6 aprel 1992-ci ildə Xanlar şəhərindəki Şəhidlər Xiyabanında torpağa verilmişdir.*

***24. Cəfərov Ramiz Cəlal oğlu (1965 – 06.01.992)***

*Subay idi. Ermənistan qaçqınlarından idi. 1989-cu ildən Xanlar şəhərində yaşayırdı. 6 yanvar 1992-ci ildə Cambaz dağının döşündəki erməni istehkamından Sarısu kəndinə edilən hücumları xidmət etdiyi Xanlar rayon ərazi müdafiə batalyonun döyüşçüləri ilə birlikdə dəf edərkən qəhrəmancasına həlak olmu ş,18 aprel 1992-ci ilədək taleyi haqqında heç bir şey məlum olmamışdır. 18 aprel 1992-ci il tarixdə cəsədi erməni quldurlarının meyidi ilə dəyişdirilərək ermənilərdən alınıb , 19 aprel 1992-ci ildə Xanlar şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.*

***25. Əliyev Şahin Sadıx oğlu (1966 – 18.02.1992)***

*Qarayeri qəsəbəsində yaşayırdı .18 fevfal 1992-ci ildə Cambaz dağının döşündəki erməni istehkamından, Buzluq və Manaşid kəndlərindən Sarısu kəndinə edilən*

*hücumları xidmət etdiyi Xanlar rayon ərazi müdafiə batalyonun döyüşçüləri ilə birlikdə dəf edərkən qəhrəmancasına həlak olmuş,18 aprel 1992-ci ilədək taleyi haqqında heç bir şey məlum olmamışdır ,18 aprel 1992-ci il tarixdə cəsədi erməni quldurlarının meyidi ilə dəyişdirilərək 19 aprel 1992-ci ildə Qarayeri qəsəbəsində dəfn olunmuşdur.*

**Hazirladı: İSLAM BAYRAMO**

***«İKİ SAHİL» qəzeti 21 may 1992-ci il № 21***

***«GÖY GÖL» qəzeti 5 may 1992-ci il № 19***

ÇAYKƏND : ERMƏNİ QULDURLARI AZĞINLIQ EDİRLƏR:

## *NOVRUZA BİR AY QALIRDI*

Gürzalı günləri bir-birinə calaya - calaya evdəkiləri ovundururdu ki, çətini bu qış çıxana qədərdi. Qarşıdan bahar gəlir. Sağlıq olsun,novruz bayramında ailəlikcə Quşçu Armavirə gedirik.Ona qədər Namiq Bakidan gələr. Gedib o yerləri görərsiniz, yal-yamac eyzən bizimkinə oxşayır.»Bizimki »deyəndə Gürzalı Göyçəni,doğulduğu Nərimanlı kəndni nəzərdə tuturdu. O dağları xatırlayırdı.Əslində elə onu bu yerlərə bağlayan da bu oxşarlıq olmuşdu. İki il qabaq Göyçə adlı ağır elat yüngül-yüngül boxçalara sığışıb buralara pənah gətirəndə Gürzalı qohum əqrəbasına bələdçilik etmək üçün Quşçu Armavirə gəlmişdi.O vaxtlar texniki təminat birliyinin direktoru işləyən, səriştəli kənd təsərrüfat işçisi Vaqif adına sovxozda direktor yerinin boş olduğunu eşitmişdi.Lakin, belə bir çətin zamanda kim idi düşmənlə qonşu olmağı arzulayan.İki gündən bir ermənilər təsərrüfatın mal qarasını oğurlayırdılar,adamlara güllə atırdılar.Onsuz da məsul işlərdə püxtələşmiş Gürzalı bir tərəfdən bu çətinliyi nəzərə alıb , bir tərəfdən də əhalisi didərginlərdən ibarət olan bu kəndin halına yanıb sinəsini qabağa verdi.Gürzalı Musayev sovxoz direktoru olan gündən ailə üzvlərinin səksəkəli günləri başlandı. Erməni ekstremistləri isə təzə direktorun bu cəsarətindən bir az da ağzınlaşdılar.Həmlələr,hücumlar davam edirdi. Direktor isə öz işində idi .Sovxozda işə başladığı günlərdə qarşıya başqa çətinlik də çıxırdı. Buranıın iqtisadiyyatına bələd olmayan adamlar işə hardan başlayacaqlarını bilmirdilər. Yeni məskunlaşmış kəndlilərin ehtiyacları ilə bağlı nə qədər sosial qayğılar dururdu qarşıda.Üstəlik adamlara təsəlli də lazım idi.Göyçə dağlarının xiffəti ilə dolanan bir ixtiyar nənə direktoru hər görəndə soruşurdu ki, hanı Basarkeçər, hanı bizim o dərələr, yamaclar. Sonrada bir bayatı çağırırdı nənə:

Bu dərə narın dərə
Getdicə narın dərə
Göyçədə bağ saldım ki,
Yağılar narın dərə?

Hər dəfə də dağdan ağır kişini qəhər boğurdu. Deyirdi buralarda da bağ salacağıq, ay nənə buraları da şenləndirəcəyik, darıxmayın.Özünün ürəyinə dammışdıki nə vaxtsa bu el öz dədə baba torpaqlarına qayıdacaq. Axı ora da Vətəndir. Vətəni isə tərk etmək olmaz. Adamların qəribsəməməsi fikir çəkməməsi üçün əlindən gələni

əsirgəmirdi.Bayrama az qalırdı, Aynurə səmənilər göyərtmişdi,Əqilə paxlava bişirirdi.Tələbə Namiq Bakıda oturub atasının teleqramını gözləyirdi.Ailə Quşçu - Armavirə gedəcəkdi .Bahar bayramını «qəriblərlə « birlikdə keçirməkdən ötrü . Fevralın 20 – də erməni ekstremizmi özünün növbəti cinayətini törətdi. Sovxoz direktoru Gürzalı Oruc oğlu Musayev öz sürücüsü ilə birlikdə vəhşicəsinə öldürüldü.Musayevlərin nəslinə, Azərbaycan xalqına ermənilərin Novruz qabağı « töhvəsi» oldu bu qara xəbər.Öz qasırğa atına minib acı yellər kimi əsdi.Doğmalarını ovundurmaq üçün təsəlliyə söz də qalmayıb.Barı onların adları tarıximızdə sön şəhid kimi yazlaydı……

## *ÖLÜM YÜYRƏK GƏLDİ.*

Hər səhər Daşdəmir sükan arxasına keçəndə Səlmi Abbasəli qızı əllərini göylərə qaldırardı:»----Ulu tanrı cəmi sürücüləri pənahında saxla,üstündə də mənim balamı».Səlmi ananın balası sürücü idi. 6 oğlun biri,uşaqların gözə- gəlimlisi, üzü yola balası.Ana oğlunun qəfil avtomobil qəzasına düşməyindən qorxurdu.Dədə- baba yurdlarından didərgin düşüb gələndə özünə təsəlli verirdi ki,təki balalarıma sədəmə toxunmasın.Ailənin yarısı Xanlara köçdü, Mirzikdə yerləşdi.Yarısı da Bakıya üz tutdu.Yanvar faciəsi günü ananın ürəyi tablamadı.Bakıda olan övladlarından elə nigaran qaldı ki, yatağa düşdü.İki gün keçməmiş uşaqların hamısının sağ sədası gəldi.Lakin Səlmi ana ayağa durmağa dizində taqət tapmadı. Nə olsun ki, dedi—bəs o tanklar altında qalanlar kimin balasıdır. Bu dərdi analar gəzdirə bilməz.Elə o yıxılan yıxıldı.Bir evin ağbirçəyi düz şəhidlərin qırxı günü ömrünü tamamaladı.Hələ ili də çıxamayıb.Martın ikisində anaya il verəcəkdilər.

Səlmi ananın istəkli balası Daşdəmirin ölümü daha yüyrək gəldi,kəsə yolla özünü çatdırdıBala itkisindən qorxan ananın oğlu,sanki ana ölümünə dözə bilməyib dünyasını dəyişdi. Hələ 28 yaşı tamam olmamış cavanın yas yerinə toplaşanlar göynədilər ki, arvadın qəbri indi od tutub yanır…

İmanovların ailəsi Ermənistandakı rahat, geniş mənzillərini tərk edəndən sonra kiçik - kiçik otaqlara sığındılar.Daşdəmir isə 4 nəfərlik ailəsi ilə qardaşı evində yetrləşdi. 4 yaşlı Abbas, 2 yaşlı Elvin yüyürməyə, iməkləməyə yer axtaranda cavan ata gördü ki, ev evə sığmaz. Ancaq özünün polad biləklərinə, sağlam vücuduna baxanda inanırdı ki, balarına bir gün şərait yaradacaq. İndi isə Daşdəmir yoxdur. O öz cavan canını xalqın yolunda qurban vermişdir. Ölənlə ölmək olmur- deyiblər.Ancaq qalanlara gün ağlamaq çoxlarının mənəvi borcudur. Daşdəmirin ailəsinə mənzil vermək onların maddi vəziyyətini yaxşılaşdırmaq üçün rayonumuzda hansı işlər görüləcək? Elə bu fürsətin ardıncada səlahiyyəti çatan oğullarımızın qeyrətini sınağa çəkək.Didərgin şəhidin balaları vaxtından çox-çox əvvəl düçar olduqları bəlanın qonşuluğunda bir yaxşılıq da görüb böyüsünlər. Bu dünyadan doymayan cavanın ruhu isə barı o dünyada şad olsun.

Artıq bir hədftədir ki,şəhərimizin girəcəyində salınmış xatirə parkında tənha uyuyan şəhid Səbuhinin «qonaqlarının» ardı arası kəsilmir . Onun təzə qonşuları ilə vidalaşanlar hər üç qəbrin üstünə gül- çiçək düzüllər.Şəhidlər qəhrəmandırlar,sinəsini düşmən gülləsinə sipər edənlərə ölüm yoxdur.Vaqif adına sovxozun direktoru da,onun sürücüsü Daşdəmir də Azərbaycan xalqının xüsusi ilə Xanlar camaatının ürəyində özünə əbədi bir yuva qurub.

*« GÖY GÖL » qəzeti*

*2 mart 1991-ci il № 18*

*- İgid ölər, adı qalar-*

## DAĞLAR OĞLU

Mənalı, şərəfli ölümündən bir il keçir Nəcəf müəllimin. Bir il əvvəl - 1991-ci ilin aprel ayının 24-də toepaq,Vətən yolunda ,varlığı canı qədər sevdiyi yurdunu ,elini ermənilərdən qorumaq uğrunda şəhid oldu Nəcəf müəllim.

İllərin qanadında yaşa dolan və kənddə müllim işləyən N.Verdiyev ermənilərin belə alçaq xəyanətini ,namərdliyini ağlına belə gətirməmiışdi. Birdən –birə hər şey dəyişdi.Azərbaycanın çörəyini yeyən, suyunu içən ,havasını udan ermənilərin torpaq, ərazi ələ keçirmək sərsəmliyi nə Nəcəf müəllim dözə bilmədi.Siydaşlarının tökülən günahsız qanları rahatlığını əlindən aldı. Daxilində azalmaq bilməyən nifrət,qəzəb hissi aşıb-daşdı ,yuxusu ərşə çəkildi. Az keçmədi onun səsi-sorağı dərələrdən,təpələrdən gəldi. Gecə-gündüz müdafiədə durdu Nəcəf müəllim. Dəfələrlə ermənilərin alçaq planını pozdu ,onların dərsini verdi.

Kənd camaatınım köməyinə gələn milis birinci Nəcəfi tanıdı,onunla çiyin-çiyinə dayandı. Dağlar oğlu hər yerdə özünü qabağa qeyrətli kənd cavanları ilə atır, sərrast atəşi ilə naxələf düşməni çaşdırır,yerinə oturdur,el oğullarını ruhdan düşməyə qoymurdu.

Heyhat. Ömrünün 49-cu baharında şəhid oldu Nəcəf müəllim.

.....24 aprel səhəri idi.Gecənin zulmət qaranlığı yavaş-yavaş çəkilir, dan yeri sökülürdü. Bütün gecəni səksəkəli ,ayaq üstə olmuş Nəcəf müllim yoldaşları ilə Sarısu kəndinə qayıdırdılar. Baharın məhəbbətindən boy atıb yaşıl donunugeymiş otlar,təravətli güllər,ağaclar üfüqdən boylanan günəşin gümüşü şüalarıaltında göz oxşayırdı. Birdən naməlum tərəfdən dalbadal atəş səsləri eşidildi. Kənd sakini Emil -- məni vurdular, deyib ufuldadı. Nəcəf müəllim cavab atəşi açıb bir göz qırpımında yerini dəyişdi. Şiddətli atışma başlandı.Ancaq vəziyyət əlverişsiz idi. Düşmən hündür yerdə ,sıx meşəlikdə pusqu qurmuş və möhkəmlənmişdi.Ermənilər bir az ara verib atəşi yenidən gücləndirdilər. Kəndin müdafiəçilərindən ölənlər,yaralananlar var idi. Nəcəf müəllim də yaralanmışdı. O, nəfəsini dərib - Siz geri çəkilin ,tez köməyə adam çağırın –dedi. Sonra yenidən irəli süründü. Həyəcanlı dəqiqələr gedirdi.Düşmən müqavimətin zəiflədiyini görüb irəliləyirdi. Bu Nəcəf müəllimin son döyüşü oldu.O,şücaətlə vuruşaraq dünyasını dəyişdi.

Ermənilər igidin cəsədini aradan çıxarmaq istəyirdilər.Özünü yetirən hüquq mühafizə orqanlarının işçiləri və vətənpərvər qüvvələr buna imkan vermədilər.

Sarısu kəndinin XX1 əsrin astanasında yazılmaqda olan qəhrəmanlıq səlnaməsi Nəcəf Əşrəf oğlu Verdiyevlə başlamışdır.O, Sarısu kənd qəbristanlığında əbədi uyuyur.

**HAŞIYƏ.** Sarısu kənd orta məktəbinə Nəcəf Əşrəf oğlu Verdiyevin adı verilmişdir. Məktəbin kollektivi Nəcəf müəllimin və onun oğlu ,Xanlar ərazi özünümüdafiə batalyonun şəhid əskəri Dilqəmin həyat və fəaliyyətinə aid ayrıca muzey yaratmaq fikrindədir.Həyatda özünəməxsus izi, əməlləri olan kəslər xoşbəxtdir.Vətən, xalq heç vaxt onun yolunda qurban gedənləri unutmur. Heç vaxt.

Kamal Bəşiroğlu

*« GÖY GÖL » qəzeti 5 may 1992-ci il*

*DAĞ KƏNDİNİN İGİDLƏRİ*

*Salam hörmətli « Göy göl » qəzeti!*

*Bu məktubu sizə Sarısu kəndindən yazıram.Hamıya məlumdur ki, bu kənd neçə ildir ki, Buzluq,Mənəş, Erkec kəndləri ilə vuruşur.Vaxtı ilə də Çaykənd və Qarabulaq kəndlərində yuva salmış erməni quldurları ilə döyüşməli olub.Ancaq Sarısuda yaşayanlar bilirlər ki bütün bunlara dözmək üçün gərək dağ olasan.Həm də məğlub olmamaqdan ötrü başbilənin, məsləhətverənin ola.Uzun illər Sarısu kənd orta məktəbinin müəllimi Nəcəf Verdiyev bizə döyüşlərdə bələdçi oldu,atışma kəsəndən sonra isə ağsaqalımıza,məsləhətçimizə çevrildi.Necəf müəllim torpağı doğma balası hesab edirdi.Bütün günü başının dəstəsi ilə kəndin sərhəddini dolanır,cavanlara yol göstərirdi.Düşmən Nəcəf müllimin əlinin suyunu görmüşdü. Hətta Gəncənin,Bakının xüsusi təyinatlı milis dəstəsinin əməkdaşları da onun mərdliyinin,cəsurluğunun qarşısında heyrətlərini gizlətmirdilər.Düşmən Nəcəf müəllimi əsl namərdlər kimi arxadan vurdu.1991-ci il aprel ayının 26-da Nəcəf müəllimi dəfn etdik.Nahaq yerə demirlər ki, qəhrəmanlar ölmürlər.Nəcəf müəllimin silahını dərhal oğlu Dilqəm götürdü. 1991 –ci iln lap axırıncı gününə qədər düşmənə qan uddurdu. Onun da taleyi atasınınkına bənzəyirmiş. İki erməni qulduru Dilqəmi arxadan vurdu.Onun yerə düşmüş silahını əmisi Eldar götürdü.Dilqəmin qatilləri elə oradaca məhv edildilər.Allah onların torpağı sanı Eldara ömür versin. İndi kəndinimizin bu qəhrəman oğlu Sarısuda döyüşlərdədir. Əzizlərinin ,xalqının övladlarının qisasını dönə-dönə almağa and içib. Sarısu döyüşür, tez-tez rayon rəhbərləri, ayrı-ayrı adamlar döyüşçülərin görüşünə gəlirlər.Bir həqiqəti danmaq olmaz ki, rayon icra hakimiyyətinin başçısı Murad Aşurov ,eləcə də xalq deputatımız Surət Hüseynov Dilqəmin dəfn mərasimində nə lazımsa etdilər.Onların bu cür qayğıkeşliyi bir daha sübut etdi ki,rəhbərlə xalq bir olanda düşmənin sonu yaxınlaşır.Bu məktubumu qələmə alanda qarşıya qoyduğum məqsəd tamam başqa idi.Lakin nə yaxşıların yaxşılığını unutmaq olur,nə də igidlərin hünərini . Lakin sözümün sonunda bütün həmkəndlilərimin bir arzusunu bildirmək istəyirəm.Azərbaycanın Milli Qəhrəmanı adı təsis olunandan sonra biz düşündük ki, qəhrəman məhz Nəcəf müəllim kimi adamlar olur.Ona görə də xahiş edirik ki, bizim bu arzumuzu qəzetdə dərc ədəsiniz.Qoy xalqımız öz qəhrəmanlarını tanısın.Aprel günlərində Nəcəf müəllimin bir ili tamam oldu. Onun ruhunu bir daha şad etmək üçün adını tutduq,balasının hünərindən danışdıq. Quran ayəsi kimi bu da nakamlar üçün vacibdir.Allah şəhidlərə rəhmət eləsin…*

*ƏMRAH VERDİYEV.*
*SARISU KƏNDİ.*
*« GÖY GÖL» qəzeti*
*5 may 1992-ci il № 19*



иди.

ман а[illegible]шам, өлдүрсә дә бу алманы јејәчәм. Јарысыны да мәнә вер, бир јердә јејәк. — деди. Алманы јеничә јемишдик ки, башга јолдашларымыз да кәлдиләр. Башымыз гарышды. Бирдән атәш сәсләри ешитдик. Јахынлыгдакы фермадан гүввәтли атәш ачырдылар. Дилгәм бир нечә нәфәрлә гәфләтән атәш алтына дүшмүшдү. Күлләнин онлара дәјмәсиндән еһтијат едиб һәдәфләрдән кәнара атылдыг. Чох тәәссүф ки, чох чәһд вә сә'јләримизә бахмајараг ону хилас едә билмәдик. Дилгәмин јохлугуна һеч чүр инана билмирәм.

Ханлар рајон Зијадлы кәнд сакини, сырави әскәр Тејјуб Илјас оғлу Исмајылов:

— Дилгәми јанвар ајынын 1-дә күнүн күнорта чағы саат 1-ә бир нечә дәгигә иштәмиш итирдик. Һәр шеј көзләнилмәз олду. Бир јердә идик. Биринчи мәни

[illegible] јолдан кечмишди. Онун сон сөзү бу олду: — «Тејјуб мәни унутма —. Чығырыб јолдашларымы көмәјә чағырдым. Достумузун чәсәдини атәш алтындан зорла чыхара билдик. Һеч вахт, өмрүмүн сон дәгигәләринәдәк Дилгәми унутмајачағам. О, өлмәјиб, әксинә өлмәзлик газаныб.

Сарысу кәнд сакини, сырави әскәр Сабир Исмајыл оғлу Һүсејнов:

— Ушаглар «Дилгәм јохдур» — дејән кими елә бил бәдәнимдән електрик чәрәјаны кечди. Гејри-ихтијари ашағыја — дәрәјә тәрәф јүјүрдү. Бир аз кетмишдим ки, мәни дә атәшә тутдулар. Ашағы әјилиб бир аз кери чәкилдим. Сонра башга тәрәфдән габаға сүрүндүм. Бирдән Тејјуб Исмајыл оғлуну көрдүм. Она јахынлашыб Дилгәми сорушмаг истәјирдим ки, сол гычымда агры дујдум. Әввәл һисс етмәдим. Дилгәмә тәрәф јүјүрмәјә чәһд етдим. Анчаг ајаға галха билмәјиб, бүдрә-

## ŞƏHİD OĞLU

Ölümündən ikicə gün əvvəl əskər dostları ilə ,atası kəndin ilk şəhid oğlu Nəcəf müəllimin ( o, 24 aprel 1991-ci ildə həlak olub) məzarını ziyarət eləmişdi. Baş daşına əbədi həkk olunmuş şəkli qucaqlayan oğul « Rahat yat ,ata sənin arzu istəyin heç vaxt yerdə qalmayacaq»- demişdi. Həmin gün Dilqəm bir daha Vətənə ,xalqa sədaqət andı içmiş, ata qarşısında bir növ hesabat vermişdi…..

Dilqəm Verdiyev hərbi xidməti Çerniqovda keçirmişdi. Qayıdandan sonra doğma yurdunu ,ata,anasının ,el obasının qayğısını çəkməyi hər şeydən uca tutmuşdu. Evin böyük oğlu ,ata əvəzi idi.

O,Azərbaycan Milli Ordusuna üzv yazılmaq istəyəndə heç kəs razı olmamışdı.»Atan Vətən yolunda qurban getdi.Sən özünü qoru ,ailənizə başçılıq elə «- deyə çyüd nsihət vermişdilər. Ancaq Dilqəmin qərarı qəti idi . Sənədlərini hissəyə təqdim etmiş , onun arzusuna əməl etmişdilər. Heç ikicə ay deyildi. Azərbaycan Milli Ordusunda xidmət edirdi. ….

Cəmi səkkiz ay əvvəl mərd ,igid oğlunu ,indi isə övladdan da şirin nəvəsini itirmiş və bir neçə günün içində daha da əldən ayaqdan düşmüş Əşrəf dayı ağır müsibətlər görmüş dağa bənzəyir. Onun dediyinə görə əvvəllər hər işə ağır tərpənən nəvəsi son vaxtlar oda alova dönmüşdü. Nə gecə evdə tapılırdı,nə də gündüz. Əşrəf dayının ömür-gün yoldaşı ağlamaqdan heydən düşmüş Məleykə nənənin, »Oğul » - deyib ah-nalə çəkən Almaz xanımın vəziyyəti ürək göynədir.

…… İlin axırıncı günü Dilqəmi yoldaşları ilə bir yerdə yola salmışdı. Təbii ki,həyəcan və təlaş içərisində . Əskər dostu Ədalət Mustafayevin ad günündə iştirak etmiş ,onu ürəkdən təbrik etmişdi.

Namərd ermənilər kənd camaatının , müdafiədə dayanmış əskər və milis işçilərinin «yeni il rahatlığını « Yanvarın 1-də səhər tezdən pozdular.Erməni quldurları ermənilər yaşayan Buzluq kəndi tərəfdən qüvvətli hücuma keçdilər.həmin gün sıravi əskər Dilqəm Verdiyev zirehli maşını ilə dostlarına lazımı sursat və ərzaq daşıyırdı . Milli Ordunun əskəri , starşina Sədrəddin Əsədovun dediklərindən:

_ Yanvar ayının 1-də gündüz saat 10 radələri olardı. Ermənilərin ikinci atəş nöqtəsi məhv edildi. Səngərdən bir alma tapdıq.Dilqəm də yanımda idi. Dedm_---- Dilqəm ,yaman acmışam,öldürsə də bu almanı yeyəcəyəm. Yarısını da mənə vər bir yerdə yeyək –dedi.Almanı yenicə yemişdik ki,başqa yoldaşlarımız da gəldilər . Başımız qarışdı. Birdən atəş səsl əri eşitdik.Yaxınlıqdakı fermadan qüvvətli atəş açırdılar. Dilqəm bir neçə nəfərlə qəflətən atəş altına düşmüşdü. Güllənin onlara dəyməsindən ehtiyat edib hədəflərdən kənara atıldıq. Çox təəssüf ki,çox cəhd və səylərimizə bbaxmayaraq onu xilas edə bilmədik.

Xanlar rayonu Ziyadlı kənd sakini ,sıravi əskər Teyyub İlyas oğlu İsmayılov :

--Dilqəmi yanvar ayının 1-də günün günorta çağı saat 1-ə bir neçə dəqiqə işləmiş itirdik. Hər şey gözlənilməz oldu.Bir yerdə idik.Birinci məni qolumdan vurdular. Dilqəm bunu bilən kimi yanıma keçdi və qalxıb mənə kömək etmək istədi. Kaş yerindən tərpənməyə idi. Başını qaldıran kimi qıvrılıb qıvrılıb qucağıma çökdü. Və qırıq səslə –«Məni də vurdular «-dediÖzümü unutmuşdum.Ona «Bir az da döz»- deyib yalvarırdım.Ancaq iş işdən keçmişdi.Onun son sözü bu oldu-«Teyyub ,məni unutma» .Çığırıb yoldaşlarımı köməyə çağırdım.Dostumun cəsədini atəş altından zorla çıxara bildik. Heç vaxt Dilqəmi unutmayacağam.O,ölməyib. Əksinə ,ölümü ile ölməzlik qazanıb.

Sarısu kənd sakini ,sıravi əskər Sabir İsmayıl oğlu Hüseynov :

_Uşaqlar «Dilqəm yoxdur»-deyən kimi elə bil bədənimdən elektrik cərəyanı keçdi.Qeyri ixtiyari aşağıya –dərəyə tərəf yüyürdük. Bir az getmişdim ki,məni də atəşə tutdular . Aşağı əyilib bir az geri çəkildim. Sonra başqa tərəfdən qabağa süründüm. Birdən Teyyub İsmayıl oğlunu gördüm.Ona yaxınlaşıb Dilqəmi soruşmaq istəyirdim ki,

*sol qıçımda ağrı duydum. Əvvəl hiss etmədim.Dilqəmə tərəf yuyurməyə cəhd etdim.Ancaq ayağa qalxa bilməyib ,büdrəyib yıxıldım.Qan itirdiyimdən huşumu itirdim. Sonra ağzı üstə qarın üzərinə uzandım. Özümə gələndə yoldaşlarımı səslədim. Bakılı uşaqlardan köməyə gələnlər də vatr idi. Quldurlar atəşi gücləndirərək onların irəliləməsinə imkan vermirdilər.Belə olanda var gücümü toplayıb yoldaşlarım tərəfə sürünməyə başladım. Onlara çatar –çatmaz Dilqəmə kömək etməyi xahiş etdim. Teyyub və bakılı uşaqlar Dilqəmə tərəf getdilər. Vəziyyətim yenidən pisləşdi və huşumu itirdim.Heyf,Dilqəmi qoruya bilmədik, o, öləsi oğul deyildi.*

*.... Dağ kimi bir oğul da vaxtsız dünyasını dəyişdi.Onun hələ nə yaşı var idi,görəcəyi günlər qabaqda idi.Deyirlər, rəhmətlik astagəllikdə və çeviklikdə atasına çəkmişdi.Qısa muddətdə əskərlərin , milis işçilərinin rəğbət və hörmətini qazanmışdı.Qoçaqlıq, el oba təəssübkeşliyi çəkmək haradasa övlada kökdən ,ata-babadan keçir. Dilqəmin atası Nəcəf müəllim kəndin ilk şəhidi idi. Düşünürdük ki,o kənddə birinci və axırıncı itki olacaq. Ancaq deyəsən hələ görəcəyimiz zülmətli günlər qabaqda imiş.*

*Sən Xanlar rayonunda olan milli ordu hissələri arasında ilk şəhidsən. Dilqəm! Buna görə mənsub olduğun batalyonun təchizat işləri üzrə komandir müavini Ramiz Ağəliyev batalyona sənin adını verməк və and içmə mərasimlərini məzarın üstündə keçirməyi təklif edir. Sənin yaxından tanıyan milli əsgər, starşina Sədrəddin Əsədov mərdliklə həlak olduğun « Çəpərqaya» nı «Dilqəm» qalası adlandırılır.*

*On il rayonunda təhsil aldığın Sarısu kənd orta məktəbinin direktoru Ələkbər Hüseynov isə atanın adını daşıyacaq məktəbdə adına muzey yaradılacağını söyləyir.*

*Şəhid oğlu! Sən xalqımızın qəhrəmanlıq salnaməsində, nəsillərin yaddaşında əbədi yaşayacaqsan, Vətən,xalq heç vaxt onun uğrunda canından keçənləri unutmur.Əslində elə Vətən onun yolunda canından keçənlər üçün Vətəndir. Ölümü ilə əbədilik qazanan Dilqəm Nəcəf oğlu kimilər üçün.*

*KAMAL BƏŞİROĞLU*
*« GÖY GÖ L » qəzeti 11 yanvar 1992-ci il №4*

## *ŞƏHİDLƏR HEÇ VAXT ÖLMÜRLƏR*

*Hər bir nəslin payına ataların görmədiyi çətinliklər düşür. İndiki nəslin qisməti nədir? Hər dəfə bu suala qürurla cavab verərdik.Deyərdik ki, biz məhz ata babalarımızın qurduğu gözəl dövranda yaşayırıq. Bu gün isə o qürur da, o iftixar hissi də bizdən uzaq düşüb.Daha ağ günlərimizi tərənnüm etməyə sözümüz qalmayıb.Bizim payımıza düşən çətinliklər babalarımızınkından da, atalarımızınkından da qat-qat çətin oldu.Müharibə illərində əlinə silah götürüb faşistlərin üstünə yeriyən böyüklərimiz heç olmasa kimə qarşı müharibə apardıqlarını bilirdilər.O müharibənin düşmən tərəfi vardı, bir də özünü müdafiyə qalxmış adamlar vardı.İndi isə 4 ildir ki, hücumsuz elansız müharibə bizi taqətdən salıb,nə hücum edən məlumdur,nə də özünü müdafiə edən.Adamın düşməni bir olar.Bizi isə bilmirik, bizi ermənilər qırır,onları fitnəliyən ruslarmı, yoxsa çiyinlərinə avtomat aşıran ,kəmərlərini patrondaş edən xaricilərmi? Hələ bu qıtlıq məsələsi. Çörək dərdi,yavanlıq həsrəti ,xırda para qayğılar adamları küçələrə tökməyə hazırlaşır.Elə vəziyyətdəyik ki,bu geniş dunyada bizə həsəd aparan xalq çətinki tapıla. Biz isə çoxlarına həsədlə baxırıq.Layiq olmadıqları halda hörmətdə tutulan admlara ,yalnız öz qayğıları ilə yaşayanlara və başqalarına həsəd aparırıq. Deyirlər,dərdlini dindirməsən yaxşıdır.Adam heç bilmir,nəyi qoysun ,nədən danışsın. Niyə İlqarın —bu gülərüz oğlanın dəfn mərasimi münasibəti ilə qələmə aldığımız bu yazını belə uzaqdan başladıq. Bu da səbəbsiz deyil. İlqar özgə planetdən gəlməmişdi ,ha O,da parta arxasında öz müəllimlərindən öyrəndiyi dərsi ürəklə təkrarlayırdı, lap bizim kimi:*

*Yer üzünü qarış qarış gəzəsən,*

*Biz bəxtəvər uşaqlara tay olmaz.....*
*Onda İlqar nə biləydi ki,zəhmətkeş atası Əkrəm kişi səhərdən axşama qədər işləyir,evə gətirdiyi isə ancaq qazancının beşdə biridir.Qalanı « böyük qardaşlarımızın « kisəsinə gedir. Belə sakit bir şəraitdə böyüyən oğlanün sinif rəhbəri olmuş Məmmədxan Abduyevin söhbətini eşidəndə adam az qalır dəli olsun.Elə bil analar yaxşı oğulları qara torpaqlar üçün məxsusi doğublarmış.Səbuhiyə güllə dəyəndə taleyin –seçməni təyin etməsinə təəccüb etdik,təəsssüflər söylədik. Qorxmaz milis işçilərimiz həlak olanda heyrətləndik. Aydının cəsarəti dillərə düşdü. Dilqəm atası Nəcəfdən də qoçaq çıxdı. O birilər də belə.Hamısının adını çəkə bilmirik. İndi də İlqar.....*

*Todan yaxınlığında ermənilərin törətdikləri azğınlıqlardan sonra müdafiə batalyonun xüsusi dəstəsi həmin kəndin yaxınlığında özünə məskən saldı. İlqar Novruzov öz adını həmin dəstəyə birinci yazdırmışdı.Yoldalşarı onun cəsarətindən yana-yana danışırlar.Böyüklərin bir sözünü iki etməzdi. Hara göndərsələr yarıdardı. Bunları eşitdikcə Məmmədxan müəllimin dedikləri bir də yadımıza düşür:*

*_ İlqar əlaçı deyildi. Lakin sinifdə uşaqların hamısından hörmətli idi. Şəhər 4 №-li orta məktəbdə olan müəllimlər onun ölümünə ürəkdən yanırlar. Yaman utancaq idi. Məktəb vaxtı tez-tez uşaqları məhsul dərriminə aparırdıq. İlqar başını sallayıb səylə işləyirdi.Onun intizamı pozduğu hallar olmazdı.İnanın mənə,belə şagirdimiz az olur. Texniki peşə məktəbinin kollektivi də matəm içindədir.Axı, İlqar burada peşə öyrənmişdi. Sonra isə bir müddət mərkəzi rayon xəstəxanasında sürücü işləmiş,dediyimiz kimi müdafiə batalyonuna birincilər sırasında yazılmışdı.Bəs necə olmuşdur ki, İlqar, --- o utancaq oğlan döyüşdə*
*hamıdan cəsarətli,hamıdan qoçaq idi.Buna deyirlər ki, kül altda köz varmış. Bir də bu közün səmum yerlərində alışıb yanmağı varmış. İlqar bilirdi ki, müdafiə etdiyi doğma torpaq hər şeydən qiymətlidir. Bilirdi ki, müdafiə naminə atdığı hər addım bacılarını,anasını,Vətəni qorumaq deməkdir. Beləcə şirin canını əsirgəmədi bu torpaqdan. Bizləri—diriləri özünə mənəvi cəhətdən borclu salıb əbədiyyətə qovuşdu.Bu borcumuzu ödəmək üçün nələr etməliyik. Bu barədə düşünməliyik. Hələlik isə qəhrəman İ.Novruzovun dəfn münasibəti ilə*
*keçirilən mitinqdə onun barəsində nə lazımsa qeyd olunurdu.*

*Şəhərin bütün idarə və təşkilatlarının nümayəndələri,ağsaqqalar,veteranlar,məktəblilər dəfn mərasimində iştirak edirdilər. Rayon İcra Hakimiyyətinin başçısı M.M.Aşurov, rayon sovetinin sədri S.H.Ələsgərova,eləcə də rayonun bağqa rəhbərləri qəhrəman həmyerlilərimizin dəfnində iştirak etmək üçün mitinqdə idilər .İlqar Novruzovun barəsində rayon Soveti sədrinin müaviini T.Cəfərov danışdı. Rayon ağsaqqaları adından isə Ş.Mustafayev çıxış etdi. Axundun yasin sürəsindən sonra mərhum torpağa tapşırıldı. Gəncə yolunun kənarındakı müqəddəs ziyəratgah daha bir igidi qəbul etdi. Orada Səbuhi uyuyur. Aydın uyuyur,məsləki bir,hünəri oxşar oğullar əbədi yuxuya dalıb.Bu gündən İlqar da bu torpaqda özünə məskən tapdı.Şəhidimizin biri də artdı....Biz Çaykənddən qorxurduq.Nə qədər ki, Çaykənddə ermiəni vardı elə bilirdi ki,bizim nicatımız yalnız bu kəndi təmizləməkdən asılıdır.Elə bilirdik ki,axırıncı erməni buradan gedəndən sonra tarixə heç bir xanlarlı şəhidin adı yazılmayacaq.Yox nə qədər ki,Azərbaycan torpağı murdarlardan təmizlənməyib həmımız düşmənlə Vətəni müdafiyə qalxacaq.Torpağın hamısı birdir.Bu respublikanın kəndi də, şəhəri də bizə doğmadır anamız kimi.Sözümüzün sonunda kiçik bir təsəlli üçün üzümüzü İlqarın anasının tuturuq. Onun simasında övlad dağlı,şəhid balalı bütün analara deyirik: Toxdaq olun analar,oğullarımız canlarını Vətənə qurban verdilər. Belə oğullarla fəxr etmək olar. Bu torpaq hələ çox qoçaqlar yetişdirəcək.Yalnız onda- torpağımızdan düşmənin həniri kəsiləndən sonra inanacaqsınız ki, doğrudan da şəhidlər ölmürlər.*

*Bənövşə RƏHİMOVA.*

« GÖY GÖL» qəzeti
11 yanvar 1992-ci il № 4

# SÜKUTLA YAD EDİLMİŞLƏR

Yanvarın 20-də Bakı vaxtı ilə saat 12.00-da Azərbaycanın bütün ərazisində 20 yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verildi.

Azərbaycan Respublikası Prezidentinin İcra Aparatı rəhbərinin sərəncamına əsasən təsdiq edilmiş "20 yanvar faciəsinin on doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı"na uyğun olaraq, respublikanın bütün şəhər, rayon, qəsəbə və kəndlərində, idarə və müəssisələrində mərasimlər keçirilmişdi.

***

**Göygöl rayonu da 20 Yanvar hüzn günü tədbirlərini şəhidlərin ruhuna bəslənən ən böyük ehtiram kimi qeyd etmiş, şəhid ailələri yad olunmuş, məktəblərdə 3 gün bu mövzuya dair dərs keçirilmiş, inşa yazı yazdırılmışdır.**



*1. Rauf Nuru oğlu Əsədov, 2. Rüzigar İmran oğlu Qasımov, 3. Abbasqulu Əzim oğlu Məmmədov, 4. Bəxtiyar Nadir oğlu Əliyev, 5. Neman Əli oğlu Vəliyev, 6. Səbuhi Fəxrəddin oğlu Hacıyev, 7. Aydın Haqverdi oğlu Hacıyev, 8. Əliqara Əliaslan oğlu Hüseynov, 9. İlqar Yevgeni oğlu Novruzov, 10. Bayram İsmayıl oğlu Nəsibov, 11. Məmmədəli Zeynal oğlu Əhmədov, 12. Sənan Fərrux oğlu Ağayev, 13. Sədrəddin Yaqub oğlu Əliyev, 14.Rafiq Cəbrayıl oğlu Məmmədov, 15. Şərif Şaban oğlu Məmmədov.*

# 20 YANVAR BAYATILARI

*Doğuldum ki, öləm mən*
*Vətən nədir biləm mən.*
*Bu gün gəlmişəm, ana!*
*Göz yaşını siləm mən.*

*Gecə-gündüz yanıram,*
*Qarabağı anıram.*
*Azərbaycan nə çəkir.*
*Məzarda da qanıram.*

*Dərdi-qəmi bölərdik,*
*Göz yaşını silərdik.*
*..rabağı qaytarıb*
*Sonra gərək ölərdik.*

*O Qorbaçov canavar*
*Ölməyibdir yenə var.*
*Allah, dərddən-bəladan*
*Odlar yurdunu qurtar.*

*Məzarda yanmaz çıraq*
*Məzarda zülmət otaq*
*Ruhunuz sizinlədir*
*Yurdu gərək qurtaraq.*

*Sən ey hörmətli Vətən!*
*Oğlu qeyrətli Vətən!*
*Düşmən gözünü çəkmir*
*Səndən, sərvətli Vətən!*

*Oraq al, yağını biç,*
*Öldürüb qanını iç.*
*Vətəni sevən oğul*
*Öləndə of deməz heç.*

*20 ilə qalıb az*
*Gəlir qan laləli yaz*
*Qalanlar sağ olsunlar*
*Yatanlar bir də durmaz.*

*Dağların daşı ağlar*
*Dərd görməz naşı ağlar.*
*20 yanvar, – deyəndə*
*Gözümün yaşı ağlar.*

*Tank bizi qırdı necə,*
*Var idik, döndük heçə.*
*Ölüb olduq igid, nər*
*Bakı ağlayan gecə.*

*Nur olub göydən yağaq*
*Hər yana işıq salaq*
*Qorbaçov bu dünyaya*
*Gəlmir ki, tutub boğaq.*

*RAHAT UYU İSMAYIL*

*Todan nalə çəkirdi. Canbaz düzündə Vətən torpağını qoruyan oğullar sinələrini güllə qabağına verirdilər.Xanlarlıların dincliyi pozulmuşdu.Damarlarında millət qeyrəti çağlayan oğullar öz iş güclərini atıb milli müdafiə batalyonuna qoşulurdular. Bu şəhərə təzəcə sakin olmuş İsmayıl öz-özünə düşünürdü: Gürcüstandan köçüb Azərbaycana gələndə fikirləşmişəm ki, xalqımın şad günündə də ,dar günündə də soydaşlarımla bir sırada olum. Madam ki,bu rayonu seçmişəm ,indi ki, burada özümə ev-eşik ,gün-güzaran düzəltmək istəyirəm,deməli,onun həndəvərinə dolaşan yağı mənim də düşmənimdir.Beləcə düşündü, qərib İsmayıl .Beləcə həyat yoldaşı Esmiraldanı ,iki körpə oğul balasını ovundurub yola gətirdi. Həm də tapşırdı ki ,çalışın mənim müdafiə batalyonuna getməyimi Gürcüstandakı qohum-əqraba hələlik bilib narahat olmasınlar.*

*1992-ci ilin 6 yanvarındaTodan kəndi yaxınlığında erməni quldurları ilə aparılan qanlı döyüş İsmayılın son döyüşü oldu.Həmin günün səhərisi xanlarlılar şəhid İlqarın dəfn mərasiminə toplaşanda ağızlarda vahiməli bir xəbər dolışdı. İsmayıl itkin düşüb. Günlər keçdi,əzizləri İsmayılı soraqlaya –soraqlaya günəri axşam , axşamları səhər etdilər .Körpələrin uzaqdan görünən dağlara zillənən güzlərinin kökü saraldı. Esmiralda bir təhər özünü ələ alıb qaynanasını ,balalarını inandırmağa çalışırdı ki,İsmayıl qayıdacaq. Çox yerə yozuldu bu itki. Lakin bilən olmadı ki, elə həmin gündən güllə yarası ilə qətlə yetirilmiş İsmayıl qarlı,çovğunlu meşədəcə uyuyub. 1992-ci ilin qışının qarı ,yağışı onun əskər libasına bürünmış cəsədinin üstünə tökülür. Anasının qarışıq yuxuları ,balalarının həsrətdən çatlamış dodaqları nə qədər çağırsa da qayıtmadı İsmayıl…..*

*Bu günlərdə Xanlar milli müdafiə batalyonunun əskərləri təsadüfən onun cəsədinə rast gəldilər.Esmiralda ərinin paltarlarının köməyi ilə çətinliklə tasnıdı.Xanlarlılar Şəhid oğlanın dəfn mərasimini keçirmək üçün Qarabağ küçəsindəki 29№li evin həyətinə toplaşdılar. Yer-göy lərzəyə gəlirdi. Maya xalanın səsi küçələrdə əks-sədə verdi:*

*Burda bir qərib ölüb*
*Göy kişnər bulud ağlar….*

*Ana öz balasın qərib deyə oxşayırdı. Dəfn mərasiminə toplaşanlar onun bu bayatısına əlavələr edirdilər.Deyirdilər ki,İsmayıl qərib deyil .Qərib torpaq uğrunda ölə bilməz.Qurbət qəribi belə şərəflə son mənzilə yola salmaz. Dəfn mərasimi münsaibəti ilə keçirilən mitinqdə rayon soveti sədrinin müavini Təhməz Cəfərov çıxış edərək bildirdi ki, biz xanlarlılar o zaman İsmayılın ruhu qarşısında öz borcumuzu yerinə yetirmiş olacağıq ki , onun ailəsinə ,iki körpə oğluna dayaq ola bilək. Matəm marşının sədaları altında Xanlar şəhidlərinin uyuduğu yerə gətirilən cənazə əklillərə qərq olmuşdu. Döyüş dostları bir daha and içdilər. And içdilr,dedilər ki, bu xiyabanda şəhid qəbirləri qazıldıqca qəzəbimiz nə qədər artırsa bir o qədər də qolumuza yeni güc gəlir. Matəm mitinqində Xanlar rayon İcra Hakimiyyətinin başçısı M.M. Aşurov da iştirak etdi.İsmayıl İsmayılov ölümündən üç ay sonra torpağa tapşırıldı.Şəhid üçün ,əlbəttə torpaq qoynu daha rahatdır. Günlər keçəcək , qələbə xəbəri ilə sevinən xanlarlılar şəhidlər uyuyan bu guşəyə vuqarla ayaq basacaqlar.Yalnız ondan sonra mənəvi haqqımız olacaq ki, bu nakamların hər birinə deyək: rahat uyuyun ,Şəhidlər…..*

« GÖY GÖ L » qəzeti
11 aprel 1992-ci il № 16

# ERMƏNİSTAN - AZƏRBAYCAN - DAĞLIQ QARABAĞ MÜHARİBƏSİNDƏ XANLAR RAYONU ÜZRƏ HƏLAK OLANLAR HAQQINDA MƏLUMAT

| № | Hərbi hissənin adı və № si | Şəhidin familiyası, adı, atasının adı və vəzifəsi | Anadan olduğu və hərbiyə çağırıldığı tarix | Həlak olduğu tarix | Yaşadığı ünvan |
|---|---|---|---|---|---|
| | | **MÜLKİ İNSANLAR** | | | |
| 1. | Mulki şəxs | Abbasov Ə.E. | 1984 | 2812.1989 | Quşçu kəndi |
| 2. | Mulki şəxs | Əlihüseynov Əliqara Əliaslan o | 1948 | 12.01.1990 | Todan kəndi |
| 3. | Mulki şəxs | Məmmədov Abbasqulu Əzim | 1965 | 12.01.1990 | Gəncə şəhəri |
| 4. | Mulki şəxs | Əliyev Bəxtiyar Nadir o | 1965 | 12.01.1990 | Gəncə şəhəri |
| 5. | Mulki şəxs | Qasımov Ruzigar İmran o | 1956 | 12.01.1990 | Gəncə şəhəri |
| 6. | Mulki şəxs | Vəliyev Neman Əli o | 1962 | 14.011990 | Gəncə şəhəri |
| 7. | Mulki şəxs | Hacıyev Səbuhi Fəxrəddin | 1969 | 14.01.1990 | Xanlar şəh. |
| 8. | Mulki şəxs | Musayev Gürzalı Oruc o | 1941 | 20.02.1991 | Xanlar şəh |
| 9. | Mulki şəxs | İmanov Daşdəmir Teyyub | 1963 | 20.02.1991 | Xanlar şəh |
| 10. | Mulki şəxs | Rzayeva Amalya Lətif q | 1953 | 27.01.1991 | Xanlar şəh |
| 11. | Mulki şəxs | Rzayeva Sədaqət Lətif q | 1955 | 27.01.1991 | Sarısu kəndi |
| 12. | Mulki şəxs | Sarıyev Nüsrət Tağı oğlu | 1946 | 27.01.1991 | Sarısu kəndi |
| 13. | Mulki şəxs | Hacıyev Aydın Haqverdi o | 1960 | 30.04 1991 | Xanlar şəh. |
| 14. | Mulki şəxs | Verdiyev Nəcəf Əşrəf o. | 1942 | 01.05.1991 | Sarısu kəndi |
| | | ***MİLİS İŞÇİLƏRİ*** | | | |
| 1. | Milis kapitanı | Əhmədov Məmmədəli Zeynalabdı o. | 1 940 | 30.11.1991 | Xanlar ş |
| 2. | Milis leytenantı | Ağayev Sənan Fərrux o. | 1959 | 30.111990 | Xanlar şəh. |
| 3. | Milis serjantı | Məmmədov Şərif Şaban o. | 1955 | 30.11.1990 | Xanlar şəh |
| 4. | Milis serjantı | Məmmədov Rafiq Cəbrayıl o. | 1967 | 30.11.1990 | Xanlar şəh |
| 5. | Milis serjantı | Əliyev Sərhəddin Yaqub o. | 1954 | 30.11.1990 | Xanlar şəh |
| 6. | Milis serjantı | Rzayev Raqub Yaqub o. | 1953 | 30.11.1990 | Xanlar şəh |
| | | ***DÖYÜŞLƏRDƏ ŞƏHİD OLANLAR VƏ İTKİN DÜŞƏNLƏR*** | | | |
| | | | | | |
| 1. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Verdiyev Dilqəm Nəcəf o sıravi , atıcı | 1969 Xanlar HK 8.10.1991 | 01.01.1992 | Sarısu kəndi |
| 2. | H/h 815 ərazi özünü müdafiə taboru | Novruzov İlqar Yevgeni o | 1968 Xanlar | | Xanlarş.20-ci məh. b.1 mən1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | (ƏÖMT) Hacıkənd | sıravi , atıcı | HK 8.10.1991 | 06.01.1992 | |
| 3. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | İsmayılov İsmayıl Səlimxan o sıravi , atıcı | 1966 könüllü | 06.01.1992 | Xanlar ş. Qarabağ k.29 |
| 4. | H/h 815 Ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Cəfərov Ramiz Calal o sıravi , atıcı | 1965 Xanlar HK 8.10.1991 | 06.01.1992 | Xanlar ş. A.Hacıyev k.13 |
| 5. | H/h 815 Ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Əli yev Şahin Sadı o sıravi , atıcı | 1968 Xanlar HK 8.10.1991 | 06.01.1992 | Xanlar ray. Qarayeri qəs |
| 6. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Mahmudov İbrahim Qələndər sıravi , atıcı | 1966 Xanlar HK 03.1992 | 02.05.1992 | Xanlar ray. Çaylı kəndi |
| 7. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Quliyev Vüqar Müslüm o sıravi , atıcı | 1972 Xanlar HK | 02.05.1992 | Xanlar ş .hərbi şəhərcik №13 |
| 8. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Məmmədov Tofiq Şahsuvar o | 1968 Xanlar HK1992 | 02.05.1992 | Xanlar ray Çaykənd kəndi |
| 9. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Məmmədov Ərşad Hidayət o sıravi, mexanik-sürücü | 1957 Xanlar HK1992 | 02.05.1992 | Xanlar ray Üçtəpə kəndi |
| 10. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Hacıyev Etibar Firuddin o taqım komandiri ***MİLLİ QƏHRƏMAN*** | 1971 könüllü | 13.06.1992 | Xanlar ray. Yeni Zod kəndi |
| 11. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Hüseynov İbrahim İslam o baş leytenant | 1947 könüllü | 15.06.1992 | Xanlar ş. H.Əliyev pr13 |
| 12. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Möyləmov Araz Dadaş o | 1969 könüllü | 20.06.1992 | Xanlar ray Xəqani kəndi |
| 13. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Vəliyev Emil Qara o leytenant, komandir. | 1965 könüllü | 29.06.1992 | Xanlar ş. D.Verdiyev.38 |
| 14. | H/h 815 ərazi özünü | Rzayev Əsgər Valeh o, | 1964 | | Xanlar ray. |

| | | | | | |
|---|---|---|---|---|---|
| | müdafiə taboru (ƏÖMT) Hacıkənd | atıcı, yefretor | könüllü | 03.07.1992 | .Mollacəlilli k. |
| 15. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Məmmədov Səfiyyəddin Şahsuvar o sıravi , atıcı | 1959 könüllü | 03.07.1992 | Xanlar ray. Yeni Zod kəndi |
| 16. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Qurbanov Turan Əkbər o sıravi , atıcı | 1973 könüllü | 04.07.1992 | Xanlar ray Sarısu kəndi |
| 17. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Abbasov Osman Cəmil o sıravi , atıcı | 1970 könüllü | 04.07.1992 | Xanlar ray. Pənahlılar k |
| 18. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Əliyev Süleyman Xanzada o. sıravi , atıcı | 196 0 könüllü | 29.06.1992 | Xanlar ray Çaykənd k |
| 19. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Abdullayev Aleksandr Şaban o. sıravi , sürücü | 1960 könüllü | 19.07.1992 | Xanlar ray. Çaykənd k. |
| 20. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Mahmudov Arif Əvəz o. sıravi, atıcı | 196 5 könüllü | 06.09.1992 | Xanlar ş. D.Verdiyev.12 |
| 21. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Nəzərov Cavanşir Əsgər o. sıravi , atıcı | 1972 Xanlar HK1992 | 23.08.1992 | Xanlar ray. Balçılı k |
| 22. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Bayramov Dadaş Vaqif o. sıravi , atıcı | 1973 Xanlar HK1992 | 29.09.1992 | Xanlar ş. A.Zeynallı, bina2, mən.1 |
| 23. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Quliyev Ülfət Qulu o. sıravi , atıcı | 1974 Xanlar HK1992 | 04.10.1992 | Xanlar ray. Toğana kəndi |
| 24. | H/h 777 | Sayadov Mehman Qəzənfər o. sıravi , atıcı ***MİLLİ QƏHRƏMAN*** | 1972 Xanlar HK1992 | 09.05.1992 | Xanlar ray. Hacıməlik qəs. |
| 25. | H/h 826 Tərtər | Məhərrəmov Lətif Əmir o. sıravi , atıcı | 1973 könüllü | 16.06.1992 | Xanlar ray. Xəqani kəndi |
| 26. | H/h 848 Füzuli | Ələsgərov Fikrət Əzim o . sıravi , atıcı | 1971 Xanlar HK1992 | 02.09.1992 | Xanlar ş. A.Hacıyev k.23 |
| 27. | H/h 339 Biləcəri qəs. | İmamquliyev Fəxrəddin Yunis o . sıravi , atıcı | 1973 Xanlar | 18.09.1992 | Xanlar ray. Qızılca kəndi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | HK1992 | | |
| 28. | H/h 724 | Bayramov Elzam Rüstəm o<br>baş serjant, taqım komandiri | 1972<br>Xanlar<br>HK1992 | 04.09.1992 | Xanlar ray.<br>Topalhəsənli k |
| 29. | H/h 777 | Xanlarov Elmidar Nürəddin o.<br>sıravi | 1971<br>Xanlar<br>HK1992 | 29.10.1992 | Xanlar ray.<br>Çaykənd k. |
| 30. | H/h 706<br>Qubadlı | Mədətov Novruz Çingiz o<br>sıravi , atıcı | 1970<br>Xanlar<br>HK1992 | 18.10.1992 | Xanlar ş.<br>A.Hacıyevk.65 |
| 31. | H/h 859<br>Ağdam | Məhərrəmov Zaur Eyvaz o.<br>sıravi , atıcı | 1971<br>Xanlar<br>HK1992 | 29.10.1992 | Xanlar ray.<br>Zurnabad<br>kəndi |
| 32. | | Hüseynov Ərəstun Həsən o. | 1972 | 1993 | Xanlar rayonu<br>Quşqara kəndi |
| 33. | H/h 731 | Əliyev Vahid Mustafa o .<br>sıravi , atıcı | 1973Xanl<br>ar<br>HK1992 | 18.02.1993 | Xanlar ş.<br>Hummel küç. 3 |
| 34. | H/h 815<br>ərazi özünü müdafiə taboru (ƏÖMT)<br>Hacıkənd | Muradov Xəlil Adil o .<br>sıravi , sürücü | 1952<br>könüllü | 01.03.1993 | Xanlar<br>ray.Gəncə k. |
| 35. | H/h 001/( 151) | Qasımov Cavid Sadiq o.<br>sıravi , atıcı | 1968<br>Xanlar<br>HK1993 | 07.03.1993 | Xanlar ray.<br>Zurnabad kən. |
| 36. | H/h 191 | Verdiyev Coşqun Əjdər o .<br>sıravi , atıcı | 1969<br>Xanlar<br>HK1993 | 07.03.1993 | Xanlar ray.<br>Aşıqlı kəndi |
| 37. | H/h 703 | Yusibov Misir Cavanşir o.<br>sıravi , atıcı | 1963<br>könüllü | 23.04.1993 | Xanlar ray.<br>Mollacəlilli k |
| 38. | H/h 67987<br>Ağdam | Abutalıbov Vüqar Elman o.<br>sıravi | 1973<br>Xanlar<br>HK1992 | 17.06. 1993 | Xanlar ray.<br>Quşqara k |
| 39. | H/h 709 Gəncə | Həsənov Bayram Əloş o.<br>leytenant, komandir | 1961<br>könüllü | 14.06.1993 | Xanlar şəh.<br>N.Nərimanov<br>küç. 68 |
| 40. | H/h 709 Gəncə | Quliyev Qabil Mədət o.<br>sıravi , atıcı | 1974<br>Xanlar<br>HK1992 | 02 .06.1993 | Xanlar ray.<br>Topalhəsənli k |
| 41. | H/h 799 | Zeynalov Nəbi Surxay o.<br>sıravi , atıcı | 1975<br>Xanlar<br>HK1993 | 31.07.1993 | Xanlar ray.<br>Quşçu kəndi |
| 42. | H/h 896 | Həsənov Elşən Lətif o | 1961 | 31.12.1993 | Xanlar ray.<br>Hacıməlik qəs. |
| 43. | H/h 929 | Tağıyev Rizvan Vəli o. | 1964 | 23.12.1993 | Xanlar ray.<br>Balçılı k |
| 44. | H/h 130 | Fərzəliyev Asif Yusif o. | 1973 | 29.121993 | Xanlar ray.<br>SMU- 33 qəs. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 45. | H/h 190 | Həmidov Elşad Qoşqar o. | 1974 | 21.04.1994 | Xanlar ray.<br>Çaykənd k. |
| 46. | H/h 190 | Bayramov Səməndər Xanlar o | 1963 | 10.02.1994 | Xanlar ş.<br>Qarabağ küç 48 |
| 47. | H/h 701 | İbrahimov Karlen Adıgözəl o | 1967 | 01.01.1994 | Xanlar ş.<br>Füzuli qəsəb. |
| 48. | H/h 708 | Musayev Pərviz Zamanxan o | 1977 | 07.06.2000 | Xanlar ş.<br>A. Hacıyev k.32 |
| 49. | H/h 896 | Abbasov Məhyəddin Nüsrət o | 1 962 | 31.12.1993 | Xanlar ş<br>Qarabağ k 10 |
| 50. | H/h 190 | Abbasov İlqar Kazım o | 1973 | 11.01.1994 | |
| 51. | H/h 776 | Allahverdiyev Həsən İbrahim | 1974 | 22.03.1994 | Xanlar ş.<br>A.Şəmşir k. |
| 52. | H/h 702 | Abdullayev Zeynal Səlim o | 1969 | 02.08.1994 | Xanlar ray.<br>Göyçəkənd k. |
| 53. | H/h 701 | Ağamməmmədov Əhliqar Səfəralı o | 1969 | 13.02.1994 | Xanlar ray.<br>Çaykənd k. |
| 54. | H/h 701 | Babayev Bəybala Qəhrəman o | 1966 | 12.02.1994 | Xanlar ray.<br>Aşıqlı k |
| 55. | H/h 706 | Bayramov Mustafa Toifiq o | 1978 | 24.10.1997 | Xanlar ray.<br>Balçılı k |
| 56. | H/h 722 | Bayramov Mirsayad Zülfiqar | 1967 | 09.02.1998 | Xanlar ş.<br>Qarabağ k 109 |
| 57. | H/h 896 | Cabbarov Oqtay Qubad o | 1965 | 02.01.1994 | Xanlar ray.<br>Üçtəpə k |
| 58. | H/h 701 | Cəlilov Cavanşir Ənvər o | 1971 | 12.02.1994 | Xanlar ray.<br>Çaykənd k. |
| 59. | H/h 731 | Əhmədov Şöhrət Səməndər o. | 1973 | 20.12.1992 | Xanlar ray.<br>Zurnabad k. |
| 60. | H/h 190 | Əsədov Cəfər Əskər o | 1967 | 18.08.1993 | Gəncə ş Kəpəz r |
| 61. | H/h 130 | Əliyev Eyvaz Yəhya o | 1964 | 24.04.1994 | Xanlar rayonu<br>Xəqani kəndi |
| 62. | H/h 709 | Əliyev Malik İskəndər o | 1973 | 05.06.1993 | Xanlar ray .<br>Hacıməlik qəs. |
| 63. | H/h 704 | Əliyev Arif Qara o | 1974 | 27.01.1994 | Xanlar ş.<br>A.Hacıyev k.90 |
| 64. | H/h 815 | Əskərov Ramiz Qoşqar o | 1968 | 15.06.1992 | Xanlar rayonu<br>Qırıxlı kəndi |
| 65. | H/h 172 | Əsgərov Fizuli Nurəddin o | 1976 | 11.08.1995 | Xanlar rayonu<br>Sarısu kəndi |
| 66. | H/h 815<br>ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Əhmədov Akif Məmmədəli o | 1968 | 03.07.1992 | Xanlar rayonu<br>Mollacəlilli k. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 67. | H /h 896 | Əsgərov Eldar Nazim o | 1965 | 31.12.1993 | Xanlar ray . Hacıməlik qəs. |
| 68. | H /h 702 | Həsənov Qafqaz Əli o | 1973 | 31.08.1993 | Xanlar ray . Şəhriyar k. |
| 69. | H /h 896 | Həsənov Nəsrəddin Rəhim o | 1961 | 29.12.1993 | Xanlar ray. Balçılı kəndi |
| 70. | H /h 190 | Həmidov Elşad Qoşqar o. | 1974 | 20.04.1994 | Xanlar ray. Çaykənd k. |
| 71. | H /h 702 | Hüseynov İsmayıl Aqil o | 1988 | 04.09.2007 | Xanlar ray. Balçılı kəndi |
| 72. | H /h 130 | Hüseynov Elnur Rafik o | 1974 | 03.05.1994 | Xanlar rayonu Topalhəsənli k |
| 73. | H /h 777 | İmanov Vaqif Müseyib o | 1975 | 20.01.1994 | Xanlar ray. Üçtəpə k |
| 74. | H/h 190 | İskəndərov Natiq Cümşüd o | 1976 | 16.10.1994 | Topalhəsənli k |
| 75. | H/h 777 | Kazımov Azay Saday o | 1973 | 15.01.1994 | Xanlar ş. A.Ələsgər k.21 |
| 76. | H/h 130 | Qurbanov Maşallah Nuru o | 1970 | 24.04.1994 | Xanlar rayon Hacıməlik qəs |
| 77. | H/h 701 | Qocayev Fəxrəddin Fərman o | 1973 | 10. 02.1994 | Xanlar rayonu Yeni Zod k. |
| 78. | H/h 928 | Məhərrəmov Ucar İsa o | 1971 | 07.05.1994 | Xanlar ray. Üçtəpə k |
| | | | | | |
| 79. | H/h 706 | Məmmədov Aqil Səməd o | 196 9 | 07.08.1992 | Xanlar ş. Qarabağ k 4 |
| 80. | H/h 703 | Məmmədov Bəylər Eldar o | 1971 | 27.02.1993 | |
| 81. | H/h 701 | Məmmədov Ələddin Məhəmməd | 1966 | 10.02.1994 | Xanlar ray. Qarabulaq k. |
| 82. | H/h 701 | Məmmədov Məhər Ələsgər o | 1966 | 12.02.1994 | Xanlar ray. Çaykənd k. |
| 83. | H/h 776 | **Məmmədov Elşad Ramiz o MİLLİ QƏHRƏMAN** | 1975 | 17.03.1995 | Xanlar ray. Haçaqaya k. |
| 84. | H/h 701 | Məmmədov Rəfael Bayram o | 1972 | 12.02.1194 | Xanlar ray. Çaykənd k. |
| 85. | H/h 190 | Məmmədov Şahin Ziqəm o | 1974 | 27.12.1996 | Xanlar ray. Çaykənd k. |
| 86. | H/h 776 | Mehtiyev Vahid Saleh o | 1975 | 24.04.1994 | Xanlar ray . Şəhriyar k |
| 87. | H/h 190 | Nəcəfov Mahmud Həsən o | 1971 | 14.04.1994 | Xanlar rayonu Mollacəlilli k. |
| 88. | H/h 701 | Nəsibov Rövşən Fərhad o | 1969 | 23.01.1994 | Xanlar ş. 20-ci məhəllə b 9 m 6 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| 89. | H/h 896 | Nəsirov Fətullah Kazım o | 1963 | 02.01.1994 | Xanlar ş. Qarabağ küç . 7 |
| 90. | H/h 243 | Rzayev Arif Lə tif o. | 1958 | 08.07.1993 | Xanlar rayonu Sarısu kəndi |
| 91. | H/h 190 | Vəliyev Vaqif Ziyəddin o | 1974 | 17.04.1994 | |
| 92. | H/h 701 | Verdiyev İqaf Cəlal o | 1960 | 02.05.1994 | Xanlar ş. Qarabağ küç . 54 |
| 93. | H/h 17072 | Zeynalov Ucar Fidayıl o | 1972 | 06.1992 | Xanlar ray. Pənahlılar k. |
| 94. | H/h 799 | Zeynalov Nəbi Surxay o | 1975 | 31.07.1993 | Xanlar ray. Quşçu kəndi |
| 95. | H/h 701 | Zeynalov Qələndər Hüseyn o | 1965 | 12.02.1994 | Xanlar ray. Aşıqlı kəndi |
| 96. | H/h | Rzayev Elxan Qəzənfər o | 1970 | 14.01.1993 | Xanlar ray. Çaykənd kəndi |
| 97. | H/h 130 | Cəfərov Altay Zakir o | 1963 | 25.04.1994 | |
| 98. | H/h 130 | Cəfərov Siyavuş Məsim o | 1967 | 28.10.2007 | Topalhəsənli k. |
| 99. | H/h 776 | Ləzgiyev Çingiz İlyas o | 1973 | 10.02.1994 | |
| 100. | H/h 181 | Canbaxışov Mahmud Surxay o | 1966 | 18.04.1994 | Xanlar ray. Sarısu kəndi |
| 101. | H/h 708 | Rüstəmov Sarvan Bayram o | 1974 | 19.01.1994 | Xanlar ray. Zurnabad kəndi |
| 102. | H/h 709 | Hüseynov Ələddin Hüseyn o | 1970 | 08.07.1993 | Xanlar ray. Sarısu kəndi |
| 103. | H/h 701 | Abbasov Rüfət Ağası o | 1973 | **13.03.1994 itkin düşüb** | Xanlar şəhəri |
| 104. | H/h 702 | Abdullayev Zeynal Səftər o | 1975 | **26.01.1994 itkin düşüb** | Xanlar rayon Hacıməlik qəs |
| 105. | H/h 172 | Atakişiyev Suliddin Fərhad o | 1974 | **itkin düşüb** | |
| 106. | H/h 002 Gəncə | Namazov Pəhlivan Eynal o sıravi | 1969 Xanlar HK 1992 | **11.02.1993 İtkin düşüb** | Xanlar ray. Qırıxlı kəndi |
| 107. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Verdiyev Qürbət Teymur o sıravi , atıcı | 1972 Xanlar Hk1992 | **15.07.1992 itkin düşüb** | Xanlar ray. Pənahlılar kəndi |
| 108. | H/h 3650 | Ağayev Arzu Nazir o | 1973 | **28.01.1993 itkin düşüb** | Xanlar şəh. |
| 109. | H/h 032 | Alzamanov Bəhman Nürəddin o | 1973 | **18.02.1993 itkin düşüb** | Xanlar rayonu Quşqara kəndi |
| 110. | H/h 17072 | Əliyev Rasim Hüseyn o | 1973 | **20.03.1993 itkin düşüb** | Xanlar ş. 1 May Məhəl. B.8 m 8. |
| 111. | H/h 67987 | Cəbrayılov Bəhlul Ziyad o | 1971 | **16.06.1993 itkin düşüb** | Xanlar ray. Göyçəkənd k. |

| | | | | | |
|---|---|---|---|---|---|
| 112. | H/h 952 | Həsənov Zabit İsmayıl o | 1970 | **15.02.1994 itkin düşüb** | Xanlar ray. Göyçəkənd k. |
| 113. | H/h 703 | İskəndərov Azər Həsrət o | 1973 | **24.03.1993 itkin düşüb** | Xanlar ray. Balçılı kəndi |
| 114. | H/h | İsmayılov Telman Zeynalabdin o | 1975 | **14.02.1994 itkin düşüb** | Xanlar ray. Qızılqaya qəs. |
| 115. | H/h 67987 | Qasımo Ədalət Subtay o | | **24.01.1993 itkin düşüb** | Xanlar ray. |
| 116. | H/h 002 | Məmmədov Elman Nürəddin | 1970 | **11. 02.1993 itkin düşüb** | Xanlar ray. Balçılı kəndi |
| 117. | H/h 701 | Novruzov Arif Məhərrəm o | 1964 | **12.02.1994 itkin düşüb** | Xanlar ş. Qarabağ küç . 80 |
| 118. | H/h 181 | Nağıyev Gündüz Babaxan o | 1974 | **10.06.1994 itkin düşüb** | Xanlar ş. A.Hacıyev k. |
| 119. | H/h 701 | Rəhimov Rəhim Eynulla o | 1973 | **14.02.1994 itkin düşüb** | Xanlar rayonu Yeni Zod k. |
| 120. | H/h 701 | Zülfüqarov Vaqif Cuməli o | 1973 | **11. 02.1994 itkin düşüb** | Xanlar ray. Çaykənd k. |
| **XİDMƏTİ VƏZİFƏLƏRİNİ YERİNƏ YETİRƏRKƏN HƏLAK OLANLAR HƏRBİ QULLUQÇULAR** | | | | | |
| 1. | | Nəcəfov Yəhya Kalvalı o | 1972 | 1993 | Çaykənd kəndi |
| 2. | | Cəfərov Məsim Cəfərqulu | | | Pənahlılar kəndi |
| 3. | | Mustafayev Məqsəd Calal o | 1963 | 1993 | Balçılı kəndi |
| 4. | | Alıyev Habil Şəmil o | 1972 | 1994 | Balçılı kəndi |
| 5. | | Hacıyev Rasim Məmməd o | 1965 | 1993 | Yeni Zod kəndi |
| 6. | | Məmmədov Şahbaz Zülfüqar | 1965 | 1993 | Zurnabad kəndi |
| 7. | | Ələskərov Rövşən Səlim o | 1975 | 1994 | Çaykənd kəndi |
| 8. | | Quliyev Oruc Bəhram o | | | Sarısu kəndi |
| 9. | | Əskərov Ənvər Lələkişi o | | | Aşıqlı kəndi |
| 10. | | Əliverdiyev Bəxtiyar Əkbər o | | | A. Ələskər13 |
| 11. | | Həsənov Miraləm Zülfüqar o | | | Qarabağ 109 |
| 12. | | Qəhrəmanov Məzahim Yusif o | | | Göyçəkənd k. |
| 13. | H/h 896 | Hacıyev Xosrov Qəzənfər o | 1962 | 22.11.1993 | Yeni Zod k. |
| 14. | H/h 952 | İbrahimov Oqtay Riba o | 1966 | 21.08.1995 | Xanlar ş .hərbi şəhərcik № 13 |
| 15. | H/h 815 ərazi özünü müdafiə taboru (ƏÖMT) Hacıkənd | Məmmədov Novruz Hadı o. Mexanik , sürücü | 1973 Xanlar Hk 1992 | 28.04.1992 | Xanlar ray. Yeni Zod kəndi |
| 16. | H/h 707 Qazax | Əzizov Yolçu Sayad o. sıravi | 1972 Xanlar HK1992 | 12.09.1993 | Xanlar ş. Qarabağ küç.24 |

# ERMƏNİSTAN – AZƏRBAYCAN - DAĞLIQ QARABAĞ MÜHARİBƏSİNDƏ XANLAR (indiki GÖYGÖL) RAYONUNDAN ƏLİL OLMUŞ ŞƏXSLƏR HAQQINDA MƏLUMAT

| *SıraNo* | *Soyadı, adı, atasının adı* | *Əlillik dərəcəsi* | *Ünvanı* |
|---|---|---|---|
| 1. | Abbasquliyev Rüfət Xancan o | 1 | Göygöl ş. N.Nərimanov kuç. 64 |
| 2. | Cəfərov Elçin Nurəddin o | 2 | Göygöl ş. Aşıq Şəmşir kuç. 1a |
| 3. | Bayramov Teymur Eyyub o | 2 | Göygöl ş. Aşıq Şəmşir kuç. 33 . |
| 4. | Verdiyev Yaşar Əlirza o | 2 | Göygöl ş. N.Nərimanov kuç. 30 |
| 5. | Qasımov Firuz Məsim o | 3 | Göygöl ş. H.Əliye prospekti 141 |
| 6. | Quliyev Tariyel Mövsüm o | 2 | Göygöl ş. S.Hacıyev kuç. 60 |
| 7. | Dursunov Elşən İspəndiyar o | 1 | Göygöl ş. S.Hacıyev kuç. |
| 8. | Əhmədov Alik Həsən o | 2 | Göygöl ş. A.Hacıyev kuç 56 |
| 9. | Hüseynov Hidayət Allahverdi o | 2 | Göygöl ş. A. Şadlinki kuç. 60 |
| 10. | Bəxtiyarov Orxan Eldar o | 2 | Göygöl ş. H. Əliyev prosp. 56 |
| 11. | Hacıyev Fiyat Çapay o | 2 | Göygöl ş. Ordubadi kuç. 53 |
| 12. | Rəhimov Arif Hüseynalı o | 2 | Göygöl ş. M.Rəsulzadə kuç. 43 |
| 13. | *Əskərov Hüseyn Həsən o* | *2* | Göygöl ş. A.Hacıyev kuç .118 |
| 14. | *Cahangirov Telman Cümşüd o* | *2* | Göygöl ş. A.Hacıyev kuç. 66 |
| 15. | *İskəndərov Rafiq Hümbət o* | *2* | Göygöl ş. D.Verdiyev kuç. 32 |
| 16. | *Allahverdiyev Zaməddin Papır o* | *3* | Göygöl ş. M.Rəsulzadə kuç. 56 |
| 17. | *Mərdanov Vəli Hüseyn o* | *2* | Göygöl ş N.Nərimanov kuç. 2 |
| 18. | *Zeynalov Könül Qiyas o* | *2* | Göygöl r. Topalhəsənli kəndi |
| 19. | *Rəhimov Azər Kamal o* | *2* | Göygöl r. Mollacəlilli kəndi |
| 20. | *Tağıyev Cəfər Tağı o* | *3* | Göygöl r. Mollacəlilli kəndi |
| 21. | *Həsənov Sübhi Rəsul o* | *2* | Göygöl r. Hacıməlik qəsəbəsi |
| 22. | *Quliyev Rahib Rasim o* | *2* | Göygöl r. Quşqara kəndi |
| 23. | *Nağıyev Rəşid Müseyib o* | *2* | Göygöl r. Balçılı kəndi |
| 24. | *Alıyev Nəsimi Abbas o* | *3* | Göygöl r. Qızılca kəndi |
| 25. | *Hüseynov Nabil Nazir o* | *1* | Göygöl r. Balçılı kəndi |
| 26. | *Məmmədov Ucar Məhəmməd o* | *3* | Göygöl r. Balçılı kəndi |
| 27. | *İsmayılov İlqar Müzəffər o* | *3* | Göygöl r Balçılı kəndi |
| 28. | *Məmmədov Rövşən Sabir o* | *2* | Göygöl r. Qırıxlı kəndi |
| 29. | *Məhərrəmov İntiqam Məmməd o* | *2* | Göygöl r. Xəqani kəndi |

| | | | |
|---|---|---|---|
| 30. | *Əhmədov Arif Atakişi o* | *2* | Göygöl r. Quşqara kəndi |
| 31. | *Zeynalov Yusif Nəsib o* | *2* | Göygöl r Balçılı kəndi |
| 32. | *Rzayev Şəfi Mustafa o* | *2* | Göygöl r Pənahlılar kəndi |
| 33. | *Heydərov Füzuli Nam az o* | *2* | Göygöl r Yeni Zod kəndi |
| 34. | *İsmayılov Elşən İsmayıl o* | *3* | Göygöl r Üçtəpə kəndi |
| 35. | *Əhmədov Mübariz Qədimalı o* | *2* | Göygöl r Yeni Zod kəndi |
| 36. | *Həsənov Murad Həsən o* | *3* | Göygöl r. Çaykənd kəndi |
| 37. | *Şəbəndəyev Yaşar Misir o* | *2* | Göygöl r Üçbulaq kəndi |
| 38. | *Məmmədov Bilman Sucəddin o* | *2* | Göygöl r Yeni Zod kəndi |
| 39. | *Məmmədov Elcan İlya o* | *2* | Göygöl r. Qarabulaq kəndi |
| 40. | *Məmmədov İlyas Abbas o* | *2* | Göygöl r Göyçəkənd kəndi |
| 41. | *Həsənov Qurban İsa o* | *2* | Göygöl r Göyçəkənd kəndi |
| 42. | *Həsənov İbrahim Cumalı o* | *2* | Göygöl r Toğana kəndi |
| 43. | *Məhərrəmov Novruz Həmid o* | *2* | Göygöl r Çaykənd kəndi |
| 44. | *İmaməliyev Araz Kərəm o* | *3* | Göygöl r Qarabulaq kəndi |
| 45. | *Məmmədov Cumşud Əmir o* | *2* | Göygöl r Üçtəpə kəndi |
| 46. | *Hüseynov Vidadi Xəlil o* | *2* | Göygöl r Aşıqlı kəndi |
| 47. | *Əmirov Şakir Yəhya o* | *2* | Göygöl r Çaykənd kəndi |
| 48. | *Həsənov Mayis Həsən o* | *3* | Göygöl r Zurnabad kəndi |
| 49. | *Hacıyev Akif Əli o* | *2* | Göygöl r Şəhriyar kəndi |
| 50. | *Nəbiyev İntizam Adil o* | *2* | Göygöl r Şəhriyar kəndi |
| 51. | *Xanməmədov Ağakişi İsmayıl o* | *2* | Göygöl r Çaykənd kəndi |
| 52. | *Əsgərov İlham Telman o* | *2* | Göygöl r Yeni Zod kəndi |
| 53. | *Orucov Emil Səyyaf o* | *2* | Göygöl r Yeni Zod kəndi |
| 54. | *Yusibov İlya İdris o* | *2* | Göygöl r Çaykənd kəndi |
| 55. | *Vəliyev Novruz Baba o* | *3* | Göygöl r Yeni Zod kəndi |
| 56. | *Pənahov Mehdi Rəşid o* | *2* | Göygöl r Çaykənd kəndi |

| | | | |
|---|---|---|---|
| 57. | *Əliyev Əlaslan Ziyəddin o* | *3* | Göygöl r Yeni Zod kəndi |
| 58. | *Məmmədov Yolçu Telman o* | *3* | Göygöl r Yeni Zod kəndi |
| 59. | *Babayev Namiq Vəli o* | *3* | Göygöl r Çaykənd kəndi |
| 60. | *Məmmədov Gündüz Muquş o* | *2* | Göygöl r Yeni Zod kəndi |
| 61. | *Zeynalov Aydın Həmid o* | *2* | Göygöl ş. M.Rəsulzadə ,60 |
| 62. | *Həsənov Daşqın Alim o* | *2* | Göygöl r Nadel kəndi |
| 63. | *Abbasov RahibYaşar o* | *2* | Göygöl r Pənahlılar kəndi |
| 64. | *Əskərov Hafiz Zeyni o* | *2* | Göygöl r Üçtəpə kəndi |
| 65. | *Yusifov Namik Nəsib o* | *2* | Göygöl ş. A.Hacıyev kuç. 2 |
| 66. | *Bayramov Vahid Yaqub o* | *2* | Göygöl r. Topalhəsənli kəndi |
| 67. | *Orucov Emil Səyyaf o* | *2* | Göygöl r Yeni Zod kəndi |
| 68. | *Mövlayev İntiqam Mirzə o* | *2* | Göygöl r Çaykənd kəndi |

**Dağlıq Qarabağ və onun ətrafındakı hadisələrlə əlaqədar GÖYGÖL (Xanlar) rayonunda minadan zərər çəkmiş şəxslərin SİYAHISI**

| Sıra № | Soyadı, adı və atasının adı | Zərərçəkmişin təvəllüdü və doğulduğu yer | Yaşadığı ünvan | Hadisənin baş verdiyi tarix və yer | Xəsarətin xüsusiyyəti |
|---|---|---|---|---|---|
| 1. | ŞƏFİYEV ZAKİR NƏBİ oğlu | 1974 Kəlbəcər Duruyer kəndi | Xanlar ray. Qarabulaq kəndi | 03.02. 1995 Ağdam rayonu Kuropatkino k. | Başın, yuxarı ətrafın travması |
| 2. | FƏRƏCOV BƏŞİR ABDULLA oğlu | 1968 Xanlar ray..Dozular kəndi | Xanlar ray. Dozular kəndi | 1993 Goranboy rayonu. Qolan dağı | Yuxarı və aşağı ətrafın qəlpə yaraları |
| 3. | QURBANOV TURAB NƏBİ oğlu | 1938 Xanlar ray..Toğana kəndi | Xanlar ray.. Toğan a kəndi | 26..01.1994 Kəlbəcər rayonu Yanşaq kəndi yaxınlığında | Başın travması, kontuziya |
| 4. | HÜSEYNOV SALƏDDİN MƏHƏMMƏD oğlu | 1944 Xanlar ray Sarısu kəndi | Xanlar ray. Sarısu kəndi | 19. 06 1992 Goranboy rayonu BAŞKƏND kəndi | 19..06.1992 Çoxsaylı sınıqlar, taravmatik şok, hadisə yerində həlak olmuşdur. |
| 5. | HÜSEYNOV ƏVƏZ SALƏDDİN oğlu | 1976 Xanlar ray. Sarısu kəndi | Xanlar ray. Çaykənd kəndi | 19. 06. 1992 Goranboy rayonu. BAŞKƏND kəndi | Baş beyinin travması, cərrahi əməliyyat. |
| 6. | ƏLİYEV MALİK PAŞA oğlu | 1981 Ermənistan Vardenis rayonu ZOD kəndi | Xanlar şəhəri,HeydərƏliyev prospekti,49 | 05.11.2000 Gəncə şəhəri 930 №li hərbi hissənin ətrafı | Aşağı ətrafın travması, baldır oynağının ankilozu. |
| 7. | HƏSƏNOV AĞAMİR EYYUB oğlu | 1960 Xanlar ray.. Toğana kəndi | Xanlar ray.. Toğana kəndi | **26. 01.1994** Kəlbəcər rayonu Yanşaq kəndi yaxınlığında | Başın travması, kontuziya |
| 8. | ABBASOV RAHİB YAŞAR oğlu | 1974 Xanlar ray.Pənahlılar | Xanlar ray. Pənahlılar kəndi | 07.09.1993 410 №li hərbi hissənin döyüş zonası | Aşağı ətrafın travması,sağ baldırın amputasiyası. |
| 9. | ŞƏBƏNDƏYEV YAŞAR MİSİR oğlu | 1971 Ermənistan Vardenis rayonu Zərkənd kəndi | Xanlar ray. Üçbulaq kəndi | **26. 10.1992** Əskəran rayonu Qaraqaya kəndi yaxınlığında | Döş qəfəsinin travması,sol qamış sinirinin zədələnməsi |
| 10. | PƏNAHOV MEHDİ | 1964 Xanlar | Xanlar ray. Çaykənd | 07.11..1993 yaşadığı evin hətətində | Bədəndə və ətraflarda 34 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | RƏŞİD oğlu | ray..Sarısu kəndi | kəndi | | ədəd qəlpə |
| 11. | ORUCOV GÜRZALI HAQVERDİ oğlu | 1964 Ermənistan Vardenis r. Əzizli k. | Xanlar ray. Çaykənd kəndi | 01. 04..1996 yaşadığı evin hətətində | Bud-çanaq oynağının trav-ması,cərrahi əməliyyat |
| 12. | ÇIRAQOV VAHİD ƏMRAH oğlu | 1945 Kəlbəcər Çaykənd kəndi | Xanlar ray. Çaykənd kəndi | 25. 12. 1996 Goranboy rayonu. BAŞKƏND kəndi | Sol ağ ciyərin qəlpə yaralaı, yuxarı ətrafın travması, ağ ciyərin cərrahi əməliyyatı |
| 13. | MURADOV CƏMİL MÖHÜBBƏT oğlu | 1965 Kəlbəcər Yanşaq kəndi | Xanlar ray. Çaykənd kəndi | 1994-cü il Murovdağ aşırımı | Baş beyinin travması, kontuziya |
| 14. | QASIMOV ADİL ALI oğlu | 1988 Xanlar ray..Hacıməlik qəsəbəsi | Xanlar ray Hacıməlik qəsəbəsi | 03.12.1997 Xanlar ray.. Şıx düzü,hərbi paliqon | 03.12.1997 Çoxsaylı sınıq-lar, taravmatik şok, hadisə yerində həlak olmuşdur |
| 15. | OCAQVERDİYEV MÜZADİL RAFİZ oğlu | 1981 Xanlar ray..Toğana kəndi | Xanlar ray Hacıməlik qəsəbəsi | 03.12.1997 Xanlar ray.. Şıx düzü,hərbi paliqon | 03.12.1997 Çoxsaylı sınıq-lar, taravmatik şok, hadisə yerində həlak olmuşdur |
| 16. | HƏSƏNOV DAŞQIN ALİM oğlu | 1973 Xanlar ray..Nadel kəndi | Xanlar ray. Nadel kəndi | 04.03.1992 Füzuli ray.. Qarğabazar kəndi | Baş beyinin travması, kontuziya |
| 17. | ƏSKƏROV HAFİZ ZEYNİ oğli | 1953 Ermənistan Zəngibasar r. Qaraqışlaq k. | Xanlar ray. Üçtəpə kəndi | 16.09.1992 Ağdərə ray. Drambon kəndi | Baş beyinin travması, kontuziya |
| 18. | HÜSEYNOV NATİQ VƏLYƏDDİN oğlu | 1983.. XANLAR ş | XANLAR ş. M.Rəsulzadə 109 | 16.08.1996 XANLAR şəhəri hərbi şəhərciyin ərazisi | Yuxarı və aşağı ətrafın travması |
| 19. | **BAYRAMOV TEYMUR EYYUB oğlu** | 1974 XANLAR ş | XANLAR ş Aşıq Şəmşir 33 B | 14.01.1994 Ağdərə rayonu | Sağ qolun travması |
| 20. | **QASIMOV FİRUZ MƏSİM oğlu** | 1974 Ermənistan Vardenis r. Sovetkənd k | XANLAR є H .Əliyev pr. 141 | 09.08.1993 Füzuli rayonu | Başın və sifətin travması , cərrahi əməliyyat |
| 21. | **XƏLİLOV NƏSRƏDDİN ŞƏMİL oğlu** | 1936 Kəlbəcər rayonu Qamışlı kəndi | Xanlar ray. Şəhriyar kəndi | 04.01.1994-cü il Murovdağ aşırımı | Baş beyinin travması, kontuziya |

| | | | | | |
|---|---|---|---|---|---|
| 22. | CƏFƏROV RÖVŞƏN YUNİS oğlu | 1967 Daşkəsən r. Qıyıxlı kəndi | Xanlar ray.. Üçtəpə kəndi | 22..11..1992 Ağdərə ray. kəndi | Baş beyinin travması, kontuziya |
| 23. | HACIYEV FİYAT ÇAPAY oğlu | 1973 Ermənistan Vardenis r. Zod k | Xanlar şəhəri Ordubadi k. 53 | 19.01.1994 Füzuli – Beyləqan hərbi zonası | Baş beyinin travması, kontuziya |
| 24. | QULİYEV TARİYEL MÖVSÜM oğlu | 1974 Ermənistan Vardenis r. Zod k | XANLAR ş. S. Hacıyev k. 60 | 21.12.1993 Ağdam –Beyləqan hərbi zonası | Sağ ayaq və əlin travması |
| 25. | ƏLİYEV AQŞİN BAHADUR oğlu | 1987 Ermənistan Vardenis Böyük Məzrə k | Xanlar ray. Yeni Zod kəndi | 15.03.1999 Xanlar ray. Yeni Zod kəndi | Sağ əlin amputasiyası |
| 26. | ƏLİYEV İQBAL QƏLƏNDƏR oğlu | 1962 Xanlar ray Toğana kəndi | XANLAR ş Hərbi şəhərcik | 21..11..1992 Ağdərə ray. Qızılqaya kəndi | Ətrafların qəlpə yaraları |
| 27. | ORUCOV EMİN SƏYYAF oğlu | 1977 Ermənistan Vardenis Subatan kəndi | Xanlar ray. Yeni Zod kəndi | 12.07.1998 Füzuli rayonu Əlixanlı kəndi | Sol ayağın travması |
| 28. | MƏMMƏDOV BİLMAN SUCƏDDİN oğlu | 1971 Ermənistan Vardenis r. ZOD k | Xanlar ray Yeni Zod kəndi | 15..10..1992 Ağdərə rayonu. | Döşün və qarının qəlpə yaraları |
| 29. | QOCAYEV FƏXRƏDDİN NURƏDDİN oğlu | 1953 Xanlar ray Topalhəsənli kəndi | Xanlar rayonu Topalhəsənli kəndi | 22..11..1992 Ağdərə ray. Aqromer -4 kəndi | Sol baldırın qəlpə yaraları |
| 30. | RZAYEV ŞƏFİ MUSTAFA oğlu | 1973 Xanlar ray. Pənahlılar kəndi | Xanlar ray. Pənahlılar kəndi | 1992 Ağdərə rayonu | Sarğı nahiyyəsinin qəlpə yaraları |
| 31. | NƏBİYEV İNTİZAM ADİL oğlu | 1961 Ermənistan İCEVAN r. S.Vurğun kəndi | Xanlar ray. Şəhriyar kəndi | 13.06.1994 Füzuli rayonu Veysəlli kəndi | Ayaq və dabanın travması |
| 32 | YUSİFOV NAMİK NƏSİB oğlu | 1970 Ermənistan Vedi rayonu Xalisa kəndi | XANLAR ş A.Hacıyev k.3 | 05.09. 1992 Ağdərə rayonu | Sol yuxarı ətrafın travması, əl funksiyasınım pozulması |
| 33. | YUSİBOV İLYA İDRİS oğlu | 1967 Ermənistan Vedi rayonu Xalisa kəndi | XANLAR ş Qarabağ k.23 | XX.10. 1993 Goranboy rayonu. BAŞKƏND kəndi | Sağ aşağı ətrafın travması, ankilozu |
| 34. | MƏMMƏDOV FAİQ MÜRSƏL | 1966 Xanlar rayonu. | Xanlar rayonu. Üçtəpə kəndi | 22..11..1992 Ağdərə ray | Ətrafların qəlpə yaraları |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ***oğlu*** | *Üçtəpə kəndi* | | *Aqromer -4 kəndi* | |
| ***35.*** | ***ORUCOV MAHİR ORUC oğlu*** | *1966 Xanlar rayonu Salahlı kəndi* | *Gəncə şəhəri, Puşkin kuç.121* | *22..11..1992 Ağdərə ray. Aqromer -4 kəndi* | *Kurək-bel nahiyəsinin qəlpə yaraları, L-5, S-1 fəqərələrarası yırtıq* |
| ***36.*** | ***BAYRAMOV VAHİD YAQUB oğlu*** | *1956 Xanlar ray. Topalhəsənli kəndi* | *Xanlar rayonu Topalhəsənli kəndi* | *10..05..1992 Ağdərə rayonu. Cıldıran ətrafında* | *Sol aşağı ətrafın amputasiyası* |
| ***37.*** | ***QURBANOV QABİL TARİX oğlu*** | *1982 .XANLAR şəhəri* | *XANLAR şəh A..Hacıyev k. 103* | *11.06.1999 XANLAR şəhəri hərbi şəhərciyin ərazisi* | *Sol aşağı ətrafın travması* |
| ***38.*** | ***İSMAYILOV CEYHUN GÜRZALI oğlu*** | *1971 XANLAR şəhəri* | *XANLAR şəh M.Rəsulzadə 127* | *20.06.1992 XANLAR şəhəri hərbi şəhərciyin ərazisi* | *Sağ ayağın travması, keçirilmiş cərrahi əməliyyat* |
| ***39.*** | ***ƏLİYEVA DİLARƏ İMAMQULU qızı*** | *1936 Xanlar ray. Kürdallar kəndi* | *XANLAR A..Hacıyev küç.84* | *13.09.2002 Xanlar şəhəri hərbi şəhərciyin ərazisi* | *aşağı ətrafın tamputasiyası* |
| ***40.*** | ***ƏSKƏROV İMRAN QƏLƏNDƏR oğlu*** | *1965 Xanlar ray Mollacəlilli kəndi* | *Xanlar ray Mollacəlilli kəndi* | *29.06.2004 Murovdağ örüş yeri* | *29.06.2004 Çoxsaylı sınıq-lar, taravmatik şok, hadisə yerində həlak olmuşdur.* |